AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ

ISSN 2218-4783

ELMİ ƏSƏRLƏR

İctimai və humanitar elmlər seriyası

№ 1

Naxçıvan, “Tusi” – 2021, Cild 17

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN ELMİ ƏSƏRLƏRİ
SCIENTIFIC WORKS OF AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES NAKHCHIVAN BRANCH OFFICE
НАУЧНЫЕ ТРУДЫ НАХЧЫВАНСКОГО ОТДЕЛЕНИЯ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК АЗЕРБАЙДЖАНА

2005-ci ildə təsis edilmişdir • Established in 2005 • Основан в 2005 году

Jurnal AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin rəhbərliyi ilə nəşr olunur
The journal is published under auspices of the Presidium of ANAS Nakhchivan Branch Office
Журнал издается под руководством Президиума Нахчыванского Отделения НАНА

REDAKSİYA HEYƏTİ

Baş redaktor
İ.M.Hacıyev

İ.Ə.Həbibbəyli, Y.M.Mahmudov, N.M.Vəlixanlı, Ə.B.Ərcilasun, M.Z.Nağısoylu, M.K.İmanov, Ə.Ə.Salamzadə, C.Ə.Qiyasi, İ.E.Atnur, F.Y.Səfərli (*baş redaktorun müavini*), Ə.X.Nuriyev, Ə.A.Quliyev (*baş redaktorun müavini*), V.B.Baxşəliyev (*məsul katib*), Z.Ə.Şahverdiyev, Ş.T.Bünyadova, N.H.Əhmədov, F.Y.Xəlilov, R.Z.Rəhimli

EDITORIAL BOARD

Chief editor
I.M.Hajiyev

I.A.Habibbeyli, Y.M.Mahmudov, N.M.Valikhanli, A.B.Argilasun, M.Z.Nagisoylu, M.K.Imanov, A.A.Salamzadeh, G.A.Giyasi, I.E.Atnur, F.Y.Safarli (*assistant editor*), A.Kh.Nuriyev, A.A.Quliyev (*assistant editor*), V.B.Bakhshaliyev (*executive secretary*), Z.A.Shahverdiyev, Sh.T.Bunyadova, N.H.Ahmadov, F.Y.Khalilov, R.Z.Rahimli

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

Главный редактор
И.М.Гаджиев

И.А.Габиббейли, Я.М.Махмудов, Н.М.Велиханлы, А.Б.Арджиласун, М.З.Нагисойлу, М.К.Иманов, Э.А.Саламзаде, Дж.А.Гияси, И.Э.Атнур, Ф.Я.Сафарли (*зам. главного редактора*), А.Х.Нуриев, А.А.Гулиев (*зам. главного редактора*), В.Б.Бахшалиев (*ответственный секретарь*), З.А.Шахвердиев, Ш.Т.Бунядова, Н.Х.Ахмедов, Ф.Ю.Халилов, Р.З.Рагимли

Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35, tel.: 544-69-84
Address: Nakhchivan, Haydar Aliyev av., 35, phone: 544-69-84
Адрес: Нахчыван, пр. Гейдар Алиева, 35, тел.: 544-69-84

© “Tusi” nəşriyyatı, 2021

MÜNDƏRİCAT

TARİX VƏ SİYASƏT

İsmayıl Hacıyev. Naxçıvan əyaləti və Ordubad dairəsi haqqında dəyərli mənbə.....9
Fəxrəddin Səfərli. Naxçıvan şəhərindəki "Ağamalı kəhrizi" haqqında qeydlər.....16
Yaşar Rəhimov. 1901-1907-ci illərdə Naxçıvan duz "sənayesi" (rus mənbələri əsasında).....21
Musa Quliyev. 1832-ci il kameral siyahısı Kəngərli tayfası haqqında.....27
Emin Şıxəliyev. Böyük şahmat taxtasında cənubi Qafqaz və geosiyasi həmlələr.....32
Vüqar Rəhimzadə. Heydər Əliyev və azərbaycançılıq ideologiyası.....41
İlhami Əliyev. Rauf Məmmədovun elmi tədqiqatlarında Naxçıvan tarixinin araşdırılması məsələləri.....46
Nurlana Əliyeva. Ordubad şəhərinin tarixi coğrafiyası (1828-1924).....51

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

Vəli Baxşəliyev. Osmantəpə yaşayış yeri daş dövrünün yeni abidəsidir.....57
Toğrul Xəlilov. Naxçıvanda dulusçuluq sənətinin tarixi və formalaşması prosesi.....70
Turan Həşimova. Qızqala nekropolunun kurqanları.....76
Gökçen Acar. Ovçulartəpə yaşayış yerinin son eneolit keramikası.....86
Elmar Baxşəliyev. Bülövqaya yaşayış yerinin keramikası.....94
Asəf Orucov. Milli çörəyimiz – lavaş.....102
Aytəkin Qəhrəmanova. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası kənd qadınlarının ictimai fəallığının ailə məişətinə təsiri.....106
Səbuhi Həsənov. Neolit inqilabının dəfnetmə adətlərinə təsiri (Naxçıvan materialları əsasında).....115

AZƏRBAYCAN DİLİ

Əbülfəz Quliyev. Hinduşah Naxçıvaninin "Sihah ül-əcəm" əsərinin leksikasının dialekt və şivələrimizdə izləri.....121
Sahab Əliyeva. Naxçıvan elmi mühitində Cənubi Azərbaycan istiqamətində ümumtürkoloji müstəvidə aparılan linqvistik tədqiqatlar.....128
Firudin Rzayev. Qıpçaqlarda qədim türk mifinin Naxçıvan ərazisi toponimlərində izləri...137
Nuray Əliyeva. Naxçıvan dialekt və şivələrində məişət leksikası.....145
Zülfiyyə İsmayıl. Naxçıvan dialekt və şivələrində işlənən qoşa sözlərin derivatoloji prosesə təsiri.....152
Kübra Vəliyeva. Razi Astrabadinin "Şərhu-l-radi alə əl-kafiyə fi ilmin nəhv va irab" əsəri.....158

ƏDƏBİYYAT VƏ FOLKLOR

Fərman Xəlilov. “Naxçıvan şuralaşdı” şeirinin müəllifi kimdir?.....164
Ramiz Qasımov. Cəlil Məmmədquluzadənin dramlarında monoloqların bədii-struktural mahiyyəti.....170
Elxan Məmmədov. Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafında Eynəli bəy Sultanov faktoru.....177
Səbuhi İbrahimov. Hacı Molla Məhəmməd Naxçıvaninin “Kəşkülün-nur” əsərinin quruluşu və paleoqrafik xüsusiyyətləri.....184
Aygün Orucova. Müstəqillik dövrü Naxçıvan ədəbi mühitində ədəbi tənqid.....190
Aytən Cəfərova. Naxçıvan folklorunda məişət-mərasim rəqsləri.....199
Təranə Qəbulova. Naxçıvan aşıq yaradıcılığının digər aşıq mühitləri ilə əlaqəsi.....208
Çinarə Rzayeva. Xalçaçılıq sənətinin Naxçıvan folklor mətnlərində ifadəsi.....214

İNCƏSƏNƏT

Ələkbər Qasımov. Naxçıvan Dövlət Musiqili Dram Teatrında yeni dövr tamaşaları və musiqi (1990-2020).....220
Əli Qəhrəmanov. Səməd Vurğunun tarixi vətənpərvərlik dramları Naxçıvan səhnəsində....231
Qadir Əliyev. Səlcuqlar dövrü Naxçıvan türbələrinin memarlıq dekorunda həndəsi ornamentlərin quruluşu sonsuz fundamental oblastda diskret qrupların müstəvi hərə-kətinin nəticəsi kimi.....238
Fizzə Quliyeva. Milli səhnəqrafiyanın peşəkar təşəkkülündə Məmməd Qasımov yaradıcılığının rolu.....247

İQTİSADİYYAT

Eltun İbrahimov. İcbari tibbi sığorta və Naxçıvan Muxtar Respublikasında tətbiqi imkanları.....252
Kazım Nağıyev. Naxçıvan Muxtar Respublikasında şəhər və kənd əhalisinin sayının dəyişilməsi meylləri.....257

YUBİLEYLƏR

Qüdrət İsmayılzadə. Azərbaycan tarixşünaslığına yeni töhfə.....263
Musa Quliyev. Naxçıvanşünaslıq elmi xəzinəsində yeni, orijinal bir monoqrafiya: Naxçıvan Azərbaycanın dövlətçilik tarixində.....274

CONTENTS

HISTORY AND POLITICS

Ismayil Hajiyev. A valuable source about the Nakhchivan province and the Ordubad district….....9
Fakhraddin Safarli. Notes about "Agamali's kahriz" in the city of Nakhchivan….....16
Yashar Rahimov. Salt industry of Nakhchivan in 1901-1907 (based on Russian sources).....21
Musa Guliyev. Cameral list of 1832 about Kengerly….....27
Emin Shikhaliyev. South Caucasus on the great chessboard and geopolitical attacks…....32
Vugar Rahimzadeh. Heydar Aliyev and the ideology of Azerbaijanism….....41
Ilhami Aliyev. Issues of studying the history of Nakhchivan in scientific research of Rauf Mamedov….....46
Nurlana Aliyeva. Historical geography of Ordubad city (1828-1924)….....51

ARCHAEOLOGY AND ETHNOGRAPHY

Veli Bakhshaliyev. Osman tepe is a new monument of the Stone Age.....57
Togrul Khalilov. History and formation process of pottery in Nakhchivan….....70
Turan Hashimova. Kurgans of Qizqala necropolis….....76
Gekchen Ajar. Eneolytic ceramics of Ovçular tepe settlement….....86
Elmar Bakhshaliev. Ceramics of Bulovkaya site.....94
Asaf Orujov. Our national bread – lavash.....102
Aytakin Gahramanova. The impact of rural women's participation in social activities on their family life in Nakhchivan Autonomous Republic in the years of independence…....106
Sabuhi Hasanov. The effect of the Neolith revolution on funeral customs (based on Nakhchivan materials).....115

AZERBAIJAN LANGUAGE

Abulfaz Guliyev. Traces of vocabulary of the Hindushah Nakhchivani's dictionary "Sihah ul-Ajam" in our local dialects….....121
Sahab Aliyeva. Linguistic research on Southern Azerbaijan carried out in the scientific environment of Nakhchivan in the general turkological plane….....128
Firudin Rzayev. Traces of the bori-kurt ancient Kypchak myth in the toponyms of the Nakhchivan territory….....137
Nuray Aliyeva. Everyday vocabulary in Nakhchivan dialects and accents….....145
Zulfiya Ismayil. Influence of paired words used in Nakhchivan dialects and accents on the derivatological process.....152
Kubra Valiyeva. The work "Sharhu-l-Radi ala al-Kafia fi ilmin nahv va irab" of Razi Astrabadi….....158

LITERATURE AND FOLKLORE

Farman Khalilov. Who is the author of the poem "Nakhchivan became soviet"?.....164
Ramiz Gasimov. The artistic and structural essence of monologues in Jalil Mammadguluzade's drama.....170
Elkhan Mammadov. Eynali bey Sultanov's factor in the development of Azerbaijani-Russian literary relations.....177
Sabuhi Ibrahimov. Structure and paleographical features of Haji Molla Mohammad Nakhchivani's work "Kashkulun-nur".....184
Aygun Orujova. Literary criticism in the Nakhchivan literary environment of the independence period.....190
Ayten Jafarova. Everyday and ceremonial dances in Nakhchivan folklore.....199
Tarane Gabulova. The relationship of Nakhchivan ashug creative activities with other ashug environments.....208
Chinara Rzayeva. Carpet weaving craft in Nakhchivan folklore texts.....214

ART

Alakbar Gasimov. Performances and music of the new period in the Nakhchivan State Music and Drama Theater.....220
Ali Gahramanov. Samad Vurgun's historical and patriotic dramas on the Nakhchivan stage.....231
Gadir Aliyev. The structure of geometric ornaments in the architectural decoration of the Nakhchivan mausoleums of the Seljuk period as a result of the flat movement of discrete groups along the infinite fundamental area.....238
Fizza Guliyeva. The role of Mamed Gasimov's creativity in the professional development of national scenography….....247

ECONOMICS

Eltun Ibrahimov. Mandatory health insurance and possibilities of application in Nakhchivan Autonomous Republic….....252
Kazim Nagiyev. Trends in the number of the urban and rural population in the Nakhchivan Autonomous Republic.....257

ANNIVERSARIES

Gudrat Ismayilzadeh. A new contribution to the historiography of Azerbaijan.....263
Musa Guliyev. New original monograph in the scientific treasury of Nakhchivan studies: Nakhchivan in the Azerbaijan's statehood history.....274

СОДЕРЖАНИЕ

ИСТОРИЯ И ПОЛИТИКА

Исмаил Гаджиев. Ценный источник о Нахчыванской провинции и Ордубадском округе.....9
Фахреддин Сафарли. Заметки о «Кяризе Агамали» в городе Нахчыван.....16
Яшар Рагимов. Соляная промышленность Нахчывана в 1901-1907 гг. (на основе русских источников).....21
Муса Гулиев. Камеральный список 1832-го года о роде Кенгерли.....27
Эмин Шихалиев. Южный Кавказ на великой шахматной доске и геополитические атаки.....32
Вугар Рахимзаде. Гейдар Алиев и идеология азербайджанства.....41
Ильхами Алиев. Вопросы изучения истории Нахчывана в научных исследованиях Рауфа Мамедова.....46
Нурлана Алиева. Историческая география города Ордубада (1828-1924).....51

АРХЕОЛОГИЯ

Вели Бахшалиев. Поселение Осман тепе – новый памятник эпохи каменного века.....57
Тогрул Халилов. История и процесс формирования гончарного дела в Нахчыване.....70
Туран Гашимова. Курганы некрополя Гызгала.....76
Гекчен Аджар. Энеолитическая керамика поселения Овчулартепе.....86
Эльмар Бахшалиев. Керамика поселения Бюловкая.....94
Асеф Оруджов. Наш национальный хлеб – лаваш.....102
Айтекин Гахраманова. Влияние общественной активности сельских женщин Нахчыванской Автономной Республики на семейный быт в годы независимости.....106
Сабухи Гасанов. Влияние неолитической революции на похоронные обряды (на основе материалов Нахчывана).....115

АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Абульфаз Гулиев. Следы лексики из словаря Индушаха Нахчывани «Сихах уль-Аджам»в наших диалектах и говорах.....121
Сахаб Алиева. Лингвистические исследования по Южному Азербайджану, проводимые в научной среде Нахчывана в общетюркологической плоскости.....128
Фирудин Рзаев. Следы древнетюркского кыпчакского мифа в топонимах нахчыванской территории.....137
Нурай Алиева. Бытовая лексика в нахчыванских диалектах и говорах.....145
Зульфия Исмаил. Влияние парных слов, употребляющихся в нахчыванских диалектах и говорах, на дериватологический процесс.....152
Кубра Валиева. Произведение Рази Астрабади «Шарху-ль-Ради ала аль-Кафия фи ильмин нахв ва ираб».....158

ЛИТЕРАТУРА И ФОЛЬКЛОР

Фарман Халилов. Кто автор стихотворения «Нахчыван стал советским»?.....164
Рамиз Гасымов. Художественная и структурная сущность монологов в драмах Джалила Мамедгулузаде.....170
Эльхан Мамедов. Фактор Эйнали бека Султанова в развитии азербайджано-русских литературных связей.....177
Сабухи Ибрагимов. Структура и палеографические особенности работы Хаджи Моллы Мохаммада Нахчывани “Кашкулун-нур”.....184
Айгюн Оруджева. Литературная критика в литературной среде Нахчывана периода независимости.....190
Айтен Джафарова. Бытовые и церемониальные танцы в нахчыванском фольклоре....199
Таранэ Габулова. Связь творчества ашугов Нахчывана с другими ашугскими средами.....208
Чинара Рзаева. Ковроткаческое ремесло в нахчыванских фольклорных текстах.....214

ИСКУССТВО

Алекбер Гасымов. Спектакли нового периода и музыка в Нахчыванском Государственном Музыкально-драматическом Театре.....220
Али Гахраманов. Историко-патриотические драмы Самеда Вургуна на сцене Нахчывана.....231
Гадир Алиев. Структура геометрических орнаментов в архитектурном украшении нахчыванских мавзолеев сельджукского периода в результате плоского движения дискретных групп по бесконечной фундаментальной области.....238
Физза Гулиева. Роль творчества Мамеда Гасымова в профессиональном становлении национальной сценографии.....247

ЭКОНОМИКА

Элтун Ибрагимов. Обязательное медицинское страхование и возможности его применения в Нахчыванской Автономной Республике.....252
Казим Нагиев. Тенденции изменения численности городского и сельского населения в Нахчыванской Автономной Республике.....257

ЮБИЛЕИ

Гудрат Исмаилзаде. Новый вклад в историографию Азербайджана.....263
Муса Гулиев. Новая оригинальная монография в научной сокровищнице нахчывановедения: Нахчыван в истории государственности Азербайджана.....274

TARİX VƏ SİYASƏT

UOT 94 (479.24)

İSMAYIL HACIYEV

NAXÇIVAN ƏYALƏTİ VƏ ORDUBAD DAİRƏSİ HAQQINDA DƏYƏRLİ MƏNBƏ

Məqalədə 1831, 1832-ci illərdə siyahıya alınmış Naxçıvan əyaləti və Ordubad dairəsi haqqında verilmiş məlumatlar ümumiləşdirilmiş, müqayisəli təhlillər aparılmış, həmin kameral təsvirlərdə həm Naxçıvanın, həm də Ordubadın tərkibində olan şəhər və mahalların göstəriciləri tədqiqata cəlb edilmişdir. Məlumdur ki, çar Rusiyası tərəfindən həmin ərazilər tutulduqdan sonra əhali siyahıya alınmış və vergi verən əhali dəqiqləşdirilmişdir. Bunun üçün həmin siyahıyaalmada demoqrafik göstəricilər, ailələr və onların tərkibi, qohumluq əlaqələri, vergiyə cəlb olunmalı insanlar haqqında dolğun məlumatlar verilmişdir. Bütün bunlarla yanaşı, şəhər və mahallar, onların ərazisi, sərhədləri, coğrafi mövqeyi, iqlimi, suları, ərazidə olan tikililər, tayfalar, yerli və gəlmə adamların sayı, istehsal xarakterli müəssisələr, sənətkarlıq sahələri, şəhər məhəllələri haqqında olan məlumatlar da tədqiqata cəlb edilmiş, həmin ərazilər haqqında verilmiş məlumatlardan bəhs edilmişdir.

Açar sözlər: *Naxçıvan əyaləti, Ordubad dairəsi, tayfalar, vergilər, məhəllələr, ailələr, siyahıyaalma.*

Orta əsrlərdən başlayaraq müxtəlif dövlətlər ilhaq və işğal etdikləri ərazilərdə siyahıyaalmalar həyata keçirirdi. Belə siyahıyaalmalar vergi obyektlərinin dəqiqləşdirilməsi üçün tətbiq edilirdi. Çünki istənilən dövlət mövcudluğu üçün həm öz ərazisindən, həm də tutduğu ərazilərdən vergi yığırdı, yəni əhalini vergiyə cəlb edirdi. Vergilər təkcə ərazidə yaşayan insanlardan deyil, həm də onlara məxsus olan daşınan və daşınmaz əmlaklardan alınırdı. Dövlətlər maraqlı idi ki, bütün bunların qeydiyyatı dəqiq aparılsın və heç kim, heç nə vergidən kənarda qalmasın. Kimsə bu sahədə mövcud qaydanı pozardısa, onu çox ciddi cəza gözləyirdi: onu şallaq cəzası və 100 rubl cərimə edirdilər.

Tədqiqatçıların fikrincə, ölkəmizdə bu cür sənədlərin tərtibi – siyahıyaalmalar Hülakü hökmdarı Qazan xanın vaxtından başlayır. Qazan xanın həyata keçirdiyi islahatlar içərisində vergi yığmaq üçün sənədlərin tərtib edilməsi də mühüm yer tuturdu. Sonrakı dövrlərdə bir çox dövlətlər belə demək mümkünsə, bu təcrübədən istifadə etmiş və faydasını da görmüşlər.

Belə siyahıyaalmalara, sənədlərin tərtibinə Osmanlı dövlətinin fəaliyyətində daha çox rast gəlinir. Məlumdur ki, Osmanlı dövləti 1588-1603 və 1724-1735-ci illərdə Azərbaycanı tutmuş və bu zaman vergi dəftərləri hazırlatdırmışdır. Osmanlılar buna təhrir dəftərləri deyirdi. Vergilər həmin təhrir dəftəri əsasında yığılırdı. Təhrir dəftərləri "müfəssəl" və "icmal" dəftərləri olaraq hazırlanırdı [16, s. 8-9]. "İcmal dəftər"lərdə əhalinin nə qədər vergi ödədiyi göstərildiyi halda, "müfəssəl dəftər"də sakinlərin hər birinin adı da yazılırdı. Bununla osmanlı məmuru bilirdi ki, yaşayış məskəninin vergi subyekti kimlərdir. Bu forma, işi xeyli asanlaşdırırdı. Osmanlı dövləti 1590-1593-cü və 1727-1728-ci illərdə Azərbaycanda bu cür sənədlər tərtib etmişdir.

Vergi verənlər iki qrupa bölünürdü. Osmanlılar onları bennak və subay kimi qeydə alırdılar. Müəyyən ərazisinə və mal varlığına görə adamlara bennak deyirdilər, indiki terminlə onları ortabab kəndli adlandırmaq olar. Bəzi tarixçilərimiz "subay" sözünü səhv şərh edirlər. Elə bilirlər ki "evlənməmiş adam" mənasındadır. Əslində bu söz "süvari" sözünün osmanlılar tərəfindən yazılmış variantıdır. Belə ki, bennak 45-50 yaşında bir adamdır və müharibəyə gedə bilməz, amma subay süvari qoşunda xidmət keçə, müharibədə iştirak edə bilər.

Tədqiqatçı alimlərimizdən Z.Bünyadov, Ş.Mustafayev, H.Məmmədov (Qaramanlı) tərəfindən "İrəvan əyalətinin müfəssəl dəftəri" (B, 1996), "Naxçıvan sancağının müfəssəl dəftəri" (B, 1997, 2001), "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" (B, 2000), "Tiflis əyalətinin müfəssəl dəftəri (Borçalı və Qazax)" (B, 2001), "Lori əyalətinin icmal dəftəri" (B, 2004) və başqa bu kimi vergi dəftərləri tərcümə edilərək qeyd və şərhlərlə nəşr edilmişdir.

Naxçıvan xanlığı 1827-ci ilin iyununda çar Rusiyası tərəfindən işğal edildikdən sonra Türkmənçay müqaviləsinə (1828, 10 fevral) görə xanlığın ərazisi Rusiya dövlətinin tərkibinə qatıldı. Azərbaycan ərazisi Rusiya imperiyası tərəfindən işğal olunandan sonra rus məmurları da bu cür vergi sənədləri tərtib etməyə başladılar. Bu vergi sənədləri Kameral təsvir adlandırılırdı. Rusiya imperiyasında kameral təsvir adı ilə adlandırılan sənədlərin hazırlanması idarəetmə ehtiyaclarından və iqtisadi səbəblərdən meydana gəlmişdir.

Naxçıvan və İrəvan ərazisinin ilk mükəmməl kameral təsviri 1831-ci ildə fransız əsilli rus məmuru İvan Şopen tərəfindən tərtib olunub. Amma ondan qabaq bu iş general P.Merlini adlı bir nəfərə tapşırılmışdı və sonuncu da 1828-ci ildə kameral siyahı tərtib etmişdi. General P.Merlini Naxçıvan xanlığının kameral təsvirini hazır edir, amma əvvəlki kameral təsvir ilə generalın hazırladığı təsviri müqayisə edəndə qraf Paskeviç görür ki, Merlinin tərtib etdiyi vergi sənədlərində rəqəmlər azdır. Paskeviç hazırlanmış sənəddən narazı qalır. Ona görə də onu qəbul etmir. Polkovnik Vozjiniski adlı birini çağırır və ona Naxçıvan ərazisinin kameral təsvirini tərtib etməyi tapşırır. Vozjiniskinin tərtib etdiyi sənəd də Paskeviçi qane etmir, onun təqdim etdiyi vergi rəqəmləri də az olur. Üçüncü dəfə Petrikov adlı bir məmuru çağırır. Onun işini də bəyənmədikdən sonra Naxçıvan xanı Ehsan xana tapşırıq verir ki, bu əraziləri yaxşı tanıyırsan, Naxçıvanın kameral təsvirini tərtib et. Ehsan xan bu işi yerinə yetirsə də, onun hazırladığı sənəd də qəbul olunmur. Xan bu məsələdə maraqlı idi, obyektiv ola bilməzdi. Və nəhayət, qraf Paskeviç Sankt-Peterburqdan yeni məmur dəvət edir. Bu məmur – İvan Şopen 1829-cu ildə Qafqaza gəlir. Naxçıvan və İrəvan üzrə bütün şəhər və kəndlərin kameral siyahısını tərtib etmək işi İ.Şopenə tapşırılır. Ona tapşırılan işi 1832-ci ilin may ayında Şopen başa çatdırır. O, 3 il 1 ay müddətində bütün kəndləri qarış-qarış gəzərək bu işi yerinə yetirir. 1831-ci ilin sənədlərində elə kəndlər göstərilib ki, orada 5 ailə, 7 ailə, yaxud 10 ailə yaşayırdı. O vaxt əhali az idi. Naxçıvan şəhərində 5470 nəfər [1, v. 147], Naxçıvan əyalətində 25 minə yaxın türk (azərbaycanlı – İ.H.), 5 min nəfər erməni qeydə alınmışdı. İrandan isə buraya xeyli sayda erməni köçürülmüş və onların sayı 16 min nəfərə çatdırılmışdı. Sonrakı illərdə bu daha da artmışdı. İ.Şopen öz dəstəsi ilə hər bir şəhər və kəndi qarış-qarış gəzmiş, kəndxudalardan və kəndin ağsaqqallarından, bir sıra ailələrin özlərindən məlumatlar toplamışlar. Onun Rıjkov, Novikov, Zolotnitski və başqalarından ibarət katiblər komandası siyahıyaalmanı aparır, onları sənədləşdirir və Şopenə verirdilər. Şopen isə bu sənədlərə zəruri düzəlişlər edir və onları öz imzası ilə təsdiq edirdi.

Kameral siyahılar 10 ildən bir təzələnirdi. Ölən adamları siyahıdan çıxarır, təzə doğulanları daxil edirdilər, başqa yerlərdən, şəhər və kəndlərdən köçüb gələnləri siyahıya əlavə edirdilər. Amma 10 il məsələsinə tam əməl olunmurdu. Məsələn, 1831-ci ildən sonra ikinci siyahıyaalma 1842-ci ildə, üçüncü 1852-ci ildə, dördüncü 1859-cu ildə, beşinci 1873-cü ildə və nəhayət, sonuncu 1886-cı ildə keçirilib. 1886-cı ildən sonra kameral siyahı tərtib olunmayıb. Görünür, artıq statistikanı hesablamanın başqa üsuluna keçmişlər, yaxud əhali xeyli çoxaldığına görə çətinlik yaranıb. Çar Rusiyası ərazisində ilk Ümumrusiya Siyahıyaalması 1897-ci ildə keçirilib. Artıq orada adamların adı göstərilmirdi, indiki kimi yalnız sayı göstərilirdi.

Naxçıvan xanlığında 10 mahal, Naxçıvan və Ordubaddan ibarət 2 şəhər var idi. Naxçıvan əyaləti 12 kameral təsvirdən ibarətdir.

Ümumiyyətlə, kameral təsvirlər Rusiya İmperiyasında, o cümlədən tarixi Azərbaycan torpaqlarında vergiyə cəlb edilmə halı və təsərrüfat obyektləri barədə ilkin statistik məlumatı təmin edəcək rəsmi dövlət sənədləri rolunu oynayırdı. Onların tərtibi qaydaları hər dəfə imperatorun fərmanı və hökumətin qərarı ilə müəyyən edilirdi.

Sovet dövründə siyahıyaalma sənədlərinin nəşrinə, demək olar ki, əhəmiyyət verilməmişdir. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra bu sahəyə də diqqət artırılmışdır. Tarixçi alimlərdən T.Mustafazadə, Z.Hacıyeva Quba əyaləti və Qarabağ əyalətinin kameral təsvirlərini Azərbaycan dilinə çevirərək nəşr etdirmişlər. Ölkəmizdə ciddi və məhsuldar tədqiqatçı kimi tanınan Atatürk Mərkəzinin şöbə müdiri, fəlsəfə doktoru Nazir Əhmədli son illərdə bu sahədə fəal və fədakar əməyi ilə seçilən alimlərdən biridir. O, Azərbaycan və Cənubi Qafqazın müxtəlif tarixi bölgələri, o cümlədən XIX əsrdə rus məmurları tərəfindən tərtib edilmiş Qazax nahiyəsinin, Göyçə mahalının, Dərələyəz mahalının, İrəvan əyalətinin, İrəvan şəhərinin, Vedibasar və Şərur mahallarının kameral təsvirlərini elmi dövriyyəyə daxil etmişdir. Akademik Şahin Mustafayevin qeyd etdiyi kimi, "Bu növ arxiv sənədləri bir neçə səbəbdən son dərəcə önəmli tarixi qaynaq hesab edilir. İlk növbədə ona görə ki, onların Rusiya imperiyasının rəsmi dövlət sənədi statusuna sahib olmaları ehtiva etdikləri məlumatın tarixi etibarlılığını artırır. Bununla yanaşı, bu mənbələr XIX yüzillikdə bizim tarixi torpaqlarımızda imperiya məmurları tərəfindən aparılmış vergi ödəyən əhalinin siyahıyaalma nəticələrini əks etdirir. Beləliklə, bu gün müasir alimlər həmin mənbələrdən Cənubi Qafqazın müxtəlif ərazilərində etnodemoqrafik tarixin öyrənilməsi üçün əvəzsiz arxiv bilgiləri əldə edirlər. Kameral təsvirlər həm də etnoqrafiya, toponimika və antroponimika sahəsində araşdırmaların aparılmasına təkan verə biləcək mahiyyət daşıyır" [14].

Nazir Əhmədlinin hazırladığı növbəti Kameral təsvirlər Naxçıvan əyaləti və Ordubad dairəsinə aiddir. İşğaldan sonra İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində süni olaraq yaradılan "Erməni vilayəti" üzrə İnzibati idarənin müşaviri İ.Şopenin rəhbərliyi ilə tərtib edilən Kameral təsvirlər ilk mənbə kimi müstəsna əhəmiyyətə malikdir.

Naxçıvan əyalətinin kameral təsvirinə Naxçıvan şəhəri, Naxçıvan mahalı, Məvazixatın mahalı, Xok mahalı, Əlincəçay mahalı və Dərələyəz mahalının siyahıyaalma sənədləri daxildir. Ordubad dairəsinə gəldikdə isə mahalın özü, Ordubad şəhəri, Əylis mahalı, Dəstə mahalı, Biləv mahalı və Çənnəb mahalının kameral təsvirləri aiddir. Ordubad şəhərinin kameral təsviri 1832-ci ildə, qalan kameral təsvirlər isə 1831-ci ildə tərtib edilmişdir.

"Osmanlılar dövründə Naxçıvan diyarı üzrə tərtib edilmiş maliyyə-vergi sənədləri" ilə Naxçıvan əyaləti və Ordubad dairəsi üzrə tərtib edilmiş kameral təsvirlər arasında müxtəlif parametrlər əsasında təhlil və müqayisələr apararkən elmimiz üçün maraqlı faktlar aşkar olunur. Aydın olur ki, Naxçıvan qəzası 1590-cı il "Müfəssəl dəftər"ə görə 17 nahiyədən ibarət olmuşdur. 1727-ci ildə tərtib olunmuş "Müfəssəl dəftər"ə görə isə Naxçıvan sancağı 14 nahiyəni özündə birləşdirirdi. Buradan aşkar görünür ki, Osmanlı dövləti birinci mərhələdə Naxçıvanı qəza, ikinci mərhələdə isə sancaq kimi qəbul etmişdir. "Müfəssəl dəftər"dəki məlumatla "Kameral təsvir"dəki məlumatı tutuşduranda bəlli olur ki, Naxçıvan qəzasının ərazisi Naxçıvan əyalətinin 1831-ci ildəki ərazisindən xeyli böyük olmuşdur.

Aşağıda qeyd etdiyimiz bir sıra maraqlı və əhəmiyyətli faktlar da aydın olur: Əvvəllər 4 məhəllədən ibarət olan Naxçıvan şəhərində 1831-ci ildə 13 məhəllə qeydə alınmışdır; 1590-cı ildə Naxçıvan qəzasında 6037, 1727-ci ildə Naxçıvan sancağında 9788 nəfər vergi

mükəlləfiyyətli əhali olmuşdur; 1590-cı ildə Naxçıvan şəhərində 3846, 1831-ci ildə isə 3651 nəfər müsəlman əhali yaşayırdı (Əhalinin sayı 200 nəfərə qədər azalmışdı – İ.H.); Naxçıvan əyalətində 24385 nəfər müsəlman yaşayırdı; erməni əhalisi isə müvafiq olaraq 1110 və 10679 nəfər idi; Naxçıvan əyaləti və Ordubad dairəsində 11843 erməni yaşayırdı (Bunun böyük əksəriyyəti 1828-1830-cu illərdə buraya köçürülmüşdü – İ.H.); 37-dən çox kəngərli tayfası 1451 ailədən ibarət idi; Naxçıvan şəhərində 24 adda olan kəngərli tayfası 411 ailədən ibarət idi; Naxçıvan qəzasının 67 kəndində 1540 kəngərli ailəsi qeydə alınmışdır; Kəngərli tayfasının rəisi həm də kəngərlilərdən ibarət qoşunun rəisi idi və sairə.

Şəhər və mahalların kameral təsvirində bu inzibati ərazilərin coğrafi mövqeyi, sərhədləri, ərazisi, məhəllələri, suları, iqlimi, şəhərin xarici görünüşü, əhalisi, milli tərkibi, mövcud olan abidələr və binalar, istehsal səviyyəsi, sənətkarlıq sahələri və tarixi haqqında məlumatlar vardır. Kəngərli tayfaları, onların qolları, tərkibi, ailə üzvləri və məhəllələr üzrə yerləşmələrindən də bəhs olunur.

Naxçıvan mahalının kameral təsviri Tumbul kəndinin coğrafi mövqeyi və ərazisi ilə başlayır: "Tumbul kəndi Naxçıvan şəhərinin 2,5 verstliyində, Abbasabad yolundan sol tərəfdə yerləşir. 500 xalvar əkinəyararlı və suvarılan olan 17 verst torpağı var... Kənddə 570 nəfər yaşayır" [3, v.181]. Kəndlərdən bəhs olunarkən onların kimə məxsusluğu qeyd olunur: Qoşadizə kəndinin Fərəculla bəy və Mirzə Məhəmməd xana, Təzəkəndin Ehsan xana, Şəkərabad kəndinin Mehdi ağa ilə Telli Bəyimə, Nəhəcir kəndinin Nadirxan Sultana, Vayxır kəndinin Nəzərəli xana, Əliabad kəndinin Nəcəfqulu bəyə, Şahbuz kəndinin Hüseyn bəyə məxsus olması göstərilir. Naxçıvan mahalına 59 kənd daxil olmaqla 9.477 nəfər əhalisi vardır [3, v. 252].

800 kv. verst sahəsi olan Əlincəçay mahalının da coğrafi mövqeyi, sərhədləri, meşə və biçənəkləri, suları, təsərrüfat həyatı, abidələri, boş qalmış kəndləri, əhalinin o dövrdə yaşadığı kəndlər haqqında məlumat verilir [2, v. 147-181]. Buradan aydın olur ki, mahalın 24 kəndində 731 ailədə 3612 nəfər yaşayırdı. Bunlardan bir qismi Cənubi Azərbaycanın (kameral təsvirdə İran kimi qeyd olunub – İ.H.) Xoy, Salmas şəhərlərindən köçürülmüş ermənilər idi. Onlar əsasən mahalın Qazançı, Şurut, Noraşen, Güznüt, Əbrəqunus kəndlərində yerləşdirilmişdi. Kəndlər haqqında məlumat verilməklə, bu kəndlərdə yaşayan əhalinin milli tərkibi, ailə üzvləri, onların qohumluq dərəcəsi, yaşı haqqında bəhs olunur [2, v. 5-6; 10-12; 14; 17-25; 28-31].

Kameral təsvirlərdə Məvazixatın, Xok, Dərələyəz mahalları haqqında da bəhs olunur və onların Naxçıvan əyalətinin tərkib hissəsində olduğu göstərilir. Məvazixatın mahalının coğrafi mövqeyindən bəhs olunarkən aydın olur ki, o, Naxçıvan əyalətinin mərkəzi hissəsində yerləşməklə şimalda Dərələyəz mahalı, qərbdə Dərələyəz və Xok mahalları, cənubda və şərqdə isə Naxçıvan mahalı ilə həmsərhəddir. Mahalın 9 kəndi olmuşdur. Mahalın kəndləri haqqında məlumat verilərkən belə bir qeyd göstərilir ki, "Mahalın İtqıran, Digin, Buzqov, Kürədis, Oğbin və Sultanbəy kəndləri coğrafi mövqeyinə görə Dərələyəz mahalına aiddirlər" [4, v. 253].

Xok mahalı coğrafi mövqeyi və ərazisinə görə Naxçıvan əyalətinin qərb hissəsində yerləşməklə Dərələyəz dağlarının son çıxıntısının ayırdığı Şərur və Naxçıvan mahalları arasındakı düzənliyi tutur və ümumi sahəsi 460 kvadrat verstdir [5, v. 271]. Xok mahalının 9 kəndində 335 ailə yaşamışdır ki, bu ailələrdə 1599 nəfər olmuşdur [5, v. 291]. Bunlardan 43 ailə, 224 nəfər gəlmə ermənilərdir.

Təsvirdə Dərələyəz mahalından bəhs olunur. Mahalın ümumi sahəsi 2 min kvadrat verst olub, burada 78 kəndin mövcud olması, bu kəndlərdə 1574 ailənin, 7736 nəfər əhalinin

yaşadığı qeyd olunur. Ailələrin 1001-i, əhalinin 4583 nəfərini müsəlmanlar təşkil edir [12, v. 370], ermənilər isə İran və Türkiyədən köçürülənlərdir. Təsvirdə Dərələyəz mahalının boş qalmış 32 kəndi haqqında da qısa məlumat verilir.

1832-ci il kameral təsvirinə görə Ordubad şəhəri 5 məhəllədən (Ambaras, Kürd Hətəm, Mingis, Sərşəhər və Üç Düdəngə məhəllələri), 3444 nəfər əhalidən ibarət olmuşdur ki, bunun da 3262 nəfəri Azərbaycan türkləridir [10, v. 371, 412]. İrandan 182 nəfər erməni köçürülmüş, onlar əsasən Aşağı Əndəmic, Karçevan, Yuxarı Əylis, Varaqirt, Aşağı Əylis və b. kəndlərdə yerləşdirilmişdir. Ordubad şəhərində bağçılıq, ipəkçilik, sənətkarlıq yaxşı inkişaf səviyyəsində idi. Məhəllə və küçələr, burada yaşayan əhali, onların yaşı, ailə üzvləri, məşğuliyyətləri haqqında məlumat verilir. Boyaqçı, ipək boyayan, toxucu, kənkan, keçəçi, dərzi, çörəkçi, pinəçi, bərbər, baqqal, başmaqçı kimi sənət sahələri ilə məşğul olan insanlar təqdim olunur [10, v. 373]. Təsvirdə Ordubad şəhərinin küçələri və həmin küçələrin sakinləri, yaxud burdan çıxıb gedənlər haqqında da məlumat verilir.

Ordubad mahalı haqqında danışan quberniya katibi Aleksandr Zolotnitski qeyd edir ki, bu mahal müxtəlif istiqamətlərə uzanan bir neçə dərədən ibarət olduğuna görə onun sahəsini hesablamaq mümkün deyil [10, v. 412]. Təsvirdə Ordubad mahalının 9 kəndindən bəhs edilir. Aşağı Əndəmic kəndində mülkədarın olmaması, torpağın sakinlərə məxsusluğu, bir sıra kəndlərdə məscid, dəyirmanın olması göstərilir. Ordubad mahalının ümumi əhalisi 196 ailə, 843 nəfərdən ibarətdir ki, bunun da 291 nəfəri erməni, 552 nəfəri azərbaycanlılar idi. Sənət sahələri ilə məşğul olanlar, o cümlədən 35 nəfər toxucunun olması, 5 işlək dəyirmanın fəaliyyət göstərməsi qeyd edilir.

Əylis, Dəstə, Biləv və Çənnəb mahalları haqqında məlumatlar, əvvəlki mahallarda olduğu kimi təqdim edilir. Əylis mahalında 1886, Dəstə mahalında 1879, Biləvdə 2317 və Çənnəbdə 606 nəfər yaşayırdı. Müvafiq olaraq bu mahalların tərkibində 5, 14, 19, 5 kənd olmuşdur. Nüvədi kəndinin Əylis mahalına aidliyi, Lütfəli Sultan Dizəsində cəmi 1 ailənin yaşaması, indiki Nəsirvaz kəndinin adının 1831-ci ildə Nəsirabad olması, bu mahalda 6 müxtəlif adlı Dizə kəndinin mövcudluğu məlum olur.

Təsvirin sonunda mülk və tiyullara aid verilmiş əlavələr bir sıra fakt və hadisələrin dəqiqləşdirilməsi üçün əhəmiyyətlidir. Əlincəçay mahalına aid 24 mülk və tiyullar, həmin mahalın 4 boş kəndi, Naxçıvan mahalına aid 59 mülk və tiyullar, Məvazixatın mahalı üzrə 9, Xok mahalı üzrə 9, Dərələyəz mahalı üzrə 77, həmin mahalın boş qalmış 32 kəndi, Ordubad mahalı üzrə 9, Əylis mahalının 5, Dəstə mahalının 14, Biləv mahalının 19, Çənnəb mahalının 5 mülk və tiyulları verilmişdir. Naxçıvan şəhərində yaşayan xanlar, xan mənşəyinə mənsub olanlar, bəylər və ruhanilərin siyahısı, bundan əlavə Qullarağasiyevlər, Şahtaxtinskilər, Camalbəyovlar, Vəkilovlar, Kəngərlinskilər, Naxçıvanskilər haqqında məlumatlar Kameral təsvirlərin əhəmiyyətini daha da artırır.

Kameral təsvirlərin əhəmiyyəti bunlarla bitmir. Onların əhəmiyyətindən bəhs edən N.Əhmədli aşağıdakıları da qeyd edir: 1. Məsələnin siyasi tərəfidir. Siyasətçilərimiz, diplomatlarımız, tədqiqatçılarımız haqlı olaraq deyirlər ki, Naxçıvan, İrəvan, Dərələyəz, Göyçə və digər ərazilər bizim torpaqlarımızdır. Kameral təsvirlərdəki sənədlər buna tutarlı cavabdır. Bu sənədlərin bir qismi Ermənistan arxivlərindədir. Həmin sənədlərdə göstərilib ki, 1831-ci ildə buranın xanı, bəyi, əhalisi kim idi. 2. Kameral siyahılarda tarixçilərlə yanaşı, filologlar, dilçilər, etnoqraflar, sosioloqlar, başqa elm sahələrinin nümayəndələri üçün də həddindən artıq mühüm materiallar var. 3. Ayrı-ayrı şəxslər bu sənədlərdə yaşadıqları ərazilərin tarixini bilməklə yanaşı, həm də öz şəcərəsini tapa bilərlər. 4. Kameral təsvirlərdən istifadə etməklə bir sıra tarixi

fakt və hadisələri tutuşdurmaq, müqayisəli təhlillər aparmaq yolu ilə obyektiv, düzgün nəticələr çıxarmaq mümkündür. 5. Qəbirləri düşmən tapdağı altında qalıb ruhları sızlayan əcdadlarımızın ruhlarını şad edirik. Qoy hiss etsinlər ki, biz onları unutmamışıq və bir gün Qarabağı azad etdiyimiz kimi, əcdadlarımızın uyuduğu tarixi torpaqlarımızı da azad edəcəyik. Onda həmin sənədlər o gün üçün hüquqi, tarixi sənəd rolunu oynayacaqdır.

İ.Şopenin 1852-ci ildə çıxan kitabında [18] peyğəmbərcəsinə yazılmış gözəl bir cümləsi var. Giriş hissəsində yazır ki, mən bu vilayətin hər bir şeyini: tarixini, insanlarını, abidələrini inventarlaşdırmışam və gələcək nəsillər mənim bu kitabıma baxıb deyəcəklər ki, o vaxt nəyimiz var idi, indi nəyimiz var [18, c. VI]. Bu baxımdan, çox təəssüf ki, itkilərimizin çox olduğunu etiraf etməliyik.

Göründüyü kimi, Naxçıvan əyaləti və Ordubad dairəsinin kameral təsvirlərində XIX əsrə aid çoxsaylı fakt və hadisələr qeydə alınmış, şəhər və kəndlərin coğrafi mövqeyi və əhalisi adbaad göstərilmiş, bir çoxlarının qohumluq dərəcəsi verilmişdir.

Tədqiqatçıların ixtiyarına təqdim olunan bu dəyərli mənbəni bizə təqdim etdiyi üçün istedadlı alim, vətənpərvər ziyalı Nazir Əhmədliyə dərin minnətdarlığımızı bildiririk. İnanırıq ki, araşdırmaçıların ixtiyarına verilən bu qiymətli ilk mənbələrdən bütövlükdə Naxçıvan diyarının daha geniş, əhatəli və dərindən öyrənilməsində istifadə ediləcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi (AMDTA): F. 24, siy. 1, s.v. 353.
2. AMDTA: F. 24, siy. 1, s. v. 354.
3. AMDTA: F. 24, siy. 1, s. v. 355.
4. AMDTA: F. 24, siy. 1, s. v. 356.
5. AMDTA: F. 24, siy. 1, s. v. 357.
6. AMDTA: F. 24, siy. 1, s. v. 358.
7. AMDTA: F. 24, siy. 1, s. v. 359.
8. AMDTA: F. 24, siy. 1, s. v. 360.
9. AMDTA: F. 24, siy. 1, s. v. 361.
10. AMDTA: F. 24, siy. 1, s. v. 372.
11. AMDTA: F. 25, siy. 2, s. v. 6.
12. AMDTA: F. 90, siy. 1, s. v. 102.
13. Əhmədli N. İrəvan əyalətinin kameral təsviri. Bakı: Turxan, 2019, 480 s.
14. Mustafayev Ş. Qazax tarixinə dair dəyərli mənbə. “Xalq qəzeti”, 2018, 14 oktyabr.
15. Mustafazadə T. Quba əyalətinin kameral təsviri (1831-ci ildə kollec registratoru Xotyanovski tərəfindən tərtib edilmişdir). Bakı: Sabah, 2008, 752 s.
16. Naxçıvan sancağının müfəssəl dəftəri / Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov / Tərcümə edənlər Z.Bünyadov və H.Məmmədov-Qaramanlı. Bakı: Elm, 2001, 376 s.
17. Григорьев В. Статистическое описание Нахчыванской провинции. СПб., 1833, 263 с.
18. Шопен И. Исторический памятник Армянской области в эпоху её присоединения к Российской Империи. СПб., 1852, 1231 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: ismayil.i1951@gmail.com

Ismayil Hajiyev

A VALUABLE SOURCE ABOUT THE NAKHCHIVAN PROVINCE AND THE ORDUBAD DISTRICT

The paper summarized the information about the Nakhchivan province and Ordubad district listed in 1831 and 1832, comparative analyzes were carried out, and the indicators of the cities and districts of Nakhchivan and Ordubad were involved in the study. It is known that after tsarist Russia seized these territories, a population census was made, and the taxable population was clarified. For this purpose, the census provided full information about demographic indicators, families and their composition, kinship relations, and people to be taxed. Along with all this, the study involved data on cities and districts, their territory, borders, geographic location, climate, waters, buildings located on the territory, tribes, the number of local and visiting people, industrial enterprises, craft areas, city quarters.

Keywords: *Nakhchivan province, Ordubad district, tribes, taxes, neighborhoods, families, census.*

Исмаил Гаджиев

ЦЕННЫЙ ИСТОЧНИК О НАХЧЫВАНСКОЙ ПРОВИНЦИИ И ОРДУБАДСКОМ ОКРУГЕ

В статье были обобщены данные о переписи, проведенной в 1831, 1832 годах в Нахчыванской провинции и в Ордубадском округе, проведен сравнительный анализ, на основе камеральных описаний привлечены к исследованию показатели городов и магалов, входящих в состав Нахчывана и Ордубада. Известно, что после того, как эти территории были захвачены царской Россией, была проведена перепись населения и уточнено облагаемое налогом население. Для этого в упомянутой переписи были представлены полные данные о демографических показателях, семьях и их составе, родственных связях, людях, подлежащих налогообложению. Наряду со всем этим, к исследованию были привлечены данные о городах и округах, их территории, границах, географическом положении, климате, водах, находящихся на территории зданиях, племенах, численности местных и приезжих людей, предприятиях производственного характера, ремесленных отраслях, городских кварталах.

Ключевые слова: *Нахчыванская провинция, Ордубадский округ, племена, налоги, кварталы, семьи, перепись.*

Daxilolma tarixi: İlkin variant 12.01.2021
Son variant 19.02.2021

UOT 94(479.24)

FƏXRƏDDİN SƏFƏRLİ

NAXÇIVAN ŞƏHƏRİNDƏKİ "AĞAMALI KƏHRİZİ" HAQQINDA QEYDLƏR

Məqalədə Naxçıvan şəhərinin cənub tərəfində yerləşən "Ağamalı kəhrizi"ndən bəhs olunur. Azərbaycandakı kəhrizlərin tarixinə və Naxçıvan şəhərindəki kəhrizlərə qısa nəzər salınan məqalədə qeyd olunur ki, "Ağamalı kəhrizi" şəhərin cənub hissəsinin içməli və suvarma suyuna olan tələbatını ödəmişdir. Mənbələrə əsaslanaraq kəhrizin Sovet dövlət xadimi Səməd ağa Ağamalı oğlunun adı ilə deyil, Naxçıvan xanları – Kəngərlilər nəslindən olan Ağamalı (Ağam Əli) adlı şəxs tərəfindən qazdırıldığı, bunun üçün də "Ağamalı kəhrizi" adlandırılması sübut olunur. Kəhriz 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Kəhrizlər idarəsi tərəfindən bərpa olunmuşdur.

Açar sözlər: *Naxçıvan şəhəri, kəhriz, Ağamalı kəhrizi, su, içməli su, suvarma.*

Əhalinin su ilə təchizatında mühüm rol oynayan kəhriz sistemləri insanların minilliklər ərzində yaratdığı bənzərsiz maddi-mədəniyyət nümunələrindən biridir. Yer kürəsinin müxtəlif yerlərində içməli su və suvarma suyuna olan tələbatı ödəmək, həmçinin torpaqların şoranlaşmasının qarşısını almaq məqsədi ilə geniş şəkildə istifadə olunan kəhrizlərin mənşəyi, onların yaranması, ilk dəfə hansı ölkədə meydana gəlməsi barədə müxtəlif fikirlər vardır. Ancaq bu fikirlər nə qədər müxtəlif olsa da Azərbaycanın adı da ilk kəhrizlərin meydana gəldiyi yerlər sırasında qeyd olunur. Bu fikri ölkəmizin ərazisində bu istiqamətdə aparılan tədqiqatlar, xüsusilə arxeoloji qazıntıların məlumatları da birmənalı şəkildə təsdiq edir. Keçən yüzilliyin 30-cu illərində Şəmkirçay ətrafında yerləşən nekropolda aparılan arxeoloji qazıntılar zamanı arxeoloq İ.Hummel qədim kəhrizin qalıqlarına rast gəlmişdir. Tədqiqatlar zamanı əldə olunan maddi-mədəniyyət nümunələrinin təhlili göstərmişdir ki, kəhriz eramızdan əvvəl I yüzilliyə aiddir. Bununla bərabər arxeoloq Gəncə və onun ətraf ərazilərində suvarma məqsədi ilə kəhrizlərdən istifadə olunması qənaətinə gəlmişdir [10, s. 66]. Azərbaycanda kəhrizlərin qədim tarixə malik olması haqqında digər müəlliflərin də dəyərli fikirləri vardır.

Azərbaycanın tərkib hissəsi kimi, onun qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarında da kəhrizlərin meydana gəlməsi tarixi çox qədim dövrlərə gedib çıxır. Kəskin kontinental iqlimə malik olan bu bölgə həmişə su probleminə məruz qaldığından əhali bu problemi aradan qaldırmaq üçün digər vasitələrlə yanaşı kəhrizlər qazdırılmasına da çox üstünlük vermişdir. Bu səbəbdən də Naxçıvan ərazisində çay şəbəkəsi zəif inkişaf etmiş ərazilərdə çoxlu xüsusi hidrotexniki qurğular – kəhrizlər qazdırılmışdır. Bununla yanaşı ərazidə kəhrizlərin yerləşmə arealının təhlili göstərir ki, Naxçıvan bölgəsində hətta sulu yerlərdə də əhalinin ümumi istifadəsi üçün kəhrizlər yaradılmışdır.

Keçmişdə Naxçıvan bölgəsində mövcud olan kəhrizlər haqqında orta əsr qaynaqlarında mühüm məlumatlar vardır. Məsələn X yüzillikdə yaşamış ərəb səyyahı və coğrafiyaşünası İbn Havqəlin "Kitab-əl məsalik və-l-məmalik" əsərində verdiyi məlumatdan aydın olur ki, IX-X yüzilliklərdə Naxçıvan şəhərində bir sıra təsərrüfat sahələrinin, o cümlədən bağların, bostanların, tarlaların, əkin sahələrinin suvarılmasında şəhərdən bir az kənarda axan Araz və Naxçıvan çaylarının suyu ilə bərabər kəhriz və bulaq sularından da istifadə edilirmiş [7, s. 68]. Şəhərdə zaman keçdikcə yeni kəhrizlər qazılmışdır. Bununla yanaşı, illər ötdükcə mövcud

kəhrizlərin bir hissəsi məhv olaraq sıradan çıxmışdır. Çünki sovet hakimiyyəti illərində artezian quyulara, nasos stansiyalarına, süni göllərə və daha səmərəli hesab olunan digər su çıxarma metodlarına üstünlük verildiyindən, həmçinin bir çox yaşayış məskənlərində əhali kəhriz sistemlərindən istifadəni və onların qorunub saxlanılması sahəsində malik olduqları ənənə və bilikləri yaddan çıxardıqlarından, bu işlə məşğul olmadıqlarından kəhrizlər unudulmuşdur [13, s. 50-51]. Məhz buna görə də sovet hakimiyyəti illərində bu qiymətli qurğuların bir hissəsi sıradan çıxmış, qalanları isə acınacaqlı vəziyyətə düşmüşdür [1, s. 225].

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bütün ölkə miqyasında olduğu kimi Naxçıvan Muxtar Respublikasında da keçmiş irsin qorunması, bərpası və təbliği istiqamətində işlər genişlənmiş, xüsusilə tarix-mədəniyyət abidələrinə diqqət və qayğı artmışdır. Bu baxımdan ata-babalarımızdan bizə miras qalan kəhrizlərə də diqqət artmışdır. Hətta onların bərpası, təmiri, yenidən xalqa qaytarılması işlərini sistemli şəkildə aparmaq üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun tövsiyəsi ilə muxtar respublika Nazirlər Kabinetinin 24 dekabr 2003-cü il tarixli qərarına əsasən Dövlət Meliorasiya və su təsərrüfatı Komitəsi nəzdində Kəhrizlər idarəsi yaradılmışdır.

AMEA-nın müxbir üzvü Səfərəli Babayevin Naxçıvan kəhrizləri ilə əlaqədar apardığı tədqiqatlardan məlum olur ki, XX yüzilliyin əvvəllərində Naxçıvan bölgəsində 407 kəhriz olsa da, baxımsızlıq ucbatından qısa müddətdə onların bir hissəsi sıradan çıxmışdır. Buna görə də XX yüzilliyin ortalarında bölgədə 356 kəhriz olmuşdur. R.Salayeva 2002-ci ildə nəşr etdirdiyi əsərində Naxçıvan su təsərrüfatı idarəsindən əldə etdiyi məlumatlar əsasında Naxçıvan Muxtar Respublikasının kolxozlarında olan 495 kəhrizin (dağılanlar da daxil olmaqla) siyahısını vermişdir [11, s. 195-215]. 2009-cu ilin məlumatına görə Naxçıvan Muxtar Respublikası Kəhrizlər idarəsi 331 kəhrizin sxematik planlarını, xəritələrini hazırlayaraq pasportlaşdırılmış və onlar balansa götürülmüşdür [8, s. 190].

Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, Naxçıvan Muxtar Respublikası ərazisində kəhrizlərin geniş yayıldığı yaşayış məskənlərindən biri də Naxçıvan şəhəridir. S.Zelinskinin məlumatına görə XIX yüzilliyin ortalarında şəhərdə 14 kəhriz var imiş [11, s. 258]. Professor S.Babayevin 1999-cu ildə nəşr etdirdiyi əsərdə verilən məlumata görə həmin vaxt şəhərdə 15 kəhriz olmuşdur [1, s. 178]. Şəhərin müxtəlif yerlərində yerləşən həmin kəhrizlər əhalinin içməli və suvarma suyuna olan tələbatının ödənilməsində mühüm rol oynayırlar. Təkcə bir faktı qeyd etmək yerinə düşər ki, müstəqillik dövründə çəkilən yeni su xəttinə qədər şəhərdə olan "Kalba Musa", "Qızdırma" və "Əliabad" kəhrizlərinin su sərfi şəhərə borular vasitəsilə daxil olan sudan çox olmuşdur [1, s. 225].

Belə kəhrizlərdən biri də şəhər əhalisi arasında "Ağamalı kəhrizi" adı ilə tanınan kəhrizdir. İndiyədək geniş şəkildə tədqiq olunmayan "Ağamalı kəhrizi" şəhərin cənub tərəfində, Möminə xatın türbəsi yaxınlığında yerləşən və el arasında "Xan diki" adlanan ərazinin (bəzən "Ağamalı diki" də adlandırılır) cənub yamacında yerin səthinə çıxır. Naxçıvançayın məcraaltı sularından qidalanan, saf və təmiz suya malik olan kəhriz mənbəyindən yerin səthinə çıxanadək 1370 metr yol keçir. Yerli şəraitə uyğun olaraq kifayət qədər uzunluğa malik olan kəhrizin 38 quyusu vardır. Həmin quyulardan ən dərini 22 metrdir.

Kəhrizin nə üçün "Ağamalı kəhrizi" adlandırılması haqqında dəqiq bir fikir yoxdur. Yerli əhali də bu haqda əsaslı bilgiyə malik deyildir. Ancaq bəzi ədəbiyyat materiallarında onun Naxçıvanın ən qüdrətli xanlarından olan I Kəlbəli xan tərəfindən qazdırıldığı qeyd olunmuş və kəhrizin adı haqqında belə bir məlumat verilmişdir: "Kəhrizin adı 1918-ci ilədək "Xan", 1930-cu ilədək "Kazım Qarabəkir Paşa", ondan sonra isə bolşevik Səməd Ağamalı

oğlunun adını daşımışdır" [5, s. 25]. Bu məlumat olduğu kimi sonrakı müəlliflər tərəfindən təkrar olunmuşdur [4, s. 170; 10, s. 151].

AMEA-nın müxbir üzvü A.Bağırov kəhrizin XX əsrin əvvəllərinə qədər "Lülə çeşmə", "Xan kəhrizi", "Xan dikinin kəhrizi" adlandığını qeyd edir və yazır ki, "1918-ci ildə Naxçıvanda yerləşən türk qoşununun komandanı Kazım Qarabəkir Paşa kəhrizi təmir etdirdiyi üçün çeşməyə onun adı verilmiş, ancaq sovet hakimiyyətinin ilk illərində bu ad yasaq edilmişdir. 1923-cü ildə çeşməyə keçmiş sovet hakimiyyəti qarşısında böyük xidmətləri olan dövlət xadimi Səməd ağa Ağamalı oğlunun şərəfinə "Ağamalı" adı verilmişdir".

Bu məlumatlardan aydın olur ki, kəhriz 1923, yaxud 1930-cu ildən sonra Azərbaycanın sovet dövlət xadimlərindən olan, partiya və dövlət orqanlarında bir sıra yüksək vəzifələr tutan Səməd ağa Ağamalı oğlunun şərəfinə "Ağamalı kəhrizi" adlandırılmışdır. Ancaq bu fikirlə razılaşmaq mümkün deyildir. Çünki, rus tədqiqatçısı S.Zelinski 1880-ci ildə nəşr etdirdiyi məqaləsində Naxçıvan şəhərindəki kəhrizlərdən bəhs edərkən onların adını sadalayır. S.Zelinskinin təqdim etdiyi həmin siyahıda "Ağamalı kəhrizi"nin adına rast gəlinir [11, s. 258]. Göründüyü kimi, haqqında bəhs etdiyimiz kəhriz XIX yüzilliyin II yarısında "Ağamalı kəhrizi" adlanırmış. 2 oktyabr 1924-cü ilə aid bir arxiv sənədində də kəhrizin adı "Ağamalı" kimi qeyd olunmuşdur [6, f. 314, siy. 11, s/v 144, v. 11]. Bu ad başqa bir arxiv sənədində də təkrar olunmuşdur [6, f. 314, siy. 11, s/v 144, v. 79]. Bir arxiv sənədində isə kəhrizin adı "Ağaman" kimi verilmişdir [6, f. 314, siy. 11, iş 155, v. 28]. Bu sənədlər təsdiq edir ki, kəhriz XIX yüzilliyin ikinci yarısında olduğu kimi XX yüzilliyin əvvəllərində də, başqa sözlə desək Səmədağa Ağamalı oğlu ölməmişdən əvvəl "Ağamalı kəhrizi" adlanırmış. Deməli, kəhrizin nə üçün belə adlanmasının başqa səbəbi vardır.

Tarixdən məlumdur ki, orta əsrlər zamanı bir sıra xeyirxah əməllərin yerinə yetirilməsi, o cümlədən yol çəkdirilməsi, körpülər saldırılması, məscidlər, hamamlar, karvansaralar inşa etdirilməsi, kəhriz və ovdanlar qazdırılması təqdir olunur, savab iş hesab edilirdi. Ona görə də bir sıra imkanlı şəxslər, görkəmli şəxsiyyətlər bu qəbildən olan işləri yerinə yetirirdilər. Bu zaman həmin abidələr onu inşa etdirən adamın adı ilə adlanırdı. Hətta bəzən həmin abidələrin üzərində onları inşa etdirən adamların adları qeyd olunan kitabələr də qoyulurdu. Məhz buna görə də R.Salayeva yazır ki, Naxçıvan şəhərində kəhrizlərin əksəriyyəti onların sahibinin adı ilə adlandırılmışdır. Buna misal olaraq o "Ağamalı", "Kalba Musa", "Əkbər xan", "Hacı Hüseynəli", "Mirzə Bədəl", "Mahmud ağa", "Məşədi Abbas", "Hacı Niyət" kəhrizlərinin adını çəkir [12, s. 188].

Fikrimizcə, haqqında bəhs etdiyimiz kəhrizi də Naxçıvan şəhərinin ictimai-siyasi həyatında mühüm rol oynayan və nüfuz sahibi olan, ancaq şəxsiyyəti hələlik bizə bəlli olmayan Ağamalı (Ağam Əli) adlı bir şəxs ətrafdakı üzüm bağlarının, həyətyanı sahələrin suvarılması və içməli su kimi istifadə edilməsi məqsədi ilə qazdırmışdır. Bu səbəbdən də kəhriz onun adı ilə "Ağamalı kəhrizi" adlanmışdır. Bəzi fikirlərə görə Ağamalı (Ağam Əli) Naxçıvan xanları – Kəngərlilər nəslindən olan bir şəxsiyyət olmuşdur.

Yuxarıda qeyd olunduğu kimi kəhrizin Naxçıvan xanı I Kəlbəli xan tərəfindən qazdırılması da çox inandırıcı görünmür. Çünki əgər kəhriz I Kəlbəli xan tərəfindən qazdırılsaydı, el arasında "Ağamalı kəhrizi" deyil, ənənəyə uyğun olaraq daha məşhur və tanınmış şəxsiyyət, Naxçıvan xanlığının ən qüdrətli hökmdarı, bir müddət xanlığa uğurla rəhbərlik etmiş görkəmli diplomat və dövlət xadimi I Kəlbəli xan Kəngərlinin adı ilə "Kəlbəli xan kəhrizi" adlandırılardı.

Yuxarıda verilən məlumatlarda belə məlum olur ki, kəhriz XX yüzilliyin əvvəllərinədək "Xan kəhrizi" adlanırmış. Ancaq S.Zelinskinin əvvəldə xatırlatdığımız məlumatı bu fikri təsdiq etmir. Həmçinin Naxçıvanda 1918-1920-ci illərdə baş vermiş hadisələrin şahidi olmuş filologiya elmləri namizədi, dosent Lətif Hüseynzadənin xatirələri də göstərir ki, bəhs olunan dövrdə kəhriz "Ağamalı kəhrizi" adlanırmış. Lətif Hüseynzadə yazır ki, Kazım Qarabəkir Paşa iqamətgahı yaxınlığında olan "Ağamalı çeşməsi"nin suyunu çox xoşlayırdı. Paşanın xatirəsini əbədiləşdirmək üçün çeşmənin ağ mərmər üzərinə həkk edilmiş ay-ulduz rəsminin altında "Kazım Qarabəkir Paşa adına çeşmə" sözləri yazıldı. Adamların su içməsi üçün ora canlar qoyulmuşdu, heyvanların içməsi və paltar yumaq üçün bölmələr ayrılmışdır. Oradan su içənlərin "Allah səndən razı olsun" sözlərini deməsi ənənə halını almışdır [3, s. 65]. Məlumdur ki, Kazım Qarabəkir Paşa 1918-ci ildə Naxçıvanda olmuşdur. L.Hüseyinzadənin yazdığından aydın olur ki, həmin vaxt kəhriz "Ağamalı çeşməsi" adlanırdı. Göründüyü kimi kəhriz heç də, XX yüzilliyin əvvəllərində "Xan kəhrizi" deyil, "Ağamalı çeşməsi" adlanırmış.

Kəhriz uzun müddət fəaliyyət göstərmiş, şəhərin həmin ərazidə yaşayan əhalisi onun suyundan məişət və təsərrüfat məqsədi ilə istifadə etmişdir. Ancaq keçən yüzilliyin 60-ci illərinin sonlarında hazırda İran İslam Respublikasının Naxçıvan şəhərindəki Baş konsulluğunun yerləşdiyi ərazidə oradan keçən "Bazarçayın" daşması ilə əlaqədar "Ağamalı kəhrizi"nin həmin ərazidə yerləşən quyularını sel suları basmış, nəticədə quyular lillə dolmuşdur. Beləliklə, bunun nəticəsində kəhriz batmış və fəaliyyətini dayandırmışdır. Buna görə də 2002-ci ildə və neçə il sonra – 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Kəhrizlər idarəsi tərəfindən kəhrizdə təmizləmə və bərpa işləri aparılmışdır. Bununla da, kəhrizin fəaliyyəti bərpa olunmuşdur. Haliyədə onun su sərfi saniyədə təxminən 3 litrdir. Kəhrizin suyundan ətrafdakı ərazilərin suvarılmasında və içməli su kimi istifadə olunur.

ƏDƏBİYYAT

1. Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999, 298 s.
2. Bağırov A. Onomalogiya problemləri. II c., Bakı: Elm və təhsil, 2012, 416 s.
3. Hüseyinzadə L. Araz şahiddir (Türk ordu generalı Kazım Qarabəkir Paşa Naxçıvanda. 1918-1920-ci illər). Bakı: ADPU-nun mətbəəsi, 2018, 99 s.
4. Qənbərova G., Güneri A. Naxçıvanın mülki tikililərinin memarlığı. Bakı: AFPoliqr AF, 2018, 280 s.
5. Quliyev Ə. Naxçıvan kəhrizləri. Bakı: Nurlan, 2008, 164 s.
6. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi.
7. Səfərli H. Naxçıvanda kəhrizlər /"Kəhriz sistemləri memarlıq abidəsi, dayanıqlı su sistemi, ictimai və iqtisadi inkişafın əsası kimi" I beynəlxalq elmi-praktik konfransın materialları. Naxçıvan, 24-26 sentyabr 2009-cu il. Bakı: İndiqo, 2010, 248 s., s. 67-73.
8. Talıbov S. Qlobal su probleminin həllində kəhriz sistemlərinin rolu və onların qorunması / "Kəhriz sistemləri memarlıq abidəsi, dayanıqlı su sistemi, ictimai və iqtisadi inkişafın əsası kimi" I beynəlxalq elmi-praktik konfransın materialları. Naxçıvan, 24-26 sentyabr 2009-cu il. Bakı: İndiqo, 2010, s. 189-191.
9. Zeynalova A. Adil Bağırovun tədqiqatlarında bəzi onomastik vahidlərin semantikası // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2017, № 5 (86), s. 148-152.
10. Гуммель И. Отчет о раскопках около Кировабада в 1938 г. // Известия Аз. ФАН, Баку, 1939, № 3, с. 66.

11. Зелинский С. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский / Сборник сведений о Кавказе. Т. III, Тифлис, 1880, с. 209-275.
12. Салаева Р. Нахчыван – наследие архитектуры. Баку: Азербайджан, 2002, 240 с.
13. Dupertuis L. Kahriz Systems, Factor of Social and Economic Development: the point of view of practice / Kahriz Systems as architectural monument, sustainable source of water and factor of social and economic development, 1st international scientific-practical conference proceedings. Nakhchivan, 24-26 september, 2009. Baku: İndiqo, 2010, s. 42-48.

AMEA Naxçıvan Bölməsi
E-mail: seferli949@mail.ru

Fakhraddin Safarli

NOTES ABOUT "AGAMALI'S KAHRIZ" IN THE CITY OF NAKHCHIVAN

The paper informs on the "Agamali's kahriz" located in the southern part of Nakhchivan. Along with a short excursion into the history of the Azerbaijani kahrizes and the kahrizes of Nakhchivan, the paper notes that "Agamali's kahriz" satisfied the need for drinking and irrigation water in the southern part of the city. Based on sources, we have proved that this kahriz was named not in honor of the Soviet statesman Samed aga Agamaly oglu, but in honor of the man who had dug it – Agamaly (Agam Ali) from the Kangarli clan of Nakhchivan khans. In 2015, the kahriz was restored by the Kahriz Administration of the Nakhchivan Autonomous Republic.

Keywords: *Nakhchivan city, kahriz, Agamali's kahriz, water, drinking water, irrigation.*

Фахреддин Сафарли

ЗАМЕТКИ О «КЯРИЗЕ АГАМАЛИ» В ГОРОДЕ НАХЧЫВАН

В статье говорится о «кяризе Агамали», находящемся в южной части города Нахчыван. Вместе с кратким экскурсом в историю азербайджанских кяризов и кяризов города Нахчыван в статье отмечается, что «кяриз Агамали» удовлетворял потребность южной части города в питьевой и оросительной воде. На основе источников доказывается, что кяриз был назван не в честь советского государственного деятеля Самед аги Агамалы оглы, а в честь прорывшего его человека по имени Агамалы (Агам Али) из рода Нахчыванских ханов Кенгерли. В 2015 году кяриз был отреставрирован Управлением Кяризов Нахчыванской Автономной Республики.

Ключевые слова: *город Нахчыван, кяриз, кяриз Агамали, вода, питьевая вода, орошение.*

Daxilolma tarixi: İlkin variant 06.01.2021
Son variant 04.02.2021

UOT 94 (479.24)

YAŞAR RƏHİMOV

1901-1907-Cİ İLLƏRDƏ NAXÇIVAN DUZ "SƏNAYESİ" (rus mənbələri əsasında)

Məqalədə qədim zamanlardan-hələ daş dövründən fəaliyyət göstərən Naxçıvan duz mədənlərinin tarixindən, 1901-1907-ci illərdə buradakı vəziyyətdən bəhs edilmişdir. Məqalə Naxçıvana gələrək duz mədənlərində olmuş rus ziyalılarının və tarixçilərinin (N.Nikiforov, N.Sokolski, K.Smirnov, R.İvanov və b.) əsər və məqalələrinin təhlili nəticəsində yazılmışdır. Bölgəmizdəki duz mədənlərinin 1901-1907-ci illərdə fəaliyyəti, onların mövqeyi, burada olan duz ehtiyatları, duzun çıxarılma texnologiyası, onun miqdarı, satışı və s. məsələlər xüsusi maraq doğurduğundan belə bir mövzu seçilmişdir. Naxçıvan bölgəsində yerləşən duz mədənlərinin tarixi, o illərdə buradakı vəziyyət bu gün də öz aktuallığı ilə nəzər-diqqəti cəlb edən tarixi məsələlərdən biridir.

Məqalənin sonunda belə bir nəticə əldə edilmişdir ki, müəyyən təhrif və çatışmazlıqları, ermənipərəstliyi istisna etməklə bu dövr rus mənbələri Naxçıvan tarixi üçün çox qiymətli və əvəzsiz mənbələrdəndir.

Açar sözlər: *rus, duz, Naxçıvan, iqtisadi inkişaf, tarix.*

Naxçıvan bölgəsi özünün zəngin və qədim tarixi, coğrafi mövqeyi, qiymətli abidələri, mühüm iqtisadi və ticarət əhəmiyyətinə görə XX əsrin əvvəllərində də Rusiyanın qabaqcıl ziyalılarının – tarixçilərin, etnoqrafların, iqtisadçıların, diplomatların nəzər-diqqətini cəlb etmişdir. XX əsrin əvvəllərindən başlayaraq Naxçıvana gələn rus məmurları, səyyahları, ziyalıları bölgə tarixinin müxtəlif məsələləri ilə bağlı maraqlı yazılar yazmış və ətraflı məlumatlar vermişlər. Bu dövr rus müəllifləri və tədqiqatçıları Rusiya imperiyasının işğalçılıq siyasətinə haqq qazandırır, tarixi proses və hadisələrin əsil mahiyyətini göstərməyə o qədər də can atmırdılar. XX əsrin əvvəllərinə aid rus mənbələrində Naxçıvan bölgəsinin sosial-iqtisadi həyatı haqqında da zəngin məlumatlar vardır. Rus müəlliflərindən N.Sokolskinin, K.Smirnovun əsərləri, xülasələr, toplular və digər müxtəlif nəşrlər bu cəhətdən diqqəti cəlb edir.

XX əsrin əvvəlləri Naxçıvanın sosial-iqtisadi vəziyyəti ilə bağlı məsələlər yuxarıda adı çəkilən rus müəllifləri tərəfindən araşdırılmışdır. Xüsusilə N.Sokolskinin 1933-cü ildə Tiflisdə ikinci dəfə nəşr edilən və 182 səhifədən ibarət olan "Материалы по изучению Нахичеванской ССР" adlı kitabı iqtisadi xarakterli məlumatlarla xeyli zəngindir. Bu məlumatların içərisində elmi əhəmiyyət kəsb edən faktlarla yanaşı, reallıqdan uzaq olan əsassız fikirlərə və yanlışlıqlara da təsadüf edirik. Fikrimizcə, bu cür səhvlər rus müəlliflərinin yerli xalqın dilini bilməməsi ilə yanaşı, onların əksəriyyətinin erməni və ya ermənipərəst müəlliflərdən aldığı məlumat və materiallardan istifadə etmələri nəticəsində yaranmışdır.

Bəhs edilən dövrə aid olan rus mənbələrində, almanaxlarda, arayışlarda, məktublarda, toplularda və digər nəşrlərdə Naxçıvan bölgəsinin iqtisadi inkişafı, ilk növbədə kənd təsərrüfatının və sənayenin ayrı-ayrı bölmələri haqqında zəngin məlumatlar verilir. Bu araşdırma və tədqiqatlarda Naxçıvan bölgəsinin kənd təsərrüfatının ümumi xüsusiyyətləri ilə yanaşı olaraq onun su mənbələri, pambıqçılıq və tütünçülük, ipəkçiliyin, üzümçülüyün, arıçılığın, heyvandarlığın vəziyyəti hərtərəfli təhlil edilir.

Məlum olduğu kimi, sosial-iqtisadi inkişafın əsas və başlıca göstəriciləri sənaye sahəsinin ümumi inkişaf tempi ilə əlaqədardır. Rus mənbələrində 1901-1907-ci illərdə Naxçıvan sənayesinin ayrı-ayrı bölmələrinin inkişaf qanunauyğunluqları, özünəməxsus xüsusiyyətləri

və b. məsələlər də öz əksini tapmışdır. Duz sənayesi, tikinti materialları sənayesi, ipəkayırma və pambıqtəmizləmə sənayesi, konserv və şərabçılıq, yerli sənaye, ekoloji axtarışlar və kəşfiyyat haqqında verilən məlumatlar diqqəti cəlb edir. Fikrimizcə, bu rus mənbələrinin əksəriyyəti Naxçıvan regionunun 1901-1907-ci illərdə sosial-iqtisadi həyat tərzində baş vermiş kəmiyyət və keyfiyyət dəyişikliklərini izləmək baxımından da mühüm elmi əhəmiyyət kəsb edir.

N.Sokolskinin "Материалы по изучению Нахичеванской ССР" adlı kitabı bu mənbələr içərisində faktların dolğunluğu və məlumatların zənginliyi ilə xüsusilə seçilir. Müəllifin bu əsəri sırf XX əsrin I yarısına aid Naxçıvan iqtisadiyyatına dair məsələləri özündə əks etdirir. Həmin rus mənbəsində bəhs edilən dövr – 1901-1907-ci illərə aid olan fakt və materiallar xüsusi maraq doğurur. Mənbədəki materialların araşdırılıb tədqiq edilməsi elmi baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu rus mənbəsi bölgə iqtisadiyyatının yaradılması, inkişafı, formalaşması, sistemləşdirilməsi baxımından da müstəsna əhəmiyyətə malikdir. Xalq təsərrüfatının əsas sahələri olan rabitə, nəqliyyat, kommunal təsərrüfat, maarif və səhiyyə, o cümlədən yerli və dövlət büdcəsi haqqında məlumatlar daha qiymətlidir. Naxçıvan bölgəsinin regionlarında fəaliyyət göstərən sənaye və kənd təsərrüfatı müəssisələrinin yaradılması, istehsal sahələrinin genişləndirilməsi və yenidən qurulmasını tarixi faktlar əsasında göstərən rus müəllifi müəyyənləşdirmişdir ki, ərazidə iqtisadiyyatı inkişaf etdirmək üçün mühüm əhəmiyyəti olan ekoloji şərait, məhsuldar qüvvələr, kənd təsərrüfatı məhsulları, iqtisadi və müalicə əhəmiyyətli mineral sular və b. amillər vardır.

Tədqiqatdan və tarixi ədəbiyyatlardan məlum olur ki, XX yüzilliyin əvvəllərində bölgənin sənayesi bir neçə kiçik müəssisədən, o cümlədən az miqdarda məhsul verən və ibtidai üsulla işləyən duz mədənindən, kərpic bişirən kürədən, yarımkustar üsulla işləyən ipək, yun və pambıqtəmizləyən xırda müəssisələrdən ibarət olmuşdur. Mənbələrin təhlili sübut edir ki, bölgənin regionlarında sənaye müəssisələrinin artım sürəti yeni yaradılmış müəssisələrin hesabına olmuşdur. Naxçıvan duz mədənlərinin fəaliyyətinin və duz hasilatının 1901-1907-ci illərdə maraq doğurduğunu nəzərə alıb, qısa məlumat verməyi məqsədəuyğun hesab edirik.

İlk öncə qeyd edək ki, bölgədə fəaliyyət göstərən bu sənaye müəssisələri artıq XX əsrin əvvəllərindən başlayaraq təkcə yerli deyil, Cənubi Qafqaz əhəmiyyətli müəssisələrə çevrilirdi. Naxçıvan duz mənbələri bir çox rus mənbələrində "duz sənayesi" də adlandırılır. Naxçıvan tarixinə aid olan bir neçə rus mənbəsində diyarımızda hasil edilən duzun keyfiyyəti, ixracı, qiyməti, miqdarı və s. məsələlər haqqında maraqlı məlumatlar əldə etmək mümkündür. Hələ XIX əsrdə bu mədənlər bölgədə olmuş rus sənayeçilərinin, səyyahların diqqətini cəlb etmiş, yataqların yerləşdiyi ərazi, duzun çıxarılma texnologiyası onları maraqlandırmışdır. Fikrimizcə, Naxçıvanda duz çıxarılması çox qədim dövrdən-hələ daş dövründən mövcud olmuşdur.

Qədim zamanlardan başlayaraq bölgənin həyatında ciddi rol oynayan Naxçıvan duzuna XX əsrin I yarısında, o cümlədən 1901-1907-ci illərdə də böyük ehtiyac olmuşdur. Həmin illərdə sənaye sahəsində, məişətdə və təsərrüfatdakı böyük tələbata görə duz istehsalı xeyli artırılmışdır. Bəhs edilən dövrdə Naxçıvan duzu Cənubi Qafqazın bütün regionlarına aparılırdı. Diyarımızda daş duz yataqlarından çıxarılan duz soda istehsalı ilə yanaşı, müxtəlif sənaye sahələri üçün əvəzolunmaz xammal idi.

Tarixən Azərbaycan ərazisində duz hasilatının əsas xammal mənbəyi Naxçıvan duz mədənləri və Abşerondakı duz yataqları olmuşdur. Naxçıvan mahalında Duzdağ yaxınlığında da duz hissələri çıxarılırdı [5, s. 329]. Naxçıvan bölgəsində olan duz yataqlarının çox çətin, ziddiyyətli və mürəkkəb inkişaf yolu keçdiyini göstərən N.Sokolski yazırdı ki, bunlardan ikisi: I – Naxçıvan şəhərindən 13-14 km şimal-qərbdə yerləşən V.İ.Lenin adına duz yataqları, II –

Sust kəndindən 24 km şimalda yerləşən 26 kommunar adına duz yataqları daha çox istismar edilirdi [7, c. 84]. Duz yataqlarında olan duz ehtiyatları da maraq doğuran məsələlərdən biridir. Yeri gəlmişkən bu yataqlarda olan duz ehtiyatları haqqında mənbələrdə müxtəlif rəqəmlər verilir. XX əsrin əvvəllərinə aid olan bir rus mənbəsində Lenin adına olan Naxçıvan duz mədənlərində 55 milyon ton, Sust duz mədənlərində isə 45 milyon ton daş duz ehtiyatları olduğu bildirilir [7, c. 85]. Regiondakı sosial-siyasi və hərbi vəziyyət iqtisadiyyatın bütün sahələrinə, o cümlədən duz hasilatına mənfi təsir göstərmişdir. Bu dövrdə bütün Qafqaz ölkələri kimi Azərbaycan da Krımdan və Türkmənistandan (Kullin duzu) gətirilən duzla təchiz edilmişdi. 1921-1922-ci illərdə yaradılmış Xüsusi Qafqaz Ordusu Naxçıvan duz mədənlərinin yenidən qurulması və istismarı sahəsində başlıca rol oynamışdır. Rus mənbələrinin təhlilindən belə məlum olur ki, XX əsrin əvvəllərindən başlayaraq Naxçıvan duz yataqları müxtəlif trest, komitə, təşkilat və cəmiyyətlərin tərkibinə qatılmışdır. N.Sokolski yazırdı ki, bölgədəki duz istismarı duz sənayesi cəmiyyətlərinin (məs: "Solprom"), daha sonra isə sənaye-ticarət komitəsinin əlində cəmlənmişdi. Xüsusi Qafqaz Ordusunun xəttilə müxtəlif vaxtlarda ayrıca duz ekspedisiyaları təşkil edilmişdi [7, c. 86].

Bölgədəki duz mədənləri uzun müddət erməni, yəhudi və b. əcnəbi sahibkarların ixtiyarında olmuşdur. Rus mühəndisi V.Q.Yudoviç soyadlı şəxsin xeyli müddət Naxçıvan duz mədənlərinin direktoru vəzifəsində çalışmasını tarixi mənbə də təsdiqləyir. Bu siyahını uzatmaq da olar. Erməni ekstremistlərinin hələ ötən əsrin əvvəllərində və 50-ci illərində bölgənin duz mədənlərində yaratdığı münaqişələr və törətdiyi təxribatlar bütövlükdə muxtar respublika iqtisadiyyatının bütün sahələrinə ciddi ziyan vurmuşdur. O zamankı sovet rəhbərliyinin bunlara göz yumması nəticəsində bölgədəki duz mədənləri çox acınacaqlı və yararsız vəziyyətə düşmüşdür. Müasir dövrdə mühüm uğurlar və nailiyyətlər əldə edən Naxçıvan duz sənayesi çox çətin, mürəkkəb və ziddiyyətli bir inkişaf yolu keçmişdir.

Əldə olan məlumata görə 1903-1913-cü illərdə Naxçıvan duz mədənindən 1755086 pud, Sust mədənindən 806488 pud duz çıxarılmışdı. Naxçıvan duz yataqlarında istehsal olunan məhsulun daşınması uzun müddət problem məsələ olaraq qalmışdı. Çətinlik törədən əsas məsələlərdən biri də nəqliyyat çatışmazlığı ilə bağlı olmuşdu. Məişətdə və təsərrüfatdakı tələbata görə artan duz istehsalının ixracını təmin etmək üçün mədənlərə yeni və əlverişli yol çəkmək məsələsi həll edilməli idi. Duz mədənlərindən yaxınlıqdakı dəmiryol stansiyasına kanat yolun çəkilməsi ilə bu problem də uğurlu həllini tapdı. Baş-Başı dəmiryol stansiyasınadək uzanan bu kanat yolun tikintisinə 1926-cı ildə başlanmış və qısa bir vaxtda – 1929-cu ildə o, istismara verilmişdi. XX əsr rus müəllifi N.Sokolski yazırdı ki, bölgədə sənayeləşdirmənin başlamasının ilk əlaməti olan bu yolun çəkilişi duz sənayesinin yüksək sürətlə inkişaf etməsinə əlverişli şərait yaratdı [7, s. 88]. Bütün bunlar nəticə etibarilə istehsalın artmasına və daşıma xərclərinin azalmasına səbəb oldu.

Naxçıvan duzunun keyfiyyəti məsələsi uzun müddət mübahisəli olmuşdur. Mütəxəssislər bu barədə müxtəlif fikirlər irəli sürmüşlər. Onların bir qismi Naxçıvan mədənlərində istehsal olunan duzun keyfiyyətinə görə onun Ukrayna və Türkmənistan duzundan aşağı səviyyədə olduğunu, bəziləri isə əksinə, Naxçıvan duzunun Cənubi Qafqaza gətirilən duzlardan keyfiyyətcə üstün olduğunu iddia edirdilər. Naxçıvan duzunun tamını və özünəməxsus şöhrətini göstərən rus müəllifi yazırdı ki, "bu duz keyfiyyətinə görə bütün Zaqafqaziyada məşhurdur" [1, s. 17]. 1901-1907-ci illərdə bölgəmizdə çıxarılan duz əsasən mal-qaranın yemlənməsində, sənaye və texnikanın müxtəlif sahələrində, habelə təsərrüfat məqsədilə – dəri və sabun istehsalında da istifadə edilirdi.

Bölgəmizdəki duz yataqlarının yerləşdiyi ərazi, çıxarılan duzun həcmi, miqdarı və qiyməti haqqında rus mənbələrində (K.Nikitinin, N.K.Nikiforovun, N.Sokolskinin və b. əsərlərində) zəngin məlumatlar vardır. Həmin mənbələrin əksəriyyətinin təhlilindən aydın olur ki, ərazidəki duz mədənlərində istehsal çox primitiv texnikaya əsaslanmış və məhdud xarakter daşımışdır. Suyun olmaması çətinlik törədən məsələlərdən olmuşdur. Rus mənbələrindən birində yazılırdı ki, suyu Naxçıvandan 12-15 verst kənarda olan bir ərazidən gətirirlər [4, s. 137-138]. Duzçıxaranlar, məmurlar və fəhlələr çox kiçik yeraltı qazmalarda yaşayırmışlar. Lakin nəqliyyat çatışmazlığı və duzun daşınması sahəsində ciddi çətinliklər var idi. Diyarımızdakı daş duz yataqlarından çıxarılan duz soda istehsalı ilə yanaşı, müxtəlif sənaye sahələri üçün əvəzolunmaz xammal idi.

Ümumiyyətlə, XX əsrin əvvəllərində Naxçıvan qəzasında konkret rəqəmlərin göstərildiyi cədvəlin təhlilindən görünür ki, daş duz istehsalında sabit inkişaf olmamışdır. Ayrı-ayrı illər üzrə artıb-azalmalar diqqəti cəlb edir. Bu vəziyyət mənbələrdəki müəyyən natamamlıqdan irəli gəlir. Bəzi illərdə çıxarılan duzun həcmi çox olmuşdur. Məs; xəzinə mədənlərindən 1902-1903 və 1905-ci illərdə orta hesabla 400-500 min pud daş duz istehsal edilmişdi. Bu baxımdan 1909, 1912 və 1914-cü illəri də xəzinə üçün uğurlu hesab etmək olar.

Rus mənbələrində Naxçıvan duz sənayesi, duz mədənlərinin yerləşdiyi ərazi, duzun çıxarılma texnologiyası, onun həcmi, miqdarı, çeşidi və qiyməti haqqında maraqlı məlumatlar əldə etmək mümkündür. Rus mənbələrinin təhlilindən aydın olur ki, mədənlərdə iş şəraiti çox ağır olmuş, duz istehsalının əhatə dairəsi o qədər də geniş olmamışdır. Əsasən primitiv texnikaya əsaslanan duz yataqlarında su çatışmazlığı çox ciddi problem olmuşdur.

1901-1907-ci illər Naxçıvan tarixinin rus mənbələri əsasında tədqiqindən aydın olur ki, bölgənin bu dövr tarixi çox səthi və qeyri obyektiv öyrənilirdi. Bundan əlavə bu dövr rus qafqazşünasları Rusiyanın bölgədəki müstəmləkəçilik siyasətini dəstəkləyir, hətta ona haqq qazandırmağa çalışırdılar. Bu mənbələr yerli xalqın dilini bilməyən rus müəlliflərinin erməni və ermənipərəst adamlardan aldığı məlumat və materiallar əsasında yazıldığı üçün tarixi hadisə və faktların əksəriyyəti şişirdilir, hətta təhrif edilirdi. Xüsusən də demoqrafiya, əhalinin sayı və etnik tərkibi ilə bağlı olan məsələlərdə yanlışlıqlara yol verilirdi. Bu xüsusiyyətlərinə görə rus mənbələrini dəqiq və hərtərəfli araşdırmaqla onlara tənqidi yanaşılmalıdır. Lakin müəyyən təhrif və yanlışlıqları, ermənipərəstliyi istisna etməklə bu dövr rus mənbələri Naxçıvan tarixi üçün əvəzsiz və qiymətli mənbələrdir.

Bu mənbələrdə verilən bütün fakt və rəqəmlərlə razılaşmaq sadəlövhlük olardı. Çünki bəhs edilən dövrdə Naxçıvana gələn rus ziyalıları, səyyahları, diplomatları, sənayeçiləri və b. bölgənin tarixinə aid olan bu və ya başqa məsələlərin təhlilində Rusiyanın müstəmləkəçi siyasətini pərdələyir, çox zaman faktları saxtalaşdırmaqdan belə çəkinmirdilər. Bu müəlliflərin əksəriyyətinin yazdığı əsərlərdə xeyli təhrif və yanlışlıqlara da yol verilir, ermənipərəstlik meylləri özünü açıq-aydın göstərirdi. Bu dövr rus mənbələrinin çoxunda erməni və ermənipərəst adamlardan əldə edilən material və məlumatlardan istifadə edilirdi. Bütün bunlar nəticə etibarilə təhrifedici və qeyri elmi əsərlərin yaranmasına səbəb olurdu. Digər bir tərəfdən bu dövrdə bölgəyə gələn rus araşdırıcı və tədqiqatçılarının yerli xalqın dilini bilməməsi də yazılan əsərlərdə faktların saxtalaşdırılmasına təkan verirdi.

Sonda belə bir nəticəyə gəlmək olar ki, 1901-1907-ci illərdə də Naxçıvan duzuna böyük ehtiyac olmuş, bölgədə fəaliyyət göstərən bu sənaye müəssisələri Cənubi Qafqaz əhəmiyyətli müəssisələrə çevrilməyə başlamışdılar. Həmin illərdə məhsulun daşınması problem məsələ olaraq qalmış və istehsal məhdud xarakter daşımışdır. 1901-1907-ci illərdə primitiv texnikaya əsaslanan duz yataqlarında su çatışmazlığı özünü qabarıq şəkildə göstərmişdir.

ƏDƏBİYYAT

1. Григорьев В. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург, 1833, 263 с.
2. Иванов Р. Нашествие. Москва: Герои Отечества, 2009, 448 с., 39 илл. прил.
3. Никифоров Н. Экономический быт государственных крестьян западной части Нахичеванского уезда Эриванской губернии // Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т. 1, вып. V, Тифлис, 1885, с. 558-640.
4. Никитин К. Город Нахичевань и Нахичеванский уездъ // СМОМПК, вып. 2, Тифлис, 1882, с. 109-142.
5. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Ч. IV, Санкт-Петербург, 1836, 401 с.
6. Смирнов К. Материалы по истории и этнографии Нахчыванского края. Баку: Озан, 1999, 156 с.
7. Сокольский Н. Материалы по изучению Нахчыванской ССР. Изд. 2, Тифлис: ЗакГИЗ, 1933, 184 с.

Yashar Rahimov

SALT INDUSTRY OF NAKHCHYIVAN IN 1901-1907 (based on Russian sources)

The paper examines the history of the salt mines of Nakhchivan, operating since ancient times - since the Stone Age, and the situation in the industry in 1901-1907. The work was written based on the analysis of the works and articles of Russian intellectuals and historians (N.Nikiforov, N.Sokolsky, K.Smirnov, R.Ivanov, et cetera) who visited the Nakhchivan salt mines. This topic was chosen because of the particular interest that arouses the questions of salt mines' activity in our region in 1901-1907, their position, the salt reserves there, the technology of its extraction, quantity, sale. The history of the salt mines located in the Nakhchivan region, the situation here in those years and today are among the historical issues that attract attention with their relevance.

We have concluded that, despite some distortions, shortcomings, and pro-Armenian position, Russian sources of that period are valuable and irreplaceable for the history of Nakhchivan.

Keywords: *russian, salt, Nakhchivan, economy, source.*

Яшар Рагимов

СОЛЯНАЯ ПРОМЫШЛЕННОСТЬ НАХЧЫВАНА В 1901-1907 гг. (на основе русских источников)

В статье рассмотрена история соляных копей Нахчывана, действовавших с древнейших времен – еще с каменного века, и ситуация в отрасли в 1901-1907 годах. Работа написана по результатам анализа трудов и статей русских интеллигентов и историков

(Н.Никифорова, Н.Сокольского, К.Смирнова, Р.Иванова и др.), посещавших нахчыванские соляные копи. Данная тема избрана по причине особого интереса, который вызывают вопросы деятельности в нашем регионе соляных копей в 1901-1907 гг., их положения, имевшихся здесь запасов соли, технологии ее добычи, количества, продажи и т.д. История соляных копей, расположенных в Нахчыванском регионе, обстановка здесь в те годы и сегодня являются одними из исторических вопросов, привлекающих внимание своей актуальностью.

В заключении статьи получен такой вывод, что несмотря на некоторые искажения, недостатки и проармянскую позицию, русские источники того периода являются ценными и незаменимыми для истории Нахчывана.

Ключевые слова: *русский, соль, Нахчыван, экономическое развитие, история.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 18.01.2021
Son variant 11.02.2021

UOT 94 (479.24)

MUSA QULİYEV

1832-Cİ İL KAMERAL SİYAHISI KƏNGƏRLİ TAYFASI HAQQINDA

Məqalədə Rusiyanın məmurlarının 1832-ci ildə Kəngərli tayfasının kameral siyahısını (təsvirini) hazırlamalarından söhbət açılmışdır.1832-ci ildə tərtib edilən Kəngərli tayfasının kameral siyahısı əvəzsiz tarixi mənbədir. Çünki bu arxiv işi bir çox mübahisəli məsələlərə aydınlıq gətirir. Naxçıvan şəhərinin 1832-ci il kameral təsvirində şəhərdə yaşayan əhalinin say tərkibi haqqında məlumatlar, Kəngərli tayfasının tirələri haqqında ətraflı qeydlər bu qədim oğuz tayfasının tarixini ətraflı öyrənməyə imkan verir. Bu kameral təsvirin köməyi ilə təkcə Bilici kəngərlilərin yox, digər tirələrin də hərbiçiləri haqda məlumat əldə etmək mümkündür. Məqalədə həmçinin qədim oğuz türk tayfası olan kəngərlilərin və ondan ayrılmış nəsil qolları haqqında hərtərəfli məlumat verilmişdir.

Açar sözlər: *Naxçıvan, kameral siyahı, Nəzərəli xan, Ehsan xan, Kəngərli tayfası, süvari.*

"1832-ci il kameral siyahısı kəngərli tayfası haqqında" adlı mövzu Azərbaycan tarixşünaslığında indiyədək araşdırılmamış və sistemli şəkildə tədqiqat obyekti olmamışdır. Məlumdur ki, kəngərlilər eramızın ikinci əsrindən Naxçıvan ərazisində yaşayırlar. Qədim Oğuz türk tayfası olan kəngərlilərin nəsil qolları haqqında Səfəvi imperiyası zamanında olan yazılı mənbələr dövrümüzədək gəlib çatmışdır. Kəngərli arxivində olan tarixi sənədlərə əsasən bunu söyləyə bilirik. "Hicri 1194-cü (miladi 1780) ilin rəbiəl-əvvəl ayında bəndeyi-dərgah Vəkalətpənah Kərim soltana, kəndxudalılara və onlarla həmkar şəriklərə göstəriş vermişdi ki, onlar aşağıdakı təfsilat üzrə kəngərlilərə məxsusi boniçəbəndi (siyahını) hazırlasınlar və bu qayda ilə də (onu) yuxarı divanxanalara göndərsinlər. Siyahıya əsasən həmkar şəriklərindən hər birisinin hesabı da müəyyən olunsun. Və həmin siyahını kəndxudaların, onlarla həmkar şəriklərin möhürləri ilə təsdiqləyib hifz etsinlər" [2, s. 18]. Bu tarixi sənəddə-siyahıda Kəngərli elinin qollarına məxsus 23 tayfa adı çəkilmişdir. Maraqlı haldır ki, burada rast gəlinən tayfa adlarından bəziləri artıq 1832-ci ilin kameral siyahısında kənd adları kimi tarixləşmişdir. Məsələn, Bədəxşanlı, Qorsə, Gəronpa və s. Bu sənəddə verilən siyahıdan göründüyü kimi onlardan Qaradolağı, Bilici-Ərəbxanlı, Kəcləri-Qədim, Kəcləri-Cədid, Gomayıl, Qurdlar və Sarvanlar adlı nəsillər də qol-budaq atıb. Belə bir fakt həmin camaatların siyahıda adı çəkilmiş digər camaatlara görə genealoji (nəsil artımı) nöqteyi-nəzərindən daha qədim tarixə malik olduqlarını sübut edir. Bu nəsillərdən Qaradolağı, Bilici-Ərəbxanlı, Kəcləri-Qədim və Kəcləri-Cədid Kəngərli elinin Bilici oymağına mənsubdurlar. Qeyd edək ki, kəclər (qəclər) peçeneq-kəngərli nəsli hesab edilir. Bu sənədin əvvəllərində siyahının tərtib olunması səbəbini aydınlaşdıran bir xülasə maraq doğurur. Xülasənin məzmunundan məlum olur ki, XVIII əsrdə Kəngərli elinin öhdəsində Boniçəbəndi adlı mükəlləfiyyət olub. Siyahının yuxarı idarələrin nəzdindəki xidmət divanxanaların sərəncamına göndərilməsi aktı yuxarıda məlumat verdiyimiz mükəlləfiyyətin hərbi xidmət çağırışı olduğunu təsdiqləyir. Mükəlləfiyyətin Kəngərli elinin camaatları arasında qeyri-bərabər şəkildə paylaşdırılmasından isə belə aydın olur ki, yığma əməliyyatı ordu sıralarını ancaq təkmilləşdirmək üçün həyata keçirilib.

Rusiya-İran müharibələrinə aid salnamələrdən əldə edilmiş məlumatlara görə Naxçıvan uzun müddət Səfəvi dövlətinin xidmətinə "Naxçıvan süvariləri" adı altında Kəngərli elindən yığma atlı dəstələr göndərirdi. Bu hökmü verən isə Naxçıvanın hakimi olmuşdu [2, s. 7-8]. 1828-ci ildə Naxçıvan xanlığı Rusiya imperiyasına birləşdirildikdən sonra, 1831-32-ci illərdə ilk dəfə Kəngərli tayfası Naxçıvan əyalətində və Naxçıvan şəhərində siyahıya alınmışdır. Bu işlər rusiyalı məmurlar tərəfindən aparılsa da Kəngərli tayfasının başçısının (vəkilin) dedik-

lərinə əsasən qeydə alınmışdır. İlk və son dəfə (çünki sonralar aparılan siyahıya almalarda belə təsvir olunmayıb) Kəngərli tayfası və onun nəsil budaqları belə ətraflı qeydə alınıb. Bu kameral təsvirlərdə Kəngərli tayfasının elə qollarının adlarına rast gəlinir ki, bu, bir çox mübahisələrə son qoyur. Naxçıvan şəhərində yaşayan Kəngərli tayfasının Xalxallı, Qızıllı, Qaradolaqlı, Sarbanlar (Sarvanlar), Salahı, Gomayıl, Qurdlar, Qarabağlar, Ağabəyli, Qaraxanbəyli, Qəclər (Kəclər), Cəmşidli, Bilici, Şabanlı, Kəlfir, Pirhəsənli, Ərəfsəli, Cığataylı, Qaraköçərli, Qaraxanbəyli, Yurdçu, Əlixanlı qollarına mənsub olan kəngərlilərin siyahısı kameral təsvirlərdə ətraflı qeydə alınmışdır [1]. Maraqlı haldır ki, sonralar, yəni 1833-cü ildə rus diplomatı və vergi məmuru, şair V.N.Qriqoryev "Статическое описание Нахичеванской провинции" adlı əsərində bu kameral siyahıdan istifadə etmişdir [5]. Rusiyanın hərbi tarixçisi İ.Şopenin araşdırmalarında da 1832-ci ilin kameral təsvirindən istifadə etdiyi aşkar görünür. Amma Şopenin Kəngərli tayfasına daxil etdiyi yeni tirələrin bəziləri bu gün də ziddiyyət doğurur. Demək olar ki, Şopenin etdiyi əlavə tirələrin dərindən tədqiqinə ehtiyac duyulur [6, s. 537). Gələcək tədqiqatlarımızda bu vacib məsələni araşdırmağı qarşımızda məqsəd qoymuşuq. Çünki onun əlavə etdiyi yeni tirələr 1831-1832-ci il kameral siyahıya almada yoxdur (istər şəhərdə, istərsə də əyalətdə). Çox əhəmiyyətli olan bu arxiv sənədi bir daha təsdiqləyir ki, Naxçıvan çox qədimlərdən kəngərlilərin vətəni olmuşdur.

1832-ci il kameral siyahısı Kəngərli tayfası haqqında. Kəngərli qədim türk tayfasıdır. Onlar peçeneq tayfalarından olmuşdur. Eramızın I əsrində hunlarla birlikdə Zaqafqaziyaya gələn kəngərlilərin Naxçıvan ərazisində II əsrdən yaşadıqları barədə məlumat vardır. İndiyədək yazırdılar ki, Kəngərli tayfası V əsrdən Naxçıvan ərazisində yaşamışlar. Amma türkşünas rus alimi S.Q.Klyaştornı yazdığı tədqiqat əsərində qeyd edir ki, peçeneq kəngərlilər Cənubi Qafqaza eramızın I əsrində gəliblər [3, s. 179]. Aparılan araşdırmalar göstərir ki, hələ əvvəllərdə yazılan bir çox mənbələrdə peçeneq kəngərlilərin oğuz olmaları haqqında maraqlı məlumatlar vardır. Bakıda Azərbaycan Əlyazmalar İnstitutunda saxlanılan və E.Seyidbəylinin kitabında nəşr edilmiş kəngərli arxeoqrafik sənədlərində də həmin dövrdə kəngərli tayfasına aid 23 tirənin adı çəkilmişdir [2, s. 18-20]. Naxçıvanın ən qədim məhəllələrindən biri "Qurdlar məhəlləsi" indi də var. 1832-ci il kameral siyahıda Qurdlar tayfası Kəngərli tayfası kimi göstərilmişdir. Bu arxeoqrafik sənədlərin çoxu 1700-ci illərə aiddir və biz orada kəngərlilərin Naxçıvani familiyasına rast gəlirik [2].

Tarixə bir balaca ekskurs etməkdə məqsədimiz odur ki, Kəngərli tayfasının kameral siyahıya alınması yaxud təsvir olunması orta əsrlərə də gedib çıxır. Sənədlər tapılsa, daha əvvəllərdə də belə sənədləşmələrin şahidi olarıq. Çünki Kəngərli tayfasının cavanları hamısı döyüşçülər olublar. Siyahıyaalma da əsasən gənclərin hərbi mükəlləfiyyətli olması ilə bağlı olub. Tədqiqata daxil etdiyimiz mənbədə – 1832-ci ildə kəngərli tayfasının Naxçıvan sahəsində kameral siyahıya alınmasından (təsvirindən) bəhs edilir. Bu arxiv işi 337 səhifədən ibarətdir. Quberniya katibi Zolotnitski tərəfindən tərtib olunmuşdur. Burada şəhərin adı, şəhər sakinlərinin adları, müsəlmanlar və digər dinlərə mənsub olanlar, onların yaşı və cinslər üzrə sayı, özgə millətlər, məşğul olduqları xüsusi iş yerləri haqqında məlumatlar vardır. Yan sütunda sağ tərəfdə 2-ci səhifədən başlayaraq Naxçıvan şəhərinin adı, sərhədləri, şəhəri dövrələyən torpaqlar, şəhərin 4 hissəyə bölünməsi (Sarvanlar. Şahab, Əlixan və Qurdlar) haqda, şəhərdə 13 məhəllənin olmasından, suyu, iqlimi, əhalisi, dini ibadətgahları, evləri, bazarı və hamamları haqqında maraqlı məlumatlar vardır.

Naxçıvan şəhərinin 1832-ci il kameral təsvirində şəhərdə yaşayan əhalinin say tərkibi haqqında məlumat cədvəlləri də maraqlıdır. Burada kəngərlilərin Kəngərli tayfası və onun

tirələri ayrıca olaraq qeyd edilib: 411 ailə, 879 kişi, 815 qadın, cəmi 1694 nəfər. Digər tayfalara mənsub azərbaycanlılar: 494 ailə, 1004 kişi, 926 qadın, cəmi 1930 nəfər. Boşalar (müsəlman qaraçılar-lurlar) 4 ailə, 9 kişi, 8 qadın, cəmi 17 nəfər. Köçürülən ermənilər: 265 ev, 600 kişi, 510 qadın, cəmi 1110 nəfər. Gürcülər: 1 ev, 2 nəfər kişi, 2 qadın, cəmi 4 nəfər. Bütünlüklə, şəhərdəki evlərin sayı 1330, 2871 kişi, 2599 qadın, cəmi 5470 əhali göstərilib. Kameral siyahıya almada 2 xan ailəsi, 45 bəy və sultan ailəsi, 11 nəfər hərbiçilər qeyd olunub. Ali ruhani şəxs 2, axund və mollalar 36, seyidlər 22, 3 dərviş, 6 mirzə göstərilib. Bunların hamısının ailələrinin də cəmi göstərilib: 127. Naxçıvan şəhərində 2 məscidin olması qeyd olunub. Həm də məscidlərin birində məktəbin fəaliyyəti haqda da məlumat var. Bu arxiv sənədində şəhərdə bir bazarın və 2 karvansaranın fəaliyyət göstərməsindən də danışılır. Hətta bir karvansaranın 31 dükanı olması haqda qeyd də var. Göstərilib ki, bu karvansaranı köçürülən ermənilər zəbt edib.

Kameral təsvirdə qeyd edilib ki, şəhərin bütün dükanları bazarda və karvansarada yerləşir. Ancaq bir neçə meyvə dükanları şəhərin müxtəlif yerlərində yerləşib. Şəhərdə işləyən dükanların sayı 223 kimi qeyd olunub. Hətta burada bazarda və karvansarada boş olan dükanların da sayı qeyd olunub: bazarda 25, karvansarada 38. Naxçıvan şəhərində 3 hamam, 2 körpü və bir meydança olması haqqında da məlumat var. Həmçinin maldarlıq, bağçılıq, dəyirmanlar haqqında məlumat qeyd edilib. Naxçıvan şəhərində fəaliyyət göstərən müxtəlif peşə sahiblərinin (sənətin növü, adı göstərilməklə) sayları də göstərilib. Burada Naxçıvan şəhərində və vergi növləri haqqında da ətraflı məlumat yerləşdirilib [1, v. 2-26].

Burada qeydlərdən aşkar görünür ki, "Naxçıvan əyalətinin statistik təsviri"ni yazan V.N.Qriqoryev bu mənbədən tamamilə istifadə edib. Ona görə də biz tədqiqatçılar "Naxçıvan xanlığı" haqqında tədqiqat apararkən, kitab yazarkən hökmən 1832-ci ildə tərtib edilən kameral təsvirlər olan sənədlərə söykənməliyik. Çünki bu ilk rusdilli arxiv sənədidir ki, Kəngərli tayfasını və onun tirələrini ətraflı təsvir edib. Qriqoryevin yazdığı kitab (1833) artıq 2-ci mənbə sayılır və burada təhriflər və şərhlər 1832-ci ildəki kameral siyahıya almada (təsvirlərdə) yoxdur. Sağdakı məlumatlar Naxçıvan şəhərinin yaranması ilə bağlı əfsanə və rəvayətlərdən söhbət açır. Burada maraqlı tarixi məsələlər də var, ziddiyyətli məsələlər də.

Kameralistika, yaxud dövlətşünaslıq elminin də tarixi çox qədimdir. Rusiya imperiyasında kameral siyahıya alma yaxud təsvirlər məsələsinə 1772-ci ildən başlanılıb. Cənubi Qafqazı işğal edən Rusiya Şimali Qafqazda olduğu kimi, Zaqafqaziyada da yaşayan əhalinin, xalqların, etniklərin kameral siyahıya alınması (təsviri) məsələsinə ciddi yanaşıb və buraxılan səhvlər çox deyil. Azərbaycan Respublikası Dövlət Tarix Arxivində Naxçıvan diyarına aid 43 kameral siyahı (təsvir) saxlanılır. Onlardan 8-i (müxtəlif illərə aid) Naxçıvan şəhərini əhatə edir. Amma ən mükəmməli 1832 və 1843-cü ilə aid olanlardır. 1832-ci ilə aid olan arxiv işində Naxçıvan şəhərində Kəngərli tayfasının qədimdən gəlmə tirələri (qolları) geniş tərtib edilib. Qeyd edək ki, burada İrandan köçürülən ermənilərin də arada bir siyahıları yerləşdirilib. Bu kameral siyahı ilə işləyən tədqiqatçı bilməlidir ki, Lazarev tərəfindən Naxçıvan məhəllələrinə köçürülən ermənilərin Kəngərli tayfasına qətiyyən aidiyyəti yoxdur. 1832-ci ilə aid arxiv işində kəngərli tayfasının aşağıdakı tirələri qeyd edilib: Bilici, Qaradolaqlı, Sarbanlar, Xalxallı, Salahı, Gomayıl, Qarabağlar, Ağabəyli, Çağataylı, Qaraxanbəyli, Qəclər (Kəclər), Cəmşidli, Şabanlı (Şahbanlu), Kəlfir, Pirhəsənli, Ərəfsəli, Qızıllı, Qara köçəri, Qaracalı, Yurdçu, Əlixanlı, Əliələkbərlilər, Qızılqışlaqlar, Qurdlar və s.

1832-ci ilə aid kameral təsvirlərdə Kəngərli tayfasına mənsub tirələrin (qolların, nəsillərin) yaşadıqları məhəllələr də qeyd edilib. Əvvəlcə qeyd edək ki, həmin ildə Naxçıvan şəhərində aşağıdakı məhəllələr qeydə alınıb:

Sarvanlar, Erməni məhəlləsi (1828-ci ildə İrandan köçürülən ermənilər), Oruc məhəllə, Köhnə Qala, Xoşulu, Əlixan, Çaparxana, Ziyilarxı, Bilici, Şahab, Xoylu, Təzəkənd yaxud Uzun Divar. Bunların hər birində yaşayan kəngərlilərin mənsub olduqları tayfa tirələrinin də adları qeyd edilib. Məsələn, Naxçıvan şəhərinin Sarbanlar hissəsində Kəngərli tayfasına mənsub olan aşağıdakı tirələrin (nəsillərin) adlarına rast gəlinir:

1) Yurdçu; 2) Qızıllı; 3) Qaradolaqlı; 4) Pirhəsənli; 5) Sarbanlar; 6) Salahılar; 7) Xalxallılar; 8) Gomayıllar; 9) Qarabağlar; 10) Ağabəylilər; 11) Cığataylılar; 12) Qaraxanbəylilər.

Əlixanlı hissəsində:

1) Ağabəyli; 2) Ərəfsəli; 3) Qızıllı; 4) Əlixanlı; 5) Salahlı; 6) Qəclər (Kəclər).

Şahab hissəsində: Bilicilər və s.

Kameral təsvirlərdə kəngərlilərin Bilici tirəsinə (nəslinə) aid olan əsilzadələrin özlərinin və ailələrinin ailə üzvləri və onlara aid mülklərin şəhərin hansı məhəlləsində olması haqda məlumat vardır. Onlardan bəziləri haqqında məlumat veririk.

Şahab məhəlləsində Kalbalı xanın böyük oğlu Nəzərəli xanın yaşaması yazılıb. Həmçinin onun özü və ailə üzvləri haqqında məlumatlar yerləşdirilib;

1) Nəzərəli xan Kalbalı xan oğlu 55 yaşında;

2) Həyat yoldaşları: Fatma (vəfat edib) 55 yaşında, Bibi xanım 25 yaşında, Zöhrə xanım 15 yaşında;

3) oğlu Nəcəfqulu ağa 20 yaşında;

4) Həyat yoldaşı Sarabəyim xanım 20 yaşında;

5) oğlu Rzaqulu Varşavada 10 yaşında;

7 nökərinin də olduğu qeyd edilib [1, v. 265].

1831-ci ilin kameral siyahısında I Kalbalı xanın ikinci oğlu Naxçıvanın naibi I Ehsan xanın özü və ailəsi haqqında məlumat vardır. Polkovnik və kavaler Ehsan xan Kalbalı xan oğlu 40 yaşında, onun 4 həyat yoldaşı var: Xırda xanım (vəfat edib) 40 yaşında, Xədicə xanım (vəfat edib) 15 yaşında, Fatma xanım (ayrılıb) 30 yaşında, Telli xanım (ayrılıb) 18 yaşında. 3 oğulları var: İsmayıl xan 14 yaşında, Kalbalı xan 9 yaşında, Baba xan (vəfat edib) 7 yaşında. Qızı: Sonabəyim (ərdə) 18 yaşında. Nökəri Yusif (xaricdə) 15 yaşında. Xidmətçi qadın Zeynəb (vəfat edib) 60 yaşında [1, s. 1].

Qeyd edək ki, bu siyahıda Ehsan xanın həyat yoldaşı Bədirnisə xanımın (Şükrulla xanın qızı, Kərim xanın qızlığı) adı yazılmayıb. O, general-mayor Kalbalı xanın anasıdır. Bu haqda arxiv sənədi var [4, v. 11-12, 14]. Ehsan xanın qızı Lalabəyim sonralar doğulduğu üçün onun adı bu siyahıya düşməyib. Bu kameral təsvirin köməyi ilə təkcə Bilici kəngərlilərin yox, digər tirələrin də hərbiçiləri haqda məlumat əldə etmək mümkün oldu. Məsələn, Kəngərli tayfasının Pirhəsənli qoluna aid Bala Sultan İxlas Sultan oğlu, Kəclər qolunun yetişdirdiyi hərbçi və 3-cü dərəcəli Müqəddəs Anna ordeninin kavaleri praporşik Hacı Məmmədyar Məmməd oğlu, Salahı qolundan olan Nadirxan Sultan Eynalxan Sultan oğlu və digərləri haqqında məlumatlar almaq mümkündür. Bəzi səhvləri nəzərə almasaq, 1832-ci ilin kameral siyahısı Naxçıvan kəngərliləri haqda ətraflı məlumat verən orijinal ilk rusdilli mənbədir [1].

ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi (NMRDA): F. 314, siy. 6, iş 12, 357 v.
2. Seyidbəyli E. Naxçıvan torpaq mülkiyyətinə aid XVII-XVIII əsr Kəngərli arxeoqrafik sənədləri. Bakı, 2000, 229 s.

3. Кляшторный С.Г. Древнетюркские рунические памятники как источник по истории Средней Азии. Москва, 1964, 214 с.
4. РГИА (Российский Государственный Исторический Архив): Ф. 396, опись 1, дело № 979.
5. Статистическое описание Нахичеванской провинции / Составитель В.Н.Григорьев. СПб., 1833, 239 с.
6. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, 1235 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: kuliyevm@yandex.ru

Musa Guliyev

CAMERAL LIST OF 1832 ABOUT KENGERLY

The paper informs about preparing a cameral list (description) of the Kengerli clan in 1832 by Russian officials. The cameral list of the Kengerli family, compiled in 1832, is an irreplaceable historical source. This archived document clarifies many controversial issues. Information about the urban population's quantitative composition, detailed notes on the branches of the Kengerli clan in the cameral description of the city of Nakhchivan in 1832 makes it possible to study the history of this ancient Oguz clan comprehensively. With the help of this cameral description, it is possible to obtain information about the branch of the Kengerlins of Biliji and the military personnel from other branches. The paper also provides detailed information about the ancient Oguz Turkic clan Kengerli and the genealogical branches that separated from it.

Keywords: *Nakhchivan, cameral list, Nazarali khan, Ehsan khan, Kengerli clan, cavalry.*

Муса Гулиев

КАМЕРАЛЬНЫЙ СПИСОК 1832-го ГОДА О РОДЕ КЕНГЕРЛИ

В статье говорится о подготовке русскими чиновниками в 1832-м году камерального списка (описания) рода Кенгерли. Составленный в 1832-м году камеральный список рода Кенгерли является незаменимым историческим источником. Этот архивный документ вносит ясность во многие спорные вопросы. Сведения о количественном составе городского населения, подробные заметки о ветвях рода Кенгерли в камеральном описании города Нахчыван 1832-го года дают возможность всесторонне изучить историю этого древнего огузского рода. С помощью данного камерального описания можно получить сведения не только о ветви кенгерлинцев Билиджи, но и о военнослужащих из других ветвей. В статье также даны подробные сведения о древнем огузском тюркском роде Кенгерли и отделившихся от него генеалогических ветвях.

Ключевые слова: *Нахчыван, камеральный список, Назарали хан, Эхсан хан, род Кенгерли, конница.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 07.01.2021
Son variant 15.02.2021

UOT 94(479.24)

EMİN ŞIXƏLİYEV

BÖYÜK ŞAHMAT TAXTASINDA CƏNUBİ QAFQAZ VƏ GEOSİYASİ HƏMLƏLƏR

Məqalədə "Böyük Şahmat Taxtası" nəzəriyyəsi əsas götürülərək, Cənubi Qafqazın dünyanın geosiyasi xəritədəki yeri və geosiyasi həmlələr araşdırılmış, Dağlıq Qarabağ problemi həmin nəzəriyyə kontekstində təhlil edilmişdir. Ermənilərin işğalçılıq siyasəti və ərazi iddiaları Cənubi Qafqazda təhlükəsizliyin və sabitliyin təmin edilməsi istiqamətində ən böyük maneələrdən biridir. Təxminən 30 ilə yaxın idi ki, öz həllini tapmayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gələcəyi ilə bağlı qeyri-müəyyən bir vəziyyət yaranmışdı. Azərbaycan torpaqlarının 20%-nin Ermənistan tərəfindən işğalının davam etməsi müharibə ehtimalını artırmaqdaydı. Ermənistanın növbəti təxribatçı fəaliyyətləri ani müharibənin baş verməsinə səbəb oldu və nəticədə Ermənistan ağır məğlubiyyətə uğradı. Məqalədə bu kimi məsələlər analitik süzgəcdən keçirilmişdir.

Açar sözlər: *Böyük Şahmat Taxtası, Cənubi Qafqaz, Ermənistan, Azərbaycan, Rusiya, Fransa, Türkiyə, Vətən müharibəsi.*

ABŞ-ın məşhur strateqlərindən Zbiqnev Bjezinskinin 1997-ci ildə ortaya atdığı "Böyük Şahmat Taxtası" nəzəriyyəsi beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutan və sözün həqiqi mənasında dünya dövlətlərinin yerini müəyyənləşdirən geosiyasi bir nəzəriyyədir. Adından da göründüyü kimi, bu nəzəriyyədə dünya şahmat taxtasına bənzədilir. Z.Bjezinski öz nəzəriyyəsinə əsasən, mövcud şərtlərdə dünyanın geosiyasi xəritəsində kilid önəm daşıyan geostrateji aktorları və mehvərləri sadalamışdır (bu barədə ətraflı bax: 4). Biz də "Böyük Şahmat Taxtası" nəzəriyyəsini əsas tutaraq, Cənubi Qafqazın dünyanın geosiyasi xəritəsindəki yerini və geosiyasi həmlələri təhlil etməyə çalışacağıq.

Məlum olduğu kimi, Cənubi Qafqaz öz geosiyasi və geostrateji əhəmiyyətinə görə olduqca önəmli bir coğrafiyada yerləşir. Yaxın Şərq, Avropa və Asiya arasında yerləşən, tarix boyu geosiyasi maraqların toqquşduğu arena olan Cənubi Qafqazı öz coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə etmək mümkündür. Əsrlər boyu imperialist güclər bu bölgəyə sahib olmağı hədəfləmiş və öz nüfuz dairələrini digər ərazilərə yaymaq üçün məhz Cənubi Qafqazdan baza kimi yararlanmaq istəmişlər. Qeyd etmək lazımdır ki, tarixən hər bir böyük güc öz imperialist siyasətini həyata keçirərkən müxtəlif bəhanələrdən və amillərdən istifadə etmişdir. Hal-hazırda dünyada baş verən hadisələrdə, böyük güclərin geosiyasi maraqlarında da bu amilləri müşahidə etmək mümkündür. Günümüzdə böyük güclərin geosiyasi maraqlarının reallaşdırılmasında Əl-Qaidə, İŞİD, Əl-Nüsra, Boko Haram və s. kimi terrorist təşkilatların oynadığı rolu XIX əsrin sonu – XX əsrin əvvəllərində Armenakan, Hnçaq, Daşnaksutyun kimi erməni terror təşkilatları oynayırdılar. Metodlar eynidir, sadəcə olaraq günümüzdə rollar dəyişib. Bu mənada tarixin müəyyən mərhələlərində Cənubi Qafqazda geosiyasi maraqların həyata keçirilməsində başlıca rol oynayan vasitələrdən biri məhz "erməni kartı" olmuşdur. XX əsrin əvvəllərində böyük güclər tərəfindən Türk Dünyasının bağrına sancılan bir xəncər olaraq təşəkkül edən Ermənistan günümüzdə də öz missiyasını layiqincə yerinə yetirməkdə, Cənubi Qafqazda sabitliyi pozmaqda və regional təhlükəsizliyi təhdid etməkdədir.

Məlum olduğu kimi, müharibə ədalətin pozulduğu anda baş verir. Ədaləti tənzimləyən sistem beynəlxalq hüquqdur. Böyük dövlətlərin isə ədaləti yox, geosiyasi maraqları var. Bu, həmişə belə olub, bundan sonra da olacaq. Cənubi Qafqaz regionunda təhlükəsizliyi təhdid

edən və sabitliyi pozan dövlət Ermənistan, ədaləti bərpa etmək istəyən, öz haqq işi uğrunda mübarizə aparan tərəf isə Azərbaycandır. Lakin bu məsələdə geosiyasi maraqlarını həmişə əsas tutan böyük güclər isə ənənəvi siyasətlərinə uyğun olaraq ədalət mövqeyindən yox, ikili standartlar mövqeyindən çıxış edirlər. Əlbəttə, bunun müəyyən səbəbləri vardır. Dünyanın geosiyasi reallığını əsas tutaraq, bu kimi məsələlərə qısa da olsa şərh verməyi məqsədəuyğun hesab edirik.

Siyasi tarixdə "güclü dövlət" və onun təmsil etdiyi "böyük siyasət" reallığı vardır. Məhz bu amili əsas götürərək qeyd etmək olar ki, tarixən dövlətlər arasında sülhü qorumağı rəhbər tutan nizam və prinsiplər geosiyasət qarşısında həmişə məğlubiyyətə düçar olublar. Tarixin müəyyən dövrlərində güclü dövlətlərin müəyyənləşdirdiyi böyük siyasətlərlə geosiyasi maraqlar hər dəfə ön planda tutulmuş, dünya güc mərkəzləri arasında bölüşdürülməyə çalışılmış, yeni sərhədlər cızılmışdır. Beynəlxalq münasibətləri tənzimləyən sistem olmadığına görə, maraqlar yenidən toqquşmuş, hər bir dövlət öz üstünlüyünü nümayiş etdirməyə çalışmışdır. Günümüzdə də vəziyyət əvvəlkindən heç də fərqli deyil, əksinə, daha şiddətli və daha təhlükəlidir.

Günümüzdə beynəlxalq münasibətlər tarixində ilk dəfə bütün dünya xalqlarının bərabərliyi, dövlətlərin daxili işlərinə müdaxilənin yolverilməzliyi, münaqişəli məsələlərin dinc yolla həll edilməsi və s. prinsiplərə əsaslanaraq yaradılan bir qurum kimi BMT fəaliyyət göstərsə də, Təhlükəsizlik Şurasının daimi üzvü olan dövlətlərin özləri belə dünyanın istənilən ölkəsinə bu təşkilatın icazəsi olmadan belə istədiyi miqdarda hərbi qüvvə göndərə və orada müharibə çıxarmaq iqtidarında olduğunu nümayiş etdirə bilirlər. Əlbəttə ki, böyük güclərin bu istiqamətdə atdıqları addımlar liberal dəyərlərə uyğun olmayıb, əksinə, ölkələrin daxili işlərinə qarışılıb, insan haqları və dövlətlərin ərazi bütövlüyü kobud surətdə pozulub. Dünyanın bir çox ölkəsində ajitasiyaların, oyunların, iğtişaşların və müharibələrin sonu görünmür. Eyni vəziyyəti Cənubi Qafqazda da müşahidə etmək mümkündür. Heç təsadüfi deyildir ki, Gürcüstanın ərazi bütövlüyü pozulmuş, Ermənistan ilə Azərbaycan arasında problemlər yaşanmışdır. Ermənistan kimi bir dövlət bilavasitə özünü liberal və demokratik adlandıran böyük dövlətlərin aktiv dəstəyi və iştirakı ilə özündən qat-qat güclü olan Azərbaycan torpaqlarının 20%-ni işğal etmişdi.

BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxarılması ilə bağlı 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrə baxmayaraq, Ermənistanın bu qətnamələrin heç birinə məhəl qoymadığı da qeyd olunmalıdır. Bu, BMT-nin nüfuzuna xələl gətirən ən böyük amillərdən biri kimi xarakterizə oluna bilər. Şübhəsiz ki, bu işğalda Rusiyanın böyük rol oynadığı hər kəs tərəfindən bilinməkdədir. Bununla yanaşı, Gürcüstan və Ukraynanın ərazi bütövlüyünün pozulmasında da Rusiyanın geosiyasi maraqları xüsusilə qeyd olunmalıdır.

Ümumiyyətlə, dünya siyasətindəki real vəziyyəti təhlil edərkən belə bir məqam ortaya çıxır: hansısa davranış supergüclərin xeyrinə və ya zərərinədirsə, onun beynəlxalq hüquqa uyğun olub-olmaması arxa plana keçir və həmin güclər özlərinə sərf edən müvafiq addımı atırlar. Yəni böyük güclər özlərini "istisna faktor" kimi görürlər. Təbii ki, belə yanaşma davam etdikcə, beynəlxalq ədalət və hüquqdan, dünya nizamından bəhs etmək mümkün görünmür. Məsələ burasındadır ki, reallıqda dünya nizamını beynəlxalq hüquq və institutlar deyil, əsas geosiyasi oyunçuların güc potensiallarının nisbəti müəyyənləşdirir. Geosiyasi maraqlara uyğun olaraq hazırlanan ssenarilər və ikili standartlar çərçivəsində belə bir nəticə hasil olur ki, BMT Təhlükəsizlik Şurası münaqişələrin həllindən özünü uzaqlaşdırıb. Təşkilat qəbul etdiyi qətnamələrin icra mexanizminə malik olmadığına görə, münaqişəli məsələlərdə onun aparıcı rol oynamasının da qarşısı kəsilir. Özü də bu, məhz həmin təşkilatda həlledici rol oynayan böyük dövlətlər

tərəfindən edilir. Nəticədə, BMT-nin missiyasına şübhələr meydana gəlir, onun səmərəsiz təşkilat olması barədə əsaslı fikirlər yaranır. Həqiqətən də BMT TŞ-nin daimi üzvlərinin başı dünya liderliyi uğrunda amansız mübarizəyə qarışıb. Bir sıra hallarda bu rəqabət və yarış beynəlxalq hüququn bütün çərçivələrini aşaraq, əsl savaş məzmunu kəsb edir. ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çin beynəlxalq hüquqa əməl etməkdə başqalarına nümunə olmaq əvəzinə, özləri onu pozurlar.

Belə çıxır ki, dünyada elə bir beynəlxalq təşkilat mövcud deyildir ki, beynəlxalq hüquq normaları çərçivəsində supergüclərə təsir edə bilsin. Bu vəziyyətdə başda BMT olmaqla, beynəlxalq təşkilatların fəaliyyəti və mövcudiyyəti ilə bağlı haqlı olaraq fikir formalaşır: Beynəlxalq təşkilatlar böyük güclərə öz maraqlarını pərdələmək və törətdikləri cinayətləri ört-basdır etmək, imkan olanda ona hüquqi don geyindirmək üçün lazımdır.

Ümumiyyətlə, dünyada cərəyan edən hadisələr dərindən təhlil olunarsa, proseslərin qlobal güclərin birbaşa diqqəti və nəzarəti altında gerçəkləşdiyi ortaya çıxır. Dünyanın bir çox ölkəsində baş verən ajitasiyalar, iğtişaşlar, müharibələr və böhranlarla silahlanma və silah ticarəti arasında əslində böyük mütənasibliyin olduğu görünür. Cənubi Qafqaz da daxil, dünyanın bir çox qaynar bölgələrində baş verən hadisələrdə və bəzi dövlətlərarası qarşıdurmalarda ikili standartlar siyasəti müşahidə olunur. Bunların səbəbləri müxtəlif amillərlə izah edilsə də, Böyük Güclərin maraqlarından kənarda qalmadığı, əksinə, baş verənlərin bilavasitə bu güclərin maraqlarına xidmət etdiyi qeyd olunmalıdır. Əvvəla, iqtisadi böhran və müharibələrlə silahlanma arasında dərin bir uyğunluq vardır. Dünya təcrübəsində artıq sınaqdan çıxmış silahlanma metodu işə salınıb. Sadalanan faktorların yaşandığı ölkələr silah şirkətləri üçün əsas bazarlardır. Qeyd etmək lazımdır ki, əsas silah sənayesi və ixracatçıları isə məhz Böyük Güclərdir. İşin ən maraqlı və diqqət çəkən tərəfi isə bundan ibarətdir ki, silah satıcıları beynəlxalq miqyasda "sülh" tərəfdarı kimi çıxış edirlər. Hərbi xərclərin artması və silahlanma ehtiyacı geosiyasi ambisiyalarla və dünyada qaynar nöqtələrlə, eyni zamanda dondurulmuş münaqişələrlə şərtlənir. Yəni silahlanma tələbi rəqabət mühiti və müharibə riski ilə müəyyən olunur. Aydın məsələdir ki, qlobal miqyaslı silah ixracatçıları üçün bu riskin yüksək olması arzu ediləndir [9, s. 345].

Tarix göstərir ki, qlobal xarakterli iqtisadi böhranlar hər zaman hərbi xərclərin artmasına təkan vermişdir. Dünyanın bir çox bölgəsində baş verən hadisələrdə Böyük Güclər öz silah arsenalından kifayət qədər istifadə etmiş və etməkdədir. Bu isə silah istehsal edən şirkətlər üçün yeni sifarişlər deməkdir. Bundan başqa, rejim dəyişikliyi baş verən ölkələr də silah şirkətləri üçün əsas bazarlardır. Ölkələr arasında mövcud olan münaqişələrin dondurulmuş vəziyyətdə qalması da silah satıcıları üçün daimi bazar və gəlir mənbəyidir. Bu cür münaqişələrin uzanması əlbəttə ki, silah istehsal edən şirkətlərin maraqlarına uyğun gəlir.

Dünyanın bir çox ölkəsində olduğu kimi, Cənubi Qafqaz regionunda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin və Gürcüstandakı münaqişələrin də real şəkildə həll olunmasında qlobal güclər maraqlı deyil. Silah sənayesi ilə məşğul olan şirkətlərin öz ölkələrinin xarici siyasətinə təsir etmə imkanlarını nəzərə aldıqda isə maraqlı bir mənzərə yaranır. Bu şirkətlər böyük gücləri təmsil etdiyindən onların təsir dairəsi beynəlxalq orbiti əhatə edir. Yəni bu ölkələr dünyada baş verən bütün proseslərə təsir etmək imkanlarına sahibdirlər, eyni zamanda planetdəki bütün münaqişələrdə hər hansı formada söz sahibidirlər. Belə bir vəziyyətdə bu şirkətlərin dünyanın qaynar nöqtələrində maraqları təmin olunur. Bu baxımdan Cənubi Qafqazda sabitliyin bərpa olunması və regional təhlükəsizliyin qorunması dövlətlərin maraqları ilə uzlaşmır. Ermənistan isə bu missiyanı layiqincə yerinə yetirməkdə,

Cənubi Qafqazda sabitliyi pozmaqda və regional təhlükəsizliyi təhdid etməkdədir. Ermənistan kimi bir dövlətin mövcud olması əlbəttə ki, geosiyasi həmlələrin edilməsi baxımından əldə tutulan əlverişli faktordur.

Təxminən 30 ilə yaxın idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz siyasi, hüquqi həllini tapmır və ya buna mane olunurdu. Tərəflər anlaşa bilmədiklərinə görə, problemin həlli ATƏT-in Minsk Qrupuna həvalə edilmiş, lakin bu qurumun cəhdləri uğursuz alınmışdır. Bu qurumun ümumi və qeyri-müəyyən bəyanatlar verməsi, bir-birinə zidd olan fikirlər səsləndirməsi, digər bir ifadəylə, məkik diplomatiyasının iflasa uğraması Azərbaycanda haqlı olaraq ATƏT-in Minsk Qrupunun fəaliyyətinə inamsızlıq yaratdı. Çünki açıq idi ki, Minsk Qrupunun həmsədr ölkələri sırf münaqişənin gərginləşməsinin qarşısını almaq üçün regiona səfərlər ediblər. Beləliklə də onlar daha çox "münaqişənin həlli mexanizmləri"nin icrası ilə deyil, "münaqişənin idarə edilməsi" ilə məşğul olublar. Azərbaycan ictimaiyyətində də həmsədrlərin dəfələrlə regiona səfərləri haqlı olaraq "turistik ekskursiya" kimi qiymətləndirilib. Həm beynəlxalq təşkilatların, həm ATƏT-in Minsk Qrupu üzvlərinin, həm də digər dövlətlərin yeritdikləri ikili standartlar siyasətinin nəticəsi idi ki, Ermənistan tərəfi problemin öz real həllinə yanaşmaq istəməmiş, üstəlik, atəşkəs rejimini də sıx-sıx pozmuşdur. Nəticədə 2-5 aprel 2016-cı il tarixində baş vermiş müharibə Qarabağ münaqişəsinin əslində dondurulmuş olmadığını ortaya qoydu. Düzdür, müəyyən səbəblərdən dövlətlərin, xüsusilə də Rusiyanın müdaxilə etməsiylə vəziyyət əvvəlki məcrasına qayıtdı. Lakin Ermənistan vəziyyətin həmişə bu cür davam edəcəyini hesablayaraq, növbəti dəfə təxribatlara əl atmaqda davam etdi. Heç təsadüfi deyildir ki, Ermənistan yenə də havadarlarından ilham alaraq 2020-ci ilin iyul ayında da növbəti təxribata əl atdı. Əlbəttə, bunun müəyyən səbəbləri var idi:

Əvvəla, Ermənistanın Tovuz istiqamətində sərhəddə təxribat törətməkdə əsas məqsədi ilk olaraq Baş nazir N.Paşinyanın təmas xəttindən diqqəti yayındırmağa çalışması olmuşdur.

İkincisi, həmin ərazilərdən Azərbaycanın beynəlxalq layihələri olan Bakı-Tiflis-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tiflis-Ərzurum-Qars, Bakı-Tiflis-Qars və Böyük İpək yolu keçir. Ermənistan yüksəklikləri ələ keçirib öz istəyinə nail olmaq məqsədində idi.

Üçüncüsü, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlərinin diqqətini tamamilə fərqli istiqamətə yönəltmək istəyirdi, amma bunların heç biri alınmadı.

Bu hücumların Rusiya və Fransa tərəfindən təhrik edildiyinə dair iddialar mövcuddur [12; 14]. Amma bunu da nəzərdən qaçırmaq olmaz ki, Paşinyan hökuməti mütləq şəkildə böyük dövlətlərin dəstəyini hesaba qataraq və buna inanaraq "yeni müharibə və yeni torpaqlar" şüarından yola çıxmış və belə bir hücum reallaşdırmışdır. Daim böyük dövlətlər tərəfindən dəstəklənəcəyini ümid edən Ermənistan təmas xəttini pozmağa davam edir, psixoloji baxımdan Azərbaycana zərbə vurmağa çalışır və qıcıqlandırma metodlarından istifadə edirdi. Ermənistanın Baş naziri Nikol Paşinyanın *"Qarabağ Ermənistandır. Nöqtə"* kimi özündən razı və beynəlxalq hüquqa zidd olan daha sərt bəyanatlar səsləndirməsi və yeni bir macəra həvəsiylə atdığı yanlış addımlar yeni müharibənin xəbərçisinə çevrildi. Halbuki Paşinyana qədərki Ermənistanın dövlət başçıları və rəsmiləri həmişə münaqişənin əsas tərəfləri kimi Azərbaycan və Dağlıq Qarabağ olaraq dünyaya çatdırmaq istəyir və müharibənin Azərbaycanla Dağlıq Qarabağ arasında olduğunu irəli sürürdülər. Onlar guya Ermənistan tərəfinin danışıqlar prosesində konstruktiv olmaq istədiklərini bildirir, hətta dünya birliyinə Dağlıq Qarabağ ermənilərinin öz milli müqəddəratını təyin etməsini istədiklərini, heç bir ərazi iddialarının olmadığı kimi təqdim edirdilər. Lakin Baş nazir Nikol Paşinyanın *"Qarabağ Ermənistandır. Nöqtə"* bəyanatı belə demək mümkündürsə, Ermənistanın Dağlıq Qarabağ

münaqişəsi ilə bağlı etiraf xarakterli işğalçı siyasətini ortaya qoydu. Ermənistan artıq bütün dünyaya özünün necə bir dövlət olduğunu tanıtdı.

27 sentyabr 2020-ci il tarixində Ermənistan tərəfindən atəşkəsin pozularaq Azərbaycan torpaqlarına gerçəkləşdirdiyi hücum "ani müharibə"nin başlanmasının işarəsi oldu. Qeyd etmək lazımdır ki, Azərbaycanda həm rəsmi səviyyədə, həm də xalqda artan torpaqların qaytarılması arzusu da bu işarənin xəbərçisi idi. Nəticədə Azərbaycan tərəfi əks-hücum gerçəkləşdirərək işğal altındakı mühüm yerləri, tarixi torpaqları, strateji əraziləri və yüksəklikləri ələ keçirdi. Müharibədə Rusiya və Qərb dövlətlərinin, beynəlxalq təşkilatların müharibənin dayandırılması və dərhal müzakirələrə başlanmasının vacib olduğunun bildirilməsinə baxmayaraq, Türkiyə, Pakistan, Şimali Kipr, Ukrayna, İsrail və s. dövlətlər hər zaman Azərbaycanın yanında olduqlarını göstərdilər.

"Qarabağ Ermənistandır" deyən, Şuşada yallı oynayıb andiçmə mərasimlərində iştirak edən, işğal altındakı torpaqlarda məskunlaşma aparan və oraya terrorist qruplar yerləşdirən, danışıqlarda əldə olunmuş razılıqları alt-üst edən Nikol Paşinyanın məzlum vəziyyətə düşərək dünya liderlərindən imdad dilədiyini bütün dünya gördü. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Ermənistan düşdüyü vəziyyət qarşısında ənənəvi psixologiyasından çıxış edərək, Azərbaycanda guya Suriyadan gətirilən muzdlu döyüşçülərin, xüsusilə cihadçı qrupların olması ilə bağlı saxta məlumatlar yaydı. Əsas məqsəd dünyanın xristian ölkələrinin, xüsusilə də böyük güclərin diqqətini özünə çəkmək və xristian dövlətlərin Azərbaycana qarşı səlib yürüşlərini formalaşdırmaq idi. Heç təsadüfi deyildir ki, Fransa Prezidenti Emmanuel Makron *"Dağlıq Qarabağda suriyalı cihadçılar məsələsi 'oyunu dəyişdirən' çox ciddi reallıqdır", –* deyərək, şantaj mahiyyətli bu məsələnin Avropa Şurasının müzakirəsinə çıxarılmasının vacibliyi ilə bağlı ənənəvi ermənipərəst mövqeyini ortaya qoydu [8]. Halbuki hal-hazırda İraq, Suriya və Livandan PKK və digər terrorçularının Ermənistana gətirilməsi və daha sonra Ermənistan tərəfindən işğal olunmuş Qarabağdakı Azərbaycan torpaqlarına yerləşdirilməsi, eyni zamanda muzdlu döyüşçülərin bölgədəki fəaliyyəti barədə kifayət qədər məlumatlar vardır [7; 10]. Ancaq Fransa və onun kimi düşünən dövlətlər və dövlət rəsmiləri nədənsə Ermənistanın özünün terrorist təşkilatlarla sıx əlaqə içərisində olduğunu görməzdən gəldilər. Bu məsələdə ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Fransanın tərəfsiz mövqe nümayiş etdirməli olduğu xüsusilə qeyd edilməlidir.

Bundan başqa, Ermənistan Türkiyə Silahlı Qüvvələrinin də müharibədə iştirakını yalandan qabardaraq saxta xəbərləri dünyanın ayrı-ayrı ölkələrinin media resurslarında tirajladı. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çox tutarlı cavablar və arqumentlərlə həm cihadçılar məsələsi ilə bağlı, həm də Türkiyə Silahlı Qüvvələrinin müharibədə iştirakı ilə bağlı çox sayda ölkələrin dövlət telekanallarına da Ermənistan tərəfinin bütün yalanlarını ifşa etdi və bu kimi iddiaları ortaya atanları da ciddi şəkildə tənqid etdi.

Bütün bunlarla yanaşı, olduqca vacib bir məqama da diqqət çəkməyi məqsədəuyğun hesab edirik ki, bu da atəşkəslə bağlı məsələdir. 26 illik atəşkəs anlaşmasından sonra siyasi konyunkturanın yaranması ilə Azərbaycanın Ermənistanın işğalı altında olan torpaqlarında irəliləməsi və nəzarəti ələ keçirdiyi bir zamanda regionda kilid önəmə sahib olan Rusiyanın mövqeyinin necə olacağı hər kəs tərəfindən düşündürücü idi. Heç təsadüfi deyildir ki, müəyyən vaxtlarda cərəyan edən toqquşmalarda və ya qısamüddətli müharibələrdə bir tərəfin üstünlüyü Rusiyanın ümumi siyasətinin xaricinə çıxmazsa, rəsmi Moskva bu cür toqquşmaya müvəqqəti olaraq səssiz qala bilir və ya öz varlığının əhəmiyyətini hiss etdirmək istəyərsə, buna icazə verirdi [1]. 2016-cı ilin aprel ayında gerçəkləşən "Dördgünlük müharibə"də də bunu göstərdi. 27 sentyabrda başlayan şiddətli müharibənin 13-cü günündə isə Rusiya təkrar

müdaxilə etməyə çalışaraq, Ermənistan və Azərbaycanın Xarici İşlər nazirlərini Moskvaya dəvət etdi və tərəfləri atəşkəs barəsində uzlaşdırdı. Oktyabrın 10-da humanitar məqsədlərlə hərbi əsirlər, digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi ilə bağlı humanitar atəşkəs elan olundu [2]. Cənubi Qafqazı öz "arxa baxça"sı olaraq dəyərləndirən Rusiya baxımından atəşkəsin təmin edilməsi olduqca vacib idi. Öz nüfuzunu ortaya qoyması və müharibədə kilid önəmə sahib olduğunu bir daha dünyaya göstərməsi lazım gəlirdi. Lakin atəşkəsin müvəqqəti xarakter daşıdığı onsuz da bəlli idi. Toplantının ardından 24 saat (və ya daha az) belə keçmədən Gəncə, Mingəçevir, Bərdə, Goranboy, Tərtər və s. şəhər, rayon və kəndlərə Ermənistan ərazisindən raketlər atıldı. Xüsusilə mülki əhalinin hədəf alındığı, çox sayda insanın öldüyü və yaralandığı ikinci böyük şəhər olan Gəncənin vurulması həm erməni terrorunun yeni bir təzahürü oldu, həm də Rusiyanın xarizmasını cızma məqsədli bir akt olduğunu ortaya qoydu. Bu hal Ermənistanın sivillərə terror cinayətləri törədəcək qədər zavallı bir vəziyyətə düşməsi şəklində də xarakterizə oluna bilər. Rəsmi Yerevanın yeganə ümidi rəsmi Bakının bu hücuma Ermənistan ərazisinə əks-hücumla cavab verməsilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının dərhal müdaxilə etməsinə fürsət yaratmaq olsa da, əslində rəsmi Moskvanın nüfuz və xarizmasına ciddi bir zərbə oldu.

Atəşkəsi elan edən Rusiyanın xarizmasını cızan atəşkəsin pozulması məsələsi Ermənistanın amerikanpərəst mövqeyini ortaya qoydu. Heç təsadüfi deyildir ki, Rusiyanın müttəfiqi olan Ermənistan rəsmi Moskvanın rəqiblərinin dəstəklədiyi bir sima olan Qərb və Soros tərəfindən dəstəklənən Nikol Paşinyan tərəfindən idarə olunmaqdadır. Lakin Rusiyanın Qafqazdakı ən önəmli müttəfiqi olan Ermənistandan əl çəkməsi də mümkün görünmürdü. Sadəcə olaraq Paşinyanın iqtidardan uzaqlaşdırılması planlaşdırılırdı. Azərbaycan da 1990-cı illərdəki vəziyyətdə deyil, olduqca güclü bir orduya və silahlara sahibdir. Eyni zamanda Qarabağ müharibəsi Xarici İşlər nazirləri çərçivəsində həll oluna biləcək bir problem olmayıb, daha geniş mahiyyətli bir məsələdir. Zatən Azərbaycan Ermənistanın atəşkəsi pozacağını hesab edərək masaya əyləşdi. Bu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də ifadəsi ilə desək, Azərbaycan tərəfindən Ermənistana verilən şans idi. Lakin buna baxmayaraq, Ermənistan atəşkəsi pozaraq sivillərə hücum etdi və danışıqlar yolu ilə işğal etdiyi torpaqları geri qaytarmayacağını göstərmiş oldu. ATƏT-in Minsk Qrupunun müdaxilə etməsi, xüsusilə də Fransanın vasitəçiliyi ilə tərəflər arasında 18 oktyabrda bir daha müvəqqəti atəşkəs elan edildi, lakin üstündən 2 dəqiqə belə keçmədən Ermənistan ordusu tərəfindən pozuldu [3]. Gərginliyin artmasından sonra bu dəfə ABŞ-ın dövlət katibi Mayk Pompeo da hər iki ölkənin Xarici İşlər nazirlərini öz ölkəsinə dəvət etdi və 23 oktyabrda nazirlərlə ayrı-ayrılıqda görüş keçirdi [13]. Əlbəttə ki, ABŞ-ın da məsələyə müdaxilə edəcəyi əslində gözlənilən bir vəziyyət idi. Lakin bu görüşmədən sonra 26 oktyabrda üçüncü dəfə atəşkəsin elan edilməsindən sonra üstündən 5 dəqiqə keçmədən Ermənistan tərəfindən bir daha pozuldu [6]. Döyüş meydanında Azərbaycan Ordusu qarşısında müqavimət göstərə bilməyən Ermənistan yenə də mülki əhalini hədəf seçdi. Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə dinc əhaliyə qarşı "Smerç" tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində 21 nəfər həlak oldu, 70-dən çox mülki vətəndaş ağır yaralandı. Atəşkəsi dəfələrlə pozmasına baxmayaraq, ballistik raketlərlə sivillərə hücum edən, aralarında uşaqların da olduğu çox sayda insanları qətlə yetirən Ermənistanın törətdiyi cinayətlər ATƏT-in Minsk Qrupunun həmsədrləri, aparıcı dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qınanmadı. Heç təsadüfi deyildir ki, münaqişənin həll olunmamış olaraq qalmasında ən böyük məsuliyyət məhz Minsk Qrupunun həmsədrlərinin üzərinə düşür. Vasitəçilərin işğalçı dövlət ilə işğala məruz qalan dövlət arasında

ədalətli seçim etməmələri və işğalçı dövləti dəstəkləyən addımları Ermənistanın təcavüzkar siyasətinin daha da şiddətlənməsi ilə nəticələndi. Ermənistanda iqtidara gələn hökumətlərin hansı meylli olmaları (istər anti-Rusiya, istərsə də antiqərb) və yeritdikləri siyasətə baxmayaraq, ATƏT-in Minsk Qrupunun həmsədrləri olan Rusiya, Fransa və ABŞ-ın Ermənistandan vaz keçmələrindən söhbət gedə bilməz. Bu dövlətlərin fərqli coğrafi məkanlarda maraqları toqquşa bilər, lakin erməni məsələsi və türk düşmənçiliyi onları birləşdirən əsas amildir. Heç təsadüfi deyildir ki, hər üç vasitəçi dövlət bu məsələdə öz real münasibətlərini 19 oktyabr 2020-ci il tarixli BMT TŞ-nın münaqişə ilə bağlı gerçəkləşdirilən qapalı iclasında nümayiş etdirdi. Bu iclasdan sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya və Fransa tərəfindən bəyanatın layihəsi hazırlandı və razılaşdırılması üçün üzv ölkələr arasında yayıldı, lakin bəyanat layihəsində Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad öz əksini tapmadı. Bu bəyanat beynəlxalq hüququn ən önəmli sütunlarından olan ərazi bütövlüyü prinsipinin və BMT TŞ-nin qərarlarının heçə sayılması mənasına gəlir. Əsl məqsəd 822, 853, 874 ve 884 saylı qərarları tarixə gömməklə unutdurmaq, Ermənistan lehinə yeni qərarlar qəbul etmək və Azərbaycanın işğal altında olan torpaqlarını qurtarmaq təşəbbüsünə mane olmaq idi. Lakin Təhlükəsizlik Şurasında təmsil olunan Qoşulmama Hərəkatına üzv olan 7 dövlət – *İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika, Dominikan Respublikası, Sent Vinsent və Qrenadin* – layihəyə Təhlükəsizlik Şurasının məlum qətnamələrinə istinadın daxil edilməsininin vacibliyini təklif etdilər. Həmsədr ölkələr bunun qəbul edilməz olduğunu bildirsələr də, Qoşulmama Hərəkatına üzv olan dövlətlərin təkidli və prinsipial mövqeyi nəticəsində bu bəyanat geri götürüldü [5].

Göründüyü kimi, BMT TŞ daimi üzvlərinin sabit qalması bu qurumun yalnız siyasi maraqlara xidmət etdiyini, beynəlxalq hüququn icraçısı deyil, pozucusu olduğunu göstərir. Həmsədr ölkələr tərəfsizliyi bir tərəfə ataraq, əvvəllər olduğu kimi, yenidən tərəf tutmağa davam etdilər və Ermənistanı açıq şəkildə dəstəklədilər. Qoşulmama Hərəkatına üzv olan dövlətlər isə beynəlxalq hüququ dəstəkləyərək hərəkatın prinsip və dəyərlərinə sadiq qaldıqlarını bütün dünyaya nümayiş etdirdilər. Bu, eyni zamanda Qoşulmama Hərəkatının beynəlxalq münasibətlər sistemində ciddi bir faktor olduğunun da bariz nümunəsidir.

Azərbaycan müharibədə və diplomatiyada sonuna qədər öz haqlı mübarizəsinə davam etdi və ortaya çıxan fürsətləri öz lehinə çevirməyə çalışdı. Bu yolda uğurlu addımlar da atıldı. Prezident İlham Əliyevin tələbi istiqamətində müəyyənləşdirilən təqvim çərçivəsində Ermənistan 10 noyabr tarixinə qədər işğal etdiyi torpaqlardan çıxmamaqda müqavimət göstərdi və hər dəfə ağır itkilərə məruz qaldı. Noyabrın 8-də isə 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşa azad edildikdən dərhal sonra – noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Şuşanın işğaldan azad edilməsi Ermənistanı tamamilə tərk-silah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Ermənistanın kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş naziri birgə bəyanat imzaladılar. Ermənistan 2020-ci ilin noyabr ayından dekabrın 1-nə qədər mərhələli şəkildə Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracağı barədə öhdəlik götürdü. Bəyanatda Rusiya Silahlı Qüvvələri sülhməramlı statusda məhdud kontingentlə əraziyə yerləşdirilməsi nəzərdə tutulurdu. Anlaşmadan sonra Rusiya silahlı qüvvələri sülhməramlı statusda Qarabağa yerləşdirildi. Bununla birlikdə, ən mühüm amillərdən biri isə budur ki,

proses çərçivəsində Naxçıvan da blokadadan azad olur və Ermənistan ərazisində dəhliz yaradılır. 9-cu maddəyə əsasən, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir [11]. Əlbəttə ki, hadisələrin bundan sonra necə inkişaf edəcəyini "zaman" özü göstərəcək.

"Böyük Şahmat Taxtası" nəzəriyyəsini əsas tutaraq, belə bir qənaətə gəlmək mümkündür ki, hansısa davranış və ya hərəkət böyük dövlətlərin xeyrinə və ya zərərinədirsə, onun beynəlxalq hüquqa uyğun olub-olmaması arxa plana keçir və həmin güclər özlərinə sərf edən müvafiq addımı atırlar. Cənubi Qafqazdakı problemlərə, xüsusilə Qarabağ məsələsinə də eyni kontekstdə yanaşmaq lazım gəlir. Açıq şəkildə geosiyasi həmlələr edildi, nəticədə bu şahmat taxtasında qaliblər, məğlublar və növbəti həmlələrə qarşı strategiya müəyyənləşdirəcək olan dövlətlər ortaya çıxdı. Birmənalı şəkildə bütün dünya Ermənistanı bu oyunda məğlub dövlət olaraq tanıdı. Ancaq bir məsələni də xüsusilə qeyd etmək lazım gəlir ki, Rusiyanın qərbyönümlü siyasət yeridən Paşinyanı qəbul etməməsi son dərəcə normal hesab edilə bilər. Lakin Rusiya Qafqaz siyasətini hökumətlərə görə deyil, öz geostrateji maraqlarına görə müəyyənləşdirir. Azərbaycan isə bu məsələdə əlindən gələn bütün təsir imkanlarından istifadə etdi və edəcək. Əlbəttə ki, əldə etdiyi qazanc və uğurlar da kifayət qədərdir. Bundan sonra da Azərbaycan gedişata uyğun olaraq şahmat taxtasında öz oyununu oynamalı, hər həmləyə qarşı yeni bir strategiya müəyyənləşdirməlidir. Bu bir geosiyasi reallıq və zamanın tələbidir.

ƏDƏBİYYAT

1. Aslanlı A. Karabağ'da hiç kesilmeyen ateş ve Rusya. http://aljazeera.com.tr/gorus/karabagda-hic-kesilmeyen-ates-ve-rusya).
2. Azərbaycan, Rusiya və Ermənistanın XİN başçıları bəyanat qəbul ediblər. https://report.az/dagliq-qarabag-munaqishesi/azerbaycan-ve-ermenistan-xin-bascilarinin-ucterefli-gorusu-basa-catdi/
3. Azərbaycan və Ermənistan humanitar atəşkəs barədə razılığa gəldi. https://modern.az/az/news/260857
4. Brzezinski Z. Büyük satranç tahtası: Amerika'nın önceliği ve bunun jeostratejik gerekleri. İstanbul: Sabah kitapları, 1998, 192 s.
5. Əhmədov E. Azərbaycanın diplomatik, hərbi uğurları və böyük güclərin ermənipərəst siyasəti. http://newtimes.az/az/organisations/6883/
6. Ermənistan-Azərbaycan arasında daimi atəşkəs yalnız BMT qətnamələrinin şərtləri daxilində mümkündür. https://fed.az/az/qarabag/turkiye-xin-ermenistan-azerbaycan-arasinda-daimi-ateskes-yalniz-bmt-qetnamelerinin-sertleri-daxilinde-mumkundur-91600
7. Ermenistan PKK'lı teröristleri Azerbaycan cephe hattında kullanıyor. https://www.trthaber.com/haber/dunya/ermenistan-pkkli-teroristleri-azerbaycan-cephe-hattinda-kullaniyor-518306.html
8. Fransa Cumhurbaşkanı Macron: cihatçılar Gaziantep üzerinden Karabağ'a gitti, elimizde kanıtlar var. https://tr.euronews.com/2020/10/01/fransa-cumhurbaskan-macron-cihatc-lar-gaziantep-uzerinden-karabag-a-gitti-elimizde-kan-tla
9. Həbibbəyli Ə. Yeni çağırışların işığında. Bakı: Elm və təhsil, 2014, 352 s.
10. Gazeta.ru: Зачем Ереван затеял интриги на Ближнем Востоке, начав игру «не в своей лиге»? https://1news.az/news/gazeta-ru-zachem-erevan-zateyal-intrigi-na-blizhnem-vostoke-nachav-igru-ne-v-svoey-lige
11. İlham Əliyev xalqa müraciət edib. https://president.az/articles/45924
12. Koçak M. Ermeni saldırılarının arkasında kimler var? https:/hyetert.org/2020/07/29/ermeni-saldirilarinin-arkasinda-kimler-var/.

13. Pompeo Azərbaycan ve Ermənistan Xarici İşlər Nazirləri ilə görüşdü. www.amerikaninsesi.org/a/pompeo-azərbaycan-və-ermənistan-xarici-işlər-nazirləri-ilə-görüşüb/5633126.html
14. Suyundikov S. Ermeni Saldırılarının Arka Planı ve Türk Dünyası. https://www.21yyte.org/tr/fikir-tanki/ermeni-saldirisinin-arka-plani-ve-turk-dunyasi

AMEA Naxçıvan Bölməsi
E-mail: emin.amea@yahoo.com

Emin Shikhaliyev

SOUTH CAUCASUS ON THE GREAT CHESSBOARD AND GEOPOLITICAL ATTACKS

The paper examines the South Caucasus's position on the geopolitical map of the world and geopolitical attacks based on the theory of the "Great Chessboard" and analyzes the problem of Nagorno-Karabakh in the context of this theory. Armenia's occupation policy and territorial claims are some of the biggest obstacles to ensuring security and stability in the South Caucasus. Although about 30 years have passed since the conflict, an uncertain situation has arisen regarding this unresolved conflict between Armenia and Azerbaijan. Armenia's continued occupation of 20% of Azerbaijan's lands increased the likelihood of a new war breaking out. However, Armenia's next provocative actions caused a sudden war, and as a result, Armenia suffered a heavy defeat. The article analyzes these issues in detail.

Keywords: *Great Chessboard, South Caucasus, Armenia, Azerbaijan, Russia, France, Turkey, World War II.*

Эмин Шихалиев

ЮЖНЫЙ КАВКАЗ НА ВЕЛИКОЙ ШАХМАТНОЙ ДОСКЕ И ГЕОПОЛИТИЧЕСКИЕ АТАКИ

В статье исследовано положение Южного Кавказа на геополитической карте мира и геополитические атаки на основе теории «Великой Шахматной Доски», а также сделан анализ проблемы Нагорного Карабаха в контексте этой теории. Оккупационная политика Армении и территориальные претензии являются одним из самых больших препятствий на пути обеспечения безопасности и стабильности на Южном Кавказе. Несмотря на то, что с начала конфликта прошло уже около 30 лет, в вопросе будущего этого нерешенного конфликта между Арменией и Азербайджаном возникла неопределенная ситуация. Продолжающаяся оккупация Арменией 20% земель Азербайджана увеличивала вероятность возгорания новой войны. Однако очередные провокационные действия Армении стали причиной внезапной войны, и в результате Армения потерпела тяжелое поражение. В статье подробно проанализированы эти вопросы.

Ключевые слова: *Великая Шахматная Доска, Южный Кавказ, Армения, Азербайджан, Россия, Франция, Турция, Отечественная война.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 13.01.2021
Son variant 16.02.2021

UOT 32

VÜQAR RƏHİMZADƏ

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI

İdeologiya bir xalqın adət-ənənəsini, həyat tərzini, yaşam formasını və fəaliyyət istiqamətlərini özündə ehtiva edən baxışlar sistemidir. O, insanların gündəlik şüurunu nəzəri-konseptual səviyyəyə qaldıraraq, məxsus olduğu sosiumun perspektiv inkişaf yolunda digər həmvətənləri ilə sıx birləşməyi həyata keçirir. Elə azərbaycançılıq ideologiyası da hər şeydən əvvəl ölkədə milli ahəngdarlığı təmin etməklə yanaşı, konfessiyalar və etnoslar arasında dinc yanaşı yaşamağı təmin etdi. Azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, bazar iqtisadiyyatının, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapır.

Açar sözlər: *azərbaycançılıq, ideologiya, cəmiyyət, Azərbaycan, Heydər Əliyev, demokratiya, siyasi sistem.*

İdeologiya bir xalqın adət-ənənəsini, həyat tərzini, yaşam formasını və fəaliyyət istiqamətlərini özündə ehtiva edən baxışlar sistemidir. O, insanların gündəlik şüurunu nəzəri-konseptual səviyyəyə qaldıraraq, məxsus olduğu sosiumun perspektiv inkişaf yolunda digər həmvətənləri ilə sıx birləşməyi həyata keçirir. İdeologiya insanlarda milli düşüncəni formalaşdırmaqla, ayrı-ayrı sosial sinif və qrupları eyni məqsəd və hədəf ətrafında toplayır. Milli düşüncəni mənimsəmiş hər bir fərd sonda ümumi milli düşüncəyə sahib toplumu əmələ gətirir. Beləliklə də, kütləvi şüurun formalaşmasında iştirak edən ideologiya cəmiyyəti vahid ideya ətrafında birləşdirir.

İdeologiya sabit və kollaps dönəmində kütlə tərəfindən mənimsənilə və maddiləşə bilər. Lakin onun ümumi şəkildə kütləvi şüura çevrilməsi üçün mümkün şərtlər yetişməlidir. Kollaps dövründə kütlə ümumi ideya ətrafında birləşərək, vahid hədəfə doğru gedən orqanizmə çevrilir. Burada kütlə müxtəlif sinif və təbəqələrin nümayəndələrindən ibarət olsa da, o, ümumi düşüncəyə hakim olur. Bu cür kütləvi şüur qısamüddətli olsa da, cəmiyyətin birləşməsi və inkişafı üçün real şərait yaradır. Ümumi düşmənin təcavüzünün qarşısının alınması və ya imperiya əsarətindən xilas olmaq, müstəqillik naminə vuruşmaq amili cəmiyyətin hər bir üzvünü kütləvi şüur daşıyıcısına çevirir [2].

Kütləvi şüurun sözügedən forması məqsədə nail olanadək mövcud olur, sonradan isə onun yoxaçıxma ehtimalı ortaya çıxır. Belə bir təcrübə ilə biz XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda rastlaşırıq. 1988-ci ildə həm müstəqillik naminə, həm də Ermənistanın azərbaycanın Dağlıq Qarabağ bölgəsini ilhaq etməsinin qarşısını almaq məqsədilə azərbaycanlılar vahid amal ətrafında birləşdilər. Lakin burada insanları hərəkətə gətirən, ümummilli maraqlar ətrafında birləşdirən qısamüddətli məqsəd olmuşdu. Məqsədə nail olduqdan sonra daha həmin kütləvilik və izdiham görünmədi. Yəni, insanların malik olduqları milli enerjini, kütləvi düşüncə və davranış formasını qoruyub saxlayacaq siyasi ideologiya işlənmədiyindən cəmiyyətdə kütləvilik itdi. Aydın olur ki, situativ şəkildə meydana çıxan qısamüddətli kütləvi şüurun daşıyıcıları yalnız məqsəd və hədəf ətrafında birləşirlər. Onlar ideologiyanı uzunmüddətli tərəqqini nəzərdə tutan baxışlar sisteminə çevirə bilmirlər. Lakin kütləvi şüurun sabit dönəmdə stabil qalmasında ideologiyanın çox böyük rolu olur. Bu zaman cəmiyyəti birləşdirən qısamüddətli məqsədlər deyil, sosiumun, bütövlükdə, dövlətin inkişafını özündə ehtiva edən baxışlar meydana çıxır. Artıq ideoloji baxışları kütləvi düşüncə tərzinə çevirmiş sosiumun üzvləri

qarşıya qoyulmuş hədəfə vurmaq üçün birgə çalışırlar. Eyni zamanda, xalqın milli-mənəvi dəyərlərini özündə ehtiva edən siyasi ideologiya kütləvi şüurun transformasiyasını da həyata keçirir və eyni platforma üzərində yeni düşüncə tərzinin formalaşmasını şərtləndirir [3].

Cəmiyyəti mənəvi olaraq dirçəldəcək, xalqın kreativ potensialını reallaşdıracaq, kütləvi şüuru uğurlu dövlət quruculuğunun başlıca amilinə çevirəcək belə bir ideoloji sistem isə 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəlmiş ulu öndər Heydər Əliyevin siyasətində öz əksini tapdı. Bununla da cəmiyyəti vahid ideya və məqsəd ətrafında birləşdirəcək, həmçinin ölkənin daxili və xarici siyasətində kütləvi şüuru səfərbər edəcək mexanizm kimi milli ideologiya həmin dönəmin prioritetinə çevrildi və bu ideologiya azərbaycançılıq adı ilə meydana gəldi. O, ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında real surətdə birləşdirmək ideyasının verballaşdırılması kimi, 1992-1993-cü illərdə xüsusilə geniş yayılan şovinist və separatçılıq əhval-ruhiyyəsinə qarşı mübarizə kimi meydana gəldi.

Azərbaycançılıq ideologiyası hər şeydən əvvəl ölkədə milli ahəngdarlığı təmin etməklə yanaşı, konfessiyalar və etnoslar arasında dinc yanaşı yaşamağı təmin etdi. Təbii ki, bu faktı ümumilikdə Azərbaycanda kütləvi şüurun transformasiyasında ilkin faktor hesab etmək olar. Çünki o, ayrı-ayrı düşüncə tərzinə və fəaliyyət formalarına məxsus xalqların ümumi taleyi və gələcək naminə birgə mübarizə aparması üçün real zəmin yaratdı. Hər kəsə bəllidir ki, 1991-1993-cü illərdə ölkədə hökm sürən anarxiya və ideoloji boşluq nəticəsində Azərbaycan coğrafiyasında yaşayan xalqların çoxəsrlik ənənədən və tarixdən gələn birliyini möhkəmləndirəcək ideoloji konsepsiya ortaya qoyulmadı. Bu səbəbdən də anti-Azərbaycan dairələri asanlıqla etnoslararası münaqişəni qızışdırır və ölkə daxilində etnik parçalanmalara yol açırdılar. Elə ölkənin şimalında, cənubunda, şimal-qərbində mərkəzdənqaçma meyilləri və separatçı fəaliyyətləri ideoloji boşluqdan irəli gələn problemlər oldu. Məhz polietnik coğrafi məkanda elə bir ideoloji konsepsiya işlənilməli idi ki, o, həm tarixi keçmişi, həm adət-ənənəni, həm xalqların milli-mənəvi dəyərlərini, həm mentalitetini, siyasi şüurunu, siyasi mədəniyyətini, həm də kütləvi düşüncə və davranış formalarını özündə ehtiva etsin. Lakin sözügedən dövrdə nə islamçılıq, nə türkçülük, nə avropaçılıq, nə də ki, şovinist və radikal xüsusiyyətli ideologiyalar yuxarıda söylənilən amilləri özündə birləşdirə bildi. Bu mənada Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra ortaya qoyulmuş azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, bazar iqtisadiyyatının, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapdı. Məhz ideologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosial doktrinasının sosio-mədəni və etnik-geosiyasi cəhətlərini özündə birləşdirdi və o, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərliyin mühüm əsasını təşkil etdi [4].

Bununla da azərbaycançılıq ideologiyası şovinizm əvəzinə cəmiyyətə vətənpərvərlik gətirməklə, etnoeqoizmi məhv etdi və Azərbaycanda kütləvi şüurun transformasiyası üçün məqbul olan ilkin amili formalaşdırdı. Eyni məqamda, Heydər Əliyevin 2001-ci il noyabr ayının 9-da Dünya Azərbaycanlılarının I qurultayında söylədiyi "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" fikirləri azərbaycançılığın cəmiyyətimizin bu günü və gələcəyinin müasir ideoloji qavrayışı ilə sıx çulğaşdığını nümayiş etdirdi.

Beləliklə də, azərbaycançılıq ideologiyası ölkədə vahid cəmiyyət, vahid xalq formalaşdırdı. Azərbaycançılıq ideologiyasının Azərbaycanda kütləvi şüurun transformasiyası prosesi çərçivəsində növbəti təsir faktoru vahid xalqın kütləvi siyasi şüurunun formalaşması ilə bağlı oldu. Məhz insanların siyasi strukturlarla münasibətlərini müəyyənləşdirən hissi və nəzəri təsəvvürlər bütövlükdə siyasi şüurda öz əksini tapdı. Bu mənada azərbaycançılıq ideologiyası azərbaycanlılarda kosmopolit və xəyal düşüncələrini sıxışdıraraq, konkret rasional ideyalar formalaşdırdı. Artıq dövlətin maraqları yalnız siyasi elitanı deyil, həm də cəmiyyəti düşündürür və xalq firavan həyat naminə ölkənin gələcəyi üçün hakimiyyətlə sıx işləyir. Məhz bu amil onu göstərir ki, azərbaycançılıq ölkədə kütləvi siyasi şüuru formalaşdıra bildi. Göründüyü kimi, vahid siyasi subyekt kimi dövlətin gələcək inkişaf sektorları ilə bağlı ictimai-siyasi proseslərdə aktiv iştirak edən cəmiyyətimiz ümumi mövqedən çıxış edərək milli maraqların müdafiəçisi rolunda çıxış etməklə azərbaycançılığın siyasi şüura təsir gücünü nümayiş etdirdi. O, eyni zamanda, Azərbaycan cəmiyyətində siyasi davranışın da xüsusiyyətlərinin dəyişməsində əhəmiyyətli dərəcədə rol oynadı [1].

Bu mənada demək olar ki, mühüm ictimai-siyasi proseslərdə bütün etnik qrupların ümumi siyasi, iqtisadi və sosial şərait naminə dövlətçiliyi müdafiə etməsi faktorları kütləvi siyasi şüurun və davranışın yaranmasına işarə edirdi. Ölkədə vətəndaş-dövlət münasibətləri sisteminin inkişaf etməsi, insanlarla dövlət strukturları və institutları arasında etimad mühitinin formalaşması açıq şəkildə isbatladı ki, azərbaycançılıq ideologiyası Azərbaycanda aktiv və dinamik işləyən kütləvi siyasi şüuru və davranışı bərqərar etdi. azərbaycançılıq ideologiyasını mənimsəmiş cəmiyyətimiz ölkənin inkişafı üçün doğru yolu seçməkdə kütləvi siyasi iradə və davranış ortaya qoydu.

Göründüyü kimi, nəzəri biliklərlə azərbaycançılıq ideologiyasının təcrübi təsirlərinin üst-üstə düşməsi cəmiyyətin siyasi şüurunun, siyasi davranışının, siyasi mədəniyyətinin və siyasi mentalitetinin yüksəlməsinə səbəb oldu. Artıq əminliklə demək olar ki, azərbaycançılıq ideologiyası ölkəmizdə kütləvi şüurun transformasiyasında əhəmiyyətli rol oynadı və firavan gələcək naminə polietnik coğrafiyanı vahid sosial-siyasi məkana çevirdi. Azərbaycançılıq ideologiyası cəmiyyətdə perspektiv inkişaf vektorları haqqında düşünmək və ümumi mənafe naminə birgə hərəkət etmək vərdişləri yaratdı. Beləliklə də, aydın olur ki, azərbaycançılıq ideologiyası xalqımızın kütləvi siyasi şüur, kütləvi siyasi mədəniyyət və kütləvi siyasi davranış kimi sosial-tarixi və siyasi faktorlara sahib olmasını şərtləndirdi, həmçinin uğurlu transformasiya prosesinə təkan verdi.

Ulu öndər Heydər Əliyev daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, onlara inteqrasiyasından bəhrələnmək deməkdir. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. “Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur [5].

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılıq milliyyətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporamız üçün cəlbedicidir.

Azərbaycançılığı şərtləndirən ən mühüm amillərdən biri də milli ənənədir. Milli düşüncə sisteminin genetik qaynağı olan azərbaycançılığın inkişaf stimulyatoru da məhz ənənədir. Ənənə uzun əsrlərin sınağından keçərək tarixi təcrübəni yığır, xalqın müdrikliyi, onun mənəvi mədəniyyəti və s. amillər bu anlayışda ifadə olunur. O, keçmişlə gələcəyi əlaqələndirir, etnokulturoloji mövcudluğu toplayır. Bu ənənələr xalqın keçdiyi zəngin tarixi yolun mütərəqqi yaşam təcrübəsini özündə qoruyub saxlayır. Deməli, azərbaycançılıq ideologiyası həm də xalqın tarixən tapındığı ənənələrini mütərəqqi şəkildə gələcək nəsillərə ötürən mənəvi körpüdür. Azərbaycançılığın gücü, eyni zamanda, fərdi maraq və meyilləri dövlət siyasəti ilə birləşdirmək, xalqın milli-mədəni birliyini qoruyub saxlamaq imkanları ilə ölçülür [6].

Dövlətçilik hisslərinə malik olmayan xalq milli dövlətini inkişaf etdirə bilməz. Bu mənada, azərbaycançılıq ideologiyası milləti, xalqı, dövləti qəlbən sevməyi, onun naminə yorulmadan çalışmağı bütün mahiyyəti ilə təşviq edir. Xalqın milli varlığını ifadə edən rəmzlərə, adət-ənənələrə, ali mənəvi dəyərlərə yüksək sədaqət, ana dilinə məhəbbət, bəşəri ideallara hörmət azərbaycançılığın milli mahiyyətini açmaqla yanaşı, onun humanist səciyyə daşıdığını göstərir.

ƏDƏBİYYAT

1. Hacıyeva V. Siyasi orqanizm: elementlər, əlaqələr, proseslər. Bakı: Elm, 2008, 234 s.
2. Политические теории и политическая практика: Словарь-справочник. Москва, 1994, 292 с.
3. Мухаев Р.Т. Политология. Москва: Проспект, 2010, 412 с.
4. Артемов О.П. Политическая социология. Москва: Логос, 2003, 187 с.
5. http://www.anl.az/down/meqale/azerbaycan/2020/may/708966.htm
6. http://www.anl.az/down/meqale/azerbaycan/2011/may/175824.htm

Bakı Slavyan Universiteti
E-mail: vuqarreimzade@mail.ru

Vugar Rahimzadeh

HEYDAR ALIYEV AND THE IDEOLOGY OF AZERBAIJANISM

Ideology is a system of views that includes traditions, way of life, the form of life, and people's activities. It raises people's daily consciousness to the theoretical and conceptual level, realizing the close association of a social group with its fellow countrymen on the way to development. The ideology of Azerbaijanism ensured national harmony in the country and ensured peaceful coexistence among confessions and ethnic groups. The ideology of Azerbaijanism reflects the united polyethnic nation's shared interests in establishing Azerbaijani statehood, the goals of struggle for the development of democracy, the market economy, and social life.

Keywords: *Azerbaijanism, ideology, society, Azerbaijan, Heydar Aliyev, democracy, political system.*

Вугар Рахимзаде

ГЕЙДАР АЛИЕВ И ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА

Идеология – это система взглядов, охватывающая обычаи и традиции, образ жизни и занятия нации. Она, поднимая повседневное сознание людей на теоретический и концептуальный уровень, обеспечивает их тесную интеграцию с другими соотечественниками на пути перспективного развития общества, к которому они принадлежат. Идеология азербайджанства, прежде всего, обеспечивала национальное согласие в стране, а также мирное сосуществование религий и этносов. Идеология азербайджанства отражает общие интересы единой полиэтнической нации в становлении азербайджанской государственности, цели борьбы за развитие демократии, рыночной экономики и общественной жизни.

Ключевые слова: *азербайджанство, идеология, общество, Азербайджан, Гейдар Алиев, демократия, политическая система.*

(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 17.01.2021
Son variant 05.02.2021

UOT 94(479.24)

İLHAMİ ƏLİYEV

RAUF MƏMMƏDOVUN ELMİ TƏDQİQATLARINDA NAXÇIVAN TARİXİNİN ARAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Məqalədə tarixçi-alim Rauf Məmmədovun elmi yaradıcılığından bəhs edilir. Qeyd edilir ki, alim elmi fəaliyyətinin əsas hissəsini Naxçıvanın orta əsrlər dövrü tarixinin tədqiqinə həsr etmişdir. XX əsrin 60-80-ci illərində o, bu sahədə yorulmadan çalışmış, dəfələrlə Naxçıvanda olmuş, bölgənin bir sıra orta əsr abidələri ilə bağlı araşdırmalar aparmışdır. Onların tarixi ilə bağlı müəyyən elmi və elmi-kütləvi məqalələr nəşr etdirmişdir. Namizədlik dissertasiyasını da Naxçıvan şəhərinin orta əsrlər dövrü tarixinin tədqiqinə həsr etmiş və bu işi uğurla yerinə yetirmişdir. Alimin 1977-ci ildə nəşr etdirdiyi "Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü)" monoqrafiyası qədim Naxçıvan diyarının tarixinə həsr edilmiş ən sanballı əsərlərdən biri olmuşdur.

Elmi fəaliyyətinin Sovet ideologiyasının hökm sürdüyü illərə düşməsinə baxmayaraq əsərlərində hər zaman milli düşüncənin, vətənpərvərliyin, türkçülüyün öndə olması Rauf Məmmədovu fərqləndirən əsas xüsusiyyətlərindən biri olmuşdur.

Açar sözlər: *Rauf Məmmədov, Naxçıvan tarixi, orta əsrlər dövrü, alim, elmi tədqiqat, monoqrafiya.*

Azərbaycanın, xüsusilə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın orta əsrlər dövrü tarixinin görkəmli tədqiqatçılarından biri, tarixçi-alim Rauf Məmmədovun elmi yaradıcılığının əsas hissəsini Naxçıvan tarixi ilə bağlı sanballı tədqiqatları təşkil etmişdir. Qısa olaraq həyatı haqqında qeyd etmək olar ki, Rauf Ağabala oğlu Məmmədov 1932-ci ildə Bakı şəhərində, həkim ailəsində anadan olmuşdur. Atası Ağabala Məmmədovun II Dünya müharibəsində həlak olmasına baxmayaraq R.Məmmədov 1951-ci ildə orta məktəbi əla qiymətlərlə başa vurub, Azərbaycan Dövlət Universitetinə daxil olmuşdur. Əvvəlcə fəlsəfə fakültəsinə daxil olsa da, tarixə olan marağına görə sonra onu tarix ixtisasına çevirmiş, 1956-cı ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir [17, s. 3]. Həmin ildən Azərbaycan Tarixi Muzeyində (indiki Milli Azərbaycan Tarixi Muzeyi) kiçik elmi işçi vəzifəsində işə başlamışdır.

1957-ci ildən "Bilik" cəmiyyətinin üzvü seçilmiş Rauf Məmmədov Azərbaycanın ayrı-ayrı bölgələrində ictimaiyyət qarşısında Vətən tarixinin müxtəlif problemlərinə həsr olunmuş əhatəli mühazirələrlə çıxış etmişdir. 1960-61-ci illərdə R.Məmmədov müəlliflər kollektivinin üzvü kimi "Azərbaycan. Tarixi və əlamətdar yerləri" toplusunun və "Azərbaycan tarixinin erkən orta əsrlər və orta əsrlər dövrü" bələdçi kitabının hazırlanmasında fəal iştirak etmiş, muzeylə bağlı bir neçə müvafiq məqalə çap etdirmişdi. 1964-cü ildə müəlliflər kollektivi tərkibində R.Məmmədovun hazırladığı "Azərbaycan tarixi muzeyi. Bələdçi" kitabı muzeyin qonaqları arasında hər zaman daha çox sevilmişdir. Bu kitab rus, ingilis, fransız, ərəb, fars, alman dillərinə tərcümə edilmişdir [1]. 1967-ci ildən Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunda fəaliyyətini davam etdirən Rauf Məmmədov "Azərbaycanın orta əsrlər tarixi" şöbəsində çalışmağa başlamış, 1968-1970-ci illərdə həmin institutun elmi katibi vəzifəsində işləmişdir. Bu dövrdə onun elmi tədqiqatlarında nəzərə çarpacaq dərəcədə dəyişikliklər baş vermişdir. Belə ki, əgər əvvəlki illərdəki məqalələrində o, abidələri maddi-mədəniyyət nümunələri kimi, təsvir edirdisə, bu dövrdən başlayaraq abidələri Azərbaycan tarixində tutduğu yer, Azərbaycan xalqının formalaşmasında oynadığı rol baxımından təhlil etmişdir [18].

1971-ci ildə muzey işi ilə bağlı elmi tədqiqatlarını davam etdirmək məqsədilə R.Məmmədov yenidən Azərbaycan Tarixi Muzeyinə qayıtmışdır. Belə ki, həmin ildə muzeyin

"Azərbaycanın qədim və orta əsrlər tarixi" ekspozisiya-fond şöbəsinin müdiri vəzifəsinə seçildikdən sonra 1988-ci ilədək, yəni ömrünün sonuna qədər burada çalışmışdır [17, s. 4]. Bu illərdə muzeydə qurulan Azərbaycan tarixi ekspozisiyasının böyük dövrünün təqdim olunması məhz R.Məmmədova həvalə olunmuşdu. Ekspozisiyanın yeni-yeni materiallarla daim zənginləşdirilməsini, nümayiş olunan eksponatlar barədə tamaşaçılara hərtərəfli və dolğun məlumatların çatdırılmasını tələb edən bu vəzifə olduqca böyük məsuliyyət tələb edirdi. Bununla yanaşı o, bu dövrdə təşkil olunan muzeyin sualtı arxeoloji qrupunun fəaliyyətini işıqlandıran bir sıra məqalələr də çap etdirmişdi [1].

Verilən tapşırıqlara ciddi yanaşması, nizam-intizamı, böyük məsuliyyəti ilə seçilən R.Məmmədova 1971-ci ildən Azərbaycan SSR Elmlər Akademiyası İctimai Elmlər Bölməsinin Elmi-Koordinasiya Şurasının elmi katibi vəzifəsi həvalə olunmuşdur [18]. Alim elmi tədqiqat işləri ilə yanaşı pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. Belə ki, o, Azərbaycan Pedaqoji İnstitutunda savadlı kadrlar yetişdirmək məqsədilə müəllimlərin təkmilləşdirilməsi sahəsində təcrübəli pedaqoq kimi, öz biliklərini əsirgəməmişdir. Bu məqsədlə o, həmmüəllif olaraq Azərbaycan tarixi üzrə üç kitabça da nəşr etdirmişdir [17, s. 4-5].

Muzeydə çalışdığı illərdə R.Məmmədov buradakı nəşrlərinin hazırlanması işində də əməyini əsirgəməmişdi. Alim gərgin elmi fəaliyyəti ilə 1973-cü ildə "Azərbaycan tarixi muzeyi" kollektiv əsərinin hazırlanmasında əhəmiyyətli rol oynamışdır. 1975-ci ildə Azərbaycan Tarixi Muzeyinin 55 illiyi münasibətilə keçirilmiş təntənəli toplantı və elmi sessiyada o, "Azərbaycanın qədim və orta əsrlər tarixinin öyrənilməsinə muzeyin töhfəsi" məruzəsi ilə çıxış etmiş, məruzə müvafiq topluda çap olunmuşdur. 50-dən artıq elmi məqalənin, respublikanın dövrü mətbuatında nəşr olunmuş 90-dan artıq elmi-populyar məqalənin müəllifi olmuş, tarix elmləri namizədi R.Məmmədovun vaxtsız vəfatı ona doktorluq dissertasiyasını müdafiə etməyə imkan verməmişdi [1].

R.Məmmədovun elmi tədqiqatlarının əsas hissəsini Naxçıvanın orta əsrlər dövrü tarixinin araşdırılması məsələsi təşkil etmişdir. Apardığı çoxşaxəli elmi araşdırmaları əsasında o, 1962-ci ildə "Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri"ndə "Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi barədə" [15], yenə həmin ildə tarix muzeyinin daimi nəşrlərindən olan "Azərbaycan tarixi üzrə materiallar" toplusunda "Naxçıvan şəhərinin qədim dövr və orta əsrlər tarixindən" [11], 1963-cü ildə "Naxçıvan şəhərinin X-XII əsrlər tarixindən" [10] məqalələrini çap etdirmişdir. Bu məqalələrin yazılmasında alim ilk ərəb və fars dilli mənbələr, Avropa mənbələri üzərində axtarışlar aparmış, xeyli yeni faktlar üzə çıxarmışdır. Lakin R.Məmmədov təkcə yazılı mənbələrlə tədqiqat işlərini davam etdirməklə kifayətlənməyib, dəfələrlə Naxçıvan Muxtar Respublikasına səfər etmiş, bölgənin tarixi abidələri ilə yerində tanış olmuşdu. 1964-cü ildə SSRİ-də arxeoloji və etnoqrafik tədqiqatların nəticələrinə həsr olunmuş sessiyada o, "Naxçıvan şəhərinin tarixinin öyrənilməsində maddi mədəniyyət abidələri mənbə kimi" mövzusunda məruzə ilə çıxış etmişdir [1].

60-cı illərdə R.Məmmədov Azərbaycan tarixşünaslığında dərin iz buraxan bir elmi töhfəyə imza atmış oldu. Apardığı elmi tədqiqatların nəticələri əsasında o, 1965-ci ildə "Naxçıvanın orta əsrlər dövrü tarixinin oçerkləri" adlı namizədlik dissertasiyasını müdafiə etdi. Böyük uğurla keçən müdafiə Azərbaycan tarixşünaslığında Vətən tarixinin qaranlıq səhifələrini araşdırmaq arzusu ilə yaşayan yeni simanın meydana çıxmasını sübut etdi. Naxçıvanın tarixi abidələrini araşdırmağı davam edən və elmi araşdırmalarının nəticələrini geniş ictimaiyyətə çatdırmağa çalışan R.Məmmədov bu istiqamətdə silsilə məqalələr çap etdirirdi.

Onun "Möminə Xatun kimdir?" [7, s. 14-16], "Azərbaycan mədəniyyətinin unikal abidəsi" [2, s. 13-15], "Bir qalanın sirri" ("Ulduz" jurnalı, 1967, № 4), "Azərbaycanın qədim və orta əsr maddi mədəniyyətinin bəzi abidələri haqqında" ("Azərbaycan tarixi muzeyinin əsərləri", 1968, VII c.), "Əlincə yoxsa Ələncik" ("Elm və həyat", 1969, № 5), "Əlincəqalanın orta əsrlər tarixi haqqında" [4, s. 8-16], "Əlincə qalası haqqında yeni materiallar" ("1969-cu ildə SSRİ-də arxeoloji və etnoqrafik tədqiqatların nəticələrinə həsr olunmuş sessiyanın materialları"), "Naxçıvan şəhərinin XVI-XVII əsrlər tarixindən" [9, s. 163-193], "Naxçıvanda "Atabəy günbəzi" məqbərəsi haqqında yeni materiallar" [8, s. 42-51] və s. mövzularında olan məqalələri Naxçıvanın o dövrdə az məlum olan və zəif öyrənilmiş abidələrinə həsr edilmişdi.

"Naxçıvan MR-in toponimikasında türk tipli etnonimlər" ("1970-ci ildə Azərbaycanda arxeoloji və etnoqrafik tədqiqatların nəticələrinə həsr olunmuş sessiyanın materialları") məqaləsi sovet dövründə araşdırılması yasaq olan bir mövzuya – türk etnonimlərinə, Azərbaycan xalqının etnogenezində türk tayfa birliklərinin roluna həsr olunmuşdur. Geniş ictimaiyyəti Azərbaycan tarixi ilə bağlı yeniliklərlə məlumatlandırmaq məqsədilə Rauf Məmmədov kütləvi informasiya vasitələrində də bir sıra məqalələr çap etdirmişdir. Onun 1964-cü ildə "Ən-Nəşəvi təxəllüslü Azərbaycan alimləri", 1973-cü ildə "Mədəniyyətimizin xəzinəsi", 1974-cü ildə "Möminə Xatun tarixi abidəsi haqqında həqiqət", 1976-cı ildə "Əcəmi və Zahidə xatun" və başqa qəzet məqalələrində Naxçıvanın qədim və orta əsrlər tarixindən bəhs edilmişdir [1].

Alimin 1977-ci ildə "Elm" nəşriyyatında çap olunmuş "Naxçıvan şəhərinin tarixi oçerki" (orta əsrlər dövrü) monoqrafiyası Azərbaycanın bu qədim şəhərinin, müxtəlif dövrlərdə onun tərkibində olduğu inzibati dairənin orta əsrlər tarixi üçün əvəzedilməz elmi tədqiqat əsəridir. Monoqrafiyada Naxçıvanın X-XVII əsrlər tarixinin geniş şəkildə tədqiqi ilə yanaşı, burada Naxçıvan şəhərinin yaranması, ilk orta əsrlər tarixi, arxeoloji və memarlıq abidələri, orta əsrlərdə Naxçıvanda yaşayıb-yaratmış elm və mədəniyyət xadimləri haqqında bəhs edilmişdir. Qeyd edək ki, Rauf müəllimin bu əsəri bu gün Naxçıvan tarixinin orta əsrlər dövrü ilə məşğul olan hər kəsin stolüstü kitabına çevrilmişdir. Çünki burada istifadə edilmiş orijinal mənbələrin çoxluğu və əsərin lakonikliyi tədqiqatçılar üçün sanki bir icmal rolunu oynayır. Monoqrafiyanın I fəsli "Naxçıvanın orta əsrlər tarixinin tədqiqinə dair", II fəsli "Naxçıvan şəhəri qədim və ilk orta əsrlər dövründə", III fəsli "Naxçıvan şəhəri IX əsrin ikinci yarısı- XII əsrdə", IV fəsli "Naxçıvan XIII-XV əsrlərdə", V fəsli "Naxçıvan şəhəri XVI-XVII əsrlərdə", VI fəsli "Naxçıvan Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri kimi (X-XVII əsrlər)" tarixini əks etdirir. Alim bu əvəzsiz əsərində ilk orta əsrlərdən başlayaraq XVII əsrin sonlarınadək olan dövrdə Naxçıvan şəhərinin ictimai-siyasi vəziyyətini, onun iqtisadi həyatını, elm və mədəniyyət mərkəzlərindən biri kimi, Azərbaycan tarixində rolunu tədqiq edərək elmi dövriyyəyə daxil etmişdir.

Orta əsrlər tarixi sahəsində tədqiqatlarını davam etdirmiş R.Məmmədov doktorluq işini də Azərbaycan şəhərlərinin orta əsrlər dövrü tarixinin tədqiqinə həsr etmişdir. "Şimali Azərbaycanın şəhərləri VII-XIV əsrlərdə (sosial-iqtisadi və mədəni tarixi)" adlı doktorluq dissertasiyasında Naxçıvan şəhərinin də orta əsrlər tarixindən bəhs etmişdir. "Naxçıvan şəhərinin tarixi oçerki" adlı tədqiqat işinin genişləndirilmiş şəkildə davamı olan bu elmi araşdırmanın aparılmasına ömrünün bir çox illərini sərf etmiş alimə onu müdafiə etmək nəsib olmadı. Onun vaxtsız ölümü bu işinə mane oldu. Lakin ölümündən sonra ailəsi tərəfindən alimin son tədqiqat işi hazırlanaraq 2015-ci ildə "Elm və təhsil" nəşriyyatında 480 səhifəlik bir monoqrafiya şəklində çap etdirilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyinin XX əsrin 60-80-ci illərdəki fəaliyyətində əhəmiyyətli rol oynamış, Azərbaycan tarixşünaslığında dərin iz buraxmış görkəmli tarixçi-alim Rauf Məmmədovun elmi irsinin bəzi nümunələri hələ də işıq üzü görməmişdir.

Rauf müəllim Azərbaycanın digər bölgələrinin orta əsrlər tarixi ilə yanaşı Naxçıvanın tarixini də çox obyektiv şəkildə araşdırmışdır. Hələ sovet rejiminin hökm sürdüyü illərdə onun Azərbaycanın bu bölgəsinin orta əsrlər tarixini ayrıca bir tədqiqat əsəri kimi, belə dərindən araşdırması həqiqi vətənpərvərliyini bir daha sübut edir. Rauf Məmmədov və onun kimi Azərbaycan alimləri xalqımızın qəlbində daim yaşayacaqdır.

ƏDƏBİYYAT

1. Əhmədov S. Azərbaycan tarixinin yorulmaz tədqiqatçısı, muzey işinin fədaisi (tarixçi-alim Rauf Məmmədovun 80 illiyinə həsr olunur). http://www.azhistorymuseum.az/index.php?mod=5&id=642.
2. Məmmədov R.A. Azərbaycan mədəniyyətinin unikal abidəsi // Elm və həyat, 1966, № 8, s. 13-15.
3. Məmmədov R.A. Əcəmi və Zahidə xatun. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1976, 18 dekabr.
4. Məmmədov R.A. Əlincəqalanın orta əsrlər tarixi haqqında / Azərbaycan tarixinə dair materiallar. Muzeyin əsərləri. IX c., Bakı: Elm, 1973, s. 8-16.
5. Məmmədov R.A. Əlincə yoxsa, Ələncik // Elm və həyat, 1969, № 5.
6. Məmmədov R.A. "Ən-Nəşəvi" təxəllüslü Azərbaycan alimləri. "Azərbaycan gəncləri" qəz., Bakı, 1964, 3 yanvar.
7. Məmmədov R.A. Möminə Xatun kimdir? // Azərbaycan qadını, 1966, № 2, s. 14-16.
8. Məmmədov R.A. Naxçıvanda "Atabəy günbəzi" məqbərəsi haqqında yeni materiallar / Azərbaycan SSR-də 1972-ci ildə arxeoloji və etnoqrafik tədqiqatların nəticələri. Bakı: Elm, 1973, s. 42-51.
9. Məmmədov R.A. Naxçıvan şəhərinin XVI-XVII əsrlər tarixindən / Azərbaycan tarixinə dair materiallar. VIII c., Bakı: Elm, 1973, s. 163-193.
10. Məmmədov R.A. Naxçıvan şəhərinin X-XII əsrlər tarixindən / Azərbaycan tarixinə dair materiallar. VI c., Bakı, 1963, s. 16-53.
11. Məmmədov R.A. Naxçıvan şəhərinin qədim və ilk orta əsrlər tarixindən / Azərbaycan tarixinə dair materiallar. V c., Bakı, 1962, s. 40-67.
12. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977, 158 s.
13. Məmmədov R.A., Onullahi S.M. Mömünə Xatun haqqında tarixi həqiqət // Tarix, ictimaiyyət, coğrafiya tədrisi, 1974, № 3, s. 44-57.
14. Məmmədov R.A. Piriyev V. Teymurun Əlincə səfəri // Elm və həyat, 1977, № 9, s. 31-33.
15. Məmmədov R.A. Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. İctimai elmlər seriyası, 1962, № 4, s. 11-22.
16. Naxçıvan ensiklopediyası: 2 cilddə. II c., Naxçıvan, 2005, 376 s.
17. Мамедов Р.А. Города Северного Азербайджана (социально-этнографическая и культурная история). Баку: Элм и Техсил, 2015, 480 с.
18. https://az.wikipedia.org/wiki/Rauf_Məmmədov_(tarixçi)

Ilhami Aliyev

ISSUES OF STUDYING THE HISTORY OF NAKHCHIVAN IN SCIENTIFIC RESEARCH OF RAUF MAMEDOV

The paper examines the scientific work of the scientist-historian Rauf Mammadov. It is noted that the scientist devoted most of his scientific activity to the study of the medieval history of Nakhchivan. In the 60s and 80s of the XX century, he worked tirelessly in this area, visited Nakhchivan several times, and researched many medieval monuments in this region. He has published many scientific and popular science articles on their history. He also devoted his dissertation to studying the medieval history of Nakhchivan and completed this work. The monograph "Historical sketch of the city of Nakhchivan (medieval period)," published by the scientist in 1977, was one of the most significant works on the history of the ancient Nakhchivan region.

Despite the dominance of Soviet ideology during the period of his scientific activity, one of the main distinguishing features of Rauf Mammadov has always been that in his works, he put national consciousness, patriotism, and Turkism in the first place.

Keywords: *Rauf Mammadov, history of Nakhchivan, medieval period, scientist, scientific research, monograph.*

Ильхами Алиев

ВОПРОСЫ ИЗУЧЕНИЯ ИСТОРИИ НАХЧЫВАНА В НАУЧНЫХ ИССЛЕДОВАНИЯХ РАУФА МАМЕДОВА

В статье рассматривается научное творчество ученого-историка Рауфа Мамедова. Отмечается, что большую часть своей научной деятельности ученый посвятил изучению средневековой истории Нахчывана. В 60-х и 80-х годах XX века он неустанно работал в этой области, несколько раз посещал Нахчыван и проводил исследования ряда средневековых памятников в этом регионе. Он опубликовал ряд научных и научно-популярных статей по их истории. Он также посвятил свою диссертацию изучению средневековой истории Нахчывана и успешно выполнил эту работу. Монография "Исторический очерк города Нахчыван (средневековый период)", изданная ученым в 1977 году, была одним из самых значительных произведений, посвященных истории древнего Нахчыванского края.

Несмотря на господство советской идеологии в период его научной деятельности, одним из основных отличительных свойств Рауфа Мамедова всегда являлось то, что в своих трудах он ставил на первое место национальное сознание, патриотизм и тюркизм.

Ключевые слова: *Рауф Мамедов, история Нахчывана, средневековый период, ученый, научное исследование, монография.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 06.01.2021
Son variant 01.02.2021

UOT 94 (479.24)

NURLANA ƏLİYEVA

ORDUBAD ŞƏHƏRİNİN TARİXİ COĞRAFİYASI (1828-1924)

Naxçıvan ərazisi orta əsrlər dövründən şəhər mədəniyyətinin mövcud olduğu Azərbaycan bölgələrindən biri olmuşdur. Tarixən Naxçıvan diyarında öz dövrü üçün inkişaf etmiş sənətkarlıq mərkəzlərinin yerləşdiyi şəhərlər olmuşdur ki, bunlardan Naxçıvan, Ordubad, Əylis, Azad, Culfa, Qarabağlar və s. kimi şəhərləri qeyd edə bilərik. Ancaq biz tədqiq etdiyimiz 1828-1924-cü illərdə bölgədəki şəhərlərdən yalnız, Ordubad və Naxçıvan şəhər kimi varlığını qoruyub saxlaya bilmişdir. Ordubad şəhəri tarixən inkişaf etmiş sənətkarlıq və ticarət mərkəzlərindən biri olmuşdur. Tarixin müxtəlif dövrlərində şəhər tənəzzül dövrü yaşamış, lakin yenə də yüksək inkişaf səviyyəsinə çatmışdır. Ordubad şəhərinin yerləşdiyi ərazinin əlverişli coğrafi mövqeyə və zəngin təbii şəraitə malik olması, burada insanların qədim zamanlardan məskunlaşması üçün imkan yaratmışdır. Şəhər və şəhərətrafı ərazilərin müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələri ilə zəngin olması bunu təsdiq edir. Məqalədə Ordubad şəhərinin tarixi, keçdiyi inkişaf yolu, sərhədləri, məhəllələri və bir sıra başqa məsələlərə nəzər salmışıq.

Açar sözlər: *Ordubad şəhəri, tarixi coğrafiya, məhəllə, sərhəd, orta əsrlər, sənətkarlıq mərkəzi.*

Hələ XVII əsrdə elə də böyük şəhər olmayan Ordubadın vergilərdən azad edilməsi onun sürətlə böyüməsinə şərait yaratmışdır. Bu dövrdə Naxçıvan ölkəsinin tərkibində Ordubad Azərbaycan (Təbriz) bəylərbəyliyinə daxil olmuşdur. XVII əsrin II yarısında Ordubad şəhər kimi daha çox əhəmiyyət kəsb etməyə başlamışdır. Zəkəriyyə Əylislinin verdiyi məlumatlardan aydın olur ki, XVII əsrin 80-ci illərindən Ordubadda qazilik institutu ləğv edilmiş, onun yerini daha böyük şəhərlər üçün xarakterik olan şeyxülislamlıq tutmuşdur. XVIII əsrin 50-ci illərində Əylis şəhərinin süqutu Ordubad şəhərinin əhəmiyyətinin artmasına gətirib çıxarmışdır [8, s. 120].

Şəhərin adının mənşəyinə nəzər saldığımızda görürük ki, qaynaqlarda Ordubad sözünün mənşəyi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Əsasən bu adın qədim türk dillərində "xan düşərgəsi", "iqamətgah", "qərargah" mənalarında işlədilən "ordu" və "abad" sözlərinin birləşməsindən əmələ gəldiyi göstərilir [13, s. 79]. Keçmişdə şəhərin adı Orduvar şəklində qeydə alınıb. Tədqiqatçı Ə.Hüseyninin fikrincə isə bu toponim əvvəl "Orduvad" adlanıb, "Bəyin qalası" mənasını ifadə edirdi. Onun fikrincə, "Bəy qalası" sonralar böyüyərək şəhərə çevrilmişdir [5]. Mahmud Kaşğari ordu sözünü "xaqanın yaşadığı yer, iqamətgah" və ya "köstəbəklərin yaşadığı yer" mənasında işlədib [6, s. 398]. Bəzi tədqiqatçılar yazır ki, şəhərin qədim adı Urdubad olmuş, mənası sutkada iki dəfə əsən külək deməkdir. A.Bağırov bu sözün "bahadırlar xanının sarayı" anlamını verdiyini yazmışdır [2, s. 177]. Bundan başqa ərazidə qədim türk dilli oğuz tayfaları yaşayıb. Dilçi alim A.Həsənov və professor Q.Qeybullayevin fikrincə, "Ordubad" sözü türk mənşəli "ordu" və fars mənşəli "abad" komponentləri əsasında yaranmış hibrid addır. Ordubad toponiminin komponentlərindən "bad" hissəsi qədim türk dillərində "batur" sözünün topomorfoloji transformasiyaya uğramış şəklidir. Bu söz xanın iqamətgahı – sarayı mənasını bildirən ordu sözü ilə birləşərək (ordu+bat/bad) pəhləvanlar, qəhrəmanlar, bahadırlar, cəsurlar, xanın iqamətgah sarayı mənasını bildirən, bahadırlar xanın sarayı anlamı yaradan Ordubad sözünü meydana gətirmişdir [16, s. 162-163]. Ancaq bu müəlliflərdən fərqli olaraq Ə.Fərzəli adın mənşəyini Atropat//Atropatena sözündə görür: "Atropat (Atropatena) yer, dövlət və sərkərdə adını bu günədək özündə yaşadan yer adlarımızdan biri Ordubaddır. Araşdırmalar göstərir ki, burada söhbət güman edildiyi kimi sadəcə ordu (qoşun) badındanucalığından yox, bilavasitə "od ucalığından" gedir. Yəni: Odbad, Otbad, Atbad, Ortbad,

Ord/u/bat-Otrpad-Atrpad-Atropad kimi bir inkişaf yolu keçmiş və bildiyimiz Ordubad şəklində tarixə düşmüşdür [4, s. 9]. Xalq arasında isə Ordubad ordunun batdığı və ya ordunun abad etdiyi yer anlamında olduğu bildirilir.

Ordubad şəhərinin tarixinə gəldikdə isə Fəridə Məmmədova yazılı mənbələrə əsaslanaraq Ordubad şəhərinin (mənbədə Ordubad kəndi kimi göstərilir) adını ilk dəfə eramızın I-II əsrlərinə aid hadisələrlə əlaqədar çəkir [1, s. 5]. V.Muradov mənbələrə əsaslanaraq yazır ki, Ordubad şəhərinin adına ilk dəfə VIII əsrdə yaşamış Sebeosun əsərində rast gəlinir. Bu dövrdə ərəb ordusunun Cənubi Qafqaza hücumundan bəhs edən müəllif yazır ki, işğalçı ərəb ordusu Ordubad ərazisindən keçərək getmişdir [10, s. 80].

1902-ci ildə Ordubad şəhərində yerləşən "Came" məscidinin ətrafında aparılan bərpa işləri zamanı tapılmış kərpicin üzərində hicri tarixi ilə olan 111-ci il (miladi 729-cu il) rəqəmi sübut edir ki, hələ islam dininin yeni yayıldığı dövrdə Ordubad şəhəri inkişaf etmiş yaşayış məskənlərindən biri olmuşdur. Digər bir mənbədə isə Ordubad şəhər qəbiristanlığından eramızın IX əsrinə aid qəbirüstü plitənin tapılması haqda məlumat verilir. Həmin tapıntının hicri tarixi ilə 227-ci ilə (miladi 842-ci il) aid olduğu bildirilir [14, s. 21].

Ordubad şəhərinin yerləşdiyi ərazinin arxeoloji cəhətdən zəif öyrənilməsi onun meydana gəlməsi tarixini dəqiq müəyyənləşdirməyə imkan vermir. Təəssüf ki, yazılı mənbələrdə də şəhərin əsasının qoyulma vaxtı haqqında konkret olaraq heç bir məlumata təsadüf olunmur. Bununla belə, Ordubad şəhərinin yerləşdiyi ərazi çox qədim zamanlardan insanların yaşayış yerinə çevrilmişdir. Arxeoloji qazıntılar nəticəsində sübut olunmuşdur ki, e.ə III-I minilliklərdə bu ərazilərdə oturaq həyat tərzi keçirmiş əkinçi və maldar tayfaları yaşamışdır [17, s. 33].

Ordubad şəhərinin torpaqları şimalda Yuxarı Əndəmiclə, şərqdə Kotamla, cənubda Araz çayı ilə, qərbdə Dəstə kəndi ilə həmsərhəddir [7, s. 72]. Bizim də apardığımız tədqiqatlardan aydın olur ki, Ordubad şəhəri şimaldan Yuxarı Əndəmiclə yox Aşağı Əndəmic kəndi ilə həmsərhəddir.

Ordubad Qarabağ dağlarının uzanan iki dağ silsiləsinin arasındakı dərədən axan Ordubadçayın sahillərində yerləşir. Professor V.Muradov da Ordubad şəhərinin şimaldan Aşağı Əndəmic, şərqdən Kotam, qərbdən Dəstə kəndləri, cənubdan isə Araz çayı ilə həmsərhəd olduğunu göstərir [10, s. 84]. S.Budaqova yazır ki, Ordubad şəhəri Zəngəzur dağlarının ətəklərindən başlayan və iki dağ silsiləsinin ardınca uzanan maili düzənlikdə yerləşirdi. Şəhər şimaldan Aşağı Əndəmic, şərqdən Kotam, qərbdən Dəstə kəndləri ilə həmsərhəd idi [3, s. 70]. Ordubad çayı şəhəri iki hissəyə bölürdü. Çayın üstündən daşdan körpü tikilmişdi. Burda tədqiqatçı Kotamı Kəntan kimi vermişdir. 1829-cu ilin may ayının məlumatına əsasən şəhərdə 635 evdə hər iki cinsdən toplam 3444 nəfər əhali yaşayırmış. Onlardan 3262 nəfərini yerli tatarlar (yəni türklər), 182 nəfərini isə Qacar şahənşahlığından köçürülmüş ermənilər təşkil edirdi. Şəhərdəki 635 evdən 611-i tatarlara, 1-i ermənilərə, 23-ü isə dövlətə aid idi. Şəhərdə bir bazar, 6 böyük məscid, 6 karvansaray, Ordubad çayı üzərində tikilmiş daşdan körpü var idi. Əsas məsciddə müsəlman məktəbi yerləşirdi [18, s. 482].

Ordubad şəhərinin məhəllələrinə gəldikdə isə şəhərin plan quruluşuna əsasən şəhər əsasən 5 böyük məhəllələri əhatə edir:

1. "Ambaras" (Anbaras) (İbrahim Əbilov və Babək küçələri)
2. "Kürdətal" (Əkbər Ağayev və M.Füzuli küçələri)
3. "Üç tərərəngi"(Üçtürləngə küçəsi)
4. "Mingəs" (Mingis) (Ümbül-Leyla və indiki Mingəs küçələri)
5. "Sərşəhər" (Qaffar Babayev və Dədə Qorqud küçələri)

Ordubad şəhərində böyük məhəllələrlə yanaşı nisbətən kiçik məhəllələr də vardır: "Qaraçanaq", "Dilbər", "Əngəç", "Qarahovuz başı", "Əsgərxan", "Varsan", "Körpübaşı", "Bəylər", "Meyrəmçə", "Peci", "Düz", "Qoşqar", "Musa təngi" və s. [9, s. 125]. XIX-əsrin 30-cu illərində tərtib olunmuş "Qafqaz arxasında Rusiya mülklərinin icmalı" adlı mənbədə də göstərilir ki, 615 evi, 6 karvansarası, 170 dükanı, bir bazarı və iki hamamı olan Ordubad beş məhəlləyə Anbaras, Kürtatar (Kürdətal), Sərşəhər, Mingis və Üçtürləngə məhəllələrinə bölünür. Bundan başqa, həmin məhəllələrə nisbətən kiçik məhəllələr də var: Qarahovuz", "Qaraçanaq", "Dilbər", "Əngəş", "Əsgərxan", "Varsan", "Musa təngi" məhəllələri və s. [10, s. 85]. İbrahim Kazımbəyli yazır ki, XIX-XX əsrin əvvəllərində Ordubad şəhəri 5 məhəlləyə bölünür. Bunlar Sarı şəhər, Minqis, Ampores, Kürdatar, Üç-taranka. Sahəsi isə 45 kv verstdən ibarət olub, ümumi əhalisi 4250 nəfər olmuşdur [7, s. 45]. Burada müəllif Sər şəhəri nədənsə Sarı şəhər olaraq vermişdir. Digər məhəllələrin adlarında isə bəzi hərf dəyişiklikləri olmuşdur.

Ordubad şəhərinin bu məhəllələrinin yerləşdikləri ərazilər haqqında X.Vahidova ətraflı məlumat verir. Onun yazdığından məlum olur ki, hazırda Yuxarı Anbaras və Aşağı Anbaras adı ilə iki hissəyə bölünmüş Anbaras məhəlləsi XIX əsrdə Ordubadçayın sağ sahilində yerləşirdi. Şəhərin ən qədim və böyük məhəllələrindən olan Sərşəhər məhəlləsi Ordubadçayın sol sahilində yerləşən və Yuxarı Əylis kəndindən başlayıb şəhərin cənub şərqinə doğru uzanan əsas küçə boyunca yerləşirdi. Mingis məhəlləsi isə şəhərin əsas magistrallarından olan və Təbrizə istiqamətlənən küçə boyunca, Üçtürəngə məhəlləsi isə şəhərin mərkəzindən başlayıb, köhnə qəbiristanlığa qədər uzanan küçə boyunca yerləşirdi [17, s. 33].

Zaman keçdikcə şəhər ləng də olsa böyüyür, onun əhatə etdiyi ərazi genişlənirdi. Yalnız şəhərin özünün əhatə etdiyi ərazi 4,5 verst, şəhər kənarı əkin sahələri və bağlarla birlikdə 12 verst təşkil edirdi. Bu artım özünü şəhərdə olan yaşayış evlərinin və təsərrüfat tikililərinin sayında da göstərirdi. XIX əsrin ortalarına aid olan mənbələrin verdikləri məlumata görə, bu dövrdə şəhərdə artıq 874 ev, iki karvansara, 308 dükan, 470 meyvə və üzüm bağı, 63 məscid, bir kilsə, yeddi meydan, 5 körpü, 3 hamam və 25 küçə var idi [10, s. 85]. XIX-XX əsrin əvvəllərində şəhərin böyüməsi haqqında professor F.Səfərli yazır: "Aparılan tikinti işləri sayəsində şəhər getdikcə genişlənir, sahəsi artırdı. Buna görə də XIX əsrin sonu-XX əsrin əvvəllərində şəhərin ərazisi 4725 desyatindən artıq olmuşdu" [16, s. 49].

Naxçıvanın şəhərləri içərisində Ordubad şəhərsalma və memarlıq irsi ilə seçilir. Ordubad şəhərinin ərazisindən iki çay axır. Solundan Gənzə çayı, sağında Ordubad çayı. Başlanğıcını qarlı dağlardan götürən Ordubad çayı şəhəri iki hissəyə-Sərşəhərə və Ambarasa ayırır. Hələ qədim feodal dövründə Ordubad çayının sağ sahilində yerləşən "Qala" adlanan ərazi şəhərin mərkəzi hesab olunurdu. Ordubadın qədim tarixi mərkəzi Ambaras məhəlləsi və bu məhəllənin mərkəzində tikilən "Ambaras" məscidilə birlikdə ərazidə formalaşmışdır. Orta əsrlərdə Ordubadın mərkəzi çayın sol sahilində yerləşən Sərşəhərə köçürülmüş, mərkəzi Sərşəhər meydanı və meydanda ucalan Sərşəhər məscidi olmuşdur. Sərşəhər məscidi şəhərin plan quruluşunda dominant mövqe tutmaqla yaşayış məskənin bütün yollarına nəzarət edir. Orta əsr şəhər quruluşunu özündə qoruyub saxlayan Ordubad şəhəri uzun illər ictimai mərkəz kimi fəaliyyət göstərmişdir [9, s. 125]. Bir məsələni də vurğulamaq istərdik ki, şəhərin məhəllələrinin hər birinin ayrıca kəhrizi var idi. Bunlardan əhali elliklə istifadə edirdi.

Məhəllələr haqqında, onların etimologiyasına ayrı-ayrılıqda nəzər salmaq istərdik.

Ambaras (Anbaras) məhəlləsi. Ordubad şəhərində məhəllə adıdır. Toponim mənbələrdə Anbaras şəklində də yazılmışdır. Hazırda tələffüz zamanı hər iki variantdan istifadə olunur. Məhəllə Aşağı Anbaras və Yuxarı Anbaras adlanan iki hissədən ibarətdir. Məhəllənin

"kiçik meydandan ibarət mərkəzində məhəllə məscidi, çeşmə və bir neçə xırda dükan vardır. Anbaras məhəlləsinin meydanı indi də məhəllə mərkəzi rolunu oynayır". Yerli əhalinin dediyinə görə, şəhər ətrafında olan bağ-bostan məhsulları qışa saxlanıldığına görə buraya Anbaras deyilib. Toponim anbar və as tərkib hissələrindən ibarətdir. Məhəllə adı "böyük anbar" mənasına uyğun gəlir [2, s. 21].

Mingis məhəlləsi. Ordubad şəhərində qədim və əsas məhəllələrdən birinin adıdır. Toponim yerli dialektdə Mingəs şəklində də tələffüz olunur. Məhəllənin mərkəzində iri çinar ağacı və IX əsrdən qalma ikimərtəbəli məscid binası olmuşdur. Yerli əhalinin fikrincə, bu məsciddə min nəfər namaz qıldığı üçün adın mənası "min kəs" şəklində olmuş və canlı danışıq dilində Mingəs-Mingis şəklinə düşmüşdür. Digər bir fikrə görə isə məhəllə və məscid adları tarixin müəyyən dövrlərində ticarət əlaqələri, ictimai-siyasi və iqtisadi hadisələrlə əlaqədar Mingis adlanan şəhərdən köçüb gələnlərlə bağlı yaranmışdır. M.Urudun yazdığına görə, "məhəllə adı qədim türkdilli minq-min (mənbələrdə adı minqat kimi də çəkilir) tayfasının adını əks etdirir. VII-VIII əsrlərdə doqquz oğuz konfederasiyasına daxil olan minqlər XII-XIII əsrlərdə qıpçaqların, XIV əsrdə isə Əmir Teymurun yürüşlərində fəal iştirak edən minqlər müxtəlif ərazilərdə, o cümlədən Azərbaycanda məskunlaşmışlar" [2, s. 45].

Kürdətal-Kürdətar məhəlləsi. Ordubad şəhərində Ordubadçayın sol sahilində yerləşən məhəllə adıdır. Bu ad mənbələrdə Kür-dətar, Kürd-tatar fonetik variantında da yazılmışdır. Əvvəllər məhəllənin meydan şəklində düzəldilmiş mərkəzində məscid, bulaq və s. yerləşirdi. İ.Şopen Kürdətal meydanının dördkünclü olduğunu yazmış və şəhərin "ən yaxşı meydan"ı adlandırmışdır [18, s. 481; 11, v. 11].

Sərşəhər məhəlləsi. Ordubad şəhərində məhəllə adıdır. "Müfəssəl dəftər"də verilən məlumatlardan aydın olur ki, Ordubad şəhərin ən böyük məhəlləsi Sərşəhər məhəlləsi olmuşdur. 1727-ci ildə bu məhəllədə yaşayan 1888 nəfər vergi ödəyicisinin adı qeydə alınmışdır [12, s. 132]. Mənbələrdə əksini tapan bu adın birinci komponenti farsca "baş, kəllə, təpə, zirvə, başçı, rəis, uc, kənar" mənalarında işlənən sər sözü əsasında yaranmışdır. Adın mənası "şəhərin yuxarı hissəsi" deməkdir. Hazırda məhəllənin meydan şəklində düzəldilmiş mərkəzində məscid, bulaq və digər tarixi-memarlıq tikililəri var. Məhəllə orta əsr məhəllələrinin gözəl örnəyi kimi keçmiş cəhətlərini qoruyub saxlamaqla, buradakı məscid, örtülü bazar bitkin kompleks təşkil edir. Yerli əhali Sərşəhər sözünü "məscidlərin başı" mənasında da açıqlayır. Bu ad məhəllənin yerləşdiyi ərazinin relyef quruluşuna görə verilmişdir [2, s. 49].

Üçtürəngə məhəlləsi. Ordubad şəhərində məhəllə adıdır. Məhəllə Gənzə çayının sahilindədir. XVIII əsrin əvvəllərindən Naxçıvan sancağının tərkibinə daxil olan Azadciran nahiyəsindəki Ordubad qəsəbəsinin məhəllələrindən biri kimi adı çəkilir (12, s. 19). Bəzi mənbələrdə və yerli əhali arasında toponimin Hüştürəngə, Üştürəngə variantları da işlədilir və adın mənşəyi "dəvələrin ləngərləndiyi yer", "dəvələrin saxlanıldığı yer" mənasında açıqlanır. (şotor//şütür sözü farsca dəvə deməkdir). Adın yaranma tarixi isə İpək Yolunun bir qolunun Ordubad şəhərindən keçməsi, bu yolda dəvələrdən geniş istifadə olunması ilə əlaqələndirilir. Məhəlləyə relyef quruluşuna, coğrafi mövqeyinə "üç döngə"dən ibarət olmasına görə ad verildiyi də iddia edilir. Adın mənşəyini Cənubi Azərbaycanın Oçtibin qəsəbəsinin adı ilə bağlı olduğunu da ehtimal etmək olar. A.Bağırov yazır ki, bizim fikirimizə görə, məhəllə adının üçtur-şütür-uçtur (dəvə) sözü ilə əlaqələləndirilməsi daha ağlabatandır [2, s. 53; 11, v. 11].

Məhəllələrdə bazarın olması da əsas şərtlərdən biri idi. Ordubad bazarlarında ən böyük meydan – Arasa meydanı ilə yanaşı Mizandibi, Aşağı Anbaras meydanları da yerləşirdi. Ba-

zarın başlanğıcında yerləşən Arasa meydanında müxtəlif təyinatlı məhsullar satılan çoxlu sayda dükanlar fəaliyyət göstərirdi. Ordubadın memarlıq abidələri, tikililəri, küçə və meydanları haqqında bəhs edən tədqiqatçılar XX əsrin əvvəllərində Ordubadda 40-a yaxın məhəllə və küçə məscidinin olduğunu yazır və Əngəc məhəlləsinin adını da yuxarıdakı məhəllə adlarına əlavə edirlər.

Bəhs olunan dövrdə Ordubad şəhərinin tarixi coğrafiyasına nəzər saldıqda görürük ki, o, həm də əsas ticarət mərkəzlərdən biri olmuş, Azərbaycanın Təbriz, Şamaxı kimi şəhərləri ilə yanaşı Venesiya, Marsel, Amsterdam və s. Avropa şəhərləri ilə də ticarət əlaqələri qurmuşdur. Bu da Ordubad şəhərinin nə qədər əhəmiyyətli bir şəhər olduğunu göstərir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V., Seyidov A., Qədirzadə Q., İbrahimli B. Qədim Ordubad. Naxçıvan: Əcəmi, 2014, 312 s.
2. Bağırov A. Naxçıvanın oykonimləri. Bakı: Nurlan, 2008, 336 s.
3. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı-XIX əsrin birinci qərinəsi). Bakı: Elm, 1995, 96 s.
4. Fərzəli Ə. Dədə Qorqud yurdu. Bakı: Elm, 1989, 181 s.
5. Hüseyni Ə. Adlar və odalar. "Sovet Naxçıvanı" qəz., 1982, 10 dekabr, s. 2.
6. Kaşğari M. "Divanü lüğat-it-türk" / Tərcümə edən Ramiz Əsgər, 4 cilddə, IV c., Bakı: Ozan, 2006, 752 s.
7. Kazımbəyli İ. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı: Elm, 2007, 175 s.
8. Kəlbizadə E. Naxçıvanın tarixi coğrafiyası (XII-XVIII əsrin I yarısı). Naxçıvan: Əcəmi, 2016, 200 s.
9. Qənbərova G. Ordubad şəhər məhəllələrinin memarlığı // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2015, № 5 (70), s. 124-135.
10. Muradov V. Naxçıvan diyarında sənətkarlıq və ticarət. Bakı: Elm, 2017, 264 s.
11. Naxçıvan Muxtar Respublika Dövlət Arxivi (NMRDA): F. 314, siy. 6, v. 11.
12. Naxçıvan sancağının müfəssəl dəftəri / Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı) / Tərcümə edənlər: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 376 s.
13. Orucov A. Ordubad şəhərinin maddi mədəniyyətinin bəzi nümunələrinə dair (XIX-XX əsr) // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2018, № 2 (91), s. 79-89.
14. Səfərli F. Araz vadisi ilkin şəhərlərin yarandığı mərkəzlərdən biri kimi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, 2013, c. 9, № 1, s. 17-24.
15. Səfərli F. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı: MBM, 2009, 192 s.
16. Zeynalov M. Gilançay hidroniminin, Ordubad və Şərur oykonimlərinin etimologiyası // Bakı Universitetinin Xəbərləri. Təbiət elmləri seriyası, Bakı, 2012, № 3, s.161-166.
17. Ваидова Х. История города Ордубад. Баку: Нурлан, 2007, 190 с.
18. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург: Типография императорской АН, 1852, 1231 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: nurlana_aliyeva@yahoo.com

Nurlana Aliyeva

HISTORICAL GEOGRAPHY OF ORDUBAD CITY (1828-1924)

Since the Middle Ages, the territory of Nakhchivan was one of the regions of Azerbaijan where there was an urban culture. Historically, in the Nakhchivan Territory, there were cities in which the centers of crafts developed for their time located, of which we can mention such cities as Nakhchivan, Ordubad, Ailis, Azad, Julfa, Karabaglar, etc. However, of the cities of the region studied by us, only Ordubad and Nakhchivan could maintain their position as cities by 1828-1924. The city of Ordubad has historically been one of the most developed craft and trade centers. In different periods of history, the city experienced a decline but still reached a high development level. The territory where Ordubad is located has an advantageous geographical position and rich natural conditions, which made it possible for people to settle here since ancient times. The evidence is that urban and suburban areas are rich in material and cultural examples dating back to different eras. In the article, we examined the history of the city of Ordubad, the path of development, borders, neighborhoods, and some other issues.

Keywords: *Ordubad city, historical geography, quarter, border, Middle Ages, handicraft center.*

Нурлана Алиева

ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ ГОРОДА ОРДУБАДА (1828-1924)

Территория Нахчывана со времен средневековья была одним из регионов Азербайджана, где имелась городская культура. Исторически в Нахчыванском крае существовали города, в которых располагались развитые для своего времени центры ремесел, из них мы можем упомянуть такие города, как Нахчыван, Ордубад, Айлис, Азад, Джульфа, Карабаглар и др. Однако из исследованных нами городов региона только Ордубад и Нахчыван смогли сохранить свое положение в качестве городов к 1828-1924 годам. Город Ордубад исторически был одним из развитых ремесленных и торговых центров. В разные периоды истории город переживал упадок, но все же достиг высокого уровня развития. Территория, на которой расположен Ордубад, имеет выгодное географическое положение и богатые природные условия, что дало возможность людям селиться здесь с древних времен. Об этом свидетельствует тот факт, что городские и пригородные районы богаты материально-культурными образцами, относящимися к разным эпохам. В статье мы рассмотрели историю города Ордубада, пройденный путь развития, границы, кварталы и ряд других вопросов.

Ключевые слова: *город Ордубад, историческая география, квартал, граница, средневековье, центр ремесел.*

(AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 14.01.2021
Son variant 10.02.2021

ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

UOT 902

VƏLİ BAXŞƏLİYEV

OSMANTƏPƏ YAŞAYIŞ YERİ DAŞ DÖVRÜNÜN YENİ ABİDƏSİDİR

Cənubi Qafqazın, o cümlədən Azərbaycanın arxeoloji abidələrinin tədqiqi ilə Daş dövrünün müxtəlif mərhələləri Paleolit dövründən başlayaraq Neolit dövrünədək öyrənilmişdir. Lakin Mezolit dövrü və Mezolitdən Neolitə keçid mərhələsi kifayət qədər tədqiq edilməmişdir. Cənubi Qafqazda indiyədək keramikasız Neolit dövrünün abidələri yaxşı öyrənilmədiyindən keramikalı Neolit dövrünün mənşəyi ilə bağlı qafqazşünas arxeoloqlar arasında bir-birinə zidd iki nəzəriyyə meydana çıxmışdır. Bəzi tədqiqatçılar az miqdarda tapıntılara əsaslanaraq ehtimal edirlər ki, Cənubi Qafqazın Neolit mədəniyyəti yerli zəmində yaranmışdır, digərləri isə Cənubi Qafqazda Neolit mədəniyyətinin hazır şəkildə ortaya çıxmasına əsaslanaraq keramikalı Neolit mədəniyyətinin başqa ölkələrdən gətirildiyini söyləyirlər. Bu baxımdan Cənubi Qafqazda keramikasız Neolit dövrünün öyrənilməsindəki boşluğu dolduran Osmantəpə yaşayış yerinin yeni tapıntıları müəyyən əhəmiyyətə malikdir. Tədqiqatlar göstərir ki, Osmantəpə sakinləri istehsal təsərrüfatının astanasında olmuşdur. Yaşayış yerinin sakinləri başlıca olaraq ovçuluq, yığıcılıq və heyvandarlıqla məşğul olmuşlar. Əmək alətlərinin tipoloji analizi əsasında demək olar ki, insanlar burada uzun müddət məskunlaşmışdır. Keramika məmulatının azlığı keramikalı Neolit dövrünün yeni başlandığını göstərir. Təhlillərə əsaslanaraq yaşayış yerini e.ə. 9500-7000-ci illərə aid etmək olar.

Açar sözlər: *Cənubi Qafqaz, Naxçıvan, Mezolit, Keramikasız Neolit, obsidian, mikrolitlər.*

Cənubi Qafqazın, o cümlədən Azərbaycanın arxeoloji abidələrinin tədqiqi ilə Daş dövrünün müxtəlif mərhələləri Paleolit dövründən başlayaraq Neolit dövrünədək öyrənilmişdir. Lakin Mezolit dövrü və Mezolitdən Neolitə keçid mərhələsi kifayət qədər tədqiq edilməmişdir. Hazırda Cənubi Qafqazda Neolit dövrünün maddi-mədəniyyəti Şomutəpə-Şulaveri və Kültəpə mədəniyyəti ilə təmsil edilməkdədir. Keramikalı Neolit dövrünün ən qədim abidəsi Naxçıvanda olan Kültəpə yaşayış yeridir. Tədqiqatlar göstərir ki, bu yaşayış yerində həyat e.ə. VII minilliyin ikinci yarısında başlanmışdır [17, s. 81-113]. Lakin indiyədək Cənubi Qafqazda keramikasız Neolit dövrünün abidələri öyrənilməmişdir. Hazırda Cənubi Qafqazda Neolit dövrü yalnız keramikalı Neolit dövrünün abidələri ilə təmsil edilməkdədir. Buna görə də keramikalı Neolit dövrünün mənşəyi ilə bağlı qafqazşünas arxeoloqlar arasında bir-birinə zidd iki nəzəriyyə meydana çıxmışdır. Bəzi tədqiqatçılar az miqdarda tapıntılara əsaslanaraq ehtimal edirlər ki, Cənubi Qafqazın Neolit mədəniyyəti yerli zəmində yaranmışdır, digərləri isə Cənubi Qafqazda Neolit mədəniyyətinin hazır şəkildə ortaya çıxmasına əsaslanaraq keramikalı Neolit mədəniyyətinin başqa ölkələrdən gətirildiyini söyləyirlər. Belə ki, tədqiqatlar keramikalı Neolit dövründə istehsal təsərrüfatının əsas sahələri olan əkinçilik və maldarlığın artıq formalaşdığını təsdiq edir. Bəzi tədqiqatçıların keramikalı Neolit dövrü abidələrini Mezolit dövrü ilə bağlamaq cəhdləri də məsələni həll etməmişdir. Bu baxımdan Cənubi Qafqazda keramikasız Neolit dövrünün öyrənilməsindəki boşluğu dolduran Osmantəpə yaşayış yerinin yeni tapıntıları müəyyən əhəmiyyətə malikdir.

Osmantəpə yaşayış yeri. Bu yaşayış yeri Şahbuz rayonunun Kükü kəndi yaxınlığında, dəniz səviyyəsindən 2400 m yüksəklikdə yerləşir. Yaşayış yeri hazırda süni gölün sahilində yerləşir və onun bir qismi su altında qalmışdır (şəkil 1). Bu sahədə çoxlu gursulu bulaqlar olduğundan yaşayış yerinin ətrafı indi də maldar əhali tərəfindən yurd yeri kimi istifadə olunur. Bu bulaqların suyunu toplamaq üçün qəza rəisi Şəngirey 1865-ci ildə burada bənd tikdirmiş

və Qanlıgöl su anbarını yaratmışdır [3, s. 25-26]. Bənd tikilərkən yaşayış yerinin bir qismi dağılmış və qismən su altında qalmışdır. Ehtimal ki, qədim dövrdə yaşayış yeri bulaqların lap yaxınlığında olmuşdur. Göl sularının mədəni təbəqəni yuması nəticəsində ortaya çıxan çoxsaylı obsidian alətlər bu yaşayış yerinin kəşf edilməsinin əsas səbəbi olmuşdur. Bu sahə 2019-2020-ci illərdə V.B.Baxşəliyevin rəhbərliyi ilə araşdırılmışdır. Araşdırma nəticəsində xeyli obsidian alətlər və az sayda keramika nümunələri aşkar olunmuşdur. Araşdırma nəticəsində həmçinin bir ocağın qalıqları da aşkar olunmuşdur (şəkil 2, 1).

Şəkil 1. Osmantəpə yaşayış yerinin coğrafi mövqeyi.

Bu ocaq dairəvi formada olub torpaqda qazılmış, döşəməsinə daş döşənmiş və divarları gil məhlulu ilə suvanmışdı. Ocağın içərisində boz rəngli kül və kömür qalıqları qalmışdı. Tapıntıların əksəriyyəti obsidian alətlərdən ibarət idi. Araşdırmalar zamanı yaşayış yerinin sahəsi müəyyənləşdirildi. Müəyyən edildi ki, yaşayış yeri tamamilə dağıdılmayıb. Yaşayış yerinin bəzi yerlərində yarımqazmaların qalıqları qalmışdı. Bu yarımqazmaların da içərisindən obsi-

dian parçaları aşkar olunurdu. Yaşayış yerinin bir qismi göl suları ilə yuyulduğundan sahildə mədəni təbəqənin kəsiyi yaranmışdı. Kəsiyin bir qismi bizim tərəfimizdən təmizləndi və qeydə alınaraq rəsmi çəkildi (şəkil 2, 2). Təmizləmə nəticəsində obsidian, ağac kömürü və kül qalıqları ilə zəngin olan incə təbəqələrin mövcud olduğu müəyyənləşdirildi. Bir-birini əvəz edən bu təbəqələr rənginə görə fərqlənirdi. Kəsikdə həmçinin yarımqazmaya aid divar da aydın görünürdü. Ehtimal ki, bu təbəqələr insanların müxtəlif dövrlərdəki fəaliyyəti nəticəsində yaranmışdı. Bu, əmək alətlərinin müxtəlif dövrlərə aid olması ilə də təsdiq olunur.

Apardığımız araşdırmalar zamanı yaşayış yerində 300-dən artıq obsidian əmək aləti aşkar olunmuşdur. Onlar arasında 8 nukleus və 159 mikrolit vardır. Mikrolitlərin ölçüsü 1-2 santimetr arasındadır. Əmək alətlərinin digər qismi nisbətən böyük həcmli obsidianlardan hazırlanmışdır. Onların ölçüləri 4-7 santimetr arasındadır. Aşkar olunmuş nukleuslar müxtəlif formalıdır. İşlənməmiş özəklər də vardır. Nukleusların ikisi diskşəkilli, üçü piramidal, üçü isə prizmatik formalıdır. Qeyd etmək lazımdır ki, nukleusların hamısı qəlpələnmə nəticəsində tükənmişdir. Əmək alətlərini iki qrupa bölmək olar.

1



2

Şəkil 2. Osmantəpə yaşayış yeri: **1** – Ocaq qalığı; **2** – Yaşayış yerinin kəsiyi: **a** – keramika və obsidian qalıqları olan torpaq layı; **b** – yarımqazmanın divarı; **c** – kömür qarışıq küllü torpaq; **d** – döşəməsinə daş düzülmüş ocaq qalığı; **e** – qəhvəyi rəngli torpaq; **f** – açıq rəngli küllü torpaq; **g** – qumlu və daşlı torpaq; **h** – sərt küllü torpaq.

Birinci qrupa daxil olan obsidian alətlər mikrolitlərlə təmsil edilmişdir. Mikrolitlər əsasən üçbucaq və trapesiya formalıdır. Onlar başlıca olaraq qaşov [qazıyıcı] kimi işlədilmişdir. Lakin ox ucluqları və lövhəşəkilli alətlər də vardır.

Qaşovlar. Bu tip alətlər əsasən seqmentşəkilli, üçbucaqşəkilli və trapesiya formalıdır. Alətlər formaca bir-birindən fərqlənirlər. Seqmentşəkilli alətlər xüsusilə diqqətəlayiqdir (şəkil 3, 1-4, 5-9). Bu alətlərin bəzisinin hər iki tərəfi (şəkil 3, 1, 5, 7, 9), bəzisinin isə yalnız bir tərəfi retuşlanmışdır (şəkil 3, 2, 6). Bu tip alətlər Helwan yaşayış yerindən [13, 2002, şəkil 6, 1-3], Klissoura [14, şəkil 5, 20], Franchtyi [20, şəkil 5] yaşayış yerindən, Aralıq dənizi hövzəsinin abidələrindən [12, şəkil 3] və Natfuy mədəniyyəti abidələrindən [7, şəkil 6, 1-2] məlumdur.



Şəkil 3. Osmantəpə yaşayış yeri. Mikrolitlər.

Tapıntılar arasında ikinci tip, üçbucaqşəkilli qaşovlar xüsusilə fərqlənirlər. Üçbucaqşəkilli qaşovların müxtəlif tipləri vardır. Bu tip alətlər başlıca olaraq obsidian qəlpələrindən hazırlan-

mışdır. Alətlərin ağız kənarlarında işlənmə izləri vardır. Bəzən alətlərin bir, bəzən isə hər iki tərəfindən istifadə olunmuşdur (şəkil 3, 10-12, 22, 32). Bəzi qaşovlar obsidian lövhələrdən hazırlanmışdır (şəkil 3, 13). Üçbucaqşəkilli qaşovlar Klissoura [14, şəkil 5, 13], Schinaria [14, şəkil 23, q] yaşayış yerinin Mezolit dövrü təbəqəsindən, Aralıq dənizi hövzəsi abidələrindən [12, şəkil 3] və Natfuy mədəniyyəti abidələrindən [7, şəkil 6, 4] məlumdur. Üçüncü tip qaşovlar trapesiya formalı (şəkil 2, 14-21, 23-25) yaxud dördbucaq formalıdır (şəkil 3, 7-8, 22, 27-29). Trapesiyaşəkilli alətlərin bəzisi incə retuşla işlənmişdir (şəkil 3, 14, 17, 19, 21). Onların işlək hissəsində istifadə nəticəsində iki qopuq yaranmışdır (şəkil 3, 15, 17, 18, 20). Franchtyi mağarasından olan bu tip trapesiyaşəkilli alətlər e.ə. 8200-7500-cü illərə aid edilir [20, s. 295]. Bu tip qopuqlara Mezolit və Erkən Neolit dövrünə aid əmək alətlərində rast gəlinir [11, şəkil 1, 10].

Bu tip trapesiyaşəkilli qaşovların tam bənzərləri Franchtyi mağarasından [19, şəkil 2, 5; 20, şəkil 5] məlumdur. Belə alətlərin yaxın bənzərləri Türkiyədə Yeni Mahalle yaşayış yerindən də [9, şəkil 22] məlumdur. Bəzi alətlərdə işlənmə izlərinə rast gəlinmir, lakin onların ağzının bir hissəsinin qırılması bu alətlərdən istifadə olunduğunu göstərir. Dördbucaq formalı qaşovlarda da işlənmə izlərinə rast gəlinir. Buna bənzər qaşovlar Cyclope mağarasından [14, şəkil 18, 6] məlumdur. Bu tip alətlər tədqiqatçılar tərəfindən e. ə. 7800-6900-cü illərə [2014, s. 47] aid edilir.



Şəkil 4. Osmantəpə yaşayış yeri. Ərsinlər və ox ucları.

Ox ucları. Bu tip tapıntılar azdır. Belə alətlər yalnız dörd ədəddir. Bunların üçü üçbucaq-şəkilli olub qısa saplaqları vardır (şəkil 3, 30-31). Ox uclarının biri dördbucaq formalıdır (şəkil 4, 11). Bu tip ox ucları Cənubi Qafqazın Neolit abidələrindən məlum deyil. Lakin bu ox uclarının bənzərləri İordaniyanın Neolit abidələrindən məlumdur [22, şəkil 12]. Cafer Höyük yaşayış yerinin müxtəlif təbəqələrindən aşkar olunan ox ucluqları e.ə. 8000-7700-cü illərə aid edilir [8, s. 8-16, şəkil 14, 8; şəkil 22, 4-7]. Bu tip ox ucluqları həmçinin Akarçay Tepe yaşayış yerindən [18, şəkil 25] məlumdur. Yeni Mahalle yaşayış yerindən tapılan ox ucluqları daha qədim dövrə aid edilir [9, s. 147, şəkil 20].

Bu tip ox ucluqlarının bənzərləri, e. ə. 6500-6000-ci illərə aid edilən yaşayış yerlərindən də məlumdur [22, s. 22]. Badamşəkilli forması ilə fərqlənən bir əmək aləti də (şəkil 2, 18), fikrimizə görə, atıcı alətin ucluğu kimi istifadə olunmuşdur. Bu tip alətlər Yaxın Şərqin Erkən Neolit dövrü abidələrindən də vardır [8, s. 35, şəkil 22, 2; 15, şəkil 12, a, b, e, f].

Oraq dişi. Oraq dişi bir nümunə ilə təmsil olunmuşdur (şəkil 3, 8). Bu alət kəsikdə trapesiyaşəkilli olan obsidian lövhədən hazırlanmışdır. Ağzında retuş izləri yoxdur. Bundan başqa iki ədəd lövhəşəkilli alət də vardır. Amma onlar qaşov kimi istifadə olunmuşdur (şəkil 3, 28-29). Bu tip alətlər Mezolit dövrü və Erkən Neolit dövrü abidələrindən məlumdur [8, s. 29, şəkil 14, 2].



Şəkil 5. Osmantəpə yaşayış yeri: 1-6, 8, 9, 10-11 – burğular; 7, 11, 12-13 – sıyırğaclar; 14-16 – itiuclular.

İkinci qrupa aid obsidian məmulatı böyük həcmli obsidian qəlpələrdən hazırlanmışdır. Onların ölçüləri 3-7 santimetr arasındadır. Bu qrupdakı alətlər ərsin, burğu, qaşov, sıyırğac və oraq dişlərindən ibarətdir.

Ərsinlər. Bu tip alətlərin müxtəlif tipləri vardır. Onlar arasında oval formalı kəsici alətlər xüsusilə diqqətəlayiqdir. Bu tip alətlərin kəsəri adətən üçbucaqşəkilli, ya da oval formalıdır. Bəzi ərsinlərin ağac, yaxud sümük əsasa bərkitmək üçün qısa saplağı var (şəkil 4, 1, 2, 3, 4, 5, 8). Alətlərdən birinin kəsəri yan tərəfdə deyil baş tərəfdədir (şəkil 4, 6). Bəzi alətlərin ağzı retuşla işlənmişdir. Bütün alətlərin ağız hissəsində istifadə olunmanın izlərini göstərən bir-birinə paralel olan xətlər vardır. Bu alətlərdən birinin mikroskopik analizi zamanı bir-birinə paralel qeyri-müntəzəm şırımlar aşkar olunmuşdur. Ehtimal ki, bu tip alətlərin bəzisi ağac, yaxud digər bərk materialın işlənməsi üçün istifadə olunmuşdur (şəkil 8, 1, 4). Ərsinlərin digər tiplərinin çox qısa saplaqları vardır (şəkil 4, 7, 9, 10). Bu alətlərin kəsəri retuşla işlənmişdir. Bıçaqşəkilli kəsici alətlər də vardır (şəkil 4, 13-17). Bu alətlərin səthi retuşla işlənmiş və cilalanmışdır (şəkil 4, 15). Ehtimal edirik ki, bu tip alətlər başlıca olaraq bitkilərin yığılmasında istifadə olunmuşdur. Alətlərin ağız hissəsində kəsərə maili paralel xətlərin olması da bunu təsdiq edir.

Qeyd etmək istəyirik ki, bu tip alətlər indiyədək Cənubi Qafqazın Neolit abidələrindən aşkar olunmamışdır. Bu tip ərsinlər başlıca olaraq Mezolit dövrü abidələrindən məlumdur. Bu tip alətlər Gusir Höyük [15, s. 15, şəkil 14], Maroulas yaşayış yeri [14, şəkil 14; 21, s. 59, şəkil 15, 12; şəkil 16], Klissoura [14, s. 36, şəkil 5, 4-7] və digər yaşayış yerlərindən məlumdur. Maroulas yaşayış yerindən aşkar olunan bu tip alətlər e.ə. 9-8-ci minilliklərə aid edilir [21, s. 62]. Gusir Höyük yaşayış yerindən aşkar olunan əmək alətləri də bu dövrə aiddir.



Şəkil 6. Osmantəpə yaşayış yeri. Qaşıyıcı alətlər.

Burğular. Burğular əsasən kəsikdə üçbucaqçəkilli olan lövhələrdən hazırlanmışdır (şəkil 5, 1-6, 8, 9, 11). Alətlərin ucu itilənmiş, ağzı bir tərəfdən retuşla işlənmişdir. Alətlərin ucu işlənmədən cilalanmışdır. Ehtimal ki, bu alətlərin bəzi tipləri (şəkil 5, 2, 4, 8, 10) açılmış deşikləri genişləndirmək üçün istifadə olunmuşdur Bu alətlərdən birinin mikroskopik tədqiqi onun sıyırğac kimi istifadə olunduğunu göstərir (şəkil 5, 9). Belə ki, onun ağız hissəsində bir-birinə paralel şəkildə işlənmə izləri qalmışdır (şəkil 8, 1, 1).

Bu tip alətlərin bəzisi (şəkil 5, 4) formasına və işlənmə üsuluna görə Üst Paleolit alətləri ilə bənzərdir [5, s. 135, şəkil 6, 19]. Belə alətlər Maroulas, [21, s. 58, şəkil 14, 1-10], Gusir Höyük [Karul, 2011, şəkil 15], Franchtyi [10, s. 1139, şəkil 5, 8-13], Roahol Tapeh [6, şəkil 6, 12] və digər abidələrdən məlumdur.

Sıyırğaclar. Sıyırğaclar üç nümunə ilə təmsil olunmuşdur. Onlar kəsikdə üçbucaq formalıdır (şəkil 5, 7, 11, 12). Bu alətlərin ağzı bir tərəfdən retuşla işlənmişdir. Bəzən alətlərin ön tərəfləri işlənmişdir (şəkil 5, 7, 12). Lakin bu alətlərdən birinin hər iki tərəfində işlənmə izləri vardır (şəkil 5, 12, 13). Bu tip alətlərin yaxın bənzərləri Nissi Beach [14, s. 56, şəkil 28, 8], Franchtyi [19, s. 33, şəkil 2, 5; 10, s. 1139, şəkil 5, 3], Merijhelo [6, şəkil 10, 10] və digər yaşayış yerlərindən məlumdur.

Nizə ucluğunun yalnız saplaq hissəsi salamat qalmışdır. Onun üzəri retuşla işlənmişdir (şəkil 5, 10).



Şəkil 7. Osmantəpə yaşayış yeri. Oraq dişləri.

Qaşovlar. Bu tip alətlər üçbucaqşəkilli və trapesiya formalıdır (şəkil 6, 1-10). Lakin bəzi alətlər ovalşəkilli və dördbucaqformalıdır (şəkil 6, 12-16). Bəzi alətlər bir, bəziləri iki, bəziləri isə üç tərəfdən işlənmişdir. Alətlərin işlək tərəfləri istifadə nəticəsində kütləşmişdir. Bu tip alətlər Mezolit dövrü və Erkən Neolit dövrü abidələrindən məlumdur. Belə alətlər Egey hövzəsinin Klissoura, Maroulas [14, s. 36, şəkil 5, 9, 13; şəkil 14, 25; şəkil 23, l, n] kimi abidələrindən, həmçinin Aralıq dənizi hövzəsinin abidələrindən [16, s. 435, şəkil 7, 13] məlumdur. Bu tip qaşovlar Kültəpə [17, şəkil 16, 5], Şomutəpə [2, c. 126] və Şulaveridən də məlumdur.

İtiuclular. Bu tip alətlər bir neçə nümunə ilə təmsil olunmuşdur (5 ədəd). Onlar üçbucaqşəkilli olub iti ucluqludur. Alətlərin ucları əlavə olaraq retuşlanaraq itilənmişdir (şəkil 5, 14-15).

Oraq dişləri. Bu tip alətlər sayca azdır (20 ədəd). Bu alətlər kəsikdə üçbucaqşəkilli və trapesiya formalı lövhələrdən hazırlanmışdır (şəkil 6, 11-14; şəkil 7, 1-17). Bu alətlərin bəzisi retuşla işlənmiş, bəziləri isə təbii şəkildə istifadə olunmuşdur. Belə ki, onların tiyəsi çox iti olduğundan retuşa ehtiyac olmamışdır. Bəzi oraq dişlərinin üzəri başdan başa retuşla işlənmişdir (şəkil 7, 3). İşlənmə izləri adi gözlə belə görünür. Bu alətlərin tiyəsində tiyəyə yönəlmiş çoxsaylı paralel xətlər qalmışdır. Bu həmin alətlərin mikroskopik tədqiqi ilə də təsdiq olunur (şəkil 8, 1, 2-3). Araşdırmalar göstərir ki, bəzi oraq dişləri xarab olduqdan sonra qaşov kimi işlədilmişdir. Oraq dişlərinin ucunun əlavə retuşla işlənməsi də bunu təsdiq edir (şəkil 6, 14; şəkil 7, 4, 5). Bu tip oraq dişləri Erkən Neolit dövrü abidələrindən yaxşı məlumdur. Belə alətlər Argissa-Magoula [19, şəkil 5.3, şəkil 10.1; Reingruber, 2011, şəkil 6], Kültəpə [3, tab. III, 12], Şomutəpə [2, s. 67, 72, 116] və Şulaveri yaşayış yerlərindən məlumdur. Lakin onların bəzisi (şəkil 7, 13, 17) arxaik forması ilə digərlərindən fərqlənir ki, bu da onların qədim tarixə malik olduğunu göstərir.

Bıçaqlar. Bu tip alətlər iki nümunə ilə təmsil olunmuşdur. Bu alətlərin biri kəsikdə trapesiya formalı böyük lövhədən hazırlanmışdır. Tiyəsi incə retuşla işlənmiş, uc hissəsi kütləşmişdir. Üz tərəfində, tiyənin uzununa, uca doğru yönəlmiş paralel xətlər qalmışdır ki, bu da onun bıçaq kimi işləndiyini göstərir (şəkil 7, 18). İkinci nümunə həcmcə nisbətən kiçikdir. Bu alət kəsikdə trapesiya formalı lövhədən hazırlanmış, ucu kütləşmişdir. Tiyəsi retuşla işlənmişdir. Üz tərəfində tiyəsinin uzununa, uca doğru yönəlmiş paralel xətlər qalmışdır (şəkil 7, 19).

Nizə ucluğu. Bu alət kəsikdə üçbucaqşəkilli lövhədən hazırlanmışdır. Tiyəsi retuşla işlənmişdir. Üz tərəfində uca doğru yönəlmiş paralel xətlər şəklində izlər qalmışdır. Ucu işlənmədən kütləşmişdir (şəkil 7, 20).

Keramika məmulatı. Keramika məmulatı obsidian tapıntılarla müqayisədə çox azdır (23 ədəd). Onlar kiçik parçalarla təmsil olunmuşdur. Onların hamısı narın qum qarışığı olan gildən hazırlanmışdır. Gilinin rənginə görə keramika məmulatını iki qrupa bölmək olar. Birinci qrupa daxil olan keramika qırmızı rəngdə bişirilmişdir (14 ədəd). Onların ikisi boz astarlıdır. Bu parçaların üzəri cızma xətlərlə naxışlanmışdır. İkinci qrupdakılar boz, ya da qara rəngdə bişirilmişdir (9 ədəd). Onların ikisi çəhrayı astarlıdır. Boz rəngli keramika naxışsızdır.

Obsidian yataqları. Cənubi Qafqazda obsidian yataqları Azərbaycan, Ermənistan və Gürcüstanda vardır. Zəngin obsidian yataqları həmçinin Şərqi Anadoluda da var. Tədqiqatlar göstərir ki, Naxçıvanın qədim sakinləri başlıca olaraq Zəngəzur, Göyçə və Şərqi Anadolunun obsidian yataqlarından istifadə etmişlər [1, s. 17-18]. Lakin obsidianların əksəriyyəti Zəngəzur və Göyçə gölü hövzəsində yerləşən Göyçə yataqlarındandır. Şərqi Anadolunun obsidian yataqları isə az istifadə olunmuşdur. Bu baxımdan Osmantəpə yaşayış yerinin obsidianları da

istisna deyil. Yaşayış yerindən götürülmüş obsidianların analizi göstərir ki, onlar başlıca olaraq Zəngəzur (89 ədəd) və Göyhasardan (2 ədəd) gətirilmişdir (Obsidian nümunələri Marie Orange tərəfindən analiz edilmişdir). Analizin nəticələri Osmantəpə sakinlərinin başlıca olaraq Zəngəzur, qismən isə Göyçə yataqlarından istifadə etdiyini göstərir. Qeyd etmək lazımdır ki, obsidian xammal kimi Naxçıvanda Orta Paleolit dövründən istifadə olunmuşdur. Lakin bu obsidianların qaynağı indiyədək müəyyən edilməmişdir.

Şəkil 8. Osmantəpə yaşayış yeri: 1 – alətlərin mikroskopik analizi;
2 – Başyurdda yarımqazma tipli evlər.

Alınan nəticələrin qiymətləndirilməsi. Araşdırmalara əsasən demək olar ki, Osmantəpə sakinləri yarımqazma tipli evlərdə yaşamışlar. Bu tip evlər indi də maldar tayfalar tərəfindən istifadə olunur (şəkil 8, 2). Qeyd etdiyimiz kimi, arxeoloji materialların əksəriyyəti obsidian məmulatından ibarətdir. Birinci qrupa daxil olan alətlər başlıca olaraq qaşovlarla təmsil olunmuşdur. Lakin ikinci qrupda alətlərin çeşidi artmışdır və müxtəlif alətlər, o cümlədən oraq dişləri meydana çıxmışdır. Tədqiqat göstərir ki, bəzi alətlər çoxfunksiyalı olmuşdur. Əmək alətlərinin bənzərləri Mezolit və Erkən Neolit dövrü abidələrindən məlumdur. Qeyd etmək lazımdır ki, qısa saplaqlı ərsinlərin bənzərləri Cənubi Qafqazın Son Neolit dövrü abidələrindən məlum deyil. Bu isə yaşayış yerinin qədim tarixə malik olduğunu göstərir. Əmək alətlərinin tipoloji analizinə əsasən demək olar ki, Osmantəpənin qədim sakinləri başlıca olaraq maldarlıq və yığıcılıqla məşğul olmuşlar. Lakin oraq dişləri və keramika məmulatı

istehsal təsərrüfatının mövcud olduğunu təsdiq edir. Osmantəpə yaşayış yerinin tədqiqi Naxçıvanın qədim sakinlərinin hansı yollarla obsidian yataqlarına doğru getdiyini də dəqiqləşdirməyə imkan verir. Obsidian alətlərin mikroskopik tədqiqi bu yaşayış yerinin obsidianın daşınmasında keçici yaşayış yeri kimi deyil, həmçinin insanların burada müəyyən müddət yaşadığını göstərir. Yaşayış yerində mədəni təbəqənin yığılması da bunu təsdiq edir. Yaşayış yerinin yüksək dağlıq ərazidə yerləşdiyini və burada iqlimin soyuq olduğunu nəzərə alsaq deyə bilərik ki, Osmantəpə yaşayış yeri mövsümi yaşayış məskəni kimi istifadə olunmuşdur. Keramika məmulatının çox az miqdarda və kiçik parçalar halında aşkar olunması bizcə keramikalı Neolit dövrünün və istehsal təsərrüfatının yenicə başladığını göstərir. Əmək alətlərinin tədqiqi də bunu sübut edir. Demək olar ki, Osmantəpə yaşayış yerinin materialları Mezolitdən Neolitə keçid dövrünü əks etdirir. Araşdırmalar obsidian alətlərin hazırlanmasında başlıca olaraq Göyçə və Zəngəzur obsidianından istifadə olunduğunu göstərir ki, bu da Cənubi Qafqazda, o cümlədən Azərbaycanda keramikalı Neolitin yerli zəmində inkişaf etdiyini təsdiq edir.

Tədqiqatlar göstərir ki, Osmantəpə sakinləri istehsal təsərrüfatının astanasında olmuşdur. Əmək alətlərinin tədqiqinə əsasən demək olar ki, yaşayış yerinin sakinləri başlıca olaraq ovçuluq, yığıcılıq və heyvandarlıqla məşğul olmuşlar. Əkinçiliyin mövcud olması ilə bağlı hələlik dəqiq məlumat yoxdur. Əmək alətlərinin tipoloji analizi əsasında demək olar ki, insanlar burada uzun müddət məskunlaşmışdır. Keramika məmulatının azlığı keramikalı Neolit dövrünün yeni başlandığını göstərir. Yaşayış yerindən götürülən kömür analizi e.ə. 5735-5620-ci ili göstərmişdir. Lakin, təhlillərə əsaslanaraq yaşayış yerini e.ə. 9500-7000-cü illərə aid etmək olar.

ƏDƏBİYYAT

1. Baxşəliyev V. Naxçıvanda 2018-ci ilin arxeoloji tədqiqatları. Naxçıvan: Əcəmi, 2019, 104 s.
2. Ахундов Т. У истоков Кавказской цивилизации. Шомутепе. Баку, 2012, 388 с.
3. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахчыванской АССР. Баку, 1982, 316 с.
4. Сафарли Г. Эпиграфические памятники Нахчывана. Нахчыван: Аджами, 2017, 200 с.
5. Albrecht G., Albrecht B. G., Berke H., Burger D., Moser J., Rähle W., Schoch W., Storch G., Uerpmann H.P., Urban B. Late Pleistocene and Early Holocene finds from Öküzini: A Contribution to the Settlement History of the Bay of Antalya, Turkey // Paléorient, 1992, v. 18/2, pp. 123-141.
6. Bahrami M., Sabzi Doabi M., Nikzad M. Note on Three New Neolithic Sites in Pish-e Kuh Region, Central Zagros / Neolithics, 2012, v. 1/12, pp. 8-14.
7. Bar-Yosef O. The Natufian Culture in the Levant, Threshold to the Origins of Agriculture // Evolutionary Anthropology, 1998, v. 6/5, pp. 159-177.
8. Cauvin J., Aurenche O., Cauvin M.C., Balkan-Atlı N. The Pre-Pottery Site of Cafer Höyük // The Neolithic in Turkey, İstanbul, 2011, pp. 1-40.
9. Çelik B. Şanlıurfa – Yeni Mahelle // The Neolithic in Turkey, İstanbul, 2011, v. 2, pp. 139-164.
10. Douka K., Perl`es C., Valladas H., Vanhaeren M. Hedges R.E.M. Franchthi Cave revisited: the age of the Aurignacian in south-eastern Europe // Antiquity, 2011, v. 85, pp. 1131-1150.
11. Garfinkel Y., Nadel D. The Sultanian Flint Assemblage from Gesher and its Implications for Recognizing Early Neolithic Entities in the Levant // Paléorient, 1989, v. 15/2, pp. 139-151.

12. Guilaine J., Manen C. From Mesolithic to Early Neolithic in the western Mediterranean. Going over / The Mesolithic-Neolithic Transition in the North-West Europe. Cardiff, United Kingdom, 2005, pp. 21-51.
13. Haïdar-Boustani M. Le Néolithique Du Liban Dans Le Contexte Proche-Oriental État Des Connaissances // Annales D'histoire Et D'archéologie Université Saint-Joseph, Beyrouth, 2001-2002, v. 12-13, pp. 1-39.
14. Kaczanowska M., Kozłowski J. K. The Aegean Mesolithic: Material Culture, Chronology, Networks of Contacts // Eurasian Prehistory, 2014, v. 11 [1-2], pp. 31-62.
15. Karul N. Gusir Höyük // The Neolithic in Turkey, İstanbul, 2011, v. 1, pp. 2-17.
16. Luglie` C., Le Bourdonnec F.X., Poupeau G., Atzenia E., Dubernet S., Moretto Ph., Serani L. Early Neolithic obsidians in Sardinia [Western Mediterranean]: the Su Carroppu case // Journal of Archaeological Science, 2007, v. 34, pp. 428-439.
17. Marro C., Bakhshaliyev V., Berthon R., Thomalsky J. New light on the Late Prehistory of the South Caucasus: Data from the recent excavation campaigns at Kültepe I in Nakhchivan, Azerbaijan [2012-2018] // Paleorient, 2019, v. 45.1, pp. 81-113.
18. Özbaşaran M., Duru G. Akarçay Tepe. A PPNB and PN Settlement in Middle Euphrates-Urfa // The Neolithic in Turkey, İstanbul, 2011, v. 2, pp. 165-202.
19. Perles C. The Early Neolithicin Greece. New York, 2004, 372 p.
20. Reingruber A. Early Neolithic settlement patterns and exchange networks in the Aegean // Documenta Praehistorica, 2011, v. 38, pp. 291-305.
21. Adamantios S., Koslowski J.K., Kaszanowska M., Giannouli B. The Mesolithic settlement at Maroulas, Kythnos // Mediterranean Archaeology and Archaeometry, 2002, v. 2 [1], pp. 45-67.
22. Wasse A., Rowan Y., Rollefson G.O. A 7thMillennium BC Late Neolithic Village at Mesa 4 in Wadi al-Qattafi, Eastern Jordan / Neolithics, 2012, v. 1/12, pp. 15-24.

AMEA Naxçıvan Bölməsi
Email: velibahshaliyev@mail.ru

Veli Bakhshaliyev

OSMAN TEPE IS A NEW MONUMENT OF THE STONE AGE

Studies of the South Caucasus' archaeological sites, including Azerbaijan, revealed various periods of the Stone Age, from the Lower Paleolithic to the Neolithic Age. Simultaneously, the Mesolithic Age and the transition period from Mesolithic to Neolithic have not been appropriately studied. Moreover, the monuments of the pre-ceramic Neolithic in the South Caucasus remain unearthed. Therefore, two opposing theories appeared among archaeologists of the Caucasians. Some researchers, basing on small finds, suggest that the Neolithic of the South Caucasus have local roots, while others put forward opinions on the imported nature of the ceramic Neolithic, citing that in the South Caucasus, the producing economy existed in its finished form. At the same time, to a certain extent, new finds identified at the Osman Tepe settlement attract attention, make it possible to supplement the gap existing in the study of the pre-ceramic Neolithic in the South Caucasus. Studies show that the settlers of the ancient settlement of Osman Tepe were on the verge of moving to a production farm. The main

occupations of the settlers were hunting, gathering, and animal husbandry. Based on a typological analysis of the settlement tools, we can say that people lived here for a long time. A small number of ceramic products in our way testifies to the new beginning ceramic Neolithic. Therefore, settlements can be dated 9500-7000 BC.

Keywords: *South Caucasus, Nakhchivan, Mesolithic, pre-ceramic Neolithic, obsidian, microliters.*

Вели Бахшалиев

ПОСЕЛЕНИЕ ОСМАН ТЕПЕ – НОВЫЙ ПАМЯТНИК ЭПОХИ КАМЕННОГО ВЕКА

Исследованиями археологических памятников Южного Кавказа, в том числе и Азербайджана, выявлены различные периоды каменного века, начиная с нижнего палеолита до неолита. При этом эпоха мезолита и переходный период от мезолита к неолиту не изучены должным образом. А памятники докерамического неолита на территории Южного Кавказа остаются пока не изученными. Поэтому среди археологов-кавказоведов появились две противоположные друг другу теории. Некоторые исследователи, основываясь на малочисленных находках, предполагают, что неолит Южного Кавказа имеет местные корни, а другие выдвигают мнение о привозном характере керамического неолита, ссылаясь на то, что на Южном Кавказе производящая экономика возникла в готовом виде. С этой точки зрения определенное значение имеют новые находки, выявленные в поселении Осман Тепе, которые позволяют восполнить пробел, существующий в изучении докерамического неолита на Южном Кавказе. Исследования показывают, что жители Осман Тепе стояли на грани перехода к производящему хозяйству. Основными занятиями жителей поселения были охота, собирательство и животноводство. На основе типологического анализа орудий поселения можно сказать, что люди проживали здесь в течение длительного промежутка времени. Малочисленность керамических изделий свидетельствует о только что начавшемся керамическом неолите. На основе анализа поселение можно датировать 9500-7000 гг. до н.э.

Ключевые слова: *Южный Кавказ, Нахчыван, мезолит, докерамический неолит, обсидиан, микролиты.*

Daxilolma tarixi: İlkin variant 08.01.2021
Son variant 08.02.2021

UOT 902

TOĞRUL XƏLİLOV

NAXÇIVANDA DULUSÇULUQ SƏNƏTİNİN TARİXİ VƏ FORMALAŞMASI PROSESİ

Dulusçuluq qədim sənətkarlıq sahələrimizdəndir. Bu sənət sahəsinin əsasını gildən müxtəlif formalı keramika məmulatlarını düzəltmək təşkil edir. Azərbaycanın digər bölgələrində olduğu kimi Naxçıvanda da dulusçuluğun əsası Neolit dövründə qoyulmuşdur. Yəni insanlar ilk dəfə bu dövrdə gildən müxtəlif formalı qablar düzəltmişlər. Neolit dövrü ilə müqayisədə Eneolit dövründə dulusçuluq sənətinin bir qədər inkişaf etməsi nəticəsində keramika məmulatlarının nisbətən çeşidləri çoxalmış, keyfiyyəti yaxşılaşmış, naxışlanma üsulunda, ornamentasiyasında dəyişikliklər olmuşdur. Tunc dövründə Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da dulusçuluq sənəti yeni inkişaf mərhələsinə daxil olmuşdur. Erkən Tunc dövründən etibarən dulusçuluğun daha da inkişaf etməsi Orta Tunc dövründə onun müstəqil sahəyə çevrilməsinə gətirib çıxarmış, Naxçıvan "Boyalı qablar mədəniyyəti"nin əsas mərkəzlərindən biri olmuşdur.

Açar sözlər: *dulusçuluq, Naxçıvan, keramika, Boyalı qablar mədəniyyət, Orta Tunc dövrü.*

Naxçıvan diyarının ən qədim sənətkarlıq sahələrindən biri dulusçuluqdur. Bu söz fransızca "ceramigue", ingiliscə "ceramic", rusca "керамика", yunanca "keramikos" şəklində ifadə olunur. Qədim türklər dulusçuları "ayaqçı" adlandırmışlar. Mahmud Kaşğarinin "Divanü lügat-it-türk" əsərində qeyd olunmuş "ayaqçı ayaq sırladı" (çömlekçi çömlek sırladı) [12, s. 420] ifadəsini buna nümunə göstərmək olar. Odun əldə edilməsinə qədər insanların dulusçuluq haqqında heç bir təsəvvürü olmamışdır. Odun insanların məişət həyatına daxil olmasından bu sahədə bacarıq və vərdişlər yaranmışdır. Gil torpağın bişirilməsi nəticəsində keramika əldə olunmuşdur. Keramika, məmulatların düzəldilməsi ilə dulusçuluğun əsası qoyulmuşdur. Buna görə də, keramika ifadəsinin yunan dilində yanıq, yanmış maddəni bildirməsi məntiqə uyğundur [13, s. 3].

Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvan diyarında da insanlar ilk dəfə Neolit dövründən etibarən (e.ə. VII minillik) gildən müxtəlif keramika məmulatları düzəltdikləri üçün dulusçuluğun tarixinin bu dövrdən başlandığını qeyd etmək olar. Bu dövrdə keramika məmulatları içərisində gil qabların üstünlük təşkil etməsinin əsas səbəblərindən biri ondan ibarət olmuşdur ki, onlar insanların məişət və təsərrüfat həyatında mühüm yer tutmuş, geniş istifadə edilmişdir. Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvan diyarında da, bu dövrdə dulusçuluğun səviyyəsi aşağı olmuşdur. Dulusçular bu sahədə bir o qədər də yüksək bacarıq və vərdişlərə malik olmamışlar. Keramika məmulatları saman qarışıqlı gildən səliqəsiz, keyfiyyətsiz, az çeşiddə düzəldilmişdir.

Neolit dövrü ilə müqayisədə Eneolit dövründə dulusçuluq sənəti bir qədər inkişaf etmişdir. Bu dövrdə dulusçuluğun inkişaf etməsi keramika məmulatlarının çox çeşidli olmasında, keyfiyyətində, naxışlanma üsulunda və digər xüsusiyyətlərində özünü göstərir. Neolit dövründən fərqli olaraq, Eneolit dövrü abidələrində açıq çəhrayı, qırmızı və boz rəngli sadə qablarla yanaşı boyalı, cilalı, anqoblu qabların aşkar olunması, onların keyfiyyətinin bir qədər yaxşılaşması, çeşidlərinin artması, bir çoxunun saman qarışıqsız gildən düzəldilməsi dulusçuluq sənətinin inkişafı ilə bağlı olmuşdur. Saman qarışıqsız gildən əsasən boyalı qablar düzəldilmişdir. Onlar monoxrom boyalı olmuşdur. Boyalar anqob üstü və anqob altı vurulmuşdur. Bəzi qabların içərisi, bir çoxunun isə həm içərisi, həm də xarici səthi qırmızı boya ilə örtülmüşdür.

Qabların üzərinə qara, qırmızı, sarı rəngli naxışlar çəkilmişdir. Naxışlar əsasən qabların gövdəsində, boğaz hissəsində, ağzının kənarında vurulmuşdur. Naxışlanmada sadə həndəsi ornamentlərdən (dalğalı, düz, qırıq xətlərdən) daha çox istifadə edilmişdir. Fikrimizi əsaslandırmaq üçün Naxçıvan Muxtar Respublikasının ərazisindəki Neolit və Eneolit dövrünə aid abidələrdən aşkar olunmuş maddi-mədəniyyət nümunələrinə nəzər salmaq zəruridir.

Naxçıvanda Neolit dövrünə aid keramika məmulatları hələlik I Kültəpə və Xələc yaşayış yerində aşkar edildiyi üçün onların keramika məmulatları əsasında bu dövrdə Naxçıvanda dulusçuluq sənətinin səviyyəsi haqqında müəyyən məlumat əldə etmək mümkündür.

I Kültəpə yaşayış yerində Neolit dövrünə aid ilk keramika məmulatları O.Həbibullayev tərəfindən XX əsrin 50-ci illərində yaşayış yerinin 1 "a" təbəqəsində aşkar edilmişdir [10, s. 58]. Tədqiqatçı XX əsrin 50-ci illərində yaşayış yerinin 1 "a" təbəqəsini Neolit dövrünə aid etsə də, XX əsrin 80-ci illərində 1 "a" və 1 "b" təbəqələrinin Eneolit dövrünə aid olduğunu qeyd etmişdir [14, s. 24]. Yaşayış yerinin 1 "a" təbəqəsindən aşkar olunmuş gil qabların sadə və kobud düzəldilməsi, çeşidlərinin azlığı Neolit dövründə dulusçuluğun ibtidai səviyyədə olması ilə bağlı olmuşdur. Abidənin bu dövrə aid mədəni təbəqəsindən kasa və banka tipli gil qablar aşkar olunmuşdur. Hər iki tip qablar pis yoğurulmuş, saman qarışıqlı gildən qırmızı, qırmızımtıl-qonur rəngdə kobud şəkildə düzəldilmişdir. Onların divarları müxtəlif qalınlıqda olmuşdur, üzərinə heç bir naxış vurulmamışdır. Bəziləri yaxşı bişirilmədiyi üçün divarlarında qara və boz ləkələr qalmışdır.

2013-2014-cü tədqiqat illərində abidədə aparılan arxeoloji tədqiqatlar zamanı əvvəlki dövrlə müqayisədə daha çox keramika məmulatları aşkar edilmişdir. Onlar müxtəlif formalı gil qabların forma verən və forma verməyən hissələrindən ibarətdirlər. Qablar qabarıq gövdəli, silindrik boğazlı, oturacaqları xaricə doğru çıxıntılı şəkildə olmuşdur. Onlar əldə hazırlanmış və saman qarışıqlı gildən qırmızı rəngdə bişirilmişdir. Əksəriyyəti sadə, bir qədər kobud formada düzəldilmişdir. Bir qrupunun üzərinə yuvarlaq və yastı formalı qabarıq bəzəmələr vurulmuşdur. Bəzilərinin üzərində həsirə bənzər izlər olmuşdur [3, s. 7-31].

Xələc yaşayış yerindən aşkar olunmuş Neolit dövrünə aid keramika məmulatları boyalı olmuşdur. Onların bir qisminin hər iki üzü qırmızı boya ilə örtülərək çilalanmışdır. Bəzilərinin bir üzünə qırmızı boya çəkilmişdir. Bu qrupa daxil olanların bir qismi cilalı, bəziləri cilasız olmuşdur. Qırmızı boyanın üzəri qəhvəyi və qara rənglə dalğalı və düz xətlərdən ibarət həndəsi naxışlarla bəzədilmişdir. Yaşayış yerində qeydə alınmış bu dövrə aid keramika məmulatlarından birinin üzərində halqaşəkilli qulp qoyulmuşdur [6, s. 157].

Naxçıvan Muxtar Respublikasının ərazisində qeydə alınmış Eneolit dövrü abidələrinə I Kültəpə, Naxçıvantəpə, Ərəbyengicə, Ovçulartəpəsi, Xələc, Sədərək, Zirincli və digər yaşayış yerlərini nümunə göstərmək olar. Onların bir qismində kəşfiyyat xarakterli tədqiqatlar aparılmış, bir qrupu arxeoloji qazıntılar nəticəsində öyrənilmişdir.

I Kültəpə yaşayış yerində həm XX əsrin ortalarında, həm də son dövrlərdə aparılan arxeoloji qazıntılar zamanı Eneolit dövrünə aid xeyli keramika məmulatı aşkar olunmuşdur. Onlar müxtəlif formalı gil qabların forma verən və forma verməyən hissələrindən ibarət olubdur. Əksəriyyəti sadə olsa da, bir qismi boyalı olmuş, üzərlərinə sadə həndəsi naxışlar çəkilmişdir. Qabların naxışlanmasında qəhvəyi, qırmızı və qara boyalardan istifadə edilmişdir. Ovçulartəpəsi, Xələc abidələrində olduğu kimi I Kültəpə yaşayış yerində üzərində məməcikşəkilli çıxıntısı olan qablar aşkar olunmuşdur. Orada həmçinin cilalı, silindrik, dördkünc formada çıxıntısı olan qablar da qeydə alınmışdır. Onların bir qrupunun hər iki tərəfi, bəzilərinin bir tərəfi cilalalanmışdır. Yaşayış yerindən əldə olunmuş boyalı qablar O.Həbibullayev

tərəfindən iki qrupa bölünmüşdür. Saman qarışıqlı gildən bir qədər kobud düzəldilmiş qablar birinci qrupa aid edilmişdir. İkinci qrupa daxil edilən qablar isə qum qarışıqlı gildən nisbətən yaxşı bişirilmiş, səliqəli naxışlanmış, əsasən cilalı düzəldilmişdir [14, s. 72-74].

Ovçulartəpəsi yaşayış yerində Eneolit dövrünün Erkən (e.ə. 4350-4200-cü illər) və Son (e.ə. 4200-4000-ci illər) mərhələlərinə aid müxtəlif formalı keramika məmulatları aşkar olunmuşdur. Onlar cilalı və cilasız düzəldilmişdir. Cila əsasən saman qarışıqlı keramikalara tətbiq edilmişdir. Cilalı keramikalar qırmızı və krem rəngli olmuşdur. Hər iki qrup keramikaların üzərinin bəzədilməsində məməcikşəkilli çıxıntılardan, relyefik formalı halqaşəkilli ornamentlərdən istifadə edilmişdir. Bəzi qabların üzərinə barmaq basqısı ilə, daraqvarı alətlə naxışlar vurulmuşdur. Halqaşəkilli naxışlar bəzən ilanabənzər ornamentlə əvəz olunnmuşdur. Məməcikşəkilli çıxıntılar isə bir o qədər də geniş yayılmamışdır. Abidədən əsasən saman qarışıqlı, saman üzlü gil qablar aşkar olunmuşdur. Yaşayış yerində "Sioni mədəniyyəti"ndə geniş yayılan dalğavarı və qravürlənmiş ağız kənarlı, qum qarışıqlı cilalı qabların az aşkar edildiyi müəyyən olunmuşdur. Qeyd edilmişdir ki, Ovçulartəpəsinin Eneolit dövrü keramika məmulatlarının ən yaxın bənzərləri I Kültəpə, Xələc abidələri ilə yanaşı Şərqi Anadoludakı Norşuntəpə, Tulintəpə abidələrinin keramika məmulatları içərisində vardır [1, s. 7, 12, 14].

Xələc yaşayış yerində aşkar olunmuş, gil qablarda həm yerli, həm də digər mədəniyyətlərlə oxşar xüsusiyyətlər vardır. Onlar boyalı və boyasız düzəldilmişdir. Qabların naxışlanmasında daraqvarı alətlərdən, qabartma naxışlardan geniş istifadə edilmiş, bir qrup qabların ağzının kənarında deşiklər qoyulmuşdur. I Kültəpə abidəsində olduğu kimi bu abidədən də az miqdarda boyalı qab qırıqlarının aşkar edilməsi dulusçuların bu sahədə müəyyən bacarıq və vərdişlərə malik olduğunu göstərir. Yaşayış yerindən əldə olunmuş boyalı qablar boyanın çəkilməsi üsuluna görə iki yerə bölünmüşdür. Birinci qrupa daxil edilən qablar qırmızı və ya narıncı gilli olub üzərində qara və qırmızı boya ilə naxışlar çəkilmişdir. İkinci qrupa qırmızı gilli qablar daxil olmuşdur. Onlar cilalanmış, üzəri qəhvəyi və qara rənglə bəzədilmişdir. Üçüncü qrup qabların üzərindəki qara, qırmızı rənglər sürmə üsulu ilə çəkilmişdir. Yaşayış yerindən aşkar olunmuş gil qabların Ovçulartəpəsinin, Şərqi Anadoludakı Norşuntəpə abidələrinin materialları ilə ən yaxın bənzərlik təşkil etdiyi müəyyən edilmişdir [2, s. 77-82].

Sədərək yaşayış yerində aşkar olunmuş Eneolit dövrünün keramikaları saman qarışıqlı gildən qırmızı və sarı rəngli düzəldilmişdir. Əksəriyyəti sadə olmuşdur. Bəzilərinin boğazının altında məməcikşəkilli çıxıntılar, ağız kənarında oval deşik qoyulmuşdur. Ovçulartəpəsindən, Xələcdən, I Kültəpədən, Naxçıvantəpədən tapılan gil qablarda olduğu kimi onların da bəzilərinin ağzının kənarında kiçik deşiklər qoyulmuşdur. Belə qablar "Sioni mədəniyyətində" də aşkar olunsa da onların "Sioni keramikası" adlandırılmağın düzgün olmadığı, bu mədəniyyətdən daha əvvələ aid olduğu qeyd edilmişdir [11, s. 19-31]. Yaşayış yerindən aşkar olunmuş boz astarlı gil qablarda Kür-Araz mədəniyyəti üçün xarakterik əlamətlərin olması Eneolit mədəniyyəti ilə Kür-Araz mədəniyyəti arasında ortaq xüsusiyyətlərin olduğunu göstərən faktlardandır.

Naxçıvantəpədən aşkar olunmuş Eneolit dövrünə aid sadə keramikalar başlıca olaraq saman qarışıqlı gildən hazırlanaraq qırmızı rəngin müxtəlif tonlarında bişirilmişdir. Az miqdarda boz rəngli qablar da aşkar edilmişdir. Tədqiqatçı alim Vəli Baxşəliyev yaşayış yerindən aşkar olunmuş keramikaları tədqiq edərək onları beş qrupa bölmüşdür. Birinci qrupa sadələr, ikinci qrupa boyalılar, üçüncü qrupa qırmızı boya ilə örtülmüş naxışsızlar, dördüncü qrupa basma naxışlılar, beşinci qrupa daraqvarı alətlə üfüqi şəkildə naxışlananlar aid edilmişdir. Tədqiqatçı basmatipli və boyalı keramikaların Dalmatəpə keramikaları ilə yaxın oxşarlıq təşkil

etdiyini əsas götürərək Eneolit dövründə bu mədəniyyətin Naxçıvanı da əhatə etdiyini, Naxçıvanın bu mədəniyyətin formalaşdığı əraziyə daxil olduğunu qeyd etmişdir [4, s. 80-85].

Keramika məmulatları ilə yanaşı 2018-ci ildə yaşayış yerində aşkar olunmuş dulus sobasının qalıqları da Eneolit dövründə Naxçıvanın dulusçuluq mədəniyyətini öyrənmək sahəsində mühüm yer tutan artefaktlardandır. Dulus sobası yer səthindən 1,45 m dərinlikdə aşkar olunmuşdur. Onun mərkəzi hissəsində uzunluğu 2 m, eni 1 m olan ocaq düzəldilibdir. Sobanın ətrafında sərt döşəmə, döşəmənin ətrafında kərpic divarın qalıqları, onun yaxınlığından xeyli keramika parçaları, obsidian qırıqları, daş həvəng və sümükdən düzəldilmiş əmək aləti aşkar olunmuşdur. Ocaq təmizlənərkən onun içərisindən xeyli miqdarda arxeoloji material aşkar edilmişdir. Tədqiqat zamanı sobanın altındakı yumşaq və küllü təbəqədə uzunluğu 20 sm, eni 15 sm, qalınlığı 8 sm olan bişmiş kərpicin qırıqları, sümükdən düzəldilmiş əmək aləti, dən daşı və xeyli keramika parçaları qeydə alınmışdır [5, s. 9]. 2018-ci ildə yaşayış yerində aparılmış arxeoloji tədqiqat zamanı oradan keramika məmulatları ilə yanaşı dulusçuluq sobasının qalıqlarının aşkar olunması onu qeyd etməyə əsas verir ki, Naxçıvantəpənin qədim sakinləri Eneolit dövründə orada digər sənət sahələri ilə yanaşı dulusçuluqla da məşğul olubdurlar.

Tunc dövründə Azərbaycanın bütün bölgələrində olduğu kimi Naxçıvanda da cəmiyyət daxilində sosial-iqtisadi dəyişikliklərin baş verməsi bütün sahələr kimi sənətkarlığa da təsir göstərmiş, onun daha da inkişaf etməsinə səbəb olmuşdur. Bu dövrdə dulus çarxından, mükəmməl quruluşlu dulusçu kürələrindən istifadə edilməsi, keramika məmulatlarının bişirilmə prosesində, hazırlanma texnologiyasında bir sıra yeni metodlardan istifadə edilməsi nəticəsində dulusçuluq daha da inkişaf etmişdir. Erkən Tunc dövrünün dulusçu kürələri I Kültəpə [14, s. 87-89; 16, s. 22], II Kültəpə [16, s. 39-47], Orta Tunc dövrünə aid dulusçu kürələri isə II Kültəpə abidəsində [7, s. 33-36; 8, s. 126-135; 9, s. 115-125] qeydə alınmışdır.

Erkən Tunc dövrünün keramika məmulatlarının bir qismində Eneolit dövrü mədəniyyətinə aid əlamətlərin olması Kür-Araz mədəniyyətinin Eneolit mədəniyyəti zəminində meydana gəlməsi ilə bağlı olmuşdur. Bu dövrün arxeoloji abidələrində e.ə. 4200-3400-cü illərə aid protokürarazz keramikalarının aşkar edilməsi [15, s. 101-103] Naxçıvanda Kür-Araz mədəniyyətinin formalaşması tarixinin qədim olduğunu göstərir. Orta Tunc dövründə Naxçıvanda boyalı qabların geniş yayılması, boyalı qablarla təmsil olunan abidələrin çoxluğu, II Kültəpə abidəsində aşkar edilmiş mükəmməl quruluşlu dulus kürələri, dulusçu məhəlləsi və emalatxanası, emalatxanadan aşkar olunmuş içərisində boya olan gil qablar, xeyli miqdarda gil qabların hissələri bu dövrdə dulusçuluğun Naxçıvanda ixtisaslaşmış sənət sahəsinə çevrildiyini, Naxçıvanın "Boyalı qablar mədəniyyəti"nin əsas mərkəzlərindən biri olduğunu sübut edir. Emalatxanadan və kürələrin ətrafından yanaraq kömürləşmiş heyvan sümüklərinin, üzərində və ətrafında yağ izi olan gil qabların aşkar edilməsi onu qeyd etməyə əsas verir ki, keramika məmulatlarının bişirilməsində odunla yanaşı heyvan sümükləri və digər yanacaq vasitələri də istifadə edilmişdir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V., Maro C., Aşurov S. Ovçulartəpəsi (2006-2008-ci il tədqiqatlarının ilk nəticələri / First Preliminary Report: the 2006-2008 seasons). Bakı: Elm, 2010, 154 s.
2. Baxşəliyev V., Seyidov A. Xələc keramikasının xüsusiyyətləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2011, s. 77-82.

3. Baxşəliyev V., Catherine M., Berton R., Quliyeva Z., Savaş S. Kültəpədə arxeoloji qazıntılar (2013-2016). Bakı: Nurlan, 2017, 164 s.
4. Baxşəliyev V. Naxçıvan təpə yaşayış yerində arxeoloji qazıntılar // AMEA-nın Xəbərləri, 2018, № 1, s. 80-85.
5. Baxşəliyev V., Quliyeva Z., Həşimova T., Mehbaliyev K., Baxşəliyev E. Naxçıvan təpə yaşayış yerində arxeoloji qazıntılar. Naxçıvan: Əcəmi, 2019, 136 s.
6. Baxşəliyev V. Xələc keramikasının xüsusiyyətləri // Naxçıvan Universitetinin Elmi Əsərləri, 2020, № 1 (16), s. 156-161.
7. Əliyev V.H. Qədim Naxçıvan. Bakı: Elm, 1979, 76 s.
8. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar (2010) / Azərbaycanda arxeoloji tədqiqatlar-2010. Bakı: Xəzər Universiteti, 2011, s. 126-135.
9. Əliyev V.H., Məmmədova A.Ə. II Kültəpədə yeni tədqiqatlar / Azərbaycanda arxeoloji tədqiqatlar-2011. Bakı: Xəzər Universiteti, 2012, s. 115-125.
10. Həbubullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Az. SSR EA, 1959, 134 s.
11. Seyidov A.Q., Baxşəliyev V.B. Sədərək. Bakı: Elm, 2011, 184 s.
12. Kaşgarlı M. Divanü lügat-it-türk (Türk dili divanı) / Uyğulama, düzenleme, çeviri Faut Bozkurt. İkinci baskı, Salon yayınları, 2016, 720 s.
13. MEGEP (Seramik ve cam şekillendirme, antik form şekillendirme). Ankara, 2008, 56 s.
14. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
15. Бахшалиев В.Б. Протокуро-аракская керамика Нахчывана // Российская Археология, 2013, № 3, s. 101-103.
16. Сеидов А.Г. Раннебронзовая культура Нахчывана. Воронеж: Воронежский государственный технический университет, 2002, 199 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: x.toqrul@gmail.com

Togrul Khalilov

HISTORY AND FORMATION PROCESS OF POTTERY IN NAKHCHIVAN

Pottery is one of our ancient crafts. The basis of this craft industry is the manufacture of ceramic products of various shapes from clay. As in other regions of Azerbaijan, in Nakhchivan, the foundation of pottery was laid in the Neolithic period. That is, during this period, people first began to make vessels of various shapes from clay. As a result of some development of pottery during the Eneolithic period, compared with the Neolithic period, the variety of ceramic products increased, their quality improved, and there were changes in the technique of painting ornamentation. In the Bronze Age, as in all Azerbaijan regions, pottery entered a new development stage in Nakhchivan. Further development of pottery, starting from the Early Bronze Age, led to its transformation into an independent area in the Middle Bronze Age when Nakhchivan became one of the leading centers of the "Culture of Painted Ceramics".

Keywords: *pottery, Nakhchivan, ceramics, Culture of painted ceramics, Middle Bronze Age.*

Тогрул Халилов

ИСТОРИЯ И ПРОЦЕСС ФОРМИРОВАНИЯ ГОНЧАРНОГО ДЕЛА В НАХЧЫВАНЕ

Гончарное дело – одно из наших древних ремесел. Основой этой ремесленной отрасли является изготовление из глины керамических изделий различной формы. Как и в других регионах Азербайджана, в Нахчыване основа гончарного дела была заложена в период неолита. То есть в этот период люди впервые начали изготавливать из глины сосуды различной формы. В результате некоторого развития гончарного дела в период энеолита по сравнению с эпохой неолита увеличилось разнообразие керамических изделий, улучшилось их качество, произошли изменения в технике росписи и орнаментации. В бронзовом веке, как и во всех регионах Азербайджана, в Нахчыване гончарное искусство вступило в новый этап развития. Дальнейшее развитие гончарного дела, начиная с эпохи ранней бронзы, привело к превращению его в самостоятельную область в эпоху средней бронзы, когда Нахчыван стал одним из основных центров “Культуры расписной керамики”.

Ключевые слова: *гончарное дело, Нахчыван, керамика, Культура расписной керамики, эпоха средней бронзы.*

(Tarix elmləri doktoru, professor Abbas Seyidov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 29.01.2021
Son variant 26.02.2021

UOT 902

TURAN HƏŞİMOVA

QIZQALA NEKROPOLUNUN KURQANLARI

Qızqala nekropolunda 2014-2016-cı illərdə arxeoloji qazıntılar zamanı 13 kurqan öyrənilmişdir. Kurqanlar dağıntıya məruz qalmadığı üçün onların forması, dəfn adəti və arxeoloji materialları haqqında dəqiq məlumat vermək olur. Kurqanlar dəfn adətinin müxtəlifliyi ilə seçilir. Qəbirlərdə müxtəlif istiqamətlərə yönəlmiş sağ və sol böyrü üstə, bükülü vəziyyətdə, tək, cüt və kollektiv dəfn adətlərinə rast gəlinmişdir. Bəzi qəbirlərdə insan skeleti olmamışdır. Qızqala kurqanları üçün dəyişilməyən bir qayda onların kromlexlə əhatə olunmasıdır. Kurqan tipli qəbir abidələrinin çox geniş ərazidə yayılması və kurqanların formasındakı fərqlər, dəfn adətinin müxtəlifliyi onu deməyə imkan verir ki, Orta Tunc dövrünün bütün mərhələlərində qədim tayfalar burada məskunlaşmışdır.

Açar sözlər: *Qızqala, Orta Tunc dövrü, nekropol, kurqan, keramika məmulatı.*

Qızqala nekropolunun Orta Tunc dövrünə aid kurqanları Arpaçayın sağında və solunda böyük əraziyə yayılmışdır. Tədqiqatlar zamanı 157 kurqan qeydə alınmışdır. Bu kurqanlar əsasən ətrafı kromlexlə əhatə olunmuş qəbirlərin üzərinə yığılan daş qarışıq torpaq təpələrdir (şəkil 1). Arxeoloji qazıntılar nekropolda müxtəlif dövrlərə aid dəfnlər olduğunu göstərir. Nekropolda 13 kurqanda arxeoloji qazıntı aparılmışdır. Bu qazıntılar zamanı kurqanların qəbir kamerasının 3-4 qat daşla örtüldüyü aydınlaşdırılmışdır. Daş qarışıq torpaqla örtülən qəbirlər yerdə qazılmış, küncləri dəyirmi dördkünc çalalardan ibarətdir. Tədqiq edilən qəbir abidələrində sağ və sol böyrü üstə, bükülü vəziyyətdə, müxtəlif istiqamətlərdə, tək, cüt və kollektiv dəfn adətlərinə rast gəlinmişdir. Qızqala kurqanlarının qəbir kameralarından zəngin arxeoloji materiallar və heyvan sümüklərinin qalıqları aşkar olunmuşdur [8, s. 86-93]. 2014-cü ildə tədqiq edilən CR2, CR3, CR4 kurqanları uzunsov bir təpənin üzərində yerləşir.

İlk tədqiq edilən CR2 kurqanının kromlexinin diametri 7 m-dir. Qazıntı zamanı qəbir kamerasının içindən 5 küpə və 11 kasa aşkar olunmuşdur. Əksəriyyəti boyalı qablardan ibarət olan keramika məmulatı götürüldükdən sonra onların altında iki insan skeleti qalıqlarına rast gəlinmişdir. Skeletlərdən biri qəbir kamerasının şimal tərəfində, sağ yanı üstə, bükülü və qərb-şərq istiqamətində olmuşdur. Skelet çox pis vəziyyətdə saxlanmış, yalnız dişləri və bəzi sümüklərinin parçaları qalmışdı. İkinci skelet qəbir kamerasının cənub tərəfində, sağ yanı üstə, bükülü vəziyyətdə və şərq-qərb istiqamətində yerləşdirilmişdir. Bu skeletdə pis saxlanmış, yalnız dişləri qalmışdır. Hər iki skelet 20-dən artıq yaşı olan yetişkən insanlara aiddir [5, s. 19].

CR3 kurqanının tədqiqi zamanı ölçüsü 5×5 m olan qazıntı sahəsi qoyulmuşdur. Qəbirin üzərində altı sıra daş örtüyünün olduğu müəyyənləşdirilmişdir. Daş örtük götürüldükdən sonra ölçüsü 155×117 sm olan qəbir kamerası və onun içərisində pis vəziyyətdə saxlanmış iki insan skeletinin qalıqları aşkar olunmuşdur. Bu skelet yetkin insana aid olmuş və qəbirin şimal tərəfində sol yanı üstə, bükülü vəziyyətdə qərb-şərq istiqamətində yerləşdirilmişdir. Bu skeletin sağ əlinin yaxınlığında quzu və küçük skeletinin qalıqları aşkar olunmuşdur. İkinci skelet 10 yaşlı uşağa aid olmuş, qəbir kamerasının cənub tərəfində, qərb-şərq istiqamətində yönəlmişdir. Olduqca pis saxlanmış, yalnız dişləri və bəzi sümüklərinin parçaları qalmışdır. Onun ətrafında pasta və balıqqulağı muncuqlar aşkar olunmuşdur (şəkil 2). Skeletlərin ətrafında təmizləmə aparılarkən zəngin qəbir avadanlığına rast gəlinmişdir. Qəbir avadanlığı qara və qırmızı rəngli

15 gil qab, muncuqlardan ibarət boyunbağı, tunc, karneol, balıqqulağı və şüşə muncuqlardan hazırlanmış bilərzik, 5 obsidian ox ucluğu və tunc əşyanın parçalarından ibarət idi. Tədqiqat zamanı həmçinin üçüncü insan skeletinə aid dişlər və heyvan sümükləri də aşkar olunmuşdur. Onların bir qismi xırdabuynuzlu heyvana aiddir. Lakin iribuynuzlu heyvana aid kəllə sümükləri də aşkar olunmuşdur [5, s. 19-20].

CR4 kurqanının tədqiqi üçün 14x14 m ölçüdə qazıntı sahəsi açılmışdır. Kurqanın xarici kromlexinin diametri 11,1 və 11,4 m, daxili kromlexinin diametri isə 9 m olmuşdur. Kurqanın daxili kromlexindəki daş örtük götürülərkən iki qulplu tunc qazan, tunc nizə ucu və tunc xəncər aşkar olunmuşdur. Qəbir kamerasının döşəməsindən həmçinin xeyli muncuq toplanmışdır. Qəbir kamerasında iribuynuzlu heyvanın skeleti aşkar olunsa da insan skeletinə rast gəlinməmişdir. Qəbir kamerasının dərinliyi 1,5 m idi [5, s. 20].



Şəkil 1. CR4 kurqanı (Vəli Baxşəliyev, Lauren Ristvet, Hilary Gopnik).

Kurqanlardan aşkar olunmuş materiallar əsasən monoxrom boyalı qablar, muncuqlar, tunc və obsidian alətlərdən ibarətdir. Aşkar olunmuş keramika məmulatını iki qrupa ayırmaq olar. Birinci qrupa gilinə narın qum qatılmış, cilalı, qara, boz və açıq rəngli keramika məmulatı aiddir. İkinci qrupa çəhrayı rəngdə bişirilmiş keramika məmulatı aiddir. Bu qrupu həm də sadə və monoxrom boyalı olmaqla iki yerə ayırmaq olar. Sadə keramika məmulatının gilinə narın qum qatılmış, yaxşı cilalanmış qırmızı boyanmışdır. Boyalı keramika məmulatında isə qabların üzəri qırmızı rənglə örtülmüş, gövdəsinin yuxarı hissəsi qara rənglə həndəsi motivlər və dalğalı xətlərlə naxışlanmışdır. Monoxrom boyalı qablardan, kasalar və küpələr üstünlük təşkil edir.

Birinci qrupa aid keramika məmulatı üç nümunə ilə təmsil olunmuşdur. CR2 kurqanından aşkar olunmuş küpələrdən biri qara cilalıdır. Qısa və dar boğazlı olub, ağzının kənarı xaricə qatlanır. Gövdəsi yuxarıdan qabarıq, aşağıya doğru tədricən daralır. Oturacağı yastıdır. Küpənin gövdəsinin yuxarı qismi basma naxışla bəzədilmişdir. İki qoşa xətlə çəkilmiş dalğaların arası basma naxışlarla doldurulmuş, yuxarıdan üç paralel xətlə məhdudlaşdırılmışdır (şəkil 2, 4). Bu tip küpələrin bənzərləri Nəhəcir [12, s. 68, tablo 20, 3], II Kültəpə [7, s. 64, VII tablo, 3], I Kültəpə [17, s. 306, cədvəl XXVI], Üzərliktəpə [6, s. 143, III tablo, 1, 2], Qaraköpəktəpə [9, s. 54-55, VIII-IX tablo], Lori-Berd [18, s. 122, şəkil 47], Trialeti [18, s. 109, şəkil 39], Verin Naverdən [18, s. 138, şəkil 51] məlumdur. Basma naxışlı qablar Azərbaycanın Qarabağ abidələrində, xüsusilə Üzərliktəpədə geniş yayılmışdır.

Şəkil 2. CR2 kurqanından aşkar olunmuş gil qablar (Vəli Baxşəliyev, Lauren Ristvet, Hilary Gopnik).

İkinci küpə boz rənglidir. Qısa və dar boğazlı, oturacağı yastıdır. Ağzının diametri 12 sm-dir (şəkil 4, 8). Küpənin gövdəsinin yuxarı qismi cızma naxışla bəzədilmişdir. Bənzərlərinə Çalxanqala [6, s. 143, III tablo, 5], I Kültəpə [17, s. 306, tablo XXVI], Sürümçək [3, s. 71, şəkil 4, 12-14] abidələrində rast gəlinir. Cızma ornamentlə naxışlanan qabların ən gözəl nümunələri Kükü kurqanlarından [1, s. 123, şəkil 35] tapılmışdır. Bu tip keramika nümunələrinə Naxçıvan abidələrində geniş şəkildə rastlanması Naxçıvanda hazırlanan bədii keramikanın heç də boyalı qablarla məhdudlaşmadığını göstərir.

Üçüncü nümunə açıq rəngli banka tipli qabdır. Qabın ağız kənarı düz, gövdəsi silindrikdir (şəkil 2, 2). Bənzərləri Nəhəcir [12, s. 37, tablo 5, 2], Van muzeyi [16, levha 112, 4, 7, 8], Diyarbakır muzeyi [16, levha 110, 3], Haftavantəpənin erkən VI B təbəqəsindən [20, s. 157,

şəkil 77, 9, 10; s. 159, şəkil 78, 3; s. 161, şəkil 79, 1, 7, 8] məlumdur. Qızqala kurqanlarından aşkar olunan arxeoloji materiallar Orta Tunc dövründə Naxçıvanda qara cilalı, basma və cızma naxışlı keramika istehsalının da olduğunu göstərir. Lakin bu tip keramika məmulatı boyalı qablarla müqayisədə çox azdır.

Şəkil 3. CR3 kurqanından aşkar olunmuş materiallar (Vəli Baxşəliyev, Lauren Ristvet, Hilary Gopnik).

İkinci qrupa aid sadə keramika məmulatı kasa, badya və küpə tipli qablarla təmsil olunmuşdur. CR2 kurqanından aşkar olunmuş kasa sadə qırmızı boyalıdır. Ağzının diametri 19 sm-dir. Qabarıq gövdəli olub, ağız kənarı xaricə qatlanmışdır (şəkil 4, 3). Digər sadə kasalar CR3 kurqanından aşkar olunmuşdur. Kasalardan birinin ağzının diametri 24 sm-dir. Gövdəsi konusvarıdır. Gövdəsi ağız hissədə bir qədər içəri yığılmış, ağız kənarı xaricə qatlanmışdır (şəkil 4, 4). İkinci kasa yuxarı hissədə qabarıq olub aşağıya doğru daralır. Ağzının diametri 16 sm-dir (şəkil 4, 6). Bənzərləri Haftavantəpənin erkən və son VI B təbəqəsi [20, s. 171, şəkil 84, 1, 2; s. 173, şəkil 85, 4; s. 181, şəkil 89, 4, 6, 8; s. 189, şəkil 93, 1, 3], Diyarbakr muzeyi [16, levha 79, 1], Yuvadamıdan [16, levha 43, 1-7] məlumdur.

Badya tipli qabın gövdəsi qabarıq, oturacağı yastıdır. Ağız kənarı batıq xətlə əhatələnmişdir və iki qabarıq qulaqcıqşəkilli çıxıntı var və ortası yuvarlaq deşikdir. Daxili və xarici qırmızı boyalıdır. Xarici səthi yaxşı hamarlanaraq yüngülcə cilalanmışdır (şəkil 2, 3).

Küpə qısaboğazlı, qabarıq gövdəli, yastı oturacaqlıdır. Ağzının diametri 9,5 sm-dir (şəkil 4, 7). Bənzərləri Nəhəcir [12, s. 65, tablo 18, 1], Qurddağ [3, s. 69, şəkil 2, 1, 2] abidələrindən məlumdur.

Boyalı keramika məmulatında kasalar və küpələr üstünlük təşkil edir. Kasa tipli qablar əsasən qabarıq gövdəli, ağız kənarı bəzisi düz, bəzisi isə xaricə qatlanmış olub, ağzının altı

batıq xətlə əhatələnmişdir. Kasaların xarici səthi və ağzının içərisi, bəzən isə hər iki üzü qırmızı boya ilə örtülmüş, xarici səthi yaxşı cilalanmışdır. Naxışlar qabların gövdəsinin yuxarı hissəsinə, başlıca olaraq ağız kənarına çəkilmişdir. Ağzının kənarı xaricə qatlanaraq bir qədər içəri yığılmış qabarıq gövdəli, yastı oturacaqlı kasalar Qızqala və Naxçıvanın Orta Tunc dövrü abidələri üçün xarakterikdir.

CR2 kurqanından aşkar olunmuş kasalardan birinin bir hissəsi salamat qalmışdır. Kasa bikonik gövdəli, qırmızı boyalıdır. Üzəri qara rənglə səliqəsiz naxışlanmışdır. Naxışlar qoşa xətlər arasına alınmış torlu dördbucaqlardan və ştrixlənmiş üçbucaqlardan ibarətdir (şəkil 2, 1). Bu motivdə naxışlanmış qablara Yaycı [13, s. 30, şəkil 2], Təzəkənd [18, s. 137, şəkil 50, 11, 12, 13, 17, 21], Verin Naver [18, s. 138, şəkil 51, 11, 15, 19, 20; şəkil 52, 9, 10, 13, 14], Ariç [18, s. 146, şəkil 55, 14, 15, 16, 20], Haftavantəpənin son VI B təbəqəsi [20, s. 203, şəkil 100, 4], Qars muzeyində [16, levha 58, 5, 8] rast gəlinir. Polixrom boyalı qablarda torlu dördbucaq motivi Şahtaxtı [13, s. 31, şəkil 3] və Həsənsu kurqanından [10, s. 90, tablo XVII, 2] məlumdur. Bu motivə polixrom boyalı qablarda da rastlandığı üçün onun uzun müddət ərzində istifadə olunduğunu demək olar. Orta Tunc dövrünün lokal xüsusiyyətlərə malik olan boyalı keramikasının bir qrupu Təzəkənd mədəniyyəti adı ilə arxeoloji ədəbiyyatda tanınır. Bu mədəniyyət üçün xarakterik olan qoşa üçbucaq, torlu dördbucaq, bir-birinin ardınca yerləşdirilmiş spiral motivlərinə Urmiya hövzəsi, Şərqi Anadolu və Naxçıvan abidələrində də rast gəlirik [1, s. 85]. Təzəkənd mədəniyyəti əsasən qəbiristanlıqlarla təmsil edilmişdir. Orta Tunc dövrü təbəqəsinin yaxşı saxlanmadığı yaşayış yerləri isə burada həyatın mövsümi xarakterdə olduğunu göstərir. Qızqalada oturaq həyat tərzi keçirən insanlar sadəcə yay aylarında yüksək yaylalara köç ediblər. İndiki Ermənistanın yüksək dağlıq ərazilərindən istifadə edən Qızqaladan bu mədəniyyət üçün xarakterik olan boyalı qabların aşkar olunması bunlar arasında bir əlaqə olduğunu və bu tip boyalıların başlanğıcda Naxçıvandan yayılma ehtimalını gücləndirir.

CR2 kurqanından aşkar olunmuş kasa tipli qab qırmızı boyalıdır. Gövdəsi qabarıq olub, oturacağa doğru ensizləşir. Ağzının kənarı batıq xətlə əhatə olunmuş və ağzının altına qara rəngli qövsvarı xətlər çəkilmişdir (şəkil 2, 5). Həmin kurqandan aşkar olunmuş başqa biri kasa oxşar naxışlıdır. Ağzının diametri 17,3 sm-dir. Qum qarışığı olan gildən hazırlanıb, gövdəsi qabarıq olub, oturacağa doğru ensizləşir. Qırmızı boyalı kasanın ağzının kənarına qara rənglə qövsvarı xətlər çəkilib (şəkil 4, 1). CR3 və CR4 kurqanlarından aşkar olunmuş kasalar da qabarıq gövdəli olub, oturacağa doğru ensizləşir və oxşar naxışlanmışdır (şəkil 4, 2, 5). Bənzərləri Kərki [11, s. 157, şəkil 45, 13], Yaycı [1, s. 104, şəkil 16, 2], Çalxanqala [1, s. 104, şəkil 16, 3], II Kültəpə [1, s. 104, şəkil 16, 2-3] Nəhəcir [12, s. 41, tablo 9, 1, 3], Elar [18, s. 115, şəkil 43, 2, 6], Ani [16, levha 35, 1] və digər abidələrdən bəllidir. Ağzının kənarı bir-birinin içərisində yerləşdirilmiş qövsşəkilli xətlərlə naxışlanmış kasalar Qızqala kurqanları və Naxçıvan abidələri üçün xarakterikdir. Bu tip keramika məmulatı Orta Tunc dövrünün erkən mərhələsinə aiddir.

CR3 kurqanından aşkar olunmuş kasaların ağzının kənarına qara rənglə bucaqşəkilli ornament çəkilib (şəkil 3, 5-6). Bənzərləri Qaraçuq [2, s. 90, şəkil 37], Çalxanqala [1, s. 104, şəkil 16, 4], II Kültəpə [1, s. 104, şəkil 16, 4, 5, 6], Qaratəpə [4, s. 103, şəkil 20, 1], Qurddağ [3, s. 69, şəkil 2, 4] və Qars muzeyi [16, levha 54, 1] abidələrindən məlumdur.

Küpə tipli qablar əsasən silindr boğazlı, yuvarlaq ya da uzunsov-qabarıq gövdəlidirlər. Küpələr uzun və qısaboğazlı, yastıoturacaqlı olub, ağzının kənarı geriyə qatlanmışdır.



Şəkil 4. Qızqala kurqanlarının keramika məmulatı (Fizzə Quliyeva).

CR2 kurqanından aşkar olunmuş küpə tipli qab silindr boğazlıdır. Gövdəsi qabarıq, oturacağı yastıdır. Ağzının kənarı xaricə qatlanmışdır (şəkil 2, 6). Boğazı şaquli istiqamətdə çəkilmiş qoşa xətt arasına alınmış dalğalı xətlərlə naxışlanmışdır. Gövdəsi içi dalğalı xətlərlə doldurulmuş qoşa sınıq xətlərlə naxışlanmış, sınıq xətlərin aşağı küncləri kiçik dairələrlə tamamlanmışdır.CR3 kurqanından aşkar olunmuş küpə də bənzər naxışlanmışdır (şəkil 3, 4). Dalğalı və sınıq xətlərlə naxışlanmış qabların bənzərləri Şahtaxtı [14, s. 101, çizim 16, 5], Nəhəcir [1, s. 106, şəkil 18; 4], Şortəpə [14, s. 101, çizim 16, 2, 4], Ani nekropolu [16, levha 35, 4, 5], Trialeti [18, s. 109, şəkil 39, 22, 28], Qarni [18, s. 114, şəkil 42, 17], Elar [18, s. 115, şəkil 43, 12] abidələrindən məlumdur.

CR3 kurqanından aşkar olunmuş küpələr silindr boğazlı, uzunsov-qabarıq gövdəlidirlər. Küpələr uzunboğazlı, yastıoturacaqlı olub, ağzının kənarı geriyə qatlanmışdır (şəkil 3, 1, 2). Hər iki küpənin gövdəsi içi dalğalı xətlərlə doldurulmuş bucaqlarla naxışlanmışdır. Bənzərləri Çalxanqala [1, s. 109, şəkil 21, 1, 3], Şahtaxtı [1, s. 108, şəkil 20, 5], Van muzeyi [16, levha 89, 3, 5, 6], Haftavantəpənin erkən VI B təbəqəsindən [20, s. 233, şəkil 112, 8, 9] məlumdur.

Bir nümunə olan çölmək qısa boğazlı, qabarıq gövdəlidir. Ağız kənarı xaricə qatlanmışdır. Boğazı konsentrik dairələrlə naxışlanmışdır. Gövdəsi içi dalğalı xətlərlə doldurulmuş bucaqlarla naxışlanmışdır (şəkil 3, 3).



Şəkil 5. Silahlar və bəzək əşyaları (1-3- Kamran Mehbalıyev; 4-5-Vəli Baxşəliyev, Lauren Ristvet, Hilary Gopnik).

CR3 kurqanından aşkar olunmuş yastı tiyəli tunc xəncər 23 sm uzunluğundadır. Qısa dəstəyində bir deşik açılmışdır (şəkil 5, 2). Bu tip xəncərlər Cənubi Qafqazda geniş yayılmışdır. Onların tiyəsi çiyin hissədə enli olub, uca doğru nisbətən daralır. Dəstəkləri yastı və qısa olub, ağac sap bərkitmək üçün kiçik deşik açılmışdır. Bu xəncərlər Qızılburun [11, s. 171, şəkil 49, 5, 6] və Çalxanqaladan [6, s. 159, XIX tablo, 1, 3] aşkar olunmuşdur.

CR3 kurqanından aşkar olunmuş borudəstəkli tunc nizə 28 sm uzunluğundadır. Tiyəsi ensiz və uzunsovdur. Dəstəyində ağac sap keçirildikdən sonra bərkitmək üçün kiçik deşik açılmışdır (şəkil 5, 1). Borudəstəkli nizə ucları Şahtaxtı [1, s. 124, şəkil 36, 10], Çalxanqala [11, s. 159, şəkil 47, 13] və Qızılburundan [1, s. 124, şəkil 36, 8, 9] aşkar olunmuşdur.

Obsidiandan hazırlanan ox ucları yarpaq biçimli olmaqla yaxşı retuşlanmış, arxa tərəfində sapa bərkitmək üçün oyuq açılmışdır (şəkil 5, 3). Qara, qəhvəyi və açıq rəngli obsidiandan hazırlanmış belə ox ucları Qızılburun [6, s. 158, XVIII tablo, 9, 10] və II Kültəpə [6, s. 158, XVIII tablo, 9, 10] abidələrindən məlumdur.

CR3 kurqanından aşkar olunmuş muncuqlar əqiqdən hazırlanmışdır (şəkil 5, 5). Doqquz ədədi dairəvi, doqquz ədədi isə silindrik formadadır. Əqiq muncuqlar Cənubi Qafqazda ən çox yayılmış bəzək əşyalarından biridir. CR4 kurqanından aşkar olunmuş dəniz heyvanlarının qabığından hazırlanan muncuqlar xüsusilə diqqətçəkicidir (şəkil 5, 4).

Qızqala nekropolunun CR2, CR3, CR4 kurqanlarından aşkar olunan monoxrom boyalı keramika məmulatı Naxçıvanın Orta Tunc dövrü mədəniyyəti üçün xarakterikdir. Tədqiq edilən monoxrom boyalı keramika məmulatının bənzərlərinə Naxçıvanın Orta Tunc dövrü abidələrində, Cənubi Qafqaz, Şərqi Anadolu və Urmiya hövzəsində rast gəlinir. Boyalı qablar mədəniyyəti Cənubi Qafqaz, Şərqi Anadolu, Urmiya hövzəsi və Naxçıvanda lokal fərqlər istisna olmaqla yaranıb inkişaf etmişdir. Bəzi tədqiqatçılar tərəfindən bu mədəniyyət lokal xüsusiyyətlər əsas götürülərək arxeoloji ədəbiyyatda müxtəlif şəkildə adlandırılmış və onların

mənşəyi haqqında müxtəlif fikirlər söyləmişdir. Son illər Qızqala yaşayış yeri və nekropolunda aparılan arxeoloji qazıntılar bəzi problemlərin həlli üçün əhəmiyyətli olmuşdur.

Orta Tunc dövrü boyalı keramika məmulatının xronologiyası arxeoloji ədəbiyyatda geniş təhlil edilmişdir. Tarixləndirmə üçün Naxçıvan və Urmiya hövzəsi abidələrindən aydın stratiqrafiyaya malik olan yaşayış yerlərinin stratiqrafiyası əhəmiyyətlidir. Naxçıvanda I Kültəpə, II Kültəpə, Qızılburun, Qızqala yaşayış yerləri, Urmiya hövzəsində Haftavantəpə, Göytəpə, Dinkatəpə kimi yaşayış yerlərində aparılan qazıntılar zamanı boyalı qabların müxtəlif inkişaf mərhələləri aydın şəkildə izlənmişdir. Orta Tunc dövrünün başlanğıcında monoxrom boyalı keramikanın ardınca polixrom boyalı keramika meydana gəlmişdir. Ancaq arxeoloji qazıntı aparılmış Qızqala kurqanlarından polixrom boyalı keramika aşkar olunmamışdır. Qızqala kurqanlarının tapıntıları Orta Tunc dövrünün erkən mərhələsini izləmək üçün əhəmiyyətlidir. Qızqala kurqanlarından aşkar olunmuş monoxrom boyalı qabların bənzərləri Haftavantəpənin erkən VI B təbəqəsindən aşkar olunmuşdur. Haftavantəpənin VI C təbəqəsi C-14 tarixlənməsinə əsasən e.ə. 2200-2000-ci illərə [22, s. 102], erkən VI B təbəqəsi e.ə. 1900-1550-ci illərə, son VI B təbəqəsi isə e.ə. 1600-1450-ci illərə, Göytəpə yaşayış yerinin Orta Tunc dövrünə aid D təbəqəsi B.Braun tərəfindən e.ə. 2400-2000-ci illərə [21, s. 164-165], C təbəqəsi e.ə. II minilliyin birinci yarısına aid edilmişdir. Bu günə kimi Naxçıvanın Orta Tunc dövrü abidələrindən yalnız II Kültəpənin polixrom boyalı keramika məmulatı tapılan təbəqəsindən götürülmüş e.ə. 1800-cü ili göstərən kömür analizi nəticələri var idi. Qızqalanın CR3 kurqanından götürülən karbon analizlərinin nəticələri e.ə. 2281-ci ili göstərmişdir [19, s. 50]. Qızqala yaşayış yerinin Orta Tunc dövrü təbəqəsindən götürülən kömürün C 14 analizi isə e.ə. 2135-1780-ci illəri göstərmişdir [15, s. 58]. Karbon analizlərinin nəticələrinə əsasən Naxçıvanda Orta Tunc dövrünün e.ə. III minilliyin ikinci yarısında yarandığını deyə bilərik.

Qızqala kurqanlarında aparılan arxeoloji qazıntılar zamanı əldə edilən mühüm nəticə kurqanlardan insan skeletlərinin tapılmasıdır. Bu skelet qalıqları boyalı keramika ilə seçilən Orta Tunc dövrü mədəniyyətinin qəbir abidələri və dəfn adətləri, mənsubiyyəti və onun yaradıcıları haqqında yeni fikirlər deməyə imkan verir. İnsan skeletlərinin dişlərindən götürülən izotopların analizi onu göstərir ki, Arpaçay vadisində məskunlaşan tayfalar Orta Tunc dövründə yaz və yay aylarında Arpaçay vadisi ilə indiki Ermənistan ərazisinə doğru hərəkət edərək yaylaqlardan istifadə etmiş və geri dönərək bu vadidə – Qızqala yaşayış yerində yaşamışlar.

ƏDƏBİYYAT

1. Baxşəliyev V.B. Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
2. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 301 s.
3. Baxşəliyev V.B. Naxçıvanda Orta Tunc dövrünə aid yeni abidələr // Azərbaycan arxeologiyası və etnoqrafiyası, Bakı, 2010, № 1, s. 64-72.
4. Baxşəliyev V., Novruzov Z. Sirabda arxeoloji araşdırmalar. Bakı: Oskar, 2010, 160 s.
5. Baxşəliyev V., Ristvet L., Hammer E., Gopnik H. Qızqala ətrafında arxeoloji araşdırmalar // AMEA-nın Naxçıvan Bölməsi. Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun 2014-cü il üçün Hesabatı, 2014, s. 16-20.
6. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 168 s.
7. Əliyev V.H. Qədim Naxçıvan. Bakı: Elm, 1979, 76 s.

8. Həşimova T.S. Qızqalası kurqanlarının dəfn adəti // Tarix, insan və cəmiyyət, 2017, № 3, s. 86-93.
9. İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı: Elm, 1981, 64 s.
10. Müseyibli N., Ağalarzadə A. Həsənsu kurqanı. Bakı: Nafta-Press, 2013, 92 s.
11. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə. Bakı: Elm, 2003, 339 s.
12. Seyidov A., Baxşəliyev V. Nəhəcirdə arxeoloji araşdırmalar. Bakı: İqtisad Universiteti, 2002, 200 s.
13. Bahşaliyev V.B. Nahçıvan ve Doğu Anadolunun Orta Tunç çağı kültürü / II Uluslararası Ahlat-Avrasya bilim, kültür ve sanat sempozyumu. İstanbul, 2014, s. 29-33.
14. Belli O., Bahşaliyev V.B. Nahçıvan bölgesinde Orta ve Son Tunc Çağı boya bezemeli çanak çömlek kültürü / Middle and Late Bronze Age Painted Pottery culture of the Nakhchivan Region. İstanbul: Arkeoloji ve Sanat, 2001, 120 s.
15. Bahşeliyev V., Ristvet L., Gopnik H., Nugent S., Swerida J. Kızkale yerleşmesi ve nekropolü (Nahçıvan, Azerbaycan) // TÜBA-AR 25, 2019, s. 47-61.
16. Özfırat A. Doğu Anadolu yayla kültürleri (m.ö. II. Binyıl). İstanbul: Arkeoloji ve Sanat, 2001, 224 s.
17. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Елм, 1982, 314 с.
18. Кушнарева К.Х. Южный Кавказ в IX-II тысячелетиях до н.э. СПб.: Петербургское Востоковедение, 1993, 312 с.
19. Гашимова Т., Бахшалиев В. О датировке одного кургана некрополя Кызкале в Нахчыване // Гілея: науковыйвісник. Кіев: Видавництво Гілея, 2020, вип. 154, № 3, с. 49-51.
20. Burney C.A. Excavation in Azerbaijan, Haftavan VI Period. London, 1983, 364 s.
21. Brown T.B. Excavation in Azerbaijan. 1948, London: John Murray, 1951.
22. Edwards M.R. The Pottery of Haftavan VIB (Urmiya Ware). İran, 1981, XIX, pp. 101-140.

AMEA Naxçıvan Bölməsi
E-mail: turanheshimova@mail.ru

Turan Hashimova

KURGANS OF QIZQALA NECROPOLIS

Thirteen kurgans were studied during archaeological excavations in 2014-2016 in the Qızqala necropolis. Since the kurgans have not been destroyed, it is possible to give accurate information about their shape, burial customs, and archaeological materials. Kurgans differ in the various custom of burial. The graves were directed in different directions on the right and left sides, in bent, single, double, and collective burial customs. In some burials, human skeletons are not found. The invariable rule for Qızqala kurgans is that they are environed with a cromlech. Distribution of grave monuments like kurgans in the broad area and differences in kurgans' shape, diversity of burial customs says that ancient tribes settled here at all Middle Bronze Age stages.

Keywords: *Qızqala, Middle Bronze Age, necropolis, kurgan, ceramics.*

Туран Гашимова

КУРГАНЫ НЕКРОПОЛЯ ГЫЗГАЛА

Во время археологических раскопок в 2014-2016 годах в некрополе Гызгала были изучены 13 курганов. Поскольку курганы не были подвержены разрушению, можно дать точную информацию об их форме, погребальном обычае и археологических материалах. Курганы отличаются разнообразием погребальных обрядов. В могилах встречались обычаи одиночного, двойного и коллективного захоронения на правой и левой стороне, в согнутом положении. В некоторых могилах не было человеческих скелетов. Неизменным правилом для курганов Гызгала является их окружение кромлехом. Распространение могильных памятников курганного типа на очень большой территории и различия в форме курганов, многообразие погребальных обрядов позволяют говорить о том, что на всех этапах среднего бронзового века здесь проживали древние племена.

Ключевые слова: *Гызгала, средний бронзовый век, некрополь, курган, керамические изделия.*

(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 11.01.2021
Son variant 09.02.2021

UOT 902

GÖKÇEN ACAR

OVÇULARTƏPƏ YAŞAYIŞ YERİNİN SON ENEOLİT KERAMİKASI

Ovçulartəpənin Son Eneolit dövrünə aid keramika məmulatını tikinti qatlarına uyğun olaraq iki mərhələyə ayırmaq olar. Hər iki mərhələnin keramikası dəqiq stratiqrafiyası bəlli olan arxeoloji komplekslərdən əldə edilmişdir. Araşdırmalar göstərir ki, hər iki mərhələyə aid keramika məmulatının müəyyən texnoloji və morfoloji xüsusiyyətlərlə fərqlənməsinə baxmayaraq ikinci mərhələyə aid keramikanın birinci dövrün ənənələri əsasında inkişaf edərək formalaşdığını göstərir. Bu baxımdan deyə bilərik ki, hər iki mərhələ eyni mədəniyyətə aiddir. Fikrimizə görə, tədqiqatçılar tərəfindən özünəməxsus xüsusiyyətləri ilə fərqlənən bu tip keramikanın Ovçulartəpə mədəniyyəti adlandırılması düzgündür.

Açar sözlər: *Naxçıvan, Şərqi Anadolu, Ovçulartəpə, keramika, basma naxış.*

Ovçulartəpənin Son Eneolit dövrünə aid keramika məmulatını tikinti qatlarına uyğun olaraq iki mərhələyə ayırmaq olar. Hər iki mərhələnin keramikası dəqiq stratiqrafiyası bəlli olan arxeoloji komplekslərdən əldə edilmişdir. Bu baxımdan əldə edilən keramika məmulatı Ovçulartəpə keramikasındakı varislik əlaqələrini müəyyən etmək üçün olduqca əhəmiyyətlidir.

Birinci mərhələyə yarımqazma tipli, təkotaqlı evlərlə xarakterizə edilən təbəqədən aşkar olunan keramika, ikinci qrupa isə çoxotaqlı kərpic evlərlə xarakterizə edilən təbəqədən aşkar olunan keramika məmulatı aiddir. Bu qruplar tədqiqat işində birinci və ikinci mərhələ kimi xarakterizə ediləcəkdir. Yarımqazma tipli evlərlə xarakterizə edilən mərhələnin keramika məmulatı əsasən sarı və sarımtıl rəngdə bişirilmişdir. Keramika məmulatının tərkibinə saman qatılmışdır. Müəyyən qrup keramika məmulatında saman qalıqları qabların səthində qaldığından bu tip keramika saman üzlü effekt kimi xarakterizə edilmişdir. Bəzi qabların xarici səthi, bəzilərin isə içərisi daraqlanmışdır.

Ovçulartəpənin bu dövrünə aid keramika nümunələri küpə, çölmək, kasa tipli qabların parçalarından ibarətdir. Sadə kasalardan tutmuş böyük küpələrədək keramika məmulatının bir qismi məməcikşəkilli çıxıntı, yaxud relyef halqaşəkilli ornamentlə naxışlanmışdır.

Kasa tipli qabları formaca iki tipə bölmək olar. Birinci tipə aid kasalar qabarıq gövdəli olub ağızda bir qədər içəri yığılmışdır [1, tablo XII, 1]. Onların bəzisi sadə, bəzisi məməcikşəkilli çıxıntılarla naxışlanmışdır (şəkil 1, 6, 7). Bu tip naxışlarla başlıca olaraq gil qabların ağız kənarı bəzədilmişdir. Ehtimal ki, bu tip naxışlar həm dekorativ xarakter daşımış, həm də müəyyən simvolikanı ifadə etmişdir. Tədqiqatçılar məməcikşəkilli çıxıntıların insanların məhsuldarlıqla bağlı inanclarını əks etdirdiyini söyləmişdir.

İkinci tip kasalar konusvarı formalıdır. Bu tip kasalar formaca bir-birindən fərqlənir. Onların müəyyən qrupu düz ağız kənarlı (şəkil 1, 1, 3), bəziləri isə ağız hissədə bir qədər içəri yığılmışdır (şəkil, 1, 4). Bu tip kasaların sadə və naxışlı nümunələrinə rast gəlinmişdir. Bu baxımdan yeddinci və səkkizinci aşkar olunan kasaların naxışları diqqəti cəlb edir. Bu kasalar "V" şəkilli cızma ornamentlə naxışlanmışlar (şəkil 1, 1-4). Araşdırma bu naxışların bişmədən öncə qabların üzərinə çəkildiyini göstərir. Bu motivdə naxışlanmış kasalar Oylum Höyükdən məlumdur [1, s. 11]. Tədqiqatçılar bu tip naxışların dulusçu ustaların damğası olduğunu ehtimal etmişlər [1, s. 11]. Araşdırmalardan görünür ki, Son Eneolit dövrünün erkən mərhələsində Ovçulartəpədə məməcikşəkilli çıxıntılarla bəzəmədən çox geniş istifadə olunmamışdır [1, s. 11].

Bu mərhələ üçün xarakterik olan çölmək tipli qablar müxtəlif tiplidir. Birinci tipdəkilər

qısa silindrik boğazlı olub, ağız kənarları bir qədər xaricə qatlanmışdır [1, tablo X, 1]. İkinci tip çölməklərin gövdəsi bir qədər uzunsov olub, yumurtaşəkillidir [1, tablo X, 4]. Bu tip çölməklərin bəzisinin çiyin hissəsi relyef kəmərlə əhatə olunmuşdur. Bəzi çölməklərdə relyef kəmərlərin üzəri daraq basqısı və çərtmələrlə naxışlanmışdır [1, tablo XV]. Araşdırmalar göstərir ki, çölmək tipli qablar həm mətbəxdə, həm də təsərrüfatda istifadə olunmuşdur. Təsərrüfat məqsədilə istifadə olunan çölməklərin bəzisi döşəməyə basdırılmış vəziyyətdə aşkar edilmişdir. Onların ağzının kənarı bir sıra məməcikşəkilli relyef ornamentlə naxışlanmışdır [1, tablo XII, 3].



Şəkil 1. Ovçulartəpə. Birinci mərhələnin keramika məmulatı.

Erkən mərhələnin xarakterik keramika nümunələrinin bir qrupu küpələrdən ibarətdir. Küpələr çölməklərdən fərqli olaraq darboğazlıdır. Birinci tipə daxil olan küpələr qısa silindrik boğazlı olub [1, tablo XXXIII, 4], ağız kənarı dəyirmidir. İkinci tip küpələrin birincidən fərqli olaraq ağız kənarı xaricə qatlanmışdır [1, tablo XXXIII, 4; tablo XIV, 1]. Üçüncü tip küpələr darboğazlı və üçqulpludur. Onlar silindrik olub, ağız kənarları xaricə qatlanmışdır [1, foto 4; tablo XIII, 1]. Bu küpə səkkizinci sahədə yarımqazma tipli evin döşəməsində yarımbasdırılmış vəziyyətdə aşkar olunmuşdur. Dördüncü tip küpələrin ağzının kənarı xaricə qatlanmış, ağız hissədə isə bir qədər içəri yığılmışdır. Onun oturacağı sivridir [1, tablo XIII, 2]. Bu küpə

yarımqazma tipli evin döşəməsində aşkar olunmuşdur. Bu kiçik həcmli küpənin ağzının kənarı daraqvarı alətlə çəkilmiş, maili batıq ornamentlə naxışlanmışdır. Bu tip naxışları olan keramika Gürcüstanda Sioni yaşayış yerinin adına uyğun olaraq T.Kiquradze tərəfindən "Sioni keramikası" adlandırılmışdır [7, şəkil 3.6: 1; şəkil 3.7: 1, 3]. Lakin qeyd etmək lazımdır ki, qum qarışıq və cilalı "Sioni keramikası"ndan fərqli olaraq Ovçulartəpədən aşkar olunan keramika nümunələri saman qarışıq gildən hazırlanmış və cilasızdır [1, s. 12]. Bu küpənin naxışlanma motivi T.Kiquradze [8, s. 323] tərəfindən araşdırılan "Sioni keramikası" ilə bənzər olsa, qeyd etdiyimiz kimi Ovçulartəpədən aşkar olunan nümunə hazırlanma texnologiyasına görə tamamilə fərqlidir. Ümumiyyətlə bu tip keramikanın Sioni keramikası adlandırılması tədqiqatçılar tərəfindən düzgün hesab edilməmişdir [8, s. 12; 9, s. 31-87]. Lakin qeyd etmək lazımdır ki, qum qarışıq və cilalı Sioni tipli keramika az miqdarda olsa da, Ovçulartəpədə aşkar olunmuşdur (şəkil 1, 5, 8-10). Bu tip keramika nümunəsi Ovçulartəpədə səkkiz ədəddir [1, s. 12]. Keramika nümunələrinin bəzisi dalğalı ağız kənarlıdır [1, tablo XVIII, 1-3]. Belə nümunə yalnız üç ədəddir. Sionidə dalğalı ağız kənarlı keramika nümunələrinin ağız kənarı çərtmə ornamentlə naxışlanmışdır [7, şəkil 3.6: 5; şəkil 3.7: 6, 11]. Bu tip keramika nümunələri dəqiq stratiqrafiyası olan təbəqələrdən aşkar olunmadığından onların dövrünü müəyyənləşdirmək çətindir. Lakin qeyd etmək lazımdır ki, bu tip keramikanın yarımqazmaların döşəməsindən aşkar olunması onların qədim tarixə malik olduğunu və bu tip keramikanın ən qədim nümunələrinin Ovçulartəpədən aşkar olunduğunu göstərir. Ola bilsin ki, tipik Sioni keramikası Naxçıvanla Gürcüstan arasında müəyyən mədəni əlaqələrin mövcud olduğunu göstərir.



Şəkil 2. Ovçulartəpə. Keçi rəsmləri ilə naxışlanmış küpə [I mərhələ].

Birinci mərhələ üçün xarakterik olan keramika nümunələrinin müəyyən hissəsi təsərrüfat küplərindən ibarətdir. Yarımqazma tipli evin döşəməsinə basdırılmış vəziyyətdə aşkar olunan həcmli küplərdən biri qabın gövdəsinin çevrəsi boyunca bir-birinin ardıca düzülmüş relyef keçi rəsmləri ilə naxışlanmışdır (şəkil 2). Küpün çiyni hissəsinə yerləşdirilən qabartma təsvirlər bir yerdə üz-üzə durmuş vəziyyətdədir. Qeyd etmək lazımdır ki, Cənubi Qafqaz və Yaxın Şərqdə bu təsvirlərin yaxın bənzərlərində rast gəlinməmişdir. Mesopotamiyanın bəzi abidələrində qarşı-qarşıya duran keçi rəsmlərinə rastlansa da, onlar ikonoqrafik baxımdan xeyli fərqlidir. Lakin bu tip keçi təsvirlərinin bənzərlərinə Gəmiqaya və Zəngəzurun qaya təsvirlərində rast gəlmək mümkündür. Bu isə bu tip təsvirlərin Naxçıvan bölgəsi üçün xarakterik olduğunu təsdiq edir.

İri təsərrüfat küpləri şişkin gövdəlidir (şəkil 1, 12). Onlardan birinin çiyin hissəsi qrup halında yerləşdirilmiş məməcikşəkilli çıxıntılarla naxışlanmışdır [10, s. 60, foto 3]. Naxışların qrup halında yerləşdirilməsi ehtimal ki, müəyyən simvolika ilə bağlı olmuş, qədim insanların inanclarını əks etdirmişdir.

Podnos tipli qablar birinci mərhələnin xarakterik keramika nümunələrindəndir. Onların yalnız parçaları aşkar olunsa da forması tamamilə müəyyənləşdirilmişdir. Bu qabların alt hissəsi düz, üst hissəsi isə azca batıqdır. Dairəvi formalı olan bu tip qabların üst hissədə ağız kənarları yuxarıya azca doğru qalxmış və çərtmələrlə naxışlanmışdır. Bu tip qabların ocaqların yaxınlığından tapılması onların çörək və digər ərzaq məhsulları bişirmək üçün istifadə olunduğunu deməyə imkan verir.



Şəkil 3. Ovçulartəpə. İkinci mərhələnin keramika məmulatı.

Ovçulartəpənin ikinci mərhələyə aid, çoxotaqlı kərpic tikintilər dövrünə aid olan keramika məmulatı istər texnoloji, istərsə də tipoloji baxımdan birinci mərhələnin keramikası ilə yaxından bağlıdır [1, s. 12]. Birinci mərhələdə olduğu kimi keramika məmulatı saman qatılmış gildən hazırlanaraq əsasən sarı və çəhrayı rəngdə bişirilmiş xarici səthi bəzən yaxşı hamarlanaraq cilalanmış, bəzən isə daraqvarı alətlə düzəldilmişdir. Keramika məmulatı başlıca olaraq sadə kasalar, çölməklər və küpələrdən ibarətdir.

Kasalar formaca bir-birindən fərqlənir. Birinci tipə aid olan kasalar qabarıq formalıdır [şəkil 3, 5, 7]. Onlar oturacağa doğru daralmış, ağız hissədə bir qədər içəri yığılmışdır. Qabların gövdəsində daraqvarı alətin izləri və saman qalıqları qalmışdır. İkinci tip kasalar konusvari formalıdır. Lakin bu tip kasalar ağzının və gövdəsinin formasına görə bir-birindən fərqlənirlər. Bu tip kasaların gövdəsi ağız hissədən oturacağa doğru daralır [1, tablo VI, 1, 2]. Bəzi kasalar konusvarı və qabarıq gövdəlidir [şəkil 3, 4, 6]. Kasaların bəzisi yastı, bəzisi isə sferik oturacaqla tamamlanır. Bu tip kasaların bəzisinin ağzı bir qədər içəri qatlanmışdır [1, tablo VI, 1], bəzilərinin isə ağız kənarı düzdür [1, tablo VII, 1]. Qabarıq və konusvarı kasaların bəzisinin ağız kənarı məməcikşəkilli çıxıntılarla naxışlanmışdır (şəkil 3, 9).

Çölmək tipli qabların da müxtəlif tipləri vardır. Onların bəzisinin gövdəsi şarşəkilli, qısa boğazları konusvarı formadadır. Ağzının kənarı bir qədər içəriyə doğru yastılanmışdır [1, tablo VI, 5]. İkinci tip çölməklər silindrik boğazlı və şar gövdəlidir (şəkil 3, 10). Gövdəsinin bəzi hissələri daraqvarı alətlə düzəldilmişdir. Üçüncü tip çölməklər çox qısa boğazlı və şargövdəlidir. Birbaşa gövdəyə birləşən ağız kənarları xaricə qatlanaraq dəyirmilənmişdir [1, tablo VI, 7]. Çölməyin gövdəsi daraqvarı alətlə düzəldilmişdir. Dördüncü tip çölmək boğazsızdır. Gövdəsi şarşəkillidir. Gövdəsi ağız hissədə içəri yığılmış və dəyirmilənmişdir (şəkil 3, 12).

Küpə tipli qablar darboğazlı və uzunsov qabarıq gövdəlidir. Ağız kənarları xaricə qatlanmışdır. Onların bəzisi sadə və naxışsızdır. Lakin digərlərinin gövdəsinin yuxarısı ilə boğazının altı relyef kəmərlə əhatələnmiş, relyef kəmərin üzəri bəzi qablarda daraq basqısı, bəzisində isə çərtmələrlə naxışlanmışdır (şəkil 3, 8). Bəzi küpələrin ağız kənarı daraq basqısı ilə naxışlanmışdır (şəkil 3, 2). İkinci tip küpələr silindrik boğazlıdır (şəkil 3, 3). Küpə tipli qabların bir qrupu relyef kəmər üzərindən barmaq basqısı ilə naxışlanmışdır [1, tablo XLVI, 1]. Qabarıq gövdəli küpələrin bəzisi ikiqulpludur [1, tablo XI]. Onun gövdəsi daraqvarı alətlə naxışlanmışdır. Bu tip qablar formaca üçqulplu darboğazlı küpələri xatırladır. Ehtimal ki, ikiqulplu küpələr üçqulpluların davamıdır.

Küpə tipli qabların ikisi relyef keçi təsvirləri ilə naxışlanmışdır. Onlar saman qarışıq gildən hazırlanaraq çəhrayı rəngdə bişirilmişdir. Hər iki küpə on ikinci qazıntı sahəsindən, çoxotaqlı evlərin içərisindən tapılmış və bərpa edilmişdir. Onlar iri həcmli küpələrin parçalarıdır. Bu küpələrin biri qısaboğazlı və şargövdəlidir. Birbaşa gövdəyə birləşən ağız kənarı xaricə qatlanmışdır. Ağzının altı qrup halında çəpinə yerləşdirilmiş daraq basqısı ilə naxışlanmış, gövdəsinin yuxarısı qarşı-qarşıya duran qabarıq keçi təsvirləri ilə naxışlanmışdır [10, foto 4].

İkinci küpə qısa silindrik boğazlı olub ağzının kənarı xaricə qatlanmışdır. Boğazının altı qabarıq ensiz kəmərlə əhatə olunmuş və bu kəmərin üzəri daraq basqısı ilə naxışlanmışdır. Küpənin gövdəsinin yuxarı hissəsində qarşı-qarşıya duran keçi təsvirləri verilmişdir (şəkil 3, 1).

Qarşı-qarşıya duran qabarıq keçi təsvirləri ilə naxışlanmış keramika nümunələrinin bənzərləri indiyədək Yaxın Şərq və Cənubi Qafqaz abidələrindən məlum deyil. Yuxarıda qeyd etdiyimiz kimi, keçi təsvirləri ilə naxışlanmış keramika birinci tikinti qatında da aşkar olunmuşdur. Lakin birinci tikinti qatı ilə müqayisədə ikinci tikinti qatında çevrə boyunca yerləşdirilmiş rəsmlərə rast gəlinmir. Bu tikinti qatının təsvirləri daha sadə olması ilə fərqlənir.

Lakin bu tip təsvirlərin hər iki tikinti qatında olması Ovçulartəpə keramikasının müxtəlif mərhələləri arasında varislik əlaqəsinin olduğunu göstərir.

Bu mərhələyə aid podnos tipli qablar formaca birinci mərhələdəkilərlə eynidir. Onlar dairəvi formalı olub ağız kənarları çərtmələrlə naxışlanmışdır [1, şəkil VIII, 2]. Sionidən tapılan bu tip qablar saman və qum qarışığı olan gildən hazırlanmışdır [8, s. 323]. Ağzının kənarı çərtmələrlə naxışlanan bu tip qablar Damstvari Goradan [7, şəkil 3.13], Arataşen [12, şəkil 3: 4-6], Keçili və Böyük Kəsikdən də aşkar edilmişdir [3, s. 231, levha 35; 4, levha XVIII: 6a; foto 6: B]. Yuxarıda adları çəkilən yaşayış yerlərində bu tip qablar az miqdardadır. Arataşen, Keçili, Böyük Kəsik və Ovçulartəpədən aşkar edilən nümunələrin hamısı saman qarışıqlıdır [1, s. 13].

Keramika məmulatının bir qismi boya ilə naxışlanmışdır. Ovçulartəpədən aşkar olunan boyalı qablar olduqca azdır. Lakin onlar texnoloji xüsusiyyətlərinə görə iki qrupa ayrılır. Birinci qrupdakılar birbaşa qabın hamarlanmış səthinə çəkilmiş, digərlərində isə boya naxış qırmızı rəng üzərindən çəkilmişdir. 2011-ci ildə aşkar olunan boyalı keramikanın Şimali Ubeyddən idxal olunduğu düşünülməkdədir.

Keramika məmulatının müəyyən hissəsi stratiqrafiyası dəqiq məlum olmayan komplekslərdən aşkar olunmuşdur. Lakin bu tip keramika məmulatının müəyyən hissəsi mədəni əlaqələr və Ovçulartəpəsi keramikasının xronologiyasını müəyyən etmək baxımından olduqca əhəmiyyətlidir [1, s. 13]. Saman qarışıq gildən hazırlanan kiçik həcmli kasaların üzəri qara rənglə damlaşəkilli ornamentlə naxışlanmışdır [1, tablo XIX, 2]. Bu motivdə naxışlanmış kasalar Urmiya hövzəsində Göytəpədən [5, s. 46, 634], Şimali İraqda Təpə Gavradan [13, CXLIV: 383] və Fərat çayının yuxarısında Norşuntəpə [6, şəkil 48: 2-6, 8-9] və Korucutəpədən [14, levha 140: 4] məlumdur.

Qeyd etmək lazımdır ki, Ovçulartəpə keramika məmulatının yaxın bənzərləri Şərqi Anadoluda Norşuntəpə və Tülintəpədən aşkar olunmuşdur. Lakin daraqvarı, ağız kənarı çərtmələr və məməcikşəkilli ornamentlə naxışlanan keramika məmulatı Oylum Höyük, Araz çayının yuxarı axarlarında Hanaqo-Xəzinətəpə [11, levha IV] və Arataşen [12, şəkil 2] yaşayış yerlərindən məlumdur.

Ovçulartəpənin ikinci mərhələsinin keramika məmulatı daraq basqısı, barmaq basqısı, məməcikşəkilli qabarıq ornamentlə naxışlanmış, halqavarı relyef çənbərlə əhatə edilmişdir. Bu tip keramika hər iki mərhələ üçün xarakterikdir. Konusvarı və qabarıq kasalar, küpə tipli qabların hazırlanmasında varislik aydın hiss olunur. Keramika məmulatını əsas hissəsi düz ağız kənarlı sadə kasalardan yaxud ağız kənarı xaricə qatlanmış gen ağızlı küpələrdən ibarətdir. Lakin ikinci mərhələdə üç qulplu, darboğazlı küpələr aradan çıxır, belə küpələr kərpic tikintilər dövründən məlum deyil. Ovçulartəpənin bütün tikinti dövrlərindən aşkar olunan keramika məmulatının araşdırılması göstərir ki, erkən və son mərhələnin keramikası arasında nəzərəçarpacaq dəyişiklik yoxdur. Halqaşəkilli relyef ornamentlə naxışlanmış və məməcikşəkilli çıxıntılarla naxışlanan qablar da hər iki mərhələ arasında varislik olduğunu təsdiq edir. Bu dövrə aid olan üzəri qabarıq keçi təsvirləri ilə naxışlanmış küpələr sənətkarlıq baxımından olduqca diqqətəlayiqdir.

Araşdırmalar göstərir ki, hər iki mərhələyə aid keramika məmulatının müəyyən texnoloji və morfoloji xüsusiyyətlərlə fərqlənməsinə baxmayaraq ikinci mərhələyə aid keramikanın birinci dövrün ənənələri əsasında inkişaf edərək formalaşdığını göstərir. Bu baxımdan deyə bilərik ki, hər iki mərhələ eyni mədəniyyətə aiddir. Fikrimizə görə, tədqiqatçılar tərəfindən özünəməxsus xüsusiyyətləri ilə fərqlənən bu tip keramikanın Ovçulartəpə mədəniyyəti adlandırılması düzgündür.

ƏDƏBİYYAT

1. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 154 s.
2. Müseyibli N. Böyük Kəsik eneolit yaşayış məskəni. Bakı: Nafta-Press, 2007, 228 s.
3. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку: Элм, 1987, 260 с.
4. Нариманов И.Г., Ахундов Т.И., Алиев Н.Г. Лейлатепе. Баку, 2007, 128 с.
5. Brown T.B. Excavaton in Azerbaijan, 1948. London: John Murray, 1951, 180 p.
6. Gülçur S. Norşuntepe: Die chalkolitischen Keramik [Elazığ / Ost Anatolien] / Marro C., Hauptmann H. Chronologie des Pays du Caucase et de l'Euphrate aux IVème-IIIème Millénaires. Actes du Colloque d'Istanbul, 16-19 décembre 1998 // Varia Anatolica, 11 c., 2000, pp. 375-418.
7. Kiguradze T., Sagona A. On the origins of the Kura-araxes cultural complex / Smith A., Rubinson K. Archaeology in the Borderlands. Investigations in Caucasia and beyond. The Cotsen Institute of Archaeology, Monograph 47. Los Angeles: University of California, 2004, pp. 38-94.
8. Kiguradze T. The Chalcolithic – Early Bronze Age transition in the eastern Caucasus / Marro C., Hauptmann H. Chronologie des Pays du Caucase et de l'Euphrate aux IVème-IIIème Millénaires. Actes du Colloque d'Istanbul, 16-19 décembre 1998 // Varia Anatolica 2000, 11 c., pp. 321-325.
9. Marro C., Bakhchaliyev V., Ashurov S. Excavations at Ovçular Tepesi [Nakhchivan, Azerbaijan]. First preliminary report: the 2006-2008 seasons // Anatolia Antiqua, 2009, 17 c., pp. 31-87.
10. Marro C., Bakhshaliyev V., Ashurov S. Excavations at Ovçular Tepesi [Nakhchivan, Azerbaijan]. Second Preliminary Report: the 2009-2010 seasons // Anatolia Antiqua, 19 c., pp. 53-100.
11. Marro C., Özfirat A. Pre-classical Survey in Eastern Turkey. First preliminary Report: the Agrı Dag [Mount Ararat] region //Anatolia Antiqua, 2003, 11 c., pp. 385-422.
12. Palumbi G. A Preliminary Analysis on the Prehistoric Pottery from Aratashen [Armenia] / Lyonnet B. Les Cultures du Caucase [VI-IIIème millénaires avant notre ère]. Leurs Relations avec le Proche-Orient. Paris: CNRS Editions, 2007, pp. 63-76.
13. Tobler A., Excavations at Tepe Gawra. V. II., Philadelphia: University of Pennsylvania Press, 1950, 444 p.
14. Van Loon M. Korucutepe. V. II, Amsterdam, New York and Oxford: North-Holland Publishing Company, 1978, pp. 57-60.

AMEA Naxçıvan Bölməsi
E-mail: acargkcn20@gmail.com

Gekchen Ajar

ENEOLYTIC CERAMICS OF OVÇULAR TEPE SETTLEMENT

Ovçular Tepe ceramics, according to the building horizons, can be divided into two stages. Ceramic products of both periods were identified from suitable complexes having a clear stratigraphy. Studies show that despite specific technological and morphological

differences, ceramics of the second period developed based on the first period's traditions. In this regard, we can say that both periods belong to the same culture. In our opinion, the researchers who called these ceramics "Ovçular Tepe Culture" based on their peculiar features were right.

Keywords: *Nakhchivan, East Anatolia, Ovçular Tepe, ceramics, embossed ornament.*

Гекчен Аджар

ЭНЕОЛИТИЧЕСКАЯ КЕРАМИКА ПОСЕЛЕНИЯ ОВЧУЛАРТЕПЕ

Керамику Овчулартепе, относящуюся к периоду позднего энеолита, в соответствии со строительными горизонтами можно разделить на два периода. Керамические изделия обоих периодов выявлены из археологических комплексов, имеющих четкую стратиграфию. Исследования показывают, что, несмотря на определенные различия технологических и морфологических характеристик керамических изделий, относящихся к обоим периодам, керамика второго периода развивалась на основе традиций первого периода. В этом отношении можно сказать, что оба периода принадлежат к одной культуре. По нашему мнению, исследователи правильно назвали этот вид керамики, отличающийся своими особенностями, культурой Овчулартепе.

Ключевые слова: *Нахчыван, Восточная Анатолия, Овчулартепе, керамика, тисненый орнамент.*

(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 14.01.2021
Son variant 19.02.2021

UOT 902

ELMAR BAXŞƏLİYEV

BÜLÖVQAYA YAŞAYIŞ YERİNİN KERAMİKASI

Babək rayonunun Göynük kəndi yaxınlığında yerləşən Bülövqaya yaşayış yerinin tədqiqi zamanı aşkar olunan keramika nümunələri Naxçıvanın Orta Eneolit dövrü mədəniyyətini xarakterizə etmək üçün əhəmiyyətlidir. Keramika məmulatının müqayisəli təhlili e.ə. V minilliyin ortaları və ikinci yarısında burada Ubeyd tipli Dalma Təpə boyalı keramikanın yayıldığını göstərir. Tədqiqatlar bu tip keramikanın saman qarışıq gildən hazırlandığını və yerli istehsalın məhsulu olduğunu təsdiq edir.

Açar sözlər: *Yaxın Şərq, Naxçıvan, barmaq basqılı keramika, boyalı keramika, Eneolit dövrü, Dalma Təpə.*

Bülövqaya yaşayış yeri Naxçıvan Muxtar Respublikasında, Babək rayonu ərazisində, Göynük kəndinin cənub-qərbində yerləşir [1, s. 51]. Yaşayış yeri 2017-2019-cı illərdə aparılan arxeoloji axtarışlar zamanı əldə olunan yerüstü materiallar əsasında öyrənilmişdir. Yaşayış yerindən çox sayda keramika məmulatı aşkar olunmuşdur. Keramika nümunələri tərkibinə saman, qum qatılmış və qatqısız gildən hazırlanmışdır. Aşkar olunan keramika nümunələri hazırlanma texnologiyasına və naxışlanmasına görə Orta Eneolit dövrü üçün səciyyəvidir. Boyaqlı keramika nümunələrinin naxışlanma motivi Dalma Təpə keramikası ilə bənzərdir. Əldə olunan bu tip maddi-mədəniyyət nümunələrinin müqayisəli təhlili və kömür analizləri abidənin hansı dövrü əhatə etməsi haqqında ilkin fikirlər deməyə imkan verir. Buradan tapılan keramika nümunələri yaşayış yerinin maddi-mədəniyyətini öyrənməyə, burada yaşayan insanların həyat tərzini, dünyanı düşünmə tərzini və öz ideoloji görüşlərini ifadə etmə formasını, ətraf ölkələr ilə olan əlaqələrini aydın şəkildə müəyyən etməyə imkan yaradır. Bununla yanaşı aşkar olunan heyvan sümükləri, obsidian parçaları Orta Eneolit dövründə yaşayan insanların iqtisadi-mədəni əlaqələri haqqında müəyyən fikir yürütməyə zəmin yaradır. Keramika nümunələrinin hazırlanma üsulu və forması bu mədəniyyətin yayılma dairəsini müəyyənləşdirmək üçün də əhəmiyyətlidir.

İndiyədək Cənubi Qafqazda yalnız Son Eneolit abidələri aşkar olunduğu üçün bu dövr arxeoloqların diqqətindən kənar qalmışdır. Naxçıvan ərazisində aşkar olunan bu tip abidələr Urmiya gölünün cənubunda meydana çıxan Dalma Təpə mədəniyyətinin yayılma arealını və müəyyən coğrafi bölgə içərisində inkişafını mərhələli şəkildə öyrənməyə imkan yaradır. Tapıntıların araşdırılması Eneolit dövrünün bu mərhələsində iqtisadi, sosial və mədəni inkişafın necə olduğu haqqında müəyyən fikirlər söyləməyə imkan yaradır.

Yaşayış yerindən əldə olunan keramika əsasən iki qrupa bölünmüşdür: boyalı və sadə keramika nümunələri. Əldə olunan keramika məmulatı tərkibinə qum, saman qatılmış və qatqısı olmayan gildən hazırlanan nümunələrdir (şəkil 1, 1, 2, 3, 4, 5, 6, 7). Bu keramika nümunələri bəzən içəridən, bəzən isə xaricdən qırmızı boya ilə boyanmış və qırmızı boya üzərindən qara və qəhvəyi rənglə həndəsi fiqurlarla naxışlanmışdır. Tapıntılar arasında az da olsa boz və qara rəngli nümunələr də vardır. Bu keramika nümunələrinin naxışlanma forması da müxtəlifdir. Keramika nümunələri arasında bir-birinin üzərinə çəkilmiş üçbucaqlar (şəkil 1, 1, 6), içərisi paralel xətlərlə naxışlanmış üçbucaqlar (şəkil 2, 6), üzəri paralel xətlər və içərisi doldurulmuş üçbucaqlarla (şəkil 1, 2, 3), sünbülşəkilli ornament (şəkil 1, 5, 7), torşəkilli naxış (şəkil 1, 4; şəkil 2, 5, 9), şaquli xətlərlə boyanaxışlı nümunələr (şəkil 2, 1, 2, 7), əks istiqamətdə yerləşdirilən üçbucaqlar şəklində naxışlanan (şəkil 2, 8) boyalı nümunələr vardır.

Bülövqaya yaşayış yerindən aşkar olunan bu cür boyalı kasa və küpə nümunələri hazırlanma texnologiyasına və naxışlarına görə Eneolit dövrünün orta mərhələsinin xüsusiyyətlərini daşıyır. Keramika nümunələrini naxışlanma texnologiyasına və motivinə görə bir neçə tipə bölmək olar. Abidədən aşkar olunan keramika nümunələri arasında içərisi və xarici qırmızı rəngli boya ilə boyanmış, üzəri qara rəngli boya ilə içərisi paralel xətlərlə doldurulmuş üçbucaqlarla naxışlanmış bir nümunə vardır (şəkil 2, 6). Bu tip naxışlar Dava Göz [2, s. 74, şəkil 7, I; s. 76, şəkil 12, şəkil 12, I], Culfa Kültəpəsi [3, s. 328, şəkil 5; 8, şəkil 9, 4, 7], Hacı Firuz [13, s. 145, şəkil 92; s. 146, şəkil 93] kimi abidələrdən məlumdur. Başqa bir naxışlama üsulu isə qırmızı rəngli keramikanın səthinə qara rəngli boya ilə bir-birinin üzərində yerləşdirilən üçbucaqlar şəklində olan naxışlamadır (şəkil 1, 1, 6). Bu tip naxışlama üsulu Hacı Firuz [13, s. 145, şəkil 92 h; s. 155, şəkil 97 s.], Dalma Təpə [7, s. 121, şəkil 7 a, b], Seh Gabi [8, s. 276, şəkil 62, 56.2, 57.3; s. 292, şəkil 68, 39.2, 40.1, 40.2, 40.3] abidələrindən məlumdur.



Şəkil 1. Bülövqayanın boyanaxışlı kasa və küpə tipli keramikası.

Torşəkilli naxışlama üsulu da Eneolit dövrü üçün xarakterik olan naxışlama formalarındandır. Bu nümunələr keramikanın qırmızı rəngli səthinə qara rəngli boya ilə çəkilmişdir. Yaşayış yerindən aşkar olunan bu tip naxışlanmış keramika nümunələrinin (şəkil 1, 4; şəkil

2, 5, 9) bənzərləri Dalma Təpə [7, s. 124, şəkil 4 d; s. 127, şəkil 10 a], Lavin Təpə [9, s. 114, şəkil 7, 437, 456; s. 115, şəkil 8, 783; s. 117, şəkil 10, 1031), Seh Qabi (8, s. 264, şəkil 58, 27.1, 27.2, 27.3; s. 267, şəkil 59, 34.1, 34.2, 34.8; s. 279, şəkil 63, 63.1, 63.2, 65.66; s. 292, 37.1, 37.2; s. 295, şəkil 69, 45.3], Kultəpə Hadishahr [4, s. 113, şəkil 12, 1, 2], Yanik Təpə [5, şəkil 15, 3] kimi abidələrdən də məlumdur. Tapıntılar arasında keramikanın qırmızı rəngli səthinə qara rəngli boyaqla sünbülşəkilli formada naxışlanmış nümunələr də vardır (şəkil 1, 5, 7) Bu tip ornamentlərin Seh Gabi [8, s. 276, şəkil 62, 56.3; s. 411, şəkil 102, 5], Alikömək-təpə [10, s. 157, şəkil XLV, 9; s. 158, şəkil XLVI, 4] kimi abidələrdə də bənzərləri vardır. Əldə olunan keramika nümunələri arasında içərisi qırmızı rəngdə boyanmış və cilalanmış, üzəri qara rəngli boyaqla şaquli xətlərlə naxışlanmış nümunələr də vardır (şəkil 2, 1, 2, 7). Bu tip naxışlama üsulu Hacı Firuz [13, s. 145, şəkil 92, j, k, l], Seh Gabi [8, s. 267, şəkil 59, 38.1, 38.2, 38.3, 38.4.; s. 287, şəkil 66, 22.1; s. 302, şəkil 72.6], Kultəpə Hadishahr [4, s. 109, şəkil 8, 8; s. 111, şəkil 10, 1, 6] abidələrdən məlumdur. Yaşayış yerindən aşkar olunan konusvarı və bikonik formalı kasaların üzəri üçbucaqlar və içərisi doldurulmuş üçbucaqlarla (şəkil 1, 2, 3) naxışlanmışdır.



Şəkil 2. Bülövqayanın konusvarı, qabarıq və bikonik formalı kasa tipli boyalı keramikası.

Bu nümunələrin ornamentasiyası Hacı Firuz (13, s. 145, şəkil 92, o, r, q; p. 146, şəkil 93, a, g, h) keramikasındakı naxışlama ilə bənzərlik təşkil edir. Bir-birinə əks istiqamətdə yerləşdirilmiş, bir-birinin içərisinə çəkilmiş üçbucaq formalı bəzəmə motivi olan keramika parçası hazırlanmasına görə diqqəti cəlb edir (şəkil 2, 8). Digər keramika nümunələrindən fərqli olaraq bu kasa qum qarışıq gildən hazırlanmışdır. Ehtimal ki, cənub ölkələrindən idxal edilmişdir. Bu naxış nümunələri Hacı Firuz [13, s. 145, şəkil 92, o, r, q; s. 146, şəkil 93, a, g, h; s. 148, şəkil 94, c, e, i; s. 150], Seh Gabi [5, s. 302, şəkil 72, 5], Dalma Təpə [7, s. 121, şəkil 4, f] yaşayış yerlərindən məlumdur. Bülövqaya yaşayış yerindən aşkar olunan ikinci qrup keramika məmulatı boya naxışsız keramikadır. Bu tip keramika nümunələri əsasən sarı, bəzən isə qara rəngli, yaxşı bişirilmiş və tərkibində saman qatqısı olan gildən hazırlanmışdır. Yaşayış yerindən aşkar olunan boyasız keramika nümunələrini bir neçə tipə bölmək olar. Birinci tip nümunələr qara və sarı rəngli gildən hazırlanmış, saman qatqılı, məməcikşəkilli qabartmalarla naxışlanan keramika parçalarıdır (şəkil 3, 1, 2, 3). Bunlara bənzər keramika nümunələri Anadolunun Eneolit dövrü keramikası üçün də xarakterikdir.



Şəkil 3. Naxışsız, qabartma bəzəməli keramika və oturacaq tipləri.

Bu tip ornament Alişar Höyük [12, s. 171; şəkil 173], Büyük Güllücek [6, s. 475; şəkil 47], Karain Mağarası [11, s. 222; şəkil 5, 5-6], Hassek Höyük, Kultəpə Hadishahr [4, s. 114, şəkil 13, 1, 2, 3, 4; s. 116, şəkil 15, 3; s. 121, şəkil 20, 1], Dava Göz [2, s. 228, şəkil 42, 8, 9] yaşayış məskənlərində mövcuddur. Boyaqsız keramikanın ikinci tipi qabarıq kəmər üzərində tək-tək

barmaq basqısı ilə naxışlanmış nümunələrdir (şəkil 3, 4, 5, 6, 7). Bənzər nümunələr Kultəpə Hadishahr [4, s. 113, şəkil 12, 9, 10; s. 116, şəkil15, 5; s. 119, şəkil 18, 7; s. 120, şəkil 19, 12; p. 121, şəkil 7], Hassek Höyük, Kırklareli Höyüğü, Aşağı Pınar abidələrindən məlumdur. Üçüncü tip boyasız nümunələr qabların oturacaqlarından ibarətdir (şəkil 3, 8, 9,10). Bu tip keramika nümunələrinə Dalma Təpə [4, s. 126, şəkil 9, k], Seh Gabi [8, s. 367, şəkil 80, 4; s. 385, şəkil 89, 8; s. 387, şəkil 90, 2, 14; s. 69, şəkil 9, 1], Kultəpə Hadishahr [4, p. 113, şəkil 12, 11; s. 114, şəkil 13, 7, 9; s. 116, şəkil 15, 7, 8, 9; s. 127, şəkil 26, 4, 5; s. 129, şəkil 28, 18] abidələrində rast gəlirik. Yaşayış yerindən çox sayda boyasız kasa, küpə və çölmək nümunələri aşkar olunmuşdur. Əldə olunan kasa nümunəsi (şəkil 4, 1) qabarıq gövdəli olub ağız hissəsi xaricə qatlanmış formadadır. Bu keramika nümunəsinin bənzəri Seh Gabi [8, s. 391, şəkil 92, 5] abidəsindən məlumdur. Axtarışlar zamanı aşkar olunan çölmək nümunəsi (şəkil 4, 8) qırmızı rəngli, qabarıq gövdəli və ağız hissəsi xaricə qatlanmış formadadır. Bu formada hazırlanmış çölmək nümunəsinə Seh Gabi [5, s. 389, şəkil 91, 4] yaşayış yerində rast gəlinir. Yaşayış yerindən aşkar olunan keramika nümunələrinin bir qrupu bikonik və qabarıq formalı kasa nümunələrindən (şəkil 4, 5, 7, 9, 10, 12, 13, 14) ibarətdir. Bu tip keramika nümunələri Dalma Təpə [7, s. 126, şəkil 9 s.], Seh Gabi [8, s. 367, şəkil 80, 1; s. 395, şəkil 94, 4] yaşayış yerlərindən məlumdur.



Şəkil 4. Qırmızı rəngli çölmək, küpə və kasa nümunələri.

Aşkar olunan keramika nümunələrindən biri konusvarı qabarıq kasanın (şəkil 4, 2) bir hissəsidir. Bu tip kasa nümunəsinə Seh Gabi [8, s. 391, şəkil 92, 5] yaşayış yerində rast gəlinir. Üzəri daraqvarı alətlə naxışlanmış keramika nümunələri (şəkil 4, 3, 11) də aşkar olunmuşdur. Bu şəkildə naxışlanmış keramika nümunələrinə Kultəpə Hadishahr [4, s. 110, şəkil 9, 1; s. 114, şəkil 10; s. 116, şəkil 15, 1; s. 118, şəkil 17, 3, 8; s. 119, şəkil 6; s. 121, şəkil 10,14] və digər [14, s. 60, şəkil 4, 12] yaşayış yerlərində rast gəlinir. Yaşayış yerindən aşkar olunan kasaların bir qrupu silindrik-konusvarı formalıdır (şəkil 4, 4, 6). Bu formalı kasa nümunələri Dalma Təpə [7, s. 126, şəkil g, h; s. 127, şəkil 10 f, g], Seh Gabi [8, s. 224, şəkil 40, 4; s. 226, şəkil 41, 1, 2; s. 228, şəkil 42, 2, 4, 5; s. 367, şəkil 80, 2; s. 375, şəkil 84, 4, 7] abidələrindən məlumdur.

Yaşayış yerindən aşkar olunan keramika nümunələri hazırlanma texnologiyasına, forma və naxışlanma şəklinə görə Dalma təpə mədəniyyəti abidələrin keramikası ilə bənzərlik təşkil edir. Yaşayış yerindən kömür analizləri götürülmədiyi üçün keramikanı tarixləndirmək bir qədər çətinlik törədir. Bülövqayadan əldə olunan boyalı keramika nümunələri Uçan ağıl yaşayış yerinin naxışlı keramikası ilə bənzərlik təşkil edir. Buradan aşkar olunan sünbülşəkilli bəzəmə motivi xüsusilə diqqətəlayiqdir. Bülövqaya ilə həmdövr olan Culfa Kültəpəsində bu tip boyalı keramika VII və VI b təbəqələrindən məlumdur [7, s. 110-111, şəkil 9-10]. Culfa Kültəpəsində bu təbəqədən götürülən kömürün analizi e.ə. 4500-4200-ci və 4200-3900-cu illəri göstərmişdir [7, s. 54]. Bülövqaya tipli boyalıların tapıldığı Seh Gabi yaşayış yeri e.ə. 3700-3200-cü illərə aid edilmişdir [11, s. 482]. Bülövqaya boyalı keramikası yuxarıda qeyd olunduğu kimi Uzun oba və Uçan ağıl yaşayış yerlərinin keramikası ilə də bənzərdir. Bu baxımdan Uçan ağılda aşkar olunan sünbülvarı ornament xüsusilə diqqətəlayiqdir [6, şəkil 1, 3]. Uçan ağıl yaşayış yeri kömür analizlərinə əsasən e.ə. 4690-4450-ci illərə, Uzunoba yaşayış yeri isə e.ə. 4620-4370-ci illərə aid edilir [1, s. 46]. Qeyd edək ki, Uçan ağılda Dalma tipli basqı naxışlı keramika yalnız bir nümunə ilə təmsil olunmuşdur. Araşdırmalar göstərir ki, Urmiya gölündən cənuba doğru Kanqavar vadisində və Mahidaştda Dalma tipli keramika daha gec meydana çıxmışdır [8, s. 482-486].

Hacı-Firuzda Dalma tipli keramika e.ə. 4900-cü ilə [8, s. 481], Dalma təpədə 4930-cu ilə [5, s. 539], Naxçıvan təpə də isə 4945-ci ilə [1, s. 38] aid edilir. E.ə. V minilliyin ortalarına aid Dalma tipli keramika nümunələri Qərbi İranda Zaqros dağlarının şimal və mərkəzindəki dağlıq vadilərdə geniş yayılmışdır. Dalma ənənəsi, Mesopotamiyada, Zaqrosun qərbində yayılan Ubeyd 3 və Ubeyd 4 mərhələsi ilə həmdövrdür [14, s. 97]. Buradan əldə olunan Dalma tipli keramika nümunələri, əsas olaraq, mərkəzi Zaqros dağlarından şərq və qərb istiqamətində keçən dağlıq yol boyunca 100 kilometr uzunluqdakı iki vadi arasındakı beş sahədə, Royal Ontario Muzeyi qazıntıları və yerüstü araşdırmalar zamanı əldə olunmuşdur. Kanqavarın şərqindəki vadidə, Dalma təbəqələri, 1 Gabi ve Godin Təpə də qazılmışdır. Mahidaştın qərbindəki geniş vadidə, Dalma və buna bağlı keramika nümunələri 16 abidənin səthindən tapılmışdır. Bunlardan ikisi Təpə Siahbid və Chogha Maran, üçüncüsü Təpə Koh, xüsusilə zəngin yerüstü Dalma tipli keramika nümunələri vermişdir. Bu mədəniyyətin coğrafi əhatə dairəsinin geniş olduğunu Kanqavara bitişik Nehavənd vadisindəki Tepe Giyan, Şimal-Şərqi İranın Ziviye bölgəsindəki Təpə Sivandan götürülən keramika nümunələri də təsdiq edir. Buna əlavə olaraq Dalma tipli barmaq basqılı keramikaya bənzər, barmaq basqılı keramika nümunələri, İraqın şərqindəki Jebel Hamrin hövzəsindən, orta Zaqros yaylaqlarının qərbindəki Dağlıq yol və Hamrinin şimalındakı Kərkük bölgəsindən az miqdarda əldə edilmişdir. Qeyd edək ki, Bülövqaya yaşayış yerindən basmanaxışlı keramika hələlik aşkar olunmamışdır. Bülövqaya

yaşayış yerindən aşkar olunan keramika məmulatının tədqiqinə əsasən keramika məmulatının başlıca olaraq e.ə V minilliyin ortalarına aid olduğunu demək olar. Keramika məmulatının əsas xüsusiyyətləri Dalma təpə tipli boyalı keramikanın olmasıdır. Bülövqaya yaşayış yerinin Şimal Qərbi İran və Naxçıvançay, Sirabçay vadisinin digər abidələri ilə müqayisəli tədqiqi Orta Eneolit mədəniyyətini daha geniş şəkildə öyrənməyə və onun zənginliklərini ortaya çıxarmağa imkan verir.

ƏDƏBİYYAT

1. Baxşəliyev V. Naxçıvanda 2018-ci ilin arxeoloji tədqiqatları. Naxçıvan: Əcəmi, 2019, 104 s.
2. Abedi A. Iranian Azerbaijan Pathway from the Zaqros to the Caucasus, Anatolia and Northern Mesopotamia: Dava Göz, a New Neolithic and Chalcolithic Site ın NW Iran // Mediterranean Archaeology and Archaeometry, 2017, № 17/1, pp. 69-87.
3. Abedi A., Omrani B., Karimifar A. Fifth and fourth millennium BC in north-western Iran Dalma and Pisdeli revisited // Documenta Praehistorica, 2015, v. 42, pp. 321-338.
4. Abedi A., Khatib Shahidi H., Chataigner CH., Niknami K., Eskandari N., Kazempour M., Pirmoham-madi A., Hoseinzadeh J., Ebrahimi G.H. Excavation at Kul Tepe of (Jolfa), North-Westem Iran, 2010: First Preliminary Report //Ancient Near Eastern Studies, 2014, v. 51, pp. 33-167.
5. Burney C.A. The Excavations at Yanik Tepe, Azerbaijan, 1962: Third Preliminary Report // Iraq, 1964, v. 26, № 1, pp. 54-61.
6. Koşay H., Akok M. Büyük Güllücek araştırmaları üzerine ilk rapor // *Belleten,* v. 12, 1948, № 46, pp. 471-478.
7. Hamlin C. Dalma Tepe // Iran, № 13, 1975, pp. 111-127.
8. Henrickson H.F. Ceramic styles and cultural interaction in the Early and Middle Chalcolithic of the Central Zagros, Iran. A Thesis submitted in conformity with the requirwmwnts for the degree of Doctor of philosophy in the University of Toronto. Toronto, 1983, 840 p.
9. Hejebri N., Binandeh A., Nestani J., Vahdati N.H. Excavation at Lavin Tepe North-west iran // Ancient Near Eastem Studies, v. 40, 2012, pp. 95-117.
10. Массон В.М, Мерперт Н.Я. Вопросы хозяйства и общественного строя энеолитических племен Кавказа / Археология СССР, 1982, с. 132-158.
11. Seeher J. Antalya yakınlarında Karain Mağarasındaki Kalkolitik Çağ buluntuları / V. Araştırma Sonuçları Toplanstısı. II c., Ankara, 1987, pз. 221-238.
12. Von Der Osten H.H. The Alishar Hoyuk. Season of 1930 and 1932, Part 1, University of Chicago / Researches in Anatolia, Chicago, 1937, v. 7.
13. Voigt M. Hajji Firuz Tepe, Iran: The Neolithic Settlement. Philadelphia: University of Pennsylvania, 1983, 396 p.
14. Young T.C. A Comprative Ceramik Chronology for Western Iran, 1500-500 B.C. // Iran Journal of the British Institute of Persian Studies, 1965, v. 3, p. 53-85.

AMEA Naxçıvan Bölməsi
E-mail: elmarbaxsaliyev91@gmail.com

Elmar Bakhshaliev

CERAMICS OF BULOVKAYA SITE

During the investigation of the settlement of Byulovka, located near the village of Geinuk, Babek district, ceramic products were identified that are important for the characterization of the Middle Chalcolithic Period of Nakhchivan. A comparative study of ceramic products shows that in the middle and second half of the 5th millennium BC, Dalma Tepe painted ceramics of the Obeid type spread here. Studies claim that ceramic products are made of clay with an admixture of chaff and local production.

Keywords: *Middle East, Nakhchivan, ceramics with embossed ornaments, painted ceramics, eneolythic period, Dalma Tepe.*

Эльмар Бахшалиев

КЕРАМИКА ПОСЕЛЕНИЯ БЮЛОВКАЯ

Образцы керамики, выявленные в ходе исследования поселения Бюловкая, расположенного поблизости от деревни Гойнук Бабекского района, значимы с точки зрения характеризации культуры периода среднего энеолита Нахчывана. Сравнительный анализ керамических изделий показывает распространение здесь в середине и второй половине V тысячелетия до н.э. расписной керамики Далма Тепе Убейдского типа. Исследования подтверждают, что керамика этого типа изготавливалась из глины с примесью соломы и являлась продуктом местного производства.

Ключевые слова: *Ближний Восток, Нахчыван, керамика с отпечатком пальца, расписная керамика, период Энеолита, Далма Тепе.*

(Tarix elmləri doktoru, professor Qüdrət İsmayılzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 12.01.2021
Son variant 17.02.2021

UOT 39

ASƏF ORUCOV

MİLLİ ÇÖRƏYİMİZ – LAVAŞ

Məqalədə milli çörəyimiz, and yerimiz, həqiqət rəmzimiz olan lavaş haqqında bəhs edilmişdir. Lavaşla bağlı deyimlərə, adət-ənənələrə, inanc sistemlərinə nəzər saldıqda görürük ki, bu nemətə xalqımız öz milli kimliyini bürümüşdü. Lavaş xalqımızın sülh rəmzinə çevrilmiş, qırğınların, davaların qarşısını almaq üçün ona and içilmişdir.

Qədim zamanlardan çörək xalqımızın süfrəsində mühüm yer tutmuşdur. Demək olar ki, bütün yemək vaxtlarında süfrəyə verilmişdir. Naxçıvanda çörək deyərkən əsasən lavaş yada düşər. Ancaq bununla yanaşı, çörəyin müxtəlif növlərinin də olduğuna rast gəlirik. Aparılan tədqiqatlar nəticəsində çörək bişirmə adətinə nəzər salınmış, onunla bağlı inanc sistemləri ortaya qoyulmuşdur.

Açar sözləri: *lavaş, çörək, buğda, xəmir, təndir, sac, and yeri.*

Müdriklərimiz el-obasına həmişə təmiz ad, saf məhəbbət, açıq süfrə halal çörək diləyiblər. Halallığı, düzlüyü, haqqı, ədaləti, inamı çörəklə təsdiqləyiblər. Çörəyə həqiqət rəmzi, halallıq zirvəsi kimi baxıblar. Dava-qırğınları yatırtmaq, əmin-amanlıq yaratmaq üçün ataларımız çörəyə əl basıb, çörəyə and içiblər. "Çörək haqqı", "ruzi haqqı" deyib, çörəyi öpüb göz üstünə qoyublar. "Bir dəfə çörək yediyin yerə min dəfə baş əy", "Çörək itirən haqqı itirər" nəsihətini, vəsiyyətini edib ağsaqqal, ağbirçəklərimiz. Xalqımız ocağa, pirə, öz dini inanclarına, ata-baba məzarlarına inandığı, tapındığı kimi çörəyə də tapınmış, onu müqəddəs hesab etmişdir. Duz-çörəyə düz çörək deyilib. Bir sözlə çörək xalqımızın qida rasionu olmaqla bərabər həm də onun and yeri, haqq yeri olmuşdur. Çörəyə olan ehtiramlardan biri də budur ki, onu süfrəyə sonuncu verib, birinci götürmüşük.

Bütün bunları sadalamaqda bir məqsədimiz var. Ermənilərin iç üzünü açıb ortaya qoymaqdır. Çünki ermənilər yenə xalqımızın lavaş adı ilə bilinən təndir çörəyinə iddia etmişlər. UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Hökumətlərarası Komitəsinin 9-cu iclasında Ermənistan tərəfindən UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına lavaş "erməni çörəyi lavaşın hazırlanması ənənələri" kimi təqdim edilsə də, Azərbaycan tərəfi buna etiraz etmişdir. Bununla da Ermənistan təxribatının qarşısı alınmışdı. Belə ki, UNESCO Konvensiyasının tələblərinə uyğun olaraq faylın adı dəyişdirilib və bununla da lavaş mətbəx mədəniyyətinin erməni millətinə aid olmadığını, sadəcə, bu mətbəx nümunəsinin Ermənistan ərazisində də mövcud olduğunu qəbul edib.

Bütün bunları nəzərə alaraq Azərbaycan çörəyi lavaşın hazırlanması ənənəsi haqqında bəzi məsələlərə toxunmaq istərdik. Hələ min il, iki min il bundan öncə Azərbaycanda olan dünyaca məşhur səyyahlar, coğrafiyaşünaslar, tarixçilər bu elin, bu vətənin bütün yerlərində taxılın, çörəyin bolluğunu söyləyir, həm də çox ucuz, demək olar ki, havayı olduğunu qeyd edirlər [1, s. 9].

Ən qədim zamanlardan çörək xalqımızın süfrəsində mühüm yer tutmuşdur. Ümumi olaraq, çörək kimi bilinən bu qidanın xalq arasında müxtəlif növləri vardır. Məsələn: lavaş, dəstəna, fətir, çırpma, qalın, cad və s. Naxçıvanda və Azərbaycanın digər bölgələrində çörək deyərkən daha çox lavaş yada düşür. Araşdırmacılar çörək ifadəsini çevirmək (sacda bişirilən zaman) sözü ilə bağlılığını qeyd edirlər. Bəlli olduğu kimi, indinin özündə də yurdumuzun bir çox yerində çörək həm də qədim türk sözü olub əppək kimi də qeyd olunur: saca əppək salmaq, əppək yapmaq və s. Xalqımızın qədim yazılı abidəsi olan Kitabi-Dədə Qorqud dastanında

da oğuz yurdunun övladlarının yeməklərinin arasında tez-tez ətmək (Naxçıvanda əppək) adına rast gəlirik. Ətmək (əppək) sözünün isə bir qayda olaraq əkmək sözündən yarandığı bilinməkdədir [4, s. 62].

Çörək (lavaş) yapmaq (bişirmək) adətinə, ənənəsinə nəzər salsaq görərik ki, bu məsələ bir neçə mərhələdən keçmişdir. İlk mərhələ unun hazırlanması ilə başlanmışdır. Unun alınma üsulunun tarixi çox qədimdir. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, hələ əkinçiliyin meydana gəldiyi dövrlərdə yerli əhali un əldə etmək texnikasına bələd olmuşdur. Buna misal olaraq Naxçıvanda II Kültəpə yaşayış yerində aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunmuş buğda qalıqları, dəndaşları, kirkirə (əl daşı və ya dəstər) və s. göstərmək olar [2, s. 112].

Unun əldə edilməsi üçün aşağıdakı üsullardan istifadə edilmişdir. Bu işə ilk növbədə buğdanı yumaqla başlayardılar. Bunun üçün axar suda geniş yeri azacıq qazıb dərinləşdirər və həmin yerə palaz sərər, ətrafına daş düzərdilər. Palazın alt tərəfini bir az qaldırardılar ki, palazın arasına tökülən buğdanı su yuyub aparmasın. Hərdən bir də buğdanı suyun içərisində qarışdırarlar ki, onun zibili yuxarı, suyun üzərinə qalxsın. Bu zaman suyun üzərinə qalxmış zibil (buna el arasında çət və ya kozar deyilir) kamaxla (xəlbirlə) yığılardı. Çalışardılar ki, buğdanı suda çox saxlamasınlar. Çünki suda çox saxlanılan buğdanın çörəyi yaxşı çıxmazdı. Etnoqrafik çöl materiallarına görə, çörək yaxşı çıxmayanda deyərdilər ki, buğda "suya" verilib. Sudan çıxarılandan sonra buğdanı ətrafda palazın, garbıdın üstünə sərib qurudardılar. Sonra yığıb dəyirmanlarda üyüdərdilər. El arasında deyirdilər ki, su dəyirmanı unu yandırmır. Ona görə də belə dəyirmanlardan əldə edilən un heç vaxt xarab olmaz. Un qışa müəyyən üsullarla, xüsusi yerlərdə – kündüdə (kəndi də deyilir), unluqda saxlayardılar. Kündü iki gözlü olub palçıqdan hazırlanırdı. Üst tərəfdən unu tökmək üçün xüsusi baca düzəldilirdi. Alt tərəfdən isə unu çıxarmaq üçün baca qoyulurdu. Bir qayda olaraq kündülər qara damlarda tikilirdi. Bundan başqa unun, buğdanın artıq qalan hissəsini garbıddan, cecimdən tikilmiş xarallarda saxlayırdılar [7, s. 127]. Digər bir üsula görə isə buğdanı qara damlardakı təndirlərdə və ya quyularda saxlayırdılar. N.Quliyeva yazır ki, quyularda saxlanılan buğda illərlə qalıb çürümürdü [6, s. 148]. Onu da qeyd edək ki, taxıl məhsullarına bit düşməsin (taxıl biti) deyə içərisinə nar qabığı qoyardılar.

Çörək yapmaq (bişirmək) üçün ilk növbədə müəyyən gün seçilərdi. Bu gün ilk öncə ödəkçilərlə, mədətçilərlə, oxlovçularla razılaşdırılırdı. Mədətçi, ödəkçi, oxlovçu deyəndə çörək açanlar nəzərdə tutulur. Razılaşma olardı ki, həmin günü heç kimin vacib işi olmasın. Bu el köməyi adətidir, qarşılıqlı yardım formasıdır. Çörək yapılacaq günü çörək açanlara xəbər verdikdən sonra xəmiri yoğurmaq işinə başlayırdılar. Xəmiri yoğurmamışdan öncə unu ələk vasitəsi ilə ələyərdilər. Ələnmiş unun üzərinə su tökər, içərisinə bir az duz vurardılar. Təcrübəli çörəkbişirənlər söyləyərlər ki, xəmir eləyən zaman suyun və unun qədərini bilmək lazımdır, yəni hər ikisindən lazımi qədər istifadə edilməlidir. Xəmirin suyu az olduqda bişən çörək cadar-cadar olar. Su çox olduqda isə çörək tez quruyar. Onu da qeyd edək ki, hələ xəmir yoğurmaq üçün bir neçə ay öncə xəmirə (maya) tutulmalıdır. Xəmirə çox ciddi şəkildə qorunurdu. Xalq arasında birinə qarğış edərkən "səni görüm acı xəmirədən kəsiləsən" ifadəsi işlədilir. Xəmir yoğurulan zaman ailənin nəfərinin sayına görə bu işi həyata keçirirdilər. Bir qayda olaraq 4-5 vedrənin suyunun xəmirini yoğururdular. Bu da iki tay un deməkdir. Xəmir çox olduğunda əllə yetişdirmək mümkün olmadığı üçün onu ayaqlayardılar. Ayaqlanan zaman xəmirin üzərini örtərdilər ki, ayaq ona toxunmasın. Xəmirin ayaqlanmasının günah olduğunu bilən ağbirçəklərimiz ondan bir az qırıb başlarının üstünə qoyardılar. Yəni səni həmişə başımın üstündə bilmişəm, sən məndən ucasan, üstünsən demişlər. İnanca görə xəmir yoğuran şəxs

təmiz olmalıdır. Bu həm fiziki, həm də mənəvi təmizlikdir. Xəmir yoğurulan zaman çırtlasa deyərlər ki, evə qonaq gələcəkdir. Xəmir elə ki, "gəldi", "yetişdi" (hazır olmasına deyilir – A.O.) onun üzərini süfrə ilə basdırardılar ki, xəmir acısın.

Onu da qeyd etmək istərdik ki, keçmişdə hər bir taxıl bitkisinin ununa uyğun aşağıdakı çörək növləri yapılardı. Məsələn: tapı arpa, dəstana buğda və düyü unundan yapılardı. Cad hazırlamaq üçün qarğıdalı unundan istifadə edilərdi. Bunların hər biri xalqımızın uzunmüddətli təcrübəsi sayəsində əldə edilmişdir.

Çörək əsasən təndirdə yapılardı. Təndir təndirəsərin içərisində olardı. Çörək yapan zaman təndirin külünü alar, sonra səhər ala-qaranlıqdan durub təndiri çatardılar. Təndiri çatarkən (yəni yandırarkən) alov güclü olmalıdır ki, təndirin divarları ağarsın. Bu zaman deyərlər ki, bu təndir bir neçə vedrənin suyunun xəmrini çıxardar. Çörək yapan zaman rəfətədən (ifidə də deyilir), oxlovdan, çəpərədən, duvaqdan (çörək daşından) istifadə edərlər. İlk öncə xəmir kündələnər, sonra oxlovçular (çörək açanlar) çörəyi açar, öz nişanəsini qoyub (kimin açdığını bildirmək üçün) yapana verərlər. Çörək yapan onu rəfətənin üstünə açıb, rəfətə vasitəsi ilə təndirə yapardılar. Xalq arasında olan inanca görə təndirə yapılan ilk çörəyi itə, pişiyə atardılar. Çünki çörək itin, pişiyin ruzisidir deyərlər. Digər bir inanca görə təndirə ilk yapılan çörəkdən kim yesə, onun həyat yoldaşı dünyasını dəyişər.

El adətidir çörək yapılıb qurtardıqdan sonra oxlovçulara iki-üç ədəd isti çörək verərdilər. Çörək açanlara günorta yeməyini də bir qayda olaraq ev yiyəsi verərdi. Çörəkdən ilin bütün fəsillərində istifadə edilməsinə baxmayaraq, insanlar qış çörəyinə xüsusi fikir vermişlər. Payızın "qəps" ayında insanlar 7-8 pud unun çörəyini yapıb qış üçün tədarük görərdilər. H.Həvilov bu haqda yazır: "Çörək hər bir ailə üçün 3-7 günlük müddətə bişirilirdi. Başqa bölgələrdən fərqli olaraq Naxçıvanda isə uzun müddət üçün (3-4 aylıq) lavaş hazırlanırdı" [3, s. 165]. El arasında bu "qış çörəyi" adlanırdı. Çox təəssüf ki, təndir, təndirəsər, təndir çörəyi artıq unudulmaqda, yaddaşlardan silinməkdədir.

Tarixən azərbaycanlılar çörəkbişirmə vasitəsi kimi sacdan da istifadə etmişlər. Odunocağın kəşfindən sonra ulu əcdadlarımız daşdan-gildən sac düzəltmiş, yurd başında sac qurmuş, ocaq çatmışlar. Üstündə lavaş, fətir, qutab bişirmişdirlər.

Son olaraq qeyd edək ki, süfrəmizin başında oturub halal nemətimizi yeyənlər, ordanburdan yığışıb gələn və gətirilən yağılar yeməyimizi yeyib süfrəmizə, mətbəximizə sahib çıxmağa başlamaqla bir zamanlar bizdən görüb-götürdüklərini dünyaya özlərininki kimi sırımağa çalışmışdılar. H.Q.Qədirzadə bununla bağlı yazır: "Biz çox oğurluq eşitmişik, çox az eşitdiyimiz bir oğurluqda varmış – çörək oğrusu. Xalqımız təndirdən çörək, küt aparan, gizli oğurluq edənlər haqqında deyir: "İt oğrusu küt oğrusu". Yəni it gizlicə oğurluq edər. Nə isə bunun başqa adı yox idi [5, s. 77].

İndi Azərbaycanda, o cümlədən onun ayrılmaz parçası olan Naxçıvanda min illər boyu formalaşmış mətbəx mədəniyyətini özününküləşdirmək, öz mədəniyyəti kimi dünyaya çatdırmaq bədnam qonşularımızın əsas işi olub. İş o yerə çatıb ki, onlar adları da olduğu kimi verirlər: lavaş, dolma, təndir və onlarla, yüzlərlə digərləri. Ancaq bunların çoxu onların boğazında qalacaq, necə ki, lavaşımızın ermənilərin boğazında qaldığı kimi. Necə ki, Qarabağımızı işğal altında saxlamaq istəkləri boğazlarında qaldığı kimi.

ƏDƏBİYYAT

1. Babayev T. Qoy həmişə çörək olsun. Bakı: Elm və təhsil, 2013, 124 s.
2. Həbibullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərb. SSR. EA. nəşriyyatı, 1959, 180 s.

3. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991, 256 s.
4. Kitabi Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
5. Qədirzadə H.Q. Milli mətbəx və qonaqpərvərlik. Naxçıvan: Əcəmi, 2012, 112 s.
6. Quliyeva N. Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti. Bakı: Elm, 2005, 346 s.
7. Orucov A. Xalq təqvimi: adətlər, inanclar, mərasimlər. Baki: Elm və təhsil, 2013, 200 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: aseforucov@yahoo.com.tr

Asaf Orujov

OUR NATIONAL BREAD – LAVASH

The paper informs about lavash, our national bread, our oath, and our symbol of truth. When we look at the proverbs, traditions, and belief systems associated with lavash, we see that our people have acquired their national identity thanks to this blessing. Lavash has become a symbol of our people's peace; to prevent massacres and clashes, we have always sworn to them.

Since ancient times, bread has occupied an important place on the table of our people. We can say that it was served on the table at every meal. In Nakhchivan, when it comes to bread, the main thing that comes to mind is lavash. However, along with this, we meet with the existence of various types of bread. As a result of the research, we considered the custom of baking bread and identified the belief systems.

Keywords: *lavash, bread, wheat, dough, tandyr, saj, place of oath.*

Асеф Оруджов

НАШ НАЦИОНАЛЬНЫЙ ХЛЕБ – ЛАВАШ

В статье рассказывается о лаваше, который является нашим национальным хлебом, нашей клятвой, нашим символом истины. Когда мы смотрим на пословицы, традиции, системы верований, связанные с лавашем, мы видим, что благодаря этому благословению наш народ обрел свою национальную идентичность. Лаваш стал символом мира нашего народа, чтобы не допускать резни и столкновений мы всегда клялись им.

С древних времен хлеб занимал важное место на столе нашего народа. Можно сказать, что он подавался на стол во время каждого приема пищи. В Нахчыване, когда речь идет о хлебе, то сразу вспоминается в основном лаваш. Но вместе с этим мы встречаемся с существованием различных видов хлеба. В результате проведенных исследований был рассмотрен обычай выпечки хлеба, выявлены связанные с ним системы верований.

Ключевые слова: *лаваш, хлеб, пшеница, тесто, тендир, садж, место клятвы.*

(Tarix elmləri doktoru Şirin Bünyadov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 19.01.2021
Son variant 18.02.2021

UOT 39

AYTƏKİN QƏHRƏMANOVA

MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI KƏND QADINLARININ İCTİMAİ FƏALLIĞININ AİLƏ MƏİŞƏTİNƏ TƏSİRİ

Naxçıvan Muxtar Respublikasının kənd qadınlarının ictimai-siyasi həyatda, ayrı-ayrı təsərrüfat sahələrində fəallıqlarının artması onların ailə məişətlərinə müəyyən təsir göstərir. Bu isə ilk növbədə onların ailə büdcəsinin formalaşmasında iştirakını təmin edir. Nəticədə onların maddi-rifah halını yaxşılaşdırmaqla, həyat səviyyəsini yüksəldir, kənd təsərrüfatı məhsullarının istehsalı artır və ölkə əhalisi yerli ərzaq məhsulları ilə təchiz edilir.

Qadınların ictimai fəallıqlarının artırılması həm də övladlarının tərbiyə edilməsində, onların daha çox vətənpərvər ruhda böyüdülməsinə rəvac verir. Nəhayət, Naxçıvan Muxtar Respublikasının qadınları həm də milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilir, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılması üçün dəyərli töhfələr verirlər.

Açar sözlər: *Naxçıvan, ictimai fəal, qadın, ailə məişəti, həyat səviyyəsi, ailə büdcəsi.*

Ailə cəmiyyət ilə qırılmaz tellərlə bağlıdır və cəmiyyətdə baş verən ictimai-iqtisadi, siyasi və mədəni dəyişikliklər ailə məişətində öz əksini tapır. Bununla yanaşı, təsərrüfat ənənələrinin və əmək vərdişlərinin əsası, yeni nəslin tərbiyəsinin təməli ailədə qoyulur, onların maddi və mənəvi tələbatı burada təmin olunur.

Bütün dövrlərdə Azərbaycan qadını məişətdə ailə qayğılarını çəkməklə yanaşı, tarix boyu kişilərlə birlikdə ölkənin siyasi, mədəni həyatında fəal iştirak etmiş, vətənin müdafiəsində və dövlətin idarə olunmasında fədakar xidmətlər göstərmişlər.

Azərbaycan SSRİ-nin tərkibində olduğu zamanlarda da qadınlar iqtisadiyyatın, infrastrukturun, elmin, təhsilin, xidmət sferasının bütün sahələrində çalışırdılar. SSRİ dağıldıqdan sonra və məlum hadisələr nəticəsində respublikanın iqtisadiyyatı dərin böhran vəziyyətinə düşmüş, əhalinin, o cümlədən qadınların, məşğulluq səviyyəsi kəskin olaraq azalmışdı.

Müstəqillik illərində qadınların cəmiyyətdə, iqtisadiyyatın müxtəlif sahələrində fəallığının artmasında dövlətin qəbul edib, həyata keçirdiyi qərar və qanunların böyük rolu olmuşdur. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində deyilir ki, kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır. 55-ci maddəsində göstərilir ki, Azərbaycan vətəndaşlarının, eləcə də qadınların dövlət orqanlarına seçmək və seçilmək hüququ, həmçinin referendumda iştirak etmək hüququ var [2, s. 10, 19]. Bununla yanaşı, ulu öndər Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 2000-ci il 6 mart tarixli Fərmanı [3] ölkənin sosial-siyasi, iqtisadi və mədəni həyatında qadınların fəallığını artırmaq məqsədilə imzalanmış mühüm dövlət sənədləri olmuşdur.

Ulu öndərin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkədə bütün sahələrdə qadınların fəallığının artırılmasına hərtərəfli şərait yaradılıb. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin [9] yaradılması muxtar respublikada qadınlara verilən hərtərəfli dəstəyin, onların hüquqlarının müdafiə edilməsi istiqamətində həyata keçirilən tədbirlərin daha bir göstərici-

sidir. Görülən tədbirlərin nəticəsidir ki, muxtar respublikada fəal əməklə məşğul olanların 33 faizini qadınlar təşkil edir [14].

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il yanvar ayının birinə olan məlumatına görə, Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 459,6 min nəfər olmuş, bunlardan 230 min nəfərini qadınlar təşkil etmişdir. Statistik məlumata görə, muxtar respublikanın rayonlarında yaşayan qadınlarının sayı 162 min nəfərdən ibarət olmuşdur. Qadınların sayının rayonlar üzrə bölgüsünü apardıqda məlum olur ki, Şərur rayonunda 55,4, Babək rayonunda 35,2, Ordubad rayonunda 19,5, Culfa rayonunda 16,7, Kəngərli rayonunda 13,3, Şahbuz rayonunda 9,8, Sədərək rayonunda 6,8 min nəfərdir [1, s. 92-93].

Naxçıvan Muxtar Respublika Dövlət Statistika Komitəsinin 2020-ci ilin statistik məlumatlarının təhlili göstərir ki, hazırda muxtar respublikanın rayonlarında **təhsil sahəsində** muzdla işləyən qadınların sayı Şərur rayonunda 2110, Babək rayonunda 1607, Ordubad rayonunda 971, Culfa rayonunda 950, Kəngərli rayonunda 537, Şahbuz rayonunda 667, Sədərək rayonunda 72, **əhaliyə səhiyyə və sosial xidmət sahəsində** Şərur rayonu üzrə 595, Babək rayonu üzrə 518, Ordubad rayonu üzrə 390, Culfa rayonu üzrə 273, Kəngərli rayonu üzrə 123, Şahbuz rayonu üzrə 249, Sədərək rayonu üzrə 43 nəfər, **istirahət əyləncə və incəsənət sahəsində** (bu sahəyə kitabxanalar, klub və s. daxildir – A.Q.) Şərur rayonu üzrə 484, Babək rayonu üzrə 281, Ordubad rayonu üzrə 264, Culfa rayonu üzrə 199, Kəngərli rayonu üzrə 94, Şahbuz rayonu üzrə 203, Sədərək rayonu üzrə 48 nəfər olmuşdur [8].

Beləliklə, muxtar respublikanın rayonları üzrə muzdla işləyən qadınların sayı təhsil üzrə 6914, səhiyyə və sosial xidmət sahəsində işləyən qadınların sayı 2191 nəfər, istirahət əyləncə və incəsənət sahəsində işləyən qadınların sayı 1573 nəfər olmaqla, muzdla işləyən qadınların sayı 10678 nəfər olmuşdur.

Qeyd etmək lazımdır ki, 2019-cu ilin yanvar-aprel aylarında muzdla işləyən əhalinin orta aylıq əmək haqları Şərur 415,8 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 102,8 faiz təşkil edir. Ordubad 416,2 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 103,4 faiz təşkil edir. Culfa 422,7 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 107,3 faiz təşkil edir. Kəngərli 440,7 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 106,9 faiz təşkil edir. Şahbuz 405,4 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 108,5 faiz təşkil edir. Sədərək 507,2 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 112,1 faiz təşkil edir [7, s. 50, 54, 58, 62, 66, 70, 74].

Muzdla işləyən əhalinin tərkibində qadınların müxtəlif sahələrdə fəaliyyət göstərməsini müqayisə etdikdə aydın olur ki, muxtar respublikanın rayonlarında qadınlar daha çox təhsil sahəsində fəaliyyət göstərirlər.

Qadın müəllimlərin sayı Şərur rayonunda 1285 nəfər, bunlardan 1229-u ali təhsilli, 56-sı orta ixtisas təhsillidir. Babək rayonunda 964 nəfər, bunlardan 951-i ali təhsilli, 12-si orta ixtisas təhsilli, 1-i tam orta təhsillidir. Ordubad rayonunda 488 nəfər, bunlardan ali təhsillilərin sayı 444 nəfər, orta ixtisas təhsillilərinin sayı 43 nəfər, ali təhsil müəssisələrini bitirməyənlərin sayı isə 1 nəfərdir. Culfa rayonunda 546 nəfər, bunlardan ali təhsillilərin sayı 526 nəfər, orta ixtisas təhsillilərinin sayı 18 nəfər, tam orta təhsillilər 2 nəfərdir. Kəngərli rayonunda 326 nəfər, bunlardan ali təhsillilərin sayı 309 nəfər, orta ixtisas təhsillilərinin sayı 17 nəfərdir. Şahbuz rayonunda 338 nəfər, bunlardan ali təhsillilərin sayı 332 nəfər, orta ixtisas təhsillilərinin sayı 6 nəfərdir. Sədərək rayonunda 50 nəfər, bunlardan ali təhsillilərin sayı 50 nəfərdir.

Qadın həkimlərin və orta tibb işçilərinin sayı Şərur rayonunda 71 həkim, 365 orta tibb işçisi, Babək rayonunda 43 həkim, 247 orta tibb işçisi, Ordubad rayonunda 28 həkim, 180 orta tibb işçisi, Culfa rayonunda 27 həkim, 168 orta tibb işçisi, Kəngərli rayonunda 12 həkim, 83 orta tibb işçisi, Şahbuz rayonunda 12 həkim, 154 orta tibb işçisi, Sədərək rayonunda 8 həkim, 14 orta tibb işçisi fəaliyyət göstərirlər [8].

Statistik məlumatlar onu göstərir ki, muxtar respublikada kəndlərin inkişafı istiqamətində həyata keçirilən ardıcıl tədbirlər qadınların müxtəlif sahələrdə ictimai fəallıqlarının artmasına müsbət təsir göstərmişdir.

Bu gün muxtar respublikanın kəndlərində ailə təsərrüfatlarının qurulmasında qadınların fəallığı öz təsirini göstərir. Doğrudur, keçmişdə də ailə üzvlərinin birgə əməyinə əsaslanan ev peşələri var idi. Məsələn, ailədə olan qadınlar, yaxın qohum və qonşuların köməyi ilə birgə xalça, palaz toxuyar, yorğan-döşək salar və s. müxtəlif məişət işləri ilə məşğul olardılar.

Ölkəmizdə ailə təsərrüfatları haqqında hüquqi bazanın yaradılması 2005-ci ilə təsadüf edir. Belə ki, "Ailə kəndli təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu"nda (14 iyun 2005-ci il) göstərilir ki, ailə kəndli təsərrüfatı ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi və mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətinin (məhsulların istehsalının, emalının, saxlanmasının, daşınmasının və satılmasının) birgə həyata keçirilməsidir [16]. Ailə kəndli təsərrüfatının tərkibi bir nəfərdən, onun ailə üzvlərindən və onlarla qohumluq və ya digər münasibətlər əsasında birgə fəaliyyət göstərən şəxslərdən ibarət ola bilər. Ailə təsərrüfatı yaradanda bir çoxları işə məhz ailə üzvlərini cəlb etməyə çalışır. Bunun müsbət tərəfi ondadır ki, gəlir ailə büdcəsindən kənara çıxmır, ümumi ailə büdcəsinə daxil olur, qazancdan ailə üzvlərinin hamısı bəhrələnir. Həmçinin ailənin iş qabiliyyətli olan üzvləri, xüsusilə gənclər valideynlərin timsalında əmək vərdişlərinə alışır, bu isə onların gələcəkdə əməksevər olmasına zəmin yaradır. Özlərinin təsərrüfatlarını yaradan kənd ailələri artıq iş üçün şəhərə deyil, elə yaşadıqları yerdə öz məşğulluqlarını təmin edə bilmələrini daha məqsədəuyğun hesab edirlər.

Əhalinin kənddə məşğulluğunun təmin edilməsi, eyni zamanda əhalinin kənddə məskunlaşmasına şərait yaradır. Kənd əhalisinin fəallığını artırmaq, onları ictimai əməyə cəlb etmək, məşğulluqlarını təmin etmək məqsədi ilə dövlət tərəfindən onlara dəstək göstərilir, kreditlər verilir. Belə ki, dövlət tərəfindən sahibkarların əməyini yüngülləşdirmək, onların lazımi texnika ilə vaxtında və güzəştli şərtlərlə təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır [5. s. 87]. Lizinq vasitəsilə sahibkarlara güzəştli şərtlərlə kreditlərin, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqların verilməsi, kənd əhalisinin kənd təsərrüfatı məhsullarının istehsalını artırmaqla yanaşı, istehsal olunmuş məhsulların satışı üçün də əlverişli şərait yaradır. Nəticədə isə, həm kənd əhalisinin məişəti, güzəranı yaxşılaşır, həm də ölkə əhalisi yerli ərzaq məhsulları ilə təchiz edilir.

Qadınların məşğulluğunun təmin olunması, müvafiq peşəyə yiyələnmələri üçün də dövlət tərəfindən bir sıra tədbirlər görülür, istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün peşə kursları təşkil olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na [13] uyğun olaraq sağlamlıq imkanları məhdud, eləcə də aztəminatlı ailənin üzvü olan qadınlar peşə kurslarına cəlb olunur, məşğulluq problemləri aradan qaldırılır və onlar ictimai əməyə cəlb olunurlar.

Bu gün naxçıvanlı ictimai fəal qadınlar beynəlxalq miqyaslı təlimlərdə də layiqincə təmsil olunurlar. Belə ki, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə BMT-nin İnkişaf Proqramının qismən maliyyə dəstəyi daxil olmaqla Avropa İttifaqının maliyyələşdirdiyi layihə çərçivəsində "Gələcəyini planlaşdır" və "Öz biznesinə başla və onu inkişaf etdir" adlı təlimlər keçirilir. Təlimlərdə 319 qadın iştirak edib. Öz fəaliyyəti planı ilə fərqlənən 63 qadına sərmayə kapitalı verilib. Sərmayə kapitalının 80 faizi qadınlara ailə təsərrüfatlarını genişləndirmək və ya qurmaq üçün, 20 faizi isə toxuculuq, dərzilik, bərbərlik sahəsi ilə məşğul olmaları və ya inkişaf etdirmələri üçün verilib. Layihə əsasında keçirilən tədbirdə qadınlara, ümumilikdə, 18 baş xırdabuynuzlu, 10 baş iribuynuzlu, 2 overlok maşın, 2 hana, 60 metr parça, 240 bağlam sap, muncuq və digər lazımi ləvazimatlar verilib [15].

Layihənin keçirilməsində əsas məqsəd qadınların ictimai fəallıqlarını artırmaqla yanaşı, onların ailə və bizneslərində maliyyə idarəetməsi üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi, onların sahibkarlıq fəaliyyətinə dəstək göstərilməsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı" və son illər muxtar respublikada keçirilən "Göycə", "Kətə", "Plov" və "Ailə təsərrüfatları məhsulları" festivalları, 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları" ili elan olunması, ailə təsərrüfatlarının inkişaf etməsinə və kənd qadınlarının fəal əməyə cəlb edilməsinə şərait yaratmışdır. Hazırda muxtar respublikada 1022 ailə təsərrüfatından 177-sində qadınlar fəaliyyət göstərirlər [6].

Araşdırmalar nəticəsində muxtar respublikanın kəndlərində yaşayan və öz şəxsi təsərrüfatlarını qurub, fəaliyyət göstərən qadınların müəyyən qismi də tədqiqata cəlb edilmişdir. Qadınların əksəriyyəti isə öz təsərrüfatlarını, əsasən ət və süd məhsullarının istehsalı, meyvə-tərəvəzin əkilib-becərilməsi, onların qurudulması, emal edilməsi, yabanı dərman bitkilərinin toplanması, undan müxtəlif növ məmulatların hazırlanması, meyvə və tərəvəzlərdən müxtəlif növ kompot, mürəbbə, içkilərin hazırlanması və s. sahələr üzrə qururlar. Aydındır ki, təbii-coğrafi amillərlə əlaqədar olaraq, ailələrin şəxsi təsərrüfatlarında məşğulluq sahələri və gələn qazancları da fərqlidir. Bu baxımdan Şahbuz rayonunun fəal qadınları öz təsərrüfatlarını əsasən heyvandarlıq məhsullarının emalı (süd, qatıq, şor, kərə, qaymaq, pendir, qurut və s.), dərman bitkilərinin toplanması, un məmulatlarının hazırlanması və s. üzrə qururlar.

Ordubad rayonunun kəndlərində qadınlar fərdi təsərrüfatlarını daha çox tərəvəz məhsulları, müxtəlif meyvələr (şaftalı, şələli, gilas, alma, armud, ərik və s.) becərirlər. Bunun müəyyən hissəsini özləri istifadə edir, qalan hissəsini isə bazara çıxarıb satırlar. Meyvələrin müəyyən hissəsindən isə sucuq, alana, qax və digər quru meyvələr hazırlayırlar ki, onları da satışa çıxarırlar. Rayonun Dəstə, Yuxarı Nüsnüs, Aşağı Nüsnüs kəndlərində bazara çıxarılan tərəvəz məhsulları, bişirilən mürəbbələr (qoz, qızılgül, tut) alıcılar tərəfindən daha çox alınır.

Culfa rayonunda fəal qadınlar müxtəlif çeşidli ərzaq məhsulları hazırlayırlar. Sorğular zamanı aydın olur ki, Culfa rayonunun təsərrüfatla məşğul olan ictimai fəal qadınları daha çox ərzaq məhsullarının istehsalı və emalı ilə məşğul olurlar. Onlar üzümdən mövüc, kişmiş, sirkə, hazırlayır, undan müxtəlif növ şirniyyatlar, qış tədarükü kimi yarma, əriştə, qovurma, müxtəlif meyvə və tərəvəz qurusu hazırlayaraq satışa çıxarırlar.

Şərur, Kəngərli, Babək və Sədərək rayonlarının ictimai fəal qadınları əsasən meyvə və tərəvəz, dərman bitkiləri və s. məhsullarının emalı ilə məşğul olurlar.

Apardığımız araşdırmalar nəticəsində aydın oldu ki, təsərrüfat sahələrində çalışan ictimai fəal qadınlar əsas etibarilə öz təsərrüfatlarını qadın əməyinə əsaslanan ərzaq məhsullarının istehsalı və emalı üzrə qururlar.

Göründüyü kimi, muxtar respublikada qadınlar ildən-ilə kiçik və orta sahibkarlıq fəaliyyəti sahəsində geniş imkanlarla əhatə olunaraq müvafiq sahədə təmsil olunmağa başlayıblar. 2020-ci il 1 yanvar tarixə olan statistik məlumata əsasən muxtar respublikada qeydiyyatda olan qadın sahibkarların sayı 6 min 667-dir. Hazırda muxtar respublikada 940 ailə təsərrüfatı qeydiyyata alınmışdır ki, bunun da 67-si qadınlar tərəfindən idarə olunur [17].

Muxtar respublikanın kəndlərində təsərrüfat sahələrində çalışan fəal qadınlarla yanaşı, təhsildə, səhiyyə ocaqlarında, mədəniyyət və ictimai-iaşə müəssisələrində çalışan və öz fəallıqları ilə fərqlənən qadınlar da var. Onlardan Şərur rayon Aşağı Yaycı kənd sakini, ixtisasca tarix müəllimi olan Aşağı Yaycı kənd tam orta məktəbinin direktoru Yeganə Məmmədova, Şərur rayon Aralıq kənd sakini, riyaziyyat müəllimi Züleyxa Rzayeva, Yuxarı Yaycı kənd sakini Qəmər Nəbiyeva, Babək rayonun Payız kənd orta məktəbinin direktoru, biologiya üzrə fəlsəfə doktoru Turan Məmmədli, Sədərək Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü Kəmalə Əliyeva və digərlərinin adlarını fəxarətlə qeyd etmək olar.

Muxtar respublikanın ictimai fəal qadınlar haqqında məlumatları araşdırdıqda məlum olur ki, hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 45 deputatından 11-i, muxtar respublikadan Azərbaycan Respublikası Milli Məclisinə seçilən 7 deputatdan biri qadındır.

Muxtar respublikada qadınların fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, mükafatlara layiq görülür, medal və nişanlarla təltif edilirlər. Belə ki, muxtar respublika qadınlarının 166-sı Azərbaycan Respublikasının, 172-si isə Naxçıvan Muxtar Respublikasının fəxri adına və mükafatına layiq görülmüş, 148 qadın orden, medal və nişanlarla təltif olunmuşdur [12].

Bu gün muxtar respublikanın kəndlərində ictimai fəal qadınların sırasına xeyir-şər məclislərində yemək hazırlayan aşpaz və məclisi idarə edən molla qadınları da əlavə etmək olar. Aşpaz qadınlar məclis yeməklərini hazırlayır, yeməklərin məclis iştirakçılarına paylanmasına nəzarət edir. Sonda isə ev sahibindən ona çatacaq müəyyən məbləğdə pul alır. Bundan əlavə müasir dövrümüzdə dini qurumların təşkil etdikləri kurslarda kənd qadınları da iştirak edir və kursun sonunda müsabiqədən keçən qadınlara məclisi idarə etmək üçün vəsiqələr verilir. Müəyyən dini biliklərə yiyələnən qadınlar kənddə yas və imam məclislərini idarə edir və hər gününə görə məclis sahibindən pul alır.

Azərbaycan cəmiyyəti üçün həmişə müqəddəs hesab olunan, tarixən formalaşmış milli-əxlaqi dəyərlər üzərində qurulan, eyni zamanda bu dəyərləri özündə yaşadaraq gələcək nəsillərə çatdıran Azərbaycan ailəsində qadınların müstəsna rolu vardır. Muxtar respublikada 212 kənd yaşayış məntəqəsi var. Kəndlərdə məktəb direktoru olan 10 qadından aparılan sorğu nəticəsində bu qənaətə gəlmək olar ki, ictimai fəal qadınların ailədə, ailədaxili münasibətlərdə müstəqil fikir yürütməyi, daha diqqətcil olmaları ilə fərqlənirlər. İctimai fəal qadınların ailələrində ailədaxili münasibətlərin əsasını səmimiyyət, qarşılıqlı anlaşma və mehribanlıq təşkil edir. Onlar uşaqların təlim-tərbiyəsində, yeni nəslin həyata hazırlanmasında da ciddi fəallıq göstərirlər. Təsadüfi deyil ki, bu gün orta məktəblərdə, səhiyyə ocaqlarında, ayrı-ayrı mədəni maarif müəssisələrində çalışanların əksəriyyəti qadınlardan ibarətdir. Qadının ictimai fəal olmasında ailənin böyüyü sayılan kişinin müəyyən rolu var. Sorğular zamanı aydın olur ki, məişət işlərinin ağırlığı yenə də qadınların üzərinə düşür, lakin bu gün ailələrdə, xüsusilə

ziyalı ailələrində ər, o cümlədən ailənin oğlan uşaqları ev işlərində və uşaqların tərbiyə olunmasında qadına köməklik edirlər. Məişət işlərinə digər ailə üzvlərinin köməkliyi qadınların asudə vaxtlarının artmasına şərait yaradır. Belə olduqda öz üzərlərində işləyən, şəxsi təhsillərini artıran qadınların mütaliəyə də maraq dairələri genişlənir. Belə ki, araşdırmalar nəticəsində aydın olur ki, muxtar respublika üzrə 212 kütləvi kitabxana vardır ki, onlardan da 192-si kəndlərdə fəaliyyət göstərir və oxucuların sayı 94,1 min nəfərdir. Kəndlərdə olan 94,1 oxucunun yarıdan çoxunu qadınlar təşkil edir.

Onu da qeyd etmək lazımdır ki, ictimai fəal qadınların bəziləri özlərini işə o qədər bağlayırlar ki, ailə qayğılarından tamamilə uzaqlaşır, bir növ ailə qayğılarını unudurlar. Bəzi ictimai fəal qadınlar ailədaxili münasibətlərində də özünü işdəki kimi hiss edir, evdə daha ciddi olur. Bu cür hallar isə ailədaxili münasibətlərə xələl gətirə bilər. Fəal qadınlarla apardığımız sorğular əsasında onların əksəriyyəti ailədə bir və ya iki uşaqdan artıq uşaq istəmirlər. Belə olan halda bu cür ailələrdə gələcək qohumluq əlaqələrinin zəifləyəcəyi gözlənilir. Daha doğrusu, gələcəkdə uşaqların dayısı, əmisi, xalası, bibisi və onların uşaqları olmayacaqdır. Öz karyerasını qurmaq istəyən gənc ali təhsilli qızların bəziləri isə ailə qurmaq haqqında belə düşünmürlər.

Qadınların müxtəlif sahələrdə əmək fəaliyyətləri ilə məşğul olması, onların cəmiyyətdə rollarının artırılması ilə yanaşı, əldə etdikləri gəlirləri ailənin ümumi büdcəsinə daxil olur və ailə büdcəsinin formalaşmasında onların da əməyi olur. Bu barədə etnoqraf H.Q.Qədirzadə yazır ki, ailə büdcəsi ailənin sosial tərkibindən, yəni işçi qüvvələrinin əmək haqqından və bir çox ailədə təsərrüfatdan gələn gəlirlərdən ciddi surətdə asılıdır [4. s. 34]. Təbii ki, müasir kənd əhalisinin ailə büdcələrinin formalaşması, onların məşğul olduqları təsərrüfatdan əldə etdikləri gəlirlərdən daha çox asılıdır.

Aparılan tədqiqatlar aydın göstərir ki, ailə gəlirinin əsas hissəsi ailənin ərzaq ehtiyatına sərf olunur. Xüsusən qış hazırlığına xüsusi önəm verilir. Bu xərclərin bir hissəsi ərzaq, bir hissəsi kommunikasiya xidmətləri və bir hissəsi də mal-qara üçün yem ehtiyatına sərf edilir. Ərzaq, qış hazırlığı ilə yanaşı, xərclərinin müəyyən hissəsi ailə üzvlərinin geyimlərinə sərf olunur. Qeyd etmək lazımdır ki, əhalinin geyim mədəniyyətində ciddi dəyişikliklər baş vermişdir. Bu gün muxtar respublikanın kənddə yaşayan gənclərlə, şəhərdə yaşayan gənclərin geyimində heç bir fərq yoxdur. Gənclər dəbə uyğun, zövqlə geyinirlər. Geyimlər də mövsümlə əlaqədar olaraq alınır. Ailə büdcəsinin çox hissəsi yeni evlərin tikintisinə sərf olunur. Müasir evlərin tikintisində də ciddi dəyişikliklər var. Belə ki, vaxtilə kəndlərdə evlərdən əlavə tikililərə: təndirəsər, əl damı, tövlə və s. tikilişinə müəyyən miqdarda xərc çəkilirdi. Bu gün bu yardımçı evlərin çoxu istifadə edilmədiyindən tikilmir. Məsələn, əksər kəndlərdə təndirə çörək yapılmır, mətbəx kimi istifadə edilən əl damından istifadə edilmir, çünki əksər evlərdə mətbəx evin içinə salınır. Köhnə tikili evlər yenidən müasir üsulla təmin edilir. Yeni tikilən evlər daha gözəl və yaraşıqlı olur. Xərclərin bir hissəsi sağlamlığa, həmçinin uzunmüddətli istifadə edilən mədəni-məişət əşyalarını alınmasına sərf olunur. Onu da qeyd edək ki, məişət avadanlıqlarının alınmasında əsas rolu qadınlar oynayır. Evə lazım olan gündəlik məişətdə işlənən mətbəx avadanlıqlarından qab-qaşıq, qazan və s. xalça-palaz, yorğan döşəyin astar-üzünə lazım olan parçalar qadınlar tərəfindən alınır. Eyni zamanda qızlara cehiz alınmasında da ananın rolu böyükdür. Demək olar ki, qızların böyük məişət avadanlıqlarından başqa bütün xırda-xuruş cehizlərini ana, həmçinin yaxın qohumlardan olan qadınlar: xalalar, bibilər, daycanılar, əmcanılar alırlar. Bəzi böyük avadanlıqlar isə evin böyüyü olan kişinin razılığı əsasında ailənin zövqünə və iqtisadi durumuna görə seçilib, bəyənilir və alınır.

Ölkəmizin müasir inkişaf və quruculuq mərhələsində əhalinin, həmçinin kənd əhalisinin də mədəni-məişət mallarına ehtiyacı xeyli artmışdır. Bu gün kənd ailələrinin daha yaxşı yaşamaq, hərtərəfli məişət şəraitinə malik olmaq, yüksək səviyyədə həyat sürmək imkanları daha genişdir. Kənd ailələrinin məişət şəraiti, onların həyat səviyyəsi məişətin inkişaf səviyyəsini, onun vəziyyətini göstərən ən mühüm meyardır. Müasir dövrümüzdə muxtar respublikanın kəndlərində mənzil şəraiti, ayrı-ayrı ailələrin həyatı ilə tanışlıq onu göstərir ki, kənd ailələri yeni tipli müasir evlərdə yaşayırlar, köhnə evlər isə müasir üslubda təmir olunur. Onların məişətinə mebel, televizor, soyuducu, paltaryuyan maşın, tozsoran, elektrik ütüsü, telefon, kompüter, internet və s. kimi məişət avadanlıqları geniş daxil olmuşdur. Kənd ailələrinin əksəriyyətinin şəxsi avtomobilləri vardır.

Ümumiyyətlə, muxtar respublikada ailələrin maddi durumu artdıqca onların sosial rifah halı da yaxşılaşır. Nəticədə isə ildən-ilə muxtar respublikada ailələrin sayı artır. Hazırda Naxçıvan Muxtar Respublikasında 97 min 793 ailə yaşayır [18].

Bəs ailə büdcəsinə kim nəzarət edir? Evin böyüyü, yəni başçısı sayılan kişimi, yoxsa evin xanımımı? Mənbələrdən və yaşlıların dediyindən aydın olur ki, XX əsrin 50-ci illərinə qədər kəndlərdə ailənin əsas gəlir gətirəni kişi olduğundan, ailənin "çörək ağacı" adlandırmaqla ailə büdcəsinin bölüşdürülməsi ona məxsus idi [4, s. 47]. Lakin, qadınların müxtəlif sahələrdə ictimai fəallıqları artdıqca ailənin gəlirində onun da payının artması nəticəsində ailə büdcəsinə nəzarətdə də müəyyən dəyişikliklər yarandı. Doğrudur, yenə də büdcəyə nəzarəti evin böyüyü sayılan ata edir. Lakin, ata ailə üzvlərinin istəyinə uyğun hərəkət edir. Ailəyə aid olan bütün məsələlərdə evin xanımı ilə məsləhətləşir, ailənin bütün məxariclərində onun rəyi nəzərə alınır. Bu isə ailədə qadının rolunun və nüfuzunun artdığını sübut edən əsas göstəricilərdən biridir. Qadınlara münasibətin kökündən dəyişməsi və "ailə başçısı" statusunun tamamilə yeni məna və məzmun kəsb etməsi ailənin formalaşması və inkişafında mühüm amilə çevrilir [9, s. 83]. Muxtar respublikanın rayonlarında aparılan sorğular zamanı aydın oldu ki, əhalinin çox hissəsi ailə başçısının kişi olduğunu qeyd etdilər, lakin müəyyən hissəsi isə bəzi ailələrdə qadınların ailə başçısı olduğunu söylədilər. Araşdırma zamanı aydın oldu ki, hansı ailədə ki, qadın ailə başçısıdır, o ailə natamam ailələrdir, yəni ya ata dünyasını dəyişib və ya ailə boşanıb. Bunu da demək lazımdır ki, bu gün kişinin ailə başçısı olması əvvəlki dövrlərdən fərqli olaraq patriarxal münasibətlərin, iqtisadi amillərin göstərişi olmayıb, qarşılıqlı hörmət və milli amillərimizin qanunauyğun yekunu kimi ortaya çıxır.

Beləliklə, araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, muxtar respublikanın kənd qadınlarının ictimai fəallıqlarının artması ilk növbədə onların ailə büdcəsinin formalaşmasında iştirakını təmin edir. Bu isə onların maddi-rifah halını yaxşılaşdırmaqla, həyat səviyyəsini yüksəldir. Digər tərəfdən kənd təsərrüfatı məhsullarının istehsalı artır və ölkə əhalisi yerli ərzaq məhsulları ilə təchiz edilir. Aydındır ki, milli-mənəvi dəyərlərimiz ən çox ailədə mühafizə edildiyi üçün qadınlar onları həm yaşadır, həm də gələcək nəsillərə aşılayır. Qadınların ictimai fəallıqların artırılması həm də övladlarının tərbiyə edilməsində, onların daha çox vətənpərvər ruhda böyüdülməsinə rəvac verir. Nəhayət, Naxçıvan Muxtar Respublikasının qadınları həm də milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilir, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılması üçün dəyərli töhfələr verirlər.

ƏDƏBİYYAT

1. Azərbaycanın demoqrafik göstəriciləri: Statistik Məcmuə. Bakı, 2020, 529 s.

2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
3. Azərbaycan qəzeti. 2000, 7 mart, № 53.
4. Qədirzadə Q. Muxtariyyət dövründə Naxçıvanda kənd ailəsi. I kitab:1924-1984-cü illər, Naxçıvan: Əcəmi, 2014, 240 s.
5. Naxçıvan Muxtar Respublikası-95. Naxçıvan: Əcəmi, 2019, 184 s.
6. Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin verdiyi məlumat.
7. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi. Sosial-iqtisadi inkişaf. 2019, yanvar-may.
8. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il yanvar ayının birinə dair verdiyi yazılı məlumat.
9. Nailə H.C. Şamaxı: Tarixi-etnoqrafik tədqiqat. Bakı, 2013, 184 s.
10. "Şərq qapısı" qəz., 2007, 29 sentyabr.
11. "Şərq qapısı" qəz., 2018, 8 mart.
12. "Şərq qapısı" qəz., 2020, 7 mart.
13. "Şərq qapısı" qəz., 2016, 12 yanvar.
14. Azertac.az >xeber> Muxtar_r…
15. Azertac.az >xeber> Naxçıvanda_qadınlar
16. wwwe-qanun/az/framework/10861
17. https://naxcivanxeberleri.com/manset/38332-naxcivan-muxtar-respublikasinin-aile-qadin-ve-usaq-problemleri-uzre-dovelt-komitsinde-gorulen-islerle-bagli-kollegiya-iclasi-kecirilib.html
18. Azertag.az /xeber/ Naxchivan_Muxtar_Respublikasinda_aile_deyerlerinin_qorunur-1488821

AMEA Naxçıvan Bölməsi
E-mail: aytekin1962@mail.ru

Aytakin Gahramanova

THE IMPACT OF RURAL WOMEN'S PARTICIPATION IN SOCIAL ACTIVITIES ON THEIR FAMILY LIFE IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IN THE YEARS OF INDEPENDENCE

The increase in the activity of rural women in the Nakhchivan Autonomous Republic's socio-political life in various economic spheres has a particular impact on their family life. Moreover, this, first of all, ensures their participation in the formation of the family budget. As a result, their material well-being improves, the standard of living rises, the production of agricultural products increases, and the country's population is supplied with local food products.

The increase of women's social activities also contributes to their children's upbringing and their growing up in a patriotic spirit. Finally, the Nakhchivan Autonomous Republic women also become active participants in nation-state building and make valuable contributions to increasing the socio-economic and cultural potential of Azerbaijan.

Keywords: *Nakhchivan, social activity, rural women, family life, living standards, family budget.*

Айтекин Гахраманова

ВЛИЯНИЕ ОБЩЕСТВЕННОЙ АКТИВНОСТИ СЕЛЬСКИХ ЖЕНЩИН НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ НА СЕМЕЙНЫЙ БЫТ В ГОДЫ НЕЗАВИСИМОСТИ

Повышение активности сельских женщин Нахчыванской Автономной Республики в общественно-политической жизни, в отдельных сферах хозяйства оказывает определенное влияние на их семейный быт. Это в первую очередь обеспечивает их участие в формировании семейного бюджета. В результате улучшается их материальное благосостояние, повышается уровень жизни, увеличивается производство сельскохозяйственной продукции, и население страны обеспечивается местными продуктами питания.

Повышение социальной активности женщин также способствует воспитанию их детей в более патриотическом духе. Наконец, женщины Нахчыванской Автономной республики становятся активными участниками процесса национального государственного строительства, вносят ценный вклад в повышение социально-экономического и культурного потенциала нашей страны.

Ключевые слова: *Нахчыван, общественный активист, женщина, семейный быт, уровень жизни, семейный бюджет.*

(Tarix üzrə elmlər doktoru Şirin Bünyadov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 05.01.2021
Son variant 02.02.2021

UOT 39

SƏBUHİ HƏSƏNOV

NEOLİT İNQİLABININ DƏFNETMƏ ADƏTLƏRİNƏ TƏSİRİ
(Naxçıvan materialları əsasında)

Bəşər tarixinin dönüş nöqtələrindən birini Neolit inqilabı təşkil edir. Neolit inqilabı özündən əvvəlki dövrlərin nailiyyətlərini özündə saxlasa da, bir sıra yeniliklər də gətirdi. Əkinçiliklə birlikdə insanların oturaq həyata keçməsi, saxsı qabların istehsalı, heyvanların əhliləşməsi Neolit inqilabının nailiyyətlərindəndir. Neolit təsərrüfatındakı bu yeniliklər tezliklə onların mənəvi dünyasına da nüfuz etdi və insanların inanc sistemində köklü dəyişikliklər oldu. Ölən insanların dəfn edilməsi, əcdadların yaşayış evlərinin altında və ya aralarında basdırılmaları bu dövrə təsadüf etməkdədir.

Naxçıvanda I Kültəpə yaşayış yerində tədqiq olunan qədim torpaq qəbirlər Neolit inqilabında ulu əcdad kultunun yaranmasını təsdiq edir. Bu qəbirlərdə mərhum yarı bükülü, sağ və ya sol çiyni üstə müxtəlif istiqamətlərə doğru yönəlmiş şəkildə dəfn edilmişdir. Mərhumun yanına qoyulan əşyalar o dövrdəki insanların mənəvi dünyası və məşğuliyyəti haqqında məlumat verir və Neolit inqilabının dəfn adətinə təsir etdiyini göstərir.

Açar sözlər: *Neolit inqilabı, Naxçıvan, inanc, qəbir, dəfn adəti, I Kültəpə.*

Neolit inqilabı bəşər tarixinin dönüş nöqtələrindən biridir. Neolit inqilabı zamanı insanlar Paleolit və Mezolit dövründən əldə edilən nailiyyətlərdən yararlanaraq onu inkişaf etdirmişlər. Neolit inqilabının ən əsas xüsusiyyətlərindən biri əkinçiliyin və maldarlığın formalaşması idi. Bu prosesin dünyada kiçik bir coğrafiyanı – Yaxın Şərqin kiçik bir bölümünü əhatə etməsinə baxmayaraq, bəşəriyyət üçün mühüm əhəmiyyətə malik olmuşdur. Əkinçiliyin yaranması və inkişafı insan yaşayışını dəyişməklə birlikdə, eyni zamanda onun mənəvi dünyasında da inqilaba səbəb olmuşdu. Bu dövrdə ilkin kənd və qəsəbələrin yaranması ilə ibtidai mərkəzlər yaranırdı ki, bu da sonradan mərkəzlər arasında mədəni və siyasi mübarizəyə gətirib çıxartdı.

Əkinçiliyin inkişafı ilə oturaq həyata keçid başlamışdır. Bununla da daimi yaşayış yerləri yaranırdı ki, bu da özlüyündə bu ərazilərin maksimum istifadəsinə və onun qorunmasına gətirib çıxarırdı. Neolit inqilabının özəyini təşkil edən əkinçilik eyni zamanda bu təsərrüfat həyatına uyğun olaraq inanc sistemində də inqilabi dəyişiklik yaratdı. Bitkilərin becərilməsi əvvəlki bəzi dəyərləri alt-üst edərək yeni dəyərlər yaratdı və neolit insanın mənəvi dünyasını kökündən dəyişdi [4, s. 56].

Neolit inqilabı ilə artıq insanlar öz ölüləri haqqında daha çox fikirləşməyə və onları daha hörmətli şəkildə dəfn etməyə başladı. Ölülərin bu şəkildə ucaldılması insanlar arasında yaranmış əcdad kultuna olan inancda yeni dəyişikliklərə gətirib çıxartdı. Əcdadlar kultunun yaranmasının səbəbləri aşağıdakılardır:

1. Oturaq həyata keçən toplumlar üçün insan amili daha çox dəyər qazandı. Bununla birlikdə ailənin başçısı müqəddəsləşməyə başladı.
2. Əcdadlar kultunun varlığı qədim dövrlərdən fərqli olaraq, əkinçilik psixologiyasına uyğun olaraq yenidən dirilməni və ya o biri dünyaya getməyi təcəssüm etdirirdi.
3. Əcdadlar kultunun təsdiqi həm də onun sonrakı nəsillərin ailə mülkünə sahib olmaq hüquqlarını verirdi.

İnsanlar artıq öz əcdadlarına hörmət etməklə yanaşı, həm də sonrakı nəsillər qarşısında özlərini sığortalatmaq istəyirdilər. Əcdadlara bu şəkildə qiymət verilməsi, o dövrün cəmiyyətində artıq insanların dəyərləndirildiyini göstərir. Neolit inqilabının ən əsas dəyişikliklərdən

biri də demoqrafik inkişafa səbəb olması idi. İnsanların oturaq həyata keçmələri ilə əkinçiliyin insana verdiyi məhsul həm onların qida təhlükəsizliyinə, həm də gələcəyə ehtiyat qida yığmalarına imkan verdi. Bununla da insanlar arasında aclığın azalması və qida arxasınca ölümcül ovların zəifləməsi ilə ölüm hallarına az rast gəlinirdi. Bu da öz növbəsində ailələrin genişlənməsi və demoqrafik inkişafa səbəb olmuşdu. Neolit dövründə insanların sayı əvvəlki dövrlərdən xeyli çox idi. Demoqrafik inkişaf insanlar arasındakı ünsiyyəti də artırmışdı ki, bu da mədəni proseslərin sürətlənməsinə gətirib çıxartmışdır.

Neolit inqilabının gətirdiyi yeniliklər öz növbəsində inanc sistemindəki yeniliklərə də səbəb oldu. Neolit insanlarının məşğuliyyəti dəyişildikcə artıq, buna uyğun olaraq inanc sistemindəki yeniliklər qaçılmaz idi. Ümumiyyətlə, inanc məşğuliyyətə bağlıdır və onunla birlikdə deformasiyaya uğrayır. Buna görə də, əkinçiliyin insan yaşayışına təsiri eyni zamanda inanca da təsir edirdi. Bir zamanlar təbiətdən hazır qida əldə edən insanlar Neolit inqilabı sayəsində məhsulu istehsal edir, onu qoruyur, saxlayır, bişirir ehtiyat qalanları isə sonrakı ilə əkin üçün toxumluq saxlayırdılar. Deməli, bir zamanlar uğurlu yığıcılıq və ovçuluq üçün edilən dualar artıq, toxumun əkilməsi, göyərməsi, biçilməsi, yığılması, yemək hazırlanması və saxlanılması ilə uzun və mürəkkəb dualara çevrilir. Təbiətdən bolluq istəyən insanlar, indi isə onu ana torpaqdan umurdu. Paleolit insanları ovçuluğa müqəddəs bir fəaliyyət kimi baxırdılar. Daha sonra isə eyni məqama əkinçilik yüksəldi. Əkinçilər tarlalarda işləyərkən ya da əkinləri biçərkən tam bir ovsunlanmış hala girmələri lazım olurdu [1, s. 331]. Beləliklə, Neolit inqilabının yaranması ilə ümumi qida duası, öz yerini mərhələli dualara buraxır. Əlbəttə ki, bu da öz növbəsində müxtəlif ruhların [daha sonra tanrılar] yaranmasına səbəb oldu. Əkinçiliyin kəşfi ilə bəlkə də ən mühüm nəticəsi paleolit ovçularının mənəvi dünyalarında bir xaosa yol açdı. Heyvanlar aləmi ilə bağlı dini elementlərin yerini, insan ilə bitki arasındakı mistik münasibətlər aldı [3, s. 58].

Neolit inqilabı ilə mürəkkəbləşən və çoxşaxəli olan ayinlər eyni zamanda dəfnetmə adətlərinə də öz təsirini göstərməkdə idi. Neolit dövründən əvvəlki dəfnetmə adətləri üçün ölülərin təklikdə basdırılması xarakterik idi. Neolit inqilabından başlayaraq kollektiv dəfnlər meydana çıxır. Anadoluda, Çayönü höyüğündə ölü evlərinə də rast gəlinmişdir [9, s. 162]. Burada insanlar ilk öncə müəyyən zamanlarda çürüdülmüş ölülərinin baş və çənə sümüklərini bura gətirərək xüsusi ayinlərlə təyin olunmuş yerə qoyurdular. Neolit inqilabı ilə artıq onlar ölülərini öz yaşayış məskənlərində dəfn etməyə başladılar. İnsanların burada bükülü vəziyyətdə dəfn edilmələri onu göstərir ki, ölülərin dəfnində hər hansı bir gözləmə müddəti olmamışdır. Yaşayış yerindəki, insanların əkinçiliklə məşğul olması, icmanın oturaq həyata keçməsi ayinlər zamanı tez bir zamanda toplanmağa şərait yaradırdı. Buna görə də, ölünün sadə bir biçimdə bükülməsi və torpaq qəbirin qazılması bir gündən də az vaxt tələb edirdi. Buna görə də, Neolit inqilabı ilə torpaq qəbirlər tamamilə bərqərar olurdu. Torpaq qəbirlərin hazırlanması və ölünün dəfni ilə qəbir evin döşəməsinin altında qalırdı. Neolit inqilabındakı bu proses əcdadlar kultunun yaranmasını və ona olan inancın inkişafından xəbər verir. E.ə. 12-7 min əvvəl ovçu-toplayıcılar əkinçiliyə mərhələli şəkildə keçdilər. Yaşayanlarla ölülər arasındakı münasibətlər kökündən dəyişdi. Əkinçilər ölülərini yaşayış yerində basdırdılar. Bu vəziyyət, ölmüş əcdadları yaşayanlar üçün çox qiymətli hala gətirdi [9, s. 173].

Əcdadın sonrakı nəsli bu dairəvi, bəzənsə dördkünc möhrədən və ya çaydaşlarından tikilmiş evlərdə qalarkən öz əcdadlarının ruhları ilə daimi təmasda olurdular. Bu Neolit insanı üçün mənəvi güc idi. Ailənin başçısının döşəmələrdə dəfn edilməsi və onun ruhuna bağlılıq

daha sonra onunla başlayan nəslin nümayəndələrinin də yanlarında basdırılmasına gətirib çıxartdı. Ancaq, bu proses torpaq qəbirlərin birdən çox istifadəsi üçün yararsız olması səbəbindən digər ölülər evlərin arasında və ya evin yaxınlığında dəfn olunmağa başlandı. Əlbəttə ki, bu nəsli qəbiristanlığın genişlənməsinə mane olduğu üçün sonrakı dövrlərdə qəbirlər müəyyən edilmiş yerlərdə, evlərdən müəyyən uzaqlıda hazırlanmağa başlandı.

Neolit dövrü üçün səciyyəvi olan torpaq qəbirlər onların məişəti ilə tamamilə bağlı olaraq yaranmışdır. Əkinçi psixologiyası ilə toxumun torpağa səpilməsi və onun cücərməsi, ölünün də torpağa basdırılması və onun yenidən dirilməsi inancından xəbər verir. Qəbirlərin sadə hazırlanması, başının altına daş və ya torpaq qoyulması Neolit insanı üçün yenidən oyanmaq inancının qalmasını göstərir. Ölülərin bu cür dəfn edilməsi simpatetik sehrdən yəni, yatmağı təqlid etməkdən xəbər verir. Arzulanan hadisənin olması üçün onun təqlid edilməsi, insanları yatmış şəkildə dəfn edərək onların oyanacaqlarına inanırdılar [5, s. 10]. Neolit insanının o biri dünya haqqındakı inancı tam olaraq formalaşmamışdır. Onlar ruhların var olduğuna inansalar da, başqa bir dünya haqqındakı düşüncələri sadəcə ruhlar aləmindən ibarət idi. Karl W.Luckert ölülərin yanına alətlərin qoyulmasının sadəcə o biri dünyada istifadəsi ilə əlaqələndirən arxeoloqları ateizmin təsirində qalmış gərəksiz dərəcədə minimalist düşüncələrini tənqid etmişdir [7, s. 74].

Neolit inqilabından sonrakı dövrlərdə torpaq qəbirlərin daşqutu qəbirlər ilə əvəz olunması, ölünün yanına qoyulan əşyaların xüsusiyyətləri artıq, ölülərin başqa bir dünyaya getmək inancının olduğunu göstərir. Ümumiyyətlə, başqa bir dünya inancının bərqərar olunması əsasən tanrıların varlığı ilə paralel olaraq yaranan və inkişaf edən bir inancdır.

Naxçıvan ərazisi Neolit dövründən başlayaraq, mədəni inkişafın daha çox izlənildiyi ərazilərdən biri olmuşdur. Buna bir neçə amil səbəb olmuşdur:

1. Naxçıvan ərazisinin Əkinçi Ayparaya yaxın olması və onunla daimi mədəni və iqtisadi əlaqələr.
2. Ərazinin əkinçilik üçün faydalı olması, eyni zamanda ovçuluğun və maldarlığın intensiv şəkildə birlikdə əhalinin əsas məşğuliyyəti olması.
3. Tayfalararası miqrasiya proseslərinin əsas yerlərindən biri olması, Naxçıvanda demoqrafik şəkildə əhalinin sayının artması.

Naxçıvan ərazisində Gilançay, Naxçıvançay, Arpaçay və başqa çay hövzələri ilkin əkinçilik mərkəzlərinə çevrilməyə başladılar. Çayların bu şəkildə qısa, bolsulu və bir-birinə paralel olması burada yaşayan əkinçi tayfaların bir-birinə hücum istəklərinin zəifləməsinə səbəb olurdu. Amma digər tərəfdən əhalinin artması bu tayfaların konfederasiya şəklində birləşmələrinə və ya məcburən tabe edilmələrinə səbəb oldu. Naxçıvan ərazisində Neolit dövründə çox böyük ehtimalla Göyçə-Naxçıvan-Urmiya əlaqələri daha da genişlənirdi. Bu da öz növbəsində Naxçıvan ərazisindəki mədəni proseslərin daha intensiv inkişafına səbəb olurdu.

O.Həbibullayev I Kültəpədə apardığı tədqiqatlar zamanı aşkar olunan qəbirləri Son Neolit dövrünə aid etmişdir. I təbəqədən aşkar olunan qəbirlərin tədqiqi zamanı o dövrün dəfnetmə adətləri haqqında bəzi fikirlər söyləmək olar. Belə ki, 2, 3, 5 saylı qəbirlərdə ölünün başı və ya çənəsi altında qırmızı saxsı qırıqları qoyulmuşdur. Saxsıların bütöv halda qoyulmamasını aşağıdakı kimi əsaslandıra bilərik:

1. Qırmızı saxsı qırıqlarının qoyulması dəfnetmə zamanı hər hansı bir ayindən xəbər verir.
2. Qabların bütöv şəkildə qoyulmaması ölünün yatmış olma inancının hakim olduğunu göstərir.

Ümumiyyətlə, cəsədlər dəfn edilərkən kəllə hissə sallanmasın deyə, onun altına torpaq, daş, saxsı qab və başqa əşyalar qoyulurdu. Bu, yatan kimsənin başı ağrımasın deyə yastığın funksiyasını xatırladır. Belə, olduqda ölünün yatması inancının var olduğunu göstərir. Əgər saxsı qab qırıq deyil, bütöv şəkildə qoyulardısa, bu o biri dünyada istifadə ediləcəyi inancını göstərir. Saxsı qırıqlarının və cəsədin üstünə atılan oxranın rənglərinin qırmızı olması dəfnetmə adətlərində ölümün yeni bir başlanğıc olduğunu göstərir. Ən qədim dövrlərdən bu yana ölüm sonrası həyata inanc, qırmızı torpaq boya istifadə edilməsinin isbatı kimidir. Bu boya ayin mənasında qanı ifadə edər, yəni həyatın simvoludur [3, s. 23]. Eyni təbəqədə 4 saylı qəbirdə isə kəllə dən daşının üstünə qoyulmuşdur. Dirsəklərin altında oval şəklində dən daşı, çanaq hissə isə daş həvəng vardır [6, s. 115]. Bu qəbirdə digər qəbirlərdən fərqli olaraq əmək alətlərinin qoyulması, o biri dünya haqqında inancının formalaşmasından xəbər verir. Türkiyədə Çayönü yaşayış yerində tədqiqatlar aparmış arxeoloq Metin Özbekə görə bəzi qəbirlərə dən daşı qoyulması, ölənin əsas məşğuliyyətindən xəbər verir [8, s. 17-18].

Naxçıvan ərazisində əsasən də I Kültəpədə aparılan arxeoloji qazıntılar nəticəsində Neolit dövrünə aid qəbirlər tədqiq olunmuşdur. Ancaq tədqiqatı aparan Həbibullayev bu qəbirləri əvvəl Neolit dövrünə aid etsə də, daha sonra fikrindən daşınmış onu Eneolit dövrünə aid etmişdir. Vəli Baxşəliyevin rəhbərlik etdiyi beynəlxalq qazıntılardan (2013-2016-cı illərdə) sonra burada tədqiq edilən torpaq qəbirlər Neolit dövrünə aid edilmişdir. Qeyd edək ki, torpaq qəbirlərin tədqiqi Neolit inqilabının inanc sisteminə təsiri haqqında bizə bəzi məlumatlar verməkdədir.

İlk öncə burada tədqiq edilən torpaq qəbirlər çox sadə tərzdə hazırlanmışdır. Bəzilərinin yanında, ümumiyyətlə, heç bir əşya qoyulmamışdır. Qəbirlərin əksəriyyətində tək skeletlər tədqiq edilmişdir. Qəbirlər qonşu bölgələrdə olan Neolit dövrü qəbirləri kimi evlərin döşəmələrində dəfn edilmişdir.

Burada 2015-ci ildə G sahəsində I qəbirdə (G069) üç skelet aşkar olunmuşdur. Onlar yaşlı, orta və yeniyetməyə aid olmuşdur. Yaşlı adam ilk dəfə dəfn olunmuşdur. Digər iki nəfər dəfn edilərkən yaşlı adama məxsus skelet qismən dağıdılmışdır [2, s. 57]. Qeyd edək ki, bu maraqlı qəbir Naxçıvan ərazisində qədim dəfnetmə adətləri haqqında bəzi məlumatlar verməkdədir. Birincisi ilk olaraq qoca adamın dəfn edilməsi burada əcdadlar kultunun bərqərar olmasından xəbər verir. İlk öncə ailənin başçısı bilinməyən səbəbdən ölmüşdür. Daha sonra böyük ehtimalla onun ailəsindən (oğlu və nəvəsi ola bilər) digər iki nəfər də dəfn edilmişdir. Digər dəfn edilənlər əcdadlarının ruhuna sadiqlik əlaməti olaraq onun yanında dəfn edilmişdirlər. Onların hansı səbəbdən öldüklərini bilməsək də, onu deyə bilərik ki, bu dəfnetmələr ardıcıl olmuşdur və aralarında bir neçə il fasilə vardır. Çünki digər cəsədlər dəfn edilərkən birinci artıq çürümüşdü ki, dəfn zamanı onun sümükləri dağıdılmışdır. Bu dəfnetmə daha sonra torpaq qəbirdən daş qutu qəbirə keçmə inancının ilkin rüşeymləri idi. Çünki torpaq qəbirlər kollektiv qəbirlər üçün yararsız idi. Bu da kollektiv (daha doğrusu nəsli) dəfnetmələr üçün daşqutu qəbirlərin ortaya çıxmasına səbəb olmuşdur.

I Kültəpədə tədqiq olunan digər bir qəbirdə isə (E214) bir skelet aşkar olunmuşdur. Onun kəlləsi qərb, ayaqları isə şərq istiqamətində idi. Bükülü halda əlləri üzünə qaldırmış halda dəfn edilmişdir. Skeletin boğaz hissəsində muncuqdan ibarət boyunbağı, kəllənin altında oxra vardır. Skeletin sümükləri qırmızı rəngdə idi. Ehtimal ki, üzərinə oxra səpilmişdir. Onun yaxınlığında sümükdən hazırlanmış 2 əmək aləti aşkar olunmuşdur [2, s. 62-63].

Göründüyü kimi Neolit inqilabı ilə birlikdə insan həyatında əhəmiyyətli dəyişikliklər olmuşdur. Əhalinin oturaq həyata keçməsi ilə gündəlik məşğuliyyətləri dəyişilmiş və buna

uyğun olaraq dünyagörüşlərindəki yüksəliş eyni zamanda inanca da təsir etmişdir. İnanc isə öz növbəsində dəfnetmə adətlərini kökündən dəyişdirmişdir. Neolit inqilabından başlayaraq dəfnetmə daha geniş vüsət almışdır.

ƏDƏBİYYAT

1. Armstrong K. Mitlerin kısa tarihi / Tərcümə edən Dilek Şendil. İstanbul: Şefik matbaa, 2005, 107 s.
2. Baxşəliyev V., Marro C., Berthon R., Quliyeva Z., Sarıertem S. Kültəpə arxeoloji araşdırmalar (2013-2016). Bakı: Nurlan, 2017, 164.
3. Eliade M. Dinler tarihi. İnanc ve ibadetlerin morfolojisi / Tərcümə edən Mustafa Ünal. Konya: Damla Ofset, 2005, 600 s.
4. Eliade M. Dinsel inanclar düşünceler tarihi. Taş devrinde electsis mysterialarına. I c. / Tərcümə edən Ali Berktay, İstanbul, 2003.
5. Frazer G.G. Altın dal. Din ve folklorun kökenleri / Tərcümə edən Mehmet H.Doğan. İstanbul: Payel, 2004, 412 s.
6. Frazer G.G. İnsan, tanrı və ölümsüzlük / Tərcümə edən Onur Aydın, İrem Demirel. İstanbul: Altın bilek yayınları, 2015, 571 s.
7. Həbibullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Mətbuat,1959, 155 s.
8. Luckert K.W. Göbeklitepe / Tərcümə edən Faruk Bayrak. İstanbul: Alfa yayınları, 2013, 421 s.
9. Özbek M. Çayönünde insan. İstanbul: Arkeoli ve sanat yayınları, 2003, 53 s.
10. Torrey E.F. Beynin evrimi ve tanrıların ortaya çıkışı. İlk insanlar ve dinlerin kökeni / Tərcümə edən Erkan Aktaş. İstanbul: Cağaloğlu, 2018, 325 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: hsebuhi.13@gmail.com

Sabuhi Hasanov

THE EFFECT OF THE NEOLITH REVOLUTION ON FUNERAL CUSTOMS (Based on Nakhchivan materials)

One of the turning points in human history is the Neolithic Revolution. Although the Neolithic Revolution embodied the achievements of its predecessors, it also brought many innovations. One of the Neolithic revolution's achievements was the sedentary life of people along with agriculture, the production of pottery, and the domestication of animals. These innovations in the Neolithic economy soon penetrated their spiritual world and radically changed the people's belief system. The burial of dead believers and their ancestors' burial under or among their dwellings coincide with this period.

Ancient earthen graves excavated in the I Kultepe settlement in Nakhchivan confirm a great ancestral cult in the Neolithic revolution. In these graves, the deceased was buried half-bent, on his right or left shoulder, facing different directions. The items placed next to the deceased give information about the spiritual world and occupation of the people of that time and show that the Neolithic revolution influenced burial customs.

Keywords: *Neolithic revolution, Nakhchivan, faith, grave, burial custom, I Kultepe.*

Сабухи Гасанов

ВЛИЯНИЕ НЕОЛИТИЧЕСКОЙ РЕВОЛЮЦИИ НА ПОХОРОННЫЕ ОБРЯДЫ (на основе материалов Нахчывана)

Одним из поворотных моментов в истории человечества является неолитическая революция. Неолитическая революция, сохранив достижения предыдущих периодов, принесла также некоторые инновации. Достижениями неолитической революции являются переход людей к оседлому образу жизни, сельскому хозяйству, производство керамики и приручение животных. Эти новации в неолитической экономике вскоре проникли в духовный мир и радикально изменили систему верований людей. В этот период встречаются погребения умерших и захоронение предков под домами или между ними.

Древние земляные могилы, раскопанные в поселении Кюльтепе I в Нахчыване, подтверждают формирование великого культа предков в эпоху неолитической революции. В этих могилах покойного хоронили в полусогнутом положении, на правом или левом плече, тела располагали в различных направлениях. Предметы, помещенные рядом с усопшим, дают информацию о духовном мире и занятиях людей того времени, что показывает влияние неолитической революции на погребальные обычаи.

Ключевые слова: *Неолитическая революция, Нахчыван, вера, могила, погребальный обычай, Кюльтепе I.*

(Tarix üzrə elmlər doktoru Şirin Bünyadov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 21.01.2021
Son variant 03.03.2021

AZƏRBAYCAN DİLİ

UOT 81`1-027.21

ƏBÜLFƏZ QULİYEV

HİNDUŞAH NAXÇIVANİNİN "SİHAH ÜL-ƏCƏM" ƏSƏRİNİN LEKSİKASININ DİALEKT VƏ ŞİVƏLƏRİMİZDƏ İZLƏRİ

Naxçıvan dialekt və şivələri zəngin lüğət tərkibinə malik olub, dilimizin qədim mənzərəsini özündə yaşadır. Burada bu gün ədəbi dilimiz üçün işlək olmayan elə qədim dil vahidlərinə rast gəlirik ki, onlar dil tariximizə işıq tutur, müasir dilçilik nöqteyi-nəzərindən izah oluna bilməyən bir sıra hadisələri aydınlaşdırmağa kömək edir. Dialekt və şivələrimiz dilimizin qədim dövrlərinə aid sözlərin günümüzə qədər gəlib çatmasında bir vasitə və bu cür dil vahidlərinin mühafizə edildiyi qiymətli bir xəzinədir. Bu baxımdan şivələrin lüğət tərkibində bir çox qədim lüğətlərlə və digər mənbələrlə paralelliklər özünü göstərir. Belə əsərlərdən biri də Hinduşah Naxçıvaninin "Sihah ül-Əcəm" adlı farsca-türkcə lüğətidir. Naxçıvan torpağının yetirdiyi görkəmli şəxsiyyətlərdən biri olan Hinduşah ibn Səncər ən-Naxçıvaninin qələmə aldığı bu dəyərli əsər XIII-XIV əsrlərdə türk dillərinin, o cümlədən Azərbaycan türkcəsinin lüğət tərkibini əks etdirmək baxımından olduqca qiymətlidir. Burada həmin dövrdən günümüzə işləklikdən qalan və ədəbi dilimizdə bu gün işlənməyən bir çox sözlərə rast gəlirik ki, bu sözlər dialekt və şivələrimizdə də işlənməkdədir. Bu leksik vahidlərin seçilməsi, onların müqayisəli təhlili şivələrimizin qədim tarixindən xəbər verir və ədəbi dilimizin inkişafı, zənginləşməsi işində çox əhəmiyyətlidir.

Məqalədə "Sihah ül-Əcəm"də dialekt və şivələrlə məna və şəkilcə olan paralellikləri araşdırmağı qarşımıza məqsəd qoymuşuq.

Açar sözlər: *Azərbaycan dili, dialekt və şivə, dil tarixi, lüğət.*

Naxçıvan torpağının yetirdiyi görkəmli şəxsiyyətlərdən biri də Hinduşah ibn Səncər ən-Naxçıvanidir. Hinduşah, Səncər ibn Abdulla sülaləsinin üçüncü övladıdır. Onun öz övladları, bir nəvə və bir nəticəsi Elxanilər dövlətinin (1256-1353) sarayında dövlət qulluğunda xidmət göstərmişlər. Böyük mütəfəkkir Hinduşah Naxçıvani eyni zamanda elmlə də məşğul olmuşdur.

Hinduşah Naxçıvaninin ölüm tarixi haqqında müxtəlif mülahizələr mövcuddur: onun 1327-ci ildə, 1330-cu ildə, hətta 1335-ci ildə vəfat etməsi haqqında fikirlərə təsadüf edilir. Oğlu Məhəmməd Naxçıvaninin 1328-ci ildə yazdığı "Sihah əl-fors" əsərində atasından "öz atam mərhum Fəxrəddin Hinduşah" (Sihah əl-fors, dibaçə, 11) deyə bəhs etməsindən məlum olur ki, Hinduşah Naxçıvani 1328-ci ildən əvvəl ölmüşdür.

Yuxarıda qeyd etdiyimiz kimi, Hinduşah Naxçıvani müxtəlif əsərlər vücuda gətirmiş, riyaziyyat və nücum elmləri ilə, fəlsəfə və ədəbiyyatla məşğul olmuşdur. O, müasiri Sədi Şirazi kimi fars dilində gözəl nəzm və nəsr nümunələri yaratmışdır. Onun fars və ərəb dillərində yazdığı şeirlərdən parçalar, fraqmentlər oğlu Məhəmməd Naxçıvaninin "Dəstur əl-katib fi təyin əl-məratib" adlı əsərində günümüzə qədər gəlib çıxmışdır [13, s. 342]. Eyni zamanda oğlunun "Sihah əl-fors" lüğətində də ata Hinduşahın farsca şeirlərindən təxminən 50 beyt yer almaqdadır [14, s. 45-49; 10]. Dövrün görkəmli elm və dövlət xadimi kimi tanınmış Hinduşah Naxçıvani Fəxrəddin (dinin fəxri) tituluna layiq görülmüşdür.

Hinduşah Naxçıvaninin zəngin elmi irsindən bizə "Təcarüb əs-sələf" və "Əs-Sihahül-Əcəm" adlı əsərləri və 1307-ci ildə Təbrizdə ərəbcə olaraq yazıb bitirdiyi "Məvaridül-ərab" adlı antologiyası bəllidir.

Hinduşah Naxçıvaninin 1270-ci illərdə yazdığı ehtimal edilən "Əs-Sihahül-Əcəm" əsəri uzun müddət nəşr olunmamış və müxtəlif mübahisələrə səbəb olmuşdur. Əsər dilimizin ən qədim lüğət və qrammatikalarından biri hesab olunur. Burada Azərbaycan sahəsi xüsusiyyətləri üstünlük təşkil etdiyinə görə türk alimləri də bunu etiraf etmək məcburiyyətində qalmış, onun oğuz dili abidəsi olduğunu qeyd etmişlər [15, s. 243]. Fars dilini öyrənmək istəyənlərə kömək məqsədilə yazılmış əsər Azərbaycan, Yaxın Şərq, Türkiyə, Şimali Afrika, Volqaboyu və Balkanlarda dərs vəsaiti kimi geniş yayılmış və uzun müddət istifadə edilmişdir. Təsadüfi deyildir ki, bu əsərin Türkiyənin Samsun vilayəti Vəzirkörpü rayon kitabxanasında saxlanan əlyazmasının köçürülmə tarixi 1906-cı ilə (h. 1324) aiddir. Bu lüğətin fars dilini öyrənənlərə kömək məqsədilə yazıldığını müqəddimədə müəllif özü də açıq şəkildə vurğulayır: "Yaxşı alimlərin yazdığı farsca kitablardan ən önəmlilərini gördüm. Bu kitabları çox istəyənlər farsca bilmirlər. Bu səbəbdən bu kitabı tələbənin asan oxuması üçün tənzim etdim".

Bu lüğət kitabının ayrı-ayrı adlar altında 100-dən artıq əlyazma nüsxəsi aşkara çıxarılmışdır. Bununla bərabər, əsərin əlyazma mətnlərində müəyyən dəyişikliklərin aparılması da diqqəti çəkir. Belə ki, əsərin XVI əsrdən sonra köçürülmüş əlyazmalarının bir çoxunda müəllif Osmanlı müdərris və mütəsəvvüflərindən Birgivi Muhəmməd bin Pir Əli (ö. 1573), az bir qismində isə müəllifin oğlu Məhəmməd Naxçıvani qeyd olunmuşdur.

Əsərdə işlənən sözlərin müasir Azərbaycan dilinin leksikası ilə müqayisəsi maraqlı məqamların ortaya çıxmasına səbəb olur. Belə ki, burada müasir dilimizlə olduqca çox paralelliklər özünü göstərir. Bəzi leksik vahidlər isə ədəbi dilimizdə bu gün işlənməsə də, dialekt və şivələrimizdə eynilə lüğətdə olduğu şəkildə qorunub saxlanmışdır. Lüğətdə qeyd olunan, dialekt və şivələrimizdə eynilə və ya bəzi fonetik fərqlərlə rast gəldiyimiz leksik vahidləri müxtəlif sahələrə aid başlıqlar altında toplaya bilərik:

Bitki adları: yılğın-ulğun, anduz-andız, ardıc-ardıc, bağayarpağı-bağayarpağı, tevetabanı-dəvədabanı, ebemgümeci-əməköməci, raziyane-razyana, tarhun-tərxun, kasni-kasnı-"yabanı dərman bitkisi", çiriş-çiriş, yavşan-yafşan//yavşan, butrak-pıtrax, kəngər, qoza-pambıq qozası, kəndalaş, meviz-quru üzüm (mövüz), keven-gəvən

Kəngər – Naxçıvan bölgəsində bitir. Qabığını soyub yeyirlər. Ehtimal ki, kanqal/qanqal sözü də bu leksik vahiddən törəmişdir. Bu bitkiyə yerli şivədə buğa tikanı, dəvə tikanı da deyilir.

Ulğun/yulğun – ağac, kol növüdür. Naxçıvan dialekt və şivələrində də eyni mənada işlənir. M.Kaşğari də bu ağacın adını eynilə "Sihah ül-Əcəm"də olduğu kimi yulğun [8, s. 680] şəklində qeyd etmişdir. Aşıq ədəbiyyatımızda da bu sözə rast gəlirik:

Ulğun coşa gəlsə köpük yağ olmaz,
Söyüd bar gətirsə bağça bar olmaz.
Zibil təpə olsa küllük dağ olmaz,
Yel əsəndə alçaqlara endirər.

Bağayarpağı. Naxçıvan ərazisində geniş yayılmış yabanı şəkildə daha çox su hövzələrinin kənarında və nəmişlik yerlərdə bitən bitkidir. Ondan xalq təbabətində iltihablı yaraların müalicəsində geniş istifadə olunur. İki sadə sözün birləşməsindən yaranmış bu mürəkkəb dil vahidi əsərdə də eynilə şivələrdə işlənən variantında qeydə alınmışdır.

Ebəmgümeci. Azərbaycan dilinin bir çox dialekt və şivələrində daha çox əmənköməci//əmənköməci//əmənkömərçi variantında qarşımıza çıxan bu bitkidən həm yemək hazırlanır, həm də dərman bitkisi kimi istifadə olunur. "Sihah ül-Əcəm"də bu bitki adı ebem gümeci [1, s. 195] şəklində qeydə alınmışdır. Mövsümündə qovurularaq hazırlanan, asan başa gələn və az xərc tələb edən əməköməci yeməyi ilə yanaşı, həm də bəzək bitkisi kimi istifadə

edilir. Bu bitkinin Osmanlı sarayında qadınlar tərəfindən kosmetik vasitə kimi saçlara və üz dərisinə istifadə olunduğu da məlumdur.

Dilimizin digər dialekt və şivələrində də bu bitkinin adına müxtəlif fonetik variantlarda rast gəlirik. Şirvan şivələrində bu söz əməkmaçı, Cəbrayıl şivələrində əmənci-köməmci [2, s. 171], Qərbi Azərbaycan şivələrində əmənköməmci [3, s. 148] kimi işlənir.

Heyvan adları: kuru – "eşşək balası". Naxçıvan dialekt və şivələrində bu söz daha çox kurix' variantında "at balası" mənasında işlənir. Kulan – "çöl eşşəyi".

Kecele – sağsan mənasında. Naxçıvan dialekt və şivələrində də qəcələ şəklində, eyni mənada işlənməkdədir.

Keven – əsərdə "yer tikanı" şəklində şərh edilir. Naxçıvan dialekt və şivələrində gəvən şəklində işlənməkdədir.

Yemək adları: bezlemec-bozdamac əsərdə "sac üzərində bişirilən çörək" şəklində izah edilir. Bu sözə klassik ədəbiyyatımızın dilində, dialekt və şivələrimizdə təsadüf edilir.

Zaman bildirən sözlər: ısrağı gün – Naxçıvan dialekt və şivələrində də bu söz "srağagün və isragün və israeyin" şəkillərində dünəndən əvvəlki gün mənasında işlənir.

Bildir – "keçən il". Dialekt və şivələrimizdə eyni şəkildə və eyni mənada işlənməkdədir.

Xəstəlik: ala-ala, demregü-dəmrov, uçuk tutmak-uçuxlamax.

Digər bir çox sahələrə aid də sözlər arasında paralelliklər özünü göstərir: ağüz-ağuz, alacuq-alaçıx, arı-arı, arıs-əriş, arğac-arğac, aylak-ayqax – "boş danışan, təlxək", başa kakmak-başına qaxmaq, biti-pitik, cemşir-şimşir, çərçi-çərçi, dibək-dibək, dörpi-törpü, dölbend-tülbənd, həvəng-həvəx'dəsdə, kahel-kahıl//kahal – "tərs, anlamaz", küci-gücü – "xalça və palaz toxumaq üçün hazırlanan davamlı ip", bağır-bağır, bıçkı-buşqu/puşqu, öykenöfgə, çırakba-çıraxba, turşaşirin-meyxoş mənasında. Naxçıvan dialekt və şivələrində də eyni şəkildə işlənir. Kuful-qıfıl, çapuk Naxçıvan dialekt və şivələrində çəpiy şəklində işlənir. Türk ədəbi dilində çabuk şəklində çıxış edir.

Ağuz. Azərbaycan dilinin dialekt və şivələrində geniş şəkildə işlənən bu leksik vahid "mal-heyvanın doğumdan sonra ilk südü" mənasındadır. H.Naxçıvaninin "Sihah ül-Əcəm" əsərində də eyni mənada [1, s. 166] göstərilir. Türk dillərinə aid çox qədim dil vahidlərindən olan bu söz bir çox hallarda ədəbi dilimizdə də işlənir. Heyvandarlıq Azərbaycan xalqının qədim məşğuliyyət sahələrindən biri olduğu üçün xalqın dilində bu sahə ilə bağlı çoxlu sayda sözlər yaranmışıdır ki, bunların da bir çoxu ayrı-ayrı bölgələrə aid olub dialekt səciyyəsi daşıyan və aid olduğu regionun şivələrini xarakterizə edən dil xüsusiyyətləri hesab oluna bilər. İnsanlar bu sahə ilə insan cəmiyyəti yarandığı bir gündən məşğul olduqları üçün bu sahəyə aid sözlər də elə o dövrlərdən yaranmış, dildə sabitləşmiş və geniş işlənmə tezliyinə malik olmuşdur. Ona görə də dialekt və şivələrimizdə işlənən belə sözlərin böyük əksəriyyəti ümumtürk leksik qatına daxil olan sözlərdir. Onların bir qismi ədəbi dil səviyyəsində də işlənir. Bəziləri isə arxaikləşərək dildən çıxmış, yalnız şivələrdə yaşamaqdadır. Xalqın dilində yaranan sahə terminologiyası həmin xalqın milli xüsusiyyətlərini öyrənmək baxımından da çox əhəmiyyətlidir, eyni zamanda ədəbi dilin zənginləşməsində də zəngin bir mənbədir. Ağuz sözünün qədim lüğətlərdə işlənməsi də onu göstərir ki, bu leksem qədim tarixə malik olan dil vahididir. Azərbaycan dilinin əksər dialekt və şivələrində bu sözə eyni mənada rast gəlirik. "Bir ehtimala görə, ağuz sözü monqol sözüdür və mənası "sarı" deməkdir. Yumurta sarısına da ağuz deyiblər. "Saralmaq" mənasında dilimizin Qubadlı şivələrində ağuz olmaq tərkibi feli də var" [5, s. 13].

Türk dillərinin bir çoxunda bu sözə uğuz şəklində türkmən dilində, ovuz şəklində noqay

dilində, uvız şəklində qazax dilində, uız şəklində qırğız dilində [6, s. 55] eyni mənada həm ədəbi dil, həm də dialekt və şivələr səviyyəsində rast gəlirik.

Bağır. Haqqında danışdığımız əsərdə "köks" anlamında göstərilən bu leksik vahid Naxçıvan dialekt və şivələrində "sinə, qəlb, ürək", bəzi hallarda "qaraciyər" mənalarında geniş şəkildə işlənməkdədir. Eyni zamanda bağrı çatdamax, bağrına basmax, bağrı yarılmax, bağrı qana çömməx', bağrını teylətməx' frazeoloji birləşmələrinin tərkib hissəsi kimi də özünü göstərir. Bəzən ədəbi dil səviyyəsində də bu sözün işləndiyini müşahidə edirik. Bədii ədəbiyyat nümunələrində də tez-tez müraciət olunan bu leksik vahid dilimizdə çox qədim dövrlərdən bəri işlənmişdir. Belə ki, M.Kaşğari "Divani lüğat-it-türk" əsərində bu sözü eyni fonetik variantda "qaraciyər" mənasında qeydə alaraq göstərir ki, heç kimə boyun əyməyən adama bedük bağırlığ deyilir ki, bu da "ciyəri, bağrı böyük" deməkdir [6, s. 366]. Bağrına basmaq, yəni birini möhkəm-möhkəm qucaqlamaq, sinəsinə sıxmaq və digər birləşmələrdə ifadə etdiyi mənaya əsasən demək mümkündür ki, bu dil vahidi tarixən bağlamaq felindən yaranmışdır. B.Əhmədova görə, bu söz monqol sözüdür və mənası "yumşaq" deməkdir [4, s. 35].

Azərbaycan dilinin digər dialekt və şivələrində də bu leksik vahid geniş işlənmə arealına malikdir. Dilimizin Gəncə, Kürdəmir, Qazax, Şəki, Şəmkir, Şuşa dialekt və şivələrində bağır "qaraciyər", Ağdam, Cəlilabad, Füzuli, Quba, Şəki dialekt və şivələrində isə "ürək, qəlb" [2, s. 28] mənalarında qeydə alınmışdır.

Xalqımızın qədim mənəvi sərvəti olan "Kitabi-Dədə Qorqud" dastanında da bu söz "ciyər, köks" mənalarında işlənmişdir:

Bərə çoban, irağından-yaqınından bərü gəlgil!
Baş endirüb bağır basğıl!
Biz kafirə salam vergil! [9, s. 39]

Haqqında danışdığımız leksik vahid eyni semantik yüklə dialekt və şivələrimizdə bir sıra mürəkkəb sözlərin tərkib hissəsi kimi də özünü göstərir. Qərbi Azərbaycan şivələrində bağrıbadaş – "canbir, dilbir dost, sirdaş" [3, s. 56], Ağdam, Ağcabədi, Gəncə, İmişli dialekt və şivələrində bağırbeyin "qaraciyər, quyruq və beyindən hazırlanan yemək" [2, s. 28] mənalarında işlənir. Naxçıvan dialekt və şivələrində isə bənzər mənanı bağıröfgə vahidi ifadə edir ki, bu yemək heyvanın bağırsağını, ciyərini birlikdə bişirməklə hazırlanır. Bu mürəkkəb sözün ikinci tərkib hissəsi olan öfgə sözü də "Sihah ül-Əcəm"lə Naxçıvan dialekt, şivələri üçün ortaq vahidlərdəndir. Bu söz Naxçıvanın, demək olar ki, bütün rayonlarının şivələrində "ağ ciyər" mənasında işlənməkdədir. Dilimizin digər dialekt və şivələrinin də bir çoxunda bu leksik vahidə eyni mənada rast gəlirik. "Sihah ül-Əcəm" əsərində bu söz öyken variantında qarşımıza çıxır. Məlumdur ki, sözlər dialekt və şivələrdə müəyyən fonetik dəyişikliklərə uğrayır, onlarda müəyyən səs artımı və səs düşümü hadisələri baş verir. Öfgə sözündə də səs düşümü və səs əvəzlənmələri nəticəsində müəyyən dəyişiklik özünü göstərir. B.Əhmədov yazır ki, türkoloqlardan Vamberiyə görə öfkə və öd kökdaş sözlərdir. Öd həm də həyəcan mənbəyidir. Belə halda -kə şəkilçisinin öd sözünə necə artırılması və sözə verdiyi yeni məna açılmamış qalır. Güman ki, bu söz ögkələ kəlməsi ilə qohumdur [4, s. 202]. Bu söz şivələrdə həm də qorxudan öfgəsi dağılmax, öfgəsi çatdamax, öfgəsi yarılmaq kimi frazeoloji birləşmələrin tərəflərindən biri kimi işlənir. Bir çox türk dillərində də bu vahidə "ağciyər" mənasında rast gəlirik. Türkiyə türkcəsində övke "hirs, qəzəb" mənasında işlənir. Lakin türkcənin şivələrində bu söz Naxçıvanda olduğu mənada da qarşımıza çıxır. T.Gülensoy bu vahidin əsas anlamının məhz şivələrdə işlənən anlam olduğu və tədricən məna dəyişməsinə uğramış dil vahidlərindən olduğu düşüncəsindədir [5, s. 649].

Bıçkı. "Sihah ül-Əcəm" əsərində bu söz "mişar" mənasında qeydə alınmışdır. Mənası "kəsmək" olan bıç-/biç- feilindən əmələ gələn bu leksik vahid müasir türk dillərinin bir çoxunda da eyni mənada işlənməkdədir. -kı şəkilçisi isə fellərdən isim düzəldən və müasir dilimizdə də söz yaradıcılığında fəal iştirak edən leksik şəkilçidir. M.Kaşğari bu şəkilçi ilə bağlı yazır: "Hər növ alət adıdır, isim yerində işlənir və feildən yaranır. Məsələn: ağacı kəsən alətə – mişara, bıçğıya yığaç bıç+ğu deyilir" [7, s. 380]. Naxçıvan dialekt və şivələrində bu leksik vahid buşqu/puşqu variantında "kiçik mişar" mənasında işlənir. Ümumiyyətlə, sözlərin dildəki inkişafı prosesini izləyərkən görürük ki, onlar bu prosesdə müəyyən səs dəyişmələrinə məruz qalmışlar. Onların dialekt variantı da ədəbi dil variantından müəyyən qədər fərqlənir. Bu fərqlərin başında da fonetik fərqlər gəlir. Səs əvəzlənmələri sözlərin tarixi inkişafını özündə ən yaxşı əks etdirən fonetik hadisələrdir. Belə ki, çox vaxt dil vahidlərinin qədim forması dialekt və şivələrimizdə yaşasa da, ədəbi dilimizdə səs dəyişmələrinə məruz qalır və yaxud da bu prosesin əksi baş verir. Bu sözdə də baş verən b>p, ı>u, ç>ş səs dəyişmələri nəticəsində şivələrdə həmin vahid puşqu/buşqu şəklini almışdır. Qeyd edək ki, bu səs əvəzlənmələri Naxçıvan dialekt və şivələrində geniş yayılmış və bölgənin şivələrinin özünəməxsusluğunu xarakterizə edən fonetik hadisələrdəndir. Naxçıvanın ayrı-ayrı rayonlarının şivələrində bu mənanı ifadə etmək üçün müxtəlif leksik vahidlərdən də istifadə olunur. Məsələn, Şahbuz şivələrində "kiçik mişar" mənasında xırxı, Culfa şivələrində "böyük mişar" mənasında xırxır, Sədərək şivələrində xizər, Ordubad dialektində sesə//seson vahidləri də işlənir. Ümumiyyətlə, "mişar" anlamında Naxçıvan dialekt və şivələrində geniş sinonimik cərgə özünü göstərir. Lakin bunların içərisində ən geniş yayılanı və Naxçıvanın, demək olar ki, bütün rayonlarının şivələrində işlənəni puşqudur. Şuşa şivələrində də puşqu sözü işlənir. Dilimizin Cəbrayıl şivələrində də buşqu [1, s. 66] variantı qeydə alınmışdır. Gədəbəy şivələrində bu söz xırxa, Borçalı, Daşkəsən, İsmayıllı, Qazax, Tovuz dialekt və şivələrində isə xırxı [1, s. 246] şəklindədir. Dilimizin qərb qrupu dialekt və şivələrində də bu mənada xırxı [2, s. 246] leksemi işlənir.

Türkiyə türkcəsinin Anadolu şivələrində "mişar" anlamında pışhi/bıçhi/bişkı sözləri işlənməkdədir [5, s. 139].

Yönlü. Haqqında danışdığımız əsərdə bu söz "əlverişli, yerində, uyğun" [1, s. 245] mənasında işlənmişdir. Dialekt və şivələrimizdə də bu vahid eyni mənada "yönnü" formasında qarşımıza çıxır. Naxçıvan dialekt və şivələrində yönnü "keyfiyyətli, yaxşı, layiqli" [11, s. 289] mənasında qeydə alınmışdır. Göründüyü kimi, XIII əsr dilimizdə və günümüzdə xalq dilində heç bir semantik fərq olmadan işlənən bu leksem yön isminə ədəbi dilimiz üçün bu gün də çox məhsuldar olan -lı, -li, -lu, -lü sifət düzəldən leksik şəkilçinin dialekt variantı olan -nü şəkilçisinin əlavəsi ilə yaranmış bir dil vahididir. Dilimizin Cəbrayıl, Füzuli, İmişli, Mingəçevir, Şəki dialekt və şivələrində də bu vahidə "yaxşı" [2, s. 636] mənasında rast gəlirik. Eyni kökdən dialekt və şivələrimizdə bu sözün antonimi olan yönsüz sözü də yaranmışdır ki, bu da "pis" anlamındadır. Məlumdur ki, ədəbi dilimizdə də -lı və -sız şəkilçiləri bir-birinə əks mənalı sözlər yaradır. Dialekt və şivələrimizdə də bu şəkilçi eyni funksiyanı yerinə yetirir. Bunu nümunə göstərdiyimiz sözdə də görürük. Bu dil vahidinə eyni zamanda folklor nümunələrində də rast gəlirik. Belə ki, ədəbi dilimizdə "Ağıllı oğul neylər ata malını, ağılsız oğul neylər ata malını" şəklində işlənən atalar sözü şivələrimizdə "Yönnü oğul nenər dədə malın, yönsüz oğul neynər dədə malın" şəklində qarşımıza çıxır.

Naxçıvan dialekt və şivələri zəngin lüğət tərkibinə malik olub, dilimizin qədim mənzərəsini özündə yaşadır. Burada bu gün ədəbi dilimiz üçün işlək olmayan elə qədim dil vahidlərinə rast gəlirik ki, onlar dil tariximizə işıq tutur, müasir dilçilik nöqteyi-nəzərindən

izah oluna bilməyən bir sıra hadisələri aydınlaşdırmağa kömək edir. Şivələrdə yaşayan bu cür dilin dərin qatlarına məxsus vahidlərə bir çox qədim lüğətlərdə də rast gəlirik. Bu cür əsərlərdən biri də Hinduşah Naxçıvaninin "Sihah ül-Əcəm" əsəridir. Tədqiqat göstərdi ki, bu əsərdə Naxçıvan dialekt və şivələri ilə bir çox ortaq dil vahidləri vardır. Bu vahidlərin seçilməsi, onların müqayisəli təhlili şivələrimizin qədim tarixindən xəbər verir və ədəbi dilimizin inkişafı, zənginləşməsi işində çox əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1. Altun H. İlk farsça-türkçe sözlüklerden Sihah-ül Acem: karşılaştırmalı inceleme ve kelime dizini. Yüksek lisans tezi. İstanbul, 2015, 386 s.
2. Azərbaycan dialektoloji lüğəti: 2 cilddə / M.Ş.Şirəliyev və M.İ.İslamovun redaktəsi ilə. Ankara: TDK Yayın, 1999, 653 s.
3. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri / R.Rüstəmov və M.Şirəliyevin redaktəsi ilə. Bakı: Elm, 1967, 281 s.
4. Bayramov İ.M. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı: Elm və təhsil, 2010, 440 s.
5. Əhmədov B.İ. Etimologiya lüğəti. Araşdırmalar, mülahizələr. Bakı: Altun kitab, 2015, 288 s.
6. Gülensoy T. Türkiye türkcesindeki türkce sözcüklerin köken bilgisi sözlüğü. Ankara: TDK yayınları, 2007, 1204 s.
7. Kaşğari M. Divanü lüğət-it-türk: 4 cilddə, I c., Bakı: Ozan, 2006, 512 s.
8. Kaşğari M. Divanü lüğət-it-türk: 4 cilddə, II c., Bakı: Ozan, 2006, 400 s.
9. Kaşğari M. Divanü lüğət-it-türk: 4 cilddə, IV c.: İndeks, Bakı: Ozan, 2006, 752 s.
10. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər / Tərtib edəni S.Əlizadə. Bakı: Öndər, 2004, 376 s.
11. Quliyev Ə., Əliyeva N. Naxçıvan dialekt və şivələrinin lüğəti. Naxçıvan: Əcəmi, 2017, 296 s.
12. Naxçıvani H. Əs-Sihah əl-əcəmiyyə. Bakı: Şərq-Qərb, 1993, 336 s.
13. Naxçıvani M. Destur el-katib fi-tayini-meratib. IV c., Moskva, 1982.
14. Naxçıvani M. Sihahül-fors. Tehran, 1985.
15. Turan F. Sihahül-Acem isimli eserin EAT ve Osmanlı dönemi dilciliği bakımından önemi. Çalıştay bildirileri İstanbul Universitesi (1-2 Aralık 2010), İstanbul, 2011, s. 35.

AMEA Naxçıvan Bölməsi
E-mail: ebulfazamanoglu@yahoo.com

Abulfaz Guliyev

TRACES OF VOCABULARY OF THE HINDUSHAH NAKHCHIVANI'S DICTIONARY "SIHAH UL-AJAM" IN OUR LOCAL DIALECTS

Nakhchivan local dialects have a rich vocabulary and preserve the historical picture of our language. Here we meet with such ancient linguistic units that today are not functional for our literary language but shed light on its history and clarify many phenomena that we cannot explain from modern linguistics. Our local dialects are a means of transmitting words from the ancient times of our language to the present day and a valuable treasure in which

such linguistic units have preserved. From this point of view, dialects' vocabulary has parallels with many ancient dictionaries and other sources. One of such works is the Persian-Turkish dictionary of Indushah Nakhchivani "Sihah ul-Ajam." This valuable work, written by one of the Nakhchivan land's outstanding personalities, Hindushah ibn Sanjar An-Nakhchivani, is of great value in reflecting the vocabulary of the Turkic languages, including Azerbaijani Turkic, in the 13th-14th centuries. Here we find many obsolete words that are not used today in our literary language but are used in our dialects and dialects. The choice of these lexical units, their comparative analysis reveal the ancient history of our dialects and are very important for the work on the development and enrichment of our literary language. In this paper, we have the purpose of exploring semantic and grammatical parallels with local dialects in the work of "Sihah ul-Ajam."

Keywords: *Azerbaijani language, local dialects, history of language, dictionary.*

Абульфаз Гулиев

СЛЕДЫ ЛЕКСИКИ ИЗ СЛОВАРЯ ИНДУШАХА НАХЧЫВАНИ «СИХАХ УЛЬ-АДЖАМ» В НАШИХ ДИАЛЕКТАХ И ГОВОРАХ

Нахчыванские диалекты и говоры обладают богатым словарным составом и сохраняют в себе историческую картину нашего языка. Здесь мы встречаемся с такими древними языковыми единицами, которые сегодня не функциональны для нашего литературного языка, но проливают свет на его историю, помогают прояснить ряд явлений, которые не могут быть объяснены с точки зрения современного языкознания. Наши диалекты и говоры являются средством передачи слов из древних времен нашего языка до наших дней и ценным сокровищем, в котором сохранились такие языковые единицы. С этой точки зрения, в лексике диалектов есть параллели со многими древними словарями и другими источниками. Одним из таких произведений является персидско-турецкий словарь Индушаха Нахчывани «Сихах уль-Аджам». Это ценное произведение, написанное одной из выдающихся личностей Нахчыванской земли – Индушахом ибн Санджаром Ан-Нахчывани, представляет большую ценность с точки зрения отражения словарного состава тюркских языков, в том числе азербайджанского тюркского, в XIII-XIV веках. Здесь мы встречаем много устаревших слов, которые не применяются сегодня в нашем литературном языке, а используются в наших диалектах и говорах. Выбор этих лексических единиц, их сравнительный анализ раскрывают древнюю историю наших диалектов и очень важны для работы по развитию и обогащению нашего литературного языка.

В статье мы поставили перед собой цель исследовать смысловые и грамматические параллели с диалектами и говорами в труде «Сихах уль-Аджам».

Ключевые слова: *азербайджанский язык, диалекты и говоры, история языка, словарь.*

Daxilolma tarixi: İlkin variant 05.02.2021
Son variant 02.03.2021

UOT 81:001.89

SAHAB ƏLİYEVA

NAXÇIVAN ELMİ MÜHİTİNDƏ CƏNUBİ AZƏRBAYCAN İSTİQAMƏTİNDƏ ÜMUMTÜRKOLOJİ MÜSTƏVİDƏ APARILAN LİNQVİSTİK TƏDQİQATLAR

Məqalədə Naxçıvan elmi mühitində Cənubi Azərbaycan istiqamətində ümumtürkoloji müstəvidə aparılan dil tədqiqatlarından bəhs olunmuş, dilçi alim Qalibə Hacıyevanın Cənubi Azərbaycanla bağlı araşdırmaları, alimin bu istiqamətdəki elmi məqalələri, monoqrafiyaları tədqiqata cəlb olunmuşdur. Qeyd olunmuşdur ki, Q.Hacıyeva araşdırmalarını əsasən Azərbaycan dilinin cənub qrupuna aid edilən Naxçıvan qrupu şivələrində çağdaş türk dilləri ilə eyni xüsusiyyətlərə malik ortaq dialektal əlamətlərin müqayisəli tədqiqinə yönəltmiş, tarixən eyni soy-kökə malik türklərin dialekt leksikasının ən qədim qatını Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu şivələrinin müqayisəli tədqiqi, hər üç bölgənin dialekt və şivələrinin fonetik, leksik-semantik və morfoloji xüsusiyyətlərinin ortaq və fərqli cəhətlərinin geniş şərhi əsasında araşdırmışdır. Məqalədə alimin Cənubi Azərbaycan toponimlərinin tədqiqinə həsr etdiyi monoqrafiya və elmi məqalələri də geniş təhlil olunmuş, müəllifin Cənubi Azərbaycan üzrə aparılan toponimik araşdırmalarının xalqımızın vahid mənşə birliyinin təsdiqində, tariximizin bəzi mübahisəli məsələlərinin aydınlaşdırılmasındakı əhəmiyyəti diqqətə çatdırılmışdır.

Açar sözlər: *Naxçıvan, Cənubi Azərbaycan, Anadolu, ümumtürkoloji, türk dili, toponim.*

XIX əsr Rusiya-İran müharibəsi nəticəsində 1813 "Gülüstan" və 1828 "Türkmənçay" müqavilələri əsasında Rusiya ilə İran arasında bölüşdürülən Azərbaycan torpaqları şimala və cənuba parçalanmış, Azərbaycan türklərinin sayca daha böyük bir qismi İran-fars rejiminin əsarəti altında yaşamaq məcburiyyətində qalmışdır. 200 ildən artıq bir müddət ərzində istər şimalda, istərsə də cənubda yaşayan Azərbaycan türklərinin qədim milli tarixi, dili və mədəniyyəti imperialist qüvvələr tərəfindən əsarət altında saxlanılmış, yasaq edilmiş, unutdurulmağa çalışılmışdır.

XIX əsrdən bir-birindən fərqli milli kimliyi və siyasi xətti olan iki dövlətin tərkibində yaşamaq məcburiyyətində qalan parçalanmış bütöv bir millətin tarixi, dili və mədəniyyəti ən aktual bir məsələ kimi Şimali Azərbaycan elmi mühitinin əsas mövzularından biri olmuş, bu istiqamətdə çoxsaylı ədəbi-bədii əsərlər yazılmaqla bərabər, müxtəlif yönlü elmi tədqiqatlar da aparılmışdır. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu sahədə aparılan tədqiqatlar sayına və məzmununa görə yetərincə deyil. Amma buna baxmayaraq, Azərbaycan dilçiliyi tarixində Cənubi Azərbaycanın tarixi dil problemlərinin tədqiqinə həsr olunmuş bir sıra orijinal tədqiqatlar özünəməxsus yerə sahibdir.

Coğrafi, mədəni və mənəvi baxımdan Cənubi Azərbaycana daha yaxın olan Naxçıvan elmi mühitində də Cənubi Azərbaycan mövzusunda bir sıra əhəmiyyətli tədqiqatlar aparılmış, Cənubi Azərbaycanda dil problemi bu mövzudakı araşdırmaların əsas istiqamətlərindən biri kimi tədqiq edilmişdir.

Naxçıvan elmi mühitinin nümayəndələri tərəfindən Azərbaycan dilinin qədim qatlarını açmaq üçün Cənubi Azərbaycandakı mövcud dil faktorlarını ümumtürkoloji müstəvidə müqayisəli şəkildə tədqiq edən araşdırmalar sırasında dilçi alim Qalibə Hacıyevanın "Cənubi Azərbaycan toponimləri", "Dilimiz, tariximiz, yaddaşımız", "Azərbaycan dilinin Naxçıvan qrupu şivələrinin Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə fonetik və leksik müqayisəsi", "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu şivələrinin morfoloji xüsusiyyətləri" kimi elmi tədqiqatları mühüm yer tutmaqdadır. Q.Hacıyevanın Cənubi Azərbaycanla bağlı

elmi araşdırmalarının əsas istiqaməti burada mövcud dil problemlərinin müxtəlif istiqamətdə tədqiqinə yönəldilmiş, tədqiqatlardan kənarda qalmış dil tarixi məsələləri geniş və sistemli şəkildə araşdırılmışdır. Alimin 1999-cu ildə BDU-nun Müdafiə Şurasında "Şərqi Azərbaycan ostanının toponimləri" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası, daha sonra 2008-ci ildə nəşr etdirdiyi "Cənubi Azərbaycan toponimləri" adlı monoqrafiyası Azərbaycan, eləcə də ümumtürkoloji dilçilik tarixində bu sahədə atılan ilk uğurlu addımlardan biridir. Q.Hacıyeva ümumtürkoloji müstəvidə aparılan bu tədqiqatları ilə Azərbaycan dilçiliyində Cənub üzrə onomastik tədqiqatların ilk cığırını açmış oldu. Cənub üzrə onomastik tədqiqatları ilə kifayətlənməyən Q.Hacıyeva daha sonra dilçilik üzrə tədqiqatlarının istiqamətini bir qədər dəyişdirərək, növbəti tədqiqatlarında Cənubi Azərbaycan dialektlərinin ümumtürkoloji müstəvidə müqayisəsi ilə türk dilinin ən qədim tarixi qatlarına nüfuz edə bilmişdir. 2018-ci ildə müdafiə etdiyi "Naxçıvan qrupu şivələrinin Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə müqayisəli tədqiqi" adlı doktorluq dissertasiyası isə Azərbaycan dilinin cənub qrupuna aid edilən Naxçıvan və Cənubi Azərbaycan şivələrində çağdaş türk dilləri ilə eyni xüsusiyyətlərə malik ortaq dialektal əlamətlərin müqayisəli tədqiqinə yönəldilmişdir. Hər üç bölgədə yaşayan, tarixən eyni soy-kökə malik türklərin dialekt leksikasının ən qədim qatı Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu şivələrinin müqayisəsi müstəvisində tədqiq edilmiş, hər üç bölgənin şivələrinin fonetik, leksik-semantik və morfoloji xüsusiyyətlərinin ortaq və fərqli cəhətləri araşdırılmışdır. Tədqiqatda eyni zamanda bu dialekt faktlarının geniş şərhi əsasında bu bölgədəki mövcud toponimlərin leksik-semantik və qrammatik xüsusiyyətlərinin qədim dil faktları əsasında etimoloji təhlili verilmiş, müasir dilçilik elminin sahə və şöbələrinin əlaqəsi müstəvisində geniş şərh olunaraq ilk dəfə sistemli şəkildə araşdırılmışdır. Coğrafi baxımdan Cənubi Azərbaycana daha yaxın olan Naxçıvan elmi mühitində bu kimi elmi tədqiqatların aparılması öz mahiyyəti etibarilə Türk tarixinə verilmiş bir töhfədir. Geostrateji baxımdan hər zaman dünyanın diqqət mərkəzində olan Naxçıvan ərazisində bu kimi ciddi mövzuların tədqiqat obyektinə çevrilməsi, sadəcə müasir elm üçün deyil, gələcəkdə də türk dünyasının ortaq dil və mədəniyyətinin soy-kök birliyini sübut etmək və tariximizdəki bəzi mübahisəli məsələlərə aydınlıq gətirmək, eyni zamanda Azərbaycandan torpaq iddiasında olan mənfur erməni təbliğatçılarının yanlış və saxta konsepsiyalarının təkzib edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Q.Hacıyevanın Naxçıvanın Cənubi Azərbaycanla əlaqələrinin inkişafında da xidmətləri böyükdür. 1980-2000-ci illər ərzində Naxçıvan televiziyasında ekranlaşdırılan, xalqımızın milli-mənəvi bütövlüyünün, birliyinin tərənnüm olunduğu "Təbrizə gedən yollar", "Yurdumuz, yurddaşlarımız" verilişlərinin hazırlanması və tamaşaçılara təqdim olunması da Q.Hacıyevanın gərgin zəhməti sayəsində həyata keçirilmişdir. Cənubi Azərbaycana olan yüksək sevgisinin nəticəsidir ki, alimin elmi yaradıcılığının da əsasında Cənubi Azərbaycan məsələsi, Azərbaycan dilinin cənub qoluna məxsus şivələr, toponimlər və onların ümumtürkoloji müstəvidə müqayisəli təhlili və tədqiqi dayanır. Tədqiqatçının Cənubi Azərbaycan mövzusunda qələmə aldığı çoxsaylı elmi məqalələri, monoqrafiyaları onun yaradıcılığının bu istiqamətdə tədqiqini zəruri edir.

Toponimik araşdırmaların xalqımızın vahid mənşə birliyinin təsdiqində, tariximizin bəzi mübahisəli məsələlərinin aydınlaşdırılmasında əhəmiyyəti olduqca böyükdür. Məhz bu səbəbdən Cənubi Azərbaycan istiqamətində həyata keçirilən araşdırmalarda toponimlərin tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Nəinki Naxçıvan, bütövlükdə Azərbaycan elmi mühitində Cənubi Azərbaycan toponimlərinin leksik-semantik və qrammatik xüsusiyyətlərini ilk dəfə

sistemli tədqiqata cəlb edən Q.Hacıyevanın elmi araşdırmalarında bu mövzuya geniş yer ayrılmış, bir sıra mübahisəli məqamlar konkret tarixi faktlar əsasında şərh olunmuş və öz təsdiqini tapmışdır. Tədqiqatçının Cənubi Azərbaycan üzrə ilk irihəcmli əsəri olan "Şərqi Azərbaycan ostanının toponimləri" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası, daha sonra 2008-ci ildə nəşr etdirdiyi "Cənubi Azərbaycan toponimləri" adlı monoqrafiyası, eyni zamanda bu istiqamətdə aparılan tədqiqatların nəticəsində yazılmış "Güney Azərbaycanda fars dili və dialektlərinə uyğunlaşdırılmış qədim türk toponimləri", "Tavr etnonimi əsasında yaranmış toponimlərin işlənmə arealı", "Şimali və Cənubi Azərbaycan toponimik paralelləri", "Güney Azərbaycanda dəyişdirilmiş coğrafi adlar tariximizə vurulan zərbədir", "Cənubi Azərbaycanın türk mənşəli hidronimləri haqqında", "Güney Azərbaycanda mövcud antroponimik oykonimlər", "Şərqi Azərbaycanın bəzi etnooronimləri haqqında" adlı bir çox məqalələri Azərbaycan, eləcə də ümumtürkoloji dilçilik tarixində orijinal tədqiqatlardan hesab olunur. Alimin "Şərqi Azərbaycan ostanının toponimləri" dissertasiyası müasir İran İslam Respublikasının tərkibində olan Cənubi Azərbaycanın Şərqi Azərbaycan bölgəsinin toponimlərinin tədqiqinə həsr olunmuşdur. Əsərdə toponimlər vasitəsi ilə Cənubi Azərbaycan türklərinin dil və tarixi ciddi şəkildə tədqiq olunmuş, Azərbaycan türklərinin təşəkkülündə iştirak etmiş və tarix səhnəsindən çıxmış, öz izlərini bu coğrafi adlarda qoruyub saxlamış etnoslar üzə çıxarılmışdır. Q.Hacıyeva bu tədqiqat işindən sonra Cənubi Azərbaycan üzrə tədqiqatlarının arealını bir qədər də genişləndirərək, 2008-ci ildə "Cənubi Azərbaycan toponimləri" adlı elmi monoqrafiyasını nəşr etdirmişdir. Azərbaycanın tarixi-coğrafi arealı və etnik tərkibi haqqında mühüm mənbə olan Cənubi Azərbaycan toponimlərini ilk dəfə sistemli şəkildə tədqiqata cəlb edən müəllif burada mövcud türk mənşəli etnotoponimlərin yaranma dövrü və etimologiyası haqqında əhatəli tədqiqat aparmış, əfşar, kimmer, saq, maq, qazan və s. bu kimi qədim türk etnoslarının bu ərazinin çay, göl, bulaq, şəhər, kənd, dağ adlarında tarixi izlərini qoruyub saxlaması faktını tutarlı dəlillərlə əsaslandırmışdır. Əsərdə bir çox apelyativ leksik vahidlərlə ifadə olunan toponimlərdə mühafizə olunmuş arxaik məna çalarları həm qədim türk abidələrinin, həm qohum türk dillərinin materialları əsasında, həm də coğrafi obyektin özünün bilavasitə müəyyən səciyyəvi cəhətləri nəzərə alınmaqla müəyyənləşdirilmişdir. Bu baxımdan tədqiqata cəlb edilmiş bir sıra çay, göl, bulaq, kəhriz adlarının təhlili nəticəsində (Üsküçay, Ocançay, Moğançay, Günbadçay, Qorxudərə çayı, Qalaçay, Təpəçay, Qaraağac çayı, Qarasu gölü, Göyağac çayı, Asma bulaq və s.) Araz və ona qovuşan Arpaçay hövzələrinin qədim türk tayfalarının ilkin məskunlaşdığı ərazilər olduğu dil faktları əsasında müəyyənləşdirilmişdir. Əsərdə Cənubi Azərbaycan ərazisində mövcud toponimlərin tədqiqinin dil tariximizin bir çox qaranlıq məsələlərinin aşkarlanması, həmçinin dialekt və şivələrimizin öyrənilməsində mühüm rol oynadığı qeyd olunmuşdur. Bu ərazidə mövcud olan toponimlərin araşdırılmasının dilçilik, coğrafiya, tarixşünaslıq elmləri üçün mühüm faktların üzə çıxarılmasındakı əhəmiyyətini qeyd edən alimə görə, "bu ərazidə mövcud olan toponimlərin funksional-struktur və struktur-semantik tiplərini, oykonim, oronim və hidronimlər sistemini, onların yaranma və törəmə yollarını ayrıca tədqiqata cəlb etməklə onlarda mühafizə olunmuş qədim və müasir adların fonetik, leksik-semantik, qrammatik cəhətdən dəyişikliklərinə sistemli şəkildə diqqət yetirmək olduqca zəruridir" [1, s. 3].

Kitabın giriş hissəsində toponimiya, onun onomastikada yeri və digər elmlərlə əlaqəsi barədə məlumat verən müəllif toponimikanın bir sıra elm sahələri ilə bağlı olduğunu müxtəlif alimlərin fikirlərinə əsaslanaraq qeyd etməklə bərabər, müstəqil elm sahəsi kimi inkişaf etdiyini də diqqətə çatdırmış, xalqımızın tarixi, dili, etnogenezinə dair bir sıra mübahisəli məsələlərin aşkara çıxarılmasında toponimlərin rolunu xüsusi olaraq qeyd etmişdir. Kitabın

əvvəlində Cənubi Azərbaycan haqqında ümumi məlumat verən Q.Hacıyeva bu ərazidə ilkin məskunlaşan tayfaların türklər olması fikrini M.Zehtabinin "İran türklərinin əski tarixi"ndəki faktlara əsasən irəli sürmüş, İranın tərkibinə qatıldıqdan sonra Cənubi Azərbaycanın ərazisi, əhalisi və Şərqi Azərbaycan, Qərbi Azərbaycan, Zəncan, Ərdəbil, Həmədan, Qəzvin, Gilan, Mazandaran, Gülüstan, Mərkəz, Çəharmahal Bəxtiyari, Kəhkiluye Boyer Əhməd, Buşəhr kimi ostanlara ayrılması barədə müxtəlif mənbələr əsasında ətraflı məlumat vermişdir. Alim tədqiqatında Cənubi Azərbaycan toponimlərinə dair mənbələri ətraflı araşdırmış və müəyyən etmişdir ki, bu ərazidə türk mənşəli coğrafi adlar tarixən yaranıb formalaşmış və müasir dövrümüzə qədər qorunub saxlanmışdır.

Cənubi Azərbaycan ərazisindəki toponimlərin mənşəyini eradan əvvəlki dövrlərə aid edən alim Z.İ.Yampolski, M.Zehtabi, S.Mollazadə, M.Lərmioğlu, M.Yazıçının tədqiqatlarına, antik dövr mənbələrinə müraciət etmiş, toponimlərin tədqiqində əhəmiyyətli mənbə olan "Kitabi-Dədə Qorqud" dastanındakı Aladağ, Əlincə qalası, Qaradağ, Ağqaya, Quru çay, Ağca qala, Arqubel, Durugöl, Ağlağan toponimlərinin və Qıpçaq, Bayat, Bayandur kimi etnosların adını yaşadan coğrafi adların bu gün də Cənubi Azərbaycanda mövcudluğunu diqqətə çatdırmışdır. Q.Hacıyeva ilk orta əsrlər Cənubi Azərbaycan toponimiyasının öyrənilməsində Türk-Osmanlı qaynaqlarını ən tutarlı məxəz kimi dəyərləndirmiş, Fəxrəddin Kırzıoğlunun "Osmanlıların Kafkas ellerini fethi", Evliya Çələbinin "Səyahətnamə", Ali Sinan Bilgilinin "Osmanlı İran ve İran Azerbaycanı. 16 ve 18 yüzyıllar sosyal ve ekonomik tarih", Nihat Çetinkayanın "İğdır tarihi" əsərlərini tədqiq etmişdir. Alim, həmçinin orta əsr ərəb və fars mənbələrində Cənubi Azərbaycan toponimiyası haqqında daha çox məlumatın olduğunu vurğulamış, X əsr anonim abidəsi "Hüdud əl-ələm", IX əsr ərəb tarixçisi əl-Bəlazurinin "Kitab fütuh əl-buldən", İbn Xordadbehin "Kitab əl-Məsalik əl mamalik", Əl Yəqubinin "Kitab əl-buldən", İbn Əl-Fəqih əl-Həmədaninin "Ölkələrin kitabı", Yaqut Həməvinin "Mücəm əl-buldan", Abd ər-Rəşid əl-Bakuvinin "Təxis əl-əsar" kimi əsərlərdə yer alan toponimlərin tarixi mənbə kimi əhəmiyyətini nəzərə çatdırmışdır. Q.Hacıyeva Cənubi Azərbaycan toponimlərini araşdırmaq və daha dəqiq elmi izah vermək üçün Azərbaycan və fars tarixçilərinin əsərlərinə də müraciət etmiş, H.Qəzvininin "Nüzhət əl-qülub", "Zeyle tarix-e qozide", Əbu Bəkr əl-Qütbi əl-Əhərinin "Tarix-e Şeyx Üveys" əsərlərindəki toponimləri araşdırmışdır. Həmçinin, İran tədqiqatçılarından S.Nəfisi, Ə.Karəng, M.Həsənxan, Ə.Kəsrəvi, M.Keyhan və başqalarının əsərlərində yer alan toponimlər də tədqiqata cəlb edilmişdir. Alimin tədqiqatlarında fars dilli mənbələrlə yanaşı, Azərbaycan-türk dilli mənbələrə də müraciət edilmişdir. Moğan Dilicinin "Sultan Savalan" əsərini, "Mişov dağı" jurnalını, Cavad Heyətin "Varlıq" jurnalı və "Türklərin tarix və mədəniyyətinə bir baxış" kitabını, M.Zehtabinin "İran türklərinin əski tarixi" əsərini, Y.V.Çəmənzəminlinin "Azərbaycan və azərbaycanlılar" adlı silsilə məqalələrini, M.S.Vəlilinin "Azərbaycan: təbii, coğrafi, etnoqrafik və iqtisadi mülahizat", M.Rəsulzadənin "İran türkləri", Q.Qeybullayevin "Azərbaycan türklərinin təşəkkülü tarixindən", "Qədim türklər və Ermənistan", "Azərbaycanlıların etnik tərkibinə dair", A.Fazilinin "Azərbaycanın qədim tarixi müasir İran tarixşünaslığında", "Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında", S.Qaşqayın "Manna dövləti", S.Onullahinin "XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi" əsərlərini və başqa digər əhəmiyyətli mənbələri tədqiq edən alim belə qənaətə gəlmişdir ki, "bu əsərlərdə Cənubi Azərbaycan və onun bir hissəsini təşkil edən Şərqi və Qərbi Azərbaycanın sosial-siyasi, iqtisadi, coğrafi, mədəni, tarixi problemlərinə müxtəlif nöqteyi-nəzərdən yanaşılmış, bu zona üzrə sistemli toponimik tədqiqatlar aparılmamışdır" [1, s. 57]. Məhz buna görə də alim tədqiqatında sözügedən mənbələrdən də

yararlanaraq, bu bölgənin toponimlərini hərtərəfli araşdırmaya cəlb etmiş, Cənubi Azərbaycanın toponim, hidronim, oykonim, oronimlər sistemində mühafizə olunan qədim və müasir fonetik, leksik-semantik, qrammatik elementlərin geniş və əhatəli şəkildə tədqiqinə nail olmuşdur.

Cənubi Azərbaycan toponimlərini ümumtürkoloji müstəvidə tədqiq edən Q.Hacıyeva bu ərazidəki mövcud coğrafi adların digər coğrafiyalardakı paralellərini müəyyənləşdirməklə, yerli türk dilli tayfaların tarixinə dair bir çox elmi faktları ortaya çıxarmış və bu tarixi faktlar əsasında şimalda və cənubda yaşayan Azərbaycan türklərinin vahid mənşə birliyinin təsdiqi və bu istiqamətdə formalaşdırılan yanlış konsepsiyaları elmi əsaslarla təkzib etmişdir. Tariximizin ən əski köklərindən xəbər verən moğ, tavr, əfşar, saq, bayat, türkman, xələc, qaşqay, kimmer//qəmər, dondar, alpout kimi yer adlarını tarixi etnolinqvistik amillər əsasında geniş şəkildə tədqiq edən Q.Hacıyeva Cənubi Azərbaycanda Moğan şəklində işlədilən kənd adının Şimali Azərbaycanda Muğan etnotoponiminin fonetik variantı olmasını qeyd edərkən, bu etnotoponimin türk mənşəli etnoslardan olan Muğ//Moğ tayfa adından yaranmasını müxtəlif tədqiqatlara əsaslanaraq şərh etmişdir. Tədqiqatçı, həmçinin Şimali Azərbaycanda Dondar, Cənubda isə Tondar kimi işlədilən toponimin XVIII əsrdə Qərbi Sibirdə tondarak adlı bir türk ulusunun adından törədiyini, Biləsuvar toponiminin qədim dövrlərdən Azərbaycanda məskunlaşan suvarların adından yarandığını, Cənubda Alpavet, Şimalda Alpout, Alpan şəklində işlədilən etnotoponimin tarixinin VII-XII əsrə dayandığını, Cənubda Başxələc, Əlixələc, Sərxələc, Qaderxələc kimi daha geniş işlənmə arealı olan və Şimalda bir çox bölgəmizdə qeydə alınan Xələc toponiminin yarandığı Xələc etnosu haqqında qaynaqlarda kifayət qədər məlumat olduğunu qeyd etmiş, hər iki bölgənin toponimlərinin paralel tədqiqinin soy-kök birliyimizin təsdiqindəki əhəmiyyətini sübuta yetirmişdir. Müəllif paralel işlədilən mövcud toponimlərin əksəriyyətinin etnonimlərdən törəmiş oykonim olması qənaətinə gəlmiş və Tavr etnonimi əsasında yaranmış toponimlərin işlənmə arealını daha geniş şəkildə araşdırmışdır. İlk növbədə türk xalqlarının etnogenezində fəal iştirak edən tavr etnosunun tarixini araşdırmaq üçün müxtəlif mənbələrə müraciət edilmiş, tavrların türk tayfalarından olması, İranın (Cənubi Azərbaycanın) bir çox tayfalarının etnogenezində mühüm rol oynamaqla yanaşı, Krım türklərinin də əcdadları ilə qaynayıb qarışmaları nəticəsində Tavrika, Tavrida, Tavriya kimi coğrafi adların yaranması tarixi qaynaqlar əsasında şərh edilmişdir: "Toponimik araşdırmalar göstərir ki, türkdilli tavr etnosunun adı ilə yaranmış coğrafi adlar yalnız Krım ərazisində deyil, yayılıb məskunlaşdığı digər bölgələrdə də geniş işlənmə arealına malik olub, onların tarixdə tutduğu böyük mövqeyə malik olması faktını ortaya çıxarmış olur" [3, s. 45-46]. Təbriz şəhərinin adının da antik qaynaqlarda tavr şəklində qeyd olunmasını vurğulayan alim, V.Q.Muradov, S.Mollazadə, S.Onullahi, Əhməd Kəsrəvi və başqa alimlərin bu sözün etimologiyası ilə bağlı fikirlərini araşdırmış və belə qənaətə gəlmişdir ki, "hələ m.ö. Tavr kimi qeydə alınmış Təbriz toponimi daha sonralar Tori, Tauri, Tovri, Tovruz, Toriz, Dorec, Tavrec, Davrec, Tavriz, Təbriz kimi inkişaf yolu keçərək müasir dövrümüzə qədər gəlib çıxmış, e.ə. türkdilli xalqların etnogenezində mühüm rol oynamış tavr tayfalarının adını qoruyub saxlamışdır" [3, s. 46]. Q.Hacıyeva Güney Azərbaycanda tavr etnosunun adı ilə bağlı yaranmış Təristan, Tarazoc, Tarun, Tərnab, Devran, Talavr, Təxreş kimi toponimlər haqqında da məlumat vermiş və bu tayfa ilə bağlı müxtəlif bölgələrdə mövcud olan toponimləri tədqiq edərək hələ qədim zamanlardan müxtəlif ərazilərdə məskunlaşan türklərin soy-kök birliyinin təsdiqi, türkdilli xalqların etnogenezində bu tayfanın iştirakının sübuta yetirilməsinin bir sıra problemlərin həllində əhəmiyyətli olacağını diqqətə çatdırmışdır.

Q.Hacıyevanın elmi yaradıcılığında Güney Azərbaycanda mövcud antroponimik oykonimlər, etnooronimlər, türk mənşəli hidronimlər haqqında araşdırmaları da mühüm yer tutur. Azərbaycan toponimiyasının işlək qollarından biri hesab olunan oronimlərin Cənubi Azərbaycanda türkdilli etnosların adı ilə bağlı yaranmasını qeyd edən alim əfşar, tavr, çol, qazan, şam, xoruzlu, moq və başqa oronimlərin türkdilli etnosların adını yaşatmasını bu ərazidə tarixən türk tayfalarının yaşamasının sübutu baxımından böyük əhəmiyyət daşıdığını vurğulamışdır. Q.Hacıyeva ilk növbədə Azərbaycan türklərinin etnogenezi tarixində mühüm rol oynayan, müasir dövrdə də Cənubi Azərbaycanda dağınıq formada yaşayan əfşar tayfasının adı ilə bağlı İranın müxtəlif ərazilərində mövcud olan etnooronimləri araşdırmışdır: "Əfşar, Əfşarçılıq /Az./, Əfşəran, Təpəəfşar, Çəmənəfşar /Kermanşah/, Əfşarlı /Zəncan/, Arababad-əfşar, Siyahəfşar /m. İran/ və s. Xalxal şəhəri Səncabad bəxşinin Gəncgah kəndi tərkibində olan, Miyana Ərdəbil şəhərləri arasında yerləşən mülayim havalı Əfşar kəndi də eyni adlı etnosun adı ilə bağlıdır" [4, s. 94].

Bundan başqa türk mənşəli çol tayfasının adını əks etdirən Çulyan toponimi və çul-çol adının semantikası haqqında mənbələrdə olan məlumatları ətraflı araşdıran alim Təbrizdə Çulan, Sərabda Çollu, Çolpaçay coğrafi adlarının bu qədim türk tayfasının adından yarandığını vurğulamış, qədim türk tayfalarından olan Qazan etnosunun adı ilə bağlı yaranan Qazan dağ və Qazani dağ adlı iki oronimin, həmçinin muğ/moğ/max/maq etnonimi əsasında yaranmış oronimlərin Cənubi Azərbaycan ərazisində mövcudluğunun xalqımızın qədim tarixi və dili haqqında əsl həqiqətlərin üzə çıxarılmasındakı əhəmiyyətini də diqqətə çatdırmışdır. Q.Hacıyevanın elmi məqalələrində Güney Azərbaycanda mövcud antroponimik oykonimlər də ətraflı araşdırılmış, burada mövcud olan antroponimlərin yaranma səbəbləri konkret nümunələr əsasında şərh edilmişdir. Antroponimlərin böyük hissəsinin ərəb və fars mənşəli sözlər (Qasımkənd, Bəhruz kəndi, Əlişan kəndi, Həsən kəndi, Abbasi kəndi, Şahvəli kəndi və s.) əsasında yaranmasını vurğulayan alim İslam tarixində rol oynayan şəxslərin adı (Əliəkbər, Süleyman, Əli, Hüseyn və s.), vəzifə və titullarla bağlı yaranan antroponimləri (Molla Mahmud kəndi, Seyid qışlağı, Şeyx Əhmədli kəndi, Xəlifə Davud kəndi və s.) də şərh etmişdir. Alim, həmçinin müxtəlif sənət, peşə, ləqəb, təxəllüs bildirən sözlərlə yanaşı işlənən antroponimlər (Qazı Vəli, Mehtər Əhməd, Dərzi Vəli, Xacə Qiyas və.), əsasən türk mənşəli sözlərdən ibarət, qadın adları ilə bağlı olan oykonimlər (Xatunoba kəndi, Heyran kəndi, Pərixan kəndi, Anaxatun kəndi və s.), "abad" topoformantı ilə işlədilərək konkret şəxs tərəfindən salınan yerlərin adını bildirən oykonimlər (Sultanabad, Heydərabad, Maqsudabad, Əliabad və s.), oba, qışlaq topoformantlarının şəxs adlarına birləşməsi yolu ilə yaranan oykonimlər (Tərlan qışlağı, Əliqışlaq, Seyid qışlağı, Həsənli qışlağı və s.) haqqında da ətraflı məlumat vermişdir.

Alim Güney Azərbaycan toponimiyası üzrə araşdırmaları nəticəsində antroponimlərin daha çox təsirə məruz qaldığını və dinamik dəyişdiyini qeyd etmiş və belə qənaətə gəlmişdir ki, "Güney Azərbaycan inzibati ərazi baxımından fars dövləti İranın tərkibində olsa da bu ərazinin toponimik landşaftında qorunub saxlanan türk mənşəli antroponimik oykonimlərin tarixi qeyri-türk mənşəli antroponimlərdən daha qədimdir. Bu toponimlər isə dil tariximizin qədimliyini göstərməklə bərabər, eyni zamanda onun tədqiqi üçün də qiymətli mənbə olaraq qalmaqdadır" [5, s. 204-205].

Alimin Güney Azərbaycanın türk mənşəli hidronimləri haqqındakı araşdırmaları isə tarixi çox qədim dövrə aid olan və az tədqiq edilmiş bu bölgənin hidronimlərinin öyrənilməsi

üçün olduqca əhəmiyyətlidir. "Qədim dövrlərdən azərbaycanlıların etnogenezində mühüm rol oynayan qədim türk tayfalarının və dilimizə məxsus müxtəlif mənalı semantik adların hidronimlər vasitəsi ilə dövrümüzə gəlib çıxması" [6, s. 34] bu bölgənin su mənbələrinin qədim türk (Azərbaycan) tayfalarının ilkin məskunlaşdıqları ərazi olması ilə əlaqələndirilmiş, coğrafi ərazilər əsasında yaranan hidronimlər geniş və ətraflı tədqiq edilmişdir. Alim hidronimləri müxtəlif qruplar üzrə təsnif etmiş, hər birini nümunələr əsasında geniş şərh etmişdir. Müxtəlif tayfa adları, yerləşdiyi ərazinin adı, müxtəlif heyvan və bitki adları, dini-əfsanəvi xarakterli sözlərlə bağlı yaranmış, həmçinin dilimizdə sifət kimi işlənən ağ, qara, sarı, qızıl, böyük, iri, kiçik, girdə, acı, şor, quru, duru sözlərinin iştirakı ilə yaranan hidronimlər nümunələr əsasında tədqiq edilmişdir. Saqqız çay, Türkmənçay, Gərgərçay, Şam bulaq, Samanlı çayı, Üskü çay, Əhər çay, Miyana çay, Nir çay, Moğan çay, Sultanabad kəhrizi, Qələ çay, Təpə çay, Yazdərə kəhrizi, Daşdibi çayı, Gamış göl, Alacücə çayı, Balıqlı çay, Öküz gölü, Qara göl, Qarasu gölü, Ağçay, Sarısu gölü, Sarıqamış çayı, Acı çay, Böyük çay, Girdə çay, Şor kəhriz, Cinni çay, Pirlər çayı və başqa Cənubi Azərbaycan ərazisində işlənən hidronimlər ayrı-ayrı təsnif edilmiş, hər birinin səciyyəvi cəhəti geniş şəkildə araşdırılmışdır.

Q.Hacıyeva, həmçinin Cənubi Azərbaycanla bağlı araşdırmalarında Azərbaycan dilinin cənub qrupuna aid edilən Naxçıvan qrupu şivələrində çağdaş türk dilləri ilə eyni xüsusiyyətlərə malik ortaq dialektal əlamətləri müqayisəli şəkildə tədqiq etmiş, tarixən eyni soy-kökə malik türklərin dialekt leksikasının ən qədim qatını Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu şivələrinin müqayisəli tədqiqi, hər üç bölgənin dialekt və şivələrinin fonetik, leksik-semantik və morfoloji xüsusiyyətlərinin ortaq və fərqli cəhətlərinin geniş şərhi əsasında araşdırmışdır. Alimin "Güney Azərbaycan dialektlərinin tədqiqi tarixi məsələləri", "Güney Azərbaycan dialektlərinin tarixi fonetik xüsusiyyətlərinin Naxçıvan qrupu şivələri ilə müqayisəsi", "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolunun ortaq folkloru və etnoqrafik mədəniyyəti", "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu folklorunda ortaq dialekt xüsusiyyətləri", "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu folklorunda ortaq dil xüsusiyyətləri", "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu dialektlərində tarixi qrammatik formalar", "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu şivələrində mövcud – qıl//gil morfeminin tarixi izləri", "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu dialektlərində hal şəkilçiləri" kimi məqalələri bu istiqamətdə qələmə alınmışdır.

Alimin bu istiqamətdəki araşdırmaları "Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu şivələrinin morfoloji xüsusiyyətləri" və "Azərbaycan dilinin Naxçıvan qrupu şivələrinin Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə fonetik və leksik müqayisəsi" monoqrafiyalarında daha geniş səpkidə əks olunmuş, dünyanın müxtəlif bölgələrində yaşayan türklərin qədim tarixini yaşadan ortaq dil elementlərinə malik Naxçıvan dialektinin Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə müqayisəli tədqiqi nəticəsində tarixi etnogenetik kök birliyimizi təsdiq edən və ümumtürkoloji dilçilik üçün əhəmiyyətli olan bir sıra dil faktları ilk dəfə tədqiqata cəlb olunmuşdur. Alimin araşdırmaları sayəsində hər üç bölgə üçün xarakterik olan dil faktları əsasında bir sıra tarixi etnolinqvistik proseslər şərh edilmiş, fonetik, leksik-semantik və qrammatik cəhətdən fərqlənən tarixi dil faktları aşkar edilərək etimoloji təhlil və müqayisə edilmiş, "qədim oğuz dilinin varisi Naxçıvan qrupu şivələrinin digər türk dilləri ilə etnolinqvistik bağlılığı müəyyən edilmişdir" [2, s. 285]. Həmçinin, alimin bu istiqamətdəki tədqiqatlarında Şərqi Anadolu dialektlərinin fonetik cəhətdən Azərbaycan dilinə daha uyğun olduğu dialekt faktları ilə əsaslandırılmış, hər üç bölgənin dialekt leksikasına daxil olan hibrid kəlmələrin türk+fars, fars+türk mənşəli olması aşkarlanmış, dilimizin dialekt

qatından qonşu xalqların dillərinə keçən Azərbaycan-türk mənşəli dialekt sözləri təsbit edilmiş, türk dillərinin qədim dil xüsusiyyətlərini əks etdirən tarixi dil faktlarının tədqiqi əsasında hər üç bölgənin şivələrinin eyni kökdən qaynaqlandığı təsdiq olunmuş, şivələrdə mühafizə olunan çağdaş türk dillərinə məxsus qədim sözlər aşkarlanaraq geniş təhlil edilmişdir.

Yekun olaraq belə qənaətə gəlmək olar ki, Naxçıvan elmi mühitində aparılan tədqiqatlarda Cənubi Azərbaycanda dil məsələsinə xüsusi həssaslıqla yanaşılmış, bu məsələ bir sıra araşdırmaların əsas probleminə çevrilmişdir. Bu istiqamətdə dilçi alim Q.Hacıyevanın tədqiqatları elmi yeniliyi və aktuallığı ilə seçilir. Alimin illərlə apardığı elmi tədqiqatları sayəsində xalqımızın vahid mənşə birliyinin təsdiqində, tariximizin bəzi mübahisəli məsələlərinin aydınlaşdırılmasında əhəmiyyətli olan Cənubi Azərbaycan toponimlərinin leksik-semantik və qrammatik xüsusiyyətləri ilk dəfə sistemli araşdırılmışdır. Alim, həmçinin Cənubi Azərbaycanla bağlı araşdırmalarında Azərbaycan dilinin cənub qrupuna aid edilən Naxçıvan qrupu şivələrini çağdaş türk dilləri ilə müqayisəli şəkildə tədqiq etmiş, tarixən eyni soy-kökə malik türklərin dialekt leksikasının ən qədim qatını Naxçıvan, Güney Azərbaycan və Şərqi Anadolu dialekt və şivələrinin fonetik, leksik-semantik və morfoloji xüsusiyyətlərinin ortaq və fərqli cəhətlərinin geniş şərhi əsasında araşdırmışdır. Bu araşdırmalar Türk dünyasının ortaq dil və mədəniyyətinin soy-kök birliyini sübut etmək və tariximizdəki bəzi mübahisəli məsələlərə aydınlıq gətirmək baxımından olduqca əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1. Hacıyeva Q. Cənubi Azərbaycan toponimləri. Bakı: Elm, 2008, 200 s.
2. Hacıyeva Q. Azərbaycan dilinin Naxçıvan qrupu şivələrinin Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə fonetik və leksik müqayisəsi. Naxçıvan: Əcəmi, 2017, 328 s.
3. Hacıyeva Q. "Tavr" etnonimi əsasında yaranmış toponimlərin işlənmə arealı // 21 Azər, 2000, № 6, s. 45-46.
4. Hacıyeva Q. Şərqi Azərbaycanın bəzi etnooronimləri haqqında / Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafının müasir problemləri. Bakı: Diplomat, 1998.
5. Hacıyeva Q. Güney Azərbaycanda mövcud antroponimik oykonimlər / Tədqiqlər. Bakı: Elm, 1999.
6. Hacıyeva Q. Cənubi Azərbaycanın türk mənşəli hidronimləri // Çıraq, 1999, № 2, s. 34.

AMEA Naxçıvan Bölməsi
E-mail: sahabaliyeva89@gmail.com

Sahab Aliyeva

LINGUISTIC RESEARCH ON SOUTHERN AZERBAIJAN CARRIED OUT IN THE SCIENTIFIC ENVIRONMENT OF NAKHCHIVAN IN THE GENERAL TURKOLOGICAL PLANE

The paper examines the linguistic research carried out in the scientific environment of Nakhchivan in the South Azerbaijan direction in the general Turkological plane; the study involved works, scientific papers, and monographs of the linguist scientist Galiba Hajiyeva

on South Azerbaijan. It was noted that G.Hajiyeva focused her research on the comparative study of common dialectal features in the dialects of the Nakhchivan group belonging to the southern group of the Azerbaijani language, which has similar characteristics with modern Turkic languages. She studied the most ancient layer of the vernacular vocabulary of the Turks of the same historical origin based on a comparative study of the dialects of Nakhchivan, South Azerbaijan, and Eastern Anatolia, an extensive interpretation of the common and various features of the phonetic, lexical-semantic and morphological features of dialects and dialects of all three regions. The paper also widely analyzed the monographs and scientific papers of the scientist devoted to the study of toponyms of South Azerbaijan, brought to attention the importance of the author's toponymic studies on South Azerbaijan to confirm the unity of the origin of our people, clarify some controversial issues of our history.

Keywords: *Nakhchivan, South Azerbaijan, Anatolia, all-Turkic, Turkic language, toponym.*

Сахаб Алиева

ЛИНГВИСТИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ ПО ЮЖНОМУ АЗЕРБАЙДЖАНУ, ПРОВОДИМЫЕ В НАУЧНОЙ СРЕДЕ НАХЧЫВАНА В ОБЩЕТЮРКОЛОГИЧЕСКОЙ ПЛОСКОСТИ

В статье рассматриваются лингвистические исследования, проводимые в научной среде Нахчывана в южно-азербайджанском направлении в общетюркологической плоскости, к исследованию были привлечены изыскания, научные статьи и монографии ученого-лингвиста Галибы Гаджиевой по Южному Азербайджану. Было отмечено, что Г.Гаджиева сосредоточила свои исследования на сравнительном изучении общих диалектных особенностей в диалектах нахчыванской группы, относящейся к южной группе азербайджанского языка, имеющих сходные характеристики с современными тюркскими языками; она изучила древнейший пласт диалектной лексики тюрков одного исторического происхождения на основе сравнительного изучения диалектов Нахчывана, Южного Азербайджана и Восточной Анатолии, обширного толкования общих и различных черт фонетических, лексико-семантических и морфологических особенностей диалектов и говоров всех трех регионов. В статье также были широко проанализированы монографии и научные статьи ученого, посвященные изучению топонимов Южного Азербайджана, доведено до внимания значение топонимических исследований автора по Южному Азербайджану для подтверждения единства происхождения нашего народа, разъяснения некоторых спорных вопросов нашей истории.

Ключевые слова: *Нахчыван, Южный Азербайджан, Анатолия, общетюркологический, турецкий язык, топоним.*

(Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 27.01.2021
Son variant 15.02.2021

UOT 81 41; 801. 7

FİRUDİN RZAYEV

QIPÇAQLARDAKI QƏDİM TÜRK MİFİNİN NAXÇIVAN ƏRAZİSİ TOPONİMLƏRİNDƏ İZLƏRİ

Məqalədə əski türk mifik təfəkküründə xüsusi yeri olan qıpçaqlarda qədim türk mifinin Naxçıvan ərazisi toponimlərindəki izlərindən bəhs olunur. Tədqiqatlarda da adı keçən Qıpçaq, Tanrı mifinin tarixi m.ö. III-I minilliklərə söykənməklə, Altay, Sibir və b. türklərdə də xatırlanmaqla, ərazi toponimik adlarında günümüzə qədər qalmışdır. Bu qədim mifin Naxçıvan toponimlərində izi indiyədək Azərbaycan və türk alimləri tərəfindən tədqiq edilməmiş və onlarla bağlı Tanrı adının izahı verilməmişdir. Məqalədə qədim Naxçıvan ərazisi toponimik sistemindəki oykonimik adlarda Tanrı Qıpçaq mifik adları dil və tarixi faktlar əsasında təsdiq edilir. Bu mifi daşıyan tayfalar demək olar ki, Naxçıvanın bütün toponimik sistemin oykonim, oronim, hidronimlərində də ilkin böri variantında təkrarlanır.

Qıpçaq türk mifinin prototürklərlə bağlı adlarda qalması, bu mifik inancın qədimliyini sübut edir. İstər Naxçıvan, istərsə də Altay, Sibir və digər türklərdə bu adın yeri məqalədə elmi faktlarla əsaslandırılır.

Açar sözlər: *Qıpçaq mifi, Tanrı, Şaman, qurd, Naxçıvan, Altay, Sibir, oykonim, oronim.*

Azərbaycan xalqının, o cümlədən də Naxçıvan əhalisinin, təşəkkülündə xüsusi iştirakı olmuş **Qıpçaq** tayfalarının tarixi proseslərdə iştirakı, adı və əraziləri fərqli tarixlərdə və ərazilərdə göstərilmişdir. Tədqiqatlarda qıpçaqların ərazimizdə m.ö. VIII və eramızın XIX əsrlərinə qədər qeydə alındıqlarına dair xeyli yazılara rast gəlirik. Lakin, onların Naxçıvan ərazilərində hansı tarixi dövrdən məskunlaşması, daşıdıqları mifik inanc haqqında hər hansı məlumata rast gəlmirik. Qıpçaq tayfaları, eləcə də onların mifik inancları ilə bağlı adların daşıdığı mənalar tam öyrənilməmişdir. Çox böyük bir coğrafi arealda məskun olmuş bu türk boylarının tarixi və ərazisi xeyli tədqiqatların mövzusuna çevrilmiş, istər tarix, istərsə də yayım arealı haqda fərqli fikirlər söylənilmişdir. Bu səbəbdən də Qıpçaq türklərinin mifik inancları ilə bağlı adların digər prototürklərdə ifadə formalarına, bu mifin Naxçıvanla bağlılığı məsələsinə müqayisəli və bir qədər də geniş nəzər salmağı, qədim inanclarımız və elmi baxımından əhəmiyyətli hesab edirik.

Öncə qıpçaqların tarixinə, bu istiqamətdəki tədqiqatlarda onların mifik inanclarına qısaca nəzər salmaq istərdik. Qıpçaqlar haqqında xeyli sayda araşdırmalara biz V.L.Vinoqradov, B.A.Muradov, İ.O.Knyazkiy, D.A.Rasovckiy, Q.E.Qrum-Qrjimaylo, A.N.Baskakov kimi rus, istərsə də Orta Asiya müəlliflərinin tədqiqatlarında rast gəlirik ki, burada müxtəlif, bir-birini təkzib edən fikirlər söylənilmişdir.

Mənbələrdə qıpçaqların adı da müxtəlif dillərdə, müxtəlif səsəvəzlənmələrlə qeydə alınmış, V.L.Vinoqradovun yazılarında onların adı ərəb fars dilində "kıpçak", başqırdlarda "kıpsak", qazaxlarda "kıpşak", karaçay-balkarlarda "kıpçak", tatarlarda "kıpçaklar", özbəklərdə "qipchoq", kumıklarda "kıpçaklar", Avropa və Vizantiya mənbələrində isə "kuman" adında təsadüf olunduğu göstərilmişdir. Lakin, burada onların mifologiyası ilə bağlı hər hansı fikrə təsadüf etmirik [12, s. 141-144].

Bəzi tədqiqatlarda qıpçaqlar hun-qıpçaq və poloves qıpçaq tayfaları kimi göstərilsə də, İ.O.Knyazkiy, B.A.Muradov bu fikirlərlə razılaşmamış, onlar öz yazılarında hun-qıpçaq və poloves qıpçaq birliyindən bəhs edərək, poloveslərin qərb qoluna **şar** tayfalarının, şərqi qoluna

isə **hunların** birləşdirildiyini göstərmişlər [4, s. 45; 9, s. 120]. Biz bu yazılarda da hər hansı bir mifə təsadüf etmirik. Lakin, Biz A.N.Baskakovun yazılarında qıpçaqların bir ittifaqda olduğu tayfalardan bəhs edib, noqayların dili və dialektindən məlumat verməklə, onların qıpçaqlar kimi Kara noqay və Ağ noqayların ittifaqında yer aldığını, Qıpçaq damğasının __\ __\ bu şəkildə olduğunu qeyd etmişik [15, s. 436].

Qıpçaq türklərinin çox geniş bir arealda yayılması, onların məskun olduqları ərazilər, tarixi, yayım arealı və Naxçıvandakı izləri ilə bağlı elmi cəhətdən əhəmiyyətli məlumatlara biz Azərbaycan və Türkiyənin görkəmli tədqiqatçı alimləri Y.Yusifov, M.Vəliyev, F.Kırzıoğlu, Q.Qeybullayev, İ.Əliyev və başqalarının araşdırmalarında da rast gəlirik. Bu tədqiqatçıların Qıpçaq tarixi və ərazisi haqqındakı yazılarında qədim türk Koman-Qıpçaq birliyi, onların digər türk boyları ilə ittifaqı, bu tayfaların qolları və digər məsələlər geniş araşdırılsa da, yenə də onların hər hansı mifik inanc məsələlərinə toxunulmamışdır [15, s. 435-437; 16, s. 91-95].

Biz R.Özdəkin də yazılarında onların kumanlarla bərabər tarixi proseslərdə iştirakı, tarix səhnəsində kuman-qıpçaq, xəzər-qıpçaq-uz ittifaqında birləşdikləri haqda geniş məlumat verib, burada müəllifin Qıpçaq dövrünün tarix olaraq, eramızın XI əsrini yazdığını qeyd etmişik. Bununla bərabər qıpçaqların əraziləri və mifik inancları haqda Q.Qeybullayevin S.Q.Klyaştornıya istinadən yazılarındakı məsələlərə də aydınlıq gətirmişik. O, yazılarında qıpçaqların eramızın VI-VII əsrlərində həm **Şir,** həm də **Qıpçaq** adı ilə tanınması, bu dövrdə Koman-Qıpçaq birliyi haqdakı məlumatları, Albaniyada qıpçaqlarla bağlı Qomenk toponiminin olması barədə fikri tərəfimizdən açıqlanmışdır. Onun xalqımızın etnogenezi tarixində qıpçaq-peçeneq, peçeneq-bulqar, bulqar-xəzər, xəzər-qıpçaq-üz ittifaqı şəklində düşən Kuman, Kolmat, Kol, Kul boylarının qıpçaqların varisləri olduğu haqda fikirlərinə də nəzər salınmış, bu məlumatlara istinadən qıpçaqların m.ö. I minillikdə tarix səhnəsində olduğuna dair öz fikrimizi bildirmişik [15, s. 438-439].

Bu fikrimizin təsdiqinə Q.E.Qrum-Qrjimaylonun yazılarında da rast gəlirik. O, mənbələrdə eramızın V-VII-XI əsrlərinə aid edilmiş qıpçaqların m.ö. I əsrdə Altayda yaşayan Dinlin tayfalarının bir qolu olduğuna tarixi faktlar göstərərək, onların hunlar tərəfindən öz tabeliklərinə alındıqlarını göstərir [5, s. 57-59].

Biz D.A.Rasovskinin yazılarında da, qıpçaqlar haqında gərəkli tarixi faktlarla qarşılaşırıq. O, qıpçaqların adətlərindən danışsa da, mifik inanclar məsələsini geniş təhlil etmir, lakin onların Tanrı inancında olub, m.ö. 201-ci ildə hunların içərisində olduqlarına dair faktlar göstərir [14, s. 125-126, 132].

Qeyd edək ki, F.Kırzıoğlunun bu istiqamətdə tədqiqatları daha çox elmi əhəmiyyət daşıyır. Burada qıpçaqların tarixinin m.ö. VIII əsrdən başlandığı göstərilməklə, onların fəaliyyətləri ilk və son Qıpçaq dövrlərinə bölünür və ilk dövr m.ö. VIII, eramızın isə VI əsrinə aid edilir. Müəllif, "Uyğur", "Uzunkörpü", "Dədə Qorqud" və s. oğuznamələrdə, eləcə də Kartlis-Gürcü mənbələrində qıpçaqların sak, kuman, beçeneq, barsil, xəzər türk ittifaqlarında birləşdiyini tarixi faktlarla geniş təhlil edir. Son Qıpçaq dövründə VI-XIII əsrlərin siyasi proseslərinə diqqət yetirən F.Kırzıoğlu, XI əsrdə Çoruk boylarında qıpçaqların qərbə doğru köçlərini ətraflı araşdırır [15, s. 439]. Əgər diqqət etsək, burada hər hansı mifdən bəhs edilməsə də, müəllif ilk dövr olaraq qıpçaqları m.ö. VIII əsrə aid edir.

Bu araşdırmaların məntiqi nəticəsi, eləcə də qıpçaqların bir çox türk boyları ilə ittifaqları, m.ö. II-I minilliklərə söykənir. Onların Şir, Sak, Bulqar, Xəzər, Uz, Kuman, Barsil türkləri olması qənaəti və bir-birindən seçilməməsi dəfələrlə elmi məqalələrdə qeyd etdiyimiz bir

məsələni yenidən təsdiq edir ki, "böyük köçlər" hadisəsi Şimaldan Cənuba deyil, əsl həqiqətdə Ön və Kiçik Asiya, Naxçıvan əraziləri, qədim türk Mitan dövləti, Mesopotamiyanın mərkəzi torpaqlarından şimala doğru başlanmışdır. Onların geri – ilk yurd yerlərinə qayıdışı isə, siyasi yöndən yanlış "gəlmə" konsepsiyasını formalaşdırmışdır (F.R.).

Bəs bu tayfalar təbiəti, kainatı dərk etmədə hansı inanca sahib olmuş, hansı mifik düşümü öz inanclarında yaşatmışlar?

Biz yuxarıda onların Tanrı mifində olduğuna dair məlumatla qarşılaşdığımızı qeyd etdik ki, bir çox mənbələrdə qıpçaqların və onlarla bir ittifaqda olan prototürk tayfalarının mifində həm **Tanrı**, həm **qurd**, həm də **şamançılıq** miflərinə meylli olduqlarına dair xeyli faktlarla rastlaşırıq. Ensiklopedik əsərlərdə qıpçaqların əsas sitayişlərinin **Tanrıçılıqla** bağlı olduğuna, **Əbədi mavi səmaya** itaət etdiklərinə, eləcə də ilkin torpaqda mövcud olan **Umay** ana ilahəsinə ibadət etməsi versiyalarına rast gəlirik. Burada onların həm də **Qurd** mifinə inanmaqla, onu özlərinin əcdadı hesab etdikləri, şamançılıqla bağlı olduqlarına dair məlumatlar ilə qarşılaşırıq [3, s. 85-87; 6, s. 71-77, 117-119].

Bəzi mənbələrdə Qıpçaq türkləri **poloveç-Qıpçaq** adında göstərilməklə, onlarda şamançılığın da mövcud olduğu, şamanların **qam** adlandığı, onların gələcəkdən xəbər verdikləri, qəzəbli və xeyirxah ruhları görə bildikləri də, geniş şərh olunur [11, s. 43]. Əgər bura qədər olan bu faktlara diqqət etsək, onlar ancaq, Orta Asiya ərazilərində kəngər peçeneq, noqay, kalaç, akasir, hun qıpçaq, poloveç qıpçaq kimi birliklərin arasında göstərilməklə, tarixləri ilk dövr olaraq m.ö. VIII əsrə, Rəşid-əd Dinə istinadən isə m.ö. I minilliyin sonuna aid edilir. Burada göstərilən miflər isə, müxtəlif dövrlərlə bağlıdır. Bildiyimiz kimi, türklərdə istər Qurd mifi, istər şamançılıq, istərsə də Tanrıçılıq-Tenqrianlıq inancları m.ö. III-I minilliklərə söykənir. Bəs tanrıçılıqda ibadətlər necə, nə vaxt, harada həyata keçirilmiş, bu inanclarda hansı əşyalar müqəddəs sayılmışdır?

Biz yazılarımızda bu istiqamətdə olan bir neçə faktları oxucularla bölüşmüşük və bir faktı yenə də nümunə kimi göstərmək istərdik. Aleksandr Karkaveç Qıpçaq yazılarının tədqiqi zamanı onların dini inanc məsələlərinə də toxunmaqla, bu yazılardan birindəki inanc və ibadətlə bağlı nümunəni oxuculara təqdim edir. Onun təqdim etdiyi aşağıdakı bu əlifba sistemi, Qıpçaq ittifaqında olan bütün türk tayfalarına mənsub əlifba olaraq göstərilmişdir.

a (â) ä a¿ b c (c½, c›) cÿ (cÿ½) d dz¾ dzÿ¾ e (e½) e¿ f g © h i (i¼) ï (•) j k (k') ª l *ƒ* m n ± o (ô o½) ö p (p') q r (r½) s (s›) sÿ t (t') u (û) ü v w y z (z›) zÿ z.

Bildiyimiz kimi Mesrop Maştoç qədim türk Alban hərflərindən 19 hərf götürməklə, "erməni əlifbası" yaratmışdır ki, bu hərflərlə erməni əlifbasının heç bir əlaqəsi və oxşarlığı yoxdur.

Aleksandr Karkaveç mətnin əvvəllər ermənilər tərəfindən təhrif olunduğunu bildirir. Yeri gəlmişkən qeyd edək ki, bu yolla onlar Qıpçaq türklərinin tarixi, dili və inanclarına sahiblənmək üçün bu cür məkrli hiylələrə əl atmaqla, Alban tarixini "Erməni tarixi" kimi beynəlxalq aləmə çıxardıqları kimi, Qıpçaq dilinin "erməni" dili olduğunu da göstərməyə çalışmışlar. Onlar Qıpçaq dilinin lüğətini hazırlamaqla bu dilin ermənicə olduğunu iddia edərək, sözləri tamamilə erməni dilinə aid sözlər kimi təhrif etmiş, onu tamamilə ermənileşdirməyə çalışmışlar. Bu gördüyünüz əlifba kitabda qıpçaqların əlifbası olaraq göstərilsə də, bu əlifba ilə yazılmış türk dilində olan sözlər tamamilə təhrif edilmiş və cümlələrə yeni sözlər əlavə olunmaqla həcmi genişləndirilib, sonda cümlədəki sözlərə erməni dilindəki şəkilçilər əlavə edilmişdir.

Biz kitabdakı bu cümləni olduğu kimi oxuculara təqdim etmək istərdik. **Da alar esä turarlar, ulu yüz ayblarï bilä basÿlarïn asïp kensi ac½ak'likläri bilär. Kelir surp varakka xacÿ½ka actkp** [1, s. 783-784]. Əgər sözlərə diqqət etsək, mətn nə qədər təhrif edilsə də, sözlərin türk dilində olduğu göz önündədir.

Qeyd edək ki, biz bu dilin tədqiqatçısı olmasaq da, tərəfimizdən cümlədəki sözlərə qədim türk dili sözlükləri ilə diqqət etdikdə, cümlənin tam olaraq türk dilində olduğu ortaya çıxır. Bu cümlənin türk dili sözlükləri ilə tərcüməsi belədir: "Onlar əllərinə əsa alib durarlar, ulu üzü göyə qaldirib, başlarini açib öz eyiblərini etiraf edərlər. sabah erkən gəlib xaçlarini asirlar".

Bu cümlədəki ifadələrə diqqət etsək, Tanrı inancında olan qıpçaqlar həm də boyunlarında Xaç gəzdirirdilər ki, o dövrdə hələ xristianlıq yaranmamışdır və xaç dünyanın dörd cəhətini, ağzı haça xaçlar isə dörd ünsürdən (su, od, torpaq, hava) yaranması haqqında svastik işarə kimi türklərə aid idi. Bunu sübut edən bir faktı da oxuculara çatdırmaq istərdik. Naxçıvan ərazisində Orta Tunc dövrünə aid Gəmiqaya rəsmlərində də biz **Xaç** işarəsinə rast gəlirik ki, bu m.ö. III minilliyə söykənir. O dövrdə isə xristianlıq yox idi və bu **Tanrı, Tenqri** inancının da m.ö. III minillikdən mövcudluğunu bir daha sübut edir (F.R.). Bununla bərabər yazının məlumatında sadəcə islam dinində sübh namazına bənzər bir ibadət təsvir olunur ki, qıpçaqlar sabah erkəndən Tanrı qarşısında bütün günahlarına tanrıdan əfv diləməklə yaxalarına Xaç asırdılar.

Bu mətni erməni müəllifinin necə tərcümə etdiyini də oxuculara təqdim etmək istərdik. Qeyd edək ki, kitabda birinci göstərdiyimiz cümlə tərcümə edilməmiş, sadəcə beş sözdən ibarət son cümlə "На будущий праздник Варакского Святого Креста – праздник Варакского (Варагского) Святого Креста, который отмечается Армян" şəklində rus dilində tərcümə edilmişdir. Cümlənin Azərbaycan dilində tərcüməsi belədir: "Gələcək müqəddəs Varak Xaç bayramı – müqəddəs Xaç Varak bayramı, ermənilər qeyd edirlər" [15, s. 435-467].

Əgər diqqət etsək, burada cümlə tam deyil, anlaşılmır, sözlərdən "asmaq" feli atılmış və "Erməni" sözü ilə yanaşı əlavə artırılmalar edilmişdir, bu kitab xeyli nüsxədə dərc olunmaqla dünya dövlətlərinə paylanmış və nəticədə beynəlxalq aləmdə qıpçaqların erməni olduğu təbliğ edilmişdir.

Daha bir tarixi faktı da oxuculara çatdırmaq istərdik. A.A.Neyxardt öz tədqiqatlarında göstərir ki, xristianların ilk əsəri noviy zavet-"Əhdi-cədid", apokalipsisdə xaç "vəhşilik" rəmzi, işarəsi kimi göstərilirdi. III əsr xristian müəllifi Feliks Minusiy (eramızın 264-cü ilində) xaça nifrət bəslədiklərini, xaçın xristianlara lazım olmadığını qeyd edərək, taxtadan düzəldilmiş Tanrıya inancın bu rəmzini bütpərəstliklə bağlayır, onu daşıyan Hun və Qıpçaq türklərini – "hərbiçi-bütpərəstləri" lənətləyirdi. P.M.Debirov əsaslı tarixi faktlara söykənərək bu qədim Azərbaycan ərazilərindən aşkarlanan XAÇ işarələrini alban tayfalarının qədim Tanrı inancları ilə bağlı olduğunu göstərir [10, s. 21]. Nəhayət, tarixdə yer alan bir inkarolunmaz faktı da oxucuların nəzərinə çatdırmaq istərdik. Eramızın IV əsrində, xristianlığın 312-ci ilində Avropa auditoriyası qarşısında xristianların tək yaradan adına ilk xristian duası oxunur. Çox qəribədir ki, bu dua "xuday altında bütün Adəm açıq bulsun" – "Xudanın altında bütün adamlar açıq qəlblə dayansın-dursun" ifadəsi ilə türk dilində oxunur [15, s. 474-477]. Tanrı, sözü "Xuday", "Kuday", "Tənqri", "Tenqir", "Tanrı" şəkillərində bu gün belə Azərbaycan, Osmanlı türkləri, Orta Asiya türklərində paralel olaraq hər ikisi deyilməklə yer alır. Mənbələrə diqqət etdikdə isə, bu qədim türk inancının Altay türklərində **Tenqri, Tenqerey**, şor-saqylarda **Teqri**, xakaslarda **Tiqır, Ter,** tuvinlərdə **Deer,** yakutlarda **Tanqara**, çuvaşlarda **Tura**, monqollar və

kalmıklarda **Tenqer**, buryatlarda **Tenqeri**, **Tenqri,** Orta Asiya və Azərbaycan türklərində **Tanrı**, m.ö. III yüzillikdə hunlarda **Tenri**, şumerlərdə **Dinqir**-"Göy aləmi, Səma" adlarında təkrarını görürük. Bu mifdə "hər bir varlıqda ruhun mövcud olduğu" əsas götürülür və Göy ruhunun əbədiliyi qeyd edilir. O, insanların ruhunu, xalqın və millətin saflığını qoruyub, taleyini idarə edən çox qədim bir inanc olaraq göstərilir [7, s. 500]. Naxçıvan toponimik sistemində biz Culfa rayon, Əlincə vadisi toponimlərində Çətəndaş qayalığına bitişik **Ter** qaya, İlan dağdan şərqə **Dar** dağ, **Dərgəmərik (Dər+qəm+ər+ik)** – "Dər qam ərin varisi", Ordubad bölgəsində **Der** kənd, mənbələrdə qədim Naxçıvan mahalları və nahiyələrində **Tanqdar** kimi adlara təsadüf edirik ki, bu adlar ərazidə qədim mifin daşıyıcılarıdır (toplama materialları, F.R.).

L.N.Qumilyev türk torpaqlarında bu xaç işarəli məzarlıqların əski **Tanrı, Tenqri** inancında olan **Sak, Qıpçaq**, **massagetlərə** aid olduğunu yazır. Bu fikirlər Murad Acinin də yazılarında yer almış və o, hər bir qədim məbədin üzərindəki xaç işarələrinin daşıdığı məna və şərhləri verməklə, bu işarələrin m.ö. IX əsrə aid olub, Qafqazdan başlayaraq, Tanrıçılıqda olan digər türklərə və Altaylarda da yayıldığını elmi dəlillərlə sübut etmişdir [8, s. 54-97].

Bütün bunlara baxmayaraq biz inanırıq ki, Azərbaycan alimləri də tədqiqatlarında öz tariximiz və mifimiz haqqında daha sanballı əsərlər yazmaqla, bu istiqamətdə erməni uydurmalarına layiqli cavab verəcəklər.

Yuxarıda da qeyd etdiyimiz faktlarla yanaşı, bir çox yazılarda da qıpçaqlarda Şamançılıq, Qurd inamı ilə bağlı faktlara rast gəlirik ki, bu miflər Tanrı mifi daxilində yer alır. Bununla yanaşı Tanrı inancında "Xan" titulu da göstərilir ki, burada **Xan Tanrı, Qalxan, Burxan, Darxan** tanrıları ilə yanaşı **Monxe-Tanrı, Ataqa-Tanrı, Hisaq-Tanrı, Ülgen** tanrıları Altay, Sibir, monqollarda mövcud olan, bütün səma tanrılarını idarə edir. Burada bir qrup türkdə Tanrı oda sitayişə də meyllidir və tanrıları odu müqəddəsləşdirir [2, s. 54-62; 13, s. 3-36, 50-64].

Bütün bu mifoloji faktları bu gün biz Azərbaycan türklərinin də mifik inanclarında müşahidə edirik. Biz Allaha tapınmaqla yanaşı, "Tanrı bizə yar olsun", "Xuda köməyimiz olsun" kimi yüzlərlə ifadələrdə həm **Tanrı**, həm də qədim qıpçaqlardakı **Xuda** tanrılarını öz inanclarımızda yaşadırıq. Qurd mifinə gəldikdə isə, "Dədə Qorqud" dastanında Qazan xanın Qurdla görüşü, "Qurd üzü mübarəkdir, Qurdla xəbərləşim", "Qara başım qurban olsun Qurdum sənə" kimi ifadələri xalqımızın **Qurda** inancını, "Novruz" bayramında türk mifində geniş yer alan Oda sitayişinin **Şamançılı**q əlamətləri olması faktları qıpçaqların bir prototürk Azərbaycan tayfası olduğunun danılmaz sübutlarıdır.

Buna misal olaraq Naxçıvan ərazisi toponimlərindəki xeyli sayda qıpçaqların Çankı, Çala, Sığalı, Çala-Berd, Qarabulak, Çarık, Qaraağac, Ertüş boylarının m.ö. II minilliyin sonlarından XIX əsrə qədər xeyli adlarda öz izlərini qoyduqları da fikrimizin doğruluğunu sübut edir. Bu tarixi məlumatlara baxdıqda, onların qədim dövrlərdən Culfa bölgəsinin Qala-Berd, Cuğa, Berdik, Şərur bölgəsinin Kür Çulu, Qor-Çulu, Cəkni, Naxçıvan bölgəsinin Qaraçuq, Kalaçık kimi etnooykonimlərində öz adlarını yaşatdıqlarını görürük. Qıpçaq türklərinin digər qolları Küçət, Cuğrak, Qaraberk, Tuk, Urus, Kuç boylarının qədim Naxçıvana daxil olan müxtəlif nahiyələrdə Pirus, Tuk, Kanurəs, Kükü, Tuklu, Hors, Xurs, Mahrus, Dəşt-dəşti Qıpçaq, Xorsalı kimi 27 məntəqədə məskunlaşdıqlarını da sənədlərdən, məlumatlardan izləyirik [15, s. 453-465].

Tarixi yazıları izləyərkən biz, əski Subar, Kəngər, Bulqar, Şir, Kasak-Qazax, Kasər-Xəzər, Kuman, Xaçmataq, Vanand, Barsil, Sığnık, Uz, bir qədər sonralar isə Çik-Çigil, Kun, Burcaqlı, Başqırt, Akaser, Uran, Tokas, Kemek-Kumıq, Kul, Bulak, Kolmat, və s. türk boy-

larının ümum adına çevrilən qıpçaqların qarşısıalınmaz güc və **Kip saklar** olduğunu görürük. Saka boylarının kip, köp, sıx (kıpsak, kapsak, sıksak) fonetik səsəvəzlənmələrlə deyimi və ada çevrilməsi bu gün də qazax, qırğız, türkmən, uyğur və s. türk dillərində işlənməkdədir (F.R.).

Bütün bu faktları ümumiləşdirərək nəticə olaraq aşağıdakıları qeyd edə bilərik;

1. Naxçıvan ərazisində III minillikdən I minilliyə qədər Tanrıçılıqda olmuş prototürklər, o cümlədən də geniş yayılmış qıpçaqlar xaçları müqəddəs saymış, Naxçıvan ərazisi mədəniyyət nümunələrinin bəzilərində qeydə alınan xaç işarələri Tanrı inancı ilə bağlı olmuş, türklərdən 2840 il sonra xristianlıq dininə adlamışdır.

2. Bu əşya mifik inanc daşıyıcısı kimi skif, sak, sarmat, xaçmatak, massaget, alban, qarqar, hun, kaspi və s. türklərin məişətində də yer almış, İLK "XRİSTİAN" sözü türklərə deyilmiş və onlar dünyanın dörd cəhətini təmsil edən xaçları əllərində və rəsm işarə olaraq bayraqlarında gəzdirdiklərinə görə indiki xristianların əcdadları tərəfindən "bütpərəst" kimi lənətlənmişlər.

3. Xristianlıq dini Tanrıçılıq üzərində qurulmuş, onun ayin və türk adətləri sonralar xristianlığa adlamış, ilk XRİSTİAN duası türk dilində oxunmuşdur. Burada Xaçmatak türkləri tərəfindən təbliğ edilən Tanrı-Xuda adları çəkilmiş, bu inanc Naxçıvan ərazisi türklərində minilliklər boyu qalmaqla, bu gün də **Tanrı, Xuda** kimi inancımızda işlənməkdədir.

ƏDƏBİYYAT

1. Каркавец А. Кыпчакское письменное наследие. Т. III: Кыпчакский словарь по армянописьменным памятникам XVI-XVII веков. Almaty: BAUR – KASEAN, 2010, 1802 с.
2. Банзаров Д. Черная вера или Шаманство у монголов / Собрание сочинений. Москва: АН СССР, 1955, 436 с.
3. Большая советская энциклопедия: в 30-ти тт. / Гл. ред. А.М.Прохоров. 3-е изд., т. I, Москва: Советская энциклопедия, 1969, 608 с.
4. Князький И.О. Русь и степь. Москва: Наука, 1996, 129 с.
5. Грум-Гржимайло Г.Е. Западная Монголия и Урянхайский край. Т. II, Ленинград: Монгольская Народная Республика, 1926, 898 с.
6. Жерносенко И.А., Балакина Е.И. Культура Сибири и Алтая. Барнаул: Изд-во С.С.Жерносенко, 2011, 208 с.
7. Мифы народов мира. Энциклопедия. Т. II, Москва: Советская. Энциклопедия, 1988, 719 с.
8. Аджи Мурад. Дыхание Армагеддона. Москва: Хранитель, 2006, 253 с.
9. Муратов Б. А. Этногенез башкир: историография и современные исследования. Т. I: проект «Суюн», 2-е издание, исправленное и дополненное, Москва: Урал, 2013, 267 с.
10. Нейхардт А.А. Загадка «святого креста» [Текст]. Москва: Госполитздат, 1963, 46 s.
11. Плетнёва С.А. Половцы. Москва: Наука, 1990, 208 с.
12. Половцы / Словарь-справочник «Слова о полку Игореве» / Сост. В.Л.Виноградов. Вып. 4: О-П, Москва-Ленинград: Наука, 1973, с. 141-144.
13. Потопов Л.П. Древнетюркские черты: почитание неба у саяно-алтайских народов / Этнография народов Алтая и Западной Сибири. Новосибирск: Наука, 1978, с. 3-64.
14. Расовский Д.А. Половцы. Чёрные клобуки: печенеги, торки и берендеи на Руси и в Венгрии. Т. I, Москва: ЦИВОИ, 2012, 240 с.

15. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən (miladdan öncə III-I minilliklər). II c., Bakı: ADPU-nun mətbəəsi, 2017, 588 s.
16. Yusifov Y.B. Qədim şərq tarixi. Bakı: Bakı Universiteti, 1993, 496 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: firudinrzayev@gmail.com

Firudin Rzayev

TRACES OF THE BORI-KURT ANCIENT KYPCHAK MYTH IN THE TOPONYMS OF THE NAKHCHIVAN TERRITORY

The paper studies the traces of the ancient Turkic myth of the Kypchaks, which occupy a special place in the ancient Turkic mythological thinking, in toponyms in the territory of Nakhchivan. The history of the Kypchak myth about Tengri mentioned in the research refers to the III-I millennium BC; this myth has remained in the Altai, Siberian, and other Turks' memory. Its traces remained in place names on the territory of Nakhchivan up to our day. Azerbaijani and Turkish scientists have not yet studied the traces of this ancient myth in the toponyms of Nakhchivan, and the meaning of the name Tengri has not been explained in connection with them. Based on linguistic and historical facts, the article confirms that Tengri and Kypchak's mythical names have analogs in the oikonyms of the toponymic system in the territory of ancient Nakhchivan. The name of the tribes bearing this mythological name repeats in the original version "bori" (wolf) in almost all oikonyms, oronyms, hydronyms of the Nakhchivan toponymic system.

The fact that the Kypchak Turkic myth has remained in the names associated with the proto-Turkic peoples proves this mythical belief's antiquity. The place of this name in Nakhchivan and among the Altai, Siberian, and other Turks is substantiated in the paper by scientific facts.

Keywords: *Kypchak myth, Tengri, Shaman, wolf, Nakhchivan, Altai, Siberia, oikonym, oronym.*

Фирудин Рзаев

СЛЕДЫ ДРЕВНЕТЮРКСКОГО КЫПЧАКСКОГО МИФА В ТОПОНИМАХ НАХЧЫВАНСКОЙ ТЕРРИТОРИИ

В статье рассматриваются следы древнетюркского мифа кыпчаков, занимающих особое место в древнетюркском мифологическом мышлении, в топонимах на территории Нахчывана. Упомянутая в исследованиях история мифа Кыпчаков о Тенгри относится к III-I тысячелетию до н.э., этот миф сохранялся в памяти алтайских, сибирских и других тюрок, его следы остались в топонимах на территории Нахчывана до нашего дня. Следы этого древнего мифа в топонимах Нахчывана еще не изучены азербайджанскими и турецкими учеными, и значение имени Тенгри не объяснено в связи с ними. В статье на основе лингвистических и исторических фактов подтверждается, что мифические имена Тенгри и Кыпчак имеют аналоги в ойконимах топонимической

системы на территории древнего Нахчывана. Название племен, носивших это мифическое имя, повторяется в первоначальном варианте «бори» (волк) почти во всех ойконимах, оронимах, гидронимах топонимической системы Нахчывана.

Тот факт, что кыпчакский тюркский миф сохранился в названиях, связанных с прототюрками, доказывает древность этого мифического верования. Место этого имени как в Нахчыване, так и у алтайских, сибирских и других тюрков обосновывается в статье научными фактами.

Ключевые слова: *Кыпчакский миф, Тенгри, Шаман, волк, Нахчыван, Алтай, Сибирь, ойконим, ороним.*

(*AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

Daxilolma tarixi: İlkin variant 22.01.2021
Son variant 11.02.2021

UOT 81'28;81'286

NURAY ƏLİYEVA

NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ MƏİŞƏT LEKSİKASI

Məqalədə Naxçıvan dialekt və şivələrinin leksikasının bir qolu olan məişət leksikası tədqiqata cəlb olunmuşdur. Naxçıvan bölgəsi insanların qədim yaşayış məskəni olmaqla, burada yaşayan əhalinin dilində maraqlı məişət leksikası formalaşmışdır. Məişətin müxtəlif sahələrində işlənən regional xarakterli bu dil vahidlərinin böyük bir qismi dilimizin daxili imkanları hesabına yaranmış milli sözlərimizdən ibarətdir və quruluşca da sadə, düzəltmə, mürəkkəb olur. Məqalədə eyni zamanda məişətimizdə işlənən əşyaların söz birləşməsi ilə ifadə olunan adları da tədqiqata cəlb olunmuşdur. Burada məişətdə işlənən leksik vahidlər qab-qacaq adları, yatacaq adları, müxtəlif alətlərin adları və elektriklə işləyən əşyaların adları şəklində qruplaşdırılaraq araşdırılmışdır. Bölgədən toplanmış dialektoloji materiallar və bu materiallar içərisindən seçilən məişətimizdə istifadə etdiyimiz sözlər bunu deməyə əsas verir ki, Naxçıvan dialekt və şivələrinin ümummilli leksika əsasında formalaşmış çox zəngin leksikası vardır və buraya daxil olan sözlərin tədqiqi dil tariximiz, türk dillərinin ortaq keçmişini öyrənmək baxımından çox əhəmiyyətlidir.

Açar sözlər: *leksika, dialekt və şivə, məişət, alət, əşya.*

Dildə və dil vahidlərində baş verən inkişaf və ya tənəzzül xalq tərəfindən formalaşan ədəbi abidələrdə, o cümlədən yazılı mənbələrdə özünü əks etdirir. Bununla yanaşı, bildirməliyik ki, konkret olaraq bir dil üzrə təhlil üçün ən doğru mənbələr dialektlərdir. Belə ki, işlək dildən tərk olunan sözlər dialektlərdə və şivələrdə qorunub saxlanıla bilir. Tarixən müstəqil leksik vahid kimi mövcud olan belə sözlər dialektlərdə ya eyni semantik yüklə, ya da müəyyən dəyişikliklə işlənir. Bu mənada da Azərbaycan dili dialekt və şivələrinin bizə verdiyi materialların rolu əvəzsizdir. Bir çox hallarda qədim abidələrə məxsus olan sözlər semantik boşalma keçirərək onun variantları dildə sabitləşdiyi, geniş işləndiyi halda, bəzən qədim kök və ya söz dildə qalır, ondan əmələ gələn sözlər ya arxaikləşir, ya da dialektlərdə mühafizə olunur.

Cəmiyyətin inkişafı özünü hər bir xalqın məişətində də qabarıq şəkildə göstərir. Yəni bizi əhatə edən aləm dəyişdikcə, inkişaf etdikcə insanların həyat tərzi də dəyişir, inkişaf edir. Bu inkişaf məişətimizdən də yan keçmir. Bu baxımdan hər yerdə olduğu kimi, Naxçıvanda da məişət əşyalarının zamanla forması dəyişdiyi kimi, bu əşyalarla görüləcək işlərin məzmununda da fərq yaranır. Elektriklə işləyən, az əl əməyi sərf olunan əşyalar məişətimizə daxil olduqca, onların ifadəçisi olan leksik vahidlər də özünə yer tapır. Beləliklə də onların adlarını bildirən leksik vahidlər yaranır. Bu əşyaların bir qismi texnikanın inkişafı ilə əlaqədar meydana çıxdığı üçün onların adları da alınma sözlərlə ifadə olunur. Beləliklə də dilə başqa dillərdən yeni sözlər – neologizmlər daxil olur. Naxçıvan dialekt və şivələrində işlənən ev əşyalarının adını bildirən leksik vahidləri işləndiyi sahələrə görə müxtəlif cür təsnif etmək olar: 1) qab-qacaq adı bildirənlər; 2) yatacaq adı bildirənlər; 3) məişətdə işlədilən alət adı bildirənlər; 4) elektriklə işləyən əşyaların adını bildirənlər. Naxçıvanda qab sözü ümumiləşdirici söz olaraq işlənmə yerindən, həcmindən, hazırlanma materialından asılı olmayaraq hər cür qabın adını ifadə edir. Qab sözü cəmlik, çeşidlik anlamında işlənən zaman qacaq ilə birlikdə işlənərək qab-qacaq ifadəsini meydana gətirir.

Burada ədəbi dildən fərqlənən qab-qacaq adları bildirən terminoloji leksikanı quruluşuna və mənşəyinə görə təsnif etmək olar. Quruluşuna görə bu sözlər həm sadə, həm düzəltmə,

həm də mürəkkəb olur. Mənşəyinə görə isə həmin sözləri əsl Azərbaycan sözləri və alınmalar kimi qruplaşdıra bilərik.

Azərbaycan dilinin lüğət tərkibi öz mənşəyinə görə yekcins deyil. Azərbaycanlılar tarixən müxtəlif etnik qruplarla qarşılıqlı əlaqədə olmuşlar ki, bu da dilin müxtəlif yaruslarında olduğu kimi, leksikasında da müəyyən izlər buraxmışdır. Azərbaycan dili şivələri də bu qarşılıqlı təsirdən kənarda qalmamışdır. Dialekt leksikasının dil mənbəyindən danışarkən qədim türk-Azərbaycan və alınma qatını izləmək məqsədəuyğundur. Bu sahədə toplanan faktiki dil materialları belə bir fikir söyləməyə imkan verir ki, Azərbaycan dili dialekt və şivələrində əsl türk Azərbaycan mənşəli sözlər ön planda durur. Azərbaycan dilindəki sifətlər, əvəzliklər, saylar, feillərin, demək olar ki, əksəriyyəti dilimizin özünəməxsus qədim sözlərdir. Bu fikri Naxçıvan dialekt və şivələrindən toplanmış dialektoloji materiallardan seçilmiş məişətdə işlənən sözlər haqqında da demək olar. Tədqiqat göstərir ki, şivələrdə işlənən məişət leksikasının böyük bir hissəsini milli mənşəli dil vahidləri təşkil etməkdədir.

Burada işlənən sadə dialekt leksemlərə aşağıdakıları nümunə göstərə bilərik: çömçə, küp, cam, pa:ş//parç, xum, te:ş//teşt, tava, təx′nə, tabax, bərni, bulut//bulud, seyin//sehin, sənəx′, bardax, məjmehi, bayda, sərniş//sərnic, lüleyin “su qabı”; ərsin və s.

Azərbaycan dili baxımından sadə söz kimi qəbul edilən alınmalara aşağıdakıları nümunə göstərə bilərik: quruşqa “su içmək üçün qab”; masqor “fincan”; darelka//tarelqa//nimçə “boşqab”; matra “su qabı”; zir//zer “nəlbəki”; kuzə//kuze “səhəng”; isdəkan//istikan; sanavar//simavar//sinavar; bojqa//boşqa//boçqa; biton; qasturka//kasdurka; badnus.

Naxçıvan dialekt və şivələrində işlənən qab-qacaq adlarının bir çoxu müxtəlif leksik şəkilçilərlə düzəlmiş törəmə sözlərdir. Bunlara aşağıdakıları nümunə göstərə bilərik: küpə; dibəx′; süzəx′; dolça “quyudan su çəkmək üçün istifadə edilən qab”; qazança; ləyənçə; açar “qıfıl”; çalxar “nehrə”; kəsər “qayçı”; kündəgir; kəfgir; yaxınkeş “boşqab”; süzgəc; ayax+lı//əyəx+lı “üzərində xəmir yaymaq üçün torpaqdan hazırlanmış əşya”; qapaxlı; qulplu; sapılca (Bu söz sap kökündən və lı+ca şəkilçilərindən ibarətdir. Deyilişi asan olsun deyə l-ı yer dəyişməsi baş vermişdir); qulpluca “su qabı”; ağızdıx; boğazdıx “qıf”; asmalıx; qaşıxlıx.

Naxçıvan dialekt və şivələrində də Azərbaycan dilinin digər dialekt və şivələrində olduğu kimi, qab-qacaq adları mürəkkəb söz və söz birləşməsi ilə də ifadə olunur: birəlli//tayəlli//təkəlli “su içmək üçün istifadə edilən qulplu mis parç”, çilosüzən “aşsüzən”; gudul küpə “qulpu qırılmış küpə”; mis qablama; saxsı ləyən//lə:n; paxır qazan; yekə çömçə və s.

Burada hər iki komponenti isim və ya isimləşmiş leksik vahidlərlə ifadə olunan, birinci komponenti qeyri-müəyyən yiyəlik hallı, ikinci tərəfi mənsubiyyət şəkilçili isimlərdən ibarət ev əşyalarının adını bildirən söz birləşmələri və mürəkkəb sözlərə daha çox təsadüf olunur: el qazanı//eysan qazanı; el samavarı//el sinavarı//el simavarı; xəmir təx’nəsi; çörəx’ taxdası; paltar vannası; süd maşını; dibəx’ daşı; su daşı; təndir şişi; küflə tıxacağı “təndir küfləsinin (hava yerinin) ağzını qapamaq üçün köhnə pal-paltardan hazırlanmış əşya”; kül qabı; qət qabı; sac ayağı//sac əyağı; yağ qabı; bal maşını.

Naxçıvan dialekt və şivələrində ikinci komponenti feili sifətlə ifadə olunan mürəkkəb sözlər də qab-qacaq adı bildirir ki, burada ikinci tərəf artırıldığı əşyanın gördüyü işi, hərəkətlə ifadə olunan əlaməti bildirir: cəvizqıran; qavırqaəzən, qətqıran, aşsüzən; südsüzən; qurudəzən//əngənəx’; əppəx’yapan; qazanqapan//tutacağ//tutqaç//tutqaş “isti qab götürmək üçün istifadə olunan əşya”.

Azərbaycan dilinin tədqiq olunmuş digər dialekt və şivələrində olduğu kimi, Naxçıvan dialekt və şivələrində də yatacaqla bağlı terminlər o qədər də çox deyil. Şübhəsiz ki, bu,

yatacaqla bağlı əşyaların çeşidinin ümumiliyi və azlığı ilə bağlıdır. Regionda işlənən bu sahə terminləri ədəbi dildən və dilimizin digər dialekt və şivələrindən fonetik və semantik cəhətdən fərqlənir: Tax//taxt//taxd "iki nəfərlik taxta çarpayı"; qarafat//qaravat "dəmir çarpayı"; bağlama (Culfa)//basğı (Şərur)//nazbalış (Şərur) "balınc". Bu mənanı Gəncə dialekti və Salyan, Ağcabədi, Ağdam, Bərdə şivələrində başaltı [1, s. 36] sözü bildirir.

Yasdıx//yasdığ "yastıq". Bu söz qədim sözlərimizdən olub, tarixi abidələrimizin dilində də işlənmişdir: – Uyxu yasdıq istəməz [9, s. 56] və ya – Bir yasdıqda baş qoyduğum [9, s. 53]. Bu söz əslində dayanmaq mənasında bir çox türk dillərində və abidələrimizdə işlənən yaslanmaq, yastanmaq kəlməsindən yaranmışdır. M.Kaşğari də "dayanmış olmaq" mənasında yastal vahidini qeyd edir [8, s. 128]. Müasir Türkiyə türkcəsində də yaslanmak "dayanmaq" mənasındadır. Qədim türklərdə çadırlarda döşəklərin kənarına dayanmaq üçün düzülən içinə yun doldurulmuş əşyalar da yastık adlanmışdır. Yastıq sözü müasir dilimizdə "yatarkən başın altına qoyulan içərisi quş tükü, pambıqla doldurulan dördkünc kisəcik" [4, s. 549] kimi izah olunur. Lakin Naxçıvan dialekt və şivələrində bu izaha daha çox balınc sözü uyğun gəlir. Yasdıx sözünün ifadə etdiyi məna isə "silindr formasında olan həm yatmaq, həm də oturanda dirsəklənmək üçün içərisinə pambıq, yun doldurulmuş əşya" kimi izah oluna bilər.

Yorqan "yorğan". Yorqan, döşəx' terminləri ilə bağlı olaraq onu qeyd etmək lazımdır ki, haqqında danışdığımız dialekt və şivələrdə bu terminlərin ifadə etdikləri əşyaların materialından və nə məqsədlə hazırlandığından asılı olaraq çeşidləri ifadə edən terminlər də özünü göstərir: yun döşəx', pambıx döşəx', cehiz yorqanı, ərgən yorqanı, yay yorqanı, kürsü yorqanı və s.

Barxana "yorğan-döşəyin məcmusu". – Barxananı yığardıx geşmişdə əvin bir tərəfində durardı (Babək). – Gənə barxanasın töküp ortuya (Naxçıvan). Barxana "ev şeyləri, ləvazimatı, avadanlıq, cehiz" [5, s. 199] mənasında Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində; "ev şeyləri, avadanlıq" [2, s. 34] mənasında Çəmbərək, Qazax, Şəmkir, Tərtər, Tovuz dialekt və şivələrində; "qıza verilən cehiz" mənasında Qazax, Şəmkir, Zəngilan dialekt və şivələrində; "boğça, bağlama" mənasında Qarakilsə, Laçın şivələrində; "oğlan tərəfindən qız evinə meyvə sovqatı" [2, s. 34] mənasında Meğri şivələrində qeydə alınmışdır.

Mitil "yorğan-döşək astarı, kəfrəm". Bu leksik vahid Şəki dialektində "yorğan-döşək astarı" mənasında qeydə alınmışdır. A.Vəliyev mitil sözünün "yorğan-döşək" mənasında Göyçay keçid şivələrində işləndiyini və bu sözün "Türk dilinin Ərzurum, Sivas, Elazığ və s. şivələrində mitil//mitel şəklində "üzsüz yorğan, döşək və yataq" mənasında işləndiyini qeyd edir [10, s. 57].

Fərməc//fərməş//marfaş "məfrəş, yorğan-döşək yığılan əşya". Dialektoloji lüğətlərdə bu leksik vahid farmaş, mərfəş şəklində eyni mənada və Şəki dialektində isə "paltar sərilən yer" [1, s. 185] mənasında qeydə alınmışdır.

Yüx' "yorğan-döşəyin üst-üstə yığımı". Naxçıvan dialektində yüx' (yük) sözü ilə bağlı yükaltı "üzərinə yorğan-döşək yığmaq üçün hazırlanan əşya"; yüküzü "yükün üzərinə salınan pərdə-örtük" və s. sözlər də işlənir.

Döşəx'çə "kiçik döşək". Bu mənanı Ordubad dialektində dizdöşəyi [1, s. 147], Quba, Masallı, Şərur, Salyan, Füzuli və Şamaxı dialekt və şivələrində isə nalça [2, s. 411] sözləri ifadə edir.

Milçəx'dan//miçətgən "milçəkdan".

Yüyrüx'//yüyürüx'//nənni "sicim və palazdan düzəldilən beşik". – Uşax yüyrüx'də irahat olur. Əvdə dirəx'lərin arasınnan asardıx nənnini, kimdi indi nənni asan. Şivədə yüyrüx' ismindən yürgələ (mək) feli də işlənir. Yüyrüyü hərəkət etdirmək mənasında yüyürüx'//

yü:rük//yürük [2, s. 637] leksik vahidi Zəngilan, Şirvan, Cəbrayıl şivələrində "beşik, nənni" mənalarında qeydə alınmışdır.

Naxçıvan dialekt və şivələrində yatmaq üçün ayrılmış, hazırlanmış yer də müxtəlif terminlərlə ifadə edilir: çardax "dörd ağac üzərində yatmaq, dincəlmək üçün hazırlanmış yer". – Çardağı bağmannar midaxıl vaxdı bağda, bostançılar bostanda qurallar (Şahbuz).

Səki "tövlədə yatmaq üçün yerdən bir qədər hündür sahə". – Səkilərdə qışda nökərnayıb yatarmış əvvəllər (Babək: Cəhri).

Dam "binanın üstü". – Qabaxlarda yay girməmişdən çıxıb damda yatardılar (Babək: Cəhri).

Kətil "isti vaxtı yatmaq üçün həyətdə hazırlanmış qurğu". – Maşallah, həyətlərdə elə kətillər düzəldiblər kin, iki-üş mərtəbə, əvdən qəlbi (Şahbuz: Külüs).

Dialektoloji lüğətdə kətil sözü Quba dialektində "ev tikərkən hər 3-4 kərpicdən sonra uzununa qoyulmuş ağac" [1, s. 279] mənasında qeydə alınmışdır.

Bölgədə bunlarla yanaşı ədəbi dilimizdə olan yatacaqla bağlı terminlər də işlənməkdədir.

Naxçıvan dialekt və şivələrinin lüğət tərkibində ev əşyalarının adını bildirən leksik vahidlər o qədər də geniş yer tutmur. İşlənən terminlərin isə əksəriyyəti alınmalardır. Bu isə onunla izah oluna bilər ki, əvvəllər bizdə ev indiki kimi müxtəlif əşyalarda dolu olmurdu. Ümumiyyətlə, qədim Azərbaycan evləri üçün sadəlik, sayalıq xarakterik idi. Elə buna görə də ədəbi dillə müqayisədə dialektal fərq özünü fonetik cəhətdən göstərir: qıreslo "kreslo"; işqaf//işqab "şkaf"; kitab işqabı; istenka; qabax istolu//qavax işdolu; tabredqa "arxasız stul"; tufar işqabı//dufar işqafı; paltar işqafı; quxna mebeli//quxni mebeli; yatax mebeli; servat//servand və s.

Adları əsl Azərbaycan sözləri ilə ifadə olunan ev əşyaları isə əsasən qədimdən evlərimizdə olan əşyaların adlarıdır ki, onlara aşağıdakıları misal gətirmək olar: sandıx, ikiqulplu sandıx, sandıqça, mücrü, ayna, bədənnamə ayna.

Naxçıvan dialekt və şivələrinin lüğət tərkibində maraqlı leksik qatlardan biri də məişətdə işlədilən alət adlarını bildirən söz qrupudur. Bu qrupa daxil olan leksemləri semantikasına görə aşağıdakı kimi təsnif etməyi məqsədəuyğun bildik:

Dəmirdən hazırlanmış alət adları.

Ağacdan hazırlanmış alət adları.

Daşdan hazırlanmış alət adları.

Naxçıvanın rayonlarında alət əvəzinə hacat//həcət//həcəd sözü ümumiləşmiş termin kimi özünü göstərir. -İşi həcət görər, höcət yox (Babək: Vayxır). Dialektoloji lüğətlərdə də hajat (Marneuli) "ev şeyləri" [1, s. 218]; həjət (Cəbrayıl, Laçın) "alət"; həcət "alət" [1, s. 218] mənalarında qeydə alınmışdır. İraqda yaşayan soydaşlarımızın şivələrində də hacat sözünün "alət" [7, s. 364] mənasında işləndiyi göstərilir.

Çaqqı "iki, üç ağızlı bıçaq". – Bir kəsərri çaqqım vardı, çoban Kərim aldı, hələ də qəytərəcəx' (Şərur: Çərçiboğan). Çaqqı [1, s. 88] Ordubad dialekti və Meğri şivələrində "cib bıçağı" mənasında qeydə alınmışdır.

Qəmətti "qatlanmayan mətbəx bıçağı". Bu leksik vahid dialekt və şivələrimizin bir çoxunda "qəmaltı", "qəmətti", "qəməti" şəklində "balta", "qatlanmayan bıçaq", "mətbəx bıçağı", "böyük bıçaq" [1, s. 321] mənalarında qeydə alınmışdır. Bizə belə gəlir ki, qəmətti sözünün kökü Azərbaycan dilində xəncərin bir növü olan qəmə sözündəndir.

Çapacax "dəhrənin bir növü". – Çapacağı qəssablar işdədər, cəmdəyi onnan şaqqalallar (Culfa: Milax). Bu söz düzəltmə sözdür, çapmaq, doğramaq feilindən düzəlmişdir.

Nacax "kiçik balta". – Nacaxnan ət doğrarıx (Ordubad: Aza).

Lənpə//ləmpə "lampa"; xəçirgət//xəçirdəx' "təndirin, ocağın üstünə qazan qoymaq üçün eninə qoyulan yastı dəmir"; sünbə//sümbə "qısa şiş"; kündəgir "ərsin"; sajayağı//sacəyağı "üstünə sac qoymaq üçün hazırlanmış dəmir əşya"; açar//haçar "qıfıl"; qəvərə//qəvrə; şiş və s.

Ağacdan hazırlanan alət adları nehrə; duvax//dŭax "üstündə xəmirdən müxtəlif un məmulatı, çörək növləri hazırlamaq üçün istifadə edilən dairəvi taxta". Bu leksik vahidin doax//duax; do:ax fonetik şəklində Bolnisi, Qazax, Tovuz rayonlarında həm həmin mənada, həm də qabın ağzını örtmək üçün dairəvi taxta qapaq [1, s. 147] mənasında işlənməsi göstərilmişdir; irəfətə//əppəx'yapan "təndirə çörək yapmaq üçün cavan budaqlardan toxunmuş alət". Bu leksem dialektoloji lüğətlərdə Culfa və Qarakilsə şivələrində ilfidə; Zəngilan şivəsində ilfitə; İmişli, Şərur, Zəngilan şivələrində irəfətə [1, s. 256, 259] fonetik şəklində eyni mənada verilmişdir. Kürsü, toxmax, ətkötüyü, ayaxlı//əyaxlı//çörəx' taxtası//taxta "üzərində lavaş açmaq üçün hazırlanmış alət"; oxlav//oxlov; vərdənə "yoğun oxlov"; çanax "qənd doğramaq üçün hazırlanmış taxta qab"; çatma "nehrəni asmaq üçün hazırlanmış əşya". – Çatmanı üş dənə düz ağaşdan elərix' (Şahbuz: Kükü).

c) Daşdan hazırlanan alətlər.

Azərbaycan dilinin başqa dialekt və şivələrində olduğu kimi, Naxçıvan dialekt və şivələrində də keçmiş zamanlarda daş və torpaqdan hazırlanmış alətlərin bir çoxu məişətdə bu gün də işlənməkdədir. Bir qrup bu qəbildən olan əşyaların isə özləri məişətimizdən çıxsa da, onların adları şivədə qalmaqdadır. Belə arxaikləşmiş dialektal vahidlərə aşağıdakıları nümunə göstərmək olar: xart//xartdaşı "kəsici alətləri itiləyən xüsusi daş". -Hər daşdan xart daşı olammaz. Xartdaşı yumşax, yağlı daşdan olar (Babək ş.). Xart Şəki dialektində "dəryaz itiləyən daş", Borçalı, Şərur şivələrində "kəsici alətləri itiləmək üçün daş" [1, s. 238] mənalarında işlənir.

Savdaşı//kərənti daşı "bülöv". Şivələrdə itiləmək sözü ilə sinonim olan savlamax feili də savdaşı sözü ilə bağlıdır. Ətdaşı "üstündə ət döyülən daş"; dibəx´ daşı "dibəkdə nəyisə döymək üçün işlədilən daş"; kırkıra//əldaşı "əl dəyirmanı". Bu mənanı Ordubad, Quba dialektlərində, Astara, Cəlilabad, Lənkəran şivələrində dasdar//dassar//dastar [1, s. 125] sözləri ifadə edir. Qeyd edək ki, kırkıra//kirkirə səs təqlidi ilə yaranan sözdür.

Çaxmaxdaşı "sərt daş". Qədimdə insanlar bu daşa dəmir vurmaqla çıxan qığılcımdan istifadə etmişlər. -Əşi, indi kimdi qav qəyirən, çaxmaxdaşı, çaxmaxdəmiri qəyirən, hərə bir jajqalqa de:llər, nə de:llər onnan əmrin aşırır (Şahbuz: Külüs).

Sudaşı "bulanıq suyu təmizləyən daş". – Sudaşını aran kətdərində işdədəllər (Şahbuz: Gömür). Daha çox Şahbuz rayonu şivələrində rast gəldiyimiz bu vahidin ifadə etdiyi leksik mənada Naxçıvanda kəfər leksemi işlənir.

Naxçıvan dialekt və şivələrində daşdan müxtəlif məqsədlər üçün əşyalar düzəldib, həmin əşyanın adlanmasında da daş sözünü əlavə etmişlər: daşyalax "itə yal tökmək üçün istifadə edilən içərisi oyulmuş daş"; daştəx´nə "mal-qaranın su içməsi üçün axar suyun qarşısına qoyulan, daşdan hazırlanan təknə"; daşşırran "daşdan hazırlanan boru". Bundan bulağın suyunu bir yerə yığmaqda istifadə etmişlər. Şahbuz rayonu ərazisində Təx´nəli bulax//Təx´nəli bılax, Şırrannı bılax onomastik vahidləri də var.

Duzdaşı "mal-qaraya üstündə duz səpilən daş"; pənir daşı "pendir istehsalında istifadə edilən daş". -Dələməni torbuya töküb, pənirdaşını qoyŭrux torbanın üssünə, həm suyu tez süzülür, həm də kin, başpendir yaxcı alınır (Şahbuz: Daylaqlı).

Dünyanın hər yerində olduğu kimi, Naxçıvanda da elektrik geniş şəkildə məişətə daxil olmuşdur. Burada elektrik cərəyanı mənasında tok leksemi işlədilir. Naxçıvan dialekt və şivələrində elektriklə işləyən alət adlarını aşağıdakı kimi təsnif edə bilərik:

1) Fonetik dəyişikliyə uğrayan alınmalar.

2) Birinci tərəfi qeyri-müəyyən yiyəlik halda, ikinci tərəfi mənsubiyyət şəkilçisi qəbul edərək ikinci növ təyini söz birləşməsi yolu ilə formalaşanlar.

3) Birinci tərəfi qeyri-müəyyən təsirlik halda olan isim, ikinci tərəfi feili sifətin birləşməsi yolu ilə formalaşanlar:

Fonetik dəyişikliyə uğrayan alınmalar: lampuşqa//lənpuşqa "lampa"; xaladelnix´ "soyuducu"; televizir//tilivizr "televizor"; iradiyo "radio"; piryomnix´; pilastinqa//bilastinka "val"; qaset "kaset"; duxofka; lüsdür//lüstür "lüstr"; qıramafon "qrammofon".

Birinci tərəfi qeyri-müəyyən yiyəlik halda, ikinci tərəfi mənsubiyyət şəkilçisi qəbul edərək ikinci növ təyini söz birləşməsi yolu ilə formalaşanlar: tok çaydanı, ət maşını, süd maşını, paltar maşını, tok səmavarı.

Birinci tərəfi qeyri-müəyyən təsirlik halda olan isim, ikinci tərəfi feili sifətin birləşməsi yolu ilə formalaşanlar: paltar yuyan, tozsoran, üz qırxan, sok çəkən//şirə çəkən, saç quruluyan.

Ümumiyyətlə, Naxçıvan qdialekt və şivələrinin leksikası olduqca zəngindir. Burada digər qohum türk dilləri ilə həm oxşar, həm də fərqli cəhətlər olduqca çoxdur. Buna görə də məhz dillərin bir-birinə təsiri altında dilçiliyin bu qolu istiqamətində inkişaf gedir, dialekt və şivələrin lüğət tərkibi zənginləşir. Eyni zamanda ədəbi dil də buradan bəhrələnərək öz leksikonun zənginləşdirir.

Naxçıvan dialekt və şivələrinin lüğət tərkibi digər dialekt və şivələrimizdə olduğu kimi, uzun əsrlərin məhsuludur və burada xalqımızın dilinin keçdiyi inkişaf yolu, həyatı, məişəti, və s. ilə bağlı olan çoxlu miqdarda qədim söz və ifadələri müşahidə edirik ki, bunlar da dilimizin tarixini özündə əks etdirir.

Dialekt və şivələrimiz dilimizin ən qədim vəziyyətini, dil tariximizi özündə əks etdirən mənbələrdən biridir. Dildə elə leksik vahidlər var ki, onlarda xalqın tarixinin izləri, adət-ənənələri, milli ruhu yaşayır. Cəmiyyətin inkişafı, həyatının, məişətinin dəyişilməsi ilə əlaqədar olaraq bu sözlərin bir qismi dilin lüğət tərkibindən çıxsa da, onun tarixinin canlı şahidi kimi xalqın dilində-dialekt və şivələrdə yaşayır. Ona görə də dilin tarixini tədqiq edərkən ilk növbədə onun qədimliyini özündə qoruyub saxlayan yazılı mənbələrə və canlı xalq dilinə müraciət etmək lazım gəlir.

ƏDƏBİYYAT

1. Azərbaycan dialektoloji lüğəti: 2 cilddə, I c., Ankara: Türk Dil Kurumu yayınları, 1999, 374 s.
2. Azərbaycan dialektoloji lüğəti: 2 cilddə, II c., Ankara: Türk Dil Kurumu yayınları, 2003, 279 s.
3. Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1962, 326 s.
4. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, IV c.: S-Z, Bakı: Şərq-Qərb, 2006, 712 s.
5. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri / Redaktorları R.Rüstəmov, M.Şirəliyev. Bakı: Qızıl Şərq, 1967, 281 s.
6. Əliyev Ə. Azərbaycan dilinin Meğri şivələri. Bakı: Elm, 2003, 580 s.
7. İraq-türkman ləhcəsi. Bakı: Elm, 2004, 422 s.
8. Kaşğari M. Divanü lüğat-it-türk: 4 cilddə, IV c. (indeks). Bakı: Ozan, 2006, 752 s.
9. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.
10. Vəliyev A. Azərbaycan dilinin keçid şivələri. Bakı: Elm, 2005, 335 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: naliyeva22@mail.ru

Nuray Aliyeva

EVERYDAY VOCABULARY IN NAKHCHIVAN DIALECTS AND ACCENTS

Everyday vocabulary as a part of Nakhchivan local dialects is involved in research in this paper. Nakhchivan region is an ancient settlement of people, and an interesting vocabulary has been formed in their language. Most of these regional language units used in various life spheres consist of our national words created due to our language's internal capabilities and structurally simple, composite, complex. Simultaneously, the article also involved the names of the items used in our household, expressed in words. Here, the lexical units used in everyday life are grouped into the terms of utensils, beddings, various tools, and electrical appliances. The dialectological materials collected from the region and the words we use in our everyday life, selected from these materials, give us reason to say that Nakhchivan dialects and accents have a very rich lexicon based on national vocabulary. The study of words included here is significant in studying our language's history, the common past of the Turkic languages.

Keywords: *vocabulary, dialect and accent, everyday life, tool, thing.*

Нурай Алиева

БЫТОВАЯ ЛЕКСИКА В НАХЧЫВАНСКИХ ДИАЛЕКТАХ И ГОВОРАХ

В статье привлечена к иследованию бытовая лексика, являющаяся частью лексики Нахчыванских диалектов и говоров. Нахчыванский район с древности является местом жительства людей, и в их языке сформировалась интересная бытовая лексика. Большинство этих региональных языковых единиц, используемых в различных сферах жизни, состоят из наших национальных слов, созданных благодаря внутренним возможностям нашего языка и бывают простыми, составными и сложными по структуре. В то же время в статье исследованы названия предметов домашнего обихода, выраженных словосочетаниями. Здесь лексические единицы, используемые в домашнем хозяйстве, изучены по группам – названия посуды, названия постельных принадлежностей, названия различных инструментов и названия электрических приборов. Диалектологические материалы, собранные в этом регионе, и слова, которые мы используем в повседневной жизни, отобранные из этих материалов, дают нам основания утверждать, что Нахчыванские диалекты и говоры имеют очень богатую лексику, сформированную на основе национальной лексики, и изучение включенных сюда слов очень важно с точки зрения изучения истории нашего языка, общего прошлого тюркских языков.

Ключевые слова: *словарный запас, диалект и говор, быт, инструмент, вещь.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 25.01.2021
Son variant 16.02.2021

UOT: 811.512.162

ZÜLFİYYƏ İSMAYIL

NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ İŞLƏNƏN QOŞA SÖZLƏRİN DERİVATOLOJİ PROSESƏ TƏSİRİ

Məqalədə Naxçıvan dialekt və şivələrində rast gəlinən qoşa sözlərdən bəhs olunur. Araşdırma zamanı aydın olur ki, qoşa sözlərin yaranmasında əsas rolu leksik-semantik və morfonoloji üsullar oynayır. Qoşa sözlərdə birinci komponentin ilk hecasındakı sait gen olur, ikinci asemantik komponentdə isə həmin sait dar variantda işlənir. Səslərin əvəzlənmələrini əks etdirən komponentlərdən birincisi semantik, ikincisi asemantik söz şəklində qoşulub yeni leksik vahid kimi işlənir. Bu və ya digər məsələlər Naxçıvan canlı xalq dilində müşahidə olunan dil faktları ilə izah olunur. Müəyyən olmuşdur ki, yazılı ədəbiyyatla müqayisədə canlı danışıq dilində qoşa sözlərdən daha çox istifadə olunur.

Açar sözlər: *Naxçıvan, dialekt, şivə, dil faktı, qoşa sözlər.*

Söz yaradıcılığı fonetika qatından tutmuş sintaksis qatına qədər olan vahidlərlə əlaqədardır. Ona görə də söz yaradıcılığı bölməsi istər-istəməz digər dilçilik bölmələri ilə əlaqəli şəkildə tədqiq olunur. Söz yaradıcılığı probleminin sistemli tədqiqatçısı Səlim Cəfərov söz yaratma yollarından leksik, morfoloji və sintaktik yolu qeyd edir [4, s. 135]. Həmçinin, alim Azərbaycan dilində söz yaradıcılığı məsələsi ilə fundamental şəkildə məşğul olan alimlərin fonetik yolla söz yaradıcılığı məsələsinə az fikir verildiyini təəssüflə qeyd edərək, bu problemin bəzi xüsusiyyətlərini araşdırmışdır [4, s. 12-18]. Belə ki, leksik-semantik yolla söz düzəltmə prosesində fonetik dəyişmələr əsas meyar olur. Fonetik yol anlayışının əslində morfonoloji yol olduğunu və digər leksik-semantik prinsipdə də morfonoloji hadisələrin mümkünlüyünü nəzərə alanda söz yaradıcılığı mexanizmində morfonologiyanın əvəzsiz rolunu yaxşı təsəvvür etmək olur. Biz Naxçıvanın dialekt və şivələrində qoşa sözlərin formalaşmasına da həm leksik-semantik, həm də morfonoloji prinsipin rolunu aydın şəkildə müşahidə edirik. Müasir ədəbi dilimizin zənginləşməsində bu cür məna genişlənməsi və ya məna daralması nəticəsində yaranan sözlərin də rolu böyükdür. Ədəbi dil normalarının formalaşmasında dialektlərin hər biri az və ya çox dərəcədə iştirak edir. Bu zaman dialektlərdəki eynimənalı sözlərdən yalnız biri ədəbi dildə norma səciyyəsi qazana bilir, digərləri dialektlərdə yaşayır. Dialektlərdə, eləcə də ədəbi dildə eyni və ya yaxın mənalı sözlərin qoşa işlənməsi diqqəti cəlb edir. Bu sözlərdən biri müasir ədəbi dildə işlənir və anlaşılır, digərinə isə yalnız Naxçıvanın dialekt və şivələrində təsadüf olunur. Belə sözlər ədəbi dillə dialektlər arasındakı daimi əlaqəni özündə əks etdirir, müxtəlif dialektlərdə olan eyni mənalı sözlər ədəbi dilə daxil olmaq uğrunda mübarizə aparır; tarixi kateqoriya olan normanın dəyişməsi, müxtəlif amillərin təsiri ilə bu sözlərin ədəbi dildə mövqeyi zaman-zaman dəyişir və bir sözün yerini digər sözə verməsi uzun sürən proses olduğu üçün müəyyən müddət onların hər ikisi dildə işlənir. Sonra elə dövr gəlir ki, dili tərk etmiş söz yeni sözü izah etmək məqsədilə onunla qoşa işlənir və nəhayət, yerini yeni sözə verərək arxaikləşib dialektlərdə fəaliyyət göstərir. Variantların ədəbi dildə qoşa işləndiyi dövrdə belə sözlərdən bəziləri daşlaşmış ifadəyə çevrilərək məhz bu şəkildə qəbul olunur. Deməli, eyni və ya yaxın mənalı sözlərdən təşkil olunmuş qoşa sözləri tarixən lüğət tərkibində gedən proseslərin göstəricisi kimi qəbul etmək olar. M.Adilov belə sözlər haqda yazır: "Müasir dildə müstəqil şəkildə işlənə bilməyən daha bir sıra arxaik və ya alınma sözlər öz sinonimlərinin ikinci tərəfində yaşamaqda davam edir:

nəsil-soy, səs-küy, söz-sov, uzundraz, bozqır; *çayrud* (yer adı), *qabqacaq, qannqarta* [1, s. 134]. B.Əhmədov belə sözləri calaqlanma adlandırır, müxtəlif qəbilə və tayfa dillərində işlənmiş eyni mənalı sözlər hesab edir və göstərir ki, "Azərbaycan dilinin lüğət tərkibi müxtəlif qəbilə və tayfa dillərinin qarışığı ilə şərtlənir" [3, s. 40].

Naxçıvanın dialekt və şivələrində leksik-semantik və morfonoloji yolla sözyaratma prinsipləri qoşa söz modelində özünü göstərir ki, bunun da iki növü müəyyənləşdirilmişdir.

1) Ablaut hadisəsi ilə yaranan qoşa sözlər. Bu üsulla yaranan qoşa sözlərdə birinci komponentin ilk hecasındakı sait gen olur, ikinci asemantik komponentdə isə həmin sait dar variantda işlənir. Yəni a//u bəzi hallarda isə o//u, ə//ü əvəzlənmələrini əks etdirən komponentlərdən birincisi semantik, ikincisi asemantik söz şəklində qoşulub yeni leksik vahid kimi işlənir. Naxçıvan dialekt və şivələrində söz yaradıcılığındakı bu modelə uyğun rast gəldiyimiz dil faktlarına nəzər salaq: məsələn, *qara-qura, kasıb-kusub, çax-çux, danq-dunq, tak-tuk* və s. Nümunələrdən də göründüyü kimi, təkhecalı qoşa sözlər imitativlərə aiddir. M.Kaşğarlının lüğətində də belə sözlərin (məsələn, çaq-çuq, şal-şul, cart-curt, sart-surt, qart-qurt, qarc-qurc) çox işləndiyini müşahidə etmək olar:

2) Sifət dərəcələrində intensivlik yaradan infiks vasitəsi ilə yaranan qoşa sözlər. Bu üsulla yaranan qoşa sözdə topluluq bildirən *ba* morfeminin qalığı, yəni infiksə çevrilmiş *m, b, p* elementi işlənir. Birinci komponent semantik, ikinci komponent isə asemantik söz olur, birinci komponentin morfonoloji variantı kimi işlənir. Naxçıvanın dialekt və şivələrində belə qoşa sözlərin iki növünə rast gəlirik:

1) Birinci komponent saitlə başlanırsa, ikinci komponentə *-m* infiksi əlavə olunur: *un-mun, az-maz, ot-mot, alt-malt, üst-müst, uşaq-muşaq, odun-modun, adam-madam, ilan-milan, oyun-moyun* və s.

2) Birinci komponent samitlə başlanırsa, ikinci komponentdə həmin samit *-m* infiksi ilə əvəzlənir; *daş-maş, çit-mit, yağ-mağ, köç-möç, kənd-mənd, qurd-murd, keçə-meçə, qarı-marı, qoyun-moyun, keçi-meçi, yaş-maş, köz-möz, naxoş-maxoş* və s.

Naxçıvan MR-in şivələrində bu modelin digər bir forması ilə də rastlaşırıq. Deyək ki, qoşa sözlərin ilk komponenti sait səslə başlanır ikinci komponentə isə -m əlavə olunur. Bu isə ayrı-ayrı qoşa sözlərdə asemantik komponentlə üst-üstə düşə bilir, yəni müxtəlif qoşa sözlərdə eyni morfonoloji variant ortaya çıxır. Məsələn: *az-maz, aş-maş* və s. Söz yaradıcılığındakı bu qoşa sözlərin əmələ gəlməsindəki leksik-semantik və morfonoloji yolun Azərbaycan dilində qədimdən mövcud olduğu müşahidə edilir.

Naxçıvanın dialekt və şivələrində tez-tez müşahidə olunan *çör-çöp* yazılı ədəbiyyatla müqayisədə xalq ədəbiyyatında və canlı danışıq dilində qoşa sözlərdən daha çox istifadə olunur. Bu da səbəbsiz deyildir. Çünki qədim türk xalqlarının tarixi keçmişi ilə sıx surətdə bağlıdır. Dərs kitablarında rast gəldiyimiz Həbibi haqqında əhvalata diqqət edək: "Ağqoyunlu sultanı Sultan Yaqub Şirvanda ova çıxmış. İndiki Ucar Bərgüşat kəndi yaxınlığında ordusundan uzaq düşür. Harada olduğunu, kəndin ağasının kim olduğunu bilmək istəyir. Köməkçilərindən birinə yamacda quzu otaran uşaqdan lazımi məlumatı almaq üçün onun yanına göndərir. Daha sonra onların arasında belə bir dialoq olur:

Sən burda nə edirsən?

Çör-çöp yığıram.

Çör nədir, çöp nədir?

Çör ayaqda duranlar, çöp qırılıb torpağa düşənlər" [2, s. 231]. Biz diqqəti çör-çöp qoşa sözlərinə çəkmək istərdik. Naxçıvanın dialekt və şivələrində çöp iki mənada işlədilir. Saman

incəliyində olan hər hansı budaq və ya taxta parçası və ya dəyərsiz, yararsız olduğu üçün atılan kiçik şeylər buna bəzən zir-zibil də deyilir.

Naxçıvanın dialekt və şivələrində rast gəlinən digər bir qoşa söz nümunəsinə diqqət edək: məsələn, *sülük-qılıq*. "Adama başqaları ilə mehriban dolaşmağın, yaxın ünsiyyət qurmağın yollarını göstərmək məqsədi ilə "sülüyün-qılığın olsun" öz məqsədini həyata keçirmək üçün onu bir qılıqla, yəni xoş sözlərlə dilə tut deyirlər" [6, s. 13]. Bu sözə M.Kaşğarinin "Divanülüğat-it türk" əsərində də rast gəlinir: "qılıq hal və tavirlar. Halka tavırlar biçimi". M.Kaşğarinin "Divanü-lüğat-it türk" əsərində topladığı XI əsrdə və daha əvvəllər türk xalqları tərəfindən işlədilən ümumtürk kəlimələrindən bir çoxunun müasir Azərbaycan dilində işlədilməsi, ədəbi dildə işləklikdən çıxmış bir sıra qədim türk sözlərinin indi də Naxçıvanda canlı danışıq dilində mövcudluğu bu diyarın əzəli və əbədi türk torpağı olmasının danılmaz sübutudur [6, s. 13].

Naxçıvanın dialekt və şivələrində rast gəlinən digər bir dil faktına diqqət edək: məsələn, *əkə-ükə*. Yaşlı adamlar bəzən körpə, balaca uşağın ağlına, düşüncə tərzinə heyrətlənəndə ona "Elə bil əkə-bükə (və ya əkə-ükə) adamdır" deyirlər. Bu sözün etimologiyasını araşdırdığımızda görürük ki, *əkə-ükə* özbək dilində böyük qardaş [8, s. 71], *ükə* isə uyğur türkcəsində böyük deməkdir [8, s. 203]. Deməli, bu günə qədər Naxçıvanın dialekt və şivələrində, xalq arasında bu sözün ifadəsi elə eyni türk xalqlarındakı leksik-semantik, həm də fonetik formasını qoruyub saxlayaraq bənzətmə məqsədilə işlədilir.

Naxçıvan dialekt və şivələrində rast gəlinən bəzi qoşa sözlərin yaranması üçün tələb olunan şərtlər sırasında semantik meyar həlledici rol oynayır. Semantik meyar dedikdə, komponentlər arasındakı qarşılıqlı məna əlaqələri nəzərdə tutulur. Qoşa sözlərin tərkib elementlərinin semantik təhlili göstərir ki, komponentlərin vahid kompleksdə birləşməsi təsadüfi olmur, məna baxımından şərtləndirilir. Komponentlər bir-biri ilə müəyyən ümumi mənanı ifadə etmək üçün birləşirlər. Bu münasibətlə M.Adilov yazır: "Semantik cəhətdən qoşa sözlərin komponentlərinin vahid tərkibdə birləşməsi təsadüfi deyil, müəyyən qanunlara tabe olan xüsusi səciyyəli sözdüzəltmə üsuludur" [1, s. 154]. Naxçıvanın dialekt və şivələrində müşahidə olunan qoşa sözlərin tərkib hissələrinin qarşılıqlı münasibətinə görə 3 məna qrupuna bölmək olar: 1) sinonimlərdən təşkil edilən qoşa sözlər; 2) komponentləri antonim münasibətində olan qoşa sözlər; 3) ortaq motivə malik sözlərdən yaranan qoşa sözlər.

Naxçıvanın dialekt və şivələrində sinonimlərdən yaranan qoşa sözlərə diqqət edək. İki eyni və ya yaxın mənalı sözün vahid kompleksdə birləşməsi qoşa sözlərin əmələ gəlməsinin ən geniş yayılmış üsulu hesab edilə bilər. Qoşa sözlərin digər növləri kimi sinonimik birləşmələr genezis etibarilə qədim hadisədir. Naxçıvanın dialekt və şivələrində müşahidə edilən sinonimlərdən təşkil olunan qoşa sözlərin iki qrupunu fərqləndirmək olar:

a) hər iki komponenti müstəqil mənaya malik olan qoşa sinonimlər; Məsələn, *qüssə-qubar, ev-eşik, kənd-kəsək, xalça-palaz, çöl-biyaban, dilli-dilavər, qada-bəla* və s. bu cərgədə yaxın mənalı sözlərin zənciri əmələ gəlir.

b) komponentlərindən birinin mənası anlaşılmayan və ayrılıqda işlənə bilməyən qoşa sözlər. Məsələn, *dərd-sər, ax-vay, ah-tuğ* və s. yaxınmənalı sözlər birləşərək qoşa sözlərin komponentləri kimi çıxış edirlər. "Sinonimlər məna və emosional-üslubi xüsusiyyətlərinə görə bir-birindən fərqlənən müxtəlif formalı sözlərdir. Dubletlərdən fərqli olaraq, "eynimənalılıq anlayışı sinonimlərin təbiətinə yaddır" [10, s. 75]. Deməli, qoşa sinonimlərdən təşkil olunan birləşmələrin komponentləri arasında mütləq məna bərabərliyindən danışmaq olmaz. Komponentlərin sinonimliyi, əsas etibarilə, onlardan hər birinin bu və ya digər qoşa sözdəki ən yaxın mənalarına əsasən müəyyənləşdirilir.

Dildə çox zaman ayrılıqda götürüldükdə sinonimik cərgədə bir-birindən xeyli uzaqda duran və ya ümumiyyətlə bir cərgəyə daxil olmayan sözlərin yaratdığı qoşa sözlər də qoşa sinonimlərə aid edilir; məsələn, *allı-güllü, ev-eşik, həyət-baca, zurna-qaval, at-dəvə, qız-gəlin, baş-göz, qılınc-qəmə, qab-qacaq, qab-qaşıq, qənd-çay, sel-su, toz-torpaq, dağ-daş* və s. Bəzən qoşa sözün yaranmasında təşkiledici faktor kimi komponentlərin bir-birinə semantik baxımdan uyğunluğu yox, hadisə və əşyaların zahiri görünüşündəki oxşarlıq çıxış edir. Bununla əlaqədar olaraq, *kir-pas, his-pas, toz-duman, boz-bulanıq, qar-yağış* və s. qoşa sözlərinə diqqət edək. Birinci birləşmədəki ikinci element məhz pas anlayışının ifadəsindən çox, birinci komponentlə eyni mənanın – çirk semantikasının verilməsinə xidmət edir. Eləcə də, boz-bulanıq qoşa sözlərindəki birinci komponent rəng bildirməkdən çox, keyfiyyəti ifadə edir. S.Cəfərov qoşa sözlərin bu tipinə aid olan nümunələri (ürək-dirək, izi-tozu, daş-qaş) "biri məcazi mənada sinonim olan sözlərin birləşməsi" [4, s. 153] hesab edirdi. Fikrimizcə, bu tipli vahidlərin "ortaq motivi əsasında əmələ gələn qoşa sözlər" başlığı altında nəzərdən keçirilməsi daha məqsədəuyğundur. "Ortaq motiv" termini daha geniş olub, bu məzmunlu bütün birləşmələri əhatə edir, çünki ikinci komponentin məcazi mənada birinci komponentə sinonim olması üçün məhz ortaq motiv tələb olunur.

Qoşa sözlərin digər bir növü eyniköklü sözlərin birləşməsindən yaranır. Bu tipli qoşa sözlərdə birinci komponent həm də ikinci komponentin leksik əsası kimi çıxış edir. Məsələn, *gül-gülüstan, dar-darısqal, dar-dartış, dar-düdüh, düz-düzən, toz-tozanaq, bağ-bağça, göy-göyərti, iç-içalat, dil-dilçək*, *bağ-bağat* və s. "Eyni leksik vahidin birinci komponentdə müstəqil söz, ikinci komponentdə isə kök morfem kimi funksiya göstərməsi üzündən bəzi tədqiqatlarda belə qoşa sözlər səhvən təkrarlara aid edilmişdir [12, s. 78]. Bizcə, bu mülahizə qətiyyən doğru hesab edilə bilməz, çünki nümunələrdən də göründüyü kimi, komponentlər bir-birini sadəcə təkrar etmir, birinci komponentdə sadə söz kimi çıxış etmiş kök ikinci komponentdə sözdüzəldici şəkilçi qəbul etdikdən sonra yeni leksik vahidə çevrilir. Məlumdur ki, "əksər halda düzəltmə söz törəndiyi əsas sözün semantikasından tamamilə uzaqlaşmır, yeni lüğət vahidi kimi kök sözün ifadə etdiyi məfhumun əlamətlərindən biri əsasında formalaşır və onu qabarıq ifadə edərək müstəqil söz səviyyəsində çıxış edir" [11, s. 82]. Deməli, söhbət eyni sözün təkrarından yox, eyniköklü sinonimlərin birləşməsidən gedə bilər. Doğrudan da, yuxarıda nümunə olaraq gətirdiyimiz dil faktları heç cür təkrar hesab edilə bilməz, çünki komponentlər arasındakı semantik və struktur fərq göz qabağındadır.

Naxçıvanın dialekt və şivələrində antonimlərdən yaranan qoşa sözlərə də rast gəlinir: Əks mənaya malik sözlərin birləşməsi qoşa sözlərin əmələgəlmə üsullarından biridir. Bu üsul bütün türk dillərində geniş yayılmış və qədim türk yazılı abidələrində də əks olunmuşdur. "Kitabi-Dədə Qorqud" abidəsinin dilində də antonim qoşa sözlərə rast gəlmək olur: Irağından-yaqınından gəlmişdilər [9, s. 93]; Əvvəl-axır uzun yaşın ucı ölüm! [9, s. 115]. Qoşa antonimlərdə komponentlər keyfiyyətin, kəmiyyətin, həcm və ölçünün, əlamətin, vəziyyətin, rəngin, yaşın, hərəkətin və s. əksliyini ifadə etsə də, əsas məna çaları cümlə kontekstində müəyyən olur. *şit-şor, götür-qoy, gir-çıx, get-gəl, üz-astar, əl-ayaq* və s. Ümumiyyətlə, Naxçıvan dialekt və şivələrində rast gəlinən əks mənalı sözlərin birləşməsindən əmələ gələn qoşa antonimlərin mənasında məcaziləşməyə və idiomatikliyə xüsusi meyl duyulur. Məsələn, *"oturub-durmaq"* qoşa sözünün həqiqi nominativ mənası inkişaf edərək məcazi idiomatik mənaya keçmişdir. Bu qoşa söz ümumi şəkildə "özünü aparma" semantikasını ifadə edir. "Oturub-durmaq" şəklində işləndikdə isə bu qoşa söz tamamilə fərqli məna ifadə edir "dostluq etmək" məzmunu daşıyır; Yaxud *"get-gəl"* qoşa sözü komponentlərinin mənası "münasibət yaratmaq" semantikasını daşıyır. *"alt-üst etmək"* dağıtmaq, *"aşağı-yuxarı getmək"* vərgar

etmək, "*gec-tez"* yaxın zamanda, *"götür-qoy etmək"* düşünmək mənasını daşıyır. Belə misalların sayını artırmaq da olar: *irili-xırdalı, ağlı-qaralı, böyüklü-kiçikli, məmə yeyəndən-pəpə yeyənə, var-yoxum, gecəm-gündüzüm, xeyirim-şərim, yaxşı-yaman* və s. Qoşa antonimlər, adətən, mütləq antonimlərdən yaranır. Ə.Dəmirçizadənin qeyd etdiyi kimi: "Mütləq antonimlər antonim qoşalığı və antonim mürəkkəbliyi üçün də əlverişli sayılır; çünki nisbi antonimlərin bir çoxundan antonim qoşalığı və antonim mürəkkəbliyi yaratmaq mümkün olmur; məs.: əvvəl-axır qoşalığı olur, lakin əvvəl-sonra qoşalığı olmaz; halbuki əvvəl mən dedim, sonra sən cümləsində əvvəl sözü ilə sonra sözü antonim kimi işlədilmişdir" [5, s. 137].

Naxçıvanın dialekt və şivələrində, canlı xalq ifadələrində ortaq motivə malik sözlərdən yaranan qoşa sözlərə rast gəlinir. Belə sözlərin yaranmasında ümumi əlamətlər rol oynayır. Bu anlayışlar qoşa sözlərin üçüncü tipinin yaranması üçün semantik əsas kimi çıxış edir. Dilçilik ədəbiyyatında "ortaq motiv"lə yaranan qoşa sözlər müxtəlif başlıqlar altında – "mənasına görə korrelyativ olan sözlərin birləşməsi", "tərkib hissələri müəyyən qrup əşya, hadisə və prosesləri ifadə edən qoşa sözlər", "bir-birinə sinonim və antonim nisbətdə olmayan sözlərin birləşməsindən əmələ gələn qoşa sözlər" və s. təqdim olunmuşdur.

Eynicinsli məfhumların ortaq motivə malik olması qoşa sözlərin əmələ gəlməsi üçün semantik zəmin hazırlayır. Məsələn, *"izi-tozu qalmamaq"* sabit birləşməsinin tərkib hissəsi olan "iz-toz qoşa sözü məhz ortaq motiv əsasında – qaçan, aradan çıxan adamın və ya yox olan əşyanın özündən sonra, ardınca qoyduğu əlamətə görə formalaşıb.

Naxçıvanın dialekt və şivələrində ortaq motiv əsasında yaranan qoşa sözlərin böyük bir qismi məcazi məna bildirir və frazeoloji birləşmələrin tərkib hissəsi kimi çıxış edir; məsələn, *ürəkdirək vermək, göz-qulaq olmaq, əl-ayaq etmək, baş-beynini aparmaq, dağa-daşa düşmək, göz-qaş oynatmaq, əldən-dildən düşmək, dilə-dişə salmaq* və s. Deməli, qoşa sözlərin üçüncü tipi fərdi mənalarına görə fərqli, lakin hər ikisi üçün ümumiləşdirici motivə malik sözlərdən təşkil olunur.

Nəticə olaraq qeyd edək ki, Naxçıvanın dialekt və şivələrində qoşa sözlərin formalaşmasında leksik-semantik prinsip başlıca rol oynayır. Komponentlər ya sinonim, ya antonim, ya da ortaq motivə malik sözlərlə ifadə olunur. Bu da qoşa sözləri oxşar konstruksiyalı digər vahidlərdən – yəni mürəkkəb sözlərdən fərqləndirir, çünki mürəkkəb sözlərin təşkili üçün tərkib hissələri arasında belə tematik ümumiliyin olması zəruri hal hesab olunmur. Digər tərəfdən, leksik-semantik prinsipə və onun konkret təzahür formalarına əsaslanaraq komponentlərindən birinin mənası müasir dildə anlaşılmayan qoşa sözlərin semantikasını da aydınlaşdırmaq mümkün olur.

ƏDƏBİYYAT

1. Adilov M.İ. Azərbaycan dilində qoşa sözlər // Filoloji fakültənin əsərləri, Azərbaycan Universiteti nəşriyyatı, 1988, s. 147-164.
2. Azərbaycan ədəbiyyatı tarixi: 6 cilddə, IV c., Bakı: Elm, 2011, 860 s.
3. Əhmədov B.B. Azərbaycan dili söz yaradıcılığında sadələşmə meyli. Şivə materialları əsasında: Dərs vəsaiti. Bakı: APİ-nin nəşriyyatı, 1990, 90 s.
4. Cəfərov S.Ə. Azərbaycan dilində söz yaradıcılığı. Bakı: ADU nəşriyyatı, 1960, 204 s.
5. Dəmirçizadə Ə.M. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 1962, 144 s.
6. Əliyev İ.İ. "Divanü-lüğat-it türk"də Azərbaycan türkcəsi sözləri. Naxçıvan: Nuh, 2016, 111 s.
7. Əlizadə M.S. Qoşa söz strukturunda alınma sözlər / Azərbaycanşünaslığın aktual problemləri. V beynəlxalq elmi konfransın materialları. Bakı: Mütərcim, 2014, s. 209-212.
8. Karşılaştırmalı Türk lehçeleri sözlüyü. I dizim, Ankara, 1991, 1183 s.

9. Kitabi-Dədə Qorqud / Tərtib, müqəddimə F.R.Zeynalov, S.Q.Əlizadə. Bakı: Yazıçı, 1988, 265 s.
10. Həsənov H.Ə. Müasir Azərbaycan dilinin leksikası: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Maarif, 1988, 306 s.
11. Məmmədov İ.T. Azərbaycan dili semasiologiyasına giriş. Bakı: ADU nəşri, 1988, 85 s.
12. Verdiyeva Z.N., Ağayeva F.M., Adilov M.İ. Azərbaycan dilinin semasiologiyası. Bakı: Maarif, 1979, 306 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: ismayilzulfiyye@yahoo.com

Zulfiya Ismayil

INFLUENCE OF PAIRED WORDS USED IN NAKHCHIVAN DIALECTS AND ACCENTS ON THE DERIVATOLOGICAL PROCESS

The article considers paired words found in dialects and accents of Nakhchivan. During the study, it was found that lexical-semantic and morphonological methods play a central role in forming paired words. In paired words, the vowel in the first syllable of the first component is broad; in the second asemantic component, the same vowel is used in a narrow version. The first component, expressing the replacement of sounds, is semantic, and the second participates in the form of an asemantic word and is used as a new lexical unit. These or other questions are explained by the linguistic phenomena observed in the Nakhchivan living folk language. It has been found that paired words are more commonly used in colloquial speech than in written literature.

Keywords: *Nakhchivan, dialect, accent, language facts, double words.*

Зульфия Исмаил

ВЛИЯНИЕ ПАРНЫХ СЛОВ, УПОТРЕБЛЯЮЩИХСЯ В НАХЧЫВАНСКИХ ДИАЛЕКТАХ И ГОВОРАХ, НА ДЕРИВАТОЛОГИЧЕСКИЙ ПРОЦЕСС

В статье рассматриваются парные слова, встречающиеся в диалектах и говорах Нахчывана. Во время изучения было выяснено, что основную роль в образовании парных слов играют лексико-семантические и морфонологические способы. В парных словах гласный звук в первом слоге первого компонента бывает широким, во втором асемантическом компоненте тот же гласный используется в узком варианте. Первый компонент, выражающий замену звуков, является семантическим, а второй участвует в форме асемантического слова и используется как новая лексическая единица. Эти или другие вопросы поясняются языковыми явлениями, наблюдаемыми в Нахчыванском живом народном языке. Было установлено, парные слова чаще используются в разговорной речи, чем в письменной литературе.

Ключевые слова: *Нахчыван, диалект, говор, языковой факт. парные слова.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 18.01.2021
Son variant 22.02.2021

UOT 81:002

KÜBRA VƏLİYEVA

RAZİ ASTRABADİNİN "ŞƏRHU-L-RADİ ALƏ ƏL-KAFİYƏ Fİ İLMİN NƏHV VA İRAB" ƏSƏRİ

XIII əsr Misir qrammatika məktəbinin ən böyük nümayəndələrindən biri İbn Hacibdir (1175-1249). İbn Hacibin müxtəlif elm sahələrinə aid dəyərli əsərləri vardır. Xüsusilə onun ərəb dilinin qrammatikasından bəhs edən "Kafiyə" (sintaksis) və "Şafiyə" (morfologiya) əsərləri nəhvçi və qrammatiklər tərəfindən yüksək qiymətləndirilmişdir. O bu əsərlərinə görə "ən-Nəhvi" ləqəbi ilə məşhurlaşmışdır.

"Əl-Kafiyə" əsəri ərəb dilçiliyi sahəsində yazılan üç əsas kitabdan biri hesab olunur. Bu dəyərli kitablar Sibəveyhinin (767-809) "əl-Kitab", Zəməxşərinin (1074-1144) "əl-Mufassal" və İbn Hacibinin (1174-1248) "əl-Kafiyə" əsəridir. İbn Hacibə daha çox şöhrət qazandıran "Kafiyə" əsəri olmuşdur. Əsər elm aləmində çox bəyənilmiş və bu əsərə müxtəlif dilçi alimlər tərəfindən şərhlər yazılmışdır. Əsərə yazılan məşhur şərhlərdən biri Razi Astrabadinin "Şərhul Radi alə əl-Kafiyyə fi ilmin nəhv va irab" ("Razinin "kafiyə"yə sintaktik baxımdan şərhi") adlı əsəridir. Bu şərh dərslik kimi uzun illər mədrəsələrdə istifadə olunmuşdur.

Məqalədə İbn Hacib və onun "əl-Kafiyə" əsəri, əsərə şərh yazan Razi Astrabadi haqqında ətraflı məlumat verilmiş və onun "Şərhul Radi alə əl-Kafiyyə fi ilmin nəhv va irab" əsərinin paleoqrafik xüsusiyyətləri tədqiq edilmişdir.

"Əl-Kafiyə" əsəri ərəb dilinin qrammatikasından bəhs edən dəyərli əsər olmaqla yanaşı, bu dili öyrənənlər üçün də qiymətli mənbədir.

Açar sözlər: *kafiyə, nəhv, şərh, ərəb dili, İbn Hacib, Razi Astrabadi.*

İbn Hacib (ابن الحاجب) adı ilə tanınan Əbu Əmr Cəmaləddin Osman bin Ömər bin Əbu Bəkr bin Yunus əd-Dəvini əl-Misri hicri-qəməri 570-ci il (1174-ci il) tarixdə Misirin Yuxarı Said bölgəsində İsna qəsəbəsində anadan olmuşdur. Hicri-qəməri 26 şəvval 646-cı ildə (11 fevral 1248-ci il) isə 74 yaşında Misirin İsgəndəriyyə şəhərində vəfat etmiş və "Bəbul-bəhr" qəbiristanlığında dəfn olunmuşdur. İbn Hacib islam məzhəblərindən maliki məzhəbinin məşhur fiqh alimlərindən olmaqla yanaşı, həmçinin də nəhv alimidir. Onun "İbn-i Hacib" (hacibin oğlu) ləqəbi ilə tanınması, atasının məşhur sərkərdə Səlahəddin Əyyubinin dayısı İzzəddin Musək əs-Səlahinin hacibi (köməkçi) olduğundan qaynaqlanır. "Ailəsi əslən Tiflislidir" [3, s. 55]. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşı S.Bayramova qeyd edir ki, "İbn Hacibin nisbələrindən olan "Duveyn" tarixi mənbələrdə Azərbaycan ərazisi olaraq qeyd olunur. Belə ki, Yəqut əl-Həməvi (1179-1229) "Mucəmu-l-buldan" əsərində "Düveyn" "دوين" Azərbaycan sərhədlərinin şərqində, Tiflis yaxınlığında yerləşən Arrana bağlı olan bir yerdir deyə bildirir. İbn əl-Kəsir (1160-1233) də "Vəfəyətu-l-əyan" əsərində bu yer haqqında "O Azərbaycan sərhədində şimaldan Kərclə qonşu olan bir şəhərdir", onu "الدويني" (və ya "الدوني" "əd-Duvəni") adlandırırlar deyə məlumat verir. Mənbələrdə verilən məlumatlar İbn Hacibin Azərbaycan əsilli olduğunu və soykökünün gəldiyi yeri özünə nisbə olaraq götürdüyünü düşünməyimizə əsas verir" [1, s. 94].

Məşhur ərəb tarixçisi İbn Xəlliqan (1211-1282) alim haqqında dəyərli məlumatlar vermişdir. İbn Xəlliqanın İbn Haciblə görüşü olmuş və onun haqqında dəyərli məlumatlara nail olmuşdur. O, alim haqqında belə yazır: "Əbu Əmr, yəni İbn əl-Hacib hələ kiçik yaşlarından Qurani-Kərimi əzbərləmiş, İmam Malikin məzhəbini tutaraq həmin məzhəb üzrə fiqhlə (İslam hüququ) məşğul olmuş, ərəb dili, təcvid, qiraət elmləri ilə maraqlanmış və tanınmış şəxsiyyət halına gəlmişdir. Dərin elmi və yüksək əxlaqi xüsusiyyətləri səbəbiylə bir çox alimin tərif və təqdirinə nail olmuşdur" [2, s. 125].

İbn Hacib dövrünün bir çox məşhur alimindən dərs almışdır. Bunlara əş-Şatibi (1143-1194), Əbul-Fadl əl-Qəznəvi (1128-1202), Əbul-Cud (1124-1208) və əl-Busiri (1112-1202) kimi alimləri göstərmək olar. Həmçinin İbn Hacibin məşhur elm insanlarının yetişməsində də xüsusi rolu vardır. Alimin özündən "Kafiyə" oxumuş və bu əsərə şərh də yazmış Məlik Nasir (1206-1257), daha sonra Cəmaləddin bin Malik (1203-1273), İbnul-İmad Zeynəddin, əl-Malik ən-Nasiri, ən-Nusaybi və ər-Radi Kostantini (1210-1295) kimi tələbələr yetişdirmişdir.

İbn Hacib nəhv, sərf, fiqh və s. sahələrdə əsərlər yaratmışdır. Alimin əsərlərinin bir qismi nəşr olunmuş, digərləri isə əlyazma şəklində saxlanılmışdır. Ona geniş nüfuz qazandıran əsərləri içərisində "əl-Kafiyə" əsərinin xüsusi yeri vardır. İbn Hacibin nəhv və sərf ilə əlaqəli "əl-Kafiyə", "şərhul-Kafiyə", "əl-Məsailud-Dimaşqiyyə", "əl-Muktəfilil-Mubtədi-Şərhul-izah li Əbi Əli əl-Farisi", "əl-Qasidətul-muvəşşahatu bil-əsmail-muənnəsətis-səmaiyyəti", "Şərhu Kitabi Sibəveyh", "əl-İzah (əz-Zəməxşərinin əl-Mufassal adlı əsərinin şərhidir)", "əl-Əmalin-nahviyyə", "Risalətun fil-aşr", "əş-Şafiyə", "Şarhuş-Şafiyə", "Şarhul-Vafiyə", "Şarhul-Muqaddimətil-Cəzuliyyə", "İrabu bədi əyətin minəl-Quranil-azimi", "Əqidətu İbni Hacib", "Camiul-umməhati fil-fiqhil-Maliki", "Cəmalul-Arab fi ilmil-ədəb", "Mucəmuş-şuyux", "əl-Maqsadul-cəlil fi ilmil-Xalil", "Zeyl alə li ibn Asakir", "Şərhul-hadi", "Muntəhas-sual vəl-əməl fi ilmeyil-usul vəl-cədəl" kimi dəyərli əsərlər yazmışdır.

İbn Hacib "əl-Kafiyə" əsərindən sonra ərəb dilinin sərf (morfologiya) bölməsinə həsr etdiyi "Şafiyə" əsərini yazmışdır. Alim "əş-Şafiyə"ni "əl-Kafiyə"nin bacısı adlandırmışdır.

"Kafiyə" əsərinə alimin özü də daxil olmaqla yüzdən artıq şərh yazılmışdır. Şərhlər içərisində Molla Caminin "əl-Fəvaidud-Diyaiyyə" şərhi və Radiyuddin əl-Astrabadinin "Şərhur-Radi aləl-Kafiyə" şərhi daha çox məşhurdur.

Şeyx Raziəddin Məhəmməd ibn Həsən Astrabadi daha çox şeyx Razi kimi tanınmışdır, ləqəbi isə "nəcmul-əimmə", yəni "imamların ulduzu"dur. O şiə alimlərinin iftixarıdır. Ərəb qrammatikasının sərf, nəhv və bəlağət sahəsində tanınmış əsərlərini yazmışdır. Bunlardan "Şərhul-kafiyə" və "Şərhul-şafiyə"ni göstərmək olar.

Astrabadinin anadanolma tarixi bəlli deyil. Amma ona verilən nisbətdən anlaşılır ki, Astrabadda doğulub, ya da yaşayıbdır. Şübhəsiz ki, o Nəcəfdə yaşayıb yaratmışdır. Çünki "Şərhul-kafiyə" əsərində göstərilir ki, kitab Hz.Əlinin (ə) məqbərəsinin ətrafındakı eyvanda yazılıb tamamlanmışdır. Bəziləri ehtimal edirlər ki, "Astane-ğərəve" – "Mədinədə olan yer" adıdır. Amma hər kəsə aydındır ki, Astrabad hal-hazırda İran İslam Respublikasının Qorqan şəhəridir. Ümumi şəkildə isə Məhəmməd Həsən Astrabadi "Nəcəfi-Əşrəfdə" yaşamışdır. Onun tərcümeyi-halının qeyd olunmaması, vəfat və anadanolma tarixləri alimlər arasında ixtilafa səbəb olmuşdur. Bəziləri onun h.q. 684-cü ildə, bəziləri isə h.q. 688-ci ildə vəfat etdiyi fikrindədir. Bu fikirlər bir daha isbat edir ki, alim bu illərə qədər (h.q. 684 və h.q. 688) yaşamışdır.

Məhəmməd ibn Həsən Astrabadi daha çox şeyx Razi kimi tanınmışdır. Hicri- qəməri VII əsrin sonlarında İbn Hacibin "əl-Kafiyə" əsərinə ərəb dilində şərh yazılmışdır. Ərəb və fars dilçiləri tərəfindən daha çox müraciət olunan əsərdə nəhv elmi asan və sadə bir dillə izah edilmişdir. Suyuti bu kitab haqqında demişdir ki, heç bir şərh "Kafiyə" qədər ərəb dilinin qrammatikasını əhatəli və gözəl bəyan etməmişdir.

Quruluşu cəhətdən kitab dörd cilddən ibarət olmaqla iki bölmədə cəm olmuşdur. Belə ki, 1-ci bölmə 24 ümumi mövzunu əhatə edir, 2-ci bölmə isə 36 əsl mövzunu əhatə etməkdədir. Bunların bəziləri əsl mövzulardır. Məsələn, kəlmə və onun növləri, kəlam, murəb, məbni, cəm, vəzni feil; mərfuat: tənazu, mübtəda, xəbər; mənsubat: tərxim, mənsub; məcruat: təvabe, damair, ismi işarə, mövsul, əsmail əfal, əsvat, murəkkəbat, kinayət, zuruf nəkirə, məbhəsi

ədəd, müzəkkər və müənnəs, müsənnə və cəm, məsdər, ismi fail, ismi məful, sifəti müşəbbəhə: ənvaul-feil və zamanları, məchul feillər, mutəaddi və lazım feillər, muqarəbə feillər, təəccüb feilləri, məd və zəmm feilləri və onların növləri, cər, müşəbbəh, müşəbbəh bih feil, ətf, tənbih, icab zaid, təfsir məsdəriyyə, təxsis, istifham şərt, rəd, tənis, tənvin, nun təkid və istirad. Digər mövzular isə əsas mövzularla əlaqəlidir.

Əsərdə mündəricat hər bir cildin sonunda verilmişdir. O cümlədən göstərilən misal nümunələri Quran və hədislərə əsaslanaraq ardıcıl şəkildə müəllif tərəfindən şərh edilmişdir.

Raziəddin Məhəmməd ibn Həsən Astrabadinin "Şərhur-Radi aləl-Kafiyə" şərhi AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda D-44/264 şifrəsi altında qədim kitab və əlyazmalar arasında qorunub saxlanılan dəyərli əsərlərdən biridir. Kitab iki cilddən ibarətdir. Tədqiqata cəlb etdiyimiz əsərin birinci cildinin bəzi paleoqrafik xüsusiyyətlərinə nəzər salaq:

Razi Astrabadinin "Şərhu-l-kafiyə alə əl-kafiyə fi ilmin nəhv va irab" əsərinin I hissəsinin ilk səhifəsi [şəkil].

Tərtibatı: sadə tərtibatlı.

Tarixi: 1268 (1851) h.q.

Dili: ərəb.

Xətti: nəstəliq-şikəstə.

Çap kitabı.

Mövzusu: ərəb dili qrammatikasının sintaksis bölməsi.

Başlanır: الحمد الله الذى جلت الآوه عن انْ تحاط بعدٍ و تعالت كبريآؤه
Bitir: والحمد لله رب العالمين

Ölçüsü: 21 x 34.

Həcmi: 94 vərəq.

Şifri: D-44/264.

Sətirlərin sayı: 40.

Cildi: bozumtul qara rəngli kartondan düzəldilmişdir.

Kağızı: Avropa istehsalı.

Orta əsrlər dövründə səhifələmə metodu paqinasiya üsulundan ibarət olduğuna görə əlyazmaya səhifələr vurulmamışdır. Araşdırma zamanı vərəqlərin nömrələnməsi şərti olaraq bizim tərəfimizdən icra edilmişdir. Kitabın kənarlarında qara mürəkkəblə haşiyələr verilmişdir.

Bölmənin əvvəlində qara mürəkkəblə "Şərhu-l-Radi alə əl-kafiyə fi ilmin nəhv va irab" ("Razinin "kafiyə"yə sintaktik baxımdan şərhi") yazılmışdır. Bütün islami mənbələrdə olduğu kimi, bu kitabın da əvvəli "bismillahi-rahmani-rahim va bihi nəstəin" ("rəhman və rəhim olan Allahın adı və köməyi ilə") sözləri ilə başlamış və müqəddimə olmadan ərəb dilinin sintaksis bölməsinə keçmişdir.

Kitab başlıqlara bölünmüşdür. Yeni qrammatik mövzu izah edilməzdən əvvəl səhifənin əvvəlində yeni mövzunun adı verilmişdir. Müəllifin əsərdə dilçilik məsələlərinə mövqeyi, münasibət və fikirləri əhatəlidir.

Bölmənin sonunda qeyd edilir ki, "kitabın 1-ci hissəsi 2-ci hissəyə zəif, fəqir, bağışlanmaya ehtiyacı olan Məhəmməd Hadi ibn Bəhram Taliqani tərəfindən h.q. 1268 (1851)-ci ildə əlavə edilmişdir. Sonra Allaha həmd etmişdir" [4, s. 94].

Şəkil. Əsərin ilk səhifəsi.

Məşhur qrammatik alim Razi Astrabadinin "Şərhul Radi alə əl-Kafiyyə fi ilmin nəhv va irab" ("Razinin "kafiyə"yə sintaktik baxımdan şərhi") əsəri ərəb dilinin qrammatikasını əhatə edən dəyərli bir əsər olmaqla zəngin elmi mülahizələrlə zəngindir. Nəhv kitabları arasında həqiqi bir şöhrətə sahib olan əsərin dərin tədqiqata ehtiyacı vardır.

ƏDƏBİYYAT

1. Bayramova S. İbn əl-Hacibin "Şafiyə" əsərinə ümumi baxış / Azərbaycanda müasir ərəbşünaslığın banisi, əməkdar elm xadimi, professor Ələsgər Məmmədovun anadan olmasının 100 illiyinə həsr olunmuş "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları, 2019, s. 93-95.
2. Bayramova S. İbn Hacibin ərəb dilçiliyi sahəsində yazdığı əsərləri və "Şafiyə"sinin sərf elmindəki yeri // Naxçıvan Universitetinin Elmi Əsərləri, 2017, № 2, s. 125-131.

3. İslam Ensiklopediyası, mad. İbn əl-Hacib, T.D.V. C. XXI, İstanbul, 1992.
4. Astrabadi R. Şərhul Radi alə əl-Kafiyyə fi ilmin nəhv va irab: 2 cilddə, I c., 1268 h.q. AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondu, D-44/264, 94 s.

AMEA Naxçıvan Bölməsi
E-mail: kubra.valiyeva@yahoo.com

Kubra Valiyeva

THE WORK "SHARHU-L-RADI ALA AL-KAFIA FI ILMIN NAHV VA IRAB" OF RAZI ASTRABADI

One of the most significant Egyptian grammar school representatives of the 13th century was Ibn Hajib (1175-1249). Ibn Hajib has valuable works related to various fields of science. His works "Kafia" (syntax) and "Shafia" (morphology), which deal with the grammar of the Arabic language, were especially appreciated by specialists in syntax and grammarians. He is known by the pen name "An-Nahwi" for these works.

"Al-Kafiya" is one of the three main books written in the field of Arabic linguistics. These valuable books are "al-Kitab" by Sibawayhi (767-809), "al-Mufassal" by Zamakhshari (1074-1144), and "al-Kafia" by Ibn Hajibi (1174-1248). Ibn Hajibah's most famous work was "Kafia". The work was very popular in the world of science, and various linguists wrote comments on it. One of the most famous commentaries on the work is "Sharhu-l-Radi al-Kafia fi ilmin nahw wa irab" ("Syntax and Razi's commentaries on kafia in a syntactic form") by Razi Astrabadi.

The article provides detailed information about Ibn Hajib and his work "al-Kafia", Razi Astrabadi, who wrote a commentary on the work, and the palaeographic features of his work "Sharhu-l-Radi ala al-Kafia fi ilmin nahw wa irab".

"Al-Kafiya" is not only a valuable work on the grammar of the Arabic language but also a useful source for learners of this language.

Keywords: *kafiya, nahw, commentary, Arabic, Ibn Hajib, Razi Astrabadi.*

Кубра Валиева

ПРОИЗВЕДЕНИЕ РАЗИ АСТРАБАДИ «ШАРХУ-ЛЬ-РАДИ АЛА АЛЬ-КАФИЯ ФИ ИЛЬМИН НАХВ ВА ИРАБ»

Одним из крупнейших представителей египетской грамматической школы XIII века является Ибн Гаджиб (1175-1249). Ибн Гаджиб создал ценные труды, относящиеся к различным областям науки. В частности, его работы "Кафия" (синтаксис) и "Шафия" (морфология), рассказывающие о грамматике арабского языка, были высоко оценены синтаксистами и грамматиками. За эти работы он получил прозвище "Ан-Нахви".

Произведение "Аль-Кафия" считается одной из трех основных книг, написанных в области арабского языкознания. Эти ценные книги – труды "Аль-Китаб" Сибавейхи (767-809), "Аль-Муфассал" Замахшари (1074-1144) и "Аль-Кафия" Ибн Гаджиба (1174-

1248). Еще большую известность Ибн Гаджибу принесла его работа “Кафия”. Работа была высоко оценена в научном мире, и различные лингвисты написали комментарии к этой работе. Одним из известных комментариев к произведению является работа Рази Астрабади «Шарху-ль-Ради ала аль-Кафия фи ильмин нахр ва ираб» («Комментарий Рази к «Кафии» с синтаксической точки зрения»). Этот комментарий использовался в медресе в течение многих лет в качестве учебника.

В статье подробно рассказывается о Ибн Гаджибе и его произведении “Аль-Кафия”, о Рази Астрабади, написавшем комментарий к этому произведению, а также изучаются палеографические особенности его труда «Шарху-ль-Ради ала аль-Кафия фи ильмин нахр ва ираб».

“Аль-Кафия” является ценным трудом по грамматике арабского языка, а также ценным источником для тех, кто изучает этот язык.

Ключевые слова: *Кафия, нахв, комментарий, арабский язык, Ибн Гаджиб, Рази Астрабади.*

(Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 26.01.2021
Son variant 25.02.2021

ƏDƏBİYYAT

UOT: 82-1

FƏRMAN XƏLİLOV

"NAXÇIVAN ŞURALAŞDI" ŞEİRİNİN MÜƏLLİFİ KİMDİR?

"Naxçıvan şuralaşdı" adlandırılan şeirdə 1920-ci ildə Naxçıvanda elan olunan sovet hakimiyyəti alqışlanır. Bu şeir uzun müddət Cənubi Azərbaycanın görkəmli satirik şairi Mirzə Əli Möcüzə aid edilmiş və onun kitablarına salınmışdır.

Məqalədə həmin şeirin M.Ə.Möcüz qələminin məhsulu olmadığı iddia edilir.

Müəllif araşdırmalar nəticəsində əldə etdiyi bir sıra tutarlı faktlara istinad edərək bu iddiasını əsaslandırır və belə qənaətə gəlir ki, həmin şeirin əsl müəllifi ədəbiyyatşünas Mübariz Əlizadədir.

Məqalədə M.Əlizadə tərəfindən qələmə alınan bu şeirin nə məqsədlə M.Ə.Möcüzə aid edilməsinin səbəbi də aydınlaşdırılır.

Açar sözlər: *"Naxçıvan şuralaşdı" şeiri, Cənubi Azərbaycan, Mirzə Əli Möcüz, Qulam Məmmədli, Mübariz Əlizadə.*

"Naxçıvan şuralaşdı" adlandırılan şeir uzun illərdir ki, görkəmli satirik şair Mirzə Əli Möcüzə (1874-1934) aid edilir. Bu şeir şairin Qulam Məmmədlinin tərtibi ilə Bakıda çap olunan kitablarının hamısına daxil edilmişdir.

Həqiqətənmi həmin şeir M.Ə.Möcüz qələminin məhsuludur? Qətiyyətlə cavab vermək olar ki: Xeyr! Keçək faktlara.

Əvvəla, şeirin Möcüzün kitablarına ayaq açanadək haralarda çap olunmasını xronoloji ardıcıllıqla izləyək:

1. 10 sentyabr 1945-ci il. Bakıda çıxan "Azərbaycan gəncləri" qəzeti ədəbiyyatşünas Mübariz Əlizadənin "Cənubi Azərbaycan şairi Mirzə Əli Möcüz Şəbüstəri" adlı məqaləsini dərc edir. Müəllif məqalənin bir yerində yazır. "1920-ci ilin iyul ayında Möcüz yeni bir hadisədən ilham alıb qanadlandı. Lenin-Stalinin zəfər bayrağı, xalq bayrağı Naxçıvan şəhərində dalğalanmağa başladı. Qoca şairin qəlbi qürur hissi ilə döyündü. O, qırmızı Naxçıvan – Sovet Naxçıvanı haqqında ilk şeiri və həm də ölməz sənət əsəri sayıla bilən şeirini yazdı". Sonra müəllif şeirin tam mətnini oxuculara təqdim edir:

Şükrullah millət oldu kamiran,
Xələti-həmra geyindi Naxçıvan!
Dövləti-Şura quruldu ədlilən,
Tudeyi-məzlum oldu hökmran.
Şah mat odu, vəzir atdan düşüb,
Fil ayağı altda qaldı bəy və xan.
Mövsümi-gül gəldi, açdı qönçələr,
Bülbüli-şeyda ötər xoş dastan,
Hər tərəfdə bəzmi-işrət çidədir,
Naxçıvana rəşk edər baği-cinan.
Rəşk edər Təbriz, Şəbüstər, Xamənə,

Rəşk edər bu mülki-Azərbaycan.
Qibtəmiz yersiz deyil, var illəti,
Orda toydur, burda matəm, əlaman!
Möcüza, qan ağlama, bir gün gələr
Şərqdə qalmaz əsarətdən nişan!

Sonralar Möcüzün kitablarına daxil edilən "Naxçıvan şuralaşdı" şeiri ilk dəfə olaraq belə meydana çıxır.

2. 25 noyabr 1945-ci il. M.Əlizadə "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi "İran Azərbaycanının şairi Möcüz Şəbüstəri" sərlövhəli məqaləsində yazır: "1920-ci ilin yayında... Naxçıvanda sovet hakimiyyəti qurulması xəbəri bütün Cənubi Azərbaycanda yayıldı. Qızıl bayraq – Lenin bayrağı, azadlıq bayrağı, Cənubi Araz çayının lap kənarında dalğalanmağa başladı... Möcüz də bu bayrağın qarşısında diz çöküb şirin ana dilində ölməz bir nəğmə qoşdu". Sonra M.Əlizadə şeirin son 8 misrasını nümunə göstərir.

3. Noyabr 1945. "Şəfəq" jurnalı, № 4.

Ərəb əlifbası ilə Təbrizdə çıxan bu jurnalın 21-ci səhifəsində haqqında bəhs etdiyimiz şeirin tam mətni "Şura Naxçıvanı" adı ilə dərc edilir. Şeirin kim tərəfindən redaksiyaya təqdim olunması göstərilmir.

4. 1948-ci il. Tədqiqatçı Q.Məmmədli şeirə "Naxçıvan şuralaşdı" adını qoyaraq onu tərtib etdiyi "Mirzə Əli Möcüz. Şeirlər" kitabına daxil edir [4, s. 79].

Beləliklə, həmin şeir Möcüzün əsəri kimi qəbul olunur və sonralar onun Q.Məmmədli tərəfindən tərtib edilən bütün kitablarına, bir sıra almanax və müntəxabatlara, hətta İranda çıxan iki kitabına da yol taparaq məşhurlaşır.

Qayıdaq M.Əlizadənin 1945-ci ildə çap etdirdiyi məqalələrinin üzərinə.

Birinci məqaləsində o, "qoca şairin", yəni Möcüzün bu şeiri 1920-ci ildə yazdığını bildirir. İkinci məqaləsində isə Möcüzün Naxçıvanda qaldırılan "qızıl bayraq – Lenin bayrağı, azadlıq bayrağının" qarşısında "diz çöküb nəğmə qoşmasını", yəni "Naxçıvan şuralaşdı" şeirini yazmasını qeyd edir.

Buradan açıq-aşkar görünür ki, M.Əlizadə nə Möcüzün tərcümeyi-halına, nə də şeirlərinə yaxından bələd olmamışdır. Əks halda o, belə yanlışlıqlara yol verməzdi. Nədir bu yanlışlıqlar? Əvvəla, 1920-ci ildə Möcüz M.Əlizadənin yazdığı kimi qoca deyildi, 46 yaşı var idi. İkincisi, Möcüz heç vaxt M.Əlizadənin təbiri ilə desək, "qızıl bayraq – Lenin bayrağının" qarşısında diz çökməzdi. Çünki o, bolşevikləri yaxşı tanıyırdı və onları "nainsaf" adlandırır, rusları isə işğalçı hesab edirdi:

Deyəllə **bolşevik** eylər hücum Rəştə tərəf...
Çəkil kənara, əya bolşeviki-nainsaf! [9, iş № 33]

Bir qəmli xəbər bağrımı qan eylədi, saqi,
Mey ver yenə **rusun** gözü İranə düşübdür [5, s. 5]

Gər ola bidar əcəm, **rus** evi viran olar,
Bolşevikü menşevik qanına qətan olar [3, s. 144].

Bu idi Möcüzün mövqeyi!

Belə olan halda həmin şeiri Möcüz qələminin məhsulu hesab etmək olarmı?

Burada başqa bir suala da cavab vermək zərurəti meydana çıxır: "Naxçıvan şuralaşdı" şeiri hansı yolla Təbrizə – "Şəfəq" jurnalının redaksiyasına gedib çıxmış və jurnal M.Əlizadədən təxminən ay yarım sonra – noyabr ayında həmin şeiri dərc etmişdir?

Araşdırmalar həqiqətə yaxın olan belə bir ehtimal irəli sürməyə əsas verir ki, həmin şeirin mətnini Q.Məmmədli "Şəfəq" jurnalına təqdim etmişdir.

1941-ci ilin avqustunda sovet ordusu sıralarında azərbaycanlılardan ibarət xüsusi qrupun tərkibində İrana keçən Q.Məmmədli 1942-ci ilin martınadək, 1944-cü ilin baharından isə 1946-cı ilin aprel ayınadək orada olmuşdur. Həmin vaxt o, Cənubi Azərbaycanda həyata keçirilən ədəbi-mədəni tədbirlərdə fəal iştirak etmişdir. Q.Məmmədli 1942-ci ildə "Vətən yolunda" qəzetində Möcüz haqqında "Həqiqəti sevən şair" adlı məqalə dərc etdirmiş, onun "Gündə" rədifli şeirini oxuculara çatdırmışdır [10, s. 3]. 1945-ci ildə isə şairin "Seçilmiş əsərləri" adlandırılan ilk kitabı məhz Q.Məmmədlinin tərtibilə Təbrizdə çap olunmuşdur. Bundan başqa Q.Məmmədlinin Möcüzün bəzi şeirlərinin Təbrizdə çıxan "Vətən yolunda" jurnalı və "Azərbaycan" qəzetində dərc edilməsində vasitəçiliyi və köməyi olmuşdur.

Q.Məmmədlinin özünün yazdığına görə, müəyyən tapşırığı yerinə yetirmək üçün 1945-ci ildə qısa müddətə Bakıya gedib sonra yenə Təbrizə qayıtmışdır [2, s. 124]. Çox güman ki, elə həmin vaxt Bakıda M.Əlizadə ilə görüşərək "Naxçıvan şuralaşdı" şeirinin mətnini ondan almışdır. Başqa bir versiyanı da düşünmək olar. Yəni Q.Məmmədli M.Əlizadənin məqaləsi dərc olunan "Azərbaycan gəncləri" qəzetinin 25 sentyabr 1945-ci il tarixli nömrəsindən həmin şerin mətnini köçürə bilərdi. Lakin biz birinci versiyaya daha çox üstünlük veririk. Çünki 1977-ci ilin iyun ayında Bakıda M.Əlizadə ilə görüşümüz zamanı şəxsən bizə vaxtilə çap etdirmək üçün Möcüzün bəzi şeirlərini Q.Məmmədliyə verdiyini söyləmişdi. Hətta Q.Məmmədlinin həmin şeirləri çap etdirərkən onun (M.Əlizadənin) adını xatırlatmamasından incik qaldığını da bizə demişdi.

"Naxçıvan şuralaşdı" şeirinin Q.Məmmədlinin xətti ilə ayrıca bir vərəqdə üzü köçürülmüş variantı hazırda Azərbaycan Respublikası S.Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivində Möcüzün 454 nömrəli şəxsi fondunda [9, iş 112], surəti isə AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda saxlanılır.

Fikrimizcə, Q.Məmmədli Təbrizə qayıtdıqdan sonra həmin şeiri "Şəfəq" jurnalının redaksiyasına təqdim etmiş, jurnal isə onu özünün 1945-ci il tarixli 4-cü nömrəsində oxuculara çatdırılmışdır. Maraqlıdır ki, Q.Məmmədli haqqında bəhs edilən şeirin mətnini Təbrizdə olarkən əldə edə bilmədiyinə görə həmin şeir 1945-ci ildə orada nəşr etdirdiyi Möcüzün "Seçilmiş əsərləri"nə düşməmişdir. Bu da onu sübut edir ki, şeirin mətni Q.Məmmədlinin Bakıya gedib-qayıtdıqdan sonra onun əlinə çatmışdır. Əslində qətiyyətlə deyə bilərik ki, o vaxt "Naxçıvan şuralaşdı" şeirinin mətni Cənubi Azərbaycanda heç kimdə yox idi və ola da bilməzdi. Çünki əvvəla, bu şeirin avtoqrafına indiyədək heç yerdə rast gəlinməmişdir. İkincisi, həmin şeir Möcüzün əsərlərini hələ şairin öz sağlığında və vəfatından sonra toplayan müasirləri və pərəstişkarlarından Mirzə Mahmud Bəhrami, Məhəmmədəli Pur Əli Məhəmmədi, Əli ağa Naxçıvani, Məhəmməd Yusif Xeyrabi, Bağır Məhəmmədzadə, İsmayıl İsmayılzadə və başqalarının tərtib etdiyi qeyri-mətbu dəftər, yaxud "Divan"ların heç birində olmayıb. Nəhayət, Q.Məmmədli Təbrizdə ikən Hacı Məhəmməd Naxçıvaninin şəxsi kitabxanasında saxlanılan Möcüzün avtoqraflarının üzünü köçürdüyü dəftərdə də [9, iş № 119] "Naxçıvan şuralaşdı" şeirinin izi-tozu yoxdur.

"Naxçıvan şuralaşdı" şeiri Möcüzün əsərlərinin ilk nəşrindən sonra da, iki nəşr (3; 4) istisna olmaqla (bu nəşrlərə "Şəfəq" jurnalının təsiri olmuşdur) Təbrizdə və Tehranda çap olunan kitablarının heç birinə daxil edilməmişdir. Cənubi Azərbaycan möcüzşünaslarından professor M.T.Zehtabi, M.Niqabi, H.S.Qürrayi və başqaları Möcüz yaradıcılığından bəhs edərkən "Naxçıvan şuralaşdı" şeirinin adını belə yaxına buraxmamışlar. Bir sözlə, Cənubi

Azərbaycanda "Naxçıvan şuralaşdı" şeirinin Möcüzə məxsusluğu ağıla gətirilmir.

"Naxçıvan şuralaşdı" şeirinin mətninə gəldikdə isə onun Möcüz üslubuna yad olması dərhal diqqəti cəlb edir. Şeirin mətnində işlədilən "şah", "mat", "vəzir", "fil" kimi şahmat terminləri Möcüzün leksikonu üçün xarakterik deyil.

Yaşadığı mühitdə və cəmiyyətdə həmişə ərbab və mübaşirlərin zülmünü lənətləyən Möcüzün:

Şah mat oldu, vəzir atdan düşüb,
Fil ayağı altda qaldı bəy və xan

yazması da inandırıcı görünmür.

Bolşeviklərin düşmən elan etdiyi bəy və xanları ifşa edib gözdən salmaq sovet hakimiyyətinin ilk onilliyində Şimali Azərbaycan müəllifləri üçün daha çox xarakterik idi, nəinki cənublu müəlliflər üçün.

Dəfələrlə Şəbüstər sakinlərindən eşitmişik ki, 1920-ci illərdə və ondan qabaq şəbüstərlilərin İranda şətrənc adlandırılan şahmat oyunu haqqında geniş təsəvvürləri olmamışdır. Bax elə həm də buna görə "məqsədim o idi ki, kişilər və arvadlar məni başa düşsünlər" [6, s. 2] deyən Möcüzün həmyerliləri üçün anlaşılması çətin olan yuxarıdakı misraları yazması ağlabatan deyil.

Bir daha soruşulur: Belə tutarlı faktlar qarşısında həmin şeirinin Möcüz qələminə məxsusluğunu qəbul etmək olarmı? Cavab birdir: Xeyr!

Bəs bu şeirin müəllifi kimdir?

Cavab: Mübariz Əlizadə! O Mübariz Əlizadə ki, "Naxçıvan şuralaşdı" şeiri ilə eyni vaxtda uzun illər boyu Möcüzə aid edilən "Lenin" şeirini də uydurmuşdu! Bu barədə bizim ayrıca məqaləmiz vardır [1].

Fikrimizi sübut etmək üçün dağa-daşa düşməyə ehtiyac yoxdur. M.Əlizadənin özü bu saxtakarlığını boynuna almışdır.

Diqqət edək. Cənubi Azərbaycan möcüzşünası M.Niqabi 2000-ci ildə Naxçıvan Dövlət Universitetinin əməkdaşı Seyid Surəyə ünvanladığı məktubunda yazır: "Mübariz Əlizadə Qulamrza Budaqiyə (Cənubi Azərbaycan ziyalısıdır – F.X.) etiraf etmiş ki, "Lenin" şeiri və "Naxçıvan şurası" Möcüzün yox, bəlkə mənim qələmimdən axmışdır" [7, v. 2].

Sual oluna bilər: Bu saxtakarlıqları etməkdə məqsəd nə imiş?

Bu sualın cavabını da ömrünün son çağlarında M.Əlizadənin özü vermişdir! Bu barədə M.Niqabi 2016-cı ildə Təbrizdə çap etdirdiyi "Mirzə Əli Möcüzün həyatı" adlı kitabında yazır: "Mübariz Əlizadə ömrünün son çağlarında Bakı şəhərində Qulamrza Budaqiyə açıqlamışdı ki, Möcüzün mənəvi varlığını **ülviləşdirmək üçün** "Şura Naxçıvanı" və "Lenin" şerini yazıb və mətbuatda yaymışdı" [8, s. 279].

M.Niqabi Seyid Surəyə yazdığı məktubunda M.Əlizadənin bu fikrinə münasibətini belə bildirir: "Rəhmətlik xamnəli şair (M.Əlizadə nəzərdə tutulur – F.X.) Möcüzü yüksəldəcəyinə, tədqiqatçıları şoxum (şum – F.X.) zəmilərinə sürütləmişdir" [7, s. 2].

Əlbəttə, M.Əlizadənin cavabını qaneedici hesab etmək olmaz. Bəs onda həmin saxtakarlıqda əsl məqsəd nə olmuşdur? Qəti cavab belədir: Azad düşüncəli bir şəxs olan Möcüzdən kommunist-bolşevik ideologiyasına uyğunlaşdırılmış, professor M.T.Zehtabi demişkən, yeni "şair yaratmaq" [11, s. 102] cəhdi!

Vəssəlam.

ƏDƏBİYYAT

1. Xəlilov F. Mirzə Əli Möcüzə aid edilən saxta bir şeirin tarixçəsi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai elmlər seriyası, 2008, № 3, s. 180-185.
2. Məmmədli Q. Ömür dəftərindən səhifələr. Bakı: Təhsil, 2016, 184 s.
3. Möcüz M.Ə. Tazə tapılan şeirləri. Təbriz: Nəşr-e Behruz, Tərtibçisi və nəşr ili göstərilməyib, 202 s.
4. Möcüz M.Ə. Şeirlər / Toplayan və çapa hazırlayan Q.Məmmədli. Bakı: Azərnəşr, 1948, 254 s.
5. Möcüz M.Ə. Tazə və çap olmayan şeirləri / Toplayan Yəhya Şeyda. III c., Təbriz: Azərbaydaqan, ilsiz, 228 s.
6. Möcüz Şəbüstərinin şərh-halı. "Azərbaycan" qəz., I dıvrə, Təbriz, 1320 ş. (1942, 22 fevral).
7. Niqabi M. Naxçıvan Dövlət Universitetinin əməkdaşı Seyid Surəyə yazdığı 29 noyabr 2000-ci il tarixli məktubunun surəti. Naxçıvan MRDA: F.Y.Xəlilovun şəxsi fondu 701, siy. 2, iş № 23.
8. Niqabi M. Mirzə Əli Möcüzün həyatı. Təbriz, 1395 ş. (3016), 285 s.
9. S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi: Mirzə Əli Möcüzün fondu 454, siy. 1, iş № 1-121.
10. "Vətən yolunda" qəz., 1942, 25 fevral.
11. Zehtabi M.T. Mirzə Əli Möcüzün Bakı çapı // "Varlıq" məcəlləsi, Tehran, № 4, s. 93-106.

AMEA Naxçıvan Bölməsi
E-mail: fermanhalilov@yahoo.com

Farman Khalilov

WHO IS THE AUTHOR OF THE POEM "NAKHCHIVAN BECAME SOVIET"?

The poem "Nakhchivan became Soviet" welcomes the Soviet power, proclaimed in Nakhchivan in 1920. This poem has long been attributed to the prominent satirical poet of South Azerbaijan Mirza Ali Mojuz; it was included in his books.

The paper states that this poem does not belong to the pen of M.A.Mojuz.

The author substantiates this statement, referring to several convincing facts obtained from the study, and concludes that the poem's real author is the literary critic Mubariz Alizadeh.

The paper clarifies why this poem, written by M.S.Alizadeh, was attributed to M.A.Mojuz.

Keywords: *poem "Nakhchivan became Soviet", South Azerbaijan, Mirza Ali Mojuz, Gulam Mammadli, Mubariz Alizadeh.*

Фарман Халилов

КТО АВТОР СТИХОТВОРЕНИЯ «НАХЧЫВАН СТАЛ СОВЕТСКИМ»?

В стихотверении «Нахчыван стал советским» приветствуется советская власть, провозглашенная в Нахчыване в 1920 году. Это стихотворение долгое время приписывали видному сатирическому поэту Южного Азербайджана Мирзе Али Моджузу, оно было включено в его книги.

В статье утверждается, что стихотворение не принадлежит перу М.А.Моджуза.

Автор обосновывает это утверждение, ссылаясь на ряд убедительных фактов, полученных в результате исследования, и делает вывод, что настоящим автором стихотворения является литературный критик Мубариз Ализаде.

В статье выясняется причина того, с какой целью это стихотворение, написанное М.С.Ализаде, было приписано М.А.Моджузу.

Ключевые слова: *стихотворение "Нахчыван стал советским", Южный Азербайджан, Мирза Али Моджуз, Гулам Мамедли, Мубариз Ализаде.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Əliyev tərəfindən təqdim edilmişdir).

Daxilolma tarixi: İlkin variant 15.01.2021
Son variant 11.02.2021

UOT: 82.02

RAMİZ QASIMOV

CƏLİL MƏMMƏDQULUZADƏNİN DRAMLARINDA MONOLOQLARIN BƏDİİ-STRUKTURAL MAHİYYƏTİ

Məqalədə Cəlil Məmmədquluzadənin dram əsərlərində istifadə olunan monoloq örnəklərindən bəhs olunur. Monoloqların istifadə məqsədi, poetik səciyyəsi və quruluşu, yazıçının məharəti və s. tədqiqatın əsas məqsədini təşkil edir. Qeyd edilir ki, daha çox dram əsərləri üçün xarakterik olan monoloqların Cəlil Məmmədquluzadə yaradıcılığında maraqlı nümunələrinə rast gəlinir. Böyük ədib Cəlil Məmmədquluzadənin böyük sənətkarlıqla yaratdığı "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" əsərlərində qiymətli monoloq örnəkləri yaradılıb. Kefli İsgəndərin ("Ölülər"), Gülbaharın ("Anamın kitabı"), Molla Abbasın ("Dəli yığıncağı") monoloqları ədəbiyyat tariximizdə mühüm mövqe qazanıb. Məqalədə monoloq nümunələri tənqidi realizmin poetikası cəhətdən təhlil edilir. Tənqidi realist əsərlərdə rast gəlinən monoloq örnəklərinin Sokrat metoduna uyğun quruluşu təhlil edilir. Göstərilir ki, Sokrat metodundan uğurla faydalanan tənqidi realistlərin əsərlərində monoloqlar quruluşu və poetik səciyyəsi etibarilə həm ideyanın açılmasına xidmət edir, həm də ideyanın mənimsədilməsi, təlqini funksiyası həyata keçirir. Ona görə də birinci mərhələdə monoloqlar "alay", və ya "bədii gülüş" həmləsi həyata keçirərək tənqid hədəflərinə qarşı tənqidi yanaşma münasibəti ortaya qoyur. Bu, bilik vermənin zəminidir. Bu mərhələdə yanlışlar müəyyənləşdirilir və nəticəyə gəlinmə üçün zəmin hazırlanır. "Doğurtma" (maieutic) deyilən ikinci mərhələdə yanlışları tənqid yolu ilə doğru bir qənaətə gəlinmə təmin olunur. Bunun üçün isə, başlıca, üçüncü şərt olan "daiomonion", yəni C.Məmmədquluzadənin əsərlərində tez-tez bəhs edilən vicdanın səsi rol alır və şəxsin məntiqi qənaəti ortaya qoyulur. Bu mənada bu monoloqlarda Sokrat metoduna uyğun olaraq bir mühakimə, münasibət, tənqid və məntiqi nəticələnmə özünə yer alır. Monoloqların bu kimi əsərlərdə ədəbi həmlə vasitəsi daşıdığı göstərilir. Təhlillər göstərir ki, monoloqlardakı fikir-düşüncə ritorikası, cümlə sintaksisi və üslubi imkanları, hətta lirik məzmun kəsb etməsi, duyğululuğu və təsirliliyi, pafos və diksiyalılığı və sair məhz bədii məqsədi həyata keçirmək vəzifəsinə xidmət edir. Tənqidi realist əsərlərdə monoloqlar "ideya partlayışı" rolunu oynayır.

Açar sözlər: *monoloq, tənqidi realizm, Cəlil Məmmədquluzadə, Sokrat metodu.*

Məlum olduğu kimi, yaradıcılıq dili ədəbi cərəyanların əhəmiyyətli məsələsinə çevrilən ciddi mövzulardan biridir. Yaradıcılıq dili məsələsinin tərkibində monoloqlardan istifadə də özünəməxsus yer tutur. Bu baxımdan Azərbaycan tənqidi realizminin banisi Cəlil Məmmədquluzadənin dili yaradıcılıq hadisəsi hesab olunur.

Dil obrazın özünəməxsus, fərdi, səciyyəvi cəhətlərini üzə çıxaran, büruzə verən və təzahür etdirən xüsusi vasitədir. Monoloqlar da məhz bu kimi zəruri xüsusiyyətlərin aşkarlanması vasitəsi olaraq tənqidi realizmdə xüsusi əhəmiyyətlə istifadə olunur. Doğru qeyd edildiyi kimi: "Monoloqlar fərdi təsdiqləyir" [1, s. 511]. Monoloqlardan daha fəal istifadə edən tənqidi realistlər romantiklərdən fərqli olaraq ədəbi yaradıcılığın ən müxtəlif növ və janrlarından bacarıqla istifadə etməyə çalışmış, ciddi nailiyyətlər ortaya qoymuşlar. İzahlı lüğətdə monoloq haqqında deyilir: "Monolóq: [yun. monos – tək və logos – nitq] Başlıca olaraq dramada aktyorun özünə, yaxud tamaşaçılara xitabən söylədiyi sözlər – nitq… // Təklikdə öz-özünə söylənən nitq, yaxud bir adamın dinləyicilərə xitabən söylədiyi uzun nitq" [7]. Əlbəttə, tənqidi realizmdə daha çox rast gəlinən monoloqlardan satirik şeirlərdə və dramatik əsərlərdə daha fəal istifadə edilmişdir.

Cəlil Məmmədquluzadənin böyük məharətlə yaratdığı məşhur "Anamın kitabı" əsərində Gülbaharın, "Ölülər" əsərində İsgəndərin, "Dəli yığıncağı" əsərində Molla Abbasın monoloqları olduqca mənalı və əbədiyaşardır. Bu monoloqlarda ideya-estetik özünəməxsusluq, güclü pafos, ideyalılıq və sair diqqət mərkəzinə gəlməklə onu örnəyə çevirir. Məsələn, "Ana-

mın kitabı" pyesinin əsas qəhrəmanlarından olan Gülbahar qardaşları Rüstəm Mirzə, Səməd Vahid və Mirzə Məhəmmədəlinin kitablarını hambala verdikdən sonra əlinə aldığı yeganə, bir kitabı yuxarı qaldıraraq deyir: "Gülbahar. Qaldı bircə kitab: bu da anamın kitabı! (Bir qədər hamı sakit durur baxır). Budur atam öz əli ilə yazdığı vəsiyyət (oxuyur)… Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır günün başına dolanırlar; çünki bunlar hamısı qədim əzəl gündən qopub ayrılmış parçalardır. Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın (əlini anasına tərəf tutur) ətrafında gərək dolanalar; çünki ay və ulduz şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edəcək, nə qədər canında nəfəs var, peşiman olacaq" [4, s. 475]. Bəhsi keçən bu məşhur monoloqda, fikrimizcə, ciddi ideya, məqsəd ümumiləşdirməsi və hətta simvolizəsi edilmişdir. Cəlil Məmmədquluzadə həm də milli inkişaf haqqında XX əsrin qüvvətli ideoloqlarından biri kimi çıxış edərək ailə, yəni qan və mənşə qohumluğu, dil, dəyər birliklərinə əsaslanaraq ictimai-milli varlıq haqda fikirlərini ümumiləşdirmişdir. Artıq qeyd edildiyi kimi, ədib əsərdə və o cümlədən haqqında bəhs edilən monoloqda müxtəlif düşüncə tərzlərinin timsalında, fikrimizcə, həm də paralanmış Azərbaycanın vəziyyəti və müqəddəratı barədə narahatlıqlarını ümumiləşdirmişdir [2; 3].

Əlbəttə, bədii əsərdə hər bir detalın xüsusi əhəmiyyəti, məqsədi və yeri var. Söz yox ki, bədii ədəbiyyata maarif və təlim, ictimai oyanış və inkişaf vasitəsi kimi baxan tənqidi realistlərin bədii əsərin strukturuna da əhəmiyyət verməsi, xüsusi məqsədlə yanaşması monoloqların istifadəsində də özünü göstərir. Bu mənada əsərdə monoloqlarda sadəcə əsərin başlıca ideya xəttini ümumiləşdirən fikirlər ehtiva olunmur, həm də əsərin bədii açarı kimi əhəmiyyət daşıyaraq bir çox xüsusiyyətlərlə diqqəti cəlb edir. Hər şeydən əvvəl səhnəyə, tamaşaçı və ya oxucuya ünvanlandığını nəzərə alaraq monoloqlara ictimai-bədii yükün həm də xüsusi təsir vasitələri ilə yükləndiyini qeyd etmək yerinə düşər. Monoloqların təhlili göstərir ki, buradakı fikir-düşüncə ritorikası, cümlə sintaksisi və üslubi imkanları, hətta lirik məzmun kəsb etməsi, duyğululuğu və təsirliliyi, pafos və diksiyalılığı və sair məhz bədii məqsədi həyata keçirmək vəzifəsinə xidmət edir. "Anamın kitabı" əsərindən nümunə gətirilən Gülbaharın monoloqu məhz bu keyfiyyətlərlə səciyyəvidir. Əsərin sonuna kimi qardaşlarının davranışlarına səbir göstərən, anasının yanında kölgə kimi gəzən, kimə ərə veriləcəyi ilə bağlı qardaşlarının qərarına boyun əyən Gülbahar əsərin bu yerində monoloqu ilə həmahəng daha qətiyyətli, mübariz, hətta üsyankar ruhu və ağıllı sözlərilə diqqət mərkəzinə gəlir. Bu baxımdan bu tipli monoloqları, müəyyən mənada, "ideya partlayışı" kimi də səciyyələndirmək olar. Bu da gözdən yayına bilməz ki, belə monoloqlar, əsasən, əsərin sonunda yer alır, əsərin başlıca ideyasını təlqin etməyə xidmət edir və tamaşaçını, oxucunu düşünməyə və müəyyən nəticəyə gəlməyə sövq edir.

Əlbəttə, monoloqları həm məzmun, həm də poetik quruluş etibarilə yazıçının bədii məqsədini özündə ehtiva edən bir kod, açar, hərəkətverici, istiqamətləndirici vasitə, maarifləndirici həmlə hesab etmək olar. Buraya qədər olan hadisə və əhvalatlar məhz düşüncə həmləsinə sövq edilmiş oxucunun hadisələri saf-çürük etməsilə səciyyələnir, tamaşaçının monoloqun ətrafında düşünməsinə yol açır. Əlbəttə, bu metod tənqidi realizmə doğma olan, ümumən tənqidi düşüncə sistemində Sokrat metodu adlanan təlimin düşüncə həmləsinə uyğundur. Həm də Sokrat metodu, onun təlim üsulu maarifin, elmin, ümumən müdrikliyin kütləviləşdirilməsi və hər kəsə öyrədilməsi ilə xüsusiləşirdi. Bu təlim metodunda öyrənənlər sadəcə istiqamətləndirilir və düşünməyə sövq edilirdilər. Onlar doğru nəticə istiqamətində yönəldilirdilər. Artıq

bəhs edildiyi kimi, Sokrat metodu üç əsas mərhələ üzərində qurulurdu: alay, doğurtma, vicdanın səsi [6]. Diqqət edilərsə, tənqidi realizmi ehtiva edən əsərlərdə, xüsusilə Cəlil Məmmədquluzadənin böyük ustalıqla yazılmış əsərlərində də bu üç üsul özünə yer alır. Ümumən, elmi mənbələrdə monoloqların kompozisiya-quruluş etibarilə üç hissədən ibarət olduğu da deyilmişdir: giriş, əsas hissə, nəticə [5]. Sokrat metodu və ya şifahi xalq ədəbiyyatı, daha dəqiqi lətifə yaradıcılığında olan klassik tənqid üsuluna uyğun olaraq C.Məmmədquluzadə əsərlərində də birinci mərhələdə tənqid hədəfləri alay edilir, gülüş hədəfinə çevrilir, diqqət bu hədəflərə və ya obyektlərə qarşı yönəldilir. Bu mərhələdə yanlışlar müəyyənləşdirilir və nəticəyə gəlinməsi üçün zəmin hazırlanır. "Doğurtma" (maieutic) deyilən ikinci mərhələdə yanlışları tənqid yolu ilə doğru bir qənaətə gəlinməsi təmin olunur. Bunun üçün isə, başlıca, üçüncü şərt olan "daiomonion", yəni C.Məmmədquluzadənin də tez-tez bəhs etdiyi vicdanın səsi rol alır və şəxsin məntiqi qənaəti ortaya qoyulur. Bu mənada bu monoloqlarda da Sokrat metoduna uyğun olaraq bir mühakimə, münasibət, tənqid və məntiqi nəticələnmə özünə yer alır. Fikrimizcə, məhz bu monoloqlar tənqidi realist həmləni həyata keçirməklə "doğurtma" ("maieutic") rolunu həyata keçirir. Əsərin finalında isə tamaşaçı və ya oxucu "qəlbinin və ya vicdanını səsinə" qalır, öz məntiqi nəticəsinə gəlir.

Qeyd edilən şərtləri, əlbəttə ki, C.Məmmədquluzadənin bütün tənqidi-realist əsərlərindəki monoloqlar haqda demək olar. Əlbəttə, əsərin ideya və məzmun xüsusiyyətlərinə görə biri-birindən müəyyən fərqlilik, daha doğrusu, səciyyəvilik kəsb etsələr də, bu ümumi xüsusiyyətlər hər birinə aid oluna bilər. Belə ki, dini fanatizmi hədəfə alan ən görkəmli əsərlərin ən sanballısı hesab olunan C.Məmmədquluzadənin dünyaca şöhrətli "Ölülər" əsərində İsgəndərin həm qəbiristanlıqdakı monoloqu, həm də əsərin sonunda söylədiyi monoloqu öz məzmunu, ideyası etibarilə örnəklər arasında ən ölməz və təsirli olanıdır. Əlbəttə, əsər bütün məzmunu və ideyası ilə oyaqlıqla fanatizm arasında gedən mücadiləni ümumiləşdirir. Bu məsələ bir tərəfdən tarixin mühüm problemi kimi, bir tərəfdən də ustad Cəlil Məmmədquluzadənin yaşadığı və içində olduğu ictimai-tarixi şəraitin ən mühüm, başlıca məsələsi olaraq əsərə gətirilir. Bu mənada dövrün bir çox ədiblərini narahat edən və qayğılandıran ictimai varlığa və ya mühitə ağılla və ya fanatikcə yanaşma məsələsi "Ölülər" əsərinin əsas probleminə çevrilib. Bu cəhətdən əsərdə doqmatik qanunlara əsir olan bir fanatik kütlənin həyat şəraiti diqqət mərkəzinə çəkilərək yol verilən ictimai ədalətsizliklər, hətta kütlənin avamlığı və faydasız qanunlara tabeliyindən istifadə edən bir qrup fürsətgirin əxlaqsızlıq və cinayətləri əsərin başlıca panoramasına çevrilmişdir. Cəlil Məmmədquluzadə hələ o dövr üçün olduqca azlıq təşkil edən ziyalıların taleyini İsgəndərin simasında əks etdirmiş, kütlə fanatizmi ilə mübarizəsi kontekstində bir sıra mühüm məsələləri qabartmışdır. İsgəndərin dilindən iki məşhur monoloqun səslənişi də, fikrimizcə, böyük ədibin yaradıcılığında çox böyük əhəmiyyətlə yanaşdığı fanatizmin ortadan qaldırılması məsələsinə həssas yanaşması və başlıcalıq təşkil etməsilə əlaqədardır. İsgəndərin qəbiristanlıq səhnəsindəki monoloqu, fikrimizcə, müəllifin fanatizmin sütunlarını tənqid edib sarsıtmaq üçün birinci həmləsidir. İsgəndər monoloqunda "(iki yumruğunu yuxarı qaldırıb ucadan deyir): İsgəndər: Bu qollarda Rüstəm pəhləvan kimi qüvvətim olaydı, yapışaydım sizin ayaqlarınızdan ataydım göyün üzünə, başıaşağı gəlib kal qarpız kimi paqq eləyib dağılaydınız" [4, s. 416], – deyə birinci olaraq özünə fiziki bir güc, dəyanət və qüvvə arzulayır. Bu, həm də İsgəndərin dililə fanatizmi yaşadan qüvvələrə qarşı meydan sulama, mübarizə açma və onları yıxmaq mücadiləsinin ifadəsidir. Müəllif İsgəndərin bu arzusu ilə fanatizmə qarşı qətiyyətli mübarizə cəbhəsi açmaq ideyasını təlqin etmiş olur. Hətta, fikrimizcə, yaşasın və ya yaşamasın deyə müzakirə də açmır, qətiyyətlə ləğvi barədə fikir irəli sürür. "Ax, Allahın altında mənim də Şeyx Nəsrullah kimi bir elə elmim olaydı ki,

burada yatan ölülərlə danışa biləydim!" [4, s. 416] – deyə Şeyx Nəsrullah kimi fırıldaqçı "din lotularının" moizələrini alay obyektinə çevirir, həmçinin onu tamaşaçının əqli mühakiməsinə buraxır.

İsgəndər sonrakı fikirlərilə də ölülərdən fərqlənməyənlərə qarşı mənəvi oyanış həmləsi həyata keçirir. Ümumən bu monoloqu ilə tamaşaçı və ya oxucunun şüurunda çirkaba və cinayətlərə batmış cəmiyyətin təmizlənməsi və doğru yola sövqü istiqamətinə təlqin işi həyata keçirir. İsgəndərin qəbiristanlıqdakı monoloqu bir növ sonuncu həmləyə zəmin rolunu oynayır. Belə ki, İsgəndərin ikinci monoloqu daha sərt, daha qətiyyətli, konkret və birmənalıdır. Bu hissəyə qədər İsgəndər mühitin qarşısında idi və mühit onu təhqir edir, heysiyyətini alçaldırdı. İndi isə artıq alçaldılmış və təhqir edilmiş, başına olmazın bəlalar açılmış, peşmanlıq duyan bir mühit İsgəndərin qarşısında dayanıb. İndi həmin o "kefli İsgəndər"ə qarşı insani cinayətlər edən mühit nümayəndələri indi onun qarşısında peşman və aciz dayanaraq "fateh İsgəndər"in tənbehini eşidirlər: "Baxın! Baxın! Yaxşı baxın! Diqqətlə baxın! Sizin tarixlərinizin kitabında bu, qan ilə yazılmış bir səhifədir. Sizdən sonra gələnlər bu kitabı vərəqləyib, bu səhifəni görəndə sizi yada salıb deyəcək: (ucadan) Tfu sizin üzünüzə! (Tüpürür camaata tərəf. Hamı başını aşağı salıb dinmir.) Bağışlayın, Kefli İsgəndər bir az biədəblik eləyir. Amma indi də növbət mənimdir" [4, s. 428]. Kefli İsgəndərin məşhur olan bu monoloqu mühakimə və ittihamla doludur. Bu, o monoloqdur ki, Cəlil Məmmədquluzadənin və ümumən Azərbaycan tənqidi realizminin fanatizmi, cəhalət və mövhumatı təkcə tənqid və ifşa edən deyil, həm də rədd edən ən qüvvətli nümunəsidir. Onun hirs və qəzəblə dediyi "Siztək camaatın da igidi mənimtək olar" [4, s. 429] fikri böyük mühakimə tezisi olaraq ortaya qoyulur və mühitə ittiham olaraq səsləndiyi kimi, müəllifinə də günahsızlıq prezumpsiyası qazandırmış olur. Monoloqun ən ağır ittihamı axırda əksini tapır: "Hələ mən heç. İndi görək siz kimsiniz? Mənim adım Kefli İsgəndərdir, bə sizin adınızı nə qoyaq? Mən …dünya-aləmləri bura şahid çəkərəm və bu qızları onlara nişan verərəm, soruşaram ki, bu camaata nə ad qoymaq olar? O vədə hamısı bir səslə cavab verər: "Ölülər" [4, s. 429]. Diqqət edilsə, monoloqda müəllif sadəcə öz ittihamını səsləndirmir. İttihamın birinci bəndində mühiti nöqsanlarına görə (Mən …dünya-aləmləri bura şahid çəkərəm və bu qızları onlara nişan verərəm…) din və şəriətə uyğun mühakimə edir və ittiham səsləndirir. İkinci bəndində (Mən cəmi millətləri bura yığıb təvəqqe edərəm ki, Şeyx Nəsrullahın hərəmxanasına tamaşa eləsinlər, o vədə bütün yer üzünün tayfaları sizi bir səslə adlandırarlar: Ölülər!) dünya xalqlarının dəyərləri və baxışları kontekstində mühakimə və ittiham əks olunur. Üçüncü bənddə isə (Və bizdən sonra gələnlər illər uzunu sizi yada salıb bir səslə deyəcəklər: Ölülər!) bu ürəkağrıdan mənzərə və hadisələri bütövlükdə gələcəyin və gələcək nəsillərin mühakiməsinə buraxaraq ittiham səsləndirir. Heç bir halda müəllif öz şəxsi mövqeyindən çıxış etmir, bu acınacaqlı vəziyyəti ədalətli mühakimə üçün ən mümkün mənbə və şərtlərə söykənir. Beləliklə, "Ölülər"in Kefli İsgəndərinin bu məşhur monoloqu müəllifin və onun silahdaşlarının dediyi kimi, bütövlükdə islam dünyasını sarsan fanatizm və cəhaləti, onun ağır sütun və mənbələrini mühakimə kimi səslənir, qətiyyətli ittiham səsləndirərək mübarizə ideyası ehtiva edir.

Ustad Cəlil Məmmədquluzadənin öldürücü və dərin lirizmlə müşahidə olunan monoloqları sırasında fanatizmi yeni miqyas və keyfiyyətdə təqdim və ifşa edən məşhur "Dəli yığıncağı" əsərində Molla Abbasın dilindən deyilən monoloq da yer alır. Molla Abbas həyat yoldaşı Pırpız Sonanı dəlilər arasında tək qalmasın deyə mühitinin "mömin", "ağzıdualı" şəriət-din xadimlərindən qorumaq üçün özünü dəliliyə qoymuş ağıllı, ziyalı bir şəxsdir. Problemin qəlizliyi, bir az da artıq kədərliliyi ordadır ki, bu əxlaqdan xali möminlər mühitinin

ağsaqqalı, başçısı Molla Abbasın irz düşməni olan doğmaca qardaşı Fazil Məhəmməddir. Fazil Məhəmməd kimi "həpənd"in moizələrilə həmahəngləşən digər dəlilərin qardaşları da din, iman, əxlaq tanımayaraq doğma qardaşlarının arvadlarını almaq üçün çarpışırlar. Faciənin böyüklüyü ondadır ki, bu çarpışma qardaşlar arasında gedir: mömin qardaşlar nüfuz və səlahiyyətlərindən istifadə edərək öz qardaşlarını diri-diri öldürmək – dəliləşdirmək və bu minvalla da onları haqlarından məhrum edib arvadlarını almaq istəyirlər. Əsərin sonunda Molla Abbasın dərin, gözyaşardıcı kədərini ifadə edən monoloqu böyük maraq doğurur: "Sona, get, get, mən sənə izin verdim. Səni aparan mənim qardaşımdı. Neçə ildi özümü (öz üstünə baxır) bu hala salmışam ki, sən dəlilər içində tək qalmayasan! Yazığım sənə də, yazıq özümə də! Çünki dəxi bizim günümüz belə keçəcək və axırda da divarlar dibində can verəcəyik. …İndi ki getmədin, getmə, qoy o bacı-qardaşlar (əlini zəvvara tərəf tutur), o qayınbaldızlar əyləşsinlər kəcavələrə və yetmiş günün ərzində həzrətin qoşunundan ötəri yetmiş min övlad əmələ gətirsinlər və həzrətin düşmənini səğərin dib-bucağına vasil eləsinlər. Gedək biz də öz yoldaşlarımızın içində qalaq. Doğrudur, onlar həzrətin zühuruna inanmırlar, həzrətin zühurunda mayallaq aşırlar, amma heç olmasa səni də çimdikləmirlər" [4, s. 546].

Monoloqda yanğı, dərin kədər, üsyankar və qəzəbli ruh özünü aydın hiss etdirir. Bu monoloq, bu kədər, bu qəzəb düşüncəsi fərqli, ərinə sadiq, əxlaqına düşkün bir qadın olaraq Sonanın Fazil Məhəmməd kimi həpəndin zorla kəcavəyə aparılması kontekstində baş verdiyindən şəxsiyyətin harayı və fəryadı kimi səciyyə qazanır. Bu monoloq bütün poetik təsir və vüsətilə Molla Abbas kimi vəfalı və ağıllı bir insanın, bir ərin həyat yoldaşının qardaşı tərəfindən zorla əlindən alınması səhnəsində ictimai quruluşa, düşüncəyə, əxlaq və mənəvi normalara qarşı hiddətli üsyan və nifrətini ifadə edir. Fikrimizcə, bu səhnənin timsalında dəyərlərindən qoparılan bir insanın faciəsi ümumiləşdirilmişdir. Bu ictimai kədər bir tərəfdən ümumi, tarix boyu davam edən ictimai düşüncələrin mübarizə nəticələrini ümumiləşdirir. Belə ki, uzun illər, hətta əsrlər ərzində qnostiklərlə aqnostiklər, teistlərlə ateistlər və müxtəlif fikir cəbhələri arasında gedən mübarizələri bu əsər özündə qoyduğu problem əhatəsində ümumiləşdirmişdir. Digər tərəfdən konkret bir ictimai-tarixi şəraitdə, ustad Cəlil Məmmədquluzadənin özünün də yaşadığı, şahid olduğu və hətta məruz qaldığı yeni bolşevik-şura quruluşunun müxtəlif insanlara və ziyalılara göstərdiyi münasibəti mənalandırır. Məhz bu münasibətin ifadəsi idi ki, Cəlil Məmmədquluzadənin tənqidi realizmini və milli mövqeyini həzm edə bilməyən Şura hökuməti onun başçılıq etdiyi "Molla Nəsrəddin" jurnalının fəaliyyətini dayandırmaq məqsədilə onu ağır, sərt, qərəzli tənqidlərə məruz qoymuş, jurnalın adını dəyişdirərək "Allahsızlar cəmiyyətinin orqanı" kimi ortaya çıxarmağa çalışmış, Qoca Molla Nəsrəddinə qarşı isə etimadsızlıq və şübhə çərçivəsində davranmış, alçaldıcı münasibətlərə məruz qoyaraq ölümünə bais olmuşdur. Bu mənada Molla Abbasın taleyi həm də müəllif Cəlil Məmmədquluzadənin özünün taleyi və eyni zamanda sələflərini təşkil edən Sokratın, Nəsiminin, Mirzə Fətəlinin, Cordano Bruno, Kepler, Qaliley və başqa görkəmli şəxsiyyətlərin faciəli tale və aqibətlərini ümumiləşdirir.

Beləliklə, Cəlil Məmmədquluzadənin qüdrətli qələmi ilə ərsəyə gələn çoxsaylı bədii əsərlər Azərbaycan milli tənqidi realizminin ilk və ən sanballı nümunələri olduğu kimi, onlardan ortaya çıxan poetik məsələlər də onun estetikası və nəzəri əsaslarını təşkil edir. Onun əsərlərində yer alan maraqlı monoloq örnəkləri də özünün bir sıra xüsusiyyətləri ilə tənqidi realist əsərlərin səciyyəsini müəyyən edir. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatı tarixində ən sanballı monoloq nümunələri olaraq yadda qalan Kefli İsgəndərin, Gülbaharın, Molla Abbasın monoloqları məhz bu görkəmli tənqidi realist ədibin "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" əsərlərindəndir. Monoloqun estetik yükü, bədii funksiyası, poetik quruluşu və digər

məsələlər məhz bu qüdrətli ədibin nümunələri ilə müəyyənləşərək yer alır. Məlum olur ki, bədii əsər, xüsusilə dram əsərləri üçün aparıcı olan monoloqlar müəllif üçün nəzərdə tutulan ideya-estetik yükün oxucu və ya tamaşaçıya nəql edilməsi yolunda ədəbi həmlə kimi qiymətləndirilə bilər. Belə ki, bu monoloqlar əsərin əsas, başlıca ideyasının açılmasına vasitə olmaqla bərabər, tənqidi realist əsərlər üçün oxucuya nəzərdə tutulan ideya-estetik məqsədin mənimsədilməsində də böyük əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Həbibbəyli İ. Dialoq haqqında monoloq / İ.Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 696 s.
2. Qasımov R. Cəlil Məmmədquluzadə yaradıcılığında "kiçik" adamın ictimai-bədii funksiyası. Bakı: Elm və təhsil, 2012, 206 s.
3. Qasımov R., İsmayıl Z. Azərbaycan ədəbiyyatında milli düşüncə konsepsiyası və Azərbaycançılıq ideologiyası. Bakı: Elm və təhsil, 2017, 192 s.
4. Məmmədquluzadə C. Əsərləri: 4 cilddə, I c., Bakı: Lider nəşriyyat, 2004, 480 s.
5. Monoloji əsaslandırma nədir? / https://coppershop.ru/az/nuzhno-znat/chto-takoe-monolog-rassuzhdenie-chto-takoe-monolog-otlichie-monologa-ot.html
6. Sokrates'in doğurtma yöntemi. / http://eskidergi.cumhuriyet.edu.tr/makale/302.pdf
7. http://nedir.az/monoloq-nedir-monoloq-haqqinda

AMEA Naxçıvan Bölməsi
E-mail: ramizqasimli44@gmail.com

Ramiz Gasimov

THE ARTISTIC AND STRUCTURAL ESSENCE OF MONOLOGUES IN JALIL MAMMADGULUZADE'S DRAMA

The paper discusses examples of monologues used in Jalil Mammadguluzadeh's plays. There are exciting examples of monologues in Jalil Mammadguluzadeh's works, which are typical for most plays. Valuable examples of monologues have been created in the works of the great writer Jalil Mammadguluzadeh "Olular" ("The Deads"), "Anamin kitabi" ("My mother's book"), "Dali yiginjagi" ("Crazy meeting"). The monologues of Kefli Iskender ("The Dead"), Gulbahar ("My Mother's Book"), Mullah Abbas ("Crazy Meeting") have gained an essential place in our literary history. The article analyzes the examples of monologues in terms of the poetics of critical realism. The structure of monologue patterns found in critical realists' works is analyzed by the method of Socrates. It is shown that in the works of critical realists, who successfully use the method of Socrates, monologues, both in structure and poetic nature, serve to reveal the idea and assimilate the idea and perform the function of inspiration.

Therefore, in the first stage, the monologues are ridiculed against the targets of criticism by carrying out a regimental attack. This is the basis for imparting knowledge. At this stage, errors are identified, and the groundwork is drawn for a conclusion. In the second stage, called maieutic, it is possible to come to the right decision by criticizing the mistakes. For this, the primary condition plays a role, the third condition, "daiomonion", that is, the voice of conscience, often mentioned in the works of J.Mammadguluzadeh, and the logical conclusion of the person is revealed. In this sense, these monologues also contain a judgment, attitude,

criticism, and logical conclusion by the method of Socrates. Monologues in such works are shown to be a means of literary attack. Analyzes show that the rhetoric of thought, sentence syntax and stylistic possibilities in monologues, and even the acquisition of lyrical content, emotionality and effectiveness, pathos and diction, etc., serve the task of realizing the artistic purpose. In critical realists' works, monologues play the role of an "explosion of ideas".

Keywords: *monologue, critical realism, Jalil Mammadguluzadeh, Socratic method.*

Рамиз Гасымов

ХУДОЖЕСТВЕННАЯ И СТРУКТУРНАЯ СУЩНОСТЬ МОНОЛОГОВ В ДРАМАХ ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ

В статье рассматриваются образцы монологов, используемых в драматических произведениях Джалила Мамедгулузаде. Основную цель исследования образуют предназначение монологов, поэтический характер и структура, мастерство писателя и др. Отмечается, что в творчестве Джалила Мамедгулузаде есть интересные примеры монологов, более характерных для драматических произведений. Ценные образцы монологов созданы в мастерскинаписанных произведениях великого писателя Джалила Мамедгулузаде «Мертвые», «Книга моей матери», «Безумная встреча». Монологи Кефли Искендера («Мертвые»), Гюльбахара («Книга моей матери»), Муллы Аббаса («Безумная встреча») заняли важное место в истории нашей литературы. В статье анализируются образцы монологов с точки зрения поэтики критического реализма. Структура монологов в произведениях критического реализма анализируется по методу Сократа. Показано, что в произведениях критических реалистов, успешно использующих метод Сократа, монологи как по структуре, так и по поэтическому характеру служат раскрытию и усвоению идеи, а также выполняют функцию вдохновения. Поэтому на первом этапе монологи осуществляют атаку «полк» или «художественный смех», обнаруживая критический подход к объектам критики. Это основа для передачи знаний. На этом этапе выявляются ошибки и закладывается фундамент для вывода. На втором этапе, называемом майевтическим, можно прийти к правильному выводу, критикуя ошибки. Основную роль в этом играет третье условие, «дайомонион», то есть голос совести, который часто упоминается в произведениях Дж. Мамедгулузаде, и раскрывается логический расчет человека. В этом смысле эти монологи также содержат суждение, установку, критику и логическое заключение в соответствии с методом Сократа. Монологи в таких произведениях показаны как средство литературной атаки. Анализ показывает, что риторика мысли, синтаксис предложений и стилистические возможности в монологах, даже приобретение лирического содержания, эмоциональности и действенности, пафоса и дикции и т.д. служат задаче реализации художественной цели. В произведениях критического реализма монологи играют роль «взрыва идей».

Ключевые слова: *монолог, критический реализм, Джалил Мамедгулузаде, сократовский метод.*

(AMEA-nın həqiqi üzvü İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)

Daxil olma tarixi: İlkin variant 12.02.2020
Son variant 05.03.2021

UOT 82-03; 82:81`255.2 82.0:001.92; 82.0:061.22

ELXAN MƏMMƏDOV

AZƏRBAYCAN-RUS ƏDƏBİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA EYNƏLİ BƏY SULTANOV FAKTORU

Eynəli bəy Sultanovun Azərbaycan və rus dillərinə qarşılıqlı tərcüməçiliyini xüsusilə qeyd etməliyik. İstər rus müəlliflərinin Azərbaycan ictimaiyyətinə çatdırılmasında, istər azərbaycanlı müəlliflərin rusdilli oxuculara tanıdılmasında, istərsə də Azərbaycan folklorunun və digər əhəmiyyətli məsələlərlə bağlı mövzuların rus dili vasitəsiylə ayrı-ayrı xalqlara təbliği istiqamətindəki tərcümələri bizə imkan verir ki, bu görkəmli ziyalının Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafındakı xidmətlərindən ətraflı söz açaq.

Yüksək intellektə və dünyagörüşünə malik olan E.Sultanov əmək fəaliyyəti dövründə də rus dili ilə daimi təmasda olmuş, istər hüquq-mühafizə orqanlarında işlədiyi zaman, istərsə də ondan sonrakı dövrlərdə Naxçıvanda, İrəvanda, Tiflisdə mətbuatla əlaqələri zamanı mütəmadi olaraq rus dilindən geniş istifadə etmişdir. Beləliklə bu dili mükəmməl bilən ədib rus yazıçılarından Nekrasov, Krılov, Baxmanov, Qorki, Mayakovski və başqalarının əsərlərini Azərbaycan dilinə, həmçinin M.F.Axundovun, Ş.Əfəndiyevanın və başqalarının əsərlərini rus dilinə tərcümə etmiş, eyni zamanda ədiblərimizin rus yazıçılarından etdiyi tərcümələr haqqında mütəmadi resenziyalarla çıxış etmişdir.

Məqalədə də Eynəli bəy Sultanovun bu iki xalq arasındakı ədəbi əlaqələrin inkişafında oynadığı roldan bəhs olunmuşdur.

Açar sözlər: *Eynəli bəy Sultanov, ədəbi əlaqələr, Azərbaycan, rus, tərcümə.*

Görkəmli maarifçi-pedaqoq, tanınmış yazıçı-publisist, teatr təşkilatçısı və tənqidçisi, dəyərli folklorşünas kimi tanıdığımız Eynəli bəy Sultanovun (1866-1935) xidmətlərindən biri də tərcüməçilik fəaliyyətidir. Onun Azərbaycan və rus dillərinə qarşılıqlı tərcüməçiliyini xüsusilə qeyd etməliyik. İstər rus müəlliflərinin Azərbaycan ictimaiyyətinə çatdırılmasında, istər azərbaycanlı müəlliflərin rusdilli oxuculara tanıdılmasında, istərsə də Azərbaycan folklorunun və digər əhəmiyyətli məsələlərlə bağlı mövzuların rus dili vasitəsiylə ayrı-ayrı xalqlara təbliği bizə imkan verir ki, bu görkəmli ziyalının Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafındakı xidmətlərindən ətraflı söz açaq.

İlk təhsilini 1872-1877-ci illərdə Naxçıvanda rus-tatar məktəbində alarkən rus dilini öyrənən E.Sultanov 1880-1886-cı illərdə İrəvan kişi gimnaziyasında oxuduğu illərdə də digər Avropa dilləri ilə yanaşı (latın, yunan, fransız) rus dilindən də dərslər almış və bu dilə mükəmməl şəkildə yiyələnmişdir. Yüksək dünyagörüşünə malik olan ədib işlədiyi dövrdə də rus dili ilə daim təmasda olmuşdur. Hüquq-mühafizə orqanlarında işlədiyi zaman, istərsə də ondan sonrakı dövrlərdə Naxçıvanda, İrəvanda, Tiflisdə mətbuatla əlaqələri zamanı mütəmadi olaraq rus dilindən geniş istifadə etmişdir.

Görkəmli ədib Naxçıvanda yaşadığı, İrəvanda işlədiyi dövrdə, Tiflisə köçdükdən sonra "Каспи", "Новое обозрение", "Кавказ", "Возрождение", "Закавказье", "Закавказская речь", "Грузия", "Кавказская школа", "Кавказская коммуна", "Новости закавказья", "Кавказское слово", "Культура и письменность Востока", "Санкт-Петербургские ведомости" kimi qəzet, jurnal və məcmuələrdə mütəmadi olaraq bədii, publisistik, tənqidi yazıları ilə çıxış etmişdir. Bu barədə Azərbaycan yazıçılarının Tiflis ədəbi-ictimai mühitindəki fəaliyyətindən bəhs edən tədqiqatçılar E.Sultanovun əməyini də yüksək qiymətləndirmişlər.

E.Sultanov mətbuat sahəsindəki fəaliyyəti zamanı bir çox qəzetdə məsul vəzifə də

daşımışdır. Belə ki, 1905-1908-ci illərdə "Каспи" qəzetinin İrəvan və Naxçıvandakı xüsusi müxbiri, Закавказье" qəzetinin "Müsəlman həyatı" şöbəsinin müdiri işləyən, 1918-ci ilin mart ayından nəşr olunmağa başlayan "Rusiya teleqraf agentliyinin Qafqaz ölkəsi, Gürcüstan şöbəsinin təbliği xarakter daşıyan, gündəlik daxili və xarici xəbərləri zəhmətkeşlərə çatdıran "Кавказская коммуна" (rus dilində) adlı qəzetin redaktoru olmuş, "Закавказская речь" qəzetində müsəlman qəzetlərindən tərcümə işini yerinə yetirən tərcüməçi kimi çalışmışdır. O, həmçinin 1924-cü ildə Zaqafqaziya Maliyyə Komissarlığında tərcüməçi vəzifəsində çalışmışdır.

Yazıçı-pedaqoq Tiflisdə yaşadığı müddətdə pedaqoji fəaliyyətlə də məşğul olmuş, 1912-ci ilin dekabr ayından 1918-ci ilin fevral ayına qədər "Tiflis-İran" məktəbində rus dili müəllimi işləmişdir.

Bütün bunların hamısı Eynəli bəy Sultanovun rus dilinə mükəmməl şəkildə bələd olduğunun göstəricisidir. Belə olan halda onun özünün də rus dilində publisistik məqalələr yazması, bədii əsərlər ortaya qoyması heç də çətin deyildi.

Hələ 1883-cü ildə Naxçıvanda ilk teatr tamaşası oynanılması üçün dövrün dövlət orqanlarından icazə alarkən Eynəli bəy Sultanovun və fikirdaşlarının qarşısında belə bir tələb qoyulmuşdu ki, tamaşa rusca oynanılmalıdır. Bu zaman o, Mirzə Fətəli Axundovun "Müsyo Jordan və Dərviş Məstəli şah" komediyasını rus dilinə çevirmiş və əsər o şəkildə tamaşaçılara təqdim olunmuşdu.

1884-cü ildə qələmə aldığı "Tatarka" ("Azəri qadını") iki pərdəli komediyası da o dövr üçün mühüm əhəmiyyətə malik məzmun daşıyırdı.

Məhz görkəmli ədibin mövzumuzla bağlı bəhs etdiyimiz Azərbaycan-rus ədəbi əlaqələri də həmin dövrdən başlamışdır. Görkəmli tədqiqatçı İzzət Maqsudovun araşdırmalarından onu da öyrənirik ki, Eynəli bəy Sultanov M.F.Axundovun digər əsərlərini də rus dilinə tərcümə etmişdir. O 1928-ci ildə "Molla İbrahimxəlil kimyagər" əsərini, 1929-cu ildə isə "Hacı Qara" əsərini "Культура и писменности Востока" məcmuəsində çap etdirmişdir [9, s. 193].

Azərbaycan-rus ədəbi əlaqələrindən danışarkən bir məqamı da unutmamalıyıq ki, E.Sultanov rus dili ilə yanaşı fars və ərəb dillərini də bilirdi. Bu baxımdan onun fars dilindən bir çox əsəri birbaşa rus dilinə tərcümə etdiyini də diqqətdən qaçırmamalıyıq. Belə ki, o fars dilindən Hafizin "Divan"ından parçaları, Baba Tahirin "Allah insan məhkəməsi qarşısında" traktatını, Sədinin "Gülüstan"ından bəzi hissələri, həmçinin Şəfiqə Əfəndiyevanın "Belə əzaba Allah da dözməz" məqaləsini rus oxucusuna çatdırmaqla bir azərbaycanlı kimi tərcüməçi mövqeyində çıxış edərək ədəbi əlaqələrin bu sahəsində də öz xidmətlərini əsirgəməmişdir.

Onu da etiraf etmək lazımdır ki, "Bədii tərcümə sahəsində nəzərə çarpan səciyyəvi cəhət bir də o idi ki, tərcümə üçün əsər seçərkən ilk növbədə müəllifin nüfuzuna yox, əsərin ləyaqətinə, ideyasına diqqət yetirirdilər. Əgər əsər ədəbiyyatda hadisə hesab olunurdusa, həyatın ziddiyyətlərini tipik bədii lövhələrdə əks etdirirdisə, onu milli qürur hissi ilə rus mətbuatına çıxarırdılar. Ədəbiyyatdan ideyalılıq, müasirlik tələb edən E.Sultanov da Şəfiqə xanım Əfəndiyevanın "Allah bu zülmü götürməz" hekayəsini məhz bu mülahizə ilə çevirib 18 iyun 1916-cı ildə "Закавказская речь" qəzetində nəşr etdirmişdir" [8, s. 152].

Eynəli bəy Sultanov öz bədii əsərlərinin bir çoxunu birbaşa rus dilində yazmışdır. Onun "Arxı keç, sonra bərəkallah deyərsən", "Novruz ağa", "Həsən xan", "İfritə", "Tamerlan və dərviş", "Fars qızı", "Müsəlmanın fantaziyası" və s. kimi hekayələri rus dilində yazılmış, dövrünün "Novoye obozreniye", "Zakavkazskaya reç" və digər qəzetlərində nəşr olunmuşdur.

Bu hekayələrin hər birində görkəmli yazıçı öz xalqının insanını, yaşayış tərzini, adət-ənənələrini, həmçinin digər mövzulara münasibətini rus dili vasitəsiylə bədii şəkildə bir çox xalqlara çatdırmağa çalışırdı.

Eynəli bəy Sultanovun tədqiqatçılarından biri olan İradə Əsədova özünün "Eynəli bəy Sultanovun yaradıcılıq yolu" [14] monoqrafiyasında da bu məsələyə toxunmuş, xüsusilə yüzlərlə publisistik məqaləsini rus dilində yazdığını qeyd etmişdir. Burada o da vurğulanmışdır ki, həmin məqalələrin hər birində Qafqaz müsəlmanlarının, xüsusilə azərbaycanlıların həyat tərzi, folkloru, ədəbi simaları, maarifçi ziyalıları və digər bu kimi mövzularla bağlı məsələlər işıqlandırılmışdır. Bunun özü də bir xalqın digər xalqlara təbliği və tanıdılması, bəzi hallarda xarakterinin nümayiş etdirilməsi cəhətindən qarşılıqlı əlaqələrin inkişafına köməklik etmişdir.

"Azərbaycan-rus ədəbi əlaqələri" monoqrafiyasında görkəmli professor A.Alməmmədovun qeydlərinə əsasən Eynəli bəy Sultanovun bu iki xalq arasındakı ədəbi-mədəni əlaqələrin inkişafındakı xidmətlərini müşahidə etmək mümkündür. Görkəmli rus şairi Nekrasovdan bəhs edərkən tədqiqatçı yazır: "Əsrin başlanğıcında (XX əsr – E.M.) Nekrasov Azərbaycanda yaxşı tanınan rus şairlərindən biri olmuşdur. Təsadüfi deyil ki, görkəmli publisist E.Sultanov öz yazılarının birini "Nekrasovla birlikdə" adlandıraraq onun şeirləri vasitəsiylə öz dövrünün hadisələrini izah edirdi" [1, s. 157].

Ədibin Nekrasovla münasibətlərinin, söhbətlərinin nəticəsini yazdığı məqalələrindən də müşahidə edə bilirik: "Azərbaycan xalqının yaratdığı, geriliyə və təzyiqə qarşı çevrilən həzin xalq bayatılarının, bu kiçicik mahnıların hər sətrində nə qədər qəm, ölçüyəgəlməz kədər vardır. Bu mahnıları əzilən xalqın dilindən eşidərkən ölməz şair Nekrasovla birgə qışqırıb demək istəyirsən ki:

...Эх сердечный,
Что значит твой стон бесконечный" [4, s. 63].

Eynəli bəy Sultanov rus ədəbi simalarını çox yaxşı tanıyırdı. Özü də bir yaradıcı şəxs, xalqının maariflənməsi, savadlanması, cəhalət buxovundan azad olması üçün çarpışan, mübarizə aparan ziyalı kimi rus şair və yazıçılarını da yaxşı-yaxşı oxuyur, onların bu sahədəki fəaliyyətlərini, əsərlərindəki mesajları nəzərdən qaçırmırdı. Tolstoydan, Nekrasovdan, Qorkidən, Krılovdan və digərlərindən müxtəlif şəkildə yararlanır, sitatlar gətirir, nümunələri tərcümə edir, təbliğinə çalışırdı: "E.Sultanov rus xalqının, onun zəngin mədəniyyətinin, Zaqafqaziya xalqlarının tarixən qapıbir, qonşuluq, dostluq münasibətlərindən də hörmət və məhəbbətlə danışmış, öz böyük sələfi M.F.Axundov və müasirləri – qabaqcıl Azərbaycan ziyalıları kimi, rus xalqı ilə yaxınlıq, dostluq münasibətlərinin qüvvətlənməsini, rus dilini öyrənməyin faydasını xüsusi hərarətlə təbliğ etmişdir. Yazıçının özü bu dil vasitəsilə rus və dünya ədəbiyyatının bir sıra qabaqcıl sənətkarlarını yaxından tanımış, demokratik rus ziyalılarının fikirlərini şəraitə uyğun şəkildə təbliğ etmişdir. Yazıçının rus dilindən Azərbaycan dilinə, Azərbaycan dilindən rus dilinə etdiyi tərcümələr də onun rus xalqına, onun zəngin ədəbiyyatına valeh olduğunu və ondan öyrəndiyini göstərir" [2, s. 35]

Maarifçi ziyalı silsilə şəklində qələmə aldığı "Naxçıvan məktubları"nın "Xırda, əhəmiyyətsiz şeylər" başlıqlı yazısında mövzuya uyğun olaraq A.Çexovdan sitat gətirmişdir: "Bizcə, bunlar hamısı xırda, boş şeylərdir, lakin axı başa düşün, bu xırda şeylər o qədər çoxdur ki, onlardan bütün həyat düzəlib, necə ki, qum dənələrindən dağ əmələ gəlir". O, bununla həm də toxunduğu məsələyə özündən əvvəlki rus yazıçılarının münasibətini göstərirdi [13, s. 239].

Mətbuatda müxtəlif imzalarla çıxış edən ədib "Zakavkazye" qəzetində "Abd-ul-millet"

imzalı yazılarında Azərbaycan yazıçı və şairlərinin yeni çapdan çıxan əsərləri və onların ədəbi-ictimai fəaliyyəti haqqında vaxtaşırı məlumatlar verirdi. Belə ki, Sabirin "Hop-hopnamə"sinin, S.M.Qənizadənin "Письма Шейдабека", Əli Səbrinin " Ночь разлуки", Lətifbəyovun "Zavallı Cavad" romanlarının çapdan çıxmasını xəbər verir, M.B.Hacıbababəyov tərəfindən isə H.Heynenin "Əlmənsur" pyesinin tərcümə olunmasını bildirirdi. Həmçinin M.Sidqinin "Kərbəlayi Nəsir" əsəri haqqında oxucuları məlumatlandırırdı. Bunlarla bərabər Eynəli bəy Sultanov rus dilindən Azərbaycan dilinə tərcümə olunmuş əsərlər haqqında da təhlili yazılarla çıxış edərək həmin əsərlərin dil-üslub xüsusiyyətləri, tərcümə keyfiyyətləri, mövzu problematikası və digər məsələlər barədə öz mülahizələrini resenziyalar vasitəsiylə ortaya qoyurdu. Beləliklə də Azərbaycan-rus ədəbi əlaqələrinin həm inkişafına nail olur, həm ədəbi-mədəni münasibətlərin səviyyəsi haqqında təəssürat formalaşdırırdı.

Bunlardan birində " Новое обозрение" qəzetinin 31 yanvar 1892-ci il tarixli nömrəsində "Biblioqrafiya" başlıqlı yazısında F.Köçərlinin Puşkinin "Balıqçı və balıq haqqında nağıl"ının Azərbaycan dilinə tərcüməsindən və İrəvanda mətbəədə çapından söz açır, tərcümənin bədii keyfiyyəti haqqında fikirlərini bölüşürdü: "Tərcüməçinin imkan daxilində hətta azərbaycanlıların danışıq dilində qaçılmaz olan fars və ərəb söz və ifadələrini istifadədən yayınmaq cəhdləri nəzərə çarpır" [15, s. 21] deyən müəllif məqalənin sonunda yazır: "C-b Köçərlinskinin əsərinə hansı nöqteyi-nəzərdən yanaşmış olsaq, hər halda təhsilli azərbaycanlılar zəngin olmayan ədəbiyyatımıza yeni töhfə verdiyi üçün ona minnətdar olmalıdır" [5, s. 22].

Bu tərcümə haqqında fikir bildirmək üçün Puşkinin həmin əsəri ilə tanışlıq da diqqətdən yayınmamalıdır. Burdan da belə nəticəyə gəlmək olar ki, E.Sultanov Puşkinin yaradıcılığı ilə ətraflı tanış idi. Rus şeirinin Puşkinlə eyni səviyyədə dayanan digər bir nümayəndəsi Lermontov da E.Sultanovun mütaliə etdiyi yaradıcı simalardan idi. Bunu biz ədibin "Novruz ağa" hekayəsində Lermontovdan gətirilmiş "Bəli, zəmanəmizdə insanlar vardı" [11, s. 180] epiqrafına əsasən əminliklə söyləyə bilərik. Hekayənin məzmununa uyğun olaraq seçilmiş həmin sitatla yazıçı oxucuya hekayənin əvvəlindən nədən danışacağı haqqında şifrəli mesaj ötürürdü.

E.Sultanovun F.Köçərlinin Puşkindən etdiyi tərcüməsi məsələsinə qayıtmış olsaq bir məsələni də ətraflı qeyd etməliyik. Firudin bəy Köçərlinin tərtib etdiyi "Balalara hədiyyə" kitabının önsözündə müəllif yazır: "Balalara hədiyyə olaraq millətimizin yaratdığı nağıl və hekayələrdən, məsəl və tapmacalardan və bir çox mənzumələrdən bu məcmuəni tərtib qıldıq ki, onlar unudulub xatirələrdən çıxmasın. Məcmuəyə daxil olan ancaq "Tülkü və üzüm" təmsili ruscadan tərcümə olunubdur. Mütərcim Eynəlibəy Sultanov öz dilimizin şivəsini itirməyibdir" [6, s. 3].

"Tülkü və üzüm" təmsilinin dilindəki sadəlik, axıcılıq, uşaqlar üçün maraqlı və anlaşılan olmasının səbəblərindəndir ki, Firudin bəy Köçərli balacalar üçün folklor nümunələrindən ibarət topluya rus müəllifinin də əsərini daxil etmişdir. Bu, ilk növbədə tərcüməçi E.Sultanovun uğuru idi.

Tiflis ədəbi mühitini, mətbuatını öyrənən A.Feyzullayeva "Maarif carçıları" kitabında ədəbi əlaqələrdən bəhs edərkən E.Sultanov və C.Məmmədquluzadənin rus yazıçılarından yaradıcı bəhrələndiyini vurğulayır: "Hər iki yazıçı əsası M.F.Axundov tərəfindən qoyulmuş, Azərbaycan demokratik ədəbiyyatının ənənələrini inkişaf etdirirdilər. Onlar Qoqol, Nekrasov, Çexov kimi ölməz adlarla təmsil olunan rus realist ədəbiyyatından bəhrələnirdilər. Çexov irsinə dərin bələdlik nəticəsində E.Sultanov da özünün, adətən, böyük ictimai mətləblər ifadə

edən kiçik hekayələrini son həddə qədər yığcamlaşdırmağı öyrənmişdi" [3, s. 11]. Yazıçının rusdilli hekayə yaradıcılığının diqqəti cəlb etməsinin nəticəsi idi ki, akademik İsa Həbibbəyli E.Sultanovu "kiçik hekayənin rusdilli Azərbaycan ədəbiyyatındakı ilk yaradıcılarından biri" [5, s. 202] kimi qiymətləndirirdi.

Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafı istiqamətində E.Sultanovun digər bir xidməti görkəmli rus yazıçılarından biri olan Qleb Uspenskiylə bağlıdır. Belə ki, "Novoye obozreniye" qəzetinin 1902-ci ildə nəşr olunmuş nömrələrinin birində maarifçi yazıçı "Qleb Uspenski Qafqazda" sərlövhəli bir yazı yazmışdır. Və bu yazıdan biz həm Q.Uspenskinin özünü tanımış oluruq, həm əsərləri haqqında məlumat əldə edirik, həm də onun Qafqazda olarkən, xüsusilə Qafqazın müsəlman-türk (oxu: azərbaycanlılar – E.M.) xalqı haqqındakı məqalələrindən xəbər tuturuq. Eynəli bəy Sultanov bu məqaləsində "çar senzurasının xüsusi nəzarət altında saxladığı qabaqcıl rus yazıçılarından biri olan Qleb Uspenski barəsində, onun yaradıcılığının Qafqaz dövrü haqqında danışmaq üçün özündə qüvvə və cəsarət tapmışdı. Şübhəsiz eyni senzura təzyiqi E.Sultanovun yaşadığı Qafqazda da hiss olunurdu" [3, s. 84]. E.Sultanov adıçəkilən məqaləsi vasitəsiylə Qafqazda və Zaqafqaziyada yaşayan ədəbiyyat həvəskarlarının diqqətini Q.Uspenski yaradıcılığına cəlb etmək istəyirdi. Uspenskinin yaradıcılığına xas olan əsas cəhət mübarizlik, əyilməzik, demokratik prinsiplər və bu kimi məziyyətlər E.Sultanova da xas idi. A.Feyzullayevanın da qeyd etdiyi kimi "məhz bu cəhətlərinə görə də həmin oçerklər öz orijinal yaradıcılığında barışmazlığı, mübarizliyi ilə seçilən E.Sultanovun diqqətini cəlb etmişdir.

...Bu cür məqalələr milli ziyalıların qabaqcıl rus ədəbi-ictimai fikri ilə tanış olmalarında mühüm rol oynamışdır. Məqalənin başqa bir xeyri isə onun həm də rus oxucularını Q.Uspenskinin yaradıcılığının Qafqaz dövrü və Qafqaz haqqındakı oçerklərinin ideya-bədii mündəricəsi ilə tanış etməsində idi" [3, s. 91-92]. Bu məqalənin digər önəmli cəhətinin görkəmli rus yazıçısının yaradıcılığının iki xalqın ədəbi-mədəni əlaqələrində oynadığı əhəmiyyətli rol olduğunu da unutmamalıyıq.

Eynəli bəy Sultanov Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da rus ədəbiyyatının görkəmli nümayəndələrindən ayrı-ayrı əsərlərin tərcüməsini və nəşrini davam etdirmiş, rus ədiblərinin yubileyləri zamanı xatirə yazıları ilə azərbaycandilli mətbuat orqanlarında çıxış edərək iki xalq arasındakı ədəbi əlaqələrin inkişafında öz əməyini əsirgəməmişdir.

Onun Tiflisdə nəşr olunan "Dan ulduzu" jurnalının müxtəlif nömrələrində Mayakovskinin "Bakı" şeirini, [10, s. 3-4], "Həyatdan lövhələr" başlığı ilə Maksim Qorkinin "Xalq içində", "Gülməli işlər", "Xam xəyallar" kiçik hekayələrini [7, s. 3-5], İ.Baxmanovun "Pedaqoji laboratoriyasında" [2, s. 15-17] əsərini tərcümə edərək nəşr etdirməsi də bu baxımdan xüsusilə qeyd olunmalıdır.

E.Sultanov və Azərbaycan-rus ədəbi əlaqələrindən söz açarkən onun təkcə rus ədəbiyyatının deyil, ümumilikdə dünyanın görkəmli yazıçısı Lev Nikolayeviç Tolstoy haqqındakı yazısını ayrıca vurğulamalıyıq. Tolstoyun yüzillik yubileyi münasibətilə qələmə alınmış "Lev Nikolayeviç Tolstoy" sərlövhəli yazıda E.Sultanov bu görkəmli yazıçıdan ürəkdolusu bəhs edir. "Hal-hazırda Moskvada Tolstoyun yüz illik yubileyi münasibətilə açılan sərgidə bu ədibin 36 müxtəlif lisanlara tərcümə edilmiş əsərləri qoyulub, hətta bəzi mütəxəssislər deyirlər ki, bu sərgidə çox dillər hələ göstərilməyib. Bəs, L.N.Tolstoy tək rus ədibi deyil, bütün cahan ədibidir" [12, s. 4] deyən E.Sultanov bildirir ki, dünyanın bir çox qitələrində Tolstoy haqqında yüzlərlə məqalələr yazılır. Məqalədə Tolstoyun qısa tərcümeyi-halı verilmiş, onun yaradıcılı-

ğına, düşüncə tərzinə, ədəbiyyatdakı xidmətlərinə, fəlsəfi görüşlərinə diqqət ayrılmışdır. Məqalədə "biz Tolstoyu özümüzünkü hesab edirik" deyən E.Sultanov həm də rus ədəbiyyatının iki xalq arasındakı ədəbi əlaqələrinin inkişafında Tolstoyun böyük bir körpü olduğunu anlamağımıza işarə edir, həmçinin özü də bu körpünün inşasında xidmətini əsirgəmirdi.

Məqalə boyu söz açdığımız və qeyd edə biləcəyimiz bir çox məqamlar, Eynəli bəy Sultanovun Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafında nə qədər xidmətlər göstərdiyini görməyimiz üçün kifayət qədər material verir. İstər rus dilini mükəmməl bilməsi, bu dil vasitəsiylə zəngin rus ədəbiyyatına bələd olması və dilimizə tərcümə etməsi, istərsə də Azərbaycan ədibləri, Azərbaycan yazılı və şifahi ədəbiyyatı nümunələri barəsindəki yazıları, nəşr olunan kitablar haqqındakı resenziyaları, iki dil arasındakı müxtəlif tərcümələr barədəki qeydləri Eynəli bəy Sultanovun iki xalq arasındakı ədəbi-mədəni münasibətlərin inkişafındakı rolu barədə geniş təəssürat formalaşdırır. Ümid edirik ki, bir neçə bədii əsərini rus dilində qələmə alan E.Sultanovun əlimizdə olan digər ədəbi nümunələri də rus dilinə tərcümə olunaraq nəşr ediləcək, təbliğ olunacaqdır. Beləliklə də iki xalq arasındakı ədəbi əlaqələrin inkişafında yorulmadan fəaliyyət göstərən ədib özü də bu inkişafdan pay alacaqdır.

ƏDƏBİYYAT

1. Alməmmədov A. Azərbaycan-rus ədəbi əlaqələri. Bakı: Yazıçı, 1982, 215 s.
2. Baxmanov İ. Pedaqoji laboratoriyasında // Dan ulduzu, Tiflis, 1928, № 10, s. 15-17.
3. Feyzullayeva A. Maarif carçıları. Bakı: Maarif, 1988, 100 s.
4. Hacıyev A. Tiflis ədəbi mühiti. Bakı: Yazıçı, 1980, 183 s.
5. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan: Əcəmi, 2009, 424 s.
6. Köçərli F. Balalara hədiyyə. Bakı: Gənclik, 1987, 124 s.
7. Qorki M. Həyatdan lövhələr // Dan ulduzu, Tiflis, 1928, № 3, s. 3-5.
8. Qurbanov Ş. Ədəbi dostluq (Zaqafqaziyanın rusdilli mətbuatında Azərbaycan ədəbiyyatı məsələləri). Bakı: Yazıçı, 1980, 190 s.
9. Maqsudov İ. Eynəli bəy Sultanov: həyat və yaradıcılığı. Bakı: Elm və təhsil, 2016, 208 s.
10. Mayakovski. Bakı // Dan ulduzu, Tiflis, 1927, № 12, s. 3-4.
11. Sultanov E. Hekayələr. Bakı: Elm və təhsil, 2016, 288 s.
12. Sultanov E. Lev Nikolayeviç Tolstoy // Dan ulduzu, Tiflis, 1928, № 8-9, s. 4-6.
13. Sultanov E. Məqalələr. Naxçıvan: Əcəmi, 2017, 288 s.
14. Асадова И. Творческий путь Эйнали бека Султанова. Нахчыван: Аджеми, 2016, 176 с.
15. Султанов Э. Публицистика. Баку: Элм вэ тэхсил, 2016, 472 с.

AMEA Naxçıvan Bölməsi
E-mail: elxan.yurdoglu@yahoo.com

Elkhan Mammadov

EYNALI BEY SULTANOV'S FACTOR IN THE DEVELOPMENT OF AZERBAIJANI-RUSSIAN LITERARY RELATIONS

It should be especially mentioned the translation of Eynali bey Sultanov into Azerbaijani and Russian languages. His translations in the delivery of Russian authors to the Azerbaijani public, in the introduction of Azerbaijani authors to Russian-speaking readers, as well as in

the promotion of Azerbaijani folklore and other essential issues to different peoples through the Russian language allow us to say that this prominent intellectual had many contributions to the development of Azerbaijani-Russian literary relations.

E.Sultanov, who has a high intellect and outlook, was in constant contact with the Russian language during his career. He regularly used the Russian language during his work in law enforcement agencies and later during his relations with the press in Nakhchivan, Yerevan, Tbilisi. Thus, the writer, who knew this language perfectly, translated the works of Russian writers Nekrasov, Krylov, Bakhmanov, Gorky, Mayakovsky, and others into Azerbaijani, as well as the works of M.F.Akhundov, S.Afandiyeva, and others into Russian. He also regularly reviewed the translations of our writers from Russian writers.

The paper also discusses the role of Eynali bey Sultanov in the development of literary relations between the two peoples.

Keywords: *Eynali bey Sultanov, literary relations, Azerbaijani, Russian, translation.*

Эльхан Мамедов

ФАКТОР ЭЙНАЛИ БЕКА СУЛТАНОВА В РАЗВИТИИ АЗЕРБАЙДЖАНО-РУССКИХ ЛИТЕРАТУРНЫХ СВЯЗЕЙ

Особо следует отметить взаимный перевод Эйнали Бека Султанова на азербайджанский и русский языки. Доведение до азербайджанской общественности переводов русских авторов, ознакомление русскоязычных читателей с азербайджанскими авторами, а также темы, связанные с азербайджанским фольклором и другими важными вопросами, направленные на пропаганду отдельным народам посредством русского языка, позволяют нам подробно рассказать о заслугах этого выдающегося интеллигента в развитии азербайджано-русских литературных связей.

Э.Султанов, обладая высоким интеллектом и мировоззрением, и в период своей трудовой деятельности находился в постоянном контакте с русским языком, широко использовал русский язык как во время работы в правоохранительных органах, так и в последующие периоды в Нахчыване, Ереване, Тифлисе, когда он имел отношение к прессе. Таким образом, прекрасно владея этим языком, писатель переводил на азербайджанский язык произведения русских писателей Некрасова, Крылова, Бахманова, Горького, Маяковского и других, а также переводил на русский язык произведения М.Ф.Ахундова, Ш.Эфендиевой и других, одновременно регулярно выступал с рецензиями на переводы нашими литераторами русских писателей.

В статье также рассказывается о роли Эйнали бека Султанова в развитии литературных связей между этими двумя народами.

Ключевые слова: *Эйнали бек Султанов, литературные связи, азербайджанский, русский, перевод.*

(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant24.02.2021
Son variant 04.03.2021

UOT: 801. 73

SƏBUHİ İBRAHİMOV

HACI MOLLA MƏHƏMMƏD NAXÇIVANİNİN "KƏŞKÜLÜN-NUR" ƏSƏRİNİN QURULUŞU VƏ PALEOQRAFİK XÜSUSİYYƏTLƏRİ

Məqalədə XIX əsrin axırı-XX əsrin əvvəllərində Naxçıvana dair əlyazma mətnlərinin araşdırılması üçün əhəmiyyətli olan Hacı Molla Məhəmməd Naxçıvaninin qeyd olunan əsəri elmi tədqiqata cəlb edilmişdir. Belə ki, onun "Kəşkülün-Nur" əsərinin quruluşu və paleoqrafik xüsusiyyətləri geniş şəkildə tədqiq edilərək müəyyən nəticələr əldə olunmuşdur. Araşdırmalar əsasında müəyyən edilmişdir ki, H.M.Naxçıvaninin yaradıcılıq fəaliyyəti nə qədər zəngin və hərtərəfli bir sahəni əhatə edir.

Həmçinin onun gərgin yaradıcılıq nümunəsinin qiymətli məhsulu olan "Kəşkülün-Nur" əsəri quruluş cəhətdən təhlil olunmaqla yanaşı, paleoqrafik xüsusiyyətləri də müasir dövr üçün daha da elmi əhəmiyyət kəsb etməsi müəyyən olunmuşdur.

Açar sözlər: *Hacı Molla Məhəmməd Naxçıvani, "Kəşkülün-Nur", əsər, quruluş, paleoqrafiya, əlyazma, mətn, xüsusiyyət.*

Araşdırılan mövzu Hacı Molla Məhəmməd ibn Məşhədi Baba bin Bayraməli Kəngərli Naxçıvaninin 1312-ci il h.q. (miladi – 1892) tarixdə qələmə aldığı "Kəşkülün-Nur" ("Nur qabı") kitabıdır. Müəllif əsərdə nəinki Naxçıvan ictimai mühitinin, bütövlükdə bəşəri ideyaların insani prinsiplərinin saf və sağlam tərzdə formalaşmasını, elmi idraka söykənərək davranış tərzinin, təfəkkür metodunun bir çox zəruri sahələrinin, mənəvi-ruhi sferanın, fəlsəfi dünyagörüşü funksiyasının və s. inkişaf etdirilməsi baxımından bir çox zəngin mənbələrə müraciət etmişdir. Əsərdə yaşanan elmi-fəlsəfi hisslər, ağlın və təfəkkürün təzahürü sarsılmazdır. Azərbaycan ictimai-siyasi və mədəni mühitinin formalaşmasında özünəməxsus yer alan görkəmli filosof-alim Nəsirəddin Tusi deyirdi: "Alimlər təfəkkür haqqında müxtəlif mülahizələr söyləsələr də, bütün təriflərin xülasəsi budur ki, təfəkkür insan batininin başlanğıcdan məqsədə doğru seyr etməsidir [2, s. 18].

Bəşəriyyətin xəlifəsi sayılan insanın mətn yaratması tarixi də onun təfəkkürünün, insan idrakının inikası kimi, insan batininin başlanğıcdan məqsədə doğru gedişinin, inkişafının, yolunun bir parçasıdır. Belə ki, əvvəlcə söz olmuşdur, sözdə bəsit fikir ifadə edilmişdir, sonra sözlərdən cümlə (bitmiş fikir) yaranmışdır. Əvvəlcə cümlənin (bitmiş fikrin) şəkli çəkilmişdir, sonra cümlələr (bitmiş fikirlər) çoxalmışdır (mətn yaranmışdır). Nəhayət, bu cümlələri (mətni) yadda saxlamaq, başqasına, sonra uzaqlara ötürmək lazım olmuşdur. Bunun üçün yazıya ehtiyac yaranmışdır. "Bu inkişaf xətti bəşəriyyətin ilkin şəfəqlərindən başlayaraq insanın gözü önündə və insanın iştirakı ilə, insanın fəaliyyəti nəticəsində cərəyan etmişdir" [1, s. 6].

Belə ki, təfəkkür baxımdan yanaşdığımız Hacı Molla Məhəmməd Naxçıvaninin dəyərli mətn əsərinin quruluşu bir cildlənmiş kitab olmaqla iki hissədən ibarətdir. Birinci hissə 188 vərəq olmaqla 1-ci səhifədən başlayır 376-cı səhifədə bitir (şəkil 1, 2, 3). İkinci hissə isə 184 vərəq olmaqla 1-ci səhifədən başlayır 368-ci səhifədə sona çatır (şəkil 4, 5, 6). Əsərin yazılış quruluşu da müxtəlifdir. Belə ki, hər bir yarımbaşlıq istər geniş mövzu ətrafında olsun, istərsə də kiçik mövzular ətrafında olsun qalın və iri hərflərlə qara rəngdə yazılmışdır. Yazılan mövzular ətrafında daha geniş məlumat və şərhlər isə vərəqin kənar hissələrində əlavə olaraq qeyd edilmişdir. Bu izahlar onu deməyə əsas verir ki, əsərin məzmunu dərin mənalara əsaslanır.

Bu da öz növbəsində mövzuların bəlağət və fəsahət baxımından çox əhəmiyyətli olduğunu bildirir. Əsər üç dildə: Azərbaycan, ərəb və fars dillərində yazılmasına baxmayaraq mövzular Azərbaycan ədəbi və bədii sənətinin, mədəni həyatının, fəlsəfi dünyagörüşünün, məntiqi təfəkkürünün, əxlaqi prinsiplərinin və milli-mənəvi dəyərlərinin göstəricisi kimi əks olunur. Dil xüsusiyyətləri müxtəlif olsalar belə, məna çalarları xalqımızın adət-ənənələrinə, məişətinə, onun təbiətindən doğan inanclara və gündəlik həyat tərzinə uyğun olaraq yazılmışdır.

Şəkil 1.

Şəkil 2.

Şəkil 3.

Həmçinin quruluş etibarilə əsərdə nəzmlə yazılmış şeir nümunələri də böyük əhəmiyyət kəsb edir. Belə ki, nəzmlə yazılmış müxtəlif şeir nümunələri öz xüsusiyyətinə görə digərlərindən fərqli dərəcədə seçilmiş və quruluş forması baxımından diqqəti cəlb etmişdir. Əsərin digər bir fərqləndirici cəhəti ondan ibarətdir ki, müxtəlif nəzmlə yazılmış şeir parçaları öz quruluş və yazılış formasına görə ədəbi və ürfani xarakter daşıyır. Bu da ondan irəli gəlir ki, *nəzm* müəyyən bir ölçü və qəlibə əsaslanaraq yazılmış ədəbiyyat formasıdır. Hər bir ədəbi sahəyə məxsus olan şeir forması əsərdə öz əksini tapmaqla bərabər, əsas üstünlük nəzm formasına verilmişdir ki, bu da bütün şeir növlərini əhatə edir. Əsərdə müxtəlif nəzm motivlərini şeir formaları əsasında həm rübailər, mürəbbelər, nəzirələr, dubeytlər və məsnəvilər əhatə etməklə yanaşı, həm də sinazənlər, qəsidələr, qəzəllər və nohələr zənginləşdirmişdir. Mövzular dil xüsusiyyətlərinə görə müxtəlif yazıldığı kimi, şeirlər də Azərbaycan, ərəb və fars dillərində qələmə alınmışdır.

H.M.Naxçıvani həmçinin əsərdə dini məzmunlu süjetli qəsidə verməklə əsəri bir daha zənginləşdirmişdir. Belə güman edirik ki, müəllifin əsərdə qələmə aldığı bu süjetli qəsidə məzmun baxımından çox əhəmiyyətlidir. Qələmə alınan əsərin məzmunu bir dini rəvayətdən götürülmüşdür. Belə ki, "Həzrət Rəsuli-Əkrəm səlləllahu əleyhi və aleh buyurub ki, Həsən və Hüseyn əleyhüməssəlam iki quşvareyi ərşdirlər. Zəmani ki, Xudavəndi-Aləm Behişte-ənbəre-sirişti (Behişt və onun ətrli təbiətini) xəlq eylədi. Behiştə xitab eylədi: gərək məskəni məsakin olasan. Behişt qüftarə gəlib (həkimanə sözə gəlib, dilə gəlib) ərz eylədi: Səbəb nədir ki, məni miskinlərə və fəqirlərə məskən qərar verdin? Nida gəldi ki, bu səadətə razı olmazsan ki, ərkanıvı (cəmiyyətin dayağı olan şəxslər, mötəbər insanlar) Həsən və Hüseyn əleyhüməssalamla müzəyyən (zinətli) edəm? Behişt bu müjdədən fəxr və mübahatilə ərz eylədi: Razı oldum! Razı oldum!...

Asiman qədər kani lütfü bağı elmidən,
İki əxtər, iki gövhər, iki sər etmiş zühur.
Cümleyi-xəlqi cəhandan ancəbi əşrəfdilər,
Ziyb ərşə, nuri şəmsə cənnəti huri qəsur [6, s. 222].

Şəkil – 4.

Şəkil – 5.

Şəkil – 6.

Əsərin paleoqrafik xüsusiyyətlərinə diqqət yetirdikcə isə öncə qeyd etmək lazımdır ki, hər bir tədqiqat sahəsində olduğu kimi, qədim əlyazma mətnlərdə də bu səciyyəvi xarakter növü kimi əsas götürülür. Naxçıvana dair əlyazma mətnlərinin əksəriyyəti demək olar ki, Azərbaycan, ərəb və fars dillərində yazılmışdır. O cümlədən üzərində araşdırmalar apardığımız Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülün-Nur" kitabı paleoqrafik xüsusiyyətlərinə görə çox əhəmiyyətlidir. Belə ki, kitabın müəllifi, katibi, tarixi, kağız vərəqlərinin növü, kağızın rəngi, xətt nümunəsi, mürəkkəbi, dili, ölçüsü, cildlənmiş üz qabığı (üzlüyü; dəri, karton, sadə kağız), həcmi, vərəqi və yaxud səhifəsi elmi baxımdan mühüm əhəmiyyətə malikdir.

Elmi-paleoqrafik xüsusiyyətlər müxtəlif ola bilir. Ümumiyyətlə Naxçıvanın ədəbi və mədəni həyatına dair əlyazmaların elmi-paleoqrafik qaydada araşdırılması və tədqiq edilməsi böyük önəm daşıyır. Məhz bu baxımdan da mətnşünaslıq istiqamətində paleoqrafik sahənin hərtərəfli öyrənilməsi Naxçıvana dair əlyazmaların araşdırılması və tədqiqi üçün zəruridir. Təbii ki, paleoqrafiya sözünün mənası yunanca; palaios – qədim, əski: grapho – yazıram deməkdir. Adından da göründüyü kimi, paleoqrafiya əslində üzərində yazıldığı materialdan asılı olmayaraq, qədim yazını öyrənən elmdir. Araşdırdığımız mövzuya və ənənəvi fikrə görə, paleoqrafiya termininin özünün bir neçə köməkçi sahəsi var:

Arxeologiya – abidənin material tərkibini öyrənən bir sahə.

Kodikologiya (latınca; codex – kitab, logos – təlim, elm deməkdir) – qədim əlyazma mətnlərini və onların müqəddəratını öyrənir. Əsas vəzifəsi paleoqrafiya üçün geniş köməkçi aparatın, unifikasiyalı əlyazma kataloqlarının və xüsusi biblioqrafik məlumatın hazırlanması ilə bağlıdır.

Arxivşünaslıq – məqsədi qədim məbəd (sinaqoq, kilsə və məscid) fondlarının, şəxsi arxiv və kolleksiyaların bərpası və tədqiqidir.

Diplomatika (yunanca; diploma – vərəq, sənəd deməkdir) – qədim əlyazma sənədlərini, rəsmi əlyazma fərmanları və yazışma sənədlərini öyrənir.

Epiqrafika (yunanca; epigraphe – nəyinsə üzərində yazı deməkdir) – bərk material (daş, metal, qamış, keramik məmulatlar və s.) üzərindəki yazını öyrənir.

Numizmatika (latınca; numisma – sikkə deməkdir) – sikkələr üzərindəki yazını öyrənir.

Sfragistika (yunanca; sphragis – möhür deməkdir) – möhürləri və onların basılmış əksini (izini) öyrənir.

Görkəmli mətnşünas alim V.N.Şepkin paleoqrafiyanın xüsusiyyətləri haqqında yazır: "Biz paleoqrafiyanı tarixi-filoloji siklin bir elm sahəsi deyil, paleoqrafik fənn kimi götürürük. Bu zaman biz ənənəvi tərifindən çıxış edirik. Paleoqrafiya biliklər sistemidir, ancaq o, keçmişə yönəlir" [5, s. 13].

Ç.Loukotkanın elmi-nəzəri fikrinə görə, "insanın ruhunun yaratdığı yazının öyrənilməsi ilə paleoqrafiya və epiqrafiya adlı elmlər məşğul olur" [4, s. 17]. Əsas etibarilə paleoqrafiya XIX əsrə qədərki əlyazmaların öyrənilməsi ilə məşğul olurdusa, hazırda XIX və XX əsr yazılı mənbələrinin paleoqrafik təhlil metodları işlənib-hazırlanmaqdadır. Bu da birbaşa H.M.Naxçıvaninin yazdığı kitabların tədqiqi ilə yanaşı, Naxçıvanın ədəbi və mədəni həyatına dair əlyazmaların araşdırılmasına böyük təkan verməsi deməkdir.

Göründüyü kimi, bir variantda paleoqrafiya ayrıca bir elm sahəsi olmaq etibarilə bütün materiallar üzərində həkk olunmuş əski yazını öyrənir, ikinci variantda isə yazının yazıldığı material əsas götürülür. Bu zaman paleoqrafiya konkret olaraq məhz papirus, perqament və kağız materialının və onun üzərindəki əski yazının (əlyazmanın) tədqiqi ilə məşğul olur, yazı materialını öyrənməklə arxeologiyanı, əlyazma kitabının özünü öyrənməklə kodikologiyanı, şəxsi arxivləri və kolleksiyaları öyrənməklə arxivşünaslığı, arxeoqrafik sənədləri öyrənməklə diplomatikanı, əlyazmalardakı möhür izlərini öyrənməklə sfragistikanı özündə birləşdirir.

"Təsadüfi deyildir ki, bu gün ərəb dilində yazılmış abidələri ərəblər, fars dilində yazılmış abidələri farslar özününkü hesab edir, türk dilində yazılmış Azərbaycan abidələrinə bəzən başqa türklər sahib çıxmağa çalışırlar. Milli təəssübkeşliyin önə çıxdığı müasir dövrdə dilindən asılı olmayaraq, bütün Azərbaycan əlyazmalarının müəyyənləşdirilməsi, onların milli mənsubiyyətinin qeydə alınması və bütün bunların dünya elminə qəbul etdirilməsi kimi qlobal bir problem Azərbaycan elminin qarşısında duran aktual məsələ olaraq qalır. Göstərilən problemin həll edilməsi üçün hər şeydən qabaq ümumislam mədəniyyəti içərisində ərimiş Azərbaycan paleoqrafiyasının nəzəri və təcrübi məsələlərinin işlənib-hazırlanması zəruri məsələ kimi diqqəti cəlb edir" [1, s. 5].

Beləliklə, paleoqrafiya Naxçıvanın ədəbi və mədəni həyatına dair əlyazmaların tədqiqi istiqamətinə şərait yaratdığı kimi, H.M.Naxçıvaninin "Kəşkülün-Nur" əsərinin də paleoqrafik xüsusiyyətlərini öyrənmək baxımından əhəmiyyətlidir. Görkəmli mətnşünas alim Bartold yazır: "Paleoqrafiyanın nəzəri sahəsi olan yazı tarixi xalqın mədəniyyət tarixinin bir hissəsidir, daha geniş götürsək, dünya yazı və mədəniyyət tarixinin bir hissəsidir" [3, s. 7].

H.M.Naxçıvaninin "Kəşkülün-Nur" əsərinin paleoqrafik xüsusiyyətlərinin araşdırılması Azərbaycan mətnşünaslıq elminin zəngin tarixi keçmişindən xəbər verir. Əsərin paleoqrafik xüsusiyyətlərini aşağıdakı şəkildə izah etmək mümkündür.

Müəllifin adı: Hacı Molla Məhəmməd ibn Məşhədi Baba Naxçıvani

Əsərin adı: Kəşkülün-Nur

Tarix: 1312 = 1892

Xətti: Nəstəliq-şikəstə

Dili: Azərbaycan, ərəb, fars

Çap

Başlanır: جنین کوید قبل العبا د علماً و عملاً و اکثرهم خطاء و زللاً محمّد بن مشهدی بابا بن بیرامطی نخجوانی من طایفه کنکرلوالشهیر بالواعظ

Bitir: 1312 شهر رجب المرجب 12محمّد ابن مشهدی بابا مرحوم نخجوانی فی

Ölçüsü: 34x21
Həcmi: 188+184 = 372 vərəq
Rəngi: Ağ, saya
Üz hissəsi: Kartondan cildlənmiş
Mürəkkəbi: Qara

Aparılan araşdırmaların məntiqi nəticəsi olaraq belə nəticəyə gəlmək olar ki, Hacı Molla Məhəmməd Naxçıvaninin zəngin yaradıcılığı və onun "Kəşkülün-Nur" əsərinin quruluş baxımından böyük əhəmiyyət daşıması, həmçinin kitabın paleoqrafik xüsusiyyətlərinin müxtəlifliyi öz aktuallığı ilə seçilir. Əsərin quruluşu və paleoqrafik xüsusiyyətləri Azərbaycan mətnşünaslıq elminin inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Belə ki, yetmiş ildən çox bir dövrdə rus əsarəti dövründə elmi ateizmin mənfur ideoloji siyasəti nəticəsində xalqımızın görkəmli elm adamları günahsız yerə məhv edilmiş, bir hissəsi güllələnmiş və bir hissəsi isə baş götürüb Yaxın Şərqin elm mərkəzlərinə sığınaraq öz bilik və bacarıqlarını inkişaf etdirərək son anda əlyazma əsərlərini qərib vilayətlərdə çap etdirmişlər.

Güman edirik ki, haqqında danışdığımız bu əlyazma əsərinin elmi araşdırılması Naxçıvan mədəniyyət və ədəbiyyat tarixinin nailiyyətlərindən biri kimi qiymətləndiriləcəkdir.

ƏDƏBİYYAT

1. Adilov M. Azərbaycan paleoqrafiyası. Bakı: Elm, 2009, 224 s.
2. Xacə Nəsirəddin Tusi. Övsafül-əşraf (Şərafət sahiblərinin vəsfi). Bakı: Nurlan, 2002.
3. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Баку: Изд. Общества обследования и изучения Азербайджана, 1925, 342 с.
4. Лоукотка Ч.В. Развитие письма. Москва: ИЛ, 1950, 122 с.
5. Щепкин В.Н. Русская палеография. Москва: Наука, 1967, 246 с.

1. نخجوانی حاج ملا محمّد, کشکول النور , 1312 ه.ق. 560 ص
2. نخجوانی حاج ملا محمّد درة الارار 1315 ه.ق. 377 ص
3. نخجوانی حاج ملا محمّد, مزاهر الانوار ,1317 ه.ق602 ص
4. نخجوانی حاج ملا محمّد, سحاب الدّموع 1295, ه.ق. 492 ص
5. نخجوانی حاج ملا محمّد قرة الابصار .1318 ه.ق 546. ص

AMEA Naxçıvan Bölməsi
E-mail: s.ibrahimov71@mail.ru

Sabuhi Ibrahimov

STRUCTURE AND PALEOGRAPHICAL FEATURES OF HAJI MOLLA MOHAMMAD NAKHCHIVANI'S WORK "KASHKULUN-NUR"

The works of Haji Molla Mohammad Nakhchivani, which are important for the study of manuscripts about Nakhchivan in the late 19th and early 20th centuries, were of great importance in the article. The structure and palaeographic features of his work "Kashkulun-Nur" have been extensively studied, and specific results have been obtained. Based on the research, it was determined how rich and comprehensive the creative activity of H.M.Nakhchivani is.

Thus, the work "Kashkulun-Nur", a valuable product of his creative work, along with the structural analysis, attracted more attention to the scientific palaeographic features.

Keywords*: Haji Molla Mohammad Nakhchivani, "Kashkulun-Nur", work, structure, palaeography, manuscript, text, essay.*

Сабухи Ибрагимов

СТРУКТУРА И ПАЛЕОГРАФИЧЕСКИЕ ОСОБЕННОСТИ РАБОТЫ ХАДЖИ МОЛЛЫ МОХАММАДА НАХЧЫВАНИ "КАШКУЛУН-НУР"

В статье к научному исследованию привлечен данный труд Хаджи Моллы Мохаммада Нахчывани, имеющий важное значение для изучения рукописей о Нахчыване конца XIX-начала XX веков. Таким образом, структура и палеографические особенности его произведения «Кашкулун-Нур» были всесторонне изучены, получены определенные результаты. На основании исследования определено, насколько богатой и разносторонней являлась творческая деятельность Х.М.Нахчывани.

Также, наряду со структурным анализом его работы «Кашкулун-Нур», которая является ценным продуктом его напряженного творчества, было определено, что его палеографические особенности имеют еще большее научное значение для современного периода.

Ключевые слова: *Хаджи Молла Мохаммад Нахчывани, «Кашкулун-Нур», произведение, структура, палеография, рукопись, текст, очерк.*

(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 05.01.2021
Son variant 10.03.2021

UOT: 82-3.512.162

AYGÜN ORUCOVA

MÜSTƏQİLLİK DÖVRÜ NAXÇIVAN ƏDƏBİ MÜHİTİNDƏ ƏDƏBİ TƏNQİD

Azərbaycan və dünya ədəbiyyatına parlaq simalar bəxş etmiş Naxçıvan ədəbi mühiti əvvəlki illərdə olduğu kimi, Azərbaycan müstəqillik qazandığı illərdə də bədii ədəbiyyatın müxtəlif sahələrinin janr, mövzu-məzmun baxımından zənginləşməsində öz töhfələrini vermişdir. Müstəqillik dövrünün verdiyi imkanlar sayəsində Naxçıvanda ədəbi tənqid sahəsi də bədii ədəbiyyatdan tələblərini millilik, vətənpərvərlik, bəşərilik və ictimai məzmunlar və ən əsası da bədiiliyin əsas şərtlərinin qorunması üzərində qurmuşdur. Bu dövrdə tanınmış ədəbiyyatşünas, dilşünas alimlərin, ədib, publisist və jurnalistlərin yaradıcılığında müasir ədəbi prosesə münasibət, tərif və tənqid bildirən məqalə, resenziya, kitab və monoqrafiyalara rast gəlirik.

Açar sözlər: *resenziya, ədəbi tənqid, janr, tənqidçi, bədiilik.*

Ədəbi tənqid ədəbiyyatşünaslığın əsas sahələrindən biridir, ədəbi prosesin, bədii əsərlərin izahına, təhlilinə, qiymətləndirilməsinə, həmçinin yaradıcılıq prinsiplərinin müəyyənləşdirilməsinə və təsdiqinə həsr edilən ədəbi-elmi yaradıcılıq növüdür. Ədəbi tənqidin vəzifəsi müasir ədəbi prosesi, yeni yaradılan əsərləri, habelə keçmiş irsi müasir ictimai və ədəbi-estetik tələblər baxımından dəyərləndirməkdir. Ədəbi tənqid öz obyektivliyi, prinsipiallığı, tələbkarlığı ilə əslində bədii ədəbiyyatın inkişafına xidmət etməlidir, bədii əsərlərin məziyyətləri ilə yanaşı əsərin bədii baxımdan, dil-üslub, ictimai məzmun, janrın tələblərini ödəyə bilmək və s. baxımdan mövcud olan nöqsanlarını da göstərməlidir. Öhdəsinə çoxistiqamətli mürəkkəb vəzifə düşən ədəbi tənqidin əhatə dairəsi çox genişdir: ədəbiyyat hadisələrinə qiymət vermək, ədəbi mühiti izləməklə onun uğurlu və zəif tərəflərini işıqlandırmaq, yaranan bədii nümunələrin vaxtında, özü də obyektiv təhlilini aparmaq, milli söz sənətimizdə gedən mürəkkəb prosesləri dünya estetik-intellektual fikir kontekstində dəyərləndirmək, klassik irslə bağlı qələmə alınan yeni əsərlərin oxşar, eləcə də fərqli tərəflərini müəyyənləşdirmək, kulturoloji duruma aydınlıq gətirmək, kreativ mühitin elmi-filoloji çərçivələrini müəyyənləşdirmək, ənənələri yaşatmaqdan ötrü müəlliflərlə oxucular arasında ikitərəfli əlaqələri yaradıb möhkəmləndirmək, ədəbi-mədəni ictimaiyyəti mədəniyyətin çağdaş durumu ilə müntəzəm, sistemli tanış etmək, zamanın tələblərinə uyğun estetik dəyərləri formalaşdırmaq və s. Ədəbi tənqid söz sənətinin "hakim"i rolunda çıxış etməlidir. Hər bir filoloji-elmi sahə kimi ədəbi tənqidin də müxtəlif janrları, formaları, çalarları mövcuddur: resenziya, hər hansı bir əsər haqqında tənqidi material, icmal, problematik məqalə, çağdaş ədəbi proses barədə monoqrafiya, esse, ön söz, qəzet məqaləsi, ədəbi portret, polemik replika, ədəbi söhbət, müsahibə, biblioqrafik qeydlər və s. Tənqidçi yaranmaqda olan ədəbiyyatın dəyərini müəyyən edir, ayrı-ayrı ədəbi-bədii nümunələrə, yazıçıların yaradıcılığına qiymət verir, ümumiləşdirmələr aparır, müasir ədəbi prosesin dərk edilməsində oxucuya kömək edir. Ədəbiyyat tarixçisindən və nəzəriyyəçisindən fərqli olaraq, tənqidçi elmlə yaradıcılıq təcrübəsini əlaqələndirir, yazıçı ilə oxucu arasında anlaşma, ünsiyyət yaradır.

XX əsrin son onilliyində əldə edilmiş müstəqillik birdən-birə Naxçıvanda ədəbi tənqidə istiqamət vermədi. Çünki bundan əvvəlki illərdən də burada fəaliyyət göstərən ədəbiyyatşünas alimlərin elmi tədqiqat üçün müəyyənləşdirdikləri mövzularda milli düşüncə, milli tarixi keçmiş ağırlıqlı mövzular xüsusilə seçilirdi. Müstəqillik dövrü Naxçıvan ədəbi mühitində

ədəbi tənqid sahəsi ədəbiyyatşünaslığın bir qolu kimi dövrün tanınmış ədəbiyyatşünasları, ədib və publisistləri tərəfindən inkişaf etdirilmişdir. Sovet dövründə fəaliyyət göstərən naxçıvanlı ədəbiyyatşünas alimlərin – akademik Məmməd Cəfər Cəfərov, akademik Məmmədhüseyn Təhmasib, professor Abbas Zamanov, professor Əziz Şərif və digərlərinin hər birinin tədqiqat işləri birbaşa xalqın ya tarixi keçmişi ilə bağlı mövzuların araşdırılmasından ibarətdir, ya da xalqın milli şüurunun oyanmasında ciddi rolu olan ziyalıların ədəbi irsinin öyrənilməsinə həsr olunmuş əhəmiyyətli monoqrafik araşdırmalardır. Lakin onlardan bəzilərinin həyatlarının son illərində qələmə aldıqları ədəbi tənqidi xarakterli tədqiqatları da maraq kəsb edir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi Abbas Zamanovun "Bu dünyadan Rəsul Rza gəlib keçdi" kitabına görkəmli ədəbiyyatşünas alim, AMEA-nın müxbir üzvü Abbas Zamanovun müxtəlif illərdə ayrı-ayrı mətbuat səhifələrində xalq şairi Rəsul Rzaya və Nigar Rəfibəyliyə həsr etdiyi xatirələri və məqalələri daxil edilmişdir. "Cənubdan səslər" kitabında Azərbaycan elminin, ədəbiyyatının, mədəniyyətinin inkişafında öz fədakar əməyi ilə əvəzsiz rol oynamış Abbas Zamanovun müxtəlif illərdə yazdığı elmi, tənqidi məqalələri, o cümlədən müstəqillik illərində Sabit Rəhman haqqında yazdığı "Son görüş və yaxud baş tutmayan yubiley" məqaləsi diqqəti cəlb edir. Abbas müəllim Nizami adına Ədəbiyyat Muzeyinin direktoru olan zaman, daha dəqiq desək 1970-ci ildə istedadlı dramaturq Sabit Rəhmanın 60 illik yubiley tədbirinin keçirilməsinə hazırlıqlardan, Nizami adına Ədəbiyyat muzeyində təşkil olunan tədbirdən, dövrün tanınmış ədəbiyyatşünasları tərəfindən müəllifin yaradıcılığının çox yüksək qiymətləndirilməsi və özünün təvazökarcasına danışığından bəhs olunur. Həm də böyük təəssüf hissilə qeyd olunur ki, bu görüş Sabit Rəhmanla son görüş olmuş və yubiley tədbirinin baş tutmasına ömür vəfa etməmişdir. Filologiya üzrə fəlsəfə doktoru, dosent Fərqanə Kazımovanın tərtib etdiyi biblioqrafiyada dəyərli alimin 1992-ci ildə nəşr olunmuş 2 ədəbi tənqidi və publisistik məqaləsinin adı yer almışdır. Bunlar "Xalq" qəzetinin 18 fevral sayında çap olunmuş "Bir kitabın taleyi, yaxud Vəli Məmmədovun Amerika səfəri" və yenə həmin qəzetin 25 aprel sayında işıq üzü görmüş "Yaşıl yarpaqlar solmayıb" adlı yazılardır.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, tənqidçi, ədəbiyyatşünas, nasir Məmməd Cəfərin də həyatı və fəaliyyətinin son iki ili müstəqillik dövrünə təsadüf etsə də, akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, "milli ədəbi tənqiddə Məmməd Cəfər Cəfərovun əsərləri özünəməxsusluğu ilə seçilir. Onun ədəbi tənqidində ədəbiyyat nəzəriyyəsi ilə vəhdət ön mövqedə dayanır. Buna görədir ki, Məmməd Cəfər Cəfərovun ədəbi tənqidi məqalələri konkret bir əsərin, nasir və şairin, ədəbi prosesin zahiri təqdimindən çox, dərkinə uğurla xidmət edir. Konkret bir sənətkarı, yaxud ayrılıqda götürülmüş bir bədii əsəri ədəbi-tarixi materiallar vasitəsilə dərindən başa düşməkdə çətinlik çəkənlər Məmməd Cəfər Cəfərovun sadə dildə yazılmış yığcam elmi əsərləri vasitəsilə asanlıqla dərk etmək imkanı qazana bilirlər" [3, s. 55-56].

Sırf müasir ədəbi prosesin tənqidindən danışarkən isə ilk növbədə dövrün məşhur ədəbiyyatşünaslarının, ayrı-ayrı ədib, publisist və ya jurnalistlərin elmi məqalə, kitab və ya monoqrafiya və publisistik məqalələrini, resenziya və rəylərini tədqiqata cəlb etməliyik. Akademik İsa Həbibbəyli də Naxçıvanda ədəbi tənqidi təmsil edən qüvvələrdən danışarkən yazmışdır: "Əvvəla, ədəbiyyatşünasların, demək olar ki, hamısı həm də ədəbi tənqidlə məşğuldur. Bundan başqa, Naxçıvanda daha çox ədəbi tənqidlə məşğul olan Əbülfəz Əzimlinin, Seyfəddin Eyvazovun, Ramiz Qasımovun da adlarını çəkmək mümkündür" [5, s. 527].

Akademikin "Ədəbi tarixi yaddaş və müasirlik" kitabının "Çağdaş ədəbiyyat" bölməsi müasir bədii prosesin tənqidini, "Tənqid və ədəbiyyatşünaslıq" bölməsi isə Naxçıvan və Azərbaycan ədəbiyyatşünas və ədəbi tənqidçilərinin həyat yolu və zəngin fəaliyyətlərini əks etdirən dəyərli məqalələrdir. "Çağdaş ədəbiyyat" bölməsində Xalq şairləri Məmməd Araz, Vaqif Səmədoğlu, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Xalq yazıçıları Elçin, Hüseyn İbrahimov, Anar yaradıcılıqlarının poetik özünəməxsusluqları, əsas məziyyətləri kompleks yanaşma tərzi ilə tədqiq olunmuşdur. Bu yazılarda konkret ədəbi şəxsiyyətlərin bədii yaradıcılıqları ideya-məzmun, sənətkarlıq kontekstində təhlilə çəkilir. Həm Azərbaycan ədəbiyyatı tarixinə, həm də ədəbiyyat nəzəriyyəsinə dərindən bələd olan akademik müasir ədəbiyyatın poeziya və nəsr sahəsinin tanınmış simalarının əsərlərini müstəqillik dövrünün tələbləri baxımından və müstəqilliyin verdiyi imkanlar daxilində saf-çürük etmişdir. "Nuhçıxandan Naxçıvana" kitabındakı Xalq yazıçısı Hüseyn İbrahimovdan bəhs edən "Şəxsiyyətin və sənətin vəhdəti", istedadlı şair Hüseyn Razi yaradıcılığına həsr olunmuş "Şeirimizin vətəndaşlıq qüruru", Elman Həbib yaradıcılığından bəhs edən "Qısametrajlı ömrün filmi", "Sənətdə Vaqiflik" (Vaqif Məmmədov haqqında), "Xanəli Kərimli şeirinin imkanları", "Telman Ağrıdağın poetik portreti", "İbrahim Yusifoğlunun poetik dünyası", "Müasir bədii yanaşmaların işığında" (İlyas Fərəməzoğlu haqqında), "Şərurun poetik səsi" ("Şərur qönçələri" ədəbi birliyi haqqında), "Akif İmanlı: elmdə və ədəbiyyatda" və s. oçerklər də müasir ədəbi prosesin tənqidi baxımından mühüm əhəmiyyətə malikdir. Bu məqalələrdə tədqiqat obyektlərinin bədii yaradıcılıqları şəxsiyyətləri, mühiti və müasirləri ilə vəhdətdə götürülmüş, bədii yaradıcılıqlarının bütün sahələri ədəbi və nəzəri baxımdan dəyərləndirilmişdir. Məsələn, "Xanəli Kərimli şeirinin imkanları" adlı məqaləsində onun bədii yaradıcılığının bütün sahələrini sistemli tədqiqata cəlb edir, yaradıcılığının hər bir janrına ideya-məzmun baxımından, bədiilik tələbləri baxımından münasibət ifadə olunur. Akademik İsa Həbibbəyli Xanəli Kərimli yaradıcılığını yüksək qiymətləndirərək yazmışdır: "Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir. Onun vətəndaşlıq lirikası sadəcə qələmə aldığı aktual mövzuları ilə deyil, daha çox bu bədii nümunələrdəki fikrin ifadə vasitəsilə yadda qalır. Xanəli Kərimlinin yaradıcılığında həssaslıq və vətəndaşlıq mövqeyi ön sırada dayanır. Həyata, insanlara həssas münasibətlər Xanəli Kərimlinin şeirlərinə dərin lirizm gətirir" [5, s. 579]. Şair Vaqif Məmmədovun "Anadolu və Rumelidən əsintilər" kitabına "Bütövlüyün poeziyası" adlı ön sözündə "Azərbaycanda Balkan türk ədəbiyyatı antologiyasının hazırlanıb nəşr edilməsi çağımızın ən aktual, zəruri vəzifələrindən biri" [4, s. 3] olaraq dəyərləndirilmişdir. Akademikin "Səhnədə həyat nəfəsi", "Yaradıcılıq işinə sədaqət" məqalələri Azərbaycanın Əməkdar incəsənət xadimi, şair-dramaturq Elman Həbibin "Hərənin öz işi" adlı kitabı və Naxçıvan Dövlət Musiqili Dram Teatrında uğurla tamaşaya qoyulmuş "Sahilsiz çaylar" pyesi haqqında resenziyadır.

Naxçıvan ədəbi mühitinin müxtəlif dövrlərinin, o cümlədən də müasir dövrünün araşdırılmasında çoxsaylı tədqiqat əsərləri ilə yadda qalan ədəbiyyatşünaslardan biri də professor Yavuz Axundludur. Alimin "Seçilmiş əsərləri"nin I cildində "Qədim diyarda ədəbi mühit" (1920-1980-ci illər) adlı irihəcmli məqaləsi, "Hüseyn Razinin sənət dünyası", 1998-ci ilin ədəbi yekunlarına dair "Naxçıvanda ədəbi proses", Rafiq Babayevin "Zühur" kitabı haqqında "Cavan nasirin uğurları", şair, publisist Vaqif Məmmədovun həyat yolu və yaradıcılığının təhlilinə həsr olunmuş "Zirvələr sorağında", "XX əsrdə Naxçıvanda ədəbi-mədəni mühit", "Yazıçı Nağı Nağıyev haqqında söz", "Ramiq Muxtarın "Seçilmiş əsərləri", şair Muxtar

Qasımzadənin "Sənə sarı gələn səs" kitabı haqqında "Bu da bir nağıldı", gənc şair Qafar Qəribin yaradıcılığından bəhs edən "Gənc şairin poetik duyğuları", şairə Lütfiyyə Əsgərzadənin bədii yaradıcılığının dəyərləndirilməsinə həsr olunmuş "Tanımadığım şairin sənətinə baxış" və s. ədəbi-tənqidi məqalələri professor Yavuz Axundlunun ədəbiyyatşünaslıq fəaliyyətinin ədəbi tənqid sahəsinin də davamlı və ardıcıl xarakter daşıdığını və müraciət etdiyi şair və yazıçının yaradıcılığının hərtərəfli təhlilinə xidmət etdiyini ortaya qoyur. 1998-ci ilin ədəbi yekunlarına dair "Naxçıvanda ədəbi proses" müəllifin 1999-cu ilin fevralında Naxçıvan Yazıçılar Birliyində ötən ilin ədəbi yekunlarına dair məruzəsi əsasında yazılmışdır. Bu müzakirə ilk olduğundan ayrı-ayrı ədiblərin yaradıcılığında olan nöqsanlardan danışılmaması məqsədəuyğun hesab edilmişdir: "Belə nöqsanlar vardır. Zəif misralar, sözçülük, özünü təkrar, bədii təsvir və ifadə vasitələrinin bəsitliyi, poetik ifadənin dolğun olmaması və s. bu əsərlərin ümumi dəyərini azaldır" [1, s.186]. Sözü gedən ildə Naxçıvanda 30-dan artıq kitab nəşr olunduğunu vurğulayan müəllif Xalq yazıçısı Hüseyn İbrahimovun, Həsən Elsevərin, Elman Həbibin bir neçə kitabları, Vaqif Məmmədovun "Sədərək şəhidləri", İbrahim Yusifoğlunun "Bu dünya mənimlə yola getmədi", Sahib Əsgərlinin "Ruhumda bəlkə", Xanəli Kərimlinin "Ay işığında", Vaqif Əsrarın "Dünya mənim dünyamdı" və "Ürəklərdə yerim var", Zaur Vedilinin "Vedi həsrəti", Qafar Qəribin "Gözlərsən məni", Məmməd Tahirin "Vətən, məni qınama", Zeyqəm Vüqarın "Öyrət məni ayrılığa", Kəmaləddin Qədimin "Üzü qibləyə" və s. kitablardakı bədii nümunələri müasir dövrün tələbləri baxımından qiymətləndirmişdir. Professor Yavuz Axundlunun "Seçilmiş əsərləri"nin II cildində isə müstəqillik dövrünün tarixi romanlarına münasibət bildirilən "Azərbaycan tarixi romanı yeni mərhələdə" adlı V fəsildə yer alan "Tariximizin açılmamış səhifələri". "Sənin ulu baban", "Bəy İnal", "Cavanşir", "Cavanşirsiz məmləkət" romanları, Ə.Məmmədxanlının "Babək" romanı, F.Kərimzadənin "Təbriz namusu" romanı, "Tarixi romanlarımızda Qarabağ mövzusu". "Qoca qartalın ölümü", "Xallı gürzə", "Batmanqılınc", "Gülüstandan öncə" romanları, Əzizə Cəfərzadənin son romanları, Bayram Bayramovun "Karvan yolu" romanı və "Azərbaycan tarixi romanı müstəqillik dövrünün ilk mərhələsində" adlı VI fəsil bədii nəsr nümunələrinin tənqidi dəyərləndirilməsi baxımından diqqəti cəlb edir. Qeyd edək ki, professor Yavuz Axundlunun Azərbaycan istiqlalının söz mücahidlərinə ithaf etdiyi "İstiqlal şairləri" kitabında isə görkəmli söz ustaları, Xalq şairləri X.R.Ulutürk, B.Vahabzadə və M.Arazın yaradıcılığından, söz incilərinin özünəməxsusluğundan söz açılır, sənətkarlıq xüsusiyyətlərindən və istiqlal mübarizəsindəki rolundan bəhs olunur. "Seçilmiş əsərləri"nin III cildində də həmçinin bu üç "İstiqlal" ordenli şairimiz haqqında oçerklər verilmiş, eyni zamanda Xalq yazıçısı Anarın yaradıcılığını dəyərləndirən "Mübarizə bu gün də var", "Ağ qoç, qara qoç" məqalələri yer almışdır. 2003-cü ildə Xalq yazıçısı Anarın "525-ci qəzet"də çap olunmuş nağıl üslubunda qələmə alınmış "Ağ qoç, qara qoç" povestinin birinci nağılının məzmunu ilə oxucu tanış edildikdən sonra ilk nağıl haqqında qənaətlərini irəli sürür: "Beləliklə, birinci nağılda Böyük Bakı, bütöv Azərbaycan və geniş Türk dünyasının tarixi, coğrafiyası, xalqın taleyi, fəlsəfi görüşləri, füsunkar gözəllikləri, möhtəşəm qalaları, qədim abidələri, maddi-mədəniyyət nümunələri ilə bağlı şəkildə romantik tərzdə qələmə alınmışdır. Xalqımızın görkəmli ictimai-dövlət və elm, mədəniyyət xadimləri, qəhrəmanlarının heç biri yaddan çıxmamış, onların xatirələri yad edilmişdir. Bu nağıl yığcam yaddaş-məlumat kitabı, kiçik ensiklopediyadır. Türk aləminin elə bir mühüm hadisəsi, cəhəti, xüsusiyyəti yoxdur ki, burada öz əksini tapmasın" [2, s. 309]. İkinci nağılda ölkədə vətəndaş müharibəsinin, parçalanma və qarşıdurmaların

yaranmasının qarşısını ala biləcək qüvvə kimi ziyalı təbəqəsi müəyyən mənada günahlandırılsa da, əslində milli barışıq və həmrəylik yaratmaq, professor Yavuz Axundlunun fikrincə, ilk növbədə iqtidarın qarşısında duran ən mühüm vəzifədir.

Filologiya üzrə elmlər doktoru Fərman Xəlilovun Naxçıvanın ədəbi və elmi mühitinin tədqiqinə həsr olunmuş "Hüseyn Razi yaradıcılığının dəyərləndirilməsi", "Məmməd Araz poeziyasının sehri" ədəbi-tənqidi məqalələri, "Ədəbiyyatşünaslığımıza yeni töhfə" (Prof. Y.Axundlunun "Azərbaycan tarixi romanı: mərhələlər, problemlər" monoqrafiyasına rəy) "Molla Nəsrəddin" jurnalı və klassik irs" mövzusuna həsr olunan dissertasiya", "Mirbağır Mirheydərzadənin elmi fəaliyyəti", "Hüseyn Razinin biblioqrafiyası haqqında bir neçə söz", "Cəlil Məmmədquluzadəyə aid yeni monoqrafiya", "Əliqulu Qəmküsar haqqında qiymətli monoqrafiya" (İ.Ağayevin "Əliqulu Qəmküsar" monoqrafiyası haqqında resenziya), "Eynəli bəy Sultanovun "Hekayələr" kitabı", "Ağı janrı və onun poetikası", "Bayrək Quşçuoğlunun şeirlərinin ideya-məzmun və bədii xüsusiyyətləri" və s. resenziyaları iki cilddən ibarət "Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər" kitablarında [8 a, b] toplanmışdır. "Hüseyn Razi yaradıcılığının dəyərləndirilməsi" adlı məqalə istedadlı şairin yaradıcılığının tədqiqinə həsr olunmuş ədəbi tənqidi və ədəbiyyatşünaslıq materiallarına tənqidi münasibət və xeyli sayda dəqiqləşdirilmələrlə diqqəti cəlb edir. Hüseyn Razi yaradıcılığı haqqında yazılmış resenziya və rəylərə, o cümlədən irihəcmli və kiçik elmi tədqiqatlara obyektiv tənqidçi münasibəti məqalədə ön plandadır.

Azərbaycan ədəbiyyatşünaslığına və ədəbiyyat nəzəriyyəsinə dair dəyərli monoqrafiyaların müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar elm xadimi Hüseyn Həşimli ədəbi mühitə istiqamət verən və müasir şairlərin yaradıcılığını qiymətləndirən məqalələr, resenziya və rəylər də qələmə almışdır. Müstəqillik dövründə müdafiəyə təqdim olunan bir çox dissertasiyalara rəy vermiş, dərc olunan bədii əsərlərin bir çoxunun elmi redaktorluğunu etmiş və əsərlərin məziyyət və nöqsanlarından bəhs edən ön sözlər yazmışdır. "Ədəbi mühitin inkişafı üçün Naxçıvanda hər cür şərait var", Zaur Vedilinin sonetlər çələngi haqqında "Sonetlər çələngi", "Əbədi məhəbbət, ədəbi məharət", Azərbaycanın Əməkdar incəsənət xadimi, şair-dramaturq Elman Həbibin "Seçilmiş əsərləri"nin I cildinə yazdığı "Şairin vətəndaş mövqeyi" ön sözü, "Avropa ədəbi janrları çağdaş ədəbiyyatımızda" [6], "Azərbaycan poeziyasında elegiya" [7] və s. məqalələri müasir ədəbi prosesin ənənəvi və yeni janr, forma, ideya-məzmun və s. baxımdan ən mükəmməl səviyyədə təhlil olunmasına yönəlmiş münasibətdir.

Tənqidçi, ədəbiyyatşünas-alim, filologiya üzrə fəlsəfə doktoru, dosent Əzimli Əbülfəz Tahir oğlunun respublika və yerli mətbuat orqanlarında, Bakı, Naxçıvan, Təbriz, Ankara, Əskişəhər, Qars, Sivas, İzmir, İstanbul, Zonguldak, Çankırı, Alma-Ata və başqa şəhərlərdə indiyədək 300-dən artıq elmi-tənqidi məqaləsi çap edilmişdir. Ədəbiyyat tarixi, ədəbiyyatşünaslıq, ədəbi tənqid, ədəbi proses, poetika, nəzəriyyə, dilçilik, folklor, təsəvvüf, ilahiyyat sahələri üzrə tədqiqatlar aparan alim müxtəlif şeir kitablarına ön sözlər yazmış, onların redaktoru olmuşdur. "Ədəbi izlər" (2005) adlı kitabında Fikrət Sadıq, Məstan Günər (Əliyev), Hikmət Ziya, Tofiq Bayram, Musa Yaqub, Əkrəm Əylisli, Anar, Sabir Əhmədli, Əli Əmirli, Eyvaz Borçalı, Sabir Rüstəmxanlı haqqında yazdığı elmi yazıları, məqalələri toplanmışdır. "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi-metodoloji problemləri" silsilə məqalələri Alma-Atada, İstanbulda, Naxçıvanda dərc edilmişdir. "Cəlil Məmmədquluzadə yaradıcılığının poetikası" mövzusunda doktorluq dissertasiyası yazmışdır. "Yeni dövr tənqidi və tənqid", "Cəlil Məmmədquluzadə nəsrində təhkiyə poetikası", "Ədəbi izlər", "Sokrat

daymonizmi və Mirzə Cəlil realizmi", "Folklor cilası: poetik hərəkət", "Romantizmdən eposa: Tədqiqin Kamran Əliyev aydınlığı", "Klasik Türk Edebiyatı: Ahmed Yesevi'nin Tasavvuf Eğitiminde İlahi Aşk Telkini Üzere Kamil İnsan Aşılamaları" kitablarının, "Narahat şair, narahat şeirlər", "Azərbaycan" jurnalı redaksiyasının sorğularına cavab olaraq yazdığı "Poeziya: dünənimiz, bugünümüz", "Ağrıdan ucada dayanan şair" (X.Kərimlinin "Ay işığında" şeirlər kitabına ön söz), "Səs sehrinin söz hikməti, yaxud butasını axtaran aşiq" (E.Həbibin "Sevən ömrü" kitabına ön söz), "Ömrünü yaşayan şair" (Q.Qəribin "Gözümə döydüyüm şəkil" kitabına ön söz), "Hər yolçu öz mənzilinə can atar" (Allahverdi Aqilin "Mən bir qərib yolçuyam" kitabına ön söz), "Öz içində yaşayanların tənhalığı" (Şair Hüseyn Bağırın "Mən çiynimdən yerə qoydum dünyanı" adlı şeirlər kitabına ön söz), "Əsl sənətin yolu əbədiyyatdır" (Məmməd Araz haqqında), "Şeir - nəfəsalma kimidir" (M.Təmkinin "Yaz ətirli dünyam" kitabına ön söz), "Harda damcılar varsa" (İ.Yusifoğlu haqqında), "İçimizdə boğulan səs" (Əli Daşqının "Bıçaq və sümük" kitabına ön söz), "Ulduzlar göy üzündə tənha deyil" (Lütfiyyə Əsgərzadənin "Bir dilim ay işığı" kitabına ön söz), "Hər gizlində bir aşkar" (Əzizə Əhmədovanın "Sevgi nəğməkarı" kitabına ön söz), "Şəbnəmli şeir" (Şəbnəm Baharın "Şeirlər" kitabına ön söz), "Təzəliyi ruhunda yaşadan şair", "Poeziyanın ruhu, ruhun poeziyası" (Firuzə Məmmədli haqqında), "Qəmi doğma olan şairin sözü də doğma olar", "Sözün təzəliyi… varmı?", "Səs sehrinin söz hikməti, yaxud butasını axtaran aşiq", "Səssiz və səsli vicdanların qayğıları" (Səadət Qəmlinin "Vicdanın səsi" romanına ön söz), "Həsrətin dili laldır, qulağı – kar" (H.Eyvazlının "Ömür yarpaqları" kitabına ön söz), "Gecələr ulduzsuz olmaz" (Əzizə Əhmədova "Bu olmaq – olmamaqdır" kitabına ön söz), "Şair Vaqif Məmmədovun şeirlərində obrazlaşan tablolar və mənalar", "İçimizdə boğulan səsin şairi", "Araz sahilində buzlu düşüncələr" (Əli Daşqın haqqında), "Söz onun çarmıxıdır" (Şahin Seyidlinin "Şeir Buludları" şeirlər kitabına ön söz), "Sözün hikmət mehrinə sığınan şair"(Nurəddin İsmayılın "Cənnət Yuxusu" kitabına ön söz), "Çağdaş ədəbi proses üzərində düşüncələr", "Söz zövqümüzü, duyğumuzu, düşüncəmizi ifadə etmək vasitəsidir", "Sakit adam haqqında səssiz söz", "İlhamsız yazılan şeirlər: Onlar poetik canlı ola bilərmi?", "Şeir heç də söz quraşdırmaq deyil…", "Poeziya klassik sənətdir", "İlhamı naqis olanlar təzə şeri nə bilir?", "İlk bəndi olmayan "başsız şeirlər", "Şeir ruhun ehtiyacıdır, həvəs deyil", "Kamil şeir elmilik sistemidir, yaxud bədii bölgüdən gələn qüsurlar" və s. ədəbi-tənqidi məqalələr ədəbi prosesin bədiilik, sənətkarlıq, ictimai məzmun, forma ilə məzmunun vəhdəti və s. mühüm cəhətləri nəzərə almasına doğru istiqamətlənmişdir.

Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi", filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatı" kafedrasının dosenti Seyfəddin Eyvazov 2008-ci ildə "Xalq yazıçısı Elçinin dramaturgiyası" mövzusunda müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. "Xalq yazıçısı Elçinin dramaturgiyası", "Şərur ədəbi birliyi", "İnsanı yaşadan inamdır", "Elçinin dramaturgiyası" kitab və monoqrafiyalarında, "Telli Tejkarın şair oğlu" (Vaqif Məmmədov haqqında), "Məmməd Araz qafiyəsinin semantik tutumu", "İslam Səfərlinin dramaturgiyası", "Mənəvi-əxlaqi problemlərin bədii əksi (Elçinin dramaturgiyası əsasında)", "Çağdaş Azərbaycan dramaturgiyasında janr axtarışları", "Firuz Mustafanın monopyesləri", "İstedad və zəhmətin vəhdəti" (Akad. İ.Həbibbəyli haqqında), "Elçin dramaturgiyasında pyes-pritça", "Elçin və şifahi xalq ədəbiyyatı", "Müstəqillik dövründə Naxçıvanda dramaturgiyanın inkişaf istiqamətləri", "Vahid Əziz – "İncə ruhlu lirik şair" və s. məqalə və tezislərində müasir dövr Azərbaycan və Naxçıvan ədəbi prosesinə obyektiv tənqidçi münasibətini ifadə etmişdir.

Filologiya üzrə fəlsəfə doktoru, şair-dramaturq Həsənəli Eyvazlı "Həmid Arzulu yaradıcılığında tarixilik" adlı monoqrafiyasında ədibin "Əlincə qalası" və "Günahsız şikəstlər" əsərlərində tarixilik, sənətkarlıq nöqteyi-nəzərindən geniş araşdırmalar aparmış, çıxardığı nəticələri digər sənətkarların bu mövzuya həsr edilmiş əsərləri ilə müqayisə etmişdir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair-dramaturq Asim Yadigar birliyin sədri kimi ədəbi qüvvələrə həm rəhbərlik etmiş, həm də onların müxtəlif məzmunlu kitablarına ön sözlər yazmışdır. Bu baxımdan onun Əməkdar jurnalist, nasir Hüseyn Əsgərovun "Aylı bir gecə" kitabına yazdığı "Bu kitabı oxumağa dəyər" adlı ön sözü, şair Səhlabın "Dillər gözəli dilim" kitabına yazdığı "Daşlar yalan danışmaz" adlı ön söz, Azərbaycan Yazıçılar Birliyinin üzvü Ruhəngizin (Əliyeva) "Səssizliyin səsi" kitabına yazdığı ön söz, şair Vaqif Məmmədov haqqında "Dolğun misralar sorağında", vətənpərvər şair Elxan Yurdoğlunun "Qızlar gözlərində sevgi gəzdirir" adlı ilk kitabına "Yolun uğurlu olsun" adlı ön sözü, İbrahim Yusifoğlunun "Dərdlərin belimi əydi, ay vətən" kitabı haqqında qələmə aldığı "Öz ilməsi, öz naxışı olan şair" resenziyası və s. yazıları diqqətəlayiqdir.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımlının "Erməni uydurmaları və cinayətlərini ifşa edən kitab", "Xalqına xidmətə həsr olunan alim ömrü", "İslam Səfərli yaradıcılığının poetik qüdrəti", "Çağdaş ədəbi prosesdə vətən və insan taleyinin bədii təcəssümü" və s. resenziya və məqalələri və "Naxçıvan ədəbi mühiti: problemlər, perspektivlər" kitabında yer almış "Milli yaddaşın məhək daşı: Məmməd Araz", "Poetik qüdrətli İslam Səfərli yaradıcılığı", "Müasir Naxçıvan poeziyasında vətən və insan taleyinin bədii təcəssümü", "Naxçıvanda quruculuq və ədəbi proses", "Naxçıvanda bədii nəsr: inkişafı, problemləri və perspektivləri" məqalələri, bu il işıq üzü görmüş "Milli yaddaşın məhək daşı: Xalq şairi Məmməd Araz" monoqrafiyası və dövri mətbuatda dərc olunan publisistik məqalə və resenziyaları müasir ədəbi prosesin təhlili baxımından özünəməxsusluğu ilə seçilir.

Bundan əlavə filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimlinin Vaqif Məmmədov haqqında "Zamanın və sözün rəngi", filologiya üzrə elmlər doktoru Həmid Arzulunun şair, nasir və publisist Fərəc Fərəcovun hekayələri haqqında yazdığı "Mürəkkəb yazmaq asandır, sadə yazmaq çətin" adlı ön sözü, şair Xanəli Kərimli haqqında "Bu da bir nağıldı" kitabının müəllifi şair Xanəli Kərimliyə", filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərlinin şair Vaqif Məmmədov haqqında yazdığı "Şairin Şərq-Qərb səyahətnaməsi" ön sözü, Qafar Qəribin Lütfiyyə Əsgərzadənin "Mənə elə gəlir ki, ..." kitabına yazdığı "Özü kimi düşünən, özü kimi danışan, özü kimi yazan şairə Lütfiyyə Əsgərzadə" adlı ön sözü, Həmid Arzulunun eyniadlı romanı haqqında qələmə aldığı "Qaçaq Quşdan haqqında roman" məqalələri, Həmid Arzulunun Bəxtiyar Əsgərovun "Sevgi qatarı" şeirlər kitabı haqqındakı düşüncələri, Elbəyi Maqsudovun Xanəli Kərimlinin kitabı haqqındakı "Ay işığı"ndan başlanan yol" resenziyası, Həsən Valehin Rasim Gənzəlinin eyniadlı romanı haqqındakı "Qanlı çay" kitabı, yaxud poladı mat qoyan iradə" resenziyası, Günay Təvəkkülqızının Qafar Qəribin "Gözlərsən məni" kitabı haqqında yazdığı "Tələbə şairin ilk kitabı", Aygün Orucovanın "Xalqa inam və bütövlük nümunəsi" (Şair Xanəli Kərimlinin 67 illik yubileyinə), "Sədərək harayı və Xatın harayının bədii inikası", "Dəniz də nigaran, sən də nigaran" (Şair Vaqif Məmmədov haqqında) və s. məqaləsi və bunun kimi onlarla, yüzlərlə məqalə mətbuatda yer alan və ayrı-ayrı sənətkarlar və bədii əsərlərin yer aldığı kitablar haqqında nəşr etdirdiyi məqalələrdən sadəcə bir qismidir. Bu məqalələr sırasına Akif Axundovun "Naxçıvan ədəbi mühitindən səhifələr" silsiləsindən olan bir neçə yazısının və Elxan Yurdoğlunun "Ədəbiyyatın

ən böyük məsuliyyəti", "Naxçıvanda ədəbi tənqid niyə yoxdur" məqalələrinin də adlarını xüsusi olaraq qeyd etməyə ehtiyac var.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Xanəli Kərimlinin tənqidçi Əbülfəz Əzimlinin eyniadlı monoqrafiyası haqqında yazdığı "Yeni dövr tənqidi və tənqid" məqaləsi tənqidçi alim haqqında ümumiləşmiş fikirlərin cəmi kimi qeyd oluna bilər. Həmin məqaləsində Xanəli Kərimli yeni dövr tənqidçisinin necə olması məsələsinə toxunaraq yazır: "Ə.Əzimlinin "Yeni dövr tənqidi və tənqid" adlı monoqrafiyası böyük ənənəyə malik olan Azərbaycan tənqidşünaslığında hər cür epiqonçuluqdan uzaq, tamamilə yeni nəfəsin, yeni səsin təzahürü kimi diqqəti cəlb etməkdədir" [9, s. 4].

Nəticə olaraq qeyd edə bilərik ki, müstəqillik illərində Naxçıvan ədəbi mühitinin ədəbi tənqid sahəsi və onun müxtəlif janrları bu dövrün tanınmış ədəbiyyatşünasları və dilşünasları, ədib və publisistləri tərəfindən yeni dövrün və azadlığın verdiyi imkanlar çərçivəsində və müasirlik, bədiilik baxımından saf-çürük edilmiş, ədəbi tənqidin nöqsan və qüsurları göstərən əsərləri kəmiyyət baxımından çox olmasa da, diqqəti cəlb edən nümunələr kifayət qədərdir. Müasir dövrdə daha çox ədəbi tənqidin obyektiv münasibət bildirməməsindən bir çox gileylər olur ki, bunlardan tanınmış tənqidçi İradə Musayevanın belə bir qənaətini xatırlatmaq istəyirəm: "Mən heç vaxt Azərbaycan ədəbi tənqidinin "pik" həddini görmədim. Tənqidin intibah dövrü olmadı bizdə. Tək-tək imzalar oldu, amma dövr, mərhələ olmadı... [10]. Bütün yuxarıda qeyd etdiyimiz tədqiqatlar onu göstərir ki, Naxçıvan ədəbi mühitinin ədəbi tənqid sahəsi intibah dövrünü yaşayıb-yaşamamasından asılı olmayaraq, müstəqillik illərində də daim diqqət mərkəzində saxlanılmış, dəyərli əsərlər qələmə alınmışdır. 2012-ci ildə Naxçıvan Yazıçılar Birliyinin keçirilən konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Yazıçılar Birliyinə muxtar respublikada ədəbi prosesin və bədii yaradıcılıq işinin gücləndirilməsi, bədii tərcümənin, uşaq ədəbiyyatının və dramaturgiyanın inkişaf etdirilməsi, eləcə də kitab müzakirələrinin təşkili ilə bağlı verdiyi tapşırıqlardan sonra ötən 8 ildə bu istiqamətlərdə və ədəbi tənqid sahəsində bir sıra işlər görülmüşdür.

ƏDƏBİYYAT

1. Axundlu Y. Seçilmiş əsərləri: 3 cilddə, I c., Naxçıvan – yurdum mənim. Naxçıvan: Əcəmi, 2013, 312 s.
2. Axundlu Y. Seçilmiş əsərləri: 3 cilddə, III c., Müstəqillik uğrunda mübarizə və Qarabağ fitnəkarlığı. Naxçıvan: Əcəmi, 2013, 312 s.
3. Akademik Məmməd Cəfər Cəfərov: taleyi və sənəti. Bakı: Elm və Təhsil, 2009, 208 s.
4. Anadolu və Rumelidən əsintilər: Almanax / Tərtib edənlər İslam Beytullah Erdi və Vaqif Məmmədov. Bakı: Şirvannəşr, 2006, 120 s.
5. Həbibbəyli İ. Nuhçıxandan Naxçıvana. Bakı: Elm və təhsil, 2015, 846 s.
6. Həşimli H. Avropa ədəbi janrları çağdaş ədəbiyyatımızda // Naxçıvan. İctimai və humanitar elmlər seriyası, 2001, № 3.
7. Həşimli H. Azərbaycan poeziyasında elegiya // Filologiya məsələləri, Bakı, 2007, № 2.
8. a) Xəlilov F. Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər. I kitab, Naxçıvan: Əcəmi, 2017, 248 s.
   b) Xəlilov F. Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər. II kitab, Naxçıvan: Əcəmi, 2019, 200 s.

9. Kərimli X. Yeni dövr tənqidi və ədəbi tənqid. "Şərq qapısı" qəz., 2001, 07 avqust.
10. Musayeva İ. Bizdə tənqidin intibah dövrü olmadı / https://axar.az/news/kult/63633.html

AMEA Naxçıvan Bölməsi
E-mail: orujovaaygun82@gmail.com

Aygun Orujova

LITERARY CRITICISM IN THE NAKHCHIVAN LITERARY ENVIRONMENT OF THE INDEPENDENCE PERIOD

As in previous years, the Nakhchivan literary environment contributed to enriching various fields of fiction in terms of genre, subject, and content in the years of Azerbaijan's independence. Thanks to the opportunities provided by the period of independence, the field of literary criticism in Nakhchivan has also built its demands on protecting nationality, patriotism, humanity, social content, and, most importantly, the primary art conditions. During this period, we come across articles, reviews, books, and monographs expressing an attitude, praise, and criticism of the modern literary process in the works of well-known literary critics, linguists, writers, publicists, and journalists.

Keywords: *review, literary criticism, genre, critic, art.*

Айгюн Оруджева

ЛИТЕРАТУРНАЯ КРИТИКА В ЛИТЕРАТУРНОЙ СРЕДЕ НАХЧЫВАНА ПЕРИОДА НЕЗАВИСИМОСТИ

Нахчыванская литературная среда, подарившая азербайджанской и мировой литературе яркие образы, как в предыдущие годы, так и в годы обретения Азербайджаном независимости, внесла свой вклад в обогащение различных областей художественной литературы с точки зрения жанра, тематики и содержания. Благодаря возможностям, предоставляемым в период независимости, область литературной критики в Нахчыване также основывала свои требования к художественной литературе на сохранении национального, патриотического, гуманистического и общественного содержания и, самое главное, основных условий искусства. В этот период в творчестве известных литературоведов, лингвистов, писателей, публицистов и журналистов мы встречаем статьи, рецензии, книги и монографии, выражающие отношение, похвалу и критику к современному литературному процессу.

Ключевые слова: *рецензия, литературная критика, жанр, критик, художественность.*

(Filologiya üzrə elmlər doktoru Fərman Xəlilov tərəfindən çapa təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 25.02.2020
Son variant 01.03.2021

UOT 793.3; 78.08:801.81; 398; 801.8

AYTƏN CƏFƏROVA

NAXÇIVAN FOLKLORUNDA MƏİŞƏT-MƏRASİM RƏQSLƏRİ

Naxçıvan folklor örnəkləri qədim düşüncəni, inam və etiqadı özündə qabarıq şəkildə əks etdirmək baxımından türk dünyasının folklor aləmində özünəməxsus yerə malikdir. Hər bir folklor janrı nümunəsində ilkin etiqadı əks etdirən qədim ünsürlər bu diyarın ulu keçmişindən xəbər verir. Hər hansı bir örnək ərazinin istər tarixini, istər mədəniyyətini öyrənmək üçün dəyərli mənbə xarakteri daşıyır. Bu baxımdan həmin örnəklər özlüyündə xalqın erkən təsəvvürü ilə sıx əlaqəlidir. O cümlədən, mərasim oyun və rəqsləri əcdadlarımızın estetik düşüncəsini, dünya, kainat haqqında mənəvi dünyagörüşünü öyrənmək baxımından da əhəmiyyətlidir. Məqalədə milli-mənəvi dəyərlərin sıx şəkildə qorunub saxlandığı qədim Naxçıvana məxsus olan məişət-mərasim rəqs janrlarından bəhs olunur, onların icra olunduğu mərasimlərin bu rəqslərin qorunub gələcək nəsillərə ötürülməsindəki əhəmiyyəti xüsusi olaraq vurğulanır. Bu rəqslər içərisində mərasimlə bağlı olan yallı və halayların icrasından da söhbət açılır.

Açar sözlər: *rəqs, örnək, folklor, yallı, halay, düşüncə, inam, etiqad, xalq.*

Naxçıvan folkloru özünün rəngarəng janrları ilə tanınır. Bu folklor örnəkləri və janrları arasında Naxçıvanın mahnı-rəqs, eləcə də rəqs janrları milli mədəniyyətin inkişafında xüsusi rol oynayır. Naxçıvanın rəqs janrları qədimdən günümüzə qədər bir tərəfdən mövsüm-mərasimləri ilə, digər tərəfdən isə məişət-mərasimləri ilə sıx bağlı olmuşdur. Naxçıvanda yaşayan qədim türksoylu tayfaların XVIII əsrin sonuna qədər əsas mədəni həyatı kənd təsərrüfatı, heyvandarlıqla bağlı olduğu üçün onun folklor yaradıcılığı da, əsasən, mövsüm və məişət mərasimləri ilə bağlı olmuşdur. Buna görə də Naxçıvanın əməkçi xalq kütləsinin əsrlər boyu yaratmış olduğu folklor janrları da mövsüm nəğmə-rəqs və məişət nəğmə-rəqs janrlarını da əhatə etmişdir.

Naxçıvanın folklorunun araşdırılması nəticəsində bu diyarın rəqs janrlarının aşağıdakı ardıcıllıqda olması qənaətinə gəldik:

1. Mövsüm-mərasim nəğmə və rəqsləri
2. Məişət-mərasim nəğmə və rəqsləri
3. Novruz bayramı öncəsi nəğmə və rəqsləri
4. Novruz bayramı nəğmə və rəqsləri
5. El bayramları nəğmə və rəqsləri

Naxçıvan folklorunun xarakterik məqamları özünü mərasimlərin icrasında da nümayiş etdirir. Mərasimlər və ya ritual əski çağlardan etnosun dünyaya baxışını ifadə edən mənəvi dəyərlərdir. Zaman-zaman icrasına dövrün, ictimai hadisələrin, mədəni inkişafın çalarları qatılmasına baxmayaraq hər bir mərasim öz icrasında ilkin elementləri müəyyən qədər qoruyub saxlayır. Bu ilkinlik milli kulturoloji düşüncənin dərin qatlarına bağlı məqamlar kimi də diqqəti cəlb edir. Azərbaycan mərasim folkloru ərazilərə müvafiq olaraq müxtəlif ayin və ritualların, oyunların icrası ilə zəngindir. Bu nümunələr ibtidai xətlərə söykənərək erkən düşüncəni də aydın şəkildə təcəssüm etdirməkdədir. Azərbaycanın hər bir regionunda regiona xas örnəklər milli folklorun özəyini təşkil edir. Bu örnəklər çox halda eyni şəkildə, lakin regionun özəlliklərini daşıyaraq icra olunsa da, bəziləri sırf regionaməxsus möhürü alaraq özəlliyini qoruyur. Milli-mənəvi dəyərlərin mühafizəkar şəkildə qorunub saxlandığı Naxçıvan Muxtar

Respublikası da mərasim və ritualların geniş və etiqadlarla süslənmiş şəkildə keçirildiyi məkandır. Respublikanın ərazilərində mərasim icrası xalq tərəfindən sevilərək həyata keçirilir. Mərasim və ritualların ən sıx keçirildiyi ərazidən biri də Ordubad rayonudur.

Mövsüm mərasimləri ilə bağlı həm Naxçıvan Muxtar Respublikasının digər ərazilərində, həm də Ordubadda bir-birindən maraqlı şəkildə icra olunan mərasimlər öz icra tərzi, poetik strukturu ilə milli yaddaşda qorunmaqdadır. Naxçıvanın demək olar ki, bütün əraziləri üçün müəyyən dərəcədə xarakterik olan Çillə mərasimləri, Xıdır günü ilə bağlı keçirilən mərasimlər, mövsümi təsərrüfatı ifadə edən Xırmanüstü mərasimi, təbii qüvvələri ram etmək məqsədilə icra olunan mövsüm mərasimləri: Yağışyağdırma, Yağışkəsmə, Günəşi çağırma (Qodu-qodu), "Çömçəxatun", "Susəpən" və s. kimi mərasimlərdə etnopsixoloji düşüncədən irəli gələn məqamların mövcudluğu bu nümunələrin qədim türk mifoloji aləmindən bəhrələndiyini sübut edir.

Naxçıvanın mövsüm-mərasim nəğmələri müxtəlif təbiət hadisələri, etiqad və ayinlərlə bağlı yaradılmış nəğmə və rəqslərdir. Bu nəğmələr kənd və rayonlarda yaşayan əməkçi xalqın məşğul olduğu peşə sənəti ilə bağlı olduğu üçün onların istək və arzularını, dilək və dualarını əks etdirir. "Günəşi çağırma", "Yeli çagırma", "Yağışı çağırma", "Xırman" mərasim nəğmələri, "Oda, atəşə etiqad", "Suya etiqad", "Küləyə (hava) etiqad", "Torpağa etiqad" nəğmə və rəqsləri son qış aylarından başlayaraq Novruz bayramına qədərki dövrü əhatə edən "Şum mərasimi", "Saya mərasimi" və digər mərasim nəğmə-rəqsləri Ümumtürk, o cümlədən, Naxçıvan folklorunun qədim və orta əsrlər dövrünün yadigarı kimi bir çox bölgələrdə hələ də qorunub saxlanılmaqdadır. Xalq arasında bu nəğmə və rəqslərə "Novruzqabağı nəğmə və rəqslər" deyilir. Nəğmə və rəqslərin xarakterik xüsusiyyətlərindən biri xalqın əkininə lazım olan günəşi, yağışı, küləyi çağırma nəğmələrində Allaha edilən diləklərin, duaların qəbul olması istəyidir. Bundan sonra əməkçi xalq bunu bayram edərkən milli ənənəyə xas sadə hərəkətlərlə rəqs edib məhsulun yaxşı olacağını qeyd edərdilər. "Şum və saya mərasimləri" də xalq tərəfindən qeyd edilərdi. Yaz gəlməmiş keçirilən Şum mərasimi bitdikdən sonra qış aylarında qarın olması və ilin yaxşı keçməsi üçün istək və diləkləri ifadə edən nəğmələr ifa olunardı. Diləklər gerçəkləşəndən sonra əkinçilər ailədə və ya kənd səviyyəsində sevinc hisslərinə bürünmüş nəğmələri sadə rəqs hərəkətləri ilə tamamlayar, tədricən bunu bayram kimi qeyd edərdilər.

Suya, torpağa, küləyə (havaya), oda, atəşə edilən etiqadı ifadə edən nəğmə və rəqslər ilk insanın yaranış ilə bağlı ənənələrindən irəli gəlir. İlk insanın yaradılışı haqqındakı mövcud əfsanələrdə insanın sudan və gildən yaradılaraq ona hava ilə nəfəs verilməsi, bədənin bəlli istiliklə (atəşlə) təmin edilərək ona həyat verilməsi inancı insanların suyu, torpağı, havanı və odu müqəddəs sayaraq ona etiqad etməsi ənənəsi bütün türksoylu xalqlara məxsusdur. Naxçıvanın qədim folklorunda da bu ənənə olmuş və bu etiqad nəğmələrinin bir çox nümunəsi dövrümüzə qədər gəlib çıxmışdır. Bu ənənənin bir nümunəsini də Novruz bayramı ərəfəsində keçirilən su, torpaq, hava və od çərşənbəsi mərasimlərində görə bilərik.

Su çərşənbəsində qızların toplu şəkildə bulaq başına gedərək arzularının çin olması üçün niyyət etməsi, bulaq başında mahnı oxuyub şənlənmə və rəqs etmələrini misal olaraq göstərə bilərik.

Torpaq, hava, od çərşənbələrində tonqal qalama mərasimində od üzərindən tullanaraq pis nəzərin, xəstəliklərin və s. müqəddəs od ilə təmizlənməsini niyyət edən insanların sonrakı mərhələdə nəğmə oxuyub rəqs etmək ənənəsi də "Novruz öncəsi" mərasimlərdə nəğmə-rəqs

janrlarının ifası və icrasından xəbər verir ki, bu da öz növbəsində nəğmə-rəqs janrlarının folklorumuzdakı əhəmiyyətli yerini bir daha təsdiqləyir. Xalq arasında "Çillə nəğmələri", "İlaxır çərşənbə nəğmələri" də "Novruz qabağı" və ya "Novruz öncəsi" nəğmələr adlansa da bu mərasimlərin hamısında yallı, halay rəqsləri icra edilir.

1. Məişət-mərasim nəğmə və rəqsləri Naxçıvan folklorunda xüsusi əhəmiyyətə malik və daha geniş yayılmış janrlardandır. Bu janrlar mövzu arealına görə müxtəlif məzmunlu mətnlərə qoşulmuş nəğmələrdən və rəqslərdən ibarətdir. Məişətin bir çox sahələrini əhatə edən mərasimlər qədim Naxçıvanın mədəni həyatında xüsusi rol oynayır. Qeyd etdiyimiz kimi, məişət mərasimi nəğmə və rəqsləri özündə bayram, idman, tarixi-qəhrəmanlıq, toy, yas, dini və uşaq folkloru mərasimlərini əhatə edir.

2. Naxçıvanın "Bayram nəğmələri" silsiləsinə "Xıdır Nəbi", "Novruz bayramı" mərasimlərinə daxil olan nəğmə və rəqslər, o cümlədən, uşaq folkloru janrları daxildir. "Xıdır Nəbi" bayramı qışın ikinci yarısında, Novruz öncəsi aylarda həyata keçirilir və xüsusi ilə zəhmətkeş kənd əhalisinin həyatında önəmli yer tutur. Çünki "Xıdır Nəbi" və ya bəzi folklor mühitlərində "Xıdır İlyas" adı ilə tanınan bu bayramlar kənd mühiti ilə və kənd zəhmətkeşlərinin həyatı, maddi durumları ilə bağlı olduğu üçün xüsusi önəm daşıyırdı.

3. Novruz bayramı nəğmə və rəqsləri – Novruz Şərq xalqları arasında bütöv Azərbaycanda, Orta Asiya Türk dövlətləri arasında dövlət səviyyəsində keçirilən və milli bayram statusunu qazanmış el bayramıdır. Novruz bayramına aid folklor nəğmə və rəqslərində xalqın etnoqrafik milli ənənəsinin izlərini müşahidə etmək olar. Novruz bayramı haqqında apardığımız elmi araşdırmalar, müqayisəli təhlillər, yaşlı nəsil nümayəndələri ilə olan sorğular və müsahibələr nəticəsində məlum oldu ki, bayram şənliklərində qədim ənənədən irəli gələn folklor nəğmələrinin hamısı rəqslərlə müşayiət edilərdi.

Novruz bayramı şənliklərinin Azərbaycanda, xüsusən də Naxçıvanda özünəməxsus şəkildə el-oba ilə təntənəli formada keçirilməsinin özü qədim ənənədən irəli gəlir. Bu bayram nəğmə və rəqslərinə aid folklor janrlarından: "Səməni", "A Yel baba, Yel baba" (bu nəğmə-rəqsin bir adı da "Heydər-Heydər"dir), "Qodu-qodu", "Kosa-kosa", "Yağış gəlir" və s. mərasim nəğmə və rəqsləri bayramı şux keçirmək istəyən xalqın arzusunu, istəyini ifadə edir. Naxçıvanda keçirilən "Qodu-qodu", "Kosa-kosa", kimi folklor nəğmə və rəqsləri Novruz bayramının bir növ simvoluna çevrilmişdir. Bu nəğmə və rəqslər etnoqrafik milli ənənənin izlərini özündə ehtiva etdiyi üçün hər il keçirilən bahar bayramında icra edilir. Novruz bayramı şənliklərində "Hüccələr, hüccələr" nəğməsi də ifa edilirdi ki, bu da təqvim bayramında gecə-gündüzün birləşməsini göstərirdi. Naxçıvanda keçirilən Novruz bayramı Azərbaycanın digər bölgələrində keçirilən bayramlardan bəzi folklor nəğmə və rəqslərinə, mərasimlərin rəngarəngliyinə görə fərqli olması bu bölgənin mərasimlərinin xalq tərəfindən mühafizəkar şəkildə qorunub saxlanmasından irəli gəlir. Bu nəğmə-rəqs janrlarından "Xanbəzəmə", "Haxışta", "Gülümeylər", rəngarəng "Yallı" və "Halaylar"ı göstərə bilərik. "Xanbəzəmə" mərasimi Naxçıvanın Ordubad rayonunda xüsusi təntənə ilə keçirilər. Teatrlaşdırılmış bu mərasimdə aktyorların və mərasim iştirakçılarının nəğmə oxuyub və rəqs etməsi mərasimə xüsusi rəng, ab-hava, estetik yaraşıq gətirir. Rəqslər rəngarəng olduğu üçün mərasim də daha maraqlı və cazibəli keçir.

Ümumiyyətlə, Novruzda icra olunan ritualların çoxu qışın yola salınıb yazın qarşılanmasını əks etdirir. Qış xalq təsəvvüründə donan, yatan, hətta ölən təbiət kimi xarakterizə olunur. Onu oyatmaq üçün etnik mədəniyyətdə yardımçı xarakterli ayin-ritualların icrası mütləq sayılırdı. Bu ritualların zaman-zaman çox hissəsi itib-batmış, bəziləri isə müasirliyədək

inkişaf edərək zamandan və tarixi tələblərdən irəli gələn elementlərlə süslənərək dövrümüzə qədər gəlib çıxmağa nail olmuşdur ki, onlardan biri də əvvəldə adını çəkdiyimiz "Xanbəzəmə" mərasimidir. Mərasim Azərbaycanın bəzi regionlarında da ara-sıra icra olunmağına baxmayaraq, tamlıqla Naxçıvan MR mərasim folkloruna aid faktdır. Əsas icra məkanı isə Naxçıvan MR-nın Ordubad rayonudur. Əgər əvvəllər rayonun bir neçə kəndində də bu mərasim icra olunurdusa, hazırda Ordubad şəhərindən savayı Nüsnüs, Vənənd və Tivi kəndlərində də icra olunmaqdadır. Martın 21, 22, 23-də Ordubad şəhərinin Sərşəhər və Mingis adlı meydanlarında "Xanbəzəmə" mərasimi kütləvi şəkildə keçirilir. Eləcə də Nüsnüs kəndində 3 gün ərzində "Xan məclisi" icra olunur. Vənənd və Tivi kəndlərində isə mərasimin yalnız 1 gün icrası müşahidə olunur. Qeyd etdiyimiz kimi, Ordubad şəhərinin Sərşəhər deyilən meydanında Xan "bəzədilir". Ordubad əhalisinin içərisindən ciddi, qaraqabaq biri seçilir. Xan seçimində də müəyyən tələblərə əməl etmək mütləqdir. Belə ki, xalq arasında təyin olunmuş ölçülər var ki, seçilən xan ona uyğun olmalıdır: yəni xan olacaq şəxs ciddi, hər sözə məhəl qoymayan, hər məqamda danışmayan, ölçülü hərəkətlərə malik olmalıdır. Müxtəlif vaxtlarda xan seçilmiş şəxslər o qədər ciddi xarakterli, qaraqabaq xüsusiyyətlərə malik olmuşdular ki, xalq indi də onları bu məqamla bağlı olaraq tez-tez xatırlayır. Ordubadın Nüsnüs kəndində xan "səlahiyyətini" müxtəlif zamanlarda icra edən şəxslər – Nəcəfov Nəcəf, Əliyev Nurəddin, Cabbarov Səttar, Davudov Əhməd, Hüseynov Məhəmməd (xalq arasında Uzun Hüseynin oğlu kimi də tanınırdı) öz missiyalarını hər Novruzda məsuliyyətlə icra edən "xanlar" olmuşlar. O cümlədən, mərasimin daha təntənəli şəkildə keçirildiyi Ordubad şəhərində müxtəlif zamanların öz "xanları" olmuşdur. Lakin ciddiliyi ilə daha çox yadda qalan, "ən ciddi xan statusuna" layiq Baxşıyev Məhəmməd adlı şəxs olub. Hətta onun ciddiliyi haqqında indi də xalq yaddaşında tez-tez xatırlanan rəvayət yaşayır: "Belə deyirlər ki, əhali arasından seçilən xan çox ciddi olmalıdır. Yəni onun qarşısında oynayıb-gülən təlxəklər, oyunbazlar onu güldürməkdən ötrü canfəşanlıq etsələr də, o gülməməlidir. Bu zamana qədər olmamışdı ki, seçilən xan heç gülməsin. Heç olmasa, ən azı bir dəfə gülmək həmin şəxsin "xanlıq" fəaliyyətində istisna deyildi. Lakin Məhəmməd xan olduqca ciddi və qaraqabaq, həm də çox təmkinli olduğundan, onu güldürə bilmək mümkün deyildi. Bir dəfə Novruz bayramının üçüncü günündə camaat gəlir Məhəmmədin evinə. Həyat yoldaşından soruşurlar ki, ay bacı, bu niyə gülmür? Nə təhər edirik, bu gülmür ki, gülmür. Qadın cavab verir ki, ay sizə qurban olum, mən 20 ildir bununla bir evdəyəm, bunun gülən üzünü görmədim, siz necə görəcəksiniz?!". Hazırda xan "tituluna" Ordubad şəhər sakini, elə "köhnə xan" Məhəmməd xanın oğlu Aqat ləqəbli Baxşıyev Fərhad "layiq görülüb".

Xanın gülməməsi ilkin inanc və etiqad sistemlərindən olan animizmin qalıqları kimi qəbul oluna bilər. Belə ki, qış fəsli zamanı təbiətin donması, dayanması, ölməsi qış ruhunun təbiətə təsiri ilə bağlıdır. Qədim insanın mifoloji təfəkküründə insan ətrafında olan, təmasda olduğu nə varsa, onun canlı olduğunu, hər canlının da ruhu olduğu prinsipini qəbul edirdi. Ona görə də qışdakı təbiəti donmuş, ölmüş, susqun sayan qədim insan onu simvollaşdırmış, daha sonra isə obrazlaşdırmışdır. Susqun, acıqlı qış haqqındakı mifoloji düşüncədən qaynaqlanan "Xan"ın seçimində də məhz dinib-danışmayan, susqun, ətrafdakı şənlikdən zövq almayan insan tipinə üstünlük verilir.

Ciddi, qaraqabaq şəxsi xan kimi bəzəyib, taxt-taca əyləşdirirlər. Xan meydana at üstündə daxil olur. Ətrafındakı vəzir, vəkil onu qoruyur. İki nəfər yelpiklə onu yelləyir. Digər insanlar xanın qarşısında çalır, oxuyur, oynayır. Təlxəklər xanı güldürməyə çalışırlar. Oyunun şərtinə əsasən, xan təlxəklərin hərəkətlərinə, ümumiyyətlə, gülməməlidir. Əgər gülərsə, meydanda

və ya mərasimin təşkil olunduğu yerdə mövcud olan hovuzda – göldə "boğular", yəni camaat onu suya basar. Üç gün ərzində bütün göstərilən məzəli hərəkətlərə dodağı belə qaçmayan, "xan" rolunu icra edən şəxs xalq tərəfindən mükafatlandırılır. "Xanbəzəmə" mərasimindən bəhs edən folklorşünas Ə.Ş.Hüseynoğlu da qeyd edir ki, xalq tərəfindən bəzənmiş yalançı xanın gülməsi qadağandır.

Susub danışmaması tələb olunan obraza "Danatma" mərasimində də rast gəlinir. Folklorşünas alim M.Kazımoğlu xanın gülməməsi, lal-dinməz durması ilə "Danatma" mərasimindəki qaradinməz obrazının xüsusiyyəti arasındakı eyniliyi belə xarakterizə edir: "...Xanbəzəmədə xanın gülməyinə, "Danatma"da isə qaradinməzin danışmağına yasaq qoyulmasını müxtəlif cür izah etmək olar... xanın gülməməsi və qaradinməzin danışmaması ciddi olmağın, özünü əsl hökm sahibi kimi apara bilməyin işarəsidir". Onu da əlavə edək ki, "Dan atma" Novruz bayramında icra olunan mərasimdir. Azərbaycanın digər ərazilərində olduğu kimi, Naxçıvan MR ərazilərində də bu mərasim icra olunur. Mərasim zamanı oyunun başçısı iki nəfər qızı qaradinməz edib qabla axar sudan pak su gətirməyə göndərir. Bu sudan "Vəsfi-hal" oxuyanda istifadə edirlər. Qaradinməz su gətirməyə gedərkən heç kimlə bir kəlmə belə danışmamalıdır. Əgər o danışarsa, su pak sayılmır, ona iynə salmaq, üzük oynatmaq olmaz. Qaradinməz pak suyu gətirib başçıya verdikdən sonra qaradinməzlikdən azad olur. Ordubadda bu mərasim ilaxır çərşənbələrin sonuncusu olan od çərşənbəsində icra olunur [3, s. 88-91]. "Xanbəzəmə" mərasimində müxtəlif musiqi alətlərinin müşayiəti ilə icra olunan idman növlərinin, əsasən, güləşin icrası da diqqət çəkməkdədir. Bu baxımdan ərazidən toplanmış bir folklor mətnində də deyilir: "Novruz bayramında gedib kənardan zurna çalan gətirərdilər. Çalardılar, camaat şadlıq elərdi. Qoca kişilərdən salardılar güləşə. Güləş zamanı biri çəkilərdi o başa, biri bu başa. Bir-biri ilə deyişərdilər:

Gülüstan üstünə,
Gün düşüb bostan üstünə.
Gör nə günə qalmışam,
A Kəlbəli Qulu,
Tülkü gəlib aslan üstünə.
Qarşı tərəfin cavabı:
Kərbəlada var ələmim,
Çərxi-fələkdəndir mənim qələmim.
Əbülfəzl Abbasdı mənim köməyim,
Qüdrətin varsa, gəl meydanə" [2, s. 140].

Mərasimin özəlliyindən biri də yallı rəqsinin icrasıdır. Ordubad şəhərinin Sərşəhər meydanında təşkil olunmuş mərasimdə yallının müxtəlif növləri icra olunur. Əsasən, oyun elementləri ilə cilalanmış yallı rəqs növünün icrası mərasimi daha da canlandırır. Elə tam Ordubad ərazisinə aid olan, yaşlı nəslin "İlanvarı" adlandırdıqları rəqs çox maraqlı icra tərzi ilə diqqət çəkməkdədir. Qeyd etdiyimiz kimi, "İlanvarı" yallısında bəzi oyun elementləri görünməkdədir. Oyundakı bu xüsusiyyətlərə diqqət edək: Hər biri yeddi-səkkiz gəncdən ibarət iki sıra düzəldilir. Hər sıradakı insanlar qollarını bir-birinin çiyinlərinə keçirərək yallıya başlayırlar. Hər qrupun başında yallıbaşı durur. O, əlində çubuq saxlayaraq oyun zamanı sırasını pozanları cəzalandırır. Bu çubuğa "vən" deyilir (vən – qabığı ağ, sərt meşə ağacıdır). Beləcə, oyun başlanır. 1-ci yallı qrupu əyilərək, 2-ci yallı qrupunun hər bir üzvü ilə digər üzvünün arasından keçməyə çalışır. Keçərkən qrup üzvlərinin cibinə əl ataraq pul, telefon və

ya cibdə olan hər hansı bir əşyanı götürməyə çalışır. Sonda "oğurlanan" əşyalar ortaya qoyulur. Kimin daha bahalı əşya götürdüyü müəyyən olunur. Əşyanı götürən əşya sahibindən "Qənimo" yallısını təkbaşına icra etməyi tələb edir. Yallını icra etdiyi təqdirdə əşya sahibinə qaytarılır, əks halda əşya ərazidə yaşayan kasıb və ehtiyacı olan kimsəyə bağışlanılır. Bunlar ətrafda oyunu seyr edən tamaşaçıların gözü qarşısında icra olunur. Onu da qeyd edək ki, bu yallı kişilər tərəfindən icra olunur. Qadınlar isə oyunu müşahidə edərək nəticənin necə olacağını izləyər, hansı yallı qrupunun qələbə çalacağını öz aralarında müzakirə edərlər. Digər yallıya diqqət etsək görərik ki, bu yallı növü də oyun ünsürləri ilə cilalanmışdır: "...yenə 7-8 nəfərlik 2 qrup təşkil olunur. Qruplar bir-birilə pantomim hərəkətlərlə deyişirlər. Birinci qrupun 1-ci oyunçusu cibindən dəsmal çıxarır. Mütləq o biri qrupdan da qarşılıq olaraq dəsmal göstərilməlidir. 2-ci oyunçu, məsələn, cibindən telefon çıxararsa, o biri qrup da telefon çıxararaq qarşılıq verməlidir. Beləcə, oyuna müxtəlif əşyalar əlavə edilərək davam edilir. Nəticədə, cibindən qarşılıq əşya çıxarmayan qrup məğlub sayılır".

Vənənd kəndində hazırda bir və ya üç gün icra olunan bayram əvvəllər elə tam üç gün keçirilərdi. Üçüncü gün müxtəlif yaş qrupunda insanlar Təkayaq və Cütayaq yallısını oynayardılar. Sonra cavanlar güləşərdilər. Güləşdən sonra mərasimə yeni ruh qatmaq üçün cavanlar "Çöpüdüm" yallısı gedərdilər. Hazırda da kənd cavanları "Çöpüdüm" yallısını icra edirlər. Dəstəbaşı əlinə vən çubuğu alar ki, kimisə vuranda ağrıtsın. Axırda dəstə başçıları üz-üzə dayanar, hər iki dəstənin üzvləri gəlib onların arasından oynaya-oynaya keçərlər.

Ümumiyyətlə, Novruzda oynanılan oyunlar türk xalqları üçün böyük əhəmiyyət kəsb edir, o cümlədən, oyunların icrası başqa xalqlarda bu oyunların oynanılmadığını diqqətə çatdırır. Xanbəzəmə mərasimi də öz orijinallığı, fərqliliyi ilə Naxçıvan MR mərasim folklor örnəyi olaraq erkən təsəvvürlərin izləri ilə zəngindir. Bu və bu qəbildən olan mərasim tamaşaları onu göstərir ki, qışın bitməsini, yazın bol-bərəkətlə, sevinclə gəlməsini arzulayan xalq fəsillərə, təbiət hadisələrinə qədim təsəvvürlərdən doğan düşüncə ilə yanaşmış, ona hörmətini, etiqadını simvollaşdıraraq ifadə etmişdir.

Novruz mərasimindəki nəğmə-rəqslər arasında "Haxışta", "Gülümeylər", rəngarəng "Yallı" və "Halaylar" xüsusi yer tutar. Müasir dövrdə keçirilən Novruz bayramı mərasimlərində Azərbaycanın bütün ərazilərində olduğu kimi Naxçıvanın folklor mühitinə aid nəğmə və rəqslərdən başqa müasir dövrdə yaranmış mahnı və rəqslər də ifa edilir ki, bu da mədəni inkişafla bağlıdır.

1. Azərbaycanda, o cümlədən, Naxçıvanda Novruz bayramı sonrası mərasimlərin də keçirilməsi bir ənənə olaraq qədim dövrlərdən başlayaraq müasir dövrümüzə qədər davam etməkdədir. Yay aylarının sonunda keçirilən "Məhsul yığımı" mərasimlərində oxunan və icra edilən nəğmə və rəqslər də etnoqrafik baxımdan maraq doğurur. Rəqslər, əsasən, əməkçi xalqın bayram əhval ruhiyyəsi ilə keçirilərdi. Qış aylarına hazırlıq tədarükü görən kəndlərdə yaşayan insanlar bu bayramı xüsusi zövq və ruh yüksəkliyi ilə keçirərdilər.

2. Naxçıvanın qədim folklor ənənəsində "İdman mərasim nəğmələri" də xüsusi yer tutur. İdman yarışları mərasimləri xalq tərəfindən rəğbətlə qarşılandığı və yarışların musiqinin müşayiəti ilə mütəmadi şəkildə kənd və rayon mərkəzlərində keçirildiyi üçün bu mərasimlər, bir növ, el bayramına çevrilərdi. Bayramlar böyük xalq kütləsini öz ətrafında toplayardı. Araşdırmalar sübut edir ki, hətta ərazicə bir-birinə yaxın kəndlərin ortaq keçirdiyi bu bayram mərasimlərinə kənd əhalisinin bütün üzvlərinin iştirakı nəticəsində yüz və minlərlə insan toplaşardı. Mərasimlər, adətən, bu qayda ilə başlayardı. Mərasim meydanına ilk olaraq

güləşçilər və pəhləvanlar "zorxana" deyilən oyunu icra etmək üçün çıxardılar. Onlar oyuna müxtəlif hərəkətlərlə əllərində ağır idman çəki daşları və iki zurna və dohulun müşayiəti ilə başlayardılar. Bir az zaman keçdikdən sonra zorxana iştirakçıları iki-iki düzülərək güləş mərasimini nümayiş etdirərdilər. Onu da qeyd etmək istərdik ki, zorxanada idman hərəkətləri müəyyən musiqi ritmləri əsasında olduğu üçün onlar rəqs elementləri ilə həmahəng şəkildə əlaqələndirilirdi. Bu güləş ayini də müxtəlif idmançıların bir-birini əvəz etməsi nəticəsində təxminən bir və ya bir saat yarım davam edərdi. Güləş mərasimi bitdikdən sonra kəndin gəncləri öz atları ilə meydana girərək cıdıra başlamaq üçün toplaşardılar. Cıdır, adətən, ya qarışıq şəkildə, ya da iki kəndin gəncləri arasında keçirilərdi. Cıdır yarışının maraqlı olmağı üçün yarış müxtəlif formalarda icra edilirdi. Bu oyunda zurnaçıların qəhrəmanlıq dolu zəngulələrini və dohulçuların gur, möhtəşəm ritmləri əsasındakı musiqiləri duyan atlar şahə qalxaraq yürüşə başlamaq əzmində olduqlarını hiss etdirərdilər. Qarışıq toplumun keçirdiyi cıdırlarda bir gəlin örpəyini daha irəliyə getmiş atlıdan hansı alardısa, o, qalib elan edilərdi. İki kəndin atlılarının yarışı isə bir qoyun dərisi üzərində mübarizə üstündə qurulardı. Qoyun dərisi uzaqda bir dirəyin üstündə qoyulardı və hansı komandanın üzvü onu ilk götürüb geri gətirə bilərdisə, qalib o komanda elan edilərdi. Onu da qeyd edək ki, qoyun dərisi uğrunda at belində mübarizə aparan gənclər dərini bir-birinin əlindən almağa çalışardılar. Bu yarışın da sonunda qalib gələn dəstə əl-ələ tutub yallı gedərdi.

İdman mərasiminin biri də "Çovqan" və ya "Çövkən" oyunu idi. Bu yarış da bayram şəklində keçirilərdi. İki atlı dəstəsi əllərində uzun yarı çömçə formasında olan oyun aləti ilə bir kosu rəqibin qapısına vurmağa çalışardı. Qalib dəstə yenə bayram keçirər və öz sevinclərini rəsqlərlə, özəlliklə də yallı və halay tipli rəqslərin icrası ilə həyata keçirərdilər.

Qeyd etdiyimiz kimi, Naxçıvan folklorunda rəqs janrları rəngarəng və çoxçeşidlidir. Folklor rəqslərindən fərqli olaraq müasir dövrdə el, toy şənliklərində rəqslər ifa tərzlərinə görə müxtəlif formalarda olur. Bunlar ayrıca kişilərin, qadınların və ya kişi və qadınların birgə oynadığı rəqslərdir ki, onlar da ifa tərzlərinə görə bir-birindən fərqlidir. Qadın toy məclislərində kişilərin iştirakı olmadığı üçün məclislərdə qadınlar oynayar. Qadın-kişi qarışıq məclislərdə isə kişi ilə qadınların birgə rəqsləri geniş yayılmışdır. Belə məclislərdəki rəqs janrları müasir şəhər folkloruna aiddir. Adətən, bu cür məclislərdə rəqs ifaçıları müxtəlif janrlara aid ağır, orta və tez templərdə olan rəqsləri ifa edirlər. Rəqs hərəkətləri də folklor mühiti rəqslərindən çox fərqli olur. Buna baxmayaraq, bütün toy, mərasim şənliklərində Naxçıvanın tək ayaq, iki ayaq, üç ayaq, bəzən dörd ayaq yallı rəqslərindən əlavə "Tənzərə", "Köçəri" və s. yallı havaları da icra edilir. Bu da, ilk növbədə, onu göstərir ki, yallı rəqsləri etnopsixoloji cəhətdən milli rəqs statusunu qazandığı üçün xalq tərəfindən sevilə-sevilə icra edilir. Onu da qeyd edək ki, yuxarıda haqqında bəhs etdiyimiz mərasim rəqsləri, o cümlədən, digər folklor rəqs janrlarının hamısı "xalq rəqsləri" adı ilə tanınır. Bu haqda bir çox mütəxəssislərin, bəstəkar və musiqişünasların yazıları mövcuddur. Bunlardan biri olan Azərbaycanın və SSRİ-nin xalq artisti, görkəmli xanəndə Bülbülün söylədiyi fikrə diqqət yetirək: "Xalq musiqisində çoxlu gözəl oyun havaları vardır. Özünə məxsus gözəlliyi olan həmin havalar son dərəcə ahəngdardır. Azərbaycanda rəqslər olduqca müxtəlifdir. Zurna və dəfin (nağara, dohul – A.C.) müşayiəti ilə, öz ritminə görə, sürətli, coşqun, eləcə də yüngül, rəqqasənin incə hərəkətləri ilə fərqlənən rəqslər vardır" [1, s. 28]. Bülbülün vurğuladığı incə hərəkətli rəqslər şəhər folkloru mühitinə aiddir. Bu tip rəqslər rəqs sənətində olduqca çoxdur. Onlar, əsasən, saray mədəniyyəti nümunələrindən əxz olunmuş və sonradan professional rəqqaslar bu rəqslər əsasında öz yeni rəqs kompozisiyalarını yaratmışlar.

Naxçıvanda icra olunan rəqs janrlarının öyrənilməsi sübut edir ki, Azərbaycanın qədim və müasir mədəniyyətində Naxçıvanın folklor və professional rəqs janrları xüsusi əhəmiyyətə malikdir. Və biz, Naxçıvanımızı haqlı olaraq bir çox xalq rəqs janrları, qədim folklor yaradıcılığı, o cümlədən, yallı və halayların vətəni adlandıra bilərik.

ƏDƏBİYYAT

1. Bülbül. Seçilmiş məqalə və məruzələri. Bakı: Az.SSR. EA. Nəşriyyatı, 1968, 227 s.
2. El sözü, yurd yaddaşı: Folklor toplusu / Toplayıb tərtib edəni və çapa hazırlayanı İsmayıl M. Bakı: Elm, 2010, 168 s.
3. Kazımoğlu M. Ordubadda Novruz bayramı / Nəbiyev A. Azərbaycanda Novruz. Bakı: Çıraq, 2012, s. 88-91.

AMEA Naxçıvan Bölməsi
E-mail: ceferli_ayten@mail.ru

Ayten Jafarova

EVERYDAY AND CEREMONIAL DANCES IN NAKHCHIVAN FOLKLORE

Nakhchivan folklore samples have a special place in the folklore atmosphere of the Turkic world in terms of vividly reflecting the ancient thoughts, beliefs, and faith. The ancient elements of each folklore genre, reflecting the original beliefs, inform the great past of this land. Each sample carries as a valuable source to study the history and culture of the area. In this sense, the examples are closely connected to the early imagination of the people. Besides, ceremonial games and dances, which are considered a genre of folklore containing spiritual thoughts, are also important in studying the aesthetic thinking of our ancestors, the spiritual outlook of the world, and the universe. The paper discusses household and ceremonial dances belonging to the ancient Nakhchivan, where national and spiritual values are closely preserved. It states the importance of the ceremonies where these dances have been preserved and passed on to the future generations. Among these dances, yalli and halays related to the ceremonial dances are analyzed in the article.

Keywords: *dance, example, folklore, yalli, halay, thoughts, beliefs, faith, people.*

Айтен Джафарова

БЫТОВЫЕ И ЦЕРЕМОНИАЛЬНЫЕ ТАНЦЫ В НАХЧЫВАНСКОМ ФОЛЬКЛОРЕ

Нахчыванские фольклорные образцы занимают особое место в фольклоре тюркского мира с точки зрения яркого отражения в них древних мыслей, верований и убеждений. Древние элементы, отражающие первичное поверье на примере каждого фольклорного жанра, свидетельствуют о великом прошлом этого края. Любой пример является ценным источником для изучения истории или культуры местности. В этом

отношении образцы сами по себе тесно связаны с ранним воображением людей. В том числе обрядовые игры и танцы, которые считаются жанром фольклора, содержащим духовную мысль, также важны с точки зрения изучения эстетического мышления наших предков о духовном мировоззрения Мира и Вселенной. В статье рассматриваются жанры обрядово-бытовых танцев, принадлежащих древнему Нахчывану, где бережно сохранялись национально-духовные ценности, особо подчеркивается значение обрядов, в которых эти танцы сохраняются и передаются будущим поколениям. Среди этих танцев речь пойдет об исполнении яллы и халаев, связанных с обрядами.

Ключевые слова: *танец, пример, фольклор, яллы, халай, мышление, вера, убежденность, народ.*

(*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir*)

Daxilolma tarixi: İlkin variant: 28.01.2021
Son variant: 17.02.2021

UOT 793.3; 78.08:801.81; 398; 801.8

TƏRANƏ QƏBULOVA

NAXÇIVAN AŞIQ YARADICILIĞININ DİGƏR AŞIQ MÜHİTLƏRİ İLƏ ƏLAQƏSİ

Naxçıvan qədim türk diyarı olmaqla yanaşı, həm də Şərqin mədəniyyət, sənət mərkəzi sayılmışdır. Tarix boyu mədəniyyətimizin yüksək inkişafı Naxçıvanda aşıq sənətinin geniş fəaliyyət göstərməsinə imkan vermişdir. Vaxtilə Naxçıvan aşıq ədəbi mühiti özünün ən yüksək yaradıcılıq zirvəsini yaşamışdır. Zaman keçdikcə aşıq mühiti təkcə Naxçıvan ərazisində deyil, Naxçıvan hüdudlarından kənara da yayılmışdır. Naxçıvan aşıqları təkcə böyüdükləri torpaqda deyil, həm qonşu ölkələrdə, həm də Azərbaycanın digər dilbər guşələrində olmuş, oradakı görkəmli aşıqlarla əlaqə yaratmışlar. Məqalədə Naxçıvan aşıq ədəbi mühitindən və bu mühitdə yaşayıb yaratmış sənətkarların Azərbaycan ərazisindəki digər aşıq mühitləri ilə əlaqəsi, həmçinin folklorun qədim nümunəsi sayılan aşıq deyişmələri tədqiq edilmişdir.

Açar sözlər: *Mühit, aşıq, saz, söz, şeir, qoşma, deyişmə.*

Beş min illik tarixə malik olan qədim Naxçıvan zəngin və çoxşaxəli folklor nümunələrinə sahibdir. Folklor nümunələri xalqın bacarığını, məharətini, təfəkkürünü, istedadını özündə əks etdirir. Bu keyfiyyətləri özündə əks etdirən folklor nümunələrindən biri də aşıq şeiridir. Ulu tarixə malik olan aşıq şeiri folklorda xüsusilə seçilir. Çünki aşıq sənəti xalqın mənəviyyatını özündə əks etdirir. Aşıq sənəti rəsmi olaraq XVII-XVIII yüzilliklərdə çiçəklənmə dövrünü yaşasa da, sonralar Azərbaycan tarixində baş verən faciələr, keşməkeşlər, uğursuzluqlar bu sənətdən də yan keçmədi. Bunun nəticəsində Azərbaycan aşıq mühitlərinin həm sayı, həm də özünəməxsusluğu ağır itkilərə məruz qaldı. Beləliklə, məşəqqətli zaman xəttində on altı aşıq mühitindən bəziləri – İrəvan, Dərələyəz, Çıldır söndürülmüş, Dərbənd, Qarabağ, Naxçıvan isə çətinliklərlə üzləşmişdilər.

Azərbaycan aşıq sənətinin tarixindən mühüm yeri olan, özünəməxsusluğu ilə folklorumuza qiymətli nümunələr bəxş edən İrəvan, Dərələyəz, Urmiya aşıq mühitləri ilə yaxın sənət əlaqəsi yaradan tarixi aşıq mühitlərindən biri də Naxçıvan aşıq mühitidir. İfaçılıq qaydaları baxımından qonşu mühitlərdən o qədər də fərqli olmayan Naxçıvan aşıq mühiti keçən əsrlər ərzində söz və saz yaradıcılığı sahəsində özünəməxsusluq qazanaraq aşıq sənətinə qiymətli nümunələr bəxş etmişdir. "İfaçılıq prinsipləri baxımından qonşu mühitlərdən o qədər də seçilməyən Naxçıvan mühiti ötən yüzilliklər ərzində söz yaradıcılığı və saz bəstəçiliyi sahəsində özünəməxsus uğurlar qazanaraq aşıq sənətinə qiymətli örnəklər bəxş etmişdir.

Bu qədim diyarda yaşayıb yaradan bir çox görkəmli aşıqların yaradıcılığı toplanıb tədqiq edilsə də sistemli və tam şəkildə araşdırılmamışdır. Ona görə də Naxçıvan aşıq mühitinin öyrənilməsi maraqlı faktların da ortaya çıxması ilə səciyyələnir. Naxçıvan aşıq mühitini təhlil etdikdə, bu ədəbi mühitin nə qədər zəngin olduğunun şahidi oluruq. Görkəmli aşıqların yaradıcılığında dərin bir həyat fəlsəfəsi, sağlam bir təfəkkür özünü göstərməkdədir. Çünki aşıqlar yaşadıqları həyatın demək olar ki, bütün sirlərini və gözəlliklərini şeirlərində əks etdirirlər.

"Naxçıvan folkloru, söz yox ki, Azərbaycan, ümumtürk, eləcə də dünya folklorunun tərkib hissəsidir" [8, s. 65]. Naxçıvan aşıqları təkcə öz doğulub-böyüdükləri torpaqda deyil, həmçinin həm qonşu ölkələrdə, həm də Azərbaycanın digər dilbər guşələrində olmuş, orada görkəmli aşıqlarla əlaqə yaratmış, deyişmişlər. "Naxçıvan aşıq ədəbi mühiti tarixən Dərələyəz, Göyçə, Qarabağ, Təbriz, İrəvan, Çıldır aşıq mühitləri ilə təmasda olmuş, öz sənət əlaqələrində

Dərələyəz aşıq mühitindən daha çox faydalanmışdır" [5, s. 13]. Naxçıvan aşıqları qeyd olunan aşıq mühitləri ilə əlaqə yaratmaqla Naxçıvan aşıq mühitinin xüsusiyyətlərini, ona xas olan özəlliklərini yaymışdırlar. Nəinki adları çəkilən aşıq mühitləri ilə əlaqə yaratmış, hətta, Naxçıvan ədəbi mühitini tanıtmışlar. Belə desək "muğamımızla sazımız Avropanı və bütün dünyanı qoşa gəzərək xalqımızın qədim və zəngin misiqi xəzinəsi ilə dünya ictimaiyyətini heyrətləndirir" [5, s. 3].

Qeyd edək ki, "XIX əsrin ilk onilliklərindən başlayaraq XX əsr də daxil olmaqla Naxçıvan aşıq mühitində ədəbi yaradıcılıq əlaqələri qüvvətli olmuşdur" [6, s. 305]. Bunun nəticəsi olaraq da Naxçıvan aşıqları bir çox aşıq mühitində tanınmış və şöhrət qazanmışlar. Həmçinin "o dövrün daha istedadlı aşıqları harada yaşamalarından asılı olmayaraq Azərbaycan dilinin yayıldığı bütün ərazilərdə məşhurlaşırdılar" [1, s. 19].

"İrəvan, Dərələyəz və Urmiya aşıq mühitləri ilə yaxından sənət əlaqələri saxlayan Naxçıvan aşıq mühiti də Azərbaycan aşıq sənətinin tarixi mənzərəsində müəyyən yer almışdır. Naxçıvan mahalında tarixi şəhər həyatının mövcudluğu (Ordubad və Naxçıvan şəhərləri) burada orta çağ aşıqlığının fəaliyyət göstərməsinə imkan açmışdır" [6, s. 335]. Çünki Ordubad və Naxçıvan şəhərləri öz qədimliyi, zənginliyi ilə seçildiyi kimi aşıq mühiti ilə də seçilir.

Naxçıvanın əsasən Şərur, Şahbuz, Sədərək və Ordubad rayonlarının kəndlərində çalıb-çağıran, istedadı ilə şöhrət qazanan aşıqların ifaçılıq məharəti, həmçinin xüsusi bacarıqlarının sorağı mahaldan kənara da yayılmışdır. Ona görə də "onları İran (xüsusən Urmiya, Təbriz ətrafına) və Türkiyə (İqdır, Ərzurum) toylarına dəvət etmişlər. XX yüzilliyin əvvəllərinə qədər Naxçıvan aşıqları Naxçıvanın özündən daha çox İran və Türkiyə ərazisinin toy-düyünlərini aparmışlar. Onlar getdikləri yerlərə öz mühitlərinin sənət havasını apardıqları kimi, həmin mühitlərin çalğı və oxu tərzindəki incə çalarları da mənimsəyərək Naxçıvana gətirmişlər. Səksəninci illərdə fəaliyyət göstərməkdə davam edən Şərur aşıqlarının boğaz qaynatmalarında Urmiya və Anadolu aşıqlarına məxsus oxu üslubu hələ də sezilirdi" [6, s. 336].

Qüdrətli saz-söz sənətkarı Aşıq Süleymanın bir çox aşıq mühitləri ilə əlaqəsi olmuş, həmin yerlərə səfərlər etmişdir. O, sənətkarlıq bacarığı və qüdrəti ilə təkcə Naxçıvanda deyil, doğma vətəndən kənarda da şan-şöhrət qazanmış, istedadı ilə tanınmışdır. "Aşıq Süleyman müasiri olan Abdalgülablı Valehin sənətkarlıq məharətinin sorağını eşitdikdən sonra Qarabağa yola düşmüş və orada onu sənət imtahanına çəkmişdir. Hər iki ustad bu ağır sınaqlı qarşılaşmadan üzüağ çıxmış və ömürlük dost olmuşlar. Aşıq Süleymanla Abdalgülablı Valehin bir-birini sənət sınağına çəkməsi ağır yüklü bir saz-söz hekayətinə çevrilərək uzun zaman aşıqların repertuarında yaşamışdır" [6, s. 337].

Aşıq Süleymanla Aşıq Valehin deyişməsindən bir parçaya nəzər salaq:

Aşıq Süleyman:

Mən gəlmişəm Qarabağdan bac alam,
Köpüklü çay kimi coşaram indi.
Aslan meydanında quzu mələyir,
Bu işə mat qalıb çaşaram indi.

Aşıq Valeh:

Çaylar udan dərya kimi dolmuşam,
Təlatüm eyləyib daşaram indi.
Tumarlayıb əl ataram guşinə,
Tutub kəl yerinə qoşaram indi [3, s. 18].

XX əsr Naxçıvanın istedadlı aşığı Sərraf Qasımın da bir sıra aşıq mühiti ilə əlaqəsi olmuş, bir neçə şəhər və rayonlarda görkəmli aşıqlarla deyişmişdir. Aşıq Sərraf Göyçə mahalına getmiş, orada Aşıq Haqverdi ilə görüşmüşdür. Həmin görüşmədən:

Aşıq Haqverdi:

Qədəm qoyub ulu bu mahala sən,
Xoş gəldin Göyçəyə, ay Sərraf Qasım.
Ürəyində Ələsgərin sevdası,
Beş gəldin Göyçəyə, ay Sərraf Qasım.
Xoş gəldin Göyçəyə, ay Sərraf Qasım

Sərraf Qasım:

Qədəm qoyub ulu bu mahala mən
Xoş gəldim Göyçəyə Ələsgərgilə.
Ürəyimdə Ələsgərin sevdası,
Beş gəldim Göyçəyə Ələsgərgilə.
Qədəm qoyub ulu bu mahala mən
Xoş gəldim Göyçəyə Ələsgərgilə [3, s. 326].

Bundan başqa professor Ə.Qədimovun araşdırmalarında Sərraf Qasımın "1983-cü ilin 21 dekabrında Tovuz şəhərində Aşıq İmran"la görüşməsi və qonağı olması da qeyd olunub. Həmçinin həmin görüşdə Sərraf Qasımın Aşıq İmrana xitab etdiyi şeirdə öz əksini tapıb.

Gətir əsrlərlə şirin barını,
Yesin, içsin, aşıq, ellər varını.
Dədəmizin qopuz yadigarını,
Çalaq telli sazımızı özümüz.
Doğma bilək özümüzü özümüz [3, s. 323].

İstedadı və bacarığı ilə Azərbaycan qadın aşıqları içərisində özünə rəğbət qazanan, şöhrət tapan, xalq tərəfindən sevilən Aşıq Nabat "bu sənət mühitində püxtələşib kamilləşdikdən sonra öz məlahətli səsi və gözəl ifaçılığı ilə dörd bir yana səs salmışdır" [6, s. 337]. Aşıq Nabat bir çox aşıq mühiti ilə əlaqə yaratmış, görkəmli aşıqlarla görüşmüş və şeirlər yazmışdır. Əsasən aşığın bu görüşləri özünün yazdığı şeirlərdə əks olunub. Həmin şeirlərdən bir neçəsinə nəzər salaq:

Təzəcə gəlmisən Dərələyəzdən,
Aşıq Mehdi, yaylaqlardan de, danış.
Dağlarda lalədən, düzdə nərgizdən,
Bənövşəli yaylaqlardan de, danış.

Dolandınmı "Qanlıgöl"ün başına,
Baş əydinmi torpağına, daşına.
Heç çıxdınmı, uca dağlar başına,
Diş göynədən bulaqlardan de, danış [7, s. 51].

Bundan əlavə aşığın "Gəlmişəm" şeirindən məlum olur ki, Göyçədə olub. Və oranın tanınmış aşıqları ilə görüşüb:

Nədən bu Göyçəyə düşdü güzarım,
Saz, söz üçün bu diyara gəlmişəm.
Almışam dərsimi Aşıq Musadan,
Saz, söz üçün bu diyara gəlmişəm [7, s. 50].

İstedadlı aşığın bir çox aşıq mühitləri ilə tanışlığı, əlaqəsi, aşıqlar ilə görüşməsi şeirlərində geniş şəkildə şərh olunur. Başqa bir şeirindən oxuyuruq:

Aşıqlar diyarı, bizim Tovuzda,
Əsədlə, Mirzəylə oxumuşam mən.
Səhnəyə çıxmışam Ərəbzəngitək,
Meydanda qımışıb, qorxmamışam mən [7, s. 52].

Bu nümunədən aydın görünür ki, Aşıq Nabat cəsarətli, qorxmaz, istedadlı bir xanım aşıq olub. Çünki onun şeirinin axırıncı misrasında cəsarətlə "qorxmamışam mən" deməsi aşığın cəsarətini sübut etmiş olur.

Bundan başqa Aşıq Nabatın aşıq Şəmkirlə görüşməsi "Ağlatdı məni" şeirində əks olunub:

Mən aşıq Şəmşirə qonaq getmişdim,
Vurğundan danışdı, ağlatdı məni.
İstədim doyunca bir qulaq asım,
Vurğundan danışdı, ağlatdı məni [7, s. 54].

"İfaçılıq prinsipləri baxımından qonşu mühitlərdən o qədər də seçilməyən Naxçıvan mühiti ötən yüzilliklər ərzində söz yaradıcılığı və saz bəstəçiliyi sahəsində özünəməxsus uğurlar qazanaraq aşıq sənətinin repertuar zənginliyinə qiymətli örnəklər əlavə etmişdir. "Naxçıvanı", "Naxçıvangülü", "Köhnə Naxçıvan", "Ağır şərili", "Yüngül şərili" və s. bu kimi orijinal saz havaları, "Ordubadlı Kərim" (bəzi variantlarda "Kərim və Süsən"), "Ziyad-Şövkət" dastanları, habelə regionun tarixi güzəranını əks etdirən çoxsaylı aşıq rəvayətləri və aşıq şeiri nümunələri Naxçıvanda saz-söz ovqatının uzun bir zaman ərzində sənət mühiti şəklində yaşadığını göstərir" [6, s. 337]. Deyilənlərlə yanaşı Azərbaycanın digər bölgələrindən olan ustad aşıqlar Naxçıvana səfərə gəlmiş, Naxçıvan elinin istedadlı aşıqları ilə əlaqələr qurmuşlar. Məsələn, "XIX əsr Naxçıvan – Göyçə aşıq yaradıcılığı əlaqələrində "Aşıq Ələsgərin Naxçıvan səfəri" də xüsusi aktuallıq kəsb edir" [6, s. 305]. Ustad aşıq burada Şərur elində olur, bir neçə aşıqla deyişir.

Bundan başqa Naxçıvan aşıqlarının Şəmkirdə yaşayan aşıqlarla əlaqəsi də xüsusi vurğulanmalıdır. Görkəmli Aşıq Hüseynin Naxçıvan səfəri bu əlaqələrin varlığını bir daha sübut edir. Aşıq Hüseyn Naxçıvanda Reyhan xanımla saz-söz məclisində üz-üzə gəlir. Onların deyişməsində bir hissə aşağıdakı kimidir:

Heyran xanım:

Gəl sənə söylüyüm, a Aşıx Hüseyin,
O nədi ki, cəmi bir il yaşar hey?
Nə kağızdı öz-özünə yazılar,
O nədi ki, günü-günnən coşar hey?

Aşıq Hüseyn:

Al cavabın deyim, a İreyhan xanım,
Səməndərdi ancax bir il yaşar hey.
Sinə dəfdər öz-özünə yazılar,
O eşqidi günü-günnən coşar hey [4, s. 33].

Yazılanlardan da göründüyü kimi, Naxçıvan aşıq mühitinin digər aşıq mühitləri ilə əlaqəsi geniş olmuşdur. Həmçinin digər aşıq mühitlərinin nümayəndələri Naxçıvana gəlmiş, aşıq mühiti ilə tanış olmuş, bir çox görkəmli aşıqlarla deyişmələrdə üz-üzə gəlmişlər. Aşıqlar

bu əlaqələr vasitəsilə digər qonşu ölkələrə də Naxçıvan aşıq mühitini tanıtmışlar. Nəticədə bölgənin saz-söz ifaçılığı, həmçinin aşıq mühitinin görkəmli sənətkarları zəngin folklor arealının özünəməxsus simaları kimi xalq yaddaşında öz yaşarlılığını təmin etmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan aşıqları. Bakı: Golden book, 2009, 125 s.
2. İmanov M. Sənət qayğıları. Bakı: Elm və təhsil, 2015, 192 s.
3. Qədimov Ə. XVII-XX əsrlər və çağdaş Naxçıvan aşıqları. I c., Naxçıvan: Əcəmi, 2017, 408 s.
4. Qədimov Ə. XVII-XX əsrlər və çağdaş Naxçıvan aşıqları. II c., Naxçıvan: Əcəmi, 2017, 464 s.
5. Nəbioğlu M. Ozan-aşıq dünyası. Bakı: Nurlan, 2010, 144 s.
6. Ozan aşıq yaradıcılığının inkişaf yolları / Tərtib edənlər: Allahmanlı M., Xəlilov R. Bakı: Çaşıoğlu, 2013, 788 s.
7. Pirsultanlı S. Aşıq Nabat əldə xına, gözdə yaş. Bakı, 2012, 123 s.
8. Səfərov Y. Naxçıvan aşıq ədəbi mühiti. Naxçıvan: Əcəmi, 2009, 134 s.

Naxçıvan Müəllimlər İnstitutu
E-mail:qebulovaterane@.gmail.com

Tarane Gabulova

THE RELATIONSHIP OF NAKHCHIVAN ASUG CREATIVE ACTIVITIES WITHOTHER ASHUG ENVIRONMENTS

Alongside being ancient Turkish land, Nakhchivan was considered the center of the East's culture and art. In history, the high-level development of our culture changed the broad activity of Nakhchivan ashug art. In the past literary ashug medium of Nakhchivan reached to it is highest creativity level. Within history, ashug environment spread not only in the territory of Nakhchivan but also outside of limits. Nakhchivan ashug presented inland they grew up and in neighboring countries and other beautiful corners of Azerbaijan, got into contact with outstanding ashugs there, and organized competition between ashugs. In the paper, Nakhchivan's literary ashug environment and the relationship of skilled men lived and created in this medium with other ashug mediums in Azerbaijan territory. Competitions between ashugs, which are considered ancient folklore samples, were noted in the article as well.

Keywords: *environment, ashug, saz, word, poem, goshma, competition between ashugs.*

Таранэ Габулова

СВЯЗЬ ТВОРЧЕСТВА АШУГОВ НАХЧЫВАНА С ДРУГИМИ АШУГСКИМИ СРЕДАМИ

Нахчыван – это не только древнетюркская земля, но и культурный и художественный центр Востока. Высокое развитие нашей культуры на протяжении всей истории

позволило процветание ашугского искусства в Нахчыване. В свое время ашугская литературная среда в Нахчыване пережила наивысший творческий пик. Со временем ашугская среда распространилась не только на территории Нахчывана, но и за пределы Нахчывана. Ашуги Нахчывана посетили не только землю, на которой они выросли. Они посещали также соседние страны, и другие очаровательные угольки Азербайджана. Здесь они установили контакты с выдающимися ашугами. В статье рассматривается ашугская среда Нахчывана и связи мастеров этой среды с другими ашугскими средами на територии Азербайджана. В статье также отражены ашугские состязания, которые считаются древними образцами фольклора.

Ключевые слова: *среда, ашуг, саз, слово, стихотворение, кошма, состязание.*

(Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 23.02.2021
Son variant 09.03.2021

UOT 398:801.6; 398:82.0; 801.8; 81:0/9

ÇİNARƏ RZAYEVA

XALÇAÇILIQ SƏNƏTİNİN NAXÇIVAN FOLKLOR MƏTNLƏRİNDƏ İFADƏSİ

Məlumdur ki, qədim zamanlardan xalqımız xalçaçılıqla məşğul olub. Bu yaradıcılıq sahəsi folklorumuzda da geniş şəkildə öz əksini tapıb. Ona görə də folklor mətnlərində xalçaçılıq leksikasını araşdırmağa, onun təhlilini aparmağa ehtiyac vardır. Məqalədə Naxçıvan folklor mətnlərində işlənən xalçaçılığa aid terminlərin bir qismi seçilmiş, araşdırılmış və təhlil edilmişdir. Tədqiqata cəlb etdiyimiz həmin sözlərə gəbə, palaz, hana, cəhrə və s. nümunə göstərə bilərik.

Araşdırma zamanı məlum olmuşdur ki, xalçaçılığa aid sözlər folklorun demək olar ki, bütün janrlarında işlənmişdir. Bu da folklorumuzun qədimliyindən, zənginliyindən, xalqımızın əməksevərliyindən xəbər verir.

Həmçinin məqalədə tədqiqata cəlb olunan leksik vahidlərin hər birinin qarşısında mənası və izahı verilmişdir. Araşdırmalar göstərir ki, xalçaçılığa aid əşyaların çoxu bu gün də öz işləkliyini qoruyur. Bir qisim isə arxaikləşib. Həmin əşya və bu sahəyə aid sözlər öz işləkliyini itirmiş, ya da yeni texnologiya ilə əvəz olunmuşdur. Ona görə də onun adı dilimizin aktiv fondundan çıxmış, passiv fonda keçmişdir.

Tədqiqat zamanı bu kimi məqamların şərhi yeni, maraqlı elmi nəticələrin əldə olunmasına gətirib çıxarmışdır.

Açar sözlər: *Naxçıvan, folklor, leksika, xalçaçılıq.*

Azərbaycan xalçaları özünün məxsusi ornamentləri ilə dünya mədəniyyəti içərisində xüsusi yeri və dəyəri olan sənət nümunələrindən biridir. İnsanların məişət və mədəniyyət həyatında xalçaların rolu böyükdür. Dəyərli sənət əsəri və dəyərli hədiyyə olan, müalicə vasitəsi sayılan xalçalar həmçinin evimizi bəzəyən qiymətli əşyadır.

"Xalçaçılıq keçmişimizlə bu günümüzü, bu günümüzlə gələcəyimizi birləşdirir. Xalçaçılıq haqqında danışmaq elə özümüz, milli-mənəvi dəyərlərimiz, əxlaqımız, düşüncə tərzimiz haqqında danışmaq deməkdir" [6, s. 50]. Biz də akademik Nizami Cəfərovun bu dediklərindən yola çıxaraq, milli-mənəvi dəyərlərimizə, keçmişimizə, zəngin folklorumuzda özünəməxsus şəkildə təsvir olunan Azərbaycan, Naxçıvan xalçalarının yeri və dəyərinə nəzər salmaq istəyirik.

Məlumdur ki, xalqımız keçmişdən bugünə kimi bu sənət növü ilə məşğul olmuş və nadir sənət sahələrimizdən birini də dünyaya tanıtmışdır. Keçmiş tarixi olan xalçaçılıq sənəti bu gün daha da inkişaf etdirilir. Bununla bağlı dövlət tərəfindən xüsusi proqramlar həyata keçirilir, kurslar, peşə məktəbləri açılır, həvəsi və marağı olan hər kəs buraya cəlb edilir. Bu, nənə-babalarımızın sevərək yaşatdıqları sənətin bundan sonra da yaşayacağına və öz gözəlliyi ilə dünyada daha geniş arealda yayılmasına zəmin yaradır. Göz nuru və əl əməyi ilə ərsəyə gətirilən xalçaların müxtəlif adları var. Həmçinin xalçaçılıq sənətində xeyli sayda terminlər özünü göstərir. Keçmiş tarixə malik olan xalçaçılıq folklor mətnlərində də kifayət qədər əks olunmuşdur. Əsasən də "Sehrli xalça" termini folklor mətnlərinin özəyi və özəli sayılır. Bununla bağlı nağıllar folklor mətnlərini daha da zənginləşdirmiş və uşaqlar üçün daha maraqlı və oxunaqlı olmasına gətirib çıxarmışdır.

Folklor mətnlərini araşdırdığımızda demək olar ki, bütün janrlarda xalçaçılıqla bağlı terminlərə rast gəlirik. Azərbaycan folklorunun qədim və maraqlı janrı olan nağıllar bu baxımdan xüsusilə diqqəti cəlb edir. Ta qədim zamanlardan bu günə kimi nağıllarda xeyirlə şər, işıqla qaranlıq, həyatla ölüm, haqla nahaq, doğru ilə yalan mübarizə aparmışdır. Sonunda isə

həmişə xeyir şərə, haqq nahaqqa, işıq qaranlığa, doğru yalana qalib gəlmişdir. Və bu deyilənlər sehrli nağıllarda da özünü göstərir. Bələ ki, nağıllarda sehrli qüvvə rolunda qarşımıza çıxan uçan xalçalar nağıl qəhrəmanlarını rastlaşdığı pisliklərdən xilas edir, onları işıqlı dünyaya aparır. Uçan xalça hamımızın uşaqlıq illərindən yaddaşlarımıza həkk olunmuşdur.

Azərbaycan nağıllarında xalçaçılığın gəlir mənbəyi olmasına, xalçaların üzərində kiməsə hər hansı bir gizli məlumatın verilməsi, mesajın ötürülməsinə də rast gəlirik. Bu deyilən fikirlərlə yanaşı folklor mətnlərində xalçaçılıq terminləri də geniş şəkildə işlənmişdir ki, gəbə, hana, palaz, cəhrə və s. kimi bu sənət sahəsinə aid sözlər daha çox qarşımıza çıxır. İndi həmin sözləri araşdırmaya cəlb edək.

Gəbə – böyük xalça kimi bilinən bu leksik vahidin Naxçıvan folklor mətnlərində işlənmə arealı genişdir. "Sənəm Cadu" nağılında oxuyuruq:

"Ortancıl qız da deyir ki, qızdar, nolaydı məni şah oğlu şah Abbasın vəziri Allahverdi xan alaydı, ona bir oğul doğaydım, bir də gəbə toxuyaydım. Gəbənin bir tərəfində şah Abbasın qoşunu oturaydı, bir tərəfi açıq qalaydı" [9, s. 125].

Gəbə leksik vahidinə Aşıq İsmayılın rəvayətlərində də rast gəlirik:

"Bədircahanı yola gətirmək üçün dua yazdırıllar, İsmayılı isə ziyarət üçün Xorasana aparıllar. Lakin heç nə bəyə və gəlinə köməh eləmir. Zeynəb arvad iki inəyini və bir gəbəsini aparıp Molla Əhmədə verir ki, bəlkə o, cavannara kömək edə. Ancaq yenə də bir çarə hasil olmur" [8, s. 451].

Bildiyimiz kimi, el arasında xalça, gəbə də nəzir kimi deyilir. Niyyəti qəbul olanda da nəzir elədiyi xalçanı, gəbəni və s. aparıb həmin nəzir elədikləri yerə, məkana və yaxud adama verirlər. Folklor materiallarında buna aid nümunə də qarşımıza çıxır.

Aşağıda nümunə kimi göstərdiyimiz bir rəvayətdə daha maraqlı mətn diqqətimizi çəkir. Burada Zeynəb xanım gəbəni, inəyi aparıb mollaya verir ki, canavara kömək etsin. Ancaq molla kömək edə bilmir. Zeynəb xanım gedib təzədən verdiklərini geri alır. Həmin hissədə oxuyuruq:

"Zeynəb arvad ağsaqqalların məsləhəti ilə gedib Molla Əhmədə verdiyi bir gəbəsini və iki danasını alıb gətirir" [8, s. 453].

Göstərilən nümunədən belə nəticəyə gəlinir ki, nəzir edəndə etdiyin niyyətin qəbul olmasını gözləməli, sonra aparıb nəzirini verməlisən. Öncədən nəziri verməyin sonu Zeynəb xanımın yaşadığı kimi olur. Bu yerdə "Tələsən təndirə düşər" atalar sözü xatırlanır.

Palaz – "yundan və ya pambıqdan toxunma enli, uzun, qalın, xovsuz xalça növü"dür [5, s. 567]. Keçmişdə xalqımız bu sənəti çox sevərək məşğul olduğu üçün, demək olar ki, bütün növlərini də folklor materiallarına yansıtmışdır. Palaz sözünə folklorun bir çox janrında rast gəlirik. Məsələn, atalar sözləri arasında çoxumuzun işlətdiyi belə bir nümunə var: "Palaza bürün, elinən sürün".

Palaz sözünün nağıllarda işlənmə tezliyi daha yüksəkdir. "Qızıl təsbeh" nağılında oxuyuruq:

"Şahnan vəzir mat-mat bir-birinin üzünə baxdılar. Bu nə olan işdi belə? Axırda qapını döyüb içəri girməyə rüsxət istədilər.

Arvad bunları tanıyıb, "xoş gəldin" elədi. Əlinə keçən həsir-palazdan yerə salıb hər ikisini rahatladı" [8, s. 235].

"Beçə dərviş" nağılından aldığımız nümunəyə də nəzər salaq:

"Qız oyanıb oğlanı bu halda görəndə az qalır ki, bağrı çatlasın. Atasının qorxusundan

bilmir ki, nə etsin. Tez kənizləri çağırıb Beçə dərvişi bir palaza bürüyüb öz atıynan şəhərin bir kənarına tulladılar" [10, s. 270].

Uşaq folkloruna nəzər salanda görürük ki, "Palazagirmə" adlı bir oyun mövcuddur. Həm oyunun adında palaz sözü işlənmiş, həm də oyunun mətnində. Həmin oyunun keçirilmə qaydasının izah edildiyi mətnə baxaq:

"3-4 nəfər arasında oynanılır. Palazı örtürsən birinin üstünə, o biri gəlib vırır. Vıranın adını düz tapırdınsa, onu yatırdırdın. Belə-belə, tapa bilməsən, yenə sən oyunda qalırdın" [11, s. 381].

Uşaq oyunlarında bu qədim sənət növünün adlarının olması müsbət qiymətləndirilməlidir. Çünki uşaqlarda körpəlikdən bu sənət növü ilə bağlı müəyyən bazanın yaranmasına gətirib çıxardır.

Hana – bu sözün mənası lüğətdə belə izah olunur: "Əllə xalça, palaz və sairə toxumaq üçün yerdə qurulan dəzgah; xana" [4, s. 329]. Hana sözü də folklor mətnlərində çox sayda işlənmişdir. Məsələn, aşıq rəvayətlərindən birində oxuyuruq:

"Hanalar az qalırdı kəsilsin, farmaş, xurcun, bəzən də duz torbası toxuyurdular. Kilim, gəbə, xalı, kimə nə lazımdı onu toxuyurdu. Xurcuna köç dövrü lazım olan yeməyi yığıb salırdılar atın tərkinə, farmaşa ev içini qablıyırdılar, yüklüyürdülər dəvələrə. Kilimi, xalını da ki, salırdılar evlərə, dağda alaçığa, çadıra" [8, s. 465].

Bu nümunədə xalçaçılıqla bağlı bir çox leksik vahidə rast gəlirik. "Hana", "kilim", "gəbə", "xalı" və s.

Yuxuyozmalarda da **hana** sözünə rast gəlirik: Hana görmək yoldu, səfərə çıxmaqdı [10, s. 133].

Bu leksik vahidin folklorumuzda məcazi mənada da işlənməsinə rast gəlirik. Yağışdan sonra yaranan göy qurşağına "Fatma nənənin hanası" el arasında tez-tez işlədilən xalq ifadəsidir.

"Yaz yağışından sonra Fatma nənənin hanasının altından oğlan keçsə qız, qız keçsə oğlan olacaq, deyərlər" [8, s. 46].

Xalçaçılıq sahəsində işlənən leksik vahidlərdən biri də "**əriş**" sözüdür. Əriş sözünün ifadə etdiyi məna "xalçada və başqa toxunma mallarda uzununa müvazi gedən əsas iplər. Xananın ərşi – toxunmalar üçün işlənən saplar, başlıca olaraq, iki qrupa ayrılır: 1) əriş sapları; 2) arğac sapları. Bunlardan birincisi toxunmaların boyu, ikincisi eni üçündür" [4, s. 126]. Bu sözə inam və inanclarda rast gəlirik.

"Hana asanda ərişi oğurlamax olmaz. O dünyada onun haqq-hesabı sorulacax. Hər şey halallıxla olmalıdır. Yoxsa hananı uzadanda, ev yiyəsi də günaha batar" [9, s. 11].

Bayatılarda da bu söz rastımıza çıxır:

İlmənin sanı yoxdu,
Ərişin sonu yoxdu.
Məst olarsan ətrindən,
Çiçəkdi, canı yoxdu [9, s. 300].

Burada da ərşin lüğətdə işlənən mənasında işləndiyini görürük. Yəni ərşin uzun ip olması bayatıda açıq şəkildə göstərilib.

Əriş sözü dastanlarımızdan da yan keçməmiş, bir neçəsində işlənmişdir. "Aşıq Qurbani" dastanından oxuyuruq:

Ərişdən kəməri vurdum belimə,
Ərənlərdən su bağladım gölümə.

O mərfətdən bir də düşsə əlimə,
Qətrə vurub mən ümmana yetişdim [9, s. 439].

Bu nümunədə ərişdən hazırlanan xalça deyil, kəmərdi. Göründüyü kimi, ərişdən təkcə xalçanın toxunmasında deyil, həmçinin digər əşyaların hazırlanmasında da istifadə olunur. Belə terminlərin folklor mətnlərində çox işlənməsi xalqımızın qədim sənət növünə verdiyi dəyərin bir nümunəsidir.

Cəhrə - "yun əyirmək üçün əl ilə işlədilən ən sadə alət" [3, s. 400]. Keçmişdə xalça, paltar toxuyan nənələrimiz bu alətdən istifadə edərək yun əyirmiş və bu leksik vahidi folklor mətnlərinə də gətirilmişdir.

"Oğuz oğlu və qurd" əfsanəsində oxuyuruq: "Ey Oğuz oğlu, qabaqdakı dörd yolayrıcında səni bir sürü qoyun, bir qucax sünbül, bir cəhrə, bir də əl dəyirmanı gözlüyür. Onnarı alıb zağana apararsan. Qoyunnardan bir neçəsini kəsib ətini yiyərsən, yununnan cəhrədə ip əyirip, özünə isti paltar toxuyarsan, dərisini əyninə geyərsən, sünbülün ununnan çörəh bişirərsən, yaza çıxarsan" [8, s. 57].

"Fərasətli keçəl" nağılında da cəhrə adı keçir. Həmin nağıldan aldığımız parça:

"Keçəl qız paltarı geyib cəhrəni qabağına qoydu, başladı ip əyirməyə" [8, s. 245].

Gülməcələrdə də cəhrə öz əşyavi funksiyaları ilə mətndə yer alır. "Ölməsəm qalsam"da oxuyuruq:

"O vaxtı da yunu darıyırdılar, cəhrəynən əyirirdilər, şalvar, çuxa, corab toxuyurdular. Bir gün kişi der ki, ay arvad, ma bir cüt corab toxu, toy olur, xeyir-şər olur, ayaqyalın getmiyim" [10, s. 392].

Cəhrə sözü haxıştalarda maraqlı formada qarşımıza çıxır:

Cəhrəciyim palıddı, haxışta,
Əyirməmişəm qalıbdı, haxışta,
Kişi bir pambıx alıbdı, haxışta,
O da bucaxlarda qalıbdı, haxışta [10, s. 591].

Bu nümunədə əzizləmə, sevimli mənasında işlənən "ciyim" hissəciyi cəhrə sözünə əlavə edilərək işlədilmiş, cəhrəni sanki çox sevdiyi predmet kimi qələmə verərək haxıştaya xüsusi məna çaları qatmışdır.

Cəhrəciyim ifadəsinə bayatılarda da rast gəlirik:

Cəhrəciyim palıddı,
Atam Təbrizdən alıbdı.
Ərim xeylək yun alıbdı.
Əyirməmişəm qalıbdı [9, s. 302].

Bayatılarda cəhrə kimi də bu söz qarşımıza çıxır:

A həndi-həndi, cəhrə,
Ayağın ləndi cəhrə.
Vuraydım sındıraydım
Gəzəydim kəndi, cəhrə [9, s. 273].

Nümunələrdə cəhrə leksik vahidinin çox işlənməsi xalqın xalçaçılıq sahəsinə olan marağının və məşğuliyyətin çoxluğunu bir daha sübut etmiş olur. Sonuncu nümunədə diqqəti çəkən cəhrə leksik vahidinə xitab kimi müraciət olunmasıdır. Bu leksik vahidə xitab kimi müraciət olunması sənətkarın öz sənət əşyası ilə söhbətini və həmin əşyanın ağırlığının, önəmini göstərir.

Apardığımız tədqiqatlar zamanı verdiyimiz şərhlərdən belə nəticəyə gəlinir ki, xalçaçılıqla bağlı olan sözlər folklor mətnlərində işlənmə tezliyi yüksək olan terminlərdəndir. Bu leksik vahidlərin folklor mətnlərində geniş şəkildə işlədilməsi sevindirici haldır. Çünki bu leksik vahidlər bu gün köhnəlmiş sözlər sırasına daxil olsalar da folklor materialları ilə nəsildən nəslə ötürülərək hər kəsin məlumatlanmasında böyük rol oynayır. Eyni zamanda xalq yaradıcılığının, xalq sənətkarlığının ən yayğın sahələrindən biri olan xalçaçılığın istər region, istərsə də region əhalisinin, qədim məşğuliyyət sahələrindən biri olması faktını təsdiq edir. Beləliklə, xalq yaddaşında yaşayan bu leksik vahidlər vasitəsi ilə xalçaçılıq sənətimizi unutmamaqla birlikdə, yaşadaraq gələcək nəsillərə ərməğan etmiş oluruq.

ƏDƏBİYYAT

1. Atalar sözü / Tərtib edəni C.Məmmədov. Bakı: Öndər, 2004, 264 s.
2. Azərbaycan bayatıları. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2004, 304 s.
3. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, I c., Bakı: Çıraq, 2006, 764 s.
4. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, II c., Bakı: Çıraq, 2006, 792 s.
5. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, III c., Bakı: Çıraq, 2006, 672
6. Azərbaycan xalçaları jurnalı, 2014, c. 4, № 10.
7. Naxçıvan bayatıları. Bakı: Nurlan, 2009, 356 s.
8. Naxçıvan folklor antologiyası: 3 cilddə, I c., Naxçıvan: Əcəmi, 2010, 496 s.
9. Naxçıvan folklor antologiyası: 3 cilddə, II c., Naxçıvan: Əcəmi, 2011, 513 s.
10. Naxçıvan folklor antologiyası: 3 cilddə. III c., Naxçıvan: Əcəmi, 2012, 560 s.
11. Naxçıvan uşaq folklorundan örnəklər. Bakı: AR Prezidenti yanında Elmin İnkişaf Fondu, 2017, 461 s.
12. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I c., Bakı: Çıraq, 2009, 640 s.
13. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II c., Bakı: Elm, 2006, 685 s.
14. Tapmacalar / Toplayanı və tərtib edəni N.Seyidov. Bakı: Şərq-Qərb, 2004, 208 s.
15. https://az.wikipedia.org/wiki/Xal%C3%A7a#sitat_qeyd-61

AMEA Naxçıvan Bölməsi
E-mail: cinarerzayeva@yahoo.com.tr

Chinara Rzayeva

CARPET WEAVING CRAFT IN NAKHCHIVAN FOLKLORE TEXTS

It is known that our people have been engaged in carpet weaving since ancient times. This field of creativity is widely reflected in our folklore. Therefore, there is a need to study and analyze the vocabulary of carpet weaving in folklore texts. The article selects, researches, and analyzes some of the terms related to carpet weaving used in Nakhchivan folklore texts. The words we are involved in the research include gaba, palaz, khana, jahra, and other terms.

The study found that farm names have been used in almost all genres of folklore. This shows the antiquity, richness, and hard work of our people.

The article also gives the meaning and explanation of each of the lexical units involved

in the study. Research shows that most of the items related to carpet weaving are still in use today. Some of them are archaic. The item and the words related to this field have lost their functionality or have been replaced by new technology. Therefore, his name came from the active fund of our language, passed to the passive fund.

The interpretation of such points during the research led to new, impressive scientific results.

Keywords: *Nakhchivan, folklore, vocabulary, carpet weaving.*

Чинара Рзаева

КОВРОТКАЧЕСКОЕ РЕМЕСЛО В НАХЧЫВАНСКИХ ФОЛЬКЛОРНЫХ ТЕКСТАХ

Известно, что наш народ издревле занимался ковроткачеством. Эта область творчества широко отражена в нашем фольклоре. Следовательно, возникает необходимость изучения и анализа лексики ковроткачества в фольклорных текстах. В статье выделены, исследованы и проанализированы некоторые термины, связанные с ковроткачеством, используемые в фольклорных текстах Нахчывана. Слова, которые мы задействуем в исследовании, включают габа, палаз, хана, джахра и так далее.

Исследование показало, что названия ковров используются почти во всех жанрах фольклора. Это свидетельствует о древности, богатстве и трудолюбии нашего народа.

В статье также приводится значение и объяснение каждой из лексических единиц, задействованных в исследовании. Исследования показывают, что большинство изделий, связанных с ковроткачеством, используются и сегодня. Некоторые из них архаичны. Элемент и слова, относящиеся к этому полю, утратили свою функциональность или были заменены новой технологией. Поэтому его имя произошло от активного фонда нашего языка, перешедшего в пассивный фонд.

Интерпретация таких точек в ходе исследования привела к новым интересным научным результатам.

Ключевые слова: *Нахчыван, фольклор, лексика, ковроткачество.*

(Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 15.02.2021
Son variant 10.03.2021

İNCƏSƏNƏT

UOT 792.03

ƏLƏKBƏR QASIMOV

NAXÇIVAN DÖVLƏT MUSİQİLİ DRAM TEATRINDA YENİ DÖVR TAMAŞALARI VƏ MUSİQİ (1990-2020)

Adından göründüyü kimi, məqalədə Naxçıvan Dövlət Musiqili Dram Teatrında 1990-cı ildən bugünümüzədək hazırlanmış tamaşalardan söhbət açılır.

Qeyd olunur ki, məhz bu dövr, yəni son 30 il ümumilikdə Azərbaycanımız, o cümlədən Naxçıvan Muxtar Respublikası üçün yeni bir dövrdür. Hər şeydən əvvəl bu illər respublikamızda dövlət müstəqilliyinin bərpa edilməsi, onun qorunub saxlanılması, münaqişələr, müharibələr, dirçəliş, inkişaf, tərəqqi və intibah dövrü olmuşdur.

Bütün sahələr kimi milli mədəniyyətimizdə, o cümlədən teatrlarımızda, həmçinin Naxçıvan Dövlət Musiqili Dram Teatrında da qlobal dəyişikliklər həyata keçirilmişdir. Zamanın tələbinə uyğun repertuar seçilərək əsasən tarixi və vətənpərvər ruhlu, eyni zamanda müasir hadisələri əks etdirən əsərlər tamaşaya qoyulmuşdur.

Məqalədə 1990-cı illərin, XXI əsrin ilk onilliklərinin repertuarına nəzər yetirilir, bu illərdə Naxçıvan səhnəsində hazırlanmış tamaşalar, onların yaradıcı heyətləri haqqında xronoloji qaydada ətraflı məlumat verilir. Tamaşalardan bir neçəsinin yeni üslub xüsusiyyətləri, rejissor, rəssam, bəstəkar işi və aktyor oyunu təhlil olunur.

Burada eyni zamanda həmin dövr ərzində Naxçıvan Teatrının həyatında baş vermiş əlamətdar hadisələr, xarici və daxili qastrol səfərləri də işıqlandırılır.

Açar sözlər: *Naxçıvan Dövlət Musiqili Dram Teatrı, tamaşa, musiqi, rejissor, rəssam, bəstəkar, rol, qastrol, Türkiyə, yubiley.*

Ötən əsrin 80-ci illərinin sonlarında respublikada olduğu kimi Naxçıvanda da yaranmış gərgin ictimai-siyasi vəziyyətə baxmayaraq Dövlət Musiqili Dram Teatrı 1989-cu ilin noyabrında "Polşa dramaturgiyası festivalı"na hazırlaşmağa başladı. Bu məqsədlə Kşiştof Xounskinin "Bir gecə əhvalatı" pyesi üzərində məşqlər başlandı. Quruluşçu rejissor Tofiq Seyidov (indi Azərbaycan Respublikası əməkdar artisti), quruluşçu rəssam Hüseynqulu Əliyev (indi xalq rəssamı), musiqi tərtibçisi Yusif Əsgərov idi. Baş rollarda Rza Xuduyev (Maren) və Zeynəb Həsənova (Xanım) iştirak edirdilər. Tamaşanın premyerası 1990-cı il yanvar ayının 21-nə nəzərdə tutulmuşdu. Lakin yanvarın 18-dən Naxçıvana erməni təcavüzünün başlanması ilə əlaqədar ağır döyüşlər getdiyindən ilk tamaşa təxirə salındı. 1991-ci ilin oktyabrında tamaşaya yenidən quruluş verildi, yaradıcı heyətdə nəzərə çarpacaq dəyişiklik edildi. Xanım rolunu Zeynəb Həsənovanın yerinə Yasəmən Ramazanova ifa edirdi. Həmin il dekabr ayının 12-də tamaşaya baxış keçirildi, lakin tamaşa oynanılmadı.

1990-cı ildə hazırlanmış digər iki tamaşadan biri musiqili komediya olmuşdur. Süleyman Ələsgərov və Şıxəli Qurbanovun "Özümüz bilərik" tamaşasının quruluşçu rejissoru T.Seyidov, rəssamı H.Əliyev idi. Əsas rollarda Zöhrab İmanquliyev, Yasəmən Ramazanova, İskəndər Abdullayev, Nəzakət Xudiyeva, İbrahim Səfiyev çıxış edirdilər. Tamaşanın premyerası aprelin 21-də oldu.

Rejissor Ə.Əsgərov Ü.Hacıbəyovun felyetonları əsasında "Ordan-burdan" adlı bir səhnələşdirmə ərsəyə gətirərək onu tamaşaya qoydu. Premyerası mayın 28-də olmuş bu musiqili tamaşanın rəssamı Ə.Axundov, musiqi tərtibçisi Sevda Əliyeva olmuşdur. Tamaşada müəllif -rejissor 1 aparıcı və 7 aktyor personajından istifadə etmişdi.

1991-ci ilin əvvəlindən Azərbaycanın hər yerində olduğu kimi muxtar respublikada da, o cümlədən Naxçıvan Dövlət Musiqili Dram Teatrında da "20 Yanvar" faciəsinin ilk ildönümünün qeyd olunmasına hazırlıq başlandı. Teatr bu münasibətlə yanvarın 18-də Rafiq Səməndərin "Şəhidlər" tamaşasını təqdim etdi. Quruluşçu rejissor Ə.Əsgərov, quruluşçu rəssam Ə.Axundov, musiqi tərtibçisi Sevda Əliyeva idi. Rollarda truppanın əksəriyyəti iştirak edirdi.

Həmin il teatr daha bir musiqili komediyaya müraciət etdi. Aprel ayından hazırlanan Fikrət Əmirov və Məmməd Səid Ordubadinin "Ürəkçalanlar" tamaşası mayın 19-da təhvil verildi. Quruluşçu rejissor Əsgər Əhmədoğlu, rəssam H.Əliyev, dirijor Yusif Əsgərov olan tamaşada əsas rolları İbrahim Bənəniyarlı, Roza Cəfərxanova, Əkbər Qardaşbəyov, Kamran Quliyev, Yasəmən Ramazanova, Zöhrab İmanquliyev ifa etmişlər.

1991-ci ilin son aylarında Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) tələbəsi, gənc rejissor Vaqif Əhmədovun quruluşunda Naxçıvan Teatrı C.Məmmədquluzadənin "Anamın kitabi" əsərinə yenidən müraciət edir. (İlk quruluş 1965-ci ildə B.Qələndərlinin rejissorluğu ilə olmuşdur). 1992-ci il yanvarın 3-də premyerası olan və böyük rəğbətlə qarşılanan "Anamın kitabı" gənc quruluşçu rejissorun ilk və son işi olmuşdur. Vaqifin ali təhsilli rejissor kimi doğma teatrına qayıtmaq arzusunun gerçəkləşməsinə Birinci Qarabağ Müharibəsi imkan vermədi. Təhsilini yarımçıq qoyaraq könüllü cəbhəyə yollanan bu qeyrətli el oğlu Ağdərə döyüşlərinin birində qəhrəmancasına şəhid oldu.

"1992-ci ilin mayından rejissor Ə.Əsgərov Əziz Nesinin "Taxtalıköydən məktublar" povesti əsasında "Ölən adam" adlı tamaşa hazırladı. Quruluşçu rəssam İlham Mirzəyev, musiqi tərtibçisi Fikrət Tarverdiyev olan bu tamaşada baş rolu Xəlil Hüseynov ifa edirdi. 5 musiqiçi rolunda isə teatrın musiqiçiləri çıxış etmişlər. İlk tamaşa iyun ayının 25-də baş tutmuşdur.

1992-ci ilin mayından rejissor Əsgər Əsgərov teatrı "Bolqarıstan Teatr Festivalı"na hazırlamağa başladı. Bu məqsədlə Eduard Olbinin (1928) "Zoopark əhvalatı" adlı pyesi üzərində işə başladı. Səhnə tərtibatı da rejissora məxsus olan bu tamaşada baş rollarda R.Xuduyev (Cerri) və Ə.İmanov (Ster) iştirak etdilər. İlk tamaşa iyulun 1-də göstərilsə də naməlum səbəbdən bu səfər baş tutmadı [3, s. 128].

Ötən əsrin 90-cı illərinin əvvəllərindəki ictimai-siyasi vəziyyət, Naxçıvana erməni quldurlarının təcavüzü hətta milli dramaturgiya əsasında tamaşa hazırlamaq imkanlarını da məhdudlaşdırmışdı. Bu dövrdə muxtar respublikanın Ermənistanla sərhəd kəndlərində vaxtaşırı baş verən qanlı atışmalar, Naxçıvan şəhərində, həmçinin rayon mərkəzlərindəki mütəmadi, izdihamlı etiraz mitinqləri bütün əhali kimi qədim sənət ocağının da kollektivini işdən soyutmuşdu.

Lakin bu çətinlik və məhrumiyyətlərə baxmayaraq Naxçıvan alınmaz qalaya çevrilib düşmənə layiqli cavab verir, mətanətlə döyüşür, məğrur yaşayırdı. 1991-ci il sentyabrın 3-də möhtərəm Heydər Əliyevin Muxtar Respublika Ali Məclisinə Sədr seçilməsilə Naxçıvanda bir çox sahələr kimi mədəni mühitdə də bir canlanma yarandı. Bağlanma, ləğvedilmə, binası isə özəlləşmə təhlükəsilə üzləşmiş Naxçıvan Dövlət Musiqili Dram Teatrına da diqqət və qayğı artdı. Həmişə özünü bu qədim sənət ocağının yetirməsi hesab edən ulu öndər Naxçıvan teatrını da düşdüyü burulğandan xilas edərək, onun dirçəlməsi və inkişafı üçün hər cür şəraitin təmin olunmasına çalışırdı.

Teatra bağlı olan, onu bütün incəliklərinə qədər duyan, teatrı müqəddəs məkan, tərbiyə ocağı, orada çalışanları fədai adlandıran, onların nə qədər əziyyət çəkdiklərini nəzərə çatdıran Heydər Əliyev demişdir: "Teatr xadimləri tamaşaçıya bir söz demək üçün, mədəni səviyyəsini yüksəltmək üçün, irəliləyişimizə mane olanlara qarşı mübarizə qaldırmaq üçün nə qədər

çalışırlar. Heç kim bilmir ki, artist səhnəyə çıxıb rolu tamaşaçı qarşısında oynadığı vaxta kimi nə qədər həyəcan, sevinc keçirir" [2, s. 36]. Məlum, 1993-cü ilin iyun hadisələri nəticəsində Heydər Əliyevin Azərbaycan rəhbərliyinə tarixi qayıdışı baş verdi.

Muxtar respublikadakı gərgin ictimai-siyasi həyat, baş verən hadisələr nəticəsində mədəniyyət obyektləri, onların fəaliyyəti demək olar ki, 1995-ci ilin sonlarınadək diqqətdən kənarda qaldı. Naxçıvan Teatrının 110 illik yubileyini belə qeyd etmək mümkün olmadı.

"1992-1993-cü illərdə Naxçıvan teatrı bir neçə maraqlı tamaşa hazırlayaraq qonşu Türkiyə Respublikasına səfərlər etdi. ...1992-ci ilin noyabrında Qars şəhərində olan kollektiv 3 tamaşa nümayiş etdirmişdi" [1, s. 13].

1993-cü ildə teatr iki səhnə əsəri – Ü.Hacıbəyovun "Məşədi İbad" və G.Xuqayevin "Arvadımın əri" tamaşalarını hazırlamışdır. Quruluşçu rejissoru Ə.Əsgərov, rəssamı H.Əliyev, dirijoru Y.Əsgərov olan "Məşədi İbad"da əsas rolları İ.Bənəniyarlı, Y.Allahverdiyev, E.Şeyxov, R.Xudiyev, Y.Ramazanova, N.Xudiyeva ifa etmişlər. Premyera mayın 6-da olmuşdur.

Eyni rejissor və rəssamın quruluşunda hazırlanan və premyerası iyulun 26-da olan "Arvadımın əri" komediyasının musiqisini S.Əliyeva tərtib etmiş, rolları Ş.Abutalıbov, Y.Ramazanova, B.Haqverdiyev, Z.Həsənova və N.Yusifov oynamışlar.

"Teatr 1993-cü ilin yanvarında "Şəhidlər", "Anamın kitabı", "Ordan-burdan" və "Ölən adam" tamaşaları ilə Bakıda, iyununda "Məşədi İbad" tamaşası ilə, oktyabrda isə "Arvadımın əri" tamaşası ilə iki dəfə Qarsda olmuşdur" [4, s. 313].

1994-cü ildə teatrda Ü.Hacıbəyovun "Arşın malalan" operettası hazırlandı. Quruluşçu rejissoru Ə.Əsgərov, rəssamı S.Bayramov (indi Naxçıvan MR əməkdar rəssamı), dirijoru Y.Əsgərov olan tamaşada baş rolda Naxçıvan Dövlət Filarmoniyasının solisti Hünər Əliyev (indi Naxçıvan MR əməkdar artisti) çıxış etmişdir. Premyera avqustun 24-də olmuşdur.

"...Teatrda 1997-ci ildə daha iki klassik milli operettanın – yanvarın 9-da Ü.Hacıbəyovun "Ər və arvad", aprelin 18-də Z.Hacıbəyovun "Əlli yaşında cavan" tamaşalarının premyerası olmuşdur" [7. s, 127]. Həmin il avqustun 14-də isə Bakıdan gəlmiş gənc rejissor Elçin Mirzəbəylinin quruluşunda N.Nərimanovun "Nadir şah" faciəsinin ilk tamaşası oldu. Baş rolu Kamran Quliyev (indi xalq artisti) oynamışdı.

1998-ci ildə qədim sənət ocağının səhnəsində ilk dəfə olaraq böyüklər üçün alleqorik bir pyes tamaşaya qoyuldu. Respublikamızda 1989-cu ildə baş vermiş hadisələri əks etdirən "Qarğanın iflası" adlı bu siyasi-satirik əsərin müəllifi şair-dramaturq Mərkəz Qacar, quruluşçu rejissoru Ələkbər Qasımov, quruluşçu rəssamı Səyyad Bayramov (indi MR əməkdar rəssamı), bəstəkarı Şəmsəddin Qasımov (indi MR əməkdar incəsənət xadimi) idi.

Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbəri və direktoru Ə.Qasımov quruluş üçün dəvət edildiyi bu tamaşada iştirakçıları o dövrün siyasi personajları olan obrazları – quşları və tülkünü maskada səhnəyə çıxarmışdı. Müəllifdən irəli gələrək əsas obraz olan Qarğa Əbdürrəhman Vəzirovun prototipi kimi səhnədə canlandırılmış rejissorun tövsiyəsi əsasında danışıq tərzi də aktyor tərəfindən həmin xarakterə uyğunlaşdırılmışdı.

Rəssam tərəfindən hadisələrin cərəyan etdiyi meşə səhnədə lakonik təsvir olunmuşdu. Bəstəkarın bəstələdiyi orijinal, əsərin ruhuna uyğun musiqi və mahnılar zövqoxşayan və yaddaqalan idi. Rejissorun mətni əsasında meyxana üslubunda oxunan mahnı tamaşaçılar tərəfindən rəğbətlə qarşılanırdı.

Premyerası may ayının 16-da olan bu tamaşada rolları Ş.Abutalıbov (Qarğa), B.Haqverdiyev (Tülkü), V.Rəcəbov (indi Rəcəbli – Sağsağan), Z.Rzayeva (Bayquş). Z.Zeynalova (Qırğı), İ.Babayeva (Sərçə), G.Qurbanova ifa edirdilər.

Həmin il oktyabrın 7-də Emin Sabitoğlu və Rüfət Əhmədzadənin "Hələlik" musiqili komediyasının da ilk tamaşası olmuşdur. Quruluşçu rejissoru Yusif Əkbərov (Bakı), rəssamı S.Bayramov, dirijoru Y.Əsgərov olan tamaşada əsas rollarda Vidadi Rəcəbov (Hörmətzadə), Xuraman Hacıyeva (Lalə) və Nazlı Hüseynquliyeva (Jalə) çıxış etmişlər.

"Naxçıvan Dövlət Musiqili Dram Teatrı 1998-ci ilin oktyabr-noyabr aylarında "Arşın malalan" tamaşası ilə Türkiyənin Ankara, İstanbul, Bursa və Qars şəhərlərində olmuşdur" [1, s. 33].

"1999-cu ildə teatr Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə N.Həsənzadənin "Atabəylər" pyesini tamaşaya hazırladı. Quruluşçu rejissor Mərahim Fərzəlibəyov (indi xalq artisti), rejissor K.Quliyev, rəssam Ə.Axundov, musiqi tərtibçiləri Ə.Yunusov və C.Əliyev idi. Rejissor bu tamaşasında da Bakı quruluşunda istifadə etdiyi musiqiləri tətbiq etmişdi. Rollarda H.Ağasoy, X.Hüseynov, K.Quliyev, X.Hacıyeva, R.Xudiyev, Y.Ramazanova, D.Xəlilov, S.Canbaxşıyev, R.Hüseynov, B.Haqverdiyev və başqaları iştirak edirdilər" [9, s. 327]. İlk tamaşa mayın 10-da olmuşdur.

Uzun fasilədən sonra Naxçıvan Dövlət Musiqili Dram Teatrı tərcümə pyesinə müraciət məqsədilə 1999-cu ildə Panço Pançevin "Dörd əkiz haqqında nağıl" tamaşasını bərpa etdi. Quruluşçu rejissoru Rövşən Hüseynov (indi xalq artisti), rəssamı H.Əliyev, musiqi tərtibçisi Y.Əsgərov olan bu tamaşada əkizləri B.Haqverdiyev və V.Rzayev, Bonkanı E.Kərimova böyük həvəslə oynamışdılar. Tamaşanın premyerası noyabr ayının 16-da olmuşdur.

"1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi böyük təntənə ilə qeyd olundu. O zaman Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev Naxçıvanda yubiley şənliklərində olmuş, Naxçıvan teatrının aktyorları, yaradıcı heyətilə görüşmüşdür.

Prezidentin Fərmanı ilə Muxtar Respublikanın 75 illiyi münasibətilə bir sıra müxtəlif peşə sahiblərinə respublikanın fəxri adları verildi. Bu fəxri adlardan Naxçıvan teatrına da pay düşdü. Belə ki, o zaman teatrın baş rejissoru əvəzi işləyən, aparıcı aktyor Kamran Quliyev xalq artisti, teatrın baş rəssamı Hüseynqulu Əliyev xalq rəssamı, aktyorlardan Həsən Ağasoy xalq artisti, Yasəmən Ramazanova, Nəzakət Xuduyeva və Şirzad Abutalıbov isə respublikanın əməkdar artisti adına layiq görüldülər.

2000-ci ildə isə Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun Fərmanı ilə teatrın 5 nəfər aktyoru – Rza Xuduyev, Səməd Canbaxşıyev, Vidadi Rəcəbov, Bəhruz Haqverdiyev və Daməd Xəlilov muxtar respublikanın əməkdar artisti fəxri adı ilə təltif olundu" [3, s. 129].

Teatrın 2000-ci il repertuarında olan tamaşalarından Süleyman Ələsgərov və İsi Məlikzadənin "Hərənin öz ulduzu" (24 aprel), C.Məmmədquluzadənin "Qurbanəli bəy" (23 sentyabr) və H.Cavidin "Topal Teymur"u (30 dekabr) uğurlu quruluşlar hesab oluna bilər. Ş.Qasımov "Topal Teymur" tamaşasına yaddaqalan musiqi bəstələmişdi.

2001-ci ildə R.Hüseynov Valeri Qubarevin "Sehrli yaylıq" əsərinə quruluş verdi. Tamaşanın rəssamı Ə.Axundov, musiqi tərtibçisi Y.Əsgərov idi. Əsas rollarda V.Rzayev (Boris), N.Hüseynquliyeva (ana), Cəbrayıl Nəbiyev (Yurka), Xanım Hüseynquliyeva (Mila) çıxış edirdilər. İlk tamaşa martın 2-də olmuş və gənc tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdı.

Martın 23-də isə Elçinin "Mənim ərim dəlidir" komediyasının ilk tamaşası oldu. Bu tamaşa dövrün ictimai-sosial və mənəvi-əxlaqi naqisliklərini qamçılamaq istiqamətində teatrın növbəti uğurlu işi sayılmışdır. Quruluşu K.Quliyevə, bədii quruluşu H.Əliyevə, musiqi tərtibatı Y.Əsgərova məxsus olan tamaşada əsas rolları X.Hüseynov, N.Xudiyeva, B.Haqverdiyev, E.Kərimova ifa etmişdilər.

AMEA-nın müxbir üzvü İsa Həbibbəylinin (indi həqiqi üzv) "Şərq qapısı" qəzetindəki resenziyasında oxuyuruq: "Bütövlükdə "Mənim ərim dəlidir" tamaşasına cəlb olunmuş aktyor heyəti əsərdəki hadisələri və müəllif ideyasını dolğun surətdə mənalandırmaqla bərabər, həm də Naxçıvan Teatrının hazırkı mərhələdə geniş potensiala malik olduğunu nümayiş etdirir [15].

Bir il sonra teatr yenidən Elçin dramaturgiyasına müraciət edərək onun "Mənim sevimli dəlim" komediyasını "Dəlixanadan dəli qaçıb" adı ilə tamaşaya qoydu. Premyerası oktyabrın 22-də olan bu tamaşanın da rejissoru və rəssamı K.Quliyevlə Ə.Axundov oldu. Musiqisinisə Elxan Muradov tərtib etmişdi.

Həmin 2002-ci ildə teatrda daha iki tamaşa səhnəyə qoyulmuşdu: N.Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" (16 aprel) və İ.Məlikzadənin "Gəl qohum olaq!" (4 iyul) pyesləri.

2003-cü ildə Naxçıvan teatrının 120 illiyi ərəfəsində onun binası əsaslı sürətdə təmir edildi. Həmin ildə teatrda səhnəyə qoyulan 4 yeni tamaşa – "İblis" (H.Cavid), "Mənim qayınanam" (G.Xuqayev), "Ana laylası" (İ.Coşqun), "Mərhəmət məhəbbət deyil" (H.Arzulu) təmirlə əlaqədar olaraq ilin ikinci yarısından hazırlanmağa başlanılmış və növbə ilə təhvil verilmişdi.

Hüseyn Cavidin 120 illiyi münasibətilə səhnəyə qoyulan "İblis" faciəsinin ilk tamaşası K.Quliyevin quruluşunda, 2003-cü il iyulun 10-da olmuşdur. Bəstəkar Ş.Qasımovun orijinal musiqisi əsərin ideya məzmununa xidmət edirdi. İblisi H.Ağasoy, Arifi R.Xudiyev oynamışlar.

2004-cü ildə teatrda səhnəyə qoyulan 5 yeni tamaşadan ikisi öz məzmununa görə daha aktual səslənirdi. İ.Əfəndiyevin "Hökmdar və qızı" faciəsi XIX əsrin əvvəllərində Qarabağ xanlığının işğalına və İbrahimxəlil xanın acı taleyinə həsr olunmuşdur. Əsər əsasında R.Hüseynovun quruluşunda hazırlanan eyniadlı tamaşa Qarabağımızın elə o zamandan başının üstünü almış qara buludları səhnədə sərgiləyirdi. Rəssamı S.Bayramov, bəstəkarı Ş.Qasımov olan bu tamaşada əsas rolları K.Quliyev, N.Xudiyeva, E.Kərimova, V.Rəcəbli, R.Xudiyev, V.Rzayev ifa etmişlər. Tamaşanın premyerası martın 30-da olmuşdur.

Bu qəbildən ikinci tamaşa isə Hidayətin "Bu dünyanın adamları" pyesi əsasında hazırlanmışdı. Quruluşçu rejissoru K.Quliyev, rejissoru S.Bayramov, bəstəkarı Eldar Mansurov olan bu tamaşada əsas mövzu müasir həyatımızdakı müxtəlif xarakterli insanların yaşam tərzi, dünyaya baxışları, baş verən hadisələrə münasibətləri və insanlarla rəftarıdır. Noyabrın 16-dakı ilk tamaşada müəlliflə birgə MR Ali Məclisinin Sədri də iştirak etmişdir.

"2004-cü ilin mayında Naxçıvan Muxtar Respublikasının 80 illiyinin qeyd olunduğu günlərdə təntənəli yubiley yığıncağının iştirakçılarına Naxçıvan Dövlət Musiqili Dram Teatrının "Atabəylər" (N.Həsənzadə) tamaşası təqdim olundu. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, həmçinin yubiley mərasiminin rəsmi qonaqları tamaşanı böyük maraqla seyr etmişlər" [5, s. 69].

Teatrın 2005-ci il repertuarında yenə də Hüseyn Cavid və Mirzə Cəlil dramaturgiyasından nümunələr yer almışdı. Naxçıvan səhnəsində ilk dəfə tamaşaya qoyulan "Afət" Yasəmən Ramazanovanın quruluşunda hazırlanmışdı. O, eyni zamanda baş rolun ifaçısı idi. Rəssamı H.Əliyev, bəstəkarı Ş.Qasımov olan tamaşanın premyerası fevralın 9-da olmuşdu.

30 illik fasilədən sonra C.Məmmədquluzadənin "Dəli yığıncağı" şedevri yenidən bu səhnədə göründü. Azərbaycan teatrı tarixində bu əsərə ilk səhnə həyatı məhz Naxçıvan Teatrında, 1975-ci ildə, Vəli Babayevin quruluşunda verilmişdi. Bu yeni quruluşun rejissoru K.Quliyev, rəssamı Ə.Axundov, bəstəkarı Kamal Əhmədov olmuşdur.

Naxçıvan Dövlət Musiqili Dram Teatrı 2005-ci ilin iyununda Bakıda və Sumqayıtda qastrolda olmuş və "İblis", "Hökmdar və qızı", "Bu dünyanın adamları" tamaşalarını təqdim etmişdir.

"2006-cı il repertuarında olan Əfqan Əsgərovun "Qız atası", Mir Cəlalın "Dirilən adam", Altay Məmmədovun "Həmyerlilər", 100 illiyi münasibətilə Səməd Vurğunun "Fərhad və Şirin" pyesləri səhnəyə qoyulmaqla yanaşı "Arşın malalan" operettası da yeni quruluşda hazırlandı və Milli Musiqi Günündə – sentyabrın 18-də ilk tamaşası oldu" [10, s. 199-201].

2007-ci il repertuarını isə əsasən yerli müəlliflər repertuarı adlandırmaq olar. Vaxtilə Naxçıvan teatrında uğurlu quruluşlarda tamaşaya qoyulmuş Hüseyn Cavidin "Səyavuş"una, Kəmalə Ağayevanın "Məhsəti"sinə və Həmid Arzulunun "Əlincə qalası"na həmin il yenidən səhnə həyatı verildi.

İlin əvvəlində, fevralın 17-də premyerası olan "Məhsəti" tamaşasının quruluşunu R.Hüseynov vermiş, rəssamı S.Bayramov, musiqi tərtibçisi Y.Əsgərov olmuşdu. "Məhsəti"nin ilk (1964) və ikinci (1976) quruluşlarında Məmməd Ələkbərov tərəfindən bəstələnmiş çox gözəl, orijinal, zövqoxşayan musiqi və mahnılar mövcud olsa da, rejissor onlardan yalnız saray səhnəsindəki "Tərgülün mahnısı"ndan istifadə etmişdi. Əsas rollarda E.Kərimova (Məhsəti), V.Rəcəbli (İlyas – Nizami), X.Hüseynov (Pərvər baba), R.Xudiyev (Əmir Əhməd), K.Quliyev (Gəncə hökmdarı), B.Haqverdiyev (Əşrəf), G.Qurbanova (Tərgül), Z.Baxşəliyeva (Rəna), digər rollarda Y.Allahverdiyev (Gəncə xətibi), N.Hüseynquliyeva (Bəlx hökmdarı) iştirak edirdilər.

"Məhsəti"nin üçüncü quruluşu müəllifə – 1968-ci ildən tam 22 il Naxçıvan Teatrının ilk ədəbi hissə müdiri işləmiş, milli ədəbiyyatımız və teatrımız tarixinə mənzum dramların ilk qadın müəllifi kimi daxil olmuş şair-dramaturq, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü Kəmalə xanıma 70 illiyi münasibətilə bir yubiley hədiyyəsi hesab olundu.

Bir daha xatırlatmaq yerinə düşər ki, Naxçıvan Dövlət Musiqili Dram Teatrının indiki möhtəşəm binası ilk dəfə olaraq öz pərdələrini 1964-cü il oktyabrın 24-də məhz "Məhsəti" tamaşasının premyerası ilə açmışdır.

2008-ci ildə tamaşaya qoyulmuş hər iki pyes – Həsənalı Eyvazlının "Araz sahilində doğan günəş" və Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" tarixi hadisələr fonunda qələmə alındığından səhnədə tarixi şəxsiyyətlər qalereyası ilə rastlaşan tamaşaçı həm XX əsrin 20-ci illərinin, həm də 90-cı illərinin əvvəllərinə səyahət edirdi.

"Araz sahilində doğan günəş" tamaşası Naxçıvanın taleyüklü məsələsinin, onun muxtariyyət statusunun həll olunduğu dövrdə baş verən hadisələri əks etdirirdi. Quruluşçu rejissoru K.Quliyev, rəssamı Ə.Axundov, musiqi tərtibçisi Ş.Qasımov olan tamaşadakı əsas rollarda Ə.Əliyev (N.Nərimanov), K.Quliyev (Mustafa Kamal paşa), X.Hüseynov (Mirzədavud Hüseynov), R.Xudiyev (Behbud ağa Şahtaxtınski), E.Şeyxov (İbrahim Əbilov), Y.Allahverdiyev (Yusif Kamal bəy), V.Rəcəbli (Veysəl bəy Ünüvar), R.Hüseynov (Bahadır Vəlibəyov), H.Ağasoy (İosif Stalin), Ə.İmanov (Qeorqi Çiçerin), V.Rzayev (Mixail Vladimirski), İ.Osmanov (Abbas Qədimov), Ş.Abutalıbov (Tağı Səfiyev) iştirak edirdilər.

Premyerası aprelin 10-da olmuş tamaşanın sonunda ümummilli lider Heydər Əliyevin portreti görünür və Naxçıvanın muxtariyyəti və Qars müqaviləsinin əhəmiyyəti barədə müdrik fikirləri – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti sessiyasındakı çıxışından bir hissə ulu öndərin öz səsində eşidilir: "...Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq... Muxtariyyət hüququna malik olan dədə-baba torpaqlarımız bizim tərəfimizdən gələcək nəsillərə ərməğanımızdır... Yaşasın Azərbaycan! Yaşasın Naxçıvan Muxtar Respublikası!..."

Tanınmış alim, həmyerlimiz Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" pyesində hadisələrin gedişində müsbət və mənfi obrazlar Koroğlunun – Heydər Əliyevin ətrafında

görünərək öz məqsəd və niyyətlərini ortaya qoyurlar. Hadisələr 1992-1993-cü illəri əhatə edir. Lakin burada 1988-1992-ci illərdə Azərbaycana rəhbərlik etmiş Ə.Vəzirov və A. Mütəllibov da müvafiq olaraq Kaloğlan və Güloğlan adları ilə görünürlər. Buradakı Nankoryan isə Azərbaycanın suyu və havası ilə dirçəlmiş xəyanətkar erməni dığalarının ümumiləşdirilmiş obrazıdır. Çörəyi dizinin üstündə olan bu nankorun iyrənc xislətini – hiyləgərliyini, qəddarlığını, riyakarlığını və qorxaqlığını Şirzad Abutalıbov məharətli və yaddaqalan oyunu ilə çatdırmağa nail olurdu.

Tamaşada diqqət çəkən əsas müsbət obrazlardan biri də Qaloğlandır. Adından göründüyü kimi bu gənc oğlan dərin məhəbbətlə sevdiyi yurdunda, doğma diyarında qalmaqla yanaşı, el-obasına, onun ağsaqqalına – Koroğluya, yəni ulu öndərə sonadək sadiq qalır. Onun doğulub boya-başa çatdığı Vətənini daim göz bəbəyi kimi qoruyacağına, abadlaşdırıb gülzarlığa döndərəcəyinə sədaqət andı içən Qaloğlan ən çətin anlarda Koroğlunu – ulu öndəri və onun ideyalarını müdafiə və təbliğ edir.

Qaloğlan digər tərəfdən də tamaşada baş verən, bir-birini əvəz edən proseslərin izləyicisi və şərhçisi kimi çıxış edərək tamaşaçıda rəğbət oyadırdı. Vüsal Rzayev bu rolunun öhdəsindən layiqincə gələrək qəhrəmanının müasir günümüzdəki prototipinin – muxtar respublikanın bugünkü rəhbərinin dərhal xatırlanmasına nail olurdu.

"Koroğlunun Çənlibelə qayıdışı" əsəri ilk dəfə olaraq məhz Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Bunun özündə də bir qanunauyğunluq vardır və başqa cür də ola bilməzdi. Premyerası 2008-ci il may ayının 10-da – ümummilli liderin 85 illiyi günündə, yubileyin zirvə yığıncağında, rəsmi hissədən sonra olmuş tamaşanın quruluşçu rejissoru K.Quliyev, quruluşçu rəssamı H.Əliyev, musiqi tərtibçisi Ş.Qasımov idi.

Ertəsi gün "Şərq qapısı" qəzetində qeyd olunduğu kimi tamaşadan sonra müəlliflə birgə səhnəyə keçən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu gözəl, məzmunlu tamaşa münasibətilə Adil Babayev başda olmaqla bütün yaradıcı heyəti təbrik edərək belə demişdi: "...Ötən əsrin 90-cı illərinin hadisələrini acı olsa da, hər birimiz yaşamışıq. Bizim vətənpərvər, uzaqgörən insanlarımız ibrət dərsi olsun deyə bugünkü və gələcək nəsillər üçün o dövrü qələmə alıblar və bu yubiley günündə həmin əsərlərdən biri səhnəyə qoyulubdur.

Siz bugünkü ifanızla öz sənətinizə nə qədər vurğun olduğunuzu, ümummilli liderin yoluna nə qədər sədaqətli olduğunuzu bir daha nümayiş etdirdiniz. Yalnız ümummilli liderin yoluna ürəkdən bağlı olanlar rolları belə, ürəkdən ifa edə bilərlər... Ona görə də mən sizin hər birinizə ayrılıqda təşəkkür edirəm" [12].

2011-ci ildə isə Qurtuluş Günü ərəfəsində – iyun ayının 14-də Naxçıvan Teatrının bu tamaşası Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində Bakı sənətsevərlərinə nümayiş etdirildi. Tamaşa böyük rəğbətlə qarşılanmış, aktyorların oyunu dəfələrlə alqışlanmışdır.

Tam beş il sonra, tarixi Qurtuluş Gününün – 1993-cü ilin 15 iyununun 20 illiyi ərəfəsində Naxçıvan Dövlət Musiqili Dram Teatrı "Koroğlunun Çənlibelə qayıdışı" tamaşasını qismən yeni quruluşda iyun ayının 14-də elə teatrın binasında Qurtuluşun 20 illik yubiley mərasiminin iştirakçılarına təqdim etmişdir. Bəzi rolların ifaçılarının yeniləndiyi tamaşa böyük maraqla və rəğbətlə qarşılanmışdır.

Tamaşada qarşı tərəf – mənfi surətlər qalereyası da mövcuddur. Onların hər birinin adı müəllifin çox gözəl və yerində edilmiş tapıntısıdır. Xarakterlərilə həmahəng ad daşıyan bu ünsürlərin danışıq tərzlərindən və sözlərindən tamaşaçı onları dərhal tanıyırdı.

Naxçıvan Dövlət Musiqili Dram Teatrının tarixi şəxsiyyətlərə həsr olunmuş daha bir

tamaşası Müzəffər Nəsirlinin "Qönçəbəyim nəğməsi" faciəsi əsasında hazırlanıb. Bu tamaşada Kəngərlilər nəslindən olan sonuncu Naxçıvan xanı Ehsan xan, qızı, şairə Qönçəbəyimlə yanaşı, diplomat-şair Nikoloz Barataşvili, İbrahim bəy, knyaz Melikov, xanəndə Səttar da canlandırılır. Quruluşçu rejissor K.Quliyev burada həm də Ehsan xan rolunu ifa edirdi. Qönçəbəyimisə aktrisa Zəminə Baxşəliyeva oynayırdı.

Tamaşanın premyerası 2010-cu il aprel ayında, Heydər Əliyev adına Naxçıvan Şəhər Uşaq və Gənclər Yaradıcılığı Sarayının səhnəsində oldu. Buna səbəb həmin ilin əvvəlindən Dövlət Musiqili Dram Teatrı binasında yenidənqurma işlərinin başlanması idi.

Teatr binasının yenidən qurulması 2012-ci ilin əvvəlində başa çatdı. Binadakı bütün otaqlar, foyelər tamamilə yeniləndi və təzə avadanlıqlar, mebellərlə təchiz edildi. Səhnə dairəsi, ştanqetlər, işıq sistemi, orkestr xəndəyi müasir standartlara uyğun şəkildə quruldu. Tamaşa zalında oturacaqlar, işıqlandırma və havalandırma qurğuları təzələndi, 80-ci illərdə ləğv edilmiş amfiteatr bərpa edildi, 2-ci mərtəbədəki lojalara yeni görkəm verildi, bina yeni dam örtüyü və istilik sistemilə təmin edildi. 2012-ci il fevralın 3-də MR Ali Məclisi Sədrinin iştirakı ilə teatr binasının əsaslı yenidənqurmadan sonra təntənəli açılış mərasimi oldu.

2012-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrı öz repertuarında tarixi şəxsiyyətlərə həsr olunmuş iki əsərə yer ayırmışdı: Məmməd Cəfərin "İnsanlar və talelər" əsəri və Şəfaət Mehdiyevin "Mirzə Fətəli". Bu tamaşalarda Cəlil Məmmədquluzadənin və M.F.Axundovun həyatlarından mühüm məqamlar əks olunmuşdur. "Mirzə Cəlil taleyi"ndə baş rolun ifaçısı respublikanın əməkdar artisti Əli Əliyev, "Mirzə Fətəli"də isə xalq artisti Həsən Ağasoy olmuşdur.

2012-ci il martın 10-da – Milli Teatr Günündə premyerası olan "Mirzə Fətəli"nin quruluşçu rejissoru R.Hüseynov idi. K.Quliyevin quruluş verdiyi "Mirzə Cəlil taleyi"nin ilk tamaşası isə 2013-cü il fevralın 23-də olmuşdur.

2012-2013-cü il mövsümünü isə teatr Nazim Hikmətin "Kəllə" tamaşası ilə açdı. Quruluşçu rejissoru K.Quliyev, quruluşçu rəssamı Ə.Axundov, musiqi tərtibçisi Elman Əliyev (respublikanın əməkdar artisti) olan tamaşada, baş rolu – doktor Dalbanezonu Rza Xudiyev məharətlə ifa edirdi [5, s. 136].

20 ildən artıq bir müddətdə Azərbaycandan kənarda yaşaması ilə əlaqədar olaraq doğma teatrından ayrı düşmüş aktyor-rejissor Tofiq Seyidov (indi respublikanın əməkdar artisti) 2012-ci ildə Naxçıvana qayıtdı. Teatrda öz fəaliyyətini rejissor kimi bərpa edərək o Anton Çexovun "Ayı" və "Elçilik" vodevilləri əsasında "Russayağı evlənmə" adlı ilk tamaşasını hazırladı (8, s, 415). Böyük rəğbətlə qarşılanan tamaşanın premyerası 2013-cü il martın 27-də – Beynəlxalq Teatr Günündə oldu. Bundan sonra T.Seyidov ard-arda iki tərcümə əsərinə rejissorluq etdi: birincisi, Çingiz Aytmatovun "Manqurt" və "Qazanqapın dəfni" romanları əsasında rejissor tərəfindən səhnələşdirilən "Manqurt" (3 dekabr 2013), ikincisisə Henrik İbsenin psixoloji dramı əsasında hazırlanmış eyniadlı "Kuklalar evi" (27 iyun 2014) tamaşaları.

"Manqurt"un rəssamı S.Bayramov, "Kuklalar evi"nin rəssamı Ə.Axundov idi. AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu musiqi və teatr şöbəsinin böyük elmi işçisi. sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov hər iki tamaşanın məsləhətçisi olmuşdur.

T.Seyidov 2015-ci ildə N.Nərimanovun "Nadanlıq" pyesinə öz əlavələrini edib müəllifin də obrazını səhnəyə gətirməklə yeni bir variantda quruluş verərək bu tamaşanı "Nadanlıq və ya qəfil telefon zəngi" adı ilə təqdim etdi. Tamaşada N.Nərimanovun Moskvadakı fəaliyyət dövrünün son günləri də işıqlandırılmışdı.

Bu tamaşa eyni zamanda daha bir əlamətdar hadisə ilə yadda qaldı və Naxçıvan teatrının salnaməsində yeni bir səhifə yazdı. Belə ki, tamaşanın quruluşçu rəssamları Hüseynqulu Əliyev və Fizzə Quliyeva idilər. Rejissorun təklifi və direktorluğun dəvətilə F.Quliyevanın bu tamaşada rəssam kimi iştirakı həm onun tərcümeyi-halında, həm də qədim sənət ocağının üçəsrlik bir dövründə yeni bir ilk yazdı. Naxçıvan Teatrının tarixində ilk dəfə olaraq bir tamaşanın hazırlığında qadın rəssam iştirak etdi və F.Quliyeva muxtar respublikada ilk qadın – teatr rəssamı kimi məşhurlaşdı. Burada qeyd etmək yerinə düşər ki, məhz bu hadisədən sonra Fizzə Quliyeva Azərbaycan Teatr Xadimləri və Rəssamlar ittifaqlarının üzvlüyünə qəbul edildi və hazırda Naxçıvan Dövlət Tarix Muzeyində direktor vəzifəsində çalışır.

Demək olar ki, son beş ildə yeni dövr tamaşalarının, yəni istər klassik və ya müasir, istərsə də milli, yaxud xarici dramaturgiya nümunələrinin yeni üslubda səhnəyə qoyulması baxımından hazırlanan əsərlərin əksəriyyəti Tofiq Seyidovun quruluşlarında ərsəyə gəlmişdir.

Belə ki, onun rejissoru olduğu Əli Əmirlinin "Varlı qadın" (5 fevral 2016), Moris Metterlinqin "Göy quş" (26 iyun 2017), M.S.Ordubadinin "Qılınc və qələm" (14 iyun 2018), Hüseyn Cavidin "Xəyyam" (22 dekabr 2018). Xaqani Əliyevin "Ehsan xan Kəngərli" (2019), Aleksandr Qriboyedovun "Ağıldan bəla" (2020) söylənilən qəbildən olan tamaşalar sırasındadırlar.

2015-ci ildə teatrın aktyoru Səməd Canbaxşıyevin özünü bu səhnədə rejissor kimi sınaması çox böyük uğurla nəticələndi. Onun dünyaşöhrətli Türkiyə dramaturqu Tuncər Cücənoğlunun "Rəngsaz" komediyasına verdiyi quruluş özünün orijinal üslubu, hadisələrə, obrazlara, məkana yeni yanaşma tərzilə fərqləndi. Tamaşanın ictimai baxışında rejissorun bu debütü təqdir olundu və tamaşa böyük rəğbətlə qarşılandı.

2017-ci ildə Naxçıvan teatrına ilk ali ixtisas təhsilli qadın – rejissor qədəm qoydu. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rejissorluq fakültəsinin məzunu Həcərxanım Məmmədova çox qısa zamanda kollektivin yaradıcı atmosferini lazımi səviyyədə öyrənib hazırlayacağı tamaşalarda öz aktyor heyətini müəyyənləşdirdi. Bir neçə tamaşadan sonra ona ən böyük uğur və şöhrət gətirən Elçinin "Teleskop" tamaşası oldu. 2019-cu ildə gənc rejissorun çox gözəl və orijinal üslubda olan bu quruluşu da yeni dövr tamaşaları sırasına daxil olmuşdur. "Şərq qapısı" qəzetində baş redaktorun resenziyasında da qeyd olunduğu kimi: "Naxçıvan Teatrı yeni ili teatrsevərlərə yeni sənət sevinci bəxş etməklə qarşıladı" [6, s. 378].

Bu uğurundan sonra H.Məmmədova 2020-ci il sentyabrın 25-də – Naxçıvan Dövlət Musiqili Dram Teatrının yeni mövsümünün açılışı günündə premyerası olan Cəfər Cabbarlının "Aydın" faciəsini təqdim etdi. Rejissorun özünəməxsus üslubu bu tamaşada da böyük maraq və rəğbətlə qarşılandı.

Bir neçə ildən sonra – 2023-cü ildə özünün 140 illiyini qeyd edəcək Naxçıvan teatrının yeni mövsümlərdə daha məzmunlu, yeni üslublu əsərləri səhnəyə gətirərək öz yubileyi ərəfəsində daha maraqlı tamaşalar təqdim edəcəyinə ümidvarıq!

ƏDƏBİYYAT

1. Kərimov İ.S. Azərbaycan-Türkiyə teatr əlaqələri. Bakı: Nağıl evi, 2000, 131 s.
2. Kərimov İ.S. Heydər Əliyev sənət, sənətkarlar və sənətkarlıq haqqında. Bakı: Ulu, 2005, 227 s.
3. Qasımov Ə.M. Naxçıvan Teatrında tərcümə əsərlərinin tamaşaları (1883-2013). Bakı: AFpoliqrAF, 2016, 176 s.

4. Qəhrəmanov Ə.K. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı. Bakı: MBM, 2004, 414 s.
5. Qəhrəmanov Ə.K. Naxçıvan Teatrı müstəqillik illərində (1991-2008). Bakı: MBM, 2008, 91s.
6. Qəhrəmanov Ə.K. Naxçıvan Teatrında rejissor sənəti. Naxçıvan: Əcəmi, 2020, 448 s.
7. Quluyev N.P. Naxçıvanın musiqi mədəniyyəti tarixindən. Bakı: Elm, 1999, 138 s.
8. Naxçıvan Teatrı (məqalələr, xatirələr), Naxçıvan: Əcəmi, 2014, 296 s.
9. Rəhimli İ.Ə., Vəzirov C.H. Naxçıvan Teatrı (1883-2008). Bakı: Aspoliqraf, 2008, 352 s.
10. Vəzirov C.H., Eyvazlı H.C. Naxçıvan Teatrı – dünən, bu gün. Naxçıvan: Məktəb, 2007, 206 s.
11. "Şərq qapısı" qəz., 2001, 12 aprel.
12. "Şərq qapısı" qəz., 2008, 11 may.

AMEA Naxçıvan Bölməsi
E-mail: elekberqasimov@mail.ru

Alakbar Gasimov

PERFORMANCES AND MUSIC OF THE NEW PERIOD IN THE NAKHCHIVAN STATE MUSIC AND DRAMA THEATER

The article tells about the performances prepared at the Nakhchivan State Music and Drama Theater from 1990 to the present day.

It is noted that this particular period, that is, the last 30 years, is a new period for Azerbaijan, including for the Nakhchivan Autonomous Republic. These years in our republic are the restoration of state independence, preservation, conflicts, wars, revival, development, progress, and renaissance.

As in all areas of our national culture, in theaters and the Nakhchivan State Musical Drama Theater, global changes have taken place. Based on the selected repertoire, corresponding to the time requirements, works were staged, which reflected current and historical events in the spirit of patriotism.

The article draws attention to the repertoire of the 1990s, the first decades of the 21st century, in chronological order provides comprehensive information about the prepared performances, about their creative composition on the Nakhchivan stage. New stylish features of several performances, the director, artist, composer, and acting are analyzed.

It also highlights significant events in the life of the Nakhchivan theater, foreign and domestic tours.

Keywords: *Nakhchivan State Music and Dramatic Theater, performance, music, director, artist, composer, role, tour, Turkey, anniversary.*

Алекбер Гасымов

СПЕКТАКЛИ НОВОГО ПЕРИОДА И МУЗЫКА В НАХЧЫВАНСКОМ ГОСУДАРСТВЕННОМ МУЗЫКАЛЬНО-ДРАМАТИЧЕСКОМ ТЕАТРЕ

В статье рассказывается о спектаклях, которые были подготовлены в Нахчыванском государственном музыкально-драматическом театре с 1990 года до наших дней.

Отмечается, что именно этот период, то есть последние 30 лет, является новым периодом для Азербайджана, в том числе для Нахчыванской Автономной Республики. Прежде всего, эти годы в нашей республике являются периодом восстановления государственной независимости, ее сохранения, конфликтов, войн, возрождения, развития, прогресса и ренессанса.

Как во всех областях нашей национальной культуры, в театрах, а также в Нахчыванском госмуздрамтеатре, произошли глобальные перемены. На основе выбранного репертуара, соответствующего требованиям времени были поставлены произведения, в которых отражены современные и исторические события в духе патриотизма.

В статье обращается внимание на репертуар 1990-х годов, первых десятилетий XXI века, в хронологическом порядке дается всесторонняя информация о подготовленных спектаклях, об их творческих составах на Нахчыванской сцене. Анализируются новые стильные особенности нескольких спектаклей, работа режиссера, художника, композитора и актерская игра.

Здесь также освещаются знаменательные события в жизни Нахчыванского театра, зарубежные и внутренние гастроли.

Ключевые слова: *Нахчыванский госмуздрамтеатр, спектакль, музыка, режиссер художник, композитор, роль, гастроль, Турция, юбилей.*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 09.02.2021
Son variant 26.02.2021

UOT 792.03

ƏLİ QƏHRƏMANOV

SƏMƏD VURĞUNUN TARİXİ VƏTƏNPƏRVƏRLİK DRAMLARI NAXÇIVAN SƏHNƏSİNDƏ

Məqalədə xalq şairi, ictimai xadim, dramaturq, akademik Səməd Vurğunun yaradıcılıq fəaliyyəti, milli dramaturgiyamızın və teatrımızın tarixində, ədəbiyyatımızın və mədəniyyətimizin inkişafında göstərdiyi xidmətlərdən söhbət açılmışdır. Həmçinin görkəmli sənətkarın yaradıcılığının əsasını milli-mənəvi dəyərlərin qorunması, milli dilin saflığı, adət-ənənələrə sadiqlik, müasirlik uğrunda mübarizə əzminin təşkil etdiyi vurğulanmışdır. Onun 50 illik ömrünün otuz ildən çoxunu şeirə, sənətə həsr etməsi, bir çox lirik, epik, satirik şeirlər və poemalar, xalq qəhrəmanlığı ruhunda mənzum tarixi dramlar yaratması və yüzlərlə elmi, elmi-publisist məqaləsi olduğu nəzərə çatdırılmışdır. Səməd Vurğun milli dramaturgiyamıza və teatrımıza "Vaqif", "Fərhad və Şirin", "Xanlar", "İnsan" kimi vətənpərvərlik ruhlu mənzum tarixi monumental səhnə əsərləri bəxş etmişdir. Bu tarixi mənzum əsərlərin orijinallığı və dramaturji siqlətinə, yüksək poetik vüsətinə görə diqqəti cəlb etdiyi, milli teatrın repertuarını zənginləşdirdiyi vurğulanmışdır. Bunlarla yanaşı məqalədə Səməd Vurğunun qələmindən çıxan tarixi vətənpərvərlik ruhlu "Vaqif", "Fərhad və Şirin" mənzum səhnə əsərlərinin Naxçıvan teatrında müvəffəqiyyətlə tamaşaya qoyulması tarixi sənədlər əsasında göstərilmişdir.

Açar sözlər: *Səməd Vurğun, xalq şairi, dramaturq, pyes, tarixi dram, milli-mənəvi dəyər, teatr, səhnə.*

Xalq şairi Səməd Vurğun 50 illik ömrünün otuz ildən çoxunu bir şair-dramaturq kimi şeirə, sənətə həsr etmiş, bir çox lirik şeirlər və poemalar yazmış, xalq qəhrəmanlığı ruhunda mənzum tarixi dramlar yaratmışdır. O, həyatı boyu ictimai xadim və vətəndaş olaraq sənət, ədəbiyyat və mədəniyyətin müxtəlif sahələrinə aid elmi, tənqidi-publisist məqalələr yazmış, həyatımızın ayrı-ayrı sahəsində rast gəldiyi durğunluq və maneələrə qarşı mübarizə aparmış, xalqın tərəqqisi və yüksəlişi naminə səylə çalışmaqla, dünya xalqlarının ədəbiyyatlarından da tərcümələr etmişdir.

Səməd Vurğun XX əsrdə milli dramaturgiyamız və teatrımıza "Vaqif", "Fərhad və Şirin", "Xanlar", "İnsan" kimi monumental səhnə əsərləri bəxş etmişdir. Bu tarixi mənzum əsərlər orijinallığı və dramaturji siqlətinə, yüksək poetik vüsətinə görə diqqəti cəlb etmişdir.

Dramaturqun mənzum tarixi pyesləri 1938-ci ildən etibarən möhtəşəm səhnələrdə tamaşaya qoyulub, neçə-neçə aktyor və rejissor nəslinin – Sidqi Ruhulla, Kazım Ziya, Ələsgər Ələkbərov, Fatma Qədri, Əli Qurbanov, Hökümə Qurbanova, İsmayıl Dağıstanlı, Möhsün Sənani, Ağadadaş Qurbanov, Məmmədrza Şeyxzamanov, Həsənağa Salayev, İbrahim Həmzəyev, Səməd Mövləvi, İsa Musayev, Zəroş Həmzəyeva, Əyyub Haqverdiyev, Ələddin Abbasov, Əşrəf Yusifzadə... kimi qüdrətli sənətkarların formalaşmasında mühüm rol oynayıb. Adları qeyd edilən sənətkarlar bu əsərlərin tamaşasında yaratdıqları müxtəlif səpkili obrazlara görə milli teatr sənətimizin tarixinə düşüblər.

"Vaqif", "Fərhad və Şirin" Naxçıvan teatrının səhnəsində də dəfələrlə, böyük uğurla müxtəlif rejissorların quruluşunda tamaşaya qoyulub. Naxçıvan teatrı ilk dəfə "Vaqif" mənzum tarixi dramına 1939-cu ilin sentyabr ayının 21-də Həsən Əliyevin quruluşunda (rəssam Şəmil Qazıyev, musiqi tərtibatçısı Tapdıq Hüseynov, rejissor assistenti Kazım Şeyxov) müraciət edir [12, v. 12]. Tamaşanın yaradıcı heyəti əsərin romantik pafosunu və poetik ruhunu dərindən duyduğundan yaratdıqları obrazları həm bədii cəhətdən, həm də estetik baxımdan tamaşaçılara təqdim etmək üçün yaratdıqları səhnə obrazlarını şövqlə canlandırırdılar. Bu tarixi pyesin

Naxçıvanda tamaşaya qoyulması şəhərin mədəni həyatında mühüm hadisə idi. Tamaşanın ilk dəfə göstərildiyi gün teatr tərəfindən xüsusi olaraq "Vaqif" adlı vərəqə də buraxılmışdı. "Bu il mövsüm "Vaqif" pyesi ilə açılır", "Böyük vətənpərvər" adlı məqalələr xüsusi diqqət çəkirdi. Məqalələrdə "Biz "Vaqif" pyesinə tamaşa edərkən Azərbaycan xalqının böyük şairi, humanist, vətənpərvər Vaqif obrazını görəcəyik, "Vaqif" pyesi vətənpərvər duyğuları tərbiyə edir, teatrda Vətənə sədaqət hisslərini qüvvətləndirir" [8] yazılırdı. İlk tamaşa münasibəti ilə 1939-cu il sentyabrın 22-də Səməd Vurğun Naxçıvan teatrının kollektivinə aşağıdakı məzmunda: "Kollektivinizin yaradıcı qələbəsini təbrik edirəm. Tamaşada şəxsən iştirak edə bilməyəcəyimə təəssüf edirəm. Səməd Vurğun" teleqram göndərir [9].

Rejissor Həsən Əliyevin böyük məharətlə hazırladığı bu tamaşada güclü aktyor ansamblı iştirak edirdi. İbrahim Həmzəyev – Vaqif, Rüxsarə Ağayeva və Xədicə Qazıyeva – Xuraman, Səməd Mövləvi – Vidadi, Firuzə Əlixanova və Naibə Rzayeva – Gülnar, Nadir Rzayev – Əli bəy, İsa Musayev – Eldar, Məhbubə Məmmədova – Tükəzban, Mirhəsən Mirişli – İbrahim xan, Rza İsfəndiyarlı – Şeyx Alı, Əliheydər Həsənzadə – Təlxək, Telli Əkbərova – Tamara, Əyyub Haqverdiyev – Kürd Musa, Sadıq Həsənzadə – Qacar, Abbas Quliyev – Vəzir, Yusif Haqverdiyev – İlyas, Əyyub Abbasov – Şaliko rollarını ifa edirdilər [8]. İbrahim Həmzəyevin yaratdığı Vaqif Azərbaycan xalqının vətənpərvər oğlu, qüdrətli şair, doğma yurdunu gözbəbəyi kimi qoruyan, cəsur, qeyrətli xalq qəhrəmanı, ağıllı, düşüncəli bir dövlət xadimi təəssüratı bağışlayırdı.

İlk tamaşada Vidadi rolunu oynayan Səməd Mövləvi xatirələrində yazırdı: "Bu mövsümdə (1939) teatr öz üzərinə "Vaqif" dramasını tamaşaya qoymaq kimi məsuliyyətli bir vəzifə götürmüşdür... Tamaşaya quruluş verməyi bacarıqlı rejissorlardan biri olan Həsən Əliyevə (Bakıdan dəvət olunmuş) həvalə etdilər. Həsən Əliyev keyfiyyətli tamaşa yaratmaq üçün bütün imkanlardan istifadə etməyə çalışırdı... Rəssam Şəmil Qazıyev də tərtibatı son dərəcə gözəl aparmışdı. Xüsusilə saray pərdələri daha çox diqqəti cəlb edirdi... Rejissor Həsən Əliyevin böyük məharətlə yaratdığı bu tamaşa yüksək qiymət aldı və uzun illər teatrın repertuarında yaşadı. Bu tamaşaya görə o, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edildi" [6, s. 252-253].

Naxçıvan teatrı 1951-ci ilin fevralın 17-də 12 illik fasilədən sonra "Vaqif" mənzum tarixi dramına yenidən müraciət etdi və əsər İbrahim Həmzəyevin quruluşunda (rəssam Məmməd Qasımov, musiqi tərtibatçısı Məmməd Cavadov, rejissor assistenti Kazım Şeyxov) tamaşaya qoyuldu. "Tamaşada İbrahim Həmzəyev və İsa Musayev – Vaqif, Zəroş Həmzəyeva – Xuraman, Tamara Məmmədova və Sofya Hüseynova – Gülnar, Pakizə Məmmədova – Əminə, Rza İsfəndiyarlı – Vidadi, Xədicə Qazıyeva –Tükəzban, Məmməd Quliyev – İbrahim xan, Əkbər Qardaşbəyov – Təlxək, Roza Cəfərxanova – Tamara, Mirhəsən Mirişli – Vəzir, Rza Tumbullu – Şaliko, Əyyub Məmmədov – Eldar, Firuzə Əlixanova – Yengə, Kazım Hüseynov – Ağa Məhəmməd şah Qacar, Yusif Haqverdiyev – Şeyx Alı, Lətif Niftəliyev – Əhməd kişi, Abbas Xəlilov – Qurban kişi və Zülfüqar, Əyyub Haqverdiyev – Kürd Musa, Ağalar Əliyev – Arşaq, Mirzə Ələkbərov – Qoca, Yaqub Şahtaxtılı – İlyas, Hüsnü Qubadov – Xanəndə rollarında çıxış etdilər" [5, s. 158]. Tamaşada Xuraman obrazını özünəməxsus sənətkarlıqla yaradan Zəroş Həmzəyeva bu obrazı mahiranə yaradan sənətkarların sırasına daxil oldu.

1958-ci ilin 30 dekabrında "Vaqif" mənzum dramı İbrahim Həmzəyevin yeni quruluşunda (rəssam Məmməd Qasımov, musiqi tərtibatçısı Məmməd Məmmədov, rejissor assistenti Əsgər Əsgərov) tamaşaya qoyulur [4, s. 570]. Tamaşada İbrahim Həmzəyev və İsa Musayev – Vaqif, Zəroş Həmzəyeva – Xuraman, Əyyub Haqverdiyev – Kürd Musa, Rza İsfəndiyarlı –

Vidadi, Xədicə Qazıyeva – Tükəzban, Məmməd Quliyev – İbrahim xan, Əkbər Qardaşbəyov – Təlxək, Roza Cəfərxanova – Tamara, Mirhəsən Mirişli – Vəzir, Firuzə Əlixanova – Yengə, Kazım Hüseynov – Ağa Məhəmməd şah Qacar, Yusif Haqverdiyev – Şeyx Alı, Tamara Məmmədova – Gülnar, Pakizə Məmmədova – Əminə, Əkrəm Əliyev – Şaliko, Əyyub Məmmədov – Eldar, Əyyub Abbasov – Əhməd kişi, Aydın Şahsuvarov – Arşaq, İslam Əliyev – Zülfüqar, Abbas Xəlilov – Qoca, Ağalar Əliyev – İlyas, Müzəffər Səfərov – Xanəndə rollarında çıxış edirlər.

1968-ci ilin 2 noyabrında Baxşı Qələndərlinin quruluşunda "Vaqif" mənzum dramı (rəssam Məmməd Qasımov, musiqi tərtibatçısı Rəşid Məmmədov, rejissor assistenti Kazım Şeyxov) sənətsevərlərə təqdim olunur [4, s. 576]. Tamaşada İsa Musayev – Vaqif, Zəroş Həmzəyeva və Sofya Hüseynova – Xuraman, Nizami Həmzəyev – Əli bəy, Tamara Məmmədova – Gülnar, Pakizə Məmmədova – Əminə xala, Aydın Şahsuvarov və Rza İsfəndiyarlı – Vidadi, Xədicə Qazıyeva – Tükəzban, Məmməd Quliyev – İbrahim xan və Qoca, Əkbər Qardaşbəyov – Təlxək, Roza Cəfərxanova – Tamara, Mirhəsən Mirişli – Vəzir, Tofiq Mövləvi – Şaliko, Əyyub Məmmədov – Eldar, Firuzə Əlixanova – Yengə, Kazım Hüseynov – Ağa Məhəmməd şah Qacar, Yusif Haqverdiyev – Şeyx Alı, Əyyub Haqverdiyev – Kürd Musa, Müzəffər Səfərov – Xanəndə rollarında çıxış edirlər.

Naxçıvanlı sənətsevərlər 1976-cı ilin 31 mayında "Vaqif"lə yenidən İbrahim Həmzəyevin quruluşunda (rəssam Məmməd Qasımov, bəstəkar Əfrasiyab Bədəlbəyli, rejissor assistenti Yusif Haqverdiyev) görüşürlər [5, s. 257]. Səməd Vurğunun anadan olmasının 70 illiyi münasibəti ilə hazırlanan tamaşada İbrahim Həmzəyev – Vaqif, Məmməd Ağayev və Qurban Ələkbərov – Əli bəy, Nəzakət Xudiyeva – Gülnar, Tofiq Mövləvi – İlyas, Rövşən Hüseynov – Şaliko, Zəroş Həmzəyeva – Xuraman, Aydın Şahsuvarov – Vidadi, Roza Cəfərxanova – Tükəzban, Əkbər Qardaşbəyov – Təlxək, Kazım Hüseynov – Qacar, Yusif Haqverdiyev – Şeyx Alı, Məmməd Quliyev – İbrahim xan, Pakizə Məmmədova – Əminə xala, Firuzə Əlixanova – Yengə, Əyyub Haqverdiyev – Kürd Musa, İsgəndər Abdullayev – Kənd ağsaqqalı, Qivami Baxşəliyev – Arşaq, İbrahim Bənəniyarlı – Üsyankar sərkərdə, Müzəffər Səfərov – Qasım və Xanəndə, Nurəli Zamanov – Murad, Sürəyya Qurbanova – Qarı, Mehdi Sadıqov – Cəllad rollarında çıxış edirlər. Göründüyü kimi tamaşada yaşlı nəsli cavan aktyorlar əvəz etmişdi. Gənclər öz sözlərini deməkdə idi. Onların oynadıqları obrazlar tamaşaçıları qane edirdi.

Ümumiyyətlə, "Vaqif" tamaşasının bütün quruluşlarına hər zaman güclü aktyor ansamblı cəlb edilmişdir. Naxçıvan teatrında 800 dəfədən çox oynanılan "Vaqif" tamaşasında Vaqif obrazı istedadlı sənətkar İbrahim Həmzəyevin 50 illik zəngin yaradıcılıq tərcümeyihalında unudulmaz və orijinal səhifələrdən biri olmaqla, ona böyük uğur, şöhrət gətirmişdir. Gürcüstanda, Dağıstan Muxtar Respublikasında, Azərbaycanın bütün guşələrində – Qarabağda, Şirvanda, Muğanda, Mildə, Qazaxda, Lənkəranda... İbrahim Həmzəyevin ustalıqla yaratdığı Vaqif dəfələrlə alqışlanmış, tamaşaçı məhəbbəti qazanmışdı.

"Vaqif" Naxçıvan teatrının ən uzunömürlü tamaşalarından biri idi. Bu tamaşa naxçıvanlı aktyorların mənəvi inkişafında, sənətkar kimi yetkinləşməsində müstəsna rol oynamışdır. Müxtəlif quruluşlarda tamaşaya qoyulan "Vaqif" hər dəfə yeni ifaçılarla zənginləşmişdir. İlk quruluşda (1939) Eldar rolunu ustalıqla yaradan İsa Musayev sonrakı quruluşlarda baş rolun – Vaqifin mahir ifaçısı olmuşdur. İsa Musayevin məharətlə yaratdığı Vaqif böyük dövlət xadimi, ağıllı, düşüncəli, iradəli, mətin, xalqın arxasında dayanan, arzu və düşüncələrini həyata keçirən vətənpərvər bir şəxsiyyət kimi təqdim olunurdu.

Zəroş xanım Həmzəyevanın ustalıqla yaratdığı Xuraman obrazı həmişə sevilmiş, sənətkara uğur qazandırmışdır. O, səhnədə ayrı-ayrı illərdə Vaqif rolunun 7 ifaçısıyla – İbrahim

Həmzəyev, İsa Musayev, Kazım Ziya, Ələsgər Ələkbərov, Mürşüd Haşımlı, İsmayıl Dağıstanlı və Həsənağa Salayevlə tərəf-müqabili olmuşdur [7, s. 49]. 1969-cu ildə Azərbaycan Milli Akademik Dram Teatrında "Vaqif" tamaşasında Zəroş xanım Xuraman, qüdrətli ustad İsmayıl Dağıstanlı Vaqif qolunda çıxış etmişlər. Bu cür yaradıcılıq əlaqələri Naxçıvan teatrının aktyorlarının potensial imkanlarını aşkara çıxarırdı. "Əyyub Haqverdiyev "Vaqif"in ilk tamaşasında Kürd Musa rolunu ifa etmişdir. Sonrakı illərdə də müxtəlif quruluşlarda Kürd Musanı oynamaq ona nəsib olmuşdur. Düz 40 il fasiləsiz olaraq 800 dəfədən çox Kürd Musa rolunda səhnəyə qədəm qoymuşdur" [7, s. 39]. Elə bu faktın özü "Vaqif" tarixi mənzum pyesinin ictimai dəyərini, yüksək bədii məziyyətlərini təsdiq edir.

Səməd Vurğunun "Fərhad və Şirin" mənzum-tarixi dramı, vətənpərvər Azərbaycan igidlərinin xarici qəsbkarlara qarşı apardığı qəhrəmanlıq mübarizəsini və mübarizə zəminində Fərhadla Şirinin sevgi macərasını əks etdirən bədii əsərdir. Bu mənzum tarixi dram əsəri 1941-ci ildən etibarən bir çox adlı-sanlı teatrların repertuarını bəzəyib. Bu romantik ideyalı, qəhrəmanlıq pyesi müxtəlif illərdə, ayrı-ayrı rejissorlar tərəfindən Naxçıvan teatrında da uğurla tamaşaya qoyulub.

"Fərhad və Şirin" mənzum tarixi dramı ilk dəfə naxçıvanlı sənətsevərlərə İbrahim Həmzəyevin quruluşunda (rəssam Əyyub Hüseynov, musiqi tərtibatçısı Ənvər Hüseynov, rejissor assistenti Kazım Şeyxov) 18 oktyabr 1942-ci ildə – müharibənin qanlı-qadalı günlərində göstərilib və layiqli səhnə həllini tapıb [2, s. 164]. Tamaşa gənclərə vətənpərvərlik duyğularının aşılanmasında mühüm rol oynayıb. Tamaşada İbrahim Həmzəyev – Fərhad, Firuzə Əlixanova – Şirin, Səməd Mövləvi – Şapur, Əyyub Haqverdiyev – Xosrov, Kazım Hüseynov – Vəzir, Zəroş Həmzəyeva – Məryəm, Məmmədrza Əliyev (Zəroş Həmzəyevin qardaşı) – Şiruyyə, Lalə xanım – Fitnə, Sara Azərova – Məhinbanu, Rza İsfəndiyarlı – Azər baba, Ağalar Əliyev – Topal rollarını canlandırıblar. Yaratdığı obrazın ümumi xarakterini dərindən duyan, müəllifdən gələn lirik-psixoloji, qəhrəmanlıq, məhəbbət motivlərini ön plana çəkən görkəmli aktyor İbrahim Həmzəyevin yaddaşlara həkk olan Fərhad surəti müharibə illərində yaratdığı ən maraqlı və yaddaqalan rollardandır. İbrahim Həmzəyev igid, cəngavər, eşq yolunda əzab və əziyyətlərə sinə gərən Fərhadın mənəvi dünyasını təbii ifa yozumuyla sənətsevərlərə təqdim edirdi. Müqtədir sənətkar Səməd Mövləvi tamaşada Şapurun mənəviyyatsızlığını, rəzilliyini, xain xislətini dolğunluqla canlandırıb əsl xarakter səviyyəsinə yüksəldərək tamaşaçıya təqdim edirdi.

Naxçıvan MSSR Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsi mütəmadi olaraq Naxçıvan teatrının aktyor və rejissorlarını Ordubad Dövlət Dram Teatrında göstərilən tamaşaların keyfiyyətinin yüksəldilməsi, eyni zamanda teatra gənc kadrların cəlb edilməsi üçün Ordubada yaradıcılıq ezamiyyətinə göndərdi. 1946-cı ildə Naxçıvan teatrının rejissoru İbrahim Həmzəyev və aktyoru Zəroş Həmzəyeva Ordubadda olduğu vaxt Azərbaycanın görkəmli sənətkarları Rza Əfqanlı və Bədurə xanım Əfqanlı Azərbaycan SSR Nazirlər Sovetinin "Kənd əhalisinə mədəni xidməti yüksəltmək haqqında"kı qərarı ilə Ordubada gəlirlər. Ordubadda Əkbər Məftunun "Sevənlər" adlı məzhəkəsini İbrahim Həmzəyevin quruluşunda və Bədurə xanım Əfqanlının bədii tərtibatında tamaşaya qoyurlar [11]. Rza Əfqanlının quruluşunda və Bədurə xanımın bədii tərtibatında hazırlanan S.Vurğunun "Vaqif" və "Fərhad və Şirin" tamaşalarında Rza Əfqanlı ilə Zəroş xanım Həmzəyeva tərəf müqabili (Rza Əfqanlı – Eldar, Zəroş Həmzəyeva – Xuraman (Rza Əfqanlı – Fərhad, Zəroş Həmzəyev – Şirin) kimi iştirak edirlər [3, s. 59-60; 10]. Onların tamaşalardakı məharətli çıxışları yerli artistlərin yaradıcılığına müsbət təsir bağışlayır.

"Fərhad və Şirin" 1947-ci ilin 11 iyununda İbrahim Həmzəyevin yeni quruluşunda (rəssam Məmməd Qasımov, musiqi tərtibatçısı Ənvər Hüseynov, rejissor assistenti Xədicə Qazıyeva) tamaşaya qoyulur [5, s. 148]. Rollarda – İsa Musayev (Fərhad), Zəroş Həmzəyeva (Şirin), Səməd Mövləvi (Şapur), Rza İsfəndiyarlı (Azər baba), Mirhəsən Mirişli və Kazım Hüseynov (Vəzir), Firuzə Əlixanova (Məhinbanu), Lətif Niftəliyev (Şiruyyə), Pakizə Məmmədova (Fitnə), Ağalar Əliyev (Topal), Rza Tumbullu (Ozan), kütləvi səhnələrdə isə Tamara Məmmədova, Sofya Hüseynova, Fatma Fətullayeva və Şərqiyyə İsmayılova (Qızlar), Əsgər Əhmədoğlu, Yaqub Şahtaxtlı, Yusif Haqverdiyev və Mirzə Ələkbərov (İgidlər) iştirak edirdilər.

1962-ci ildə yenidən İbrahim Həmzəyevin quruluşunda hazırlanan "Fərhad və Şirin" tamaşasına yeni ifaçılar cəlb edilmişdi. İstedadlı aktrisa Roza Cəfərxanovanın Şirin rolundakı xoşagəlim ifası onun yaradıcılıq imkanlarını bir daha aşkarladı. Məmməd Quliyevin Fərhadı, Əyyub Məmmədovun Xosrovu, Əkbər Qardaşbəyovun Azər babası, Pakizə Məmmədovanın Fitnəsi, Əkrəm Əliyev və Lətif Niftəliyevin Şiruyyəsi, Zəroş Həmzəyevanın Məryəmi sənətsevərlər tərəfindən rəğbətlə qarşılandı. "Zəroş Həmzəyeva müxtəlif quruluşlardakı "Fərhad və Şirin" tamaşasında iki monumental obrazla – Şirin və Məryəmlə qarşılaşıb. Aktrisanın gərgin yaradıcı zəhməti sayəsində bu obrazlar arasında kəskin fərq, hər iki obrazın fərdi xüsusiyyətləri, həyata baxış tərzi qabarıq şəkildə tamaşaçılara təqdim olunur. Şirin-Zəroş Həmzəyeva nə qədər incə və zərif duyğularla əhatə olunmuş, sevib-sevilməyə layiq bir qızdırsa, Məryəm – Zəroş Həmzəyeva məğrur və qürurludur [1, s. 34].

2006-cı ildə şair-dramaturq Səməd Vurğunun anadan olmasının 100 illiyi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin imzaladığı xüsusi Sərəncamda: "Böyük Azərbaycan şairi və dramaturqu Səməd Vurğun zəngin və ibrətamiz bir yaradıcılıq yolu keçmişdir. Onun istər poetik dünyası və istərsə də əlvan vüsətli dramaturgiyası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur" deyilir.

Xalq şairi Səməd Vurğunun dünyaya gəlişinin 100 illiyi 2006-cı ildə ölkəmizdə geniş miqyasda qeyd edildi. Əsərləri yenidən nəşr olundu, pyesləri teatrların repertuarlarına salındı. Zəngin yaradıcılığı barədə sənədli filmlər çəkildi, elmi-nəzəri konfranslar keçirildi. Bir sözlə onun yubileyi doğma Azərbaycanda böyük sevinc və məhəbbətlə qeyd olundu.

Naxçıvan teatrı da bu əlamətdar yubiley münasibəti ilə həmişəyaşar şair-dramaturqun "Fərhad və Şirin" mənzum-tarixi dramını müstəqillik illərində – 2006-cı ilin 28 oktyabrında yeni quruluşda (rejissor Kamran Quliyev, rəssam Əbülfəz Axundov, bəstəkar Kamal Əhmədov) təqdim etdi. Rollarda Rza Xudiyev (Fərhad), Elmira Kərimova (Şirin), Əli Əliyev (Xosrov), Nəzakət Xudiyeva (Məhin Banu), Həsən Ağasoy (Şapur), Nazlı Hüseynquliyeva (Məryəm), Zəminə Baxşəliyeva (Fitnə), Xəlil Hüseynov (Azər baba), Rövşən Hüseynov (Vəzir), Vidadi Rəcəbli (Topal), Vüsal Rzayev (Şiruyyə) oynayırdılar. Kütləvi səhnələrdə Tofiq Mövləvi, Yusif Allahverdiyev, Elxan Şeyxov, Bəhruz Haqverdiyev, Zakir Fətəliyev, Kəklik Novruzova, Günay Qurbanova, Xanım Şirəliyeva, Zəlihə Hüseynquliyeva, Məlahət Abbasova, Humay Bədəlova, Oqtay Əlirzayev, Ziya Həsənov, İlqar Babayev iştirak etdilər.

Baş rolun ifaçısı Rza Xudiyev Fərhadın mənəvi dünyasını, zəngin xarakterini ustalıqla canlandırdı. Onun ifasında Fərhad Vətənə, doğma el-obaya bağlı bir cəngavər təsiri bağışlayırdı. Elmira Kərimovanın məharətlə yaratdığı Şirin obrazı dəyanəti, zərifliyi və məsumluğu ilə diqqəti cəlb edirdi. Onun romantik boyalarla yaratdığı Şirin obrazı əsl məhəbbət aşiqini xatırladırdı.

Tamaşa maraqlı rejissor yozumu, rəssam işi, bəstəkar musiqisi və yaddaqalan aktyor oyunu ilə diqqəti cəlb etdi. Quruluşçu rejissor Kamran Quliyev müəllif ideyasını müxtəlif

sənət yozumlarıyla tamaşaçılara çatdırır, quruluşçu rəssam Əbülfəz Axundov lakonik yollarla tamaşanın bədii siqlətini bədii tərtibatda artırır, bəstəkar Kamal Əhmədovun bəstələdiyi musiqisi isə tamaşanın ideya-bədii səviyyəsini daha da yüksəldirdi.

Tamaşanın premyerasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və müəllifin oğlu Vaqif Səmədoğlu da iştirak etmişlər.

Səməd Vurğunun dramaturgiyası aktyor, rejissor, rəssam və bəstəkarın yaradıcılıq imkanlarını aşkara çıxardığı bir həqiqətdir. Teatr tariximizin salnaməsini nəzərdən keçirərkən bu qədim sənət ocağının tamaşalarında Vətən hissi, torpağa bağlılıq, insana sağlam münasibət diqqət mərkəzində saxlanılmaqla, Səməd Vurğunun "Vaqif", "Fərhad və Şirin" mənzum tarixi pyeslərinin də hər birinin səhnə təcəssümü öz orijinallığı, poetik və romantik vüsəti ilə seçildiyinin şahidi olursan.

ƏDƏBİYYAT

1. Qazıbəyov R., Vəzirov C. İbrahim Həmzəyev. Bakı: İşıq, 1982, 49 s.
2. Qəhrəmanov Ə. Naxçıvan teatrında rejissor sənəti. Naxçıvan: Əcəmi, 2020, 448 s.
3. Qəhrəmanov Ə. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı. Bakı: MBM, 2004, 420 s.
4. Naxçıvan teatrının salnaməsi. Naxçıvan: Əcəmi, 2010, 736 s.
5. Rəhimli İ., Vəzirov C. Naxçıvan teatrı. Bakı: Aspoliqraf LTD, 2008, 352 s., s. 158.
6. Mövləvi S. Naxçıvan teatrında. Səhnədən keçən yollar. Bakı: Yazıçı, 1983, 290 s.
7. Vəzirov C., Həsənəli E. Naxçıvan teatrı: dünən bu gün. Naxçıvan: Məktəb, 2007, 206 s.
8. "Şərq qapısı" qəz., 1939, 21 sentyabr.
9. "Şərq qapısı" qəz., 1939, 22 sentyabr.
10. "Şərq qapısı" qəz., 1946, 2 sentyabr.
11. "Şərq qapısı" qəz., 1946, 8 sentyabr.
12. Naxçıvan MR DA: F. 50, siy. 1, iş 20, v. 12.

AMEA Naxçıvan Bölməsi
E-mail: aliqehreman@yahoo.com

Ali Gahramanov

SAMAD VURGUN'S HISTORICAL AND PATRIOTIC DRAMAS ON THE NAKHCHIVAN STAGE

The paper considers the creative activity of the national poet, public figure, playwright, academician Samad Vurgun, his merits in the history of national drama and theater, the development of literature and culture. It was also emphasized that the outstanding artist's basis was the protection of national and moral values, purity of the national language, loyalty to traditions, and struggle for modernity. It is noted that he devoted more than thirty years of his 50-year life to poetry, art, created many lyrical, epic, satirical poems and verses, historical, poetical dramas in the spirit of folk heroism, and hundreds of scientific, scientific-publicist articles. Samad Vurgun wrote patriotic and monumental stage works with a patriotic spirit, such as "Vagif", "Farhad and Shirin", "Khanlar", "Human" for our national drama and theater.

This historical landscape at-tracted attention for its originality and dramatic theory, high poetic scope, enriched the repertoire of the national theater. The paper also shows the successful performance of historical, patriotic plays "Vagif", "Farhad and Shirin" by Samad Vurgun at the Nakhchivan Theater based on his-torical documents.

Keywords: *Samad Vurgun, people's poet, playwright, play, historical drama, national-moral value, theater, stage.*

Али Гахраманов

ИСТОРИКО-ПАТРИОТИЧЕСКИЕ ДРАМЫ САМЕДА ВУРГУНА НА СЦЕНЕ НАХЧЫВАНА

В статье рассматривается творческая деятельность народного поэта, общественного деятеля, драматурга, академика Самеда Вургуна, его заслуги в истории национальной драматургии и театра, развитии литературы и культуры. Также было подчеркнуто, что основой творчества выдающегося художника является защита национально-духовных ценностей, чистота национального языка, верность традициям и обычаям, упорство в борьбе за современность. Было отмечено, что более тридцати лет своей 50-летней жизни он посвятил поэзии, искусству, создал много лирических, эпических, сатирических стихов и поэм, исторических драм в духе народного героизма и сотни научных, научно-публицистических статей. Самед Вургун подарил нашей национальной драматургии и театру такие монументальные сценические произведения, как "Вагиф", "Фархад и Ширин", "Ханлар", "Человек". Было подчеркнуто, что эти исторические произведения привлекают внимание оригинальностью и драматургической ценностью, высоким поэтическим размахом, обогащают репертуар национального театра. Наряду с этим, в статье на основе исторических документов показаны успешные постановки в Нахчыванском театре историко- патриотических сценических произведений Самеда Вургуна "Вагиф", "Фархад и Ширин".

Ключевые слова: *Самед Вургун, народный поэт, драматург, пьеса, историческая драма, национально-духовная ценность, театр, сцена.*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxil olma tarixi: İlkin variant 13.01.2021
Son variant 18.02.2021

UOT 72

QADİR ƏLİYEV

SƏLCUQLAR DÖVRÜ NAXÇIVAN TÜRBƏLƏRİNİN MEMARLIQ DEKORUNDA HƏNDƏSİ ORNAMENTLƏRİN QURULUŞU SONSUZ FUNDAMENTAL OBLASTDA DİSKRET QRUPLARIN MÜSTƏVİ HƏRƏKƏTİNİN NƏTİCƏSİ KİMİ

Araşdırma işində müstəvi üzərində həndəsi ornamentlərin xassəsinə yeni baxış müstəvisindən yanaşılır, naxış elementlərinə müstəvi üzərində diskret qrupların hərəkəti nəticəsi olmasını tədqiq edilir. Əvvəlcə düzdün nöqtəvi qəfəsin nə olduğu aydınlaşdırılmaqla vahid nöqtəvi qəfəsə baxılır. Sonra isə diskret qrupların müstəvi hərəkəti zamanı müstəvi üzərində bütün həndəsi elementlərin, o cümlədən həndəsi ornamentlərin fırlanma və yerdəyişmə xassələri tədqiq olunur. Naxış elementi nöqtə kimi qəbul olunur. Əyani olaraq Yusif Küseyir oğlu türbəsi üzərində harmonik quruluşu müxtəlif olan iki həndəsi ornament seçilir, sonsuz fundamental oblastda onların diskret hərəkəti tədqiq olunur.

Açar sözlər: *harmonik quruluş, diskret qrup, fundamental oblast, yerdəyişmə, fırlanma.*

Məqsəd: Bu araşdırma işində müstəvi üzərində həndəsi ornamentlərin xassəsinə yeni baxış müstəvisindən yanaşmaqla naxış elementlərinə müstəvi üzərində diskret qrupların hərəkətinin nəticəsi olmasını tədqiq edəcəyik. Belə sistemlər tez-tez riyaziyyatın bir çox sahələrində, xüsusilə ədədlər və funksiyalar nəzəriyyəsində, həmçinin kristalloqrafiyada rast gəlinir. Müstəvi ornamentlər də quruluş etibarı ilə kristalloqrafik xassəyə malik olduqları üçün onların quruluşlarını bu baxımdan araşdırılmasının mümkünlüyü təsdiq olunur. Əvvəlcə ən sadə həndəsi forma olan müstəvi nöqtəvi qəfəsin nə olduğunu aydınlaşdırmalıyıq.

Müstəvi nöqtəvi qəfəs. Məlumdur ki, simmetrik naxışların təsviri zamanı sayı mümkün qədər az olan nöqtələr sistemindən istifadə olunmalıdır. "Belə nöqtələr çoxluğunun seçilməsində yalnız bir məqsəd var – naxışların alınması üçün mümkün qədər əyani təsəvvür yaratmaq" [4, s. 23].

Diskret hissəciklərdən təşkil olunan fiqurların ən sadəsi müstəvi kvadrat nöqtəvi qəfəsdir [şəkil 1].



Şəki 1. Müstəvi kvadrat nöqtəvi qəfəs [3, s. 42].

Bu qəfəsi almaq üçün sahəsi vahidə bərabər olan kvadratın təpə nöqtələrini müstəvi üzərində qeyd edirik. Sonra üfüqi və şaquli istiqamətdə həmin qanunauyğunluqla nöqtələri yerləşdiririk.

Nəticədə müstəvi üzərində kvadratın təpə nöqtələrini ifadə edən nöqtələr çoxluğu alınır. Bu prosesi sonsuzluğa qədər davam etdirmək olar. Belə nöqtələr çoxluğunda bir nöqtə götürüb ona yaxın nöqtələri üfüqi və şaquli istiqamətdə birləşdirsək vahid kvadratı alırıq. Bu qayda ilə alınan nöqtələr toplusu müstəvi üzərində kvadrat nöqtəvi qəfəsi əmələ gətirir.

Belə qəfəs müstəvisində həmçinin dörd nöqtə vasitəsi ilə təkcə kvadrat yox, eyni zamanda başqa müstəvi fiqurları da (məs. paraleloqram) almaq olar. "Belə paraleloqramların hamısının sahəsi həmin vahid kvadratın sahəsinə bərabər olur" [3, s. 41].

İndi isə daha ümumi "vahid qəfəs"ə baxaq. Belə vahid qəfəsi sahəsi vahidə bərabər olan istənilən paraleloqramla təşkil etmək olar.



Şəkil 2. Sahələri vahidə bərabər olan paraleloqramların yaradılması [3, s. 42].

Sahəsi vahidə bərabər olan belə paraleloqramın ən sadəsi rombdur. Bu rombun təpə nöqtələri müstəvi üzərində bərabəryanlı üçbucaqların təpə nöqtələrinin təşkil etdiyi nöqtələr çoxluğudur. Əgər bu nöqtələri mərkəz qəbul edib radiusları nöqtələr arasında məsafələrin yarısına bərabər olan toxunan çevrələr çəksək, onların mərkəz nöqtələrini birləşdirən düz xətlərin əmələ gətirdiyi üçbucaqlardan təşkil olunan qəfəs alırıq (şəkil 2).

Kristalloqrafiyada düzgün nöqtəvi sistem və diskret qrupların hərəkətinin nəticəsi kimi qəbul olunur. Bu faktor bizim qarşımızda tam həndəsi məsələ qoyur: obyektlərin [məs. atomların] bütün mümkün düzgün yerləşdirilməsi məsələsi. Bir çox məqsədlər üçün [bizim araşdırmada naxış elementləri] fərz edək ki, obyektlər nöqtə şəklindədir və onları düzgün nöqtəvi sistem şəklində təsəvvür edirik. Yuxarıda deyilənləri nəzərə alaraq düzgün nöqtəvi sistemi sağda göstərilən üç əlamətlə təyin olunur:

1. Düzgün müstəvi və ya fəza nöqtəvi sistem sonsuz sayda nöqtələr çoxluğuna malik olmalıdır. Burada nöqtələr çoxluğu dairə və ya kürə sərhədi daxilində olmalıdır. Bu zaman

onların say artımı dairə və ya kürənin uyğun radiuslarının kubu və ya kvadratı ilə mütənasib olmalıdır (Məlumdur ki, dairənin sahəsi onun radiusunun kvadratı ilə, kürənin həcmi isə onun radirsunun kubu ilə mütənasibdir – Q.Ə.).

2. Düzgün nöqtəvi sistem sonlu oblastda sonlu nöqtələr çoxluğuna malikdir.

3. Düzgün nöqtəvi sistem öz nöqtələrinə görə eyni vəziyyətdə yerləşməlidir.

Burada birinci iki xassənin izahına ehtiyac yoxdur. Üçüncü xassə isə aşağıdakı kimi izah olunur: sistemin müəyyən nöqtəsini onun başqa nöqtələri ilə birləşdirən xətlər çəkməklə başqa nöqtəvi sistem düzəltmək olur. Onda üçüncü xassə göstərir ki, bu yolla düz xətlərlə təşkil olunan fiqurlar əvvəlkilərlə konqruyent olur. Belə ki, müstəvinin və ya fəzanın müəyyən hərəkəti zamanı bir fiqur o biri ilə əvəz oluna bilir. Buradan belə nəticə çıxır ki, diskret hərəkət zamanı müstəvinin nöqtələrini onun başqa nöqtələri ilə əvəz etmək olar. Yəni sistem hərəkətdən əvvəl hansı vəziyyətdə olursa, hərəkətdən sonra da həmin vəziyyətdə olur. Beləliklə, üçüncü xassə aşağıdakı kimi ifadə olunur: düzgün nöqtəvi sistemin hər hansı nöqtəsi diskret qrupların hərəkəti zamanı sistemin başqa nöqtələri ilə üst-üstə düşür.

Diskret qrupların müstəvi hərəkəti zamanı müstəvi bərk cisimlər kimi qəbul edilir. Bu hərəkət zamanı müstəvinin son vəziyyəti başlanğıc vəziyyəti ilə üst üstə düşür. Üstəlik belə hərəkət zamanı bütün nöqtələrin trayektoriyaları müstəvinin öz üzərində olur. Nəticə etibarı ilə müstəvi hərəkət yalnız onun başlanğıc və son vəziyyəti ilə xarakterizə olunur. Belə halda bizim vəzifəmiz ondan ibarətdir ki, hər bir verilmiş müstəvi hərəkət üçün yerdəyişmənin ən sadə növünü tapaq. Araşdırmamızda ən sadə olan iki hərəkətə baxacağıq. Bunlardan biri paralel yerdəyişmədir. Bu hərəkət zamanı müstəvinin bütün nöqtələri bir-birinə paralel hərəkət edir və beləliklə, müstəvi üzərində bütün düz xətlər bir-birinə paralel qalır (şəkil 3).

Müstəvi hərəkətin ikinci ən sadəsi bir nöqtə ətrafında müəyyən bucaq altında fırlanma hərəkətidir. Bu hərəkət zamanı müstəvinin bütün nöqtələri və beləliklə, onun üzərində olan bütün düz xətlər fırlanma hərəkəti zamanı həmin bucaq qədər fırlanır, yalnız fırlanma nöqtəsi tərpənməz qalır (Şəkil 4).

Şəkil 3. Müstəvi üzərində nöqtənin yerdəyişmə hərəkəti [3, s. 59].



Şəkil 4. Müstəvi üzərində nöqtənin fırlanma hərəkəti [3, s. 58].

Baxılan müstəvi hərəkət zamanı hər bir belə hərəkət yalnız bir paralel yerdəyişmə və bir fırlanma hərəkəti ilə alına bildiyi üçün məsələnin həlli çox sadələşir. Şəkil 3-də düz xətt üzərində A^1 nöqtəsinə çevrilən müəyyən A nöqtəsi verilib. Tərpənməz B nöqtəsi bu iki nöqtənin ortasındadır. Şəkil 4-də isə A nöqtəsi tərpənməz B nöqtəsi ətrafında $\pi = 180°$ fırlanmaqla A^1 vəziyyətini alır.

İndi isə müstəvi üzərində qrupların hərəkətinə keçə bilərik. Bunun üçün nöqtə və oxların düzgün sistemini nəzərdən keçirmək, sonra isə konqruyent oblastda ornamental müstəvinin qurulmasını göstərməliyik.

Tədqiq olunan həndəsi ornamentlərin həndəsi quruluşu kvadrat, düzgün altıbucaqlı və

bu mənbədən yaranan mütənasiblik sistemlərinə aid olduğu üçün müstəvi üzərində kvadrat sonra isə düzgün altbucaqlı nöqtəvi qəfəs sistemlərinə baxırıq.

Əvvəlcə kvadrat nöqtəvi qəfəs sisteminə aid olan həndəsi ornamenti araşdıraq. Belə kvadratların mərkəzlərinin yerləşdirilməsi sahələri vahidə bərabər olan kvadratların yaradılmasına uyğun olan müstəvi nöqtəvi qəfəsdir (şəkil 2).

Şəkil 5-də kvadrat sisteminə aid olan nöqtəvi qəfəs sistemi göstərilib.



Şəkil 5. Kvadrat sisteminə aid olan nöqtəvi qəfəs sistemi.

Şəkil 6-də Yusif Küseyir oğlu türbəsi üzərində olan, harmonik quruluşu kvadrat və bu mənbədən yaranan mütənasiblik sisteminə əsaslanan həndəsi naxış kompozisiyası göstərilib [1, s. 111].

Bu naxış kompozisiyasının qrafik analizi şəkil 7-də göstərilib [1, s. 116]. Diskret qrupların müstəvi üzərində yerdəyişmə hərəkəti xassəsinə malik olan bir kvadrat qəfəsi daxilində olan həndəsi naxış kompozisiyasını götürüb araşdıraq (şəkil 7).

Şəkil 6. Yusif Küseyir oğlu türbəsi. Türbə üzərində həndəsi naxış kompozisiyası.



Şəkil 7. Həndəsi ornamentin qurulmasının qrafiki analizi [1, s. 111].

Burada 6 ədəd iki növ naxış elementi var (şəkil 8). Birinci növ naxış elementinin sayı 2 ədəd, ikinci növ naxış elementinin sayı 4 ədəddir (şəkil 8). Göründüyü kimi bu naxış kompozisiyasında diskret qrup təşkil edən naxış elementlərinin O, O_1, O_2 nöqtələri ətrafında fırlanma bucağı $\pi = 180°$-dir (şəkil 9).



Şəkil 8. Kvadrat qəfəs daxilində naxış kompozisiyası.



Şəkil 9. Kvadrat qəfəs daxilində naxış elementləri.

İndi isə harmonik quruluşu düzgün altıbucaqlı və bu mənbədən yaranan həndəsi naxış kompozisiyasını araşdıraq. Belə altıbucaqlıların mərkəzlərinin yerləşdirilməsi sahələri vahidə bərabər olan paraleloqramların yaradılmasına uyğun müstəvi nöqtəvi qəfəsdir (şəkil 2).

Şəkil 10-da düzgün altıbucaqlı sisteminə aid olan düzgün müstəvi qəfəs göstərilib.



Şəkil 10. Düzgün altıbucaqlı sisteminə aid olan nöqtəvi qəfəs sistemi.

Şəkil 11-də Yusif Küseyir oğlu türbəsi üzərində belə həndəsi naxış kompozisiyası göstərilib.

Şəkil 12-də isə türbə üzərində həndəsi naxış kompozisiyasının qrafiki analizi verilib. Müstəvi üzərində sonsuz fundamental oblastda baxılan bu həndəsi naxış kompozisiyasının düzgün altıbucaqlı qəfəs sistemindən birini götürüb (şəkil 13) naxış elementlərinin yerdəyişmə hərəkətini tədqiq edək.

Biz Səlcuqlar dövrünün iki naxış formasını tədqiq etdik. Ancaq həmin dövr memarlıq

abidələri üzərində olan bütün həndəsi ornamentlərin hamısının quruluşu göstərdiyimiz prinsipə əsaslanır. Nəticə olaraq göstərə bilərik ki, "Ornamental simmetriya diskret qrupların müstəvi hərəkətinə bağlıdır" [2, s. 282].

Şəkil 11. Yusif Küseyir oğlu türbəsi. Türbə üzərində həndəsi naxış kompozisiyası.



Şəkil 12. Yusif Küseyir oğlu türbəsi.
Həndəsi naxış kompozisiyasının qrafiki analizi [1, s. 130].

Düzgün altıbucaqlı qəfəs daxilində naxış elementlərinin sayı 7 ədəddir. Bunlardan biri düzgün altıbucaqlı, qalan altısı isə düzgün altıbucaqlının hissələridir (şəkil 14). Göründüyü kimi bu naxış kompozisiyasında diskret qrup təşkil edən naxış elementlərinin O nöqtəsi ətrafında fırlanma bucağı $\frac{\pi}{3} = 60°$-dir.



Şəkil 13. Düzgün altıbucaqlı qəfəs daxilində naxış kompozisiyası.



Şəkil 14. Düzgün altıbucaqlı qəfəs daxilində naxış elementləri.

ƏDƏBİYYAT

1. Əliyev Q. Memar Əcəmi Naxçıvani yaradıcılığında ahəngdarlıq. Bakı: Şərq-Qərb, 2007, 158 s.
2. Aliyev K. Başlanğıçların başlanğıcı: Nahcivan-Marağa mimarlık biçimlerinin mahiyeti. İstanbul: Akademi Titiz Yayınları, 2015, 482 s.
3. Гильберт Д., Кон-Фоссен С. Наглядная геометрия. Москва: Наука, 1981, 344 с.
4. Китайгородский А.И. Порядок и беспорядок в мире атомов. Москва: Наука,1984, 175 с.

Naxçıvan Dövlət Universiteti
E-mail: kadiraliyev@yahoo.com.tr

Gadir Aliyev

THE STRUCTURE OF GEOMETRIC ORNAMENTS IN THE ARCHITECTURAL DECORATION OF THE NAKHCHIVAN MAUSOLEUMS OF THE SELJUK PERIOD AS A RESULT OF THE FLAT MOVEMENT OF DISCRETE GROUPS ALONG THE INFINITE FUNDAMENTAL AREA

In the research work, the properties of geometric ornament on a plane are considered from a new perspective. The drawing elements are studied as a result of the movement of discrete groups on the plane. First, a one-point cell is considered, specifying what a cell with a straight point is. Then, the properties of rotation and displacement of all geometric elements, including geometric ornaments, are investigated on a plane during discrete groups' plane motion. The pattern element is taken as a point. Visually, on the grave of Yusif Kuseyir oglu, two geometric ornaments with different harmonic structures are highlighted, their discrete movements are studied in an infinite fundamental area.

Keywords: *harmonic structure, discrete group, fundamental region, displacement, rotation.*

Гадир Алиев

СТРУКТУРА ГЕОМЕТРИЧЕСКИХ ОРНАМЕНТОВ В АРХИТЕКТУРНОМ УКРАШЕНИИ НАХЧЫВАНСКИХ МАВЗОЛЕЕВ СЕЛЬДЖУКСКОГО ПЕРИОДА В РЕЗУЛЬТАТЕ ПЛОСКОГО ДВИЖЕНИЯ ДИСКРЕТНЫХ ГРУПП ПО БЕСКОНЕЧНОЙ ФУНДАМЕНТАЛЬНОЙ ОБЛАСТИ

В исследовательской работе свойства геометрического орнамента на плоскости рассматриваются с новой точки зрения. Изучаются элементы рисунка как результат движения дискретных групп по плоскости. Во-первых, рассматривается одноточечная клетка, уточняя, что такое клетка с прямой точкой. Затем свойства вращения и смещения всех геометрических элементов, включая геометрические орнаменты, исследуются на плоскости во время плоского движения дискретных групп. Элемент узора принимается за точку. Визуально на могиле Юсифа Кусейир оглы выделены два геометрических орнамента с разной гармонической структурой, их дискретные движения изучаются в бесконечной фундаментальной области.

Ключевые слова: *гармоническая структура, дискретная группа, фундаментальная область, смещение, вращение.*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 12.02.2021
Son variant 02.03.2021

UOT 75

FİZZƏ QULİYEVA

MİLLİ SƏHNƏQRAFİYANIN PEŞƏKAR TƏŞƏKKÜLÜNDƏ MƏMMƏD QASIMOV YARADICILIĞININ ROLU

XX əsrdə Azərbaycan teatrının peşəkar təşəkkülündə milli səhnəqrafiyanın da güclü təsiri olmuşdur. Milli səhnəqrafiyanın dünyəvi ənənələrə, elmi-nəzəri prinsiplərə əsaslanan professional inkişafında ixtisas təhsili almış qrafikaçı və boyakar rəssamların böyük rolu olmuşdur. Gənc olmasına, həmçinin yaşadığı dövrün çətinliklərinə baxmayaraq ilk səhnə debütlərindən peşəkarlığı ilə uğur qazanmış Məmməd Qasımov fasiləsiz çalışdığı 45 il ərzində milli səhnəqrafiyanın təşəkkülünə əvəzsiz töhfələr vermişdir. Görkəmli rəssam dünyanın qabaqcıl səhnəqrafiya ənənələrindən bəhrələnməklə səhnədə canlı həyat lövhələrinin real təəssürat yaradan təcəssümünə nail olmaq üçün monumental biçimli, təbii effektə malik dekorasiyaların qurulmasına böyük əhəmiyyət vermişdir. Qabaqcıl üsul və metodların tətbiqi, ən əsası monumental, real, "psixoloji" dekorasiyalar "Atayevlər ailəsində", "Odlu diyar", "Bir gəncin manifesti", "Bayramın birinci günü", "Çiçəkli dağ", "Komsomol", "Məhsəti", "Hücum" və başqa tamaşaların peşəkar səhnə təcəssümünə nail olmaqda əvəzsiz vasitə olmuşdur.

Açar sözlər: *Məmməd Qasımov, milli teatr, Naxçıvan Teatrı, teatr rəssamı, səhnəqrafiya, səhnəqraf, yaradıcılıq, realizm.*

XIX-XX əsrlərdə ölkəmizin aydınları tərəfindən mütərəqqi təcrübəyə əsaslanaraq aparılan maarifçilik ideyalarının təbliğat və təşviqatı əhali arasında dünyəvi elmlərin öyrənilməsinə marağı artırmış, elmi potensiala malik peşə ocaqlarının formalaşmasında, ixtisas sahiblərinin yetişməsində səmərəli olmuşdur. Maarifçilik ideyalarının təbliğində güclü təsirə malik milli teatrın peşəkar səviyyədə inkişafı diqqətdə saxlanılan əsas məsələ olduğu üçün qədim və zəngin tarixi ənənələrə köklənmiş bədii fəaliyyət sahəsində aparılan islahatlar XX yüzilliyin əvvəllərində reallaşaraq bu sənətin yeni müstəvidə inkişafına zəmin olmuş, professional təmayülü getdikcə gücləndirilmiş, bədii yaradıcılığın yeni növ və janrlarını, üslub zənginliyini özündə ehtiva etmişdir. Milli teatrın peşəkar ənənələrinin təşəkkülündə qüvvətli vasitə hesab olunan səhnəqrafiyanın qabaqcıl elmi metodlar əsasında praktiki inkişafı da əsas mahiyyət daşımışdır.

Teatr-dekor sənətinin inkişafını təmin edən əsas şərtlərdən biri də peşəkar təhsillə bağlıdır [3, s. 8]. Bir vaxtlar, elə indinin özündə belə teatr-dekor sənəti üzrə təhsil probleminin olmasına baxmayaraq Azərbaycan teatrının professional platformada inkişafı bu istiqamətdə fəaliyyət göstərən sənət məbədgahlarında qrafikaçı, boyakar rəssamlara tələbatı artırdığından yaradıcı insanların teatrla əməkdaşlıq etməsi səhnəqrafiya sənətinin formalaşmasını sürətləndirmişdi. Məhz elə qrafikaçı, boyakar rəssamların səyi nəticəsində milli səhnəqrafiyanın əsası qoyulmuşdur. Əli bəy Hüseynzadə, Əzim Əzimzadə, Bəhruz Kəngərlinin teatrla qurduğu yaradıcılıq əlaqələri milli teatr-dekor sənətinin təməl daşlarının atılmasında uğurlu olmuşdur. Rüstəm Mustafayev, Nüsrət Fətullayev, Əyyub Fətəliyev, Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov və başqaları əldə olunmuş uğurların daha da möhkəmlənməsində və intişar tapmasında xüsusi rola malik olmuşlar.

Naxçıvan teatrı yarandığı gündən peşəkarlığı ilə tanınmış və əyalət teatrına xas olmayan yüksək inkişafı, professional səhnəqrafiya ənənəsilə diqqət çəkmişdir. XX yüzillikdə Naxçıvan Teatrında fəaliyyət göstərmiş milli kadrlar arasında yaradıcı fəaliyyətini tamamilə peşəkar

səhnəqrafiyaya həsr etmiş rəssamların fədakarlığı ilə qocaman sənət ocağı dünyəvi əsaslarla təşəkkül tapmış və milli səhnəqrafiyanın inkişafına öz işlərilə böyük töhfələr vermişlər. Bu istiqamətdə əldə olunmuş uğurlarda görkəmli rəssam Məmməd Qasımovun da əməyi böyükdür. Onun gördüyü dəyərli işlər milli səhnəqrafiyanın uğurudur.

Məmməd Qasımov yüksək səviyyəli, elmi əsaslı səhnə quruluşları ilə milli səhnəqrafiyada şəxsi imzası ilə tanınmış və Azərbaycanın üç ən yaxşı teatr rəssamından biri olaraq dəyərləndirilmişdir. Hələ sağlığında ikən fəxri fərmanlarla, "Əməkdə fərqlənməyə görə" medalı, "Əlaçı mədəniyyət işçisi" döş nişanı, Əməkdar incəsənət xadimi fəxri adına layiq görülməsi onun yaradıcılığında nümayiş etdirdiyi yüksək peşəkarlığına verilən dəyərin nəticəsi idi.

Məmməd Qasımovun peşəkar səhnəqrafiyada ilk kövrək addımları o qədər də asan olmayan 1943-cü ilə, İkinci Dünya Müharibəsinin tüğyan etdiyi zamanlara təsadüf etmişdir. O zamanlar Naxçıvan Teatrının lazımi səviyyədə fəaliyyətini təşkil etmək üçün maddi bazanın yetərli olmaması, kadr boşluğu, ləvazimat çatışmazlığı ilə nəticələndiyindən çətin şərtlər altında, zəif baza ilə tamaşanın yüksək təşkilinə nail olmaq olduqca fədakar yaradıcılıq əzmi tələb edirdi. Məmməd Qasımovun peşəkar səhnəqrafiyaya gəlişi məhz bu cür çətinliklərlə gerçəkləşsə də, yüksək sənətkarlıq nümayiş etdirməsi onun gələcək fəaliyyətinə vəsilə olmuşdur. Taleyin gərdişindən hələ ixtisas təhsilini başa vurmayan gəncə qocaman sənət ocağı Naxçıvan teatrında tamaşanın bədii quruluş işinin həvalə olunması onun peşəkar sənət sirlərinə bələd olmasından, yaradıcılığını layiqincə tanıda bilməsindən qaynaqlanırdı. Gəncin istedadını dəyərləndirən təkcə Naxçıvan teatrının görkəmli aktyoru və rejissoru Səməd Mövləvi olmamışdı. Məmməd Qasımovun Naxçıvan Teatrındakı müvəffəqiyyətli debütləri Tbilisi Dövlət Azərbaycan Dram Teatrının bədii rəhbəri, Gürcüstan SSR xalq artisti İbrahim İsfahanlının diqqətini cəlb etmiş və gənc rəssamı 1945-ci ildə teatrda işləməyə dəvət etmişdi [4; 1, s. 5]. 1945-ci ildə ilk olaraq F.Əmirov və M.S.Ordubadinin "Ürəkçalanlar", 1946-cı ildə isə A.Məşədibəyov və M.Əlizadənin "Toy kimindir?" musiqili komediyasının bədii quruluşu M.Qasımova həvalə olunmuş və bütün yaradıcı heyətin həyəcanına baxmayaraq premyeralar uğurlu keçmişdi. Bu uğura baxmayaraq o, fəaliyyətini ömürlük Naxçıvan teatrı ilə bağlamış və milli səhnəqrafiyanın inkişafı üçün çalışmışdır.

XX əsrin 40-80-ci illəri milli səhnəqrafiya sahəsində fəaliyyət göstərmiş Məmməd Qasımov öz sənət irsilə bu bədii yaradıcılıq sahəsinin peşəkar ənənələrlə təşəkkülünə böyük töhfələr vermiş sənət fədailərindən biri olmuşdur. XX əsrin 30-cu illərindən sonra Azərbaycan sənət məbədgahlarında realizmin incəsənətdə təntənəsinə nail olmaq üçün səy göstərilmiş və müvafiq sahədə fəaliyyət göstərən yaradıcı insanlar öz işini bu əsasda qurmağa çalışmışdır. Daim axtarışda olan rəssam səhnənin real şəkildə bədii həllini tapması və həyati təəssürat oyatması üçün şəxsi təşəbbüsü ilə dünya səhnəqrafiyası qanunlarını öyrənmiş, təcrübədən keçmiş qabaqcıl metodları yaradıcılığında tətbiq etmiş, tərtibat üsulundan imtina edərək işini boyakar, qrafikaçı rəssam, həmçinin heykəltəraş səhihliyi, memar dəqiqliyilə reallaşdırmışdır. Məmməd Qasımov səhnəqrafiya yaradıcılığında mütərəqqi Avropa və rus sənət təcrübəsinə əsaslanmış, böyük təsir qüvvəsinə malik olan metodlardan bəhrələnməklə bayağı zövqdən, əyləndirici həvəskar üsullardan uzaqlaşmışdır. Rəssam xarici ölkələrin səhnəqrafiya təcrübəsinə əsaslanmasına baxmayaraq, bədii münasibətlərində milli mövqedən çıxış edərək sənət prinsiplərini peşəkar milli teatrın, o cümlədən səhnəqrafiyanın təşkilinə istiqamətləndirmişdir.

XX əsrin əvvəllərində səhnə quruluşlarında sadə tərtibat üsullarına yer verilirdisə zamanla bu ənənə geriləyir. Məmməd Qasımov yaradıcılığında üçölçülü məkanın yaradılmasının tərəfdarı olduğu üçün fon pərdəsindən imtina etsə də bəzi səhnə quruluşlarında köməkçi

vasitə olaraq primitiv saydığı ənənəyə qayıdış edir. Bu məqamda rəssam realizm çərçivəsində simvolizmi qabardır və göstərir ki, teatr üslub və texnika zənginliyini sevir. Milli səhnəqrafiya sahəsində həvəskar və yaxud peşəkar fəaliyyət göstərən rəssamların əksəriyyətinin yaradıcılığında rəng, işıq-kölgə, kolorit kimi təsviri sənətin bədii ifadə vasitələrinin əsas rol oynadığını görürüksə, M.Qasımovun yaradıcılığında bununla yanaşı forma, ölçü, fəza quruluşu kimi həndəsi və riyazi qanunlar da önəmli rol oynayır.

Məmməd Qasımov yaradıcılığında bədii, elmi əsaslara köklənərək nəzəri metodlardan dəqiqliyi ilə bəhrələnməklə peşəkar səhnəqrafiya ənənəsinə sadiq qalmışdır. Rəssam dünya səhnəqrafiyasında əldə olunmuş və sınaqdan çıxmış sənət uğurlarını yaşatmaqla Naxçıvan teatrının peşəkar səviyyədə təşəkkülünə istiqamətlənmiş ideyalarını gerçəkləşdirməyə səy göstərmişdir. Onun "Məhsəti", "Bir gəncin manifesti", "Çiçəkli dağ", "Atayevlər ailəsində", "Odlu diyar", "Anamın kitabı", "Günahsız müqəssirlər", "Mehmanxana sahibəsi", "Nə yardan doyur, nə əldən qoyur", "Vaqif", "Hücum" və sair tamaşalarda nümayiş etdirdiyi yüksək peşəkarlıq Naxçıvan teatrı üçün böyük uğurlardan biri olmuşdur. Naxçıvan teatrında əldə olunmuş bu uğur milli səhnəqrafiyanın peşəkar ənənələrlə təşəkkülünə əsl töhfə olmuşdur.

XX əsr Azərbaycan teatrında dram janrı dominantlıq təşkil etdiyindən bu qəbildən olan əsərlərin həyati təəssüratı Azərbaycan səhnəqraflarının, o cümlədən Məmməd Qasımovun da yaradıcılığına böyük təsir etmişdir. Xalqın maariflənməsinə, dünyagörüşünün artmasına, ən əsası da milli ideyaların, multikultural dəyərlərin güclənməsinə yönəldilmiş dram əsərlərinin səhnə təcəssümünün təsiredici alınması üçün "psixoloji" dekorasiyalara ehtiyac duyulurdu. Bədaye və Malı teatrlarının nail olduğu bu ekspressivliyi əldə etmək üçün rəssamların tamaşaçını duyğulandıran işlərinə böyük maraq yaranmışdı. Dünyəvi mahiyyət daşıyan, yüksək ideyaları təbliğ edən, bəşəri hissləri aşılayan dram əsərlərinin ideya yükü onun səhnə təcəssümü ilə tamamlanmalı, dramatik təsiri ilə səhnə və tamaşaçı arasında real empatiyaya malik olmalıdır mövqeyindən çıxış edən Məmməd Qasımov Naxçıvan teatrındakı yarım əsirlik fəaliyyətilə ideyasını gerçəkləşdirə bilmiş və milli teatrda gedən bu prosesə öz töhfəsini vermişdir.

Rəssamın real empatiyaya malik səhnə quruluşlarından biri Nazim Hikmətin "Bayramın birinci günü" pyesinin səhnə təcəssümü ilə əlaqədardır. Səhnə dairəsinə uyğunlaşdırılmış dekorasiyada ikimərtəbəli evin həcmli görünüşünü verərək real məkan effekti yaratmış və aktyorların məkanda dinamik performansına nail olmuşdur. M.Qasımov bu quruluşda pyesin məzmunundan qaynaqlanaraq axtarılan qızıl və brilyantları ön plana çəkmir, onları ikimərtəbəli evin pillələrinə, ayaqlar altına düzür, əksinə evi, məişəti qabardaraq isti bir yuvanın nə qədər önəmli olduğunu göstərir.

"Teatr rəssamı kətan və yaxud kağız səthi ilə işləmir. O, tamaşanın yarandığı səhnə məkanında çalışır" [2, s. 94]. Bir çox rəssamlarımızın, o cümlədən M.Qasımovun yaradıcılığı ilə tanış olduqdan sonra bu fikirlərlə razılaşmaq mümkün olmur. Dəzgah səhnəqrafiyası bir növ tamaşa öncəsi məşq prosesini xatırladır. Səhnə, geyim, qrim eskizləri, tamaşa maketləri, səhnə çertyojları bunların hər biri səhnədən uzaq dəzgah arxasında, rəssamın uzun, gərgin əməyinin nəticəsindən sonra reallaşır. Hələ zamanında bu mövqedə olanlarla mübarizə aparmış Məmməd Qasımov peşəkar səhnəqrafiyanın təşəkkülü istiqamətində daim öz mövqeyində durmuş, fikrindən dönməmişdir. Repertuar kasadlığı, rejissor və texniki işçilərin çatışmadığı ən çətin vaxtlarda belə öz əməyini teatr üçün əsirgəməyən rəssam butafor, işıq, maket işlərini boynuna çəkərək səhnə quruluşunun peşəkar həllinə nail olmaq üçün öhdəsinə düşməyən işləri də sevərək yerinə yetirmişdir [1, s. 5].

Məmməd Qasımov peşəkar səhnəqrafiyanın təşəkkülündə maketçiliyin də vacib olduğunu fərdi yaradıcılıq dəsti xəttilə yaşatmışdır. Görkəmli rəssam səhnə quruluşunun üçölçülü məkanda uğurlu alınması üçün maketlərin hazırlanmasını vacib bilmişdir. Onun sənət ənənəsinə çox az səhnəqrafın yaradıcılığında nadir halda rast gəlmək mümkündür. Rəssamın maketləri ilə yaxından tanışlıq onun tullantı sayılan kiçik materialları bir-birilə calaşdırıb zərif və dəbdəbəli dekorasiya detallarını hazırlaması peşəkar səhnəqrafın işlərini sərgiləyir. Naxçıvan Pionerlər Evində pedaqoji fəaliyyət göstərdiyi illərdə dərnək üzvlərinə maketçiliyin əhəmiyyətindən bəhs edir və onlara maket hazırlamağı öyrədirdi. Səhnənin forma və ölçü qavramında maketçiliyin mühüm rol oynadığını göstərərək istər fərdi yaradıcılığında, istərsə tədris prosesində bu ənənəni yaşatmışdır.

Məmməd Qasımovun "Anamın kitabı", "Bayramın birinci günü", "Məhsəti", "Hücum" və başqa tamaşalar üçün hazırladığı maketlərdən hər biri özünəməxsus üslubu, rəngarəngliyi, milli, qeyri-milli xarakterli çalarları ilə diqqəti çəkir. Hər bir tamaşa üçün hazırladığı maketlərində əsasən real üslubdan bəhrələnsə də, müxtəlif məqamlarda konstruktivizm, simvolizm cərəyanın, şərti dekorativ üslubun verdiyi imkanlardan yararlanmışdır. "Anamın kitabı" tamaşasının səhnə təcəssümünə həsr olunmuş maketdə dram əsərinin ideya məzmununu açmaq üçün simvolizmə müraciət edərək İ.A.Krılovun "Durna, balıq və xərçəng" təmsilindən epizodlar verir. Rəssam təmsildəki alleqorik obrazları, hadisələri "Anamın kitabı" əsərindəki surətlərlə, burada baş verənlərlə eyniləşdirir və əyani şəkildə tamaşaçıya göstərir ki, fikir birliyi olmasa heç bir nəticəyə gəlmək mümkün olmaz və çıxış yolunu birləşməkdə görür. Birliyi yaradan isə böyüklər, ağsaqqal və ağbirçəkdir. Əsərin sonunda kitabın anaya məxsusluğu, kitabın arasından çıxan vəsiyyət yazılmış kağızın ataya məxsusluğu birliyi yaradanlara işarədir. Əsərdə hadisələr evin daxilində baş verirsə tamaşada isə evi simvolizə edən taxta arabanın üzərində cərəyan edir. Məkandan, arxa fondan fərqli olaraq evin əşyaları, aktyorların geyimləri real səpkidə bədii həllini tapmışdır. Məmməd Qasımovun zaman-zaman səhnə quruluşlarında üslub, cərəyan sintezindən istifadə etməsi rəssamın realizm çərçivəsində improvizələrini nümayiş etdirir.

XX əsrin 40-80-ci illəri milli səhnəqrafiyanın peşəkar təşəkkülünə nail olmaq üçün aparılmış səmərəli işlərdə Məmməd Qasımovun da böyük əməyi olmuşdur. Onun yaradıcılıq irsi teatrda islahatların aparıldığı, həmçinin rekvizit çatışmazlığının, kadr boşluğunun olduğu bir dövrə təsadüf etsə də gərgin əməyilə bütün çətinliklərə sinə gərmiş və peşəkar səhnəqrafiya ənənəsinin inkişafı istiqamətinə səylərini əsirgəməmişdir.

AMEA Naxçıvan Bölməsi
E-mail: fizze25@mail.ru

ƏDƏBİYYAT

1. Babayev V. Səhnənin cazibə qüvvəsi. "Ədəbiyyat və incəsənət" qəz., 1980, 22 avqust, s. 8.
2. Cəfərzadə K.Ə. Təsviri incəsənət-9: Dərslik. Bakı: Yazıçı, 2016, 136 s.
3. Əfəndiyev T. Çağdaş teatr prosesləri: zaman müstəvisində baxış. "525-ci qəzet", 2014, 8 mart, s. 8.
4. Mirzə Fətəli Axundov adına Tbilisi Dövlət Azərbaycan Teatrı müdiriyyətinin Təsdiq kağızı. 1945, 19 noyabr.

Fizza Guliyeva

THE ROLE OF MAMMAD GASIMOV'S CREATIVITY IN THE PROFESSIONAL DEVELOPMENT OF NATIONAL SCENOGRAPHY

In the twentieth century, national scenography also had a strong influence on the Azerbaijani theater's professional development. Educated graphic artists and painters have played an essential role in the professional development of national scenography based on secular traditions and scientific and theoretical principles. Despite his young age and the difficulties of his time, Mammad Gasimov, who has succeeded professionally from his first performances on the stage, has made an invaluable contribution to the formation of national scenography for 43 years of continuous work. The renowned artist paid great attention to creating monumental scenery with a natural effect to achieve a realistic presentation of live scenes, using the world's leading theatrical traditions. The use of advanced methods and techniques, and most importantly, monumental, real, "psychological" scenery in the performances "In the Atayevs' family", "Tierra del Fuego", "Manifesto of a young man", "The first day of the holiday", "Flower Mountain", "Komsomol", "Mahsati", "Attack", and others is an invaluable way to achieve professional stage performance.

Keywords: *Mammad Gasimov, national scenography, Nakhchivan Theater, theater designer, scenography, scenographer, creativity, realism.*

Физза Гулиева

РОЛЬ ТВОРЧЕСТВА МАМЕДА ГАСЫМОВА В ПРОФЕССИОНАЛЬНОМ СТАНОВЛЕНИИ НАЦИОНАЛЬНОЙ СЦЕНОГРАФИИ

В XX веке национальная сценография также оказала сильное влияние на профессиональное становление азербайджанского театра. Образованные художники-графики и живописцы сыграли важную роль в профессиональном развитии национальной сценографии, основанной на светских традициях и научно-теоретических принципах. Несмотря на свой юный возраст и трудности своего времени, Мамед Гасымов, профессионально преуспевший с первых выступлений на сцене, за 43 года непрерывной работы внес неоценимый вклад в формирование национальной сценографии. Выдающийся художник уделял большое внимание созданию монументальных декораций с эффектом природы, чтобы добиться реалистичного представления живых сцен, используя передовые мировые театральные традиции. Применение передовых методов и приемов, а главное монументальных, реальных, «психологических» декораций в спектаклях «В семье Атаевых», «Огненная земля», «Манифест молодого человека», «Первый день праздника», «Цветочная гора», «Комсомол», «Махсати», «Атака» и других является бесценным способом для достижения профессионального сценического воплощения.

Ключевые слова: *Мамед Гасымов, национальная сценография, Нахчыванский театр, театральный художник, сценография, сценограф, творчество, реализм.*

(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant: 06.01.2021
Son variant: 15.02.2021

İQTİSADİYYAT

UOT 354.85; 368.9

ELTUN İBRAHİMOV

İCBARİ TİBBİ SIĞORTA VƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TƏTBİQİ İMKANLARI

Tibbi sığorta, fəaliyyət göstərdiyi bütün ölkələrdə insanların tibbi ehtiyaclarının qarşılanmasının əsas yollarından biri olmaqla, mühüm sağlamlıq xərclərini özündə birləşdirir.

İcbari tibbi sığorta müəyyən edilmiş proqram çərçivəsində sığorta olunmuş şəxslərə pulsuz tibbi yardımın təmin olunmasına yönəlmiş sosial sığorta növüdür. Onun ən mühüm səciyyəvi xüsusiyyətlərindən biri də ölkədəki hər kəs üçün səhiyyə xidmətini əhatə edən sığorta sistemi olmasıdır. Sığortalı və ya onun himayəsində olan hər hansı bir şəxs sağlamlığı ilə əlaqədar bütün hallarda zəruri tibbi yardım ala bilərlər. Ölkələr, sahib olduqları sosial iqtisadi gerçəkliklərə və mədəni kontekstlərə əsaslanan xidmətləri yerinə yetirmək üçün müxtəlif sığorta və maliyyələşdirmə sxemlərindən istifadə edirlər. Bu sığorta mexanizmi, istər dövlət, istərsə də özəl olsun, sığorta sisteminin xüsusiyyətlərinə, əhatə olunan xidmətlərə görə fərqli komponentlərə və ödəmə tələblərinə malikdir. İcbari tibbi sığortanın fəaliyyətə başlaması bir növ həmrəylik prinsipi ilə səciyyələndirilir və ən üstün cəhətlərindən biri də dövlət büdcəsində səhiyyə xərclərinə əhəmiyyətli dərəcədə qənaət olunmasıdır. Xüsusi maliyyələşdirmə aspektləri və əhalinin sağlamlıq göstəriciləri ilə əlaqədar olaraq müəyyən bir ölkədə tibbi sığorta sxemlərinin necə işlədiyini təhlil etmək, bütün səhiyyə sisteminin fəaliyyətinə ümumi mənzərini ortaya çıxara bilər. Məqalədə tibbi sığorta, dünya təcrübəsində fəaliyyət mexanizmi, ölkəmizdə onun qanunvericilik bazasının formalaşması və Naxçıvan Muxtar Respublikasında icbari sığorta haqqında ümumi məlumat verilir.

Açar sözlər: *tibbi sığorta, səhiyyə maliyyəsi, tibb işçiləri, muxtar respublika, mexanizm, icbari.*

Məlumdur ki, dünyanın inkişaf etmiş ölkələrində tibbi xidmətlərin qiymətləri və buna uyğun olaraq da həkimlərin maaşları xeyli yüksəkdir. Səhiyyə sistemini əhatə edən təminat və xidmət üsulları ənənəvi mal və xidmətlər bazarlarından əhəmiyyətli dərəcədə fərqlənməkdədir. Misal üçün, bir avtomobilin sığorta qiyməti həmin avtomobilin növünə və ilinə, etibarlılığına, tərkib hissəsinin qiymətlərinə və həyata keçirdiyi xidmətlərə görə müəyyənləşdirilir. Belə bir yanaşma, tibbi sığorta şirkətlərinin tibbi orqanlara və həm də xəstələrə sığorta sataraq səhiyyə qiymətlərinə təsir etdiyi bazar ilə əlaqədar olaraq istifadə edilə bilməz. Tibbi sığorta şirkətləri, ilk növbədə, sığorta xidmətlərinin tələbinə təsir göstərməklə sağlamlıqla əlaqəli xidmətlərin tədarükçüləri və təminatçıları olaraq nəzərdə tutulmalıdır.

Tibbi sığorta, fəaliyyət göstərdiyi bütün ölkələrdə insanların tibbi ehtiyaclarının qarşılanmasının əsas yollarından biridir. Aparılan araşdırmalar göstərir ki, hər bir kəsin ümumi xərclərində səhiyyə xərcləri 15-20%-dən çox olarsa və ya ev təsərrüfatlarının xalis gəlirlərinin 40%-i tibbi ehtiyaclara ödənərsə, bu gələcəkdə maliyyə fəlakətinə səbəb ola bilər. Buna görə də maddi riskləri yüksək olan az gəlirli insanlar xəstələndikdə, bir dilemma ilə qarşılaşırlar: ya sərbəst surətdə səhiyyə xidmətlərindən istifadə edərək pullarını ödəməklə daha da kasıblaşacaq və ya bu xidmətlərdən imtina edib xəstələnəcək və əmək qabiliyyətini itirəcək. Müxtəlif ölkələrdə maliyyələşdirmə və təşkilati mexanizmlərdə dəyişiklik olmasına baxmayaraq, yüksək gəlirli ölkələrdə tibbi baxımdan zəruri qayğıya universal giriş təmin edilməsinə dair yekdil öhdəlik mövcuddur. Beynəlxalq miqyasda tibbi sığorta səhiyyə xidmətlərindən istifadəni

yaxşılaşdırmağa və ev təsərrüfatlarının yoxsulluğa qarşı xərclərdən qorunmasına xidmət edir. Xüsusi maliyyələşdirmə aspektləri və əhalinin sağlamlıq göstəriciləri ilə əlaqədar olaraq müəyyən bir ölkədə tibbi sığorta sxemlərinin necə işlədiyini təhlil etmək, bütün səhiyyə sisteminin fəaliyyətinə ümumi mənzərəni ortaya çıxara bilər [2].

İcbari tibbi sığorta ölkənin bütünlükdə işləyən və işləməyən əhalisini əhatə edən sığorta sistemi olmaqla bir növ həmrəylik prinsipi əsasında hər kəs üçün tibbi xidmətləri özündə birləşdirən bir layihədir. Müasir dünyada səhiyyənin maliyyələşdirilməsinin yeni forması olan icbari sığortanın əsas məqsədi təkmil maliyyələşmə mexanizmləri əsasında əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yüksəltmək və əlçatanlığını təmin etməkdir. Aparılan təhlillər göstərir ki, icbari tibbi sığortanın tətbiq edilməsi zamanı yaradılan nəzarət mexanizmi səhiyyə xidmətləri sahəsində keyfiyyətin tam təmin olunmasına imkan yaradacaq. Digər tərəfdən xidmətlərdən faydalanmaq istəyənlərin öz hüquq və öhdəliklərini başa düşməsinə, tibb işçilərinin məsuliyyətlərinin artırılmasına şərait yaradır ki, bu zaman insanlar istənilən vaxt dövlətin zəmanəti əsasında xidmətlərdən ödənişsiz şəkildə yararlana biləcəklər.

İcbari tibbi sığorta sisteminin dünya üzrə təcrübəsinə nəzər salsaq görərik ki, əksər inkişaf etmiş sənaye ölkələrində xərclərin böyük hissəsi ya dövlət, ya da sosial sığorta qurumları tərəfindən qarşılanmaqdadır. İngiltərədə demək olar ki, bütün səhiyyə xidmətləri hökumət tərəfindən əhatə olunur və vətəndaşın özəl səhiyyə xidmətlərində pullu müalicə almaq hüququ var. Almaniyada səhiyyənin maliyyələşdirilməsi müxtəlif mənbələrdən daxil olan vəsaitlərin konsolidasiyası hesabına həyata keçirilir. Burada icbari tibbi sığorta fondları dövlət büdcəsi, işəgötürənlərin köçürmələri və işçilərin ödənişləri hesabına formalaşır. Tibbi sığorta ödənişi əmək haqqı fondunun 13-14 faizini təşkil edir. Çox kanallı maliyyələşdirmə sistemi səhiyyə maliyyəsi sahəsində zəruri zəmini hazırlayıb sabit inkişafın təmin olunmasına şərait yaradır. Bu cür mexanizm Almaniya, Fransa, Hollandiya, İsveçrə, Kanada və Yaponiyada daha uğurlu nəticələr vermişdir. Çexiyada və Lüksemburqda orta hesabla əhalinin səhiyyə xərclərinin 90%-ə qədəri, Böyük Britaniya, İsveç, Danimarka və Norveçdə 85%-ə qədər, Almaniyada 79%, İsveçrədə 58%, Fransada 76%, İtaliyada 75%-i dövlət tərəfindən ödənilməkdədir. Həmçinin qonşu Türkiyə Respublikası da icbari tibbi sığorta sistemi sahəsində xeyli irəliləyişlər qət etmişdir.

Ölkəmizdə də son illər ərzində həyata keçirilən sosial islahatların daha da dərinləşdirilməsi, həmçinin dünya sisteminə inteqrasiya icbari tibbi sığortanın tətbiq edilməsini şərtləndirməkdədir. Çünki bu tətbiqetmə əhalinin sosial müdafiəsinin təmin edilməsi formasıdır. Səhiyyə sisteminin təkmilləşdirilməsi istiqamətində "Tibbi sığorta haqqında", "Özəl tibbi fəaliyyəti haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının qanunları, "İcbari tibbi sığortanın tətbiqi konsepsiyası"nın təsdiq edilməsi haqqında, "İcbari tibbi sığorta üzrə Dövlət Agentliyinin yaradılması haqqında", "Azərbaycanda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamları mühüm hüquqi-iqtisadi baza formalaşdırmışdır.

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda "Tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə Azərbaycan Respublikası əhalisinin tibbi və dərman yardımı almasına təminat verir. Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, icbari tibbi sığorta proqramına müvafiq həcmdə əhalinin tibbi və dərman yardımı almasını təmin edir. Könüllü tibbi sığorta icbari tibbi sığorta proq-

ramında müəyyənləşdirildiyindən əlavə könüllü tibbi sığorta müqaviləsi əsasında əhalinin tibbi və digər xidmətlər almasını təmin edir". Həmçinin bu qanunda icbari tibbi sığortanın maliyyə mənbələri kimi sığorta haqları, o cümlədən dövlət büdcəsinin vəsaiti hesabına ödənilən sığorta haqları, subroqasiya hüququnun istifadəsi nəticəsində əldə edilən gəlirlər, icbari tibbi sığorta üzrə sərbəst vəsaitlərin idarə olunması nəticəsində əldə edilən gəlirlər, müştərək maliyyələşmə məbləği, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyən edilmiş qaydada cəlb edilmiş borclar, cərimələrdən, maliyyə sanksiyalarından və hesablanmış faizlərdən daxilolmalar, habelə qanunla qadağan olunmayan digər mənbələr göstərilir [5].

Qeyd eləmək lazımdır ki, "İcbari Tibbi Sığorta" haqqında qanun 20 il əvvəl qəbul olunmasına baxmayaraq müəyyən səbəblərə görə tətbiq edilməmişdir.

İlkin olaraq Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən icbari tibbi sığortanın tətbiq edilməsi pilot layihələr formasında Yevlax, Mingəçevir, Ağdaş və Naxçıvan regionlarında həyata keçirilmişdir. 2020-ci ildən başlayaraq isə bütün ölkə ərazisində rəsmi surətdə həyata keçirilməyə başlanılmışdır ki, bu tədbirlərin ilkin olaraq başlayacağı regionlardan biri də muxtar respublikamızdır.

Muxtar respublikada icbari tibbi sığorta istiqamətində ilk addım Ali Məclis Sədrinin müvafiq Fərmanı əsasında 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin yaradılması hesab oluna bilər. Bundan sonra ardıcıl olaraq Sədərək, Şərur, Kəngərli, Şahbuz, Ordubad, Babək, Culfa rayonlarında icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında müvafiq sərəncamlar imzalanmış, bu istiqamətdə nəzərdə tutulan dövlət siyasətinin həyata keçirilməsinə zəmin yaratmaq və əhalinin bütün təbəqələrinə bərabər şərtlərin yaradılmasını təmin etmək üçün mümkün hüquqi baza daha da təkmilləşdirilmişdir. Bununla əlaqədar olaraq isə, artıq bu rayonların mərkəzi xəstəxanaları publik hüquqi şəxs statusu almış, onların işçilərinin aylıq vəzifə maaşları artırılmışdır. Mərkəzi xəstəxanalarda yeni avadanlıqlar quraşdırılmış, respublikamızda, qonşu ölkələrdə təhsil almış mütəxəssislər və həkimlər cəlb olunmuşdur. Bütün bunlar isə icbari tibbi sığortanın müvəffəqiyyətlə həyata keçirilməsinə imkan verəcəkdir.

Şübhəsiz ki, ölkəmizdə bu ildən başlayaraq geniş tətbiq olunacaq sığorta sisteminin muxtar respublikada da təşəkkül tapması o qədər də çətin və mürəkkəb olmayacaqdır. Belə ki, bir neçə illər öncə həyata keçirilən pilot layihələrin elə ilk məkanlarından birinin muxtar respublika olması bu istiqamətdə mühüm təcrübəyə yiyələnməkdən xəbər verir. Xidmətlərin müvafiq bölmələr üzrə elektron qaydada həyata keçirilməsi və vahid məlumat bazasında toplanması həm müraciəti qeydə alanlar, həmdə müraciət edənlər üçün prosedurları xeyli sadələşdirəcəkdir. Tibbi sığortanın əsas xidmətlər bazasına isə müasir dünya təcrübəsi əsasında ən kiçik xidmətlərdən tutmuş, təcili yardım, peyvəndlər, ilkin səhiyyə xidməti, laborator müayinələr, cərrahiyyə əməliyyatları, əhalinin ixtisas həkiminə qədərki müayinəsi, tibbi göstərişlərə əsasən müvafiq ixtisas həkimlərinə və əlavə müayinələrə göndərilməsi, ambulator xidmət təminatı, stasionar müayinə, uşaqların peyvənd təqvimi əsasında planlı vaksinasiyası, hamiləlik və doğuş xidməti, ciddi dispanser müşahidə və s. daxildir.

İcbari tibbi sığortanın tətbiq edilməsi gələcəkdə xeyli imkanlar və müsbət nəticələr vəd etməkdədir. İlk növbədə, dövlət büdcəsindən asılılığın aradan qalxması deməkdir ki, bu da maliyyə sabitliyin qorunması üçün vacib şərtlərdən biridir. Məlum olduğu kimi muxtar respublikanın 2020-ci il üçün təsdiq edilmiş büdcəsində səhiyyə xərcləri orta hesabla 13

milyon 700 min manat nəzərdə tutulur ki, bu xərclər xəstəxanaların və səhiyyə sahəsində müəyyən olunmuş proqramların maliyyələşdirilməsinə yönəldiləcəkdir. Bunu ötən illə müqayisə etdikdə xərclərdə orta hesabla 84% azalmanın şahidi ola bilərik ki, bu da cari ildən başlayaraq icbari tibbi sığortanın tətbiqi ilə əlaqədardır. Digər tərəfdən, tibbi işçilərinin maaşlarının artımına səbəb olmaqla yanaşı, əhalinin sağlamlığının təmin olunması, vaxtaşırı müayinədən keçirilməsi və onların maddi durumunun yaxşılaşmasına kömək edəcəkdir. Gələcəkdə xarici ölkələrə müalicə üçün gedənlərin sayının əhəmiyyətli dərəcədə azalacağı ehtimalları, səhiyyə sistemində mərkəzləşdirilmiş idarəetmə sistemlərinin yaradılması, məlumat bazalarının təkmilləşdirilməsi icbari sığortanın tətbiq edilməsinin yaradacağı əlavə imkanlar hesab oluna bilər. Daha bir mühüm faktor kimi icbari tibbi sığorta işəgötürənlər və müəssisələrin sağlam işçi potensialına sahib olması deməkdir ki, bu da hər sahibkarın nail olmaq istədiyi əsas məqsədlərdən biri kimi onların bu proseslərə marağını stimullaşdıracaqdır.

Bu və ya digər müsbət amilləri nəzərə alaraq əminliklə deyə bilərik ki, icbari tibbi sığortanın tətbiq olunması gələcəkdə muxtar respublikada səhiyyə sisteminin son texnoloji imkanlar və vasitələrlə təchiz olunması, ixtisaslı tibb personalının formalaşması və əhali sağlamlığının müdafiəsi istiqamətində xeyli müsbət imkanlar yaradacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin rəsmi internet səhifəsi. www.sehiyye.gov.az/
2. Ho A. Health Insurance. Encyclopedia of Global Bioethics. June, 2015, pp. 1-9.
3. Akın F. Sigortacılığa Giriş. Ekin Yayınevi, 2018, 232 s.
4. Əliyeva L. Azərbaycanda sığorta sistemi: iqtisadi və sosial proseslərə multiplikator təsiri kimi. Bakı: Qanun, 2011, 108 s.
5. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 1999, 28 oktyabr, № 725-IQ http://www.e-qanun.az/

AMEA Naxçıvan Bölməsi
E-mail: eltunibrahimov@yahoo.com

Eltun Ibrahimov

MANDATORY HEALTH INSURANCE AND POSSIBILITIES OF APPLICATION IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Health insurance, being one of the main ways to meet people's medical needs in all countries where it operates, covers significant health costs. Mandatory health insurance is a type of social insurance that aims to provide free medical care to people within the specified social programs. One of its most important features is that it has an insurance system covering health care for everyone in the country. The insured person or any dependent of him/her can receive the necessary medical care in all cases related to health. Countries use various insurance and financial schemes to provide services based on their socio-economic realities and cultural contexts. Whether public or private, this insurance mechanism has different components and payment requirements according to the insurance system's characteristics

and the services covered. A kind of solidarity characterizes the start of compulsory health insurance, and one of its advantages is significant savings in health care costs in the government budget. In terms of specific funding aspects and population health indicators, analyzing how health insurance schemes work in a particular country can provide a general overview of the entire health care system. The article provides general information about health insurance, the mechanism in world practice, its legal framework in our country, and mandatory insurance in the Nakhchivan Autonomous Republic.

Keywords: *medical insurance, health finance, healthcare staff, autonomous republic, mechanism, mandatory.*

Элтун Ибрагимов

ОБЯЗАТЕЛЬНОЕ МЕДИЦИНСКОЕ СТРАХОВАНИЕ И ВОЗМОЖНОСТИ ЕГО ПРИМЕНЕНИЯ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

Медицинское страхование, являясь одним из основных способов удовлетворения медицинских потребностей людей во всех странах, где оно действует, покрывает значительные медицинские расходы.

Обязательное медицинское страхование – это социальное страхование, целью которого является предоставление бесплатной медицинской помощи людям в рамках указанных социальных программ. Одной из наиболее важных особенностей является наличие системы страхования, покрывающей медицинское обслуживание всех жителей страны. Застрахованное лицо или любой из его иждивенцев может получить необходимую медицинскую помощь во всех случаях, связанных со здоровьем. Страны используют различные страховые и финансовые схемы для предоставления услуг в зависимости от их социально-экономических реалий и культурных условий. Будь то публичное или частное, этот механизм страхования имеет различные компоненты и требования к оплате в зависимости от характеристик системы страхования и покрываемых услуг. Начало обязательного медицинского страхования характеризуется своеобразной солидарностью, и одним из его преимуществ является значительная экономия расходов на здравоохранение в государственном бюджете. Что касается конкретных аспектов финансирования и показателя здоровья населения, анализ того, как работают схемы медицинского страхования в конкретной стране, может дать общий обзор всей системы здравоохранения. В статье представлена общая информация о медицинском страховании, механизм в мировой практике, его правовая база в нашей стране и обязательное страхование в Нахчыванской Автономной Республике.

Ключевые слова: *медицинское страхование, финансирование здравоохранения, медицинские работники, автономная республика, механизм, обязательный.*

(İqtisad elmləri doktoru, professor Nazim Əhmədov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 27.01.2021
Son variant 16.02.2021

UOT 314

KAZIM NAĞIYEV

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA ŞƏHƏR VƏ KƏND ƏHALİSİNİN SAYININ DƏYİŞİLMƏSİ MEYLLƏRİ

Məqalədə 1924-2020-ci illəri əhatə edən dövr ərzində Naxçıvan Muxtar Respublikası əhalisinin , o cümlədən şəhər və kənd əhalisinin sayında baş verən dəyişikliklərə dair göstəricilər öz əksini tapmışdır. Həmçinin məqalədə muxtar respublikada və onun ayrı-ayrı şəhər və inzibati rayonlarında əhaliyə və o cümlədən şəhər və kənd əhalisinə dair statistik məlumatlar təhlil edilərək bir sıra sosial-iqtisadi, milli-mədəni və digər amillərin təsiri nəticəsində əhalinin sayında müsbət dəyişikliklərin və meyllərin olması qeyd olunur.

Açar sözlər: *demoqrafik inkişaf, şəhər əhalisi, kənd əhalisi, məskunlaşma.*

Naxçıvan Muxtar Respublikası Kiçik Qafqazın cənub-qərb qurşağında [2, s. 17] Zaqafqaziya yaylasının cənub-şərqində yerləşir [3, s. 8]. O, şimaldan və şimali-şərqdən Ermənistan Respublikası ilə (246 km.), cənubdan və cənubi-qərbdən İran İslam Respublikası ilə (204 km.) və Türkiyə Respublikası ilə (15 km.) həmsərhəddir. Naxçıvan Muxtar Respublikasının ərazisi 5,5 min kvadrat kilometr, əhalisi 459,6 min nəfərdir (1 yanvar 2020). Əhalinin 135,6 min nəfəri və ya 29,5%-i şəhər yerlərində, 324,0 min nəfəri və ya 70,5%-i isə kənd yerlərində yaşayır və onların 229,6 min nəfəri və ya 50,0%-i kişilərdən, 230,0 min nəfəri və ya 50,0%-i isə qadınlardan ibarətdir. Əhalinin sıxlığı isə 1 kvadrat kilometrə 84 nəfər düşür. 2009-cu il əhalinin siyahıyaalınmasına əsasən muxtar respublika əhalisinin 99,6%-ni azərbaycanlılar, qalan hissəsini isə ruslar, kürdlər və digər xalqların nümayəndələri təşkil etmişdir. 2019-cu ildə muxtar respublikada əhalinin orta ömür müddəti kişilər üzrə 76,6 yaş, qadınlar üzrə isə 80,7 yaş olmuşdur. Naxçıvan Muxtar Respublikasına iri sənaye, elm və mədəniyyət mərkəzi olan paytaxt Naxçıvan şəhəri və 7 inzibati rayon – Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək daxildir. Bu rayonlar 6 şəhəri (Naxçıvan, Şərur, Babək, Ordubad, Culfa və Şahbuz), 9 qəsəbə və 203 kənd yaşayış məntəqələrini əhatə edir.

Naxçıvan MR-də əhalinin sayının dəyişilməsi (min nəfər)

İllər	Cəmi əhali, min nəfər	O cümlədən		Yekuna nisbətən %-lə	
		şəhər	kənd	Şəhər	kənd
1924	90,0	11,0	79,0	12,2	87,8
1926	104,9	14,7	90,2	14,0	86,0
1939	126,7	22,5	104,2	17,8	82,2
1959	141,4	38,3	103,1	27,1	72,9
1970	202,2	49,5	152,7	24,5	75,5
1975	222,9	55,7	167,2	25,0	75,0
1980	243,6	63,9	179,7	26,2	73,8
1985	269,8	75,1	194,7	27,8	72,2
1990	300,5	88,9	211,6	29,6	70,4
1991	307,2	89,9	217,3	29,3	70,7
1992	315,1	91,5	223,6	29,0	71,0
1993	320,8	91,8	229,0	28,6	71,4
1994	326,1	92,5	233,6	28,4	71,6
1995	331,9	93,3	238,6	28,1	71,9
1996	337,8	94,2	243,6	27,9	72,1

1997	343,0	94,5	248,5	27,6	72,4
1998	348,0	94,3	253,7	27,1	72,9
1999	354,1	95,1	259,0	26,9	73,1
2000	358,8	96,2	262,6	26,8	73,2
2001	363,1	97,1	266,0	26,7	73,3
2002	366,9	97,8	269,1	26,7	73,3
2003	370,4	98,9	271,5	26,7	73,3
2004	373,9	110,1	263,8	29,4	70,6
2005	377,8	110,9	266,9	29,4	70,6
2006	382,1	111,6	270,5	29,2	70,8
2007	386,0	112,3	273,7	29,1	70,9
2008	391,8	114,2	277,6	29,1	70,9
2009	397,3	115,4	281,9	29,0	71,0
2010	402,4	116,7	285,7	29,0	71,0
2011	410,1	119,5	290,6	29,1	70,9
2012	418,5	121,7	296,8	29,1	70,9
2013	427,2	123,9	303,3	29,0	71,0
2014	435,3	127,2	308,1	29,2	70,8
2015	439,8	128,2	311,6	29,1	70,9
2016	444,4	131,0	313,4	29,5	70,5
2017	449,1	132,4	316,7	29,5	70,5
2018	452,8	133,6	319,2	29,5	70,5
2019	456,1	134,5	321,6	29,5	70,5
2020	459,6	135,6	324,0	29,5	70,5

1970, 1999-cu illərin məlumatları əhalinin siyahıyaalınmaları üzrə, qalan illərin məlumatları isə ilin əvvəlinə göstərilmişdir.

Qeyd: Cədvəl Naxçıvan MR Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi 1924-2020-ci illəri əhatə edən 96 il ərzində Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 5,1 dəfə artaraq 90,0 min nəfərdən 459,6 min nəfərə, o cümlədən şəhər əhalisinin sayı daha sürətlə, yəni 12,3 dəfə artaraq 11,0 min nəfərdən 135,6 min nəfərə, kənd əhalisinin sayı isə 4,1 dəfə artaraq 79,0 min nəfərdən 324.0 min nəfərə gəlib çatmışdır.

1897-1924-cü illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin sayının 87,3 min nəfər və ya 49,2% azalaraq 177,3 min nəfərdən 90,0 min nəfərə düşməsinə və xüsusilə yerli azərbaycanlıların sayca azalmasına 1905-1906-cı və 1915-1918-ci illərdə baş vermiş ermənimüsəlman qırğınları və bu qanlı hadisələr nəticəsində əhalinin kütləvi surətdə başqa yerlərə, xüsusilə İrana və Türkiyəyə köçməsi, dəhşətli aclıq nəticəsində əhalinin böyük tələfata uğraması, Naxçıvan ərazisinin bir hissəsinin Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistana qatılması, Sovet hakimiyyətinin qurulduğu ilk illərdə əhalinin bir qisminin keçmiş SSRİ-nin və Azərbaycan SSR-in iri şəhərlərinə daimi yaşamağa, işləməyə və təhsil almağa köçüb getmələri, habelə əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin nisbətən aşağı düşməsi və digər amillər təsir göstərmişdir.

1924-1926-cı illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 14,9 min nəfər və ya 16,6% artaraq 90 min nəfərdən 104,9 min nəfərə, o cümlədən şəhər yerlərində 3,7 min nəfər və ya 33,6% artaraq 11 min nəfərdən 14,7 min nəfərə, kənd yerlərində isə 11,2 min nəfər və ya 14,2% artaraq 79,0 min nəfərdən 90,2 min nəfərə çatmışdır.

1926-1939-cu illərdə isə Muxtar Respublikada əhalinin sayı 21,8 min nəfər və ya 20,8% artaraq 104,9 min nəfərdən 126,7 min nəfərə, o cümlədən şəhər yerlərində 7,8 min nəfər və

ya 53,1% artaraq 14,7 min nəfərdən 22,5 min nəfərə, kənd yerlərində isə 14,0 min nəfər və ya 15,5% artaraq 90,2 min nəfərdən 104,2 min nəfərə çatmışdır. 1926-1939-cu illərdə muxtar respublikada əhalinin sayının 13 il ərzində 21,8 min nəfər artması isə başqa amillərlə yanaşı, 1929-cu ildə Zaqafqaziyada Mərkəzi Komitənin qərarı ilə 657 kv. km ərazinin – Şərur qəzasının Qurdqulaq, Xaçın, Horadiz; Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndlərinin; Ordubad qəzasının – Qorçevan kəndinin, habelə Kilid kəndi torpaqlarının bir hissəsinin; 1930-cu ildə isə Əldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələrinin Ermənistana verilməsi ilə bağlıdır [1, s. 71].

1939-1959-cu illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 14,7 min nəfər və ya 11,6% artaraq 126,7 min nəfərdən 141,4 min nəfərə, o cümlədən şəhər yerlərində 15,8 min nəfər və ya 70,2% artaraq 22,5 min nəfərdən 38,3 min nəfərə qalxmış, kənd yerlərində isə 1,1 min nəfər və ya 1,1% azalaraq 104,2 min nəfərdən 103,1 min nəfərə düşmüşdür. 1939-1959-cu illərdə muxtar respublikada əhalinin sayının nisbətən az, yəni 20 il ərzində cəmi 14,7 min nəfər artmasına səbəb isə bütövlükdə keçmiş SSRİ və Azərbaycan SSR-də olduğu kimi, burada da əsasən 1941-1945-ci illərdəki müharibənin göstərdiyi mənfi nəticələrlə bağlıdır.

Qeyd etmək lazıdır ki, Naxçıvan Muxtar Respublikasının 1924-2020-ci illəri əhatə edən 96 illik tarixi ərzində əhalinin ən surətli orta illik artımı keçən əsrin 60-70-ci illərində müşahidə olunmuşdur. Ümumiyyətlə həmin dövr bütövlüklə Azərbaycanda əhalinin demoqrafik inkişaf səviyyəsinin ən yüksək göstəriciyə malik olduğu dövr kimi səciyyələnir. Bu dövrdə daha doğrusu 1959-1970-ci illərdə keçirilən əhalinin siyahıyaalınması dövründə Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 43% (müqayisə üçün, Azərbaycan SSR-də 38,4%, keçmiş SSRİ-də isə 15,8%), o cümlədən şəhər yerlərində 29,2% (Azərbaycan SSR-də 45,1%, keçmiş SSRİ-də isə 36%), kənd yerlərində 48,1% (Azərbaycan SSR-də 32,2% artmış, SSRİ-də 2,9% azalmışdır) artmışdır.

1970-1990-cı illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 98,3 min nəfər və ya 48,6% artaraq 202,2 min nəfərdən 300,5 min nəfərə, o cümlədən şəhər yerlərində 39,4 min nəfər və ya 79,6% artaraq 49,5 min nəfərdən 88,9 min nəfərə, kənd yerlərində isə 58,9 min nəfər və ya 38,6% artaraq 152,7 min nəfərdən 211,6 min nəfərə çatmışdır.

1990-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 159,1 min nəfər və ya 52,9% artaraq, 300,5 min nəfərdən 459,6 min nəfərə, o cümlədən şəhər yerlərində 46,7 min nəfər və ya 52,5% artaraq, 88,9 min nəfərdən 135,6 min nəfərə, kənd yerlərində isə 112,4 min nəfər və ya 53,1% artaraq, 211,6 min nəfərdən 324,0 min nəfərə gəlib çatmışdır.

Aparılan təhlillər göstərir ki, XX əsrin axırları və XXI əsrin əvvəllərində muxtar respublikada şəhər əhalisinin sürətli artımı qeydə alınmışdır. Fikrimizcə urbanizasiya prosesləri, muxtar respublikada bəzi rayon mərkəzlərinə şəhər statusunun verilməsi, habelə rayonlarda yeni müəssisələrin yaradılması və iş yerlərinin açılması nəticəsində şəhər əhalisi kənd əhalisinə nisbətən xeyli artmışdır. Belə ki, 1970-1990-cı illərdə şəhər əhalisi 79,6%, kənd əhalisi isə 38,6%, 2010-2020-ci illərdə isə şəhər əhalisi 16,2%, kənd əhalisi isə 13,4% artmışdır.

1924-2016-cı illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin tərkibində şəhər və kənd əhalisinin xüsusi çəkisi dəyişmişdir. Belə ki, əhalinin tərkibində şəhər əhalisinin xüsusi çəkisi 1924-cü ildə 12,2%, 1926-cı ildə 14,0%, 1939-cu ildə 17,8%, 1959-cu ildə 27,1%, 1970-ci ildə 24,5%, 1990-cı ildə 29,6%, 2010-cu ildə 29,0%, 2020-ci ildə isə 29,5%, kənd əhalisinin xüsusi çəkisi isə 1924-cü ildə 87,8%, 1926-cı ildə 86,0%, 1939-cu ildə 82,2%, 1959-cu ildə 72,9%, 1970-ci ildə 75,5%, 1990-cı ildə 70,4%, 2010-cu ildə 71,0%, 2020-ci ildə isə 70,5% təşkil etmişdir. 2016-2020-ci illərdə isə əhalinin tərkibində şəhər əhalisinin

xüsusi çəkisi 29,5%, kənd əhalisinin xüsusi çəkisi 70,5% olmaqla bu göstəricilər dəyişməz qalmışdır.

Naxçıvan Muxtar Respublikasının şəhər və ayrı-ayrı inzibati rayonlarında əhalinin həm demoqrafik göstəriciləri, həm də məşğulluq səviyyəsi onun məskunlaşma vəziyyətindən asılı olaraq fərqlənir. Muxtar respublikada iqtisadiyyatın və sosial sahələrin kompleks şəkildə inkişafı, həmçinin yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, kommunal, xidmət və sosial infrastruktur təminatının həcminin və keyfiyyətinin yüksəldilməsi, sənaye müəssisələrinin fəaliyyətinin bərpa edilməsi və yeni istehsal müəssisələrinin yaradılması, torpaqların kənd əhalisinə paylanması və aqrar sektorun inkişafı istiqamətində həyata keçirilən kompleks tədbirlər burada demoqrafik proseslərin, o cümlədən əhali məskunlaşmasının inkişafı üçün özünəməxsus imkanlar yaratmışdır ki, bunun da nəticəsində muxtar respublikada demoqrafik proseslərin müxtəlif gedişinin bazası olan məskunlaşma prosesində müəyyən irəliləyişlərin olması müşahidə olunur. Belə ki, 1990-cı ildə muxtar respublikada əhalinin tərkibində şəhər əhalisinin xüsusi çəkisi 29,6%, kənd əhalisinin xüsusi çəkisi isə 70,4% təşkil etmişdirsə, 2020-ci ildə əhalinin tərkibində şəhər əhalisinin sayı 46,7 min nəfər və ya 52,5%, kənd əhalisinin sayı isə 112,4 min nəfər və ya 53,1% artaraq şəhər əhalisinin xüsusi çəkisi 29,5%, kənd əhalisinin xüsusi çəkisi isə 70,5% olmaqla əhalinin məskunlaşma prosesində tarazlıq qorunub saxlanılmışdır.

2010-2020-ci illəri əhatə edən 10 il ərzində Naxçıvan Muxtar Respublikasında əhalinin sayı 57,2 min nəfər və ya 14,2% artaraq 402,4 min nəfərdən 459,6 min nəfərə, o cümlədən şəhər yerlərində 18,9 min nəfər və ya 16,2% artaraq 116,7 min nəfərdən 135,6 min nəfərə, kənd yerlərində isə 38,3 min nəfər və ya 13,4% artaraq 285,7 min nəfərdən 324,0 min nəfərə çatmışdır.

Naxçıvan Muxtar Respublikasındakı inzibati rayonlar ümumiyyətlə oxşar sosial-iqtisadi prosesləri birgə keçirsələr də onların yerli təbii-iqtisadi imkanları və istehsal vərdişləri əhalinin müxtəlif demoqrafik düşüncəsini formalaşdırmışdır [1, s. 225].

2010-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və ayrı-ayrı inzibati rayonlarında əhalinin sayında baş verən dəyişikliklərə nəzər salsaq görərik ki, bu dəyişikliklər müsbətə doğru meyl etməklə ayrı-ayrılıqda fərqli surətdə artımla nəticələnmişdir. Belə ki, həmin dövrdə Naxçıvan şəhərində əhalinin sayı 11,2 min nəfər və ya 13,4% artaraq 83,3 min nəfərdən 94,5 min nəfərə, o cümlədən şəhər əhalisi 10,1 min nəfər və ya 13,7% artaraq 73,8 min nəfərdən 83,9 min nəfərə, kənd əhalisi isə 1,1 min nəfər və ya 11,6% artaraq 9,5 min nəfərdən 10,6 min nəfərə çatmışdır. Şərur rayonunda əhalinin sayı 14,2 min nəfər və ya 13,7% artaraq 103,3 min nəfərdən 117,5 min nəfərə, o cümlədən şəhər əhalisi 0,7 min nəfər və ya 10,4% artaraq 6,7 min nəfərdən 7,4 min nəfərə, kənd əhalisi isə 13,5 min nəfər və ya 14,0% artaraq 96,6 min nəfərdən 110,1 min nəfərə çatmışdır. Babək rayonunda əhalinin sayı 12,5 min nəfər və ya 19,6% artaraq 63,7 min nəfərdən 76,2 min nəfərə, o cümlədən şəhər əhalisi 2,5 min nəfər və ya 75,8% artaraq 3,3 min nəfərdən 5,8 min nəfərə, kənd əhalisi isə 10,0 min nəfər və ya 14,2% artaraq 60,4 min nəfərdən 70,4 min nəfərə çatmışdır. Ordubad rayonunda əhalinin sayı 4,7 min nəfər və ya 10,3% artaraq 45,5 min nəfərdən 50,2 min nəfərə, o cümlədən şəhər əhalisi 0,8 min nəfər və ya 7,6% artaraq 10,5 min nəfərdən 11,3 min nəfərə, kənd əhalisi isə 3,9 min nəfər və ya 11,1% artaraq 35,0 min nəfərdən 38,9 min nəfərə çatmışdır. Culfa rayonunda əhalinin sayı 5,4 min nəfər və ya 13,0% artaraq 41,6 min nəfərdən 47,0 min nəfərə, o cümlədən şəhər əhalisi 1,5 min nəfər və ya 12,6% artaraq 11,9 min nəfərdən 13,4 min nəfərə, kənd əhalisi isə 3,9 min nəfər və ya 13,1% artaraq 29,7 min nəfərdən 33,6 min nəfərə çatmışdır. Kəngərli rayonunda əhalinin sayı 4,9 min nəfər və ya 17,6% artaraq 27,9 min

nəfərdən 32,8 min nəfərə, o cümlədən şəhər əhalisi 1,1 min nəfər və ya 21,6% artaraq 5,1 min nəfərdən 6,2 min nəfərə, kənd əhalisi isə 3,8 min nəfər və ya 16,7% artaraq 22,8 min nəfərdən 26,6 min nəfərə çatmışdır. Şahbuz rayonunda əhalinin sayı 2,4 min nəfər və ya 10,5% artaraq 22,9 min nəfərdən 25,3 min nəfərə, o cümlədən şəhər əhalisi 1,6 min nəfər və ya 43,2% artaraq 3,7 min nəfərdən 5,3 min nəfərə, kənd əhalisi isə 0,8 min nəfər və ya 4,2% artaraq 19,2 min nəfərdən 20,0 min nəfərə çatmışdır. Sədərək rayonunda isə əhalinin sayı 1,9 min nəfər və ya 13,4% artaraq 14,2 min nəfərdən 16,1 min nəfərə, o cümlədən şəhər əhalisi 0,6 min nəfər və ya 35,3% artaraq 1,7 min nəfərdən 2,3 min nəfərə, kənd əhalisi isə 1,3 min nəfər və ya 10,4% artaraq 12,5 min nəfərdən 13,8 min nəfərə çatmışdır.

Aparılan araşdırmalardan aydın olur ki, 2010-2020-ci illəri əhatə edən 10 il ərzində Naxçıvan Muxtar Respublikasında əhalinin sayında ən yüksək artım Babək (ümumi əhali 19,6%, şəhər əhalisi 75,8%, kənd əhalisi 14,2% artmışdır) və Kəngərli (ümumi əhali 17,6%, şəhər əhalisi 21,6%, kənd əhalisi 16,7% artmışdır) rayonlarında olmuşdur. Araşdırmalar göstərir ki, həmin dövrdə Naxçıvan Muxtar Respublikasının şəhər və ayrı-ayrı inzibati rayonlarında əhalinin ümumi sayında ən yüksək artım Babək (19,6%) və Kəngərli (17,6%) rayonlarında, şəhər əhalisinin sayında ən yüksək artım Babək (75,8%), Şahbuz (43,2%), Sədərək (35,3%) və Kəngərli (21,6%) rayonlarında, kənd əhalisinin sayında isə ən yüksək artım Kəngərli (16,7%), Babək (14,2%), Şərur (14,0%) və Culfa (13,1%) rayonlarında baş vermişdir.

Naxçıvan Muxtar Respublikasında əhalinin sayında baş verən müsbət dəyişikliklər və meyllər muxtar respublikanın sosial-iqtisadi inkişafı, əhalinin məşğulluq səviyyəsi və rifah halının yüksəlməsi, əhalinin ölüm səviyyəsinin azalması və digər demoqrafik, sosial-iqtisadi, milli-mədəni amillərlə bağlıdır.

ƏDƏBİYYAT

1. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, 452 s.
2. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 660 s.
3. Muradov Ş.M., Nadirov A.A. Naxçıvan statistika güzgüsündə: Tarixi-statistik məcmuə. Bakı: Səda, 1999, 128 s.
4. Naxçıvan Muxtar Respublikası-95. Naxçıvan: Əcəmi: NPB, 2019, 184 s.
5. www.statistika.nmr.az

AMEA Naxçıvan Bölməsi
Email: kazımnagiyev0000@gmail.com

Kazim Nagiyev

TRENDS IN THE NUMBER OF THE URBAN AND RURAL POPULATION IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The paper reflects the indicators of change in the Nakhchivan Autonomous Republic population, including the urban and rural population, for the period 1924-2020. The article also analyzes statistical data on the Autonomous Republic population and its individual urban and administrative districts, including the urban and rural population, and notes positive

changes and trends in the population as a result of many socio-economic, national-cultural, and other factors.

Keywords: *demographic development, urban population, rural population, settlement.*

Казим Нагиев

ТЕНДЕНЦИИ ИЗМЕНЕНИЯ ЧИСЛЕННОСТИ ГОРОДСКОГО И СЕЛЬСКОГО НАСЕЛЕНИЯ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье отражены показатели изменения численности населения Нахчыванской Автономной Республики, в том числе городского и сельского населения, за период 1924-2020 гг. В статье также анализируются статистические данные о населении автономной республики и отдельных ее городских и административных округов, включая городское и сельское население, и отмечаются положительные изменения и тенденции в населении в результате действия ряда социально-экономических, национально-культурных и других факторов.

Ключевые слова: *демографическое развитие, городское население, сельское население, жилой.*

(İqtisad elmləri doktoru, professor Nazim Əhmədov tərəfindən təqdim edilmişdir)

Daxilolma tarixi: İlkin variant 04.02.2021
Son variant 05.03.2021

KİTABLAR, RƏYLƏR...

QÜDRƏT İSMAYILZADƏ

AZƏRBAYCAN TARİXŞÜNASLIĞINA YENİ TÖHFƏ

Azərbaycan xalqı öz müstəqilliyinə qovuşduqdan sonra onun sosial-iqtisadi inkişafında xeyli irəliləyişlər baş vermiş, respublikamız regionun ən qüdrətli dövlətlərindən birinə çevrilmişdir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra keçən illər ərzində öz siyasi və iqtisadi potensialını möhkəmləndirmiş, elm, təhsil və mədəniyyətin inkişafında bir sıra yeniliklərə imza atmışdır. Bu dövr ərzində Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvanın da siyasi-iqtisadi inkişafına, onun tarixinin yazılmasına xüsusi diqqət yetirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvan tarixinin öyrənilməsinin zəruriliyini vurğulayaraq demişdir:

"Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsidir, gözəl bir diyarıdır və Azərbaycan ərazisində ən qədim insan məskənlərindən biridir. Naxçıvanın tarixini tarixçilər müxtəlif cür deyirlər. Biri deyir onun üç min il tarixi var. Biri deyir, onun bizim eradan çox-çox əvvələ aid böyük tarixi var. Bu fərziyyələrin hər birinin əsası var. Sadəcə, bizim tarixçilər, arxeoloqlar gərək bundan sonra Naxçıvanın tarixi haqqında daha da geniş axtarışlar aparsınlar və Naxçıvanın tarixini ətraflı yazıb hazırlasınlar". Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin direktiv xarakterli bu sözlərini əsas tutan Naxçıvan MR Ali Məclisinin Sədri cənab Vasif Talıbov 6 avqust 2012-ci il tarixdə "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması haqqında sərəncam imzalamışdır. "Naxçıvan tarixi" çoxcildliyinin üç cilddə hazırlanması nəzərdə tutulmuşdu.

Artıq "Naxçıvan tarixi" çoxcildliyinin bütün cildləri nəşrdən çıxmışdır. İndiyədək Naxçıvanın qədim, orta əsr və müasir tarixi ilə bağlı onlarla monoqrafiya çap olunsa da Naxçıvanın çoxəsrlik tarixinə dair ümumiləşdirici, çoxcildli kitab yazılmamışdı. Naxçıvan Muxtar respublika rəhbərliyinin və alimlərimizin gərgin zəhməti sayəsində hazırlanmış, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən iki min nüsxə ilə, nəfis tərtibatda çap olunmuş 452 səhifəlik (56,5 çap vərəqi həcmində) "Naxçıvan tarixi" kitabının birinci cildi giriş, yeddi fəsil, arxiv materialları və internet saytları da daxil olmaqla 450-yə yaxın istifadə olunmuş ədəbiyyat siyahısı, tarixin müxtəlif mərhələlərini əks etdirən, yeni faktlar əsasında hazırlanmış rəngli xəritələrdən ibarət olan kitab, tarixi-arxeoloji və memarlıq abidələrinin, maddi-mədəniyyət nümunələrinin rəngli foto-şəkilləri ilə tamamlanır.

Hər üç cildin redaksiya heyəti tanınmış alimlərdən – AMEA-nın həqiqi üzvləri İ.M.Hacıyev, İ.Ə.Həbibbəyli, müxbir üzvlər Q.İ.Qədirzadə, V.B.Baxşəliyev və F.Y.Səfərlidən ibarətdir.

Birinci cildin "Giriş" hissəsində bölgənin tarixinə dair mövcud ədəbiyyat, tədqiqat işlərinin xülasəsi və bu sahədə görülmüş işlər barədə hərtərəfli məlumat verilmişdir. "Naxçıvanın təbii-coğrafi şəraiti" adlanan bölümdə ərazinin relyefi, geoloji quruluşu, iqlimi, təbii yataqları, su tutumu və s. haqqında geniş təhlillər aparılır.

Kitabın I fəslində Naxçıvanın qədim dövr tarixi haqqında arxeoloji və yazılı mənbələr əsasında məlumat verilmiş, diyarın daş dövründən e.ə. IX əsrədək olan tarixi geniş şəkildə işıqlandırılmışdır.

Bu fəsildə Naxçıvanda ibtidai-icma quruluşunun müxtəlif dövrlərini əhatə edən Qazma, Qara Zağa, Damlama mağaraları, Ovçular təpəsi, Sədərək, I Kültəpə, II Kültəpə, Qədim duz mədənləri, Gəmiqaya təsvirləri, Xələc, Ərəbyengicə, Aşağı Daşarx, Sirab, Şortəpə, Maxta Kültəpəsi kimi qədim yaşayış yerləri, eyni zamanda Dizə, Qarabulaq, Plovdağ, Xomu nekropolları haqqında məlumat verilmişdir. Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşması Orta Tunc dövründə sosial- iqtisadi inkişafın nəticəsi kimi qiymətləndirilmiş, Naxçıvanın ilkin şəhərləri olan Naxçıvan, II Kültəpə, Şahtaxtı, Sumbatan Dizə haqqında məlumat verilmişdir. Orta Tunc dövründə sosial-iqtisadi inkişaf həmçinin qala tipli yaşayış yerlərinin salınması ilə nəticələnmişdir. Bu fəsildə strateji cəhətdən əlverişli mövqelərdə salınmış II Bəzəkli qalası, Göynük qalası, Qazançıqala, Qız qalası və digər bu kimi qalalardan, ərazidən aşkarlanmış qədim yazılı qaynaqlardan, etnoqrafik mənbələrdən və e.ə. VI-I minilliklərdə Naxçıvanda gedən etnik-mədəni proseslərdən bəhs olunur. Müəlliflər mədəniyyət abidələrini və maddi-mədəniyyət nümunələrini Azərbaycanın digər bölgələri ilə müqayisəli şəkildə təhlil edərək, birmənalı şəkildə Naxçıvan ərazisinin Azərbaycanın əzəli və əbədi torpağı olması, Naxçıvan tarixinin isə Azərbaycan tarixinin bir hissəsini təşkil etməsi fikrini elmi dəlillərlə bir daha möhkəmləndiriblər.

Kitabın II fəsli "Naxçıvan e.ə. IX – b.e. II əsrlərində" adlanır. Burada İkiçayarası və Şərqi Anadoluda formalaşan, Ön Asiyanın qüdrətli quldar dövlətlərindən olan Assuriya və Urartuların öz ərazilərini genişləndirmək məqsədilə Naxçıvana basqınlarından, ərazidə məskunlaşan, Oğlanqala, Qarasu qalası, Qız qalası, Külüs qalası, Sədərəkqala, Qazançı qalası, Çalxan kimi şəhər- qalaların tikilməsi, yadellilərə qarşı mübarizə aparan yerli türk tayfalarının mədəniyyət tarixindən bəhs olunur. Bu qalaların hər biri güclü müdafiə istehkamlarına malik olmuşlar.

Naxçıvan tarixi kitabı bu dövrə aid maraqlı faktlarla zəngindir. Onlardan biri e.ə. 820 və e.ə. 810-cu illərdə Urartulu İşpuini və Menuanın işğalçılıq yürüşləri əks olunmuş Culfa rayonunun Xoşkeşin kəndi yaxınlığındakı İlandağ kitabəsidir. Cənubi Qafqazın siklop tikintiləri sırasına daxil olan, Şərur rayonu ərazisində yerləşən Oğlanqalada aparılmış tədqiqatlar göstərmişdir ki, bu qalanın ətrafında yaranan kiçik şəhər-dövlət müəyyən mərhələdə Urartulara qarşı mübarizə aparmışdır. Ərazidə Dəmir dövrünə aid Xaraba-Gilan, Muncuqlutəpə nekropolu, Yurdçu sərdabəsi, Fərhad evi kimi onlarla abidə tədqiq edilmişdir. E.ə. IV əsrin sonlarından Naxçıvan Atropatenanın ərazisinə daxil olmuş, e.ə. I və eramızın ilk əsrlərində Roma və Parfıyalıların döyüş meydanına çevrilmiş, Massagetlərin yürüşlərindən dağıntılara məruz qalmışdır. Kitabda göstərilən mənbələr və zəngin arxeoloji material söylənənləri təsdiq edir. Bu fəslin sonunda dövrün mədəniyyətindən, sosial-iqtisadi münasibətlərdən, dini inamlardan söhbət açılır.

Kitabın üçüncü fəsli "Naxçıvan əhalisinin etnogenezi tarixi" adlanır. Bu fəsil iki bölmədən ibarətdir. Birinci bölmədə e.ə. VI – b.e. I minilliklərində Naxçıvan əhalisinin etnik tərkibindən, ikincidə isə "Naxçıvan" sözünün mənşəyindən bəhs olunur. Ümumi çətinliklərə baxmayaraq, tarix elmimizdə işlənmiş və bir sıra elmi əsərlərdə öz əksini tapmış Azərbaycan xalqının etnogenezi məsələsi "Naxçıvan tarixi" kitabında daha ətraflı, faktlara dayanıqlı şəkildə və mənbələrə istinad edilməklə yazılmış, prototürk tayfalarının Naxər ölkəsində olmaları qədim mənbələrə əsaslanaraq göstərilmişdir. Fəsildə As, Naxər, türükkü, kuti, lullubi, kas, subər, su (şu), tal, koman, tur, pal (pala), tus, doray kimi boylar və tayfalar, onların yayıldığı ərazilər, Azərbaycan xalqının formalaşmasında oynadıqları rol nəzərdən keçirilir. Digər türk tayfaları – Oğuzlar, Skif-Sak, Massaget, kimmerlər, şiraklar, qıpçaq, hun və başqaları haqqında da dolğun məlumatlar verilir.

Bu fəslin ikinci bölməsində "Naxçıvan" sözünün meydana çıxması və mənşəyi haqqında

olan bütün versiyalar araşdırılır, onun Nuh adı ilə əlaqəli olması tutarlı faktlarla əsaslandırılır.

"Naxçıvan erkən orta əsrlər dövründə" adlanan IV fəsil III-IX əsrləri əhatə edir və on başlıqla tamamlanır. Burada feodal münasibətlərinin yaranması və inkişafı, yeni türkdilli tayfaların bu ərazidə məskunlaşması, Sünik (Sisakan) hakimliyi, Naxçıvanın Sasanilər dövlətinin tərkibində olması, İslamaqədərki dövrdə Naxçıvan və çevrəsində etnik-mədəni proseslərin inkişafı, ərəblərin Naxçıvanı tutması, İslam dininin qəbul olunması, Xilafət dövründə idarəçilik sistemi, şəhərlərin, sənətkarlığın və ticarətin təkamülü, həmçinin dövrün epiqrafik abidələri və digər məsələlərdən geniş söhbət açılır, onların elmi mahiyyətinə aydınlıq gətirilməklə bütöv Azərbaycan anlamında təhlillər aparılır.

Əsasən torpaq mülkiyyəti üzərində formalaşan feodal münasibətlərinin inkişafında Naxçıvanın kəskin kontinental iqlimi maneçilik törədirdi. Burada süni suvarmaya ehtiyac çox idi. Dağ çaylarından çəkilmiş o dövrə aid kanalların qalıqları indi də qalmaqdadır. Naxçıvanda hun türkləri, bolqar, bəkdüz, xəzər, kəngərli, sabir, peçənək və subarlar ilə bağlı toponimlər adı çəkilən tayfaların eramızın ilk əsrlərindən bu ərazidə məskunlaşdıqlarını təsdiq edir. Sasani-Bizans, Ərəb-Xəzər müharibələrinin poliqonuna çevrilən Naxçıvan bu savaşlardan layiqincə çıxmış və öz varlığını qoruyub saxlaya bilmişdir. Naxçıvan şəhəri sasanilərin Cənubi Qafqazda əsas dayaq məntəqələrindən biri idi. Şəhərin ərəblər tərəfindən işğal olunması 652-653-cü illərdə başa çatır. Naxçıvan ərazisi xilafətin əsas hərbi və inzibati mərkəzlərindən birinə çevrilir. Babəkin adı ilə bağlı toponimlərin bolluğu, söz yox ki, Xürrəmilərin əsas dayaq məntəqələrindən birinin burada olmasını göstərir. Kitabda Naxçıvanın Böyük İpək yolunda tranzit keçid yeri olması da ön plana çəkilmişdir.

Kitabın V fəsli "Naxçıvan X-XIII əsrin birinci rübündə" adlanır. Bu fəsildə, ərəb imperiyasının zəiflədiyi dövrdə Naxçıvanın Azərbaycan ərazisində yaranan Sacilər (879-941), Salarilər (941-981/3), Şəddadilər (971-1075), Naxçıvanşahlıq (X əsrin 80-ci illəri – 1064) kimi yarımmüstəqil feodal dövlətlərinin, XI əsrin ortalarında isə Səlcuq türklərinin qurduğu imperiyanın tərkibinə daxil olmasından, Azərbaycan Atabəylər dövlətinin yaranmasından (1136-1225), Naxçıvanın Eldənizlərin doğma şəhərinə çevrilməsi, dövrün iqtisadi həyatı, sənətkarlığı, torpaq-mülkiyyət formaları, mədəniyyəti, ədəbiyyatı, memarlığı və incəsənətindən bəhs edilir. Səlcuqların Azərbaycan canişininin Naxçıvanda qərar tutması şəhərin yüksək strateji mövqeyindən xəbər verir.

Xüsusən, 1146-1175-ci illərdə Naxçıvanın Atabəylər dövlətinin paytaxtı olduğu zamanlar şəhərin böyüyərək inkişaf etməsi, onun Yaxın Şərqin mədəniyyət və elm mərkəzlərindən birinə çevrilməsi, burada nadir memarlığı ilə seçilən abidələrin inşa olunması, Əcəminin rəhbərliyi altında Naxçıvan memarlıq məktəbinin yaranması, Bakı, Dərbənd, Təbriz, Gəncə, Şamaxı, Marağa, Ərdəbil və Azərbaycanın digər şəhərləri arasında ticarət və mədəni əlaqələrin genişlənməsi kimi məsələlər ön plana çəkilir. İntibah mədəniyyəti olan yerdə birtərəfli inkişafdan danışmaq olmaz. Belə ki, əgər o dövrdə gözəl memarlar, elm, təhsil, ədəbiyyat, incəsənət xadimləri yetişirdisə, mütləq digər aparıcı sahələr də yüksələn xətlə inkişaf edirdi.

"Naxçıvan XIII-XV əsrlərdə" adlanan altıncı fəsil təxminən üç yüz illik dövrü əhatə edir. On bir başlıqdan ibarət olan bu fəsildə monqolların Azərbaycana – Naxçıvana birinci və ikinci yürüşündən, Xarəzmşah Cəlaləddinin işğalından, Hülakülər dövründə Naxçıvanda gedən ictimai-siyasi proseslərdən, Çobanilərlə Cəlairilərin hakimiyyət uğrunda mübarizələrindən, Toxtamışın və Əmir Teymurun hücumlarından, Əlincə qalasının mərdliklə müdafiəsindən, Naxçıvanın Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmasından, dövrün ictimai-iqtisadi həyatından, Naxçıvanda sufiliklə bağlı mərkəzlərdən – xanəgahlar və zaviyyələrdən,

hürufilik təlimi, onun mahiyyəti və oynadığı roldan, bölgənin sosial-mədəni həyatından, maarif, elm, ədəbiyyat, memarlıq, incəsənət kimi sahələrin inkişafından, epiqrafik abidələrdən və s. söhbət açılır.

Xüsusən, monqol işğalları zamanı Naxçıvan şəhərinin dağıdılması, əhalinin əksəriyyətinin yaşayış yerlərini tərk etmələri kitabda xüsusi vurğulanır. O da qeyd olunur ki, 1258-ci ildə Naxçıvan Hülakülər dövlətinin tərkibinə daxil edildikdən sonra, Qazan xanın dövründə qismən bərpa edilir. Bu dövrdə dövlətin ərazisi vilayət və tümənlərə bölünürdü ki, Naxçıvan ərazisi Azərbaycan əyalətinin tərkibində olmuş 9 tüməndən biri idi.

Kitabın VII – sonuncu fəsli "Naxçıvan Səfəvilər dövründə" adlanır. Dörd başlıqdan ibarət bu fəsildə 1501-ci ildən başlayaraq XVIII əsrin 40-cı illərinədək olan dövr ərzində Naxçıvanda baş verən hadisələrin geniş və elmi şərhi verilmişdir. Xüsusən, Osmanlı-Səfəvi müharibələrindən xeyli zərər çəkən, bir çox hallarda döyüş meydanına çevrilən Naxçıvan ərazisi Azərbaycanın digər mərkəzi şəhərləri kimi əldən-ələ keçərək dağıdılmış, təsərrüfatı və əkin sahələri məhv edilmiş, əhalisi digər regionlara köçürülmüşdür. Bu dövrdə Naxçıvan sancağı üzrə 393 yaşayış məskənindən 269-nun əhalisi öz doğma yurdlarını tərk etmişdi. 1588-1603 və 1724-1735-ci illərdə Naxçıvan Osmanlı dövlətinin tərkibində olmuşdu. 1736-cı ildə Nadir şah Əfşar Naxçıvan da daxil olmaqla Azərbaycan torpaqlarını osmanlılardan azad edir. Sənətkarlıq, ticarət, şəhərlər, mədəniyyət, elm, incəsənət, memarlıq kimi sahələrdə sönüklük nəzərə çarpsa da, dinclik, sülh zamanlarında onlar yenidən canlanmışdır.

İkinci cild XVIII əsrin ortalarından başlayaraq XX əsrin 30-cu illərinin sonunadək olan böyük bir tarixi dövrü əhatə edir. Giriş, beş fəsil, istifadə olunmuş ədəbiyyat siyahısı və illüstrativ materiallardan ibarət olan bu cilddə Naxçıvan tarixinin bu dövrü haqqında bütöv təsəvvür əldə etmək mümkündür. Burada Naxçıvan xanlığının yaranması və fəaliyyəti, Naxçıvanın Rusiya tərəfindən işğalı, XIX və XX əsrlərdə Naxçıvanın sosial-iqtisadi vəziyyəti, XX əsrin 30-cu illərində baş verən hadisələr haqqında mənbə və ədəbiyyat materialları ümumiləşdirilmişdir.

Naxçıvan xanlığının Səfəvilər imperiyasının süqutu dövründə, Çuxursəd bəylərbəyiliyi ərazisində, 1747-ci ildə, Kəngərli tayfasının başçısı Heydərqulu xanın özünü xan elan etməsi ilə yaranmışdır. Xanlığın ərazisi Zəngəzur dağlarından Araz çayı vadisinə qədər olan böyük bir ərazini əhatə edirdi. Naxçıvan xanlığının tarixinə dair müəyyən əsərlər yazılsa da xanlığın tarixinə aid olan arxiv materialları yetərincə araşdırılmamışdır. Çoxcildliyin ikinci cildinin ikinci fəslində müxtəlif arxiv materiallarından istifadə olunmaqla Naxçıvan xanlığının tarixi haqqında müfəssəl məlumat verilmiş, xanlığın tarixi ilə bağlı bir sıra qaranlıq səhifələrə işıq salınmışdır. Mürəkkəb beynəlxalq vəziyyətdə öz müstəqilliyi uğrunda mübarizə aparan Naxçıvan xanlığı 1797-ci ilədək müstəqil olmuş, sonra isə İrandan asılı vəziyyətə düşmüşdür. Naxçıvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra həmin dövlətdən asılı olmuş və formal olaraq 1840-cı ilədək mövcud olmuşdur. İran, Osmanlı dövləti, Rusiya və Qərbi Avropa dövlətlərinin Qafqaz uğrunda mübarizə apardığı dövrdə Naxçıvan xanlarının, xüsusilə I Kalbalı xanın müstəqillik uğrunda mübarizəsi əsil qəhrəmanlıq nümunəsi idi. Kitabın birinci fəslində xanlığın dövlət quruluşu, atributları və idarə sistemi ilə bağlı ətraflı məlumat verilmişdir. Əhalisi başlıca olaraq kəngərli tayfalarından ibarət olan Naxçıvan xanlığının sosial-iqtisadi həyatı, şəhərləri, memarlığı, epiqrafik abidələri haqqında əsaslı məlumatlar da burada əks olunmuşdur.

Məlum olduğu kimi, XIX əsrin əvvəllərində Rusiya və İranın Qafqaz uğrunda mübarizəsi Rusiya-İran və Rusiya-Türkiyə müharibələrinin baş verməsinə, Azərbaycanın

parçalanmasına və Naxçıvan xanlığının Rusiya tərəfindən işğalına səbəb oldu. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı mənbələr əsasında təhlil edilmişdir. Rus işğalının Naxçıvan xanlığı üçün mənfi nəticələrindən biri ermənilərin Naxçıvana köçürülməsi oldu. Mənbələrin araşdırılması göstərir ki, 1828-1829-cu illərdə Şimali Azərbaycana köçürülən ermənilərin 37 faizi məhz Naxçıvanda yerləşdirilmişdi ki, bu da gələcəkdə etnik zəmində ziddiyyətlərin yaranmasına səbəb olmuşdu. Rusiya işğalından sonra Naxçıvan xanlarına müəyyən üstünlüklər verilsə də inzibati-idarə sistemində yaradılan dəyişikliklər əhalinin narazılığına səbəb olmuşdu. Buna görə də çar hakimiyyəti vəziyyəti sabitləşdirmək üçün müəyyən islahatlar keçirməyə məcbur oldu. 1840-cı il 10 aprel qanununun qüvvəyə minməsi ilə Ehsan xan və Şeyxəli bəy öz vəzifəsindən kənarlaşdırıldı, Naxçıvan Gürcü-İmeretiya quberniyasının tərkibinə daxil edildi. 1849-cu ildə Naxçıvan yeni yaradılan İrəvan quberniyasının tərkibinə daxil edildi. Ümumiyyətlə, Rusiya işğalından sonra yeni idarə üsulu yaradılarkən Azərbaycan, o cümlədən Naxçıvanın tarixi torpaqları parçalanaraq digər quberniya və qəzaların tərkibinə salınmışdı ki, bu da Azərbaycanın ərazi bütövlüyünü kobud şəkildə pozmuşdu.

Araşdırmalar göstərir ki, ilhaqdan sonrakı dövrdə Naxçıvanda vəziyyət ağır olaraq qalırdı. Bu məsələlər kitabın 111 fəslində araşdırılaraq ümumiləşdirilmişdir. İşğaldan sonra Naxçıvanın əhalisi köçürmələr hesabına xeyli artmışdı ki, bu Naxçıvanda yaşayan azərbaycanlı əhalinin sosial vəziyyətim xeyli pisləşdirmişdi. Müstəmləkə zülmünün get-gedə ağırlaşması isə əhalinin əksəriyyətini təşkil edən kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı. Elə buna görə də XIX əsrin 30-cu illərindən başlayaraq feodal-müstəmləkə zülmünə qarşı etirazlara və çıxışlara səbəb olmuşdu. Belə etirazların bir forması da çar hökumətinə ünvanlanmış ərizələr idi. Ərizələrdə və çar məmurlarının hökumətə verdiyi yazılı məlumatlarda Naxçıvanda yaşayan kəndlilərin dözülməz vəziyyəti öz əksini tapmışdır. Hətta vəziyyət o yerə çatmışdı ki, kəndlilər aclıqdan məhv olmaq təhlükəsi qarşısında qalmışdı. 1880-ci ildə Cəhri kəndindən göndərilmiş teleqramda təcili yardım göstərilməzsə əhalinin məhv olacağı göstərilirdi. Feodal-müstəmləkə zülmünə qarşı qrup halında üsyanlar baş verən üsyanlar çar hökumətini bəzən çətin vəziyyətə salırdı. XIX əsrin 70-90-cı illərində Əli Cəfər İbrahim oğlu, qaçaq Nəbi və qaçaq Məhəmməd Hüseynin başçılığı ilə üsyanlar olmuşdu.

Çar hökuməti əhalinin istismarını qaydaya salmaq üçün onları az da olsa maariflləndirmək məcburiyyətində qalmışdı. Bu isə müəyyən qədər maarifin və mədəniyyətin inkişafına kömək etmişdi. Naxçıvanda ilk qəza məktəbi 1837-ci ildə açılmış və bu məktəbə 20-ə qədər uşaq cəlb olunmuşdu. 60-cı illərin islahatlarından sonra Naxçıvanda təhsilin inkişafı ilə dövrünün görkəmli pedaqoqları məşğul olmağa başlamışdı. K.A.Nikitin, Əliməmməd Xəlilov, Mirzə Sadıq Qulubəyov, M.T.Sidqi və digərləri də onların arasında idi. M.T.Sidqinin açdığı "Əxtər" məktəbi qısa müddət ərzində böyük şöhrət qazanmışdı. Onun yaratdığı dərsliklərdən Azərbaycanın məşhur ziyalıları da istifadə etmişdi.

XIX əsrin 70-80-ci illərində Avropa, Rusiya və Qafqazda təhsil alan azərbaycanlı ziyalılar elmi fikrin inkişafında müəyyən canlanma yaratmışdı. Məhəmmədağa Şahtaxtılı, Fərəculla Şeyxov, Cəlil Şəfiyev, Cəlil Məmmədquluzadə, Əbülqasım Sultanov belə ziyalılarımızdan idi. Elmin və təhsilin inkişafı öz növbəsində ədəbiyyatın da inkişafına təkan vermiş, ədəbi məclislər yaranmışdı. "Əncüməni-Şüəra" və "Məclisi-üns" belə ədəbi məclislərdən idi.

1883-cü ildə Naxçıvanda teatrın əsası qoyulmuş, incəsənətin, dekorativ- tətbiqi sənətlərin inkişafında xeyli irəliləyiş olmuşdu. Bu dövrə aid epiqrafik abidələrin tədqiqi Naxçıvanın bir sıra görkəmli ictimai xadimlərinin adını ortaya çıxarmağa imkan vermişdir.

Kitabın dördüncü fəslində Naxçıvanın XX əsrin əvvəllərindəki tarixi araşdırılaraq bu dövrdəki sosial-siyasi vəziyyət, ermənilərin Naxçıvan əhalisinə qarşı törətdiyi soyqırımlar, Araz-Türk Cümhuriyyətinin yaranması və Naxçıvan tarixinin digər məsələləri geniş yer almışdır. Birinci rus inqilabı zamanı əhalini inqilabdan yayındırmaq üçün milli qırğınlara rəvac verən çar hökumətinin siyasəti Azərbaycan əhalisi, xüsusilə Naxçıvan üçün fəlakətli nəticələri oldu, minlərlə soydaşımız yurd-yuvasından didərgin düşdü və erməni quldurları tərəfindən öldürüldü. Həmin dövrdə Naxçıvanda demokratik hərəkat, Naxçıvan Milli Komitəsinin silahlı erməni quldurlarına qarşı mübarizəsi, I Dünya Müharibəsi illərində Naxçıvanda baş verən hadisələr, Araz-Türk Cümhuriyyətinin yaranması və onun Naxçıvan ərazisinin erməni daşnaklarının əlinə keçməsinə qarşı gördüyü tədbirlər geniş şəkildə araşdırılmışdır.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan etsə də yaranmış ziddiyyətli beynəlxalq şərait üzündən Naxçıvan çox çətin vəziyyətdə qalmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyəti çətinliklərə baxmayaraq Naxçıvandakı vəziyyəti dəfələrlə müzakirə etmiş və Naxçıvana köməklik göstərmişdi. Bu zaman Naxçıvandakı vəziyyəti idarə etmək və ona nəzarət etmək üçün Naxçıvan general-qubernatorluğu yaradılmışdı. Naxçıvandakı ictimai-siyasi vəziyyətin sabitləşməsində və erməni təcavüzünə qarşı mübarizədə Mirabbas Mirbağırzadə, Bəhram xan Naxçıvanski, Məhəmməd bəy Təkinski və Behbud ağa Şahtaxtinskinin böyük rolu olmuşdu.

XX əsrin əvvəllərində Naxçıvanda kəskin sosial-siyasi şəraitin olmasına baxmayaraq elm, ədəbiyyat və mədəniyyətin inkişafında müəyyən nailiyyətlər qazanılmışdı. Bu dövrdə Naxçıvan Azərbaycan xalqına Məhəmmədağa Şahtaxtılı kimi publisist, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi kimi yazıçılar, Məhəmməd Tağı Sidqi kimi görkəmli maarifçi, Bəhruz Kəngərli kimi realist rəssam vermişdi.

Çoxcildliyin ikinci cildinin beşinci fəslində Naxçıvanın 20-30-cu illərdəki tarixi araşdırılmış, bu dövrdə Naxçıvanda baş verən ictimai-siyasi hadisələr, Naxçıvanda Sovet hakimiyyətinin qurulması və onun doğurduğu nəticələr tədqiq edilmişdir. Bu dövrdə Naxçıvanın əldə etdiyi ən böyük nailiyyət muxtariyyət statusunun qazanılması idi. Bu fəsildə Naxçıvanın XX əsrin 20-30-cu illərdəki tarixi obyektiv şəkildə araşdırılmış, hadisələr milli konsepsiya baxımından dəyərləndirilmişdir. Bu dövrdə həyata keçirilən birtərəfli sənayeləşmə, kollektivləşmə və siyasi repressiyalar Naxçıvandan da yan keçməmişdir. Naxçıvanın bir çox görkəmli ictimai və siyasi xadimləri, o cümlədən general Cəmşid Naxçıvanski, general Qanbay Vəzirov, şair Əli Səbri Qasımov, səhnə ustası Kazım Kazımzadə repressiyanın qurbanları olmuşlar.

Fəslin sonunda 20-30-cu illərdə Naxçıvanda mədəni quruculuq, elm, təhsil və mədəniyyətin əldə etdiyi nailiyyətlər göstərilmişdir.

Kitabın üçüncü cildi Naxçıvanın II Dünya Müharibəsindəki iştirakına və müharibədən sonrakı tarixinə həsr olunmuşdur. Naxçıvanın II Dünya Müharibəsində iştirakı məsələsinə müxtəlif monoqrafiya və məqalələrdə toxunulsa da "Naxçıvan tarixi"nin III cildində bu məsələ ilk dəfə olaraq sistemli şəkildə ümumiləşdirilmişdir. Araşdırmalar göstərir ki, azərbaycanlılardan təşkil olunmuş 77-ci, 223-cü, 271-ci, 402-ci, 416-cı diviziyaların tərkibində naxçıvanlı əsgərlər də igidliklə vuruşurdular. Naxçıvanlılar müharibənin ilk günlərindən xalq qoşunu sıralarına yazılmışdı. Naxçıvan Muxtar Respublikasından olan kişilər və qadınlar müharibəyə getmək üçün ərizə vermişdi. Müharibəyə getmək istəyənlər arasında 3208 qadının olması xalqımızın qəhrəmanlığını və qorxmazlığını göstərən əsas faktlardan biridir. Müharibənin ilk günlərindən başlayaraq müəllimlər, həkimlər və orta tibb işçiləri də Vətənin çağırışına cavab

olaraq ön cəbhəyə gedən ordu sıralarına daxil olmuşdu. Araşdırmalar göstərir ki, müharibə illərində 29500 nəfər naxçıvanlı səfərbərliyə alınmış və onların 15500 nəfəri cəbhələrdə rəşadətlə döyüşərək həlak olmuşdu. Naxçıvanın oğul və qızlarının bir çoxu Qafqazın ətəklərindən Berlinədək şanlı döyüş yolu keçmiş, qəhrəmanlıqla vuruşmuşdu. Onlardan Qəzənfər Əkbərov, Abbas Quliyev, Nəcəfqulu Rəfiyev, Akim Abbasov, Rəhim Rəhimov və başqaları öz qəhrəmanlıqları ilə ölkəmizdən uzaqlarda məşhurlaşmışdı. Naxçıvanlı döyüşçülər müxtəlif döyüş cəbhələrində, eləcə də Ukrayna, Belarusiya və Şərqi Avropa ölkələrinin faşizmdən azad edilməsi uğrunda vuruşmuşdu. Naxçıvanlı döyüşçülər həmçinin partizan hərəkatında və antifaşist müqavimət hərəkatında fəal iştirak edirdilər. İtaliya və Yuqoslaviyada vuruşan partizan dəstəsinin komandiri Əli Babayev, Buhenvald qəhrəmanı Əkbər Ağayev, İtaliya partizan hərəkatının fəal üzvü Cəlil Rəfiyev belələrindən idi. Həmyerlilərimizin üç nəfəri müharibədəki rəşadətinə görə Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüşdü.

Naxçıvanlılar ön cəbhədə olduğu kimi, arxa cəbhədə də əmək şücaəti göstərərək cəbhənin döyüş sursatı, ərzaq və geyimlə təmin olunmasında mühüm rol oynamışdı. Naxçıvanlılar həmçinin faşist işğalından azad olunmuş rayonların bərpa edilməsinə pul və ərzaqla köməklik edirdilər.

Müharibə illərinin çətinliklərinə baxmayaraq təhsil, elm, mədəniyyət və mətbuat sahəsində müəyyən irəliləyişlər olmuşdu. Bu dövrün bədii əsərlərində həmvətənlərimizin döyüşlərdəki qəhrəmanlığı vəsf edilirdi. Bu baxımdan İslam Səfərli, Məmməd Səid Ordubadi, Hüseyn Razi, Məmmədəli Tarverdiyev və digərlərini yaradıcılığı xüsusilə diqqətəlayiqdir.

Üçüncü cildin ikinci fəsli II Dünya Müharibəsindən sonrakı bərpa və inkişaf illərinə həsr olunmuşdur. 1946-1950-ci illərdə Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişafı üçün 24,5 milyon manat əsaslı vəsait müəyyən edilmişdi. 1946-1950-ci illərdə Naxçıvanda əkin sahələri genişləndirilmiş, kənd təsərrüfatının texniki bazası möhkəmləndirilmişdi. Beşillik plana əsasən Ordubad ipək və konserv zavodlarında, Culfa dağ metal kombinatında istehsal xeyli genişləndirildi. Əsaslı tikinti sahəsində xeyli yeni binaların tikilməsi nəzərdə tutulmuşdu. Yeni sənaye sahələrinin yaradılması da nəzərdə tutulmuşdu. Nəticədə kənd təsərrüfatı, tikinti və sənaye sahəsində xeyli irəliləyiş olmuşdu.

Bu fəsildə "Azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiyası (1948-1953-cü illər) və Naxçıvan" yarımfəsli xüsusilə diqqəti çəkir. Tədqiqatçılar faktiki arxiv materialları əsasında mənfur erməni millətçilərinin "Böyük Ermənistan" yaratmaq məqsədi ilə azərbaycanlıların Ermənistan SSR-dən və Naxçıvandan köçürülməsi kimi mənfur niyyətlərini açıb göstərmişlər. O, dövrdə mərkəz tərəfindən qadağa qoyulmasına baxmayaraq Ermənistan SSR-dən köçürülənlərin bir qismi də Naxçıvanda yerləşdirilmişdi. 1950-1960-cı illərdə Naxçıvanın sosial və iqtisadi inkişafı artmış, əhalinin pul gəlirləri çoxalmışdı. Yeni su kanallarının və su anbarlarının tikilib istifadəyə verilməsi kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına şərait yaratmışdı. Sənaye sahəsində dağ-mədən sənayesinin inkişafına diqqət artırılmışdı ki, bu da imperiyanın strateji məqsədləri ilə bağlı idi. Bu dövrdə əhalinin mənzil şəraitinin, səhiyyənin, elm, təhsil və mədəniyyətin inkişafı üçün də müəyyən işlər görülmüşdü.

Üçüncü cildin üçüncü fəsli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi Azərbaycan xalqının tarixində dönüş nöqtəsi kimi qiymətləndirilmişdir. Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycan xalqının uzun illərdən bəri yığılıb qalmış problemlərinin həll olunması üçün şərait yaratdı. O, qısa müddət ərzində idarəçilik sistemini xeyli möhkəmləndirdi, Azərbaycanda cinayətkarlığa qarşı mübarizə gücləndirildi, normal mənəvi-siyasi şərait yarandı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə respublika sənayesi sürətli yüksəliş dövrünə qədəm qoydu. 1971-1975-ci illərdə sənaye

istehsalı həcminin 50% artması bunun ən yaxşı göstəricisi idi. 70-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə yeni qazma qurğularının yaradılmasına sərmayə qoyuluşu artmış, bu isə neft sənayesində irəliləyişə səbəb olmuşdu. 1990-cı illərin əvvəllərində Azərbaycan neft maşınqayırmasına görə ABŞ-dan sonra ikinci yeri tuturdu. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda elan etdiyi ictimai-siyasi xətt Naxçıvan MSSR-in sosial-iqtisadi inkişafına öz təsirini göstərdi. 1970-1980-ci illərdə ümummilli lider Heydər Əliyevin Naxçıvana səfərləri, Naxçıvanın sosial-iqtisadi vəziyyəti ilə bağlı məsələlərin müzakirəsi, yerində verilən göstərişlər Naxçıvanın inkişafına müsbət təsir etmişdi. Ulu öndərin təşəbbüsü ilə görülən tədbirlər nəticəsində Naxçıvanın iqtisadi həyatında inkişaf meylləri özünü göstərməyə başladı. 70-80-ci illərdə sənaye Naxçıvan iqtisadiyyatının sürətlə inkişaf edən sahəsinə çevrildi. Araz Su Elektrik Stansiyası, Naxçıvan Alüminium qablar zavodu, Ordubad barama açma fabriki, Ordubad Konserv zavodu, Badamlı Mineral Sular Zavodu, Sirab Mineral Sular zavodu bu dövrün mühüm müəssisələrindən idi. Şahtaxtı Travertin Bloklar Karxanası SSRİ kimi böyük ölkənin tikinti daşı ilə təmin edilməsində mühüm yer tuturdu.

70-80-ci illərdə əhalinin məişət xidməti xeyli yaxşılaşdırılmış, ticarət, kooperasiya, xalq istehlakı mallarının istehsalı, səhiyyə, təhsil və elmin inkişafı sahəsində xeyli irəliləyiş olmuş, Muxtar Respublikanın əhalisi artmış, əhalinin məşğulluq səviyyəsi yüksəlmişdi.

Dördüncü fəsildə 1988-1990-cı illərdə Naxçıvanın ictimai-siyasi və sosial-iqtisadi həyatı araşdırılmışdır. Bu fəsildə 80-ci illərin ortalarından başlayaraq Sovet ölkəsində güclənən sosial-iqtisadi böhran xarakterizə edilmişdir. O dövrdə Sovet dövlətinə ermənipərəst M.S.Qorbaçovun qərəzli siyasəti Azərbaycanın vəziyyətini daha da ağırlaşdırmış, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və Naxçıvanda böhranlı vəziyyət son həddə çatmışdı. SSRİ rəhbərliyinin havadarlığından ruhlanan erməni millətçiləri ərazi iddialarını həyata keçirmək üçün silaha əl atdılar. 1988-1991-ci illərdə Ermənistanda yaşayan azərbaycanlılar deportasiyaya məruz qaldı. Onların bir qismi də Naxçıvana pənah gətirmişdi. Onların yerləşdirilməsi üçün xüsusi komissiyalar yaradılmışdı. Azərbaycanlı əhalinin dədə-baba torpaqlarından qovulması, ermənilərin əsassız iddiaları bütün Azərbaycanda olduğu kimi Naxçıvanda da etiraz dalğası doğurmuşdu. Etirazların qarşısını almaq üçün Naxçıvan VPK silahlı qüvvələrdən belə istifadə etməkdən çəkinmirdi. Dağlıq Qarabağ münaqişəsinin başlanması Azərbaycanla ümumi sərhədi olmayan Naxçıvanın blokada vəziyyətinə düşməsinə səbəb oldu. İqtisadi və ticari əlaqələrin kəsilməsi, müəssisələrin işləməməsi, əhalinin işsiz və müdafiəsiz vəziyyətə düşməsi Naxçıvanda vəziyyəti daha da ağırlaşdırdı. 1989-cu ilin sonunda tarixə "Sərhəd hərəkatı" adı ilə düşmüş hadisələr başlandı. Naxçıvanlılar mərkəzin ikiüzlü, haqsız və ermənipərəst siyasətinə etiraz olaraq Sovet birliyi ilə İran sərhədinə çəkilmiş dirəkləri və tikanlı məftilləri söküb atdılar. Azərbaycanda 1988-ci ildən başlayan milli-azadlıq hərəkatının nəticəsi kimi ortaya çıxan "Sərhəd hərəkatı" Azərbaycan xalqının tarixində mühüm yer tutdu. Sərhədlərin dağıdıldığı 31 Dekabr ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi günü kimi qeyd edilməyə başladı.

1989-cu ildən Naxçıvanın Ermənistanla sərhəd olan kəndləri erməni yaraqlıları tərəfindən güclü atəşə tutulmağa başladı. Naxçıvanın Sədərək, Şada, Buzqov, Günnüt, Şahbulaq və digər kəndlərinə qarşı silahlı hücumlar artdı. Düşmən 1990-cı ilin yanvarında Sədərəyə hücumu gücləndirsə də, Naxçıvanın mərd oğulları bu hücumun qarşısını aldı. 1990-cı ilin əvvəlində Naxçıvanda vəziyyət gərgin olaraq qalırdı. 18-19 yanvar 1990-cı ildə Kərki kəndi sovet ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Naxçıvanın ərazi bütövlüyünün pozulması, Naxçıvana qarşı erməni təcavüzünün artması Naxçıvan əhalisinin haqlı narazılı-

ğına səbəb olurdu. 1990-cı il yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyası Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması məsələsini müzakirə etdi və buna uyğun qərar qəbul etdi.

İstər Azərbaycanda, istərsə də Naxçıvanda baş verən hadisələr Azərbaycan rəhbərliyinin zəif fəaliyyəti ilə bağlı idi. Azərbaycan xalqının yenilməz oğlu Heydər Əliyevin 1990-cı ilin iyulunda Naxçıvana gəlməsi xalq tərəfindən ruh yüksəkliyi ilə qarşılandı. Heydər Əliyev 1990-cı ildə Azərbaycan SSR Ali Sovetinin və Naxçıvan MSSR Ali Sovetinin deputatı seçildi. Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı ildə keçirilən sessiyasına deputatların xahişi ilə Heydər Əliyev rəhbərlik edirdi. Həmin sessiya Naxçıvanın və ümumiyyətlə Azərbaycanın tarixi üçün mühüm əhəmiyyəti olan qərarlar qəbul etdi. Sessiyanın qərarı ilə Naxçıvan MSSR Naxçıvan Muxtar Respublikası adlandırıldı, Naxçıvan MR Ali Soveti Ali Məclis adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edildi. Naxçıvan Respublikasının Ali Məclisi Bakıda baş verən 20 yanvar hadisələrini müzakirə edərək həmin hadisələrə siyasi qiymət verdi və pislədi. Naxçıvan MR Ali Məclisinin qərarlarından narazı qalan Azərbaycan hökuməti Naxçıvanı cəzalandırmaq istəsə də bu baş tutmadı. Heydər Əliyevin Naxçıvan MR-də hakimiyyətə gəlməsi demokratik dəyişikliklərin müvəffəqiyyətlə həyata keçirilməsinə imkan verdi.

Üçüncü cildin beşinci fəslində Naxçıvanın müstəqillik illərindəki (1991-1993) tarixi araşdırılmışdır. Naxçıvan MR Ali Məclisinin 1991-ci ilin sentyabrın 3-də keçirilən sessiyasında Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri seçildi. Bu həm Azərbaycanın, həm Naxçıvanın tarixində əlamətdar hadisə idi. Heydər Əliyev Naxçıvanda hakimiyyətə keçdikdən sonra Naxçıvanın düşdüyü ağır vəziyyətdən çıxarılması yolunda məqsədyönlü işlər görülməyə başlandı. Kənd təsərrüfatı sahəsində kolxoz və sovxozlar ləğv edilərək onların əsasında şəxsi təsərrüfatlar yaradıldı. Kolxoz və sovxozların mal-qarası kənd sakinlərinə satıldı. İqtisadi islahatlar qısa müddətdə öz səmərəsini verdi, əhalinin ərzaq məhsulları ilə təminatı artdı. Heydər Əliyev Naxçıvanda hakimiyyətə keçdikdən sonra Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən müdafiəsi üçün tədbirlər görülməyə başladı. O, dəfələrlə Ermənistan rəhbərliyi ilə Naxçıvanın sərhədindəki vəziyyəti müzakirə etsə də, Ermənistan rəhbərliyi xəyanət yolu tutaraq öz vədlərinə əməl etmirdilər. Erməni təcavüzünün qarşısını almaq üçün Heydər Əliyev dünya ictimaiyyətinə, Türkiyə hökumətinə müraciət etdi. Heydər Əliyevin müraciətlərindən sonra bir çox ölkələrin, o cümlədən Rusiyanın mətbuat işçiləri Naxçıvana gələrək buradakı vəziyyət haqqında məlumat verdilər. Bu Azərbaycana qarşı informasiya blokadasının yarılması yolunda mühüm addım oldu. Ümumiyyətlə, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi 1991-1993-cü illərdə yeritdiyi uzaqgörən və müdrik siyasət Naxçıvanı erməni təcavüzündən xilas etdi.

Heydər Əliyevin Naxçıvanda olduğu müddət ərzində Naxçıvandakı rus qoşunlarının statusu ilə bağlı qanunvericilik aktları hazırlandı, Sədərək və Ordubad sərhəd məntəqələrinin Ermənistan sərhəd dəstəsinə tabe edilməsinin qarşısı alındı və rus qoşunları tədricən Naxçıvan Muxtar Respublikasından çıxarıldı. Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində Türkiyə və İranla iqtisadi-mədəni əlaqələr yaradıldı. 1992-ci il mayın 28-də Sədərək-Dilucu körpüsünün açılması Türkiyə ilə iqtisadi-mədəni əlaqələri daha da genişləndirdi. Heydər Əliyev Qərbi Avropa ölkələri və ABŞ-la əlaqələr yaratmış, BMT, NATO, Avropa Birliyi, ATƏM (indi ATƏT) kimi beynəlxalq qurumların diqqətini Naxçıvanda yaranmış vəziyyətə cəlb edə bilmişdi. Bu tədbirlər sayəsində Naxçıvanın iqtisadi blokadası aradan qaldırıldı, əhalinin sosial-iqtisadi vəziyyəti xeyli yaxşılaşdı. Heydər Əliyevin Naxçıvanda yeritdiyi müs-

təqil və uğurlu siyasət Azərbaycanın o dövrkü rəhbərliyini təmin etmədiyi üçün 1992-ci il oktyabrın 24-də Naxçıvanda xalq cəbhəsinə məxsus silahlı dəstələr vasitəsi ilə dövlət çevrilişinə cəhd edilsə də bu baş tutmadı. Dövlət çevrilişi baş tutmadıqda Naxçıvanın muxtariyyət statusunun ləğv edilməsinə cəhd edildi. Azərbaycan Respublikasının dövlət katibi 1992-ci il noyabrın 2-də Bakı Dövlət Universitetindəki çıxışında Naxçıvanın muxtariyyət statusuna qarşı çıxmışdı. Lakin ulu öndər Heydər Əliyevin diplomatik uzaqgörənliyi sayəsində Naxçıvanın muxtariyyət statusu qorunub saxlandı. Bu ağır günlərdə Azərbaycanın bütün ziyalılarının nəzəri Heydər Əliyevə çevrilmişdi. Onlar 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə müraciət etdilər. Müraciətdə Yeni Azərbaycan Partiyasının yaradılması arzusu öz əksini tapmışdı. Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirildi. Ulu öndər bu partiyanın liderinə çevrildi və 1993-cü il avqustun 15-də Azərbaycanda siyasi hakimiyyətə gəldi. Həmin gün Azərbaycan xalqının tarixinə Milli Qurtuluş günü kimi daxil oldu.

Kitabın VI fəslində Naxçıvanın müstəqilliyinin möhkəmləndirilməsi dövründəki tarixi (1993-2015) öz əksini tapmışdır. Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra muxtar respublikada ictimai-siyasi vəziyyət sabit qalsa da, idarəçilik sahəsində müəyyən boşluqlar yaranmışdı. 1995-ci ildə Azərbaycan və Naxçıvan parlamentlərinə ilk demokratik seçkilər keçirildi. Naxçıvan MR Ali Məclisinin 1995-ci il dekabrın 16-da keçirilən sessiyasında Vasif Yusif oğlu Talıbov Ali Məclisin Sədri vəzifəsinə seçildi. Vasif Talıbovun Naxçıvan MR Ali Məclisinin Sədri seçilməsi Naxçıvan əhalisi tərəfindən rəğbətlə qarşılanmışdı. Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafı, ordu quruculuğu üçün bütün imkanlardan istifadə etməyə çalışmışdı. Bu illər ərzində Heydər Əliyev siyasətinin layiqli davamçısı Vasif Talıbovun məqsədyönlü siyasəti nəticəsində Naxçıvanın sosial-iqtisadi inkişafında, o cümlədən əhalinin məşğulluğunun artırılmasında, tibbi xidmətin yüksəldilməsində, kommunal xidmət sektorunda, sosial infrastrukturun inkişafında xeyli irəliləyişlər olmuş, əhalinin mənzil şəraiti və pul gəlirləri artmışdı. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramının Naxçıvanda uğurla həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasının simasını tamamilə dəyişmiş, Naxçıvan Azərbaycanın əsas sənaye regionlarından birinə çevrilmişdi. Ölkə Prezidenti İlham Əliyev Naxçıvana hər səfərində burada görülən işlərdən razı qaldığını dəfələrlə bildirmişdir. Bu illər ərzində Naxçıvanın bütün yaşayış məntəqələri təbii qazla təmin edilmiş, Naxçıvan elektrik idxal edən ölkədən ixrac edən ölkəyə çevrildi. Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası, Biləv Su Elektrik Stansiyası, Arpaçay Su Elektrik Stansiyası və digər müəssisələr elektroenergetikanın inkişafında mühüm yer tuturdu. 2000-2005-ci illərdə muxtar respublikada 229 yeni təsərrüfat obyekti fəaliyyətə başlamışdı ki, bu da sənaye məhsulu istehsalının üç dəfə artırılmasına zəmin yaratmışdı. Əgər 1996-cı ildə muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 2010-cu ildə bu müəssisələrin sayı 423-ə çatmışdı. 2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə artmışdı. Sənaye müəssisələri arasında Naxçıvan Avtomobil Zavodu, Metallurgiya Zavodu, Dizayn MMC, Gəmiqaya MMC, Alt Trikotaj ASC və digərlərinin fəaliyyəti xüsusilə genişlənmiş, bir çox müəssisələrdə yeni avadanlıqlar quraşdırılmış, yeni texnologiyaların tətbiqi genişlənmişdi. Kənd təsərrüfatına xidmət edən sənaye müəssisələri də yaradılmışdı.

Muxtar respublikanın xarici ölkələrlə siyasi-iqtisadi əlaqələrinin genişlənməsi elm və mədəniyyət sahəsində də əməkdaşlığın artmasına, həmçinin əhalinin sosial vəziyyətinin yaxşılaşmasına zəmin yaratmışdı.

Kitabın VII fəsli müstəqillik illərində təhsil, elm və mədəniyyətin inkişafına həsr olunmuşdur. Ümummilli lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun mədəniyyətin inkişafına göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində təhsilin, elmin, ədəbiyyat, incəsənət və mətbuatın inkişafında xeyli irəliləyişlər olmuşdu. 1990-cı ildən başlayaraq Naxçıvan Muxtar Respublikasının ümumi təhsil sistemində müəyyən dəyişikliklər baş verdi, Naxçıvan Qızlar Liseyi (1992), Zeynəddin kəndində kənd təsərrüfatı təmayüllü məktəb-müəssisə kompleksi (1993), C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı (1998) fəaliyyətə başladı. Bu baxımdan ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı" mühüm əhəmiyyətə malik oldu. Muxtar respublikada təhsilin yenidən qurulması, məktəbəqədər təhsil müəssisələrinin və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün xeyli işlər görüldü ki, bu da təhsilin müasir tələblərə cavab verməsi üçün imkan yaratdı. Elmin inkişafında Naxçıvan Dövlət Universitetinin və 2002-ci ildə ulu öndərin tövsiyəsi ilə təşkil edilən AMEA Naxçıvan Bölməsinin mühüm rolu olmuşdur. Naxçıvanın tarixi, arxeologiyası, ədəbiyyatı, bioresursları və texniki elmlər sahəsində yüzlərlə monoqrafiyalar hazırlanaraq nəşr edildi. Mübaliğə etmədən demək olar ki, müstəqillik illəri Naxçıvan Muxtar Respublikasının siyasi-iqtisadi inkişafında olduğu kimi, mədəniyyətində də yüksək inkişaf diqqəti cəlb edir. Mədəniyyətin inkişafında C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Kukla Teatrı, Naxçıvan, Ordubad, Şərur Xalq Teatrları, Naxçıvan Rəssamlar Birliyi kimi incəsənət müəssisələrinin mühüm rolu olmuşdu. Bu dövrdə Azərbaycanın elm, ədəbiyyat və incəsənətinə yeni töhfələr verən görkəmli elm və mədəniyyət xadimləri yetişmişdi.

Ümumiyyətlə, "Naxçıvan tarixi" çoxcildliyini Azərbaycan tarixşünaslığına və Naxçıvanşünaslığa böyük töhfə hesab etmək olar. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşri tariximizin milli konsepsiya əsasında və obyektiv şəkildə tədqiq edilməsi baxımından böyük əhəmiyyətə malikdir. Çoxcildlikdə ümumiləşdirilən faktiki materiallar Naxçıvan tarixinin öyrənilməsi üçün olduqca önəmlidir. AMEA Naxçıvan Bölməsi əməkdaşlarının, eləcə də muxtar respublika alimlərinin işləyib hazırladığı üç cildlik "Naxçıvan tarixi" kitabı Azərbaycanın mədəni həyatında mühüm hadisədir və bu kitab Dövlət mükafatına layiqdir.

MUSA QULİYEV

NAXÇIVANŞÜNASLIQ ELMİ XƏZİNƏSİNDƏ YENİ, ORİJİNAL BİR MONOQRAFİYA: NAXÇIVAN AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏ



Keçən ilin son günlərində Azərbaycanın elmi ictimaiyyətinə yeni, qiymətli bir monoqrafiya təqdim olundu. Akademik İsmayıl Hacıyevin "Нахчыван в истории государственности Азербайджана" monoqrafiyası rus dilində Rusiyanın elm mərkəzlərindən birində – Sankt-Peterburq şəhərində nəşr edilmişdir.

Giriş, səkkiz fəsil, nəticə, biblioqrafiya, adlar göstəricisi, coğrafi adlar göstəricisi və əlavələrdən ibarət olan monoqrafiyanın elmi redaktorları Sankt-Peterburq Dövlət Universitetinin Yaxın Şərq ölkələrinin tarixi kafedrasının müdiri, tarix elmlər doktoru, professor Dyakov Nikolay Nikolayeviç və həmin universitetin türkologiya kafedrasının müəllimi tarix elmlər namizədi, dosent Fərzəliyev Akif Məmməd oğludur. Kitabın redaktoru, tarix üzrə fəlsəfə doktoru dosent Emin Şıxəliyevdir.

Rəyçilər: AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli və AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı.

Müəllif ilkin olaraq qeyd edir ki, Azərbaycan tarixşünaslığında dövlətin meydana gəlməsi və dövlət məfhumu, əsasən tarixi materialistcəsinə anlayış nəzəriyyəsi əsasında izah edilir. Amma Azərbaycan tarixşünaslığında tariximiz köhnə konsepsiya, yəni bir-birini əvəz edən ictimai-iqtisadi formasiyaların tarixi kimi öyrənilir.

Azərbaycan dövlətçiliyindən bəhs edilərkən tarixi materialistcəsinə anlayışa uyğun gəlməyən məqamlar üzərindən sükutla keçilir. Məsələn, IX-X əsrlərdə meydana gələn dövlətlər feodal dövlətləri kimi tam aydınlaşdırılmır. Belə bir qeyri-ardıcıllıq və Azərbaycan dövlətlərinin zorakılıq və zülm vasitəsi kimi təqdim edilməsi xalqın dövlətçilik ruhunu sarsıdır. Bu və ya digər məsələlərdə tarixi obyektivliyin bərpası üçün Azərbaycan dövlətçiliyinin regional araşdırılmasına böyük ehtiyacı olması müəllifin problemə ciddi yanaşmasından xəbər verir. Öz elmi araşdırmalarında tədqiqatçı alim Naxçıvanın təbii-coğrafi şəraiti Ümumazərbaycan kontekstilə birgə, Yaxın və Orta Şərq kontekstində araşdırılmasına da diqqəti yönəldib. Müəllif qeyd edir ki, belə bir araşdırma Naxçıvanın təbii coğrafiyasının unikallığı və tarixi inkişaf üçün hərtərəfli stimula malik olması da ortaya çıxacaq.

Müəllif elmi araşdırmalarını əsaslandıraraq yazır ki, ilk insanın məskunlaşmasında və inkişafında məhz təbii amillərin vacib yer tutması nəzərə alınarsa Naxçıvanın dövlət yaranma prosesində xüsusi yerə malik olması görünər.

Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasında aşkar edilən arxeoloji abidələr dövlətəqədərki dövrün, eləcə də dövlətyaranma prosesinin bütün mərhələlərini izləməyin mümkünlüyünə diqqəti yönəldən müəllif qədim insanların yaşayış məskənlərinin altı milyon il bundan əvvələ aid olmasını da elmi dəlillərlə təsdiqləyir.

Eradan əvvəl III minilliyin sonlarında Aratta, Lullubi və Kuti tayfa qurumlarının əsasında formalaşmış dövlət qurumlarının süqutundan sonra, yəni II minilliyin sonları-I minilliyin əvvələrində onların yerində şəhər-dövlətlərin yaranmasına diqqət yönəldən müəllif Azərbaycan ərazisində ilk vahid və mərkəzləşdirilmiş dövlət – Mannanın (e.ə. IX-e.ə.VII əsrin

başlanğıcı) onların əsasında formalaşmasını və bu həlledici prosesdə Naxçıvanın rolunu tədqiqatlarında elmi dəlillərlə əsaslandırmışdır.

Naxçıvanın Manna dövründəki siyasi proseslərdə rolundan və əlaqələrindən (e.ə. IX-VI əsrlər) bəhs edən müəllif qeyd edir ki, tarixşünaslıqda Naxçıvanın bu dövr siyasi tarixi kifayət qədər araşdırılmayıb. Bu haqda yazılanlara münasibət bildirən müəllif belə nəticəyə gəlir ki, Naxçıvan həmin dövrdə daha geniş əraziyə malik olmuş, onun şimal hissəsi Etiuninin, cənub hissəsi isə Puluadi ölkəsinə daxil olmuşdur. Naxçıvanın həmin dövrdə statusu məsələsini tədqiqata daxil edən müəllif yazır ki, bu suala həmin dövrə dair Naxçıvanda aşkar edilmiş arxeoloji abidələr cavab verir: "Bu dövrün ən mühüm arxeoloji abidələrindən biri Oğlanqaladır. Oğlanqalanın müdafiə istehkamı, şəhər-dövlət və paytaxt olması haqqında mülahizələr vardır. Hər bir halda siyasi nöqteyi-nəzərdən Naxçıvanın dövlətçilik baxımından mühüm statusa malik olması aydın olur". Müəllifin elmi araşdırmalarında maraqlı məsələlərdən biri də Manna çarlığının Naxçıvanla münasibətləridir. Vaxtı ilə bu münasibətlərə dair yazılanlara münasibət bildirən müəllif yazır ki, Naxçıvanın Manna dövlətinin tərkibinə daxil edilməsi e.ə.VIII əsrin sonları-VII əsrin əvvəllərinə aid oluna bilər, çünki bu dövrdən sonra kimmerlər və skiflərin Azərbaycana yürüşləri başlayır. Müəllif maraqlı bir ehtimal da bildirir: Mannanın tərkibində olduğu dövrdə Naxçıvan əvvəllərdəki kimi şəhər-dövlət statusunu saxlayıb.

Tariximiz üçün vacib olan məsələləri dərindən araşdıran müəllifin sonda elmi nəticələri aşağıdakılardır:

1) Naxçıvanın ərazisi ilk vaxtlar yalnız cənubdan, Urartu və Assuriya vasitəsi ilə hücumlara məruz qalırdısa, skiflərin hücumu ilə şimaldan təhlükə artdı və Naxçıvanın Skif çarlığı ərazisinə daxil edilməsi ilə Azərbaycanın şimal torpaqları ilə əlaqələri genişləndi.

2) Nəzərdən keçirilən dövrdə Naxçıvanın Azərbaycanın cənub torpaqları ilə əlaqələri barəsində bəhs olunduğu halda (S.Qaşqayın məqalələri), onun şimal torpaqları ilə əlaqələrinin araşdırılması zərurətini irəli sürür.

Monoqrafiyada Naxçıvanın Midiya və Əhəmənilər imperiyaları dövründə və Makedoniyalı İsgəndərin imperiyası ilə əlaqələri də (e.ə.VII-e.ə.IV əsrin 20-ci illəri) ətraflı tədqiq edilmişdir. Mövcud faktlardan və onlara dair mühakimələrdən istifadə edən tədqiqatçı belə nəticəyə gəlir ki, Naxçıvan Əhəmənilərin son dövründə müstəqil olmaq uğrunda mübarizə aparmışdır. Makedoniyalı İsgəndərin imperiyası ilə Naxçıvanın əlaqələri olmuşdur.

Makedoniyalı İsgəndərin ölümündən sonra dünya tarixində ellinizm adlanan dövr başlayır. Ellinizm xronoloji cəhətdən eranın 30-cu illərinədək davam edir. Müəllif Naxçıvanın Atropetana dövrü tarixinin həm də ellinizm kontekstində nəzərdən keçirərək, onun ellin dövrü dövlətləri sistemində mövqeyi kimi vacib bir problemi də həll etmişdir. Bu istiqamətdə apardığı ciddi araşdırmalarda müəllif belə nəticəyə gəlmişdir ki, Azərbaycanın dövlətçilik tarixində xüsusi mərhələ olan Atropatena dövlətinin həyatında Naxçıvan mühüm yer tutmuş, onun tarixinin bütün dövrlərini özündə əks etdirmiş, bu dövlətə qarşı yadelli hücumların qarşısının alınmasında fəal iştirak etmiş, onun xarici iqtisadi əlaqələrində, mədəniyyətinin inkişafında vacib rola malik olmuşdur.

Monoqrafiyada Naxçıvanın adının ilk dəfə yazılı qaynaqlarda çəkilməsindən bəhs edən müəllif e.ə. I əsrdə və e.ə. II əsrdə Naxçıvanın adını ilk dəfə çəkən müəlliflərin fikirlərini təhlil edərək belə nəticəyə gəlir ki, bu söz Nuhla bağlı olub, "Nuh tayfalarının yurdu" mənasındadır. Şəhərin adının bölgəyə şamil edilməsini isə Naxçıvanın tarixi-coğrafiyası ilə əlaqələndirir.

Müəllif Naxçıvanın Parfiya Arşakilər dövründə (I-III əsrlər) Sünik vilayətinin mərkəzi

olduğunu, siyasi hadisələrdə fəal iştirak etməsində və Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsində ciddi rolunu da tədqiqata cəlb etmişdir.

III-VI əsrlərdə Naxçıvanın Azərbaycan dövlətçiliyi tarixində rolunun daha da gücləndiyini qeyd edən akademik İsmayıl Hacıyev Naxçıvan tarixinin bu dövrə aid faktlarının Naxçıvanın erməni dövlətçiliyi ilə əlaqələndirilməsini qəti şəkildə əsassız hesab edir. Tarixi ardıcıllıqla, əsas mənbələrə əsasən bu məsələyə haqlı münasibətini bildirir.

Müəllif qeyd edir ki, Albaniyada Mehranilər sülaləsi hakimiyyətə gəldikdən sonra Naxçıvan və Qoxtan (Ordubad) Albaniyaya keçmişdir. Naxçıvanın Albaniyada rolu Azərbaycanda dövlətçiliyin daha da güclənməsinə səbəb olmuşdur. Müəllif ciddi araşdırmalar və təhlillər apararaq belə nəticəyə gəlir ki, Azərbaycan dövlətçiliyin III-VII əsrlərindəki mürəkkəb və ziddiyyətli dövründə Naxçıvanın siyasi rolunun artması və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi uğrunda mübarizə aparan mərkəzlərdən biri olmuşdur.

Elmi araşdırmalarını ardıcıllıqla və əsaslı şəkildə izah edən tədqiqatçı akademik İsmayıl Hacıyev ərəb xilafəti dövründə Azərbaycanda yeni dövlətlərin yaranmasında və möhkəmlənməsində Naxçıvanın siyasi rolundan da ətraflı bəhs edir və göstərir ki, Naxçıvan ərəblərin Azərbaycan torpaqlarında yaratdığı inzibati-idarə sisteminin vacib mərkəzlərindən biri olub. Ərəb xilafətinin zülmünə son qoyulması və dövlətçiliyin bərpası uğrunda mübarizədə Naxçıvan fəal iştirak edirdi. O, qeyd edir ki, Naxçıvanın belə bir ciddi siyasi rolu Babək hərəkatı dövründə (816-837-ci illər) özünü daha aydın göstərir. Müəllifin apardığı kompleks araşdırmalardan məlum olur ki, Naxçıvan da Babək hərəkatının geniş yayıldığı əraziyə daxil olmuşdur. Akademik İsmayıl Hacıyev bu haqda yazır: "Hazırda Naxçıvanda Babəkin adı ilə bağlı olan tarixi abidələr – Babək qalası (Ordubad rayonu, Biləv kəndi yaxınlığında), Babəkin yaşayış yeri (Şərur rayonu, Babək kəndi) və s. abidələr də Naxçıvanın Babək hərəkatında rolunu, Ərəb xilafətinin dağılması ilə Azərbaycan dövlətçiliyinin bərpasında rolunu təsdiq edir".

Ərəb xilafətinin zəifləməsindən sonra Azərbaycanda yaranan ilk dövlət olan Şirvanşahların (861-1538) iqtisadi həyatının güclənməsində Naxçıvanın əlaqələndirici rolundan bəhs edən tədqiqatçı qeyd edir ki, Azərbaycanda Sacilər dövləti (898-941) yarandıqdan sonra Naxçıvan onun tərkibinə daxil edilir.

Naxçıvan Sacilər dövlətinin, Salarilər dövlətinin (941-981/3) və Rəvvadilər dövlətinin (983-1117) hakimiyyətləri dövründə Naxçıvanın mühüm strateji bölgə olaraq siyasi baxımdan aparıcı rola malik olmasını vurğulayan müəllif Naxçıvanşahlıq feodal dövlətini də ətraflı tədqiqata yönəldir. X əsrin 80-ci illəri – 1065-66-cı illərində fəaliyyət göstərən Naxçıvanşahlıqla bağlı ətraflı araşdırma aparan müəllif qeyd edir ki, Naxçıvanşahlıq Salarilər dövlətinin son vaxtlarında meydana gəlmiş və Rəvvadilər dövləti ilə yanaşı fəaliyyət göstərmişdir. Naxçıvanşahlıqla bağlı araşdırmalar aparan tədqiqatçı belə nəticəyə gəlir ki, Naxçıvanşahlığın yaranmasını və fəaliyyətini IX-XI əsrlərə aid etmək elmi cəhətdən daha doğru olar.

Naxçıvanın Səlcuq imperiyasının tərkibinə daxil edildiyini yazan müəllif qeyd edir ki, Böyük Səlcuq İmperiyasının tənəzzülü dövründə bir sıra müstəqil dövlətlər meydana gəlmişdi. Belə dövlətlərdən biri də Azərbaycan Atabəyləri dövləti idi. Azərbaycan tarixində ən güclü, qüdrətli dövlətlərdən biri olan Atabəylər yaxud Eldənizlər dövlətini dərindən və ətraflı, kompleks şəkildə tədqiq edən Akademik İsmayıl Hacıyev Naxçıvan şəhərinin Atabəylər (Eldənizlər) dövlətinin paytaxtı və mərkəzlərindən biri olmasından da bəhs edib.

Müəlllif yazır ki, Atabəylər dövləti süqut edəndən sonra Naxçıvanda dövlətçilik ənənələri davam etdirilib. Monoqrafiyada monqolların hücumları, Hülakülər dövlətinin yaranması,

Naxçıvan tüməni, Əlincəqala və Hürufizmdən də ətraflı bəhs edən müəllif xalqın apardığı azadlıq mübarizəsini də önə çəkir.

XV əsrin əvvəlləri Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutduğunu qeyd edən müəllif Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501) dövlətlərinin yaradılmasında və inkişafında Naxçıvanın xüsusi siyasi rolundan da bəhs etmişdir.

Müəllif qeyd edir ki, Atabəylər dövlətinin süqutu ilə əlaqədar olaraq dövlətçiliyin itirildiyi bir dövrdə Naxçıvan siyasi mərkəz rolunu itirsə də dövlətçiliyin bərpa edilməsində çox mühüm rol oynayıb. Tədqiqatçının apardığı araşdırmalardan məlum olur ki, mərkəzləşdirilmiş Azərbaycan Səfəvilər dövlətinin yaranmasında, müdafiəsində və inkişafında, həmçinin dövlətçiliyin qorunmasında Naxçıvan çox ciddi rol oynamışdır.

Monoqrafiyada Azərbaycanın milli dövlətçiliyi tarixində orijinal yeri olan Naxçıvan xanlığı akademik İsmayıl Hacıyev tərəfindən kompleks şəklində araşdırılıb. Bir çox qaranlıq məsələlərə aydınlıq gətirilib. Naxçıvan xanlığının ərazisi, idarəetmə sistemi, dövlət atributları, ordu quruculuğu və xanlığın siyasi tarixi haqqında ətraflı məlumat verilib. 1828-ci ildə Naxçıvan xanlığının süqutundan sonra ermənilərin İrandan və Türkiyədən Azərbaycan ərazilərinə köçürülməsindən ətraflı bəhs edən müəllif yerli əhalinin narazılığından və çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizəsindən də bəhs etmişdir. Müəllif köçürülən ermənilərin sonradan Naxçıvana qarşı ərazi iddialarından, 1905-1907-ci illərdə Naxçıvanda törətdikləri qırğınlar haqqında tarixi sənədlər əsasında məlumat vermişdir. Monoqrafiyada müəllif Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin əsasını qoymuş müstəqil Azərbaycan dövlətinin tədqiqatını daha dərindən və ətraflı aparıb. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə Naxçıvanın siyasi rolu ayrıca tədqiqat obyekti kimi araşdırılmışdır.

Elmi yaradıcılığında Naxçıvan tarixi məsələləri əsas yer tutan və dərindən araşdıran, öyrənən akademik İsmayıl Hacıyev Azərbaycanın Naxçıvan bölgəsində və onun ətrafındakı ərazilərdə yaradılmış dövlət qurumunun – Araz-Türk Cümhuriyyətindən (1918 noyabr-1919 mart) ətraflı bəhs etmiş və səmərəli tədqiqat aparmış, bir çox mənbələrə aydınlıq gətirmişdir. Bu dövlət qurumuna kimin sədrlik etməsi sualına öz dəyərli araşdırmaları ilə qəti münasibətini bildirmişdir. Müəllif qeyd etmişdir ki, cümhuriyyətin meydana gəlməsi bölgədə ağır tarixi-siyasi şəraitlə sıx bağlı olmuşdur. Müəllif qeyd edir ki, Araz-Türk Cümhuriyyətinin yaradılmasının və qısamüddətli fəaliyyətinin böyük tarixi əhəmiyyəti vardır. Araz-Türk Cümhuriyyəti Şimali Azərbaycan üçün çox ağır və gərgin bir dövrdə Naxçıvan bölgəsi və ətrafının türk-müsəlman əhalisinin erməni işğalçılarına qarşı mübarizəyə səfərbərliyə alınmasında mühüm rol oynamışdır. Naxçıvanın ən böyük siyasi rolu bu ərazilərin erməni daşnaklarının əlinə keçməsinə imkan verməməsi və Azərbaycan Cümhuriyyətinin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Monoqrafiyada Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi Naxçıvanda sovet hökumətinin qurulmasından, Moskva və Qars müqavilələrindən danışan müəllif Naxçıvan Sovet Sosialist Respublikasının (1920-23), Naxçıvan Muxtar Diyarının (1923-1924), Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (1924-1990) yaradılmasından da bəhs edir. Tədqiqatçı qeyd edir ki, Naxçıvan Azərbaycanın dövlətçilik tarixində yeni mərhələnin başlanmasında və dövlətçiliyin möhkəmləndirilməsində fəal iştirak etmişdir.

Azərbaycanın yenidən müstəqilliyini bərpa etmək ərəfəsində Naxçıvana qayıdan ümummilli lider Heydər Əlievin bu sahədəki fəaliyyəti ilə bağlı müəllifin xüsusi tədqiqatı oxucu tərəfindən maraqla qarşılanır. Monoqrafiyada ümummilli lider Heydər Əliyevin Azərbaycanın yenidən müstəqilliyinin bərpa olunmasında göstərdiyi siyasi fəaliyyət ətraflı araşdırılıb. Müəllif

yazır: "Azərbaycanın gələcəyi naminə Naxçıvanın tutduğu mövqe, burada həyata keçirilən demokratik tədbirlər ölkə rəhbərliyi üçün də bir nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Soveti sessiyasının qərarı ilə dövlətin adı "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Cümhuriyyətinin bayrağı Dövlət bayrağı kimi qəbul olundu".

Kitabda həmçinin Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən, onun Naxçıvanın erməni təcavüzündən qorunması, muxtar respublikanın iqtisadi-siyasi böhrandan qurtarılması üçün həyata keçirilən tədbirlərdən danışan müəllif onun dövlət çevrilişinə cəhdin qarşısının alınmasında, Yeni Azərbaycan Partiyasının yaradılmasında və yeni islahatlar aparmasında və s. məsələlərdə qətiyyətli fəaliyyətindən bəhs edir.

Monoqrafiyanı yekunlaşdırarkən müəllif Azərbaycanın 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında Naxçıvanın yeni statusunun təsbit edilməsindən, onun həmin vaxtdan bu günədək müasir Azərbaycan dövlətçiliyindəki rolundan ətraflı şəkildə danışır. Akademik İsmayıl Hacıyev qeyd edir ki, 1995-ci ilin dekabrından Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsindən sonra muxtar respublikanın ictimai-siyasi həyatında baş verən dəyişikliklər, yeni hakimiyyət orqanlarının təşkili, 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının qəbul olunan yeni Konstitusiyası Azərbaycan dövlətçiliyində Naxçıvanın rolu hüquqi-siyasi baxımdan çox yüksək olmuşdur. Monoqrafiyada Naxçıvan Muxtar Respublikasının əsas inkişaf istiqamətlərindən və qazanılan uğurlardan da bəhs edən müəllif yazır: 1995-ci ilin sonlarında Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasının Sədri seçilməsi ilə Naxçıvanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının yeni mərhələsinə qədəm qoymuş, Azərbaycan dövlətçiliyi tarixinə yeni səhifələr yazmışdır".

Müəllif monoqrafiyanı yazarkən Azərbaycan, türk, rus, ingilis dillərində 529 ədəbiyyat və internet materiallarından istifadə etmişdir. Burada, əsərin sonunda coğrafi adlar və şəxsi adlar göstəriciləri də verilib. Əsərin sonunda olan əlavələrdə 16 mart 1921-ci il Moskova müqaviləsinin, 13 oktyabr 1921-ci il Qars müqaviləsinin mətnləri, 12 noyabr 1995-ci il tarixdə referendum yolu ilə qəbul olunan Azərbaycan Respublikası Konstitusiyasının Naxçıvan Muxtar Respublikası haqqında olan VIII fəsli və Naxçıvan Muxtar Respublikasının 1998-ci ildə qəbul olunan Konstitusiyasının mətnləri də verilib. Əlavələrdə müəllifin gərgin axtarışlarının məhsulu olan Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyətinin qanunverici və idarəedici orqanlarının inkişaf tarixini göstərən cədvəllər də verilmişdir.

Akademik İsmayıl Hacıyevin gərgin araşdırmalarının nəticəsi kimi rus dilində nəşr olunan yeni monoqrafiya Naxçıvanın Azərbaycan dövlətçilik tarixində yeri və rolu məsələsinə həsr olunan ilk mükəmməl bir tədqiqat əsəridir. Bu dəyərli elmi tədqiqat əsəri ermənilərin Azərbaycana, xüsusilə onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvana ərazi iddialarının heç bir əsası olmadığını sübuta yetirir.

Əsəri diqqətlə oxuyan oxucu görür ki, Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan tarixi dövlətçilik ənənələrinə malikdir.

Rus dilində nəşr olunmuş yeni monoqrafiya Naxçıvanşünaslıq elmi xəzinəsini zənginləşdirən bir əsər, oxucuların stolüstü kitabıdır. Çünki Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın qədim elm, təhsil və mədəniyyət mərkəzlərindən biri olmaqla, onun Azərbaycan dövlətçiliyi tarixində rolunu, 1995-ci ildən sonra muxtar respublikanın hərtərəfli intibah dövrünü bu qiymətli əsərdən öyrənmək olar.

MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ

1. Jurnalın əsas məqsədi elmi keyfiyyət meyarlarına cavab verən orijinal elmi məqalələrin dərc edilməsindən ibarətdir.
2. Jurnalda başqa nəşrlərə təqdim edilməmiş yeni tədqiqatların nəticələri olan yığcam və mükəmməl redaktə olunmuş elmi məqalələr dərc edilir.
3. Məqalənin həmmüəlliflərinin sayının üç nəfərdən artıq olması arzuolunmazdır.
4. Məqalələrin keyfiyyətinə, orada göstərilən faktların səhihliyinə müəllif birbaşa cavabdehdir.
5. Məqalələr AMEA-nın həqiqi və müxbir üzvləri və ya redaksiya heyətinin üzvlərindən biri tərəfindən təqdim edilməlidir.
6. Məqalələr iki dildə – Azərbaycan və rus dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi və hər xülasədə açar sözlər verilməlidir.
7. Məqalənin mətni jurnalın redaksiyasına fərdi kompüterdə, A4 formatlı ağ kağızda, "12" ölçülü hərflərlə, səhifənin parametrləri yuxarıdan 2 sm, aşağıdan 2 sm; soldan 3 sm, sağdan 1 sm məsafə ilə, sətirdən-sətrə "defislə" keçmədən, sətir aralığı 1,5 interval olmaq şərti ilə rus və Azərbaycan dilində Times New Roman şriftində yazılaraq, 1 nüsxədə çap edilərək, CD-də jurnalın məsul katibinə təqdim edilir. Mətnin daxilində olan şəkil və cədvəllərin parametri soldan və sağdan 3,7 sm olmalıdır.
8. Səhifənin ortasında "12" ölçülü qalın və böyük hərflərlə müəllifin (müəlliflərin) adı və soyadı yazılır.
9. 1 sətir boş buraxılmaqla aşağıda "12" ölçülü böyük hərflərlə məqalənin adı çap edilir. Sonra məqalənin yazıldığı dildə "10" ölçülü hərflərlə, kursivlə xülasə və açar sözlər yazılır. Daha sonra müəllifin işlədiyi təşkilatın adı və e-mail ünvanı, "12" ölçülü kiçik hərflərlə qalın və kursivlə ədəbiyyat siyahısından sonra sağdan yazılır. (məs.: AMEA Naxçıvan Bölməsi; E-mail: tusinesr@gmail.com).
10. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl "12" ölçülü hərflərlə, kodlaşdırma üsulu və əlifba sırası ilə göstərilməlidir. "Ədəbiyyat" sözü səhifənin ortasında qalın və böyük hərflərlə yazılır. Ədəbiyyat siyahısı yazıldığı dildə adi hərflərlə verilir. İstifadə edilən mənbələrin sayı 15-dən çox olmamalıdır. Məs.:
Kitablar: Qasımov V.İ. Qədim abidələr. Bakı: İşıq, 1992, 321 s.
Kitab məqalələri: Həbibbəyli İ.Ə. Naxçıvanda elm və mədəniyyət / Azərbaycan tarixində Naxçıvan, Bakı: Elm, 1996, s. 73-91.
Jurnal məqalələri: Baxşəliyev V.B., Quliyev Ə.A. Gəmiqaya təsvirlərində yazı elementləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2005, № 1, s. 74-79.
11. Məqalənin xülasəsində müəllifin adı və soyadı "12" ölçülü kiçik, qalın hərflərlə; mövzunun adı böyük, qalın hərflərlə; xülasənin özü isə adi hərflərlə yazılır. Xülasə məqalənin məzmununu tam əhatə etməli, əldə olunan nəticələr ətraflı verilməlidir.
12. Məqalədəki istinadlar mətnin içərisində verilməlidir. Məs.: [4, s. 15]
13. Məqalələrin ümumi həcmi, qrafik materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 5-8 səhifədən çox olmamalıdır.
14. Məqaləyə müəlliflər haqqında məlumat (soyadı, adı və atasının adı, iş yeri, vəzifəsi, alimlik dərəcəsi və elmi adı, ünvanı, e-mail adresi, əlaqə telefonu) mütləq əlavə olunmalıdır.
15. Məqalənin məzmununa əsaslanan UOT kodu yuxarı sol tərəfdən mütləq qeyd olunmalıdır.

QEYD: *AMEA Naxçıvan Bölməsinin "Elmi əsərlər" jurnalına təqdim olunan məqalələrin sayının çoxluğunu və "Tusi" nəşriyyatının imkanlarının məhdudluğunu nəzərə alaraq bir nömrədə hər müəllifin yalnız bir məqaləsinin çap edilməsi nəzərdə tutulur.*

INFORMATION FOR AUTHORS

1. The primary purpose of this journal is to publish original scientific papers that meet scientific criteria.
2. The journal publishes compact and perfectly edited scientific papers, which are the results of new research and have not been published in other publications previously.
3. The number of collaborators exceeding three is undesirable.
4. The author is directly responsible for the quality of papers and the accuracy of the facts presented.
5. The papers must be submitted by full members and corresponding members of ANAS or one of the Editorial Board members.
6. The papers can be published in two languages – Azerbaijani and Russian. In addition to the language of a paper, an abstract should be provided in two other languages; keywords should be pointed.
7. A paper text is submitted to the editor-in-chief of the journal along with an electronic copy, it must be printed on a personal computer, on white A4 paper, in Times New Roman font, font size "12", page parameters 2 cm above, 2 cm below, 3 cm on the left, 1 cm on the right, without hyphenation, the interval of 1.5, and in one of the languages mentioned above. Margins for figures and tables inside the text should be 3.7 cm left and right.
8. The name and surname of the author (authors) are indicated in bold and capital letters in the center of the page, font size "12".
9. Below, after one blank line, the title of the paper is indicated in capital letters, font size "12". Then there is abstract including keywords in the language of the paper, font size "10", italics. The organization name, the email address should be written below the references in lowercase letters, font size "12", bold italics (for example, Nakhchivan branch of ANAS; Email: tusinesr@gmail.com).
10. Reference should be made to scientific sources on the subject, the list of references should be given before the abstract, following the encoding rules, in alphabetical order, the font size "12'. The word "references" in the middle of the page is highlighted in bold and in capital letters. References are in lowercase letters in the language in which this edition has been published. The used sources must not be more than 15. Eg.:
Books: Gasymov V.I. Ancient monuments. Baku: Light, 1992, 321 p.
Book papers: Habibbeyli I.A. Science and culture in Nakhchivan / Nakhchivan in the history of Azerbaijan. Baku: Science, 1996, p. 73-91.
Journal papers: Bakhshaliev V.B., Guliev A.A. Writing elements in the drawings of Gemigaya // Proceedings of the Nakhchivan Branch of ANAS, 2005, № 1, p. 74-79.
11. In the abstract, the author's name and surname are indicated in lowercase letters in bold font, size "12"; the title of the paper is capitalized in bold; the abstract itself is in lowercase letters. The abstract should correspond to the full content of the paper; the results should be reported in detail.
12. The links in the paper should be in the text. Eg.: [4, p. 415].
13. The total amount of a paper, including graphic materials, photographs, tables, formulas, references, and reviews, should not exceed 5-8 pages.
14. Authors' data must be specified additionally (last name, first name, patronymic, place of work, position, degree, academic title, address, email address, work, and home phone numbers).
15. A paper's code based on UDC should be indicated on the left.

NOTE: *Considering the large number of papers submitted to the "Scientific works" journal of the Nakhchivan Brunch of ANAS, and the limited capabilities of the "Tusi" Publishing house, it is assumed that only one paper of each author can be published in one issue.*

К СВЕДЕНИЮ АВТОРОВ

1. Основной целью журнала является публикация оригинальных научных статей, соответствующих критериям научного качества.
2. Журнал публикует компактные и в совершенстве отредактированные научные статьи, являющиеся результатами новых исследований и не опубликованные ранее в других изданиях.
3. Желательно, чтобы число соавторов не превышало трех.
4. Автор несет прямую ответственность за качество статей, достоверность представленных в них фактов.
5. Статьи должны быть представлены действительными членами и членами-корреспондентами НАНА или одним из членов Редколлегии.
6. Статьи могут быть представлены на двух языках – азербайджанском и русском. Резюме и ключевые слова необходимо представить на двух других языках.
7. Статьи представляют в редакцию журнала в печатном виде, в электронной форме (CD), на бумаге формата А4, шрифт Times New Roman, кегль шрифта 12 пт, параметры страницы: верхнее поле – 2 см, нижнее – 2 см левое – 3 см, правое – 1 см, без переносов, межстрочный интервал – 1,5. Поля страниц для рисунков и таблиц внутри текста слева и справа должны быть по 3,7 см.
8. По центру страницы, кеглем 12 пт, жирным шрифтом и заглавными буквами указывается имя и фамилия автора (авторов).
9. После одной пустой строки указывается название статьи заглавными буквами, кегль шрифта 12 пт. Затем приводится аннотация с ключевыми словами на языке статьи (кегль шрифта – 10 пт, курсив). Название организации и адрес электронной почты автора указываются обычными строчными буквами, жирным курсивом, кегль шрифта 12 пт, справа после списка источников (например: Нахчыванское отделение НАНА; E-mail: tusinesr@gmail.com)
10. Следует указать ссылки на научные источники по данному предмету. Список использованной литературы указывается перед резюме, в соответствии с правилами кодировки, в алфавитном порядке, кегль шрифта 12 пт. Слово “Литература” пишется посередине страницы, заглавными буквами и жирным шрифтом. Список литературы приводится строчными буквами на языке публикации приведенного издания, в количестве не более 15. Напр.:
Книги: Гасымов В.И. Древние памятники. Баку: Ишыг, 1992, 321 с.
Книжные статьи: Хабиббейли И.А. Наука и культура в Нахчыване / Нахчыван в итории Азербайджана. Баку: Наука, 1996, с. 73-91.
Журнальные статьи: Бахшалиев В.Б., Гулиев А.А. Элементы письменности в рисунках Гемикая // Известия Нахчыванского отделения НАНА, 2005, № 1, с. 74-79.
11. В резюме имя и фамилия автора указываются строчными буквами жирным шрифтом кеглем 12 пт, название статьи – заглавными буквами жирным шрифтом, само резюме строчными буквами. Резюме должно соответствовать полному содержанию статьи с подробным представлением полученных результатов.
12. Ссылки должны быть представлены в тексте в виде [4, с. 15].
13. Общий объем статьи, включая графические материалы, фотографии, таблицы, формулы, список литературы и отзывы, не должен превышать 5-8 страниц.
14. Обязательно указываются данные об авторах (фамилия, имя, отчество, место работы, должность, ученая степень и звание, адрес, адрес электронной почты, контактный номер).
15. Необходимо указать УДК статьи слева в верхней части.

ПРИМЕЧАНИЕ: *Принимая во внимание большое количество статей, представленных в журнал “Научные труды” Нахчыванского отделения НАНА и ограниченные возможности издательства “Туси”, в одном номере может быть опубликована только одна статья каждого автора.*

AMEA Naxçıvan Bölməsinin elmi nəşri
№ 1 (63)

Baş redaktor – Zülfiyyə Məmmədli
Redaktor – Sara Cəfərova
Korrektor – Yelena Muxtarova
Operatorlar – İlhamə Əliyeva,
– Aynur Təhməzova,
– Taleh Maxsudov

Yığılmağa verilmişdir: 02.02.2021
Çapa imzalanmışdır: 10.03.2021
Kağız formatı: 70 x 108 1/16
17,6 çap vərəqi. 282 səhifə
Sifariş № 152. Tiraj: 150

AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.
Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 35.
E-mail: tusinesr@gmail.com